**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

**YENİ AZƏRBAYCAN PARTİYASI**

**BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ**

***Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunur***

# HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI

**I Beynəlxalq Elmi Konfransın**

**MATERİALLARI**

*Bakı (Azərbaycan), Tbilisi (Gürcüstan), Huçjou (Çin),*
*Yekaterinburq (Rusiya), Moskva (Rusiya), Samara (Rusiya),*
*Ərzurum (Türkiyə), Kayseri (Türkiyə), Roma (İtaliya), Minsk (Belarus),*
*Kiyev (Ukrayna), Belqrad (Serbiya), Auqsburq (Almaniya)*

***9 aprel – 5 may 2018-ci il***

**HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI**.

I Beynəlxalq Elmi Konfrans. *Məruzələrin materialları.* – Bakı: 2018, 602 s.

© ADU, 2018

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

| Yerli üzvlər | Xarici üzvlər |
|---|---|
| K. M. Abdullayev | D. Z. Qotsiridze (Gürcüstan) |
| Ə. C. Əhmədov | A. Fiqus (İtaliya) |
| E. Ə. Nəcəfov | V. A. Kokşarov (Rusiya) |
| Ə. Ə. Abdullayev | M. A. Osadçiy (Rusiya) |
| S. H. Həsənov | İ. A. Krayeva (Rusiya) |
| J. Ə. Qəribova | L. Zhang (Çin) |
| M. K. İmanov | G. E. Kozlovskaya (Rusiya) |
| S. B. Hüseynov | M. Fioruççu (İtaliya) |
| Ç. Ş. Hacıyeva | R. V. Vasko (Ukrayna) |
| M. A. Əliyev | N. P. Baranova (Belarus) |
| A. İ. Rüstəmov | K. Volf (Almaniya) |
| N. T. Sultanova | Ö. Çomaklı (Türkiyə) |
| S. F. Əliyeva | M. Güvən (Türkiyə) |
| R. E. Həsənov | V.Bumbaşiroviç (Serbiya) |
| A. K. Bağırov | |

**BÖLMƏLƏR**

| | |
|---|---|
| Boris Yeltsin adına Ural Federal Universiteti | **Rusiya Federasiyası** |
| A.S.Puşkin adına Dövlət Rus Dili İnstitutu | **Rusiya Federasiyası** |
| Moskva Şəhər Pedaqoji Universitetinin Samara Filialı | **Rusiya Federasiyası** |
| Moskva Dövlət Linqvistik Universiteti | **Rusiya Federasiyası** |
| Augsburg Universiteti | **Almaniya Federativ Respublikası** |
| Huçjou Universiteti | **Çin Xalq Respublikası** |
| İvane Cavaxaşvili adına Tbilisi Dövlət Universiteti | **Gürcüstan Respublikası** |
| Kassino Cənubi Latsio Universiteti və Sülh və Təhlükəsizlik Fondu | **İtaliya Respublikası** |
| Kiyev Milli Linqvistik Universiteti | **Ukrayna Respublikası** |
| Minsk Dövlət Linqvistik Universiteti | **Belarus Respublikası** |
| Belqrad Universiteti | **Serbiya Respublikası** |
| Ərzurum Universiteti | **Türkiyə Respublikası** |
| Ərciyəs Universiteti | **Türkiyə Respublikası** |
| Azərbaycan Dillər Universiteti | **Azərbaycan Respublikası** |

## YEKATERİNBURQ BÖLMƏSİ

**MÖVZU:** **ADR - ŞƏRQDƏ İLK DEMOKRATİK RESPUBLİKADIR**

**MƏKAN:** Rusiyanın Birinci Prezidenti Boris Yeltsin adına Ural Federal Universiteti, *Rusiya Federasiyası, Yekaterinburq şəh., Lenin prospekti, 51 (iclas Vilayət qubernatorunun iqamətgahında, Poçt döng., 21 ünvanında keçirildi)*

**ZAMAN:** 06.04.2018

**MODERATORLAR:** prof. İ. Məmmədzadə (Azərbaycan),
prof. A. Q. Nesterov (Rusiya)

*****

## KİYEV BÖLMƏSİ

**MÖVZU:** **AZƏRBAYCAN-UKRAYNA MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU**

**MƏKAN:** Kiyev Milli Linqvistik Universiteti, *Ukrayna Respublikası, Kiyev şəh., Velyka Vasylkivska küç., 73*

**ZAMAN:** 12.04.2018

**MODERATORLAR:** prof. T. N. Timkova (Ukrayna),
dos. S. H. Həsənov (Azərbaycan)

*****

## ƏRZURUM BÖLMƏSI

**MÖVZU:** **HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI**

**MƏKAN:** Ərzurum Atatürk Universiteti, *Türkiyə Respublikası, Ərzurum ş., Üniversite Mahallesi, Atatürk Üniversitesi Kampüsü.*

**ZAMAN:** 13-14.04.2018

**MODERATORLAR:** akad. S. Məhərrəmov (Azərbaycan),
akad. M. İmanov (Azərbaycan),
prof. C. Qasımov (Azərbaycan),
dos. G. Beşitaşvili (Gürcüstan),
dos. Ə. Abdiyeva (Azərbaycan).

*****

## KAYSERİ BÖLMƏSİ

**MÖVZU:** **MÜASİR AZƏRBAYCAN: SOSİAL, SİYASİ VƏ İQTİSADİ İNKİŞAF**

**MƏKAN:** Ərciyəs Universiteti, *Türkiyə Respublikası, Kayseri ş., Köşk Mahallesi, Talas Blv., 38030.*

**ZAMAN:** 16.04.2018

**MODERATORLAR:** prof. A. Çelenk (Türkiyə)
dos. İ. Kazımbəyli (Azərbaycan)
prof. S. Üçgül (Türkiyə)
dos. S. Əliyeva (Azərbaycan)

*****

## MOSKVA BÖLMƏSİ - 1

**MÖVZU:** **SƏRHƏDLƏRİN FÖVQÜNDƏ: RUSİYA VƏ AZƏRBAYCAN: MƏDƏNİYYƏTLƏRARASI DİALOQ TƏCRÜBƏSİ**

**MƏKAN:** A. S. Puşkin ad. Dövlət Rus dili İnstitutu, *Rusiya Federasiyası, Moskva şəh., Akad. Volqin küç., 6.*

**ZAMAN:** 16.04.2018

**MODERATORLAR:** prof. M. A. Osadçiy (Rusiya),
prof. M. A. Əliyev (Azərbaycan)

*****

## ROMA BÖLMƏSİ

**MÖVZU:** **MULTİKULTURALİZM, SOSİAL TƏHLÜKƏSIZLİK, İMMİQRASİYA, AZADLIQ**

**MƏKAN:** *İtaliya, Roma şəh., Viçenza küç., 26*

**ZAMAN:** 18.04.2018

**MODERATORLAR:** prof. A. Fiqus (İtaliya),
prof. İ. Məmmədzadə (Azərbaycan)

*****

**MOSKVA BÖLMƏSİ - 2**

**MÖVZU:** **DİLLƏRİN VƏ MƏDƏNİYYƏTLƏRİN DİALOQU ÇOXQÜTBLÜ DÜNYADA BİRGƏYAŞAYIŞIN AMİLİ KİMİ**

**MƏKAN:** Moskva Dövlət Linqvistik Universiteti,
*Rusiya Federasiyası, Moskva şəh., Ostojenka küç., 36.*

**ZAMAN:** 18.04.2018

**MODERATORLAR:** dos. İ. A. Hüseynova (Rusiya),
prof. M. A. Əliyev (Azərbaycan)

*****

**SAMARA BÖLMƏSİ**

**MÖVZU:** **ŞƏRQ-QƏRB: XXI ƏSRDƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ**

**MƏKAN:** Moskva Şəhər Pedaqoji Universitetin Samara filialı,
*Rusiya Federasiyası, Samara şəh., Stara Zaqora küç., 76.*

**ZAMAN:** 20.04.2018

**MODERATORLAR:** prof. M. A. Əliyev (Azərbaycan),
prof. G. E. Kozlovskaya (Rusiya)

*****

**TBİLİSİ BÖLMƏSİ**

**MÖVZU:** **AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNİN TƏŞƏKKÜLÜNDƏ HEYDƏR ƏLİYEVIN ROLU**

**MƏKAN:** İ.Cavaxaşvili adına Tbilisi Dövlət Universiteti,
*Gürcüstan Respublikası, Tbilisi şəh. İ. Çavçavadze küç.,№ 1.*

**ZAMAN:** 20-22.04.2018.

**MODERATORLAR:** prof. D. Z. Qotsiridze (Gürcüstan),
dos. A.Yusifzadə (Azərbaycan)

*****

**HUÇJOU BÖLMƏSİ**

**MÖVZU:** **BİR QURŞAQ – BİR YOL: MULTİKULTURALİZMİN ÖYRƏNİLMƏSİ**

**MƏKAN:** Huçjou Universiteti,*Çin Xalq Respublikası, Huçjou şəh., Şərq 2 küç., 759*

**ZAMAN:** 22.04.2018

**MODERATORLAR:** prof. S. Rüstəmova-Tohidi (Azərbaycan),
prof. L. Zhang (Çin)

*****

## MİNSK BÖLMƏSİ

**MÖVZU:** **HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN-BELARUS MÜNASİBƏTLƏRİ**

**MƏKAN:** Minsk Dövlət Linqvistik Universiteti, *Belarus Respublikası, Minsk şəh. Zaxarov küç., 21.*

**ZAMAN:** 23-27. 04.2018

**MODERATORLAR:** prof. M. A.Əliyev (Azərbaycan), prof. N. P. Baranova (Belarus)

*****

## BELQRAD BÖLMƏSİ

**MÖVZU:** **MULTİKULTURALİZMİN AZƏRBAYCAN TƏCRÜBƏSİ**

**MƏKAN:** Belqrad Universiteti*, Serbiya Respublikası, Belqrad şəh, Studentski küç. 1*

**ZAMAN:** 26-29.04.2018

**MODERATORLAR:** akad. K. M. Abdullayev (Azərbaycan), prof. V. Bumbaşireviç (Serbiya)

*****

## AUQSBURQ BÖLMƏSİ

**MÖVZU:** **AZƏRBAYCAN VƏ ALMANİYA MULTİKULTURALİZMİ**

**MƏKAN:** Auqsburq Universiteti, *Almaniya Federativ Respublikası, Auqsburq şəh., Universitätsstraße 2.*

**ZAMAN:** 03.05.2018

**MODERATORLAR:** prof. K. Volf (Almaniya), R. Həsənov (Azərbaycan)

*****

## BAKI BÖLMƏSİ

**MÖVZU:** **HEYDƏR ƏLİYEV SIYASƏTİ: MULTİKULTURALİZM VƏ TOLERANTLIĞIN TƏNTƏNƏSİ**

**MƏKAN:** Azərbaycan Dillər Universiteti,
*Azərbaycan Respublikası, Bakı şəh. R.Behbudov küç., 134.*

**ZAMAN:** 04-05.05.2018.

**MODERATORLAR:** prof .A.Məmmədov (Azərbaycan)
prof. M.A. Əliyev (Azərbaycan),
dos. A. Yusifzadə (Azərbaycan),
prof. N. P. Baranova (Belarus)
dos. S. Əliyeva (Azərbaycan),
prof. L.Zhang (Çin),
prof. R.V.Vasko (Ukrayna)
dos. Ə. Abdiyeva (Azərbaycan),
prof. D. Z. Qotsiridze (Gürcüstan),
prof. N. Mehdiyev (Azərbaycan),
İ. A. Krayeva (Rusiya),
prof. S. Rüstəmova-Tohidi (Azərbaycan),
dos. A. Şahmuradov (Azərbaycan),
prof. A. Fiqus (İtaliya),
R.E. Həsənov (Azərbaycan),
dos. İ. Kunina (Azərbaycan),
PhD G. Amoretti (İtaliya).

**Ağayeva Ziba Bahadır qızı**

*AMEA Fəlsəfə İnstitutu, Azərbaycan*

# TOLERANTLIQ MƏNƏVİ DİRÇƏLİŞİN ƏSASI KİMİ

*Keywords: National leader, state policy, tolerance, national and moral values, multiculturalism*

*Ключевые слова: общенациональный лидер, государственная политика, толерантность, национально-нравственные ценности, мультикультурализм*

Müasir dövrdə dünyada baş verən mürəkkəb və ziddiyyətli proseslər siyasi və sosial münasibətlərdə davamlılığın və sabitliyin əldə olunması məqsədilə yeni nəzəri və praktiki yolların axtarışını gündəmə gətirir. Belə yollardan biri də tolerantlıqdır. Hazırda baş verən beynəlxalq münaqişələr, multikulturalizm siyasətinin realizə olunmasında yaranmış çətinliklər, yaxın Şərqdə baş vermiş müharibələrlə əlaqədar miqrant axınının güclənməsi, milli və dini müxtəlifliyə dözümsüzlük tolerantlığın daha da aktuallaşmasına səbəb olmuşdur. Belə vəziyyət hazırki dövrdə öz ifadəsini dözümsüzlüyün ifrat təzahürlərində (ksenofobiya, etnosentrizm, rasizm, dini ekstrimizm və terrorizm) tapması ilə izah olunur. Bir sıra dövlətlərin siyasi elitası, müxtəlif politoloqları və ictimai xadimləri güclü miqrant axınının qarşısını almaq və öz ölkələrinə buraxmamaq üçün dövlətlərinin qapılarını "yad", "özgə" sosiomədəniyyətlərin daşıyıcılarının üzünə bağlamağı tələb edirlər. Belə çağırışlar "tolerantlığın qürubu" illüziyasını formalaşdırır və tolerantlığı universal dəyər kimi nəzərdən keçirməyi çətinləşdirir.

YUNESKO-nun 16 noyabr, 1995-ci ildə keçirilmiş Baş konferensiyasında təsdiq olunmuş tolerantlığın prinsiplərinin deklarasiyasında, tolerantlıq "siyasi və hüquqi tələbat" kimi müəyyənləşdirilmişdir. Hər bir dövlət müxtəlif modus vivendi ( latın sözü olub həyat tərzi, yaşamaq forması) seçimi - tolerant qarşılıqlı fəaliyyət, mədəniyyətlər arası dialoq və eləcə də tolerant cəmiyyətin formalaşmasında insanların kütləvi iştirakı - qarşısında durur. Siyasi tolerantlıq universal dəyər olduğundan siyasi dialoqda zəmanət və siyasi fəaliyyətdə norma kimi çıxış edə bilir. Siyasi tolerantlıq bu və ya digər mədəniyyətin daşıyıcısı olan insanı, digər dəyər və normativ münasibətlər sisteminə uyğunlaşdırmaqda, bir-birini anlamaqda və qəbul etməkdə, xristian və müsəlmanlara, möminlərə və ateistlərə, müxtəlif azlıqlara və digər subyektlərə bir-birinin mahiyyətini və simvollarını anlamaqda, hörmət C:\Users\Admin\Downloads\byektlərə bir-birinin mahiyyətini və simvollarını anlamaqda, hörmətetməkdə kömək göstərir[2]. Lakin, təəssüflər olsun ki, müasir

dövrdə tolerantlıq daha çox etnik, dini, sosial, mədəni dəyər kimi nəzərdən keçirilir. Bu müasir dövrün probleminə çevrilən və həlli olduqca çətinləşən dini ayrı-seçkiliyin güclənməsi və bəzən dini zəmində qarşıdurmaların güclənməsi ilə izah olunur.

Tarixin gedişatından asılı olmayaraq, milli yaddaşımıza hopmuş, mədəniyyət və mənəviyyatımızı özündə birləşdirən milli-mənəvi dəyərlərimiz mühafizə olunub saxlanıldı və müstəqillik əldə etdiyimiz ilk andan milli kimliyimizi dünyaya tanıtdı. Ümummilli Lider Heydər Əliyevin 14 avqust 2001-ci il tarixli Milli-mənəvi dəyərlər və ənənələrimizlə bağlı bəyanatında xüsusi qətiyyətlə vurğuladığı: «Biz azərbaycanlılar öz tariximizlə, öz milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə də mənsub olmağımızla da fəxr edirik” [3, s.35] sözləri xalqımızın öz kökünə, identikliyinə, öz mili-mənəvi dəyərlərinə, dilinə, dininə qayıdışını sanki bütün dünyaya bəyan edirdi.

Tolerantlıq tarixən Azərbaycan xalqına məxsus bir ənənə olmuşdur. Ulu öndər bu ənənəni dirçəltmiş, zənginləşdirmiş və yaşatmışdır. O, 16 noyabr 1995-ci ildə YUNESKO-nun 50 illiyi münasibətilə təsis edilmiş beynəlxalq tolerantlıq günü münasibəti ilə 16 noyabr 1999-cu ildə ölkədəki dini konfessiyaların başçıları ilə görüşündə tolerantlıq anlayışının geniş məna tutumuna toxunaraq bu məfhumun qısa və lakonik izahını vermişdir: «Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm cəmiyyətdə gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. … O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına, mədəniyyətlərə dözümlük deməkdir. ...Tolerantlıq münaqişələrin, terrorizmin, separatizmin olmamasını tələb edir. Bunlar hamısı tolerantlıq anlayışına daxildir» [4, s.61].Yeri gəlmişkən, Azərbaycanda və ümumilikdə regionda ilk dəfə 16 noyabrın Beynəlxalq tolerantlıq günü kimi qeyd edilməsi, bu əlamətdar gündə ölkəmizdəki dini konfessiyaların başçıları ilə görüş keçirilməsi məhz Ümummilli Liderimizin təşəbbüsü ilə olmuşdur.

Azərbaycan mədəniyyətinin və identikliyinin formalaşmasında islam dininin rolunu xüsusilə qeyd etmək lazımdır. Cəmiyyətimizin islam mədəniyyətinə söykənən min illər ərzində toplanmış təcrübəsi mənəvi - dirçəliş prosesində, xalqımızın öz müqəddəratını təyin etməsi uğrunda apardığı mücadiləsində, tarixi yaddaşımızın möhkəmlənməsində, mədəni - tarixi birliyimizdə əhəmiyyətli rol oynamışdır. Lakin cəmiyyətimizin

xarakterinin formalaşmasında digər dinlərin rolunu da danmaq mümkün deyil. Azərbaycan artıq neçə əsrdir ki, çoxkonfessiyalı dövlətdir. Azərbaycanda millətlərarası, mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərə xələl gətirə biləcək heç bir hadisə baş verməmişdir. Əksinə, hazırki keşməkeşli dövrdə, eyni coğrafi məkanda əmin-amanlıq şəraitində müxtəlif millətlərin öz dinlərini və identikliklərini saxlayaraq yaşaması təcrübəsi başqa dövlətlər üçün bir nümunədir. Azərbaycan xalqı bu gün dünyada aparılan sivilizasiyalararası dialoqun məkanı, tolerantlığın inkişafında sivilizasiyalar üçün örnək kimi çıxış edir. Malik olduğu zəngin mənəvi dəyərlərin dialoq prosesində dünya ölkələrinə daha yaxından tanıtdırılması imkanını ardıcıl reallaşdırılır. Çünkü din və mədəniyyətin yarandığı ünvan Şərq olsa da, dünya mədəniyyəti islam və xristian dəyərlərinin, Şərq və Qərb mədəniyyətinin sintezindən ibarətdir.

Bu gün Prezident İlham Əliyevin yürütdüyü milli mənəvi dəyərlərimizdən bəhrələnən multikulturallıq siyasəti, xalqımızın əsrlərin sınağından keçərək möhkəmlənmiş qədim tolerantlıq ənənələrini yaşatmağa, onu müasir mürəkkəb siyasi proseslərin tələblərinə uyğun yeni çalarlarla zənginləşdirməyə və inkişaf etdirməyə yönəlib. Prezident İlham Əliyevin himayəsi ilə 2013-cü il mayın 29-dan iyunun 1-dək Bakıda “Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq” devizi altında II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundakı çıxışında (30 may) Prezident İlham Əliyevin söylədiyi bu fikir məsələnin mahiyyətinə tam aydınlıq gətirə bilər: “Azərbaycan əsrlər boyu burada yaşayan bütün millətlərin, dinlərin nümayəndələri üçün vətən olmuşdur. Biz fəxr edirik ki, bu gün də müstəqil Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin nümayəndələri, bütün millətlər bir ailə kimi sülh, mehribanlıq, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Bu, bizim böyük sərvətimizdir, böyük üstünlüyümüzdür və hesab edirəm ki, Azərbaycanın inkişafında bu amil də öz rolunu oynamışdır”[5].

Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan coğrafiyasında əsrlərdən üzü bəri instinktiv, hardasa ənənəvi, hardasa kortəbii şəkildə hiss olunan tolerantlıq hazırda siyasi, elmi mahiyyət daşıyır. Tolerantlıq, multikulturalizm, dözümlülük yeni ifadələr olsa da, bunların hər biri Azərbaycanda qədimdən mövcud olub və özgə millətin dininə, dilinə, mədəniyyətinə hörmət kimi başa düşülmüşdür. Azərbaycanda islamın sünni və şiə təriqətinə mənsub nümayəndələrinin bir yerdə namaz qılması dünyanın heç bir ölkəsində görünməmiş bir hadisədir.

Azərbaycanda dini mənsubiyyətinə fərq qoyulmadan bütün tarixi abidələr dövlət tərəfindən eyni diqqət və qayğı ilə qorunur. Dövlət Şamaxıda 1270 il əvvəl tikilmiş məscidi bərpa etməklə yanaşı, Zərdüştlük dininin abidəsi olan Atəşgah məbədini unikal şedevr və milli maddi sərvət kimi qoruyub saxlayır. Azərbaycanda məskunlaşmış 16.000 mindən artıq yəhudi - dağ yəhudiləri, əşkinazı yəhudiləri və gürcü yəhudiləri üç yəhudi icmasında birləşir. Hal-hazırda Azərbaycanda yəhudilərin beş sinaqoqu fəaliyyət göstərir. Müstəqillik dövründə Qədim alban kilsələri dövlət vəsaiti hesabına bərpa olunub, istifadəyə verilmişdir. Hal-hazırda Azərbaycanda qırxa yaxın alban kilsəsi fəaliyyət göstərir. 2008 - ci ilin mart ayından katolik kilsəsi rəsmi şəkildə dindarların üzünə açılmışdır. Azərbaycanda təqribən 120 min rus yaşayır. Onları Rus İcması birləşdirir. Bakıda üç Rus Pravoslav Kilsəsi fəaliyyət göstərir və bu kilsələrə dövlət tərəfindən böyük qayğı göstərilir. Dagıdılmış məscidlərlə yanaşı kilsələrin, sinaqoqların bərpasına, tikintisinə dövlət dəstəyi müasir dünyada nadir mənzərədir. Dövlət səviyyəsində talerantlığın ifadəsini çox nadir yerlərdə görmək olar. Akademik Kamal Abdulla Azərbaycanda dövlətin müxtəlif konfessiyalara bərabər münasibətini, eləcə də müxtəlif konfessiya üzvlərinin bir-birinə tolerant, dostluq münasibətinin əsasında dayanan amilləri belə izah edir: “Azərbaycanda belə bir mühitin olması onunla bağlıdır ki, ölkə başçısı, bütövlükdə dövlət müxtəlif konfessiyalara bərabər siyasi münasibət bəsləyir. Heç birini digərindən fərqləndirmir. Bərabər siyasi münasibət də öz növbəsində konfessiyaların bir-birinə və hər birinin ayrılıqda dövlətə tolerant münasibətini şərtləndirir”[1].

Təəssüflə qeyd etmək lazımdır ki, xalqımızın tolerantlıq keyfiyyətindən sui-istifadə edən, dövlət səviyyəsində etnik təmizləmə və işğalçılıq siyasəti aparan Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir. Bu təcavüzün qurbanları arasında tarixi-dini abidələrimiz, fərqli dini konfessiyaların və müxtəlif xalqların mənsubları da vardır. Azərbaycandakı dini konfessiyaların nümayəndələri Ermənistanın təcavüzkarlıq və etnik təmizləmə siyasətindən əl çəkməsi, qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum olmuş bir milyondan artıq Azərbaycan vətəndaşının öz yurd-yuvasına qayıtması tələbi ilə dəfələrlə beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə müraciət edib. Lakin işğalçı Ermənistan hələ də məkrli planlarından əl çəkmək istəmir. Bununla belə dini konfessiyaların başçıları Azərbaycan xalqının sülh istəyini və dövlət başçısının apardığı

sülhpərvər siyasəti təqdir edərək dəstəkləyir və onun uğurlu, müdrik siyasəti nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarının azad ediləcəyinə əmindir[10].

Xalqımızın etnik, mədəni və dini tolerantlığı bütün dövrlərdə mənəvi dirçəlişimizin tükənməz mənbələrindən biri və inkişafımızın zəruri təbii norması olmuşdur. Azərbaycan tarixində heç vaxt milli-dini zəmində düşmənçilik, münaqişə, ixtilaf, qarşıdurma qeydə alınmamışdır. Min illər ərzində Azərbaycan ərazisində müxtəlif dinlərə, mədəniyyətlərə və həyat tərzinə malik müsəlmanlar, xristianlar və yəhudilər yanaşı yaşamış, qarşılıqlı şəkildə bir-birilərinin həyat tərzini, mədəniyyətlərini zənginləşdirmişlər. Müsəlmanlarin əksəriyyət təşkil etdiyi bir ölkədə məscidlərlə yanaşı kilsə və sinaqoqların mövcudluğu adi haldır. Respublika ərazisində islam ayinləri ilə yanaşı, digər dini konfessiyaların da sərbəst şəkildə öz ayin və mərasimlərini keçirməsini müşahidə etmək olar. Artıq tolerantlığın "Azərbaycan modeli" kimi çox işlədilən bir ifadə yaranıb.

Hazırda müasir qlobal dünyada din problemi xüsusi tərzdə durur. Yalnız ilahiyyatçılar deyil, bu sahədə tədqiqat aparan əksər alimlər hər bir dinin son sosial mahiyyətinin insanların birgə yaşayışı üçün lazım olan mənəvi dəyərlərlə əvvəlcədən təmin etməsi fikrində və iddiasında həmrəydirlər. Onların fikrinə görə mənəviyyat və əxlaqı din yaratmışdır və bunlar dinin tərkib hissəsi, təməli, özəyi olub, ondan ayrılmazdır. Məsələn, fransız alimi S. Moskoviçi "Allahları yaradan maşın" əsərində göstərir ki, "din fərdləri birgə yaşamağa və özlərini cəmiyyət kimi dərk etməyə imkan verir" [7]. Ümumiyyətlə isə bu kontekstdə böyük filosof, mütəfəkkir İ.Kantın "qəti imperativ"nin insana məxsus ilahi təbiəti, mənəvi tələblərə riayət etməyə səsləyən amiranə daxili səsi haqqında tez-tez danışılır [8].

Lakin bu məsələdə daha çox mənəvi nəsihətlərlə dolu, səmavi dinlərin müqəddəs kitablarında olan qədim mətnlərə, ayə və surələrə, hədislərə isnad edilir və Allah ideyasının özü və axirət dünyası ideyasının şəxsiyyətin davranışına və onun mənəvi yetkinliyinə güclü təsir göstərdiyi vurğulanır.

Mənəviyyatın mənşəyi və onun dinlə bağlılığı məsələsinə yazıçı Mel Tompson üç populyar variantda yanaşır: birinci variant, "avtonomluq" yəni, "əgər mənəviyyat istisnasız olaraq ağıla əsaslanırsa və dini ideyalara istinad etmirsə müstəqildir"; ikinci variant, "qeteronomiya" yəni, mənəvi qanunlar xarici mənbələrə əsaslanır (məsələn, mədəniyyətə), mədəni dəyərlər isə dinin təsiri ilə şərtlənir; üçüncü variant, "teonomiya" , yəni mənəviyyatın mənbəyi – Allahdır [9, 6-7].

Bəzi Azərbaycan tədqiqatçıları da dinin insanların mənəvi həyatında oynadığı rolu yüksək qiymətləndirirlər. “Son dövrlərdə mənəvi həyatın müxtəlif aspektlərinə olan marağın artması istər müasir, istərsə də qədim cəmiyyətlərdə mifin və ritualın qədim dövrlərdə əhəmiyyətini və rolunu göstərir.Həqiqətən, din qədim sivilizasiya mədəniyyətlərinin ayrılmaz hissəsi və vacib komponentidir. Məhz miflər və rituallar (ənənələr) dünyada və cəmiyyətdə mövcud olan nizamı, dəyərlər sistemini və davanış normalarını izah edir və sanksiyalaşdırır. Mifologiyanın və dinin müəkkəb simvolik sistemində şifrələnmiş keçmişin böyük irsi, hazırda insanın müasir mədəni nailiyyətlərinin əhəmiyyətli hissəsini təşkil edir” [6;5] fikri ilə razılaşmamaq qeyri-mümkündür. Lakin tarixi faktlar sübut edir ki, mənəviyyat dindən ayrı, müstəqil şəkildə də yaşaya bilib. Tarixdə hələ çoxallahlılıq dövründə inkişaf etmiş və böyük mənəvi nailiyyətlər əldə etmiş xalqlar olmuşdur. Buna ən parlaq nümunə olaraq Qədim Yunanıstanı göstərmək olar. Burda xeyirxahlıq, mərdlik, müdriklik, ədalət bir norma kimi qəbul edilmiş, mənəviyyatın qızıl qaydaları, etika anlayışının mahiyyəti işlənib hazırlanmışdı. Müasir dövrdə də bütün bunlar bəşəriyyətin qiymətli sərvəti olaraq öz əhəmiyyətini saxlayır.

Din - mənəvi dəyərlərin əsas mənbələrindən biridir. Mənəvi dəyərlər yalnız dinlər arası deyil, eyni zamanda müxtəlif xalqların dindaxili ənənələrinə görə də fərqlənir. Hər bir xalqın həyatında inam, mənəviyyat və mədəniyyət bir-biri ilə qırılmaz şəkildə bağlıdır. Bu üzvi vəhdətin pozulması acınacaqlı nəticələrə səbəb ola bilir. İnsan varlığının əsası mənəviyyat üzərində qurulmalıdır. Bu isə din olmadan mümkün deyildir. Çünki din insanlara möhkəm mənəvi əsas verir, yalnız dini ənənələrdə mütləq mənəvi dəyərlər haqqında təsəvvürlər mövcuddur. İnsan nə üçün yaşayır, həyatı hansı dəyərlər üzərində qurulur? Və sair bu kimi suallar istər sekulyar, istərsə də dini dünyagörüşü nümayəndələrinin cavab axtardığı əsas suallardır. Bütövlükdə, din və mənəviyyat mədəniyyətin yaxın və qarşılıqlı bağlılıqda olan sahələridir. Dinin və mənəviyyatın yaxınlığı özünü daha çox onların mənəvi təzahürlərində göstərir. Lakin din cəmiyyətin mənəviyyatına son dərəcə güclü təsir göstərir. İstənilən dində və dini etiqadda çox və ya olduqca çox dərəcədə mənəvi-əxlaqi başlanğıc mövcuddur.

Azərbaycan xalqı üçün milli-mənəvi dəyərlər sistemində ilk növbədə İslamın, milli mədəniyyətin və milli mentalitetin başlıca mövqe tutduğunu xüsusilə qeyd etmək lazımdır. İslami dəyərlər sırasında ilk növədə iman, ailə, şəxsi və ictimai əxlaq, ədalət,

sülh, azadlıq, sədaqət, vətənpərvərlik və həmrəylik xüsusi yer tutur. İslam mədəniyyəti, cəmiyyətimizin milli-mənəvi əsaslarının dirçəlişində, xalqımızın mənəvi inkişafının təmərküzləşməsində, öz müqəddəratının təyin olunması yolunda zəruri addımların atılmasında, tarixi yaddaşımızın, mədəni-tarixi birliyimizin əldə olunmasında müstəsna rol oynamışdır.

Xalqımızın etnik, mədəni və dini tolerantlığı bütün dövrlərdə mənəvi dirçəlişimizin tükənməz mənbələrindən biri və inkişafımızın zəruri təbii norması olmuşdur. Lakin bununla bele yuxarıda da qeyd etdiyimiz kimi əsrlərlə bu torpaqda müxtəlif dinlərə, mədəniyyətlərə və həyat tərzinə malik müsəlmanlar, xristianlar və yəhudilər yanaşı yaşamış, dostluq etmiş, bir-birilərinin xoşbəxtliyinə sevinmiş, dərdlərinə şərik olmuşlar. Cəmiyyətimizin islam mədəniyyətinə söykənən min illər ərzində toplanmış zəngin təcrübəsi mənəvi-dini dirçəliş anlarında, xalqımızın öz müqəddəratını təyin etməsi uğrunda mücadilədə, tarixi yaddaşımızın möhkəmlənməsində, mədəni- tarixi birliyimizdə əhəmiyyətli rol oynamışdır.

Son 200 ildə özünü “inkişaf etmiş”, “sivilizasiyalı” sayan dövlətlər dini təriqətlərinin çoxluğu ilə problemlər yaşasa da, Azərbaycan nəinki millətlərin və xalqların dostcasına yaşadığı bir ölkəyə, eyni zamanda sürgün olunmuş, deportasiya olunmuş xalqların nümayəndələri üçün vətənə çevrilmişdir. Son dövrlərin ictimai- siyasi hadisələrinin taleyinin dərin mədəni- fəlsəfi mahiyyəti azərbaycanlıların dünyagörüşünün və düşüncə tərzinin sadəliyini bir daha sübut etdi. Burda ən faciəvi olan isə son dövrlərin hadisələrində subyektiv cəhətdən təmiz, təmənnasız, fədakar azərbaycanlıların olduqca hiyləgər, maddi dəyərləri həyatda hər şeydən üstün tutun, obrazlı ifadə ilə desək soyğunçularla mənəvi qohumluq nümayiş etdirən və kökləri mənəvi cəhətdən çürük olan bir millətin qarşısında aciz qalaraq, torpaqlarının 20%-ə qədərini itirdiyini göstərmək olar.

Hazırda dini - mənəvi dəyərlər Şərqi və Qərbi, Şimalı və Cənubu birləşdirmişdir. Bu bir faktdır ki, hazırda Qərb Şərqi qlobal məkanın mənimsənilməsində, hətta mənəviyyat məsələsində də ötüb keçmişdir. Qərb modelinin dəyərləri Şərqdə yaşayan insanların əksəriyyəti tərəfindən qəbul edilmişdir. Məsələ Avropa marifçilik humanizminin universallığında, insanpərvəliyindədir. Bunu nəzərə alaraq qlobalizmə alternativ şəkildə Şərq-Qərb sivilizasiyalarının təcrübələrinin yeni qlobal reallıqları nəzərə almaqla sintezləşdirmək mümkündür.

Mənəvilik istisnasız olaraq bütün insanlara xasdır. Adı həyatda mənəviyyat insanın məqsədi kimi deyil, onun istədiyi məqsədə çatmaq yolunda istifadə etdiyi vasitə və üsullarda ən çox borc hissi və vicdan kimi biruzə çıxır. İnsan fəaliyyətindəki praktiki işin qiyməti (əhəmiyyəti) artdıqca vicdanın səsi və borcun yerinə yetirilməsi hissində mənəvilik daha parlaq və tam formalarda üzə çıxır. Məsələn, şəhid sözü islam dini ilə bağlı bir ifadədir. Lakin Şəhidlər xiyabanında ermənilərin əsassız torpaq iddiası ilə bağlı Azərbaycana qarşı müharibəsində Qarabağ uğrunda müharibədə şəhidlik zirvəsinə yüksəlmiş azərbaycan türkləri ilə yanaşı yəhudi, (xristianlar) ləzgi, talış, avar və digər xalqların nümayəndələri uyuyur. Bu vətənpərvərlik əxlaqıdır, yüksək mənəviyyat mücəssiməsidir, vicdanın səsidir, tolerantlıq nümunəsidir.

**Ədəbiyyat**


1.Abdullayev K. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. https://www.google.az/

2. Декларация принципов терпимости. http://www.un.org/ru/documents/decl_conv/declarations/toleranc.shtml

3. Əliyev Heydər. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir, Bakı, Əbilov, Zeynalov və oğulları nəşr., 1999, 165s.

4.Əliyev Heydər. Müstəqilliyimiz əbədidir.23-cü kitab, noyabr, 1999-dekabr, 1999. Bakı, Azərnəşr,2008,480s.

5.Prezident İlham Əliyevin II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundakı çıxışı.30 may, 2013. http://president.az/articles/1845

6. Мовсумова Л. Д. Женское начало в истории человека. Баку: Элм, 2011

7. Московичи С. Машина, творящая богов. Москва: 1998, 389с.

8. Соловьев Э.Ю. Категоричекий императив нравственности и права. М.: Прогресс-Традиция, 2005,416с.

9. Томпсон М. Философия религии. Москва: 2001,384с.

10. http://www.scwra.gov.az/



**Агаева З.**


**Резюме**

**Толерантность как основа духовного возрождения**


Работа посвящена философскому осмыслению политики мультикультурализма и толерантности в Азербайджане. Показано, что

толерантность является визитной карточкой, образом жизни и источником силы азербайджанского народа. Особое внимание обращается на толерантность как на идеологию, способную предотвратить столкновение цивилизаций. В статье также проанализированы характерные особенности религии, толерантности и нравственности.

**Aghayeva Z.**

**Summary**

**Tolerance as the Basis of Our Spiritual Revival**

The article is devoted to the philosophical understanding of the policy of multiculturalism and tolerance in Azerbaijan. It is shown that tolerance is a visiting card, a way of life and a source of strength of the Azerbaijani people. Particular attention is paid to the tolerance as an ideology which has a capability for prevention of the clash of civilizations. The article also analyzes the characteristic features of religion, tolerance and morality.

**Musayeva Afat**

*Azerbaijan University of Languages, Azerbaijan*

## THE CULTURE OF TOLERANCE IN WESTERN EUROPE, RUSSIA AND AZERBAIJAN

***Key words:*** *culture of tolerance, transformation, inter-ethnic relations*

***Acar sözlər****: tolerantlıq mədəniyyəti, transformasiya, etnoslararası əlaqə*

***Ключевые слова****: культура толерантности, трансформация, межэтнические отношения*

A multi-ethnic and multicultural society is formed as a result of world integration that requires the regulation of relations between its representatives. However, these same processes triggered the reverse trend of anti-globalization, characterized by increased interest in one's own culture, self-determination and ethnic identification. In this case, a collision between large and small cultures is inevitable. In such circumstances, people and society need to develop life values and prioritization. The regulator of interpersonal and social relations can be the concept of tolerance, entrenched in the human mind primarily as a marker of freedom, democracy and civil society.

It is known that tolerance is a historical phenomenon, it arose already at the dawn of human civilization. Tolerance in this regard was an "instrument" for the reproduction of life, traditions and new generations of mankind. At the present time, mankind faced the need to rethink the phenomenon of tolerance. The inhibition of progress, loss of meaning, purpose and orientation of civilizational development, the crisis of spiritual values - are characterizing our modern life appeared as the result of erosion, a critical decrease of tolerance in the depths of public life. The search for an exit from the global crisis brought to life an outburst of global interest in the phenomenon of tolerance. The word "tolerance" becomes a universal category. In science and social practice, it is increasingly asserted as a moral standard, social and moral code, one of the pillars of the culture of mankind as a whole and the most important principle of the culture of peace in particular. Comprehension of the cumulative experience of human creation during the entire existence of civilization is impossible without the factor of tolerance. The analysis of historical practice convinces us that the stability and integrity of the society (individually and worldwide), its ability to respond to the challenges of a conflict, catastrophic nature, move towards progress through overcoming antithetic tendencies (war and peace, disintegration and integration, confrontation and solidarity and etc.) are largely determined by the degree of approval of the culture of tolerance [3, p.28-75].

The entire register of global problems of our time is associated with the need to increase the level of culture of tolerance. Only in the last two decades the number of military conflicts has doubled. There were many new, even more dangerous forms of confrontation - informational, terrorist, inter-civilizational, there are threatening to grow into a third world war. The total scale of globalization accelerates the development of multiculturalism, heterogeneity and the internationalization of modern societies. The demographic revolution is becoming explosive. Traditionalism, community, collectivism give way to individualism, the manifestation of "closed" castes, estates, generations. At the same time, the style and nature of communication between rapidly growing cohorts of society changes, in which 5-6 differently oriented generations coexist and living in different historical-temporal, coordinates, so they hardly understand each other. The parameters of the polyethnic world are dynamically growing. The main reason is the loss of the root, maternal identity, the growth of sectarian ambitions and the growth of doctrinal incompatibility. The scale and rate of migration and displacement of people are

intensively increasing. If the number of refugees in the world before the "Arab Spring" reached 30 million, now their number doubled due to the "awakening" following Asia and the African continent. These processes differ not only in scope, but also in the depth of penetration into the personal life of many people. In emigration, people begin to feel themselves living outside the clearly defined boundaries of their reliable and unique national identity. They break with their "parochial" connections and mix with the majority, conclude interethnic marriages. The level of multiculturalism in the society grows within an increasing number of families and among an increasing number of individuals. And this means that tolerance begins at home, where people often have to establish and restore an interethnic, interreligious and intercultural world with their spouses, their relatives and children, and with themselves, overcoming their alienation and internal discord. The rapid growth of diversity and the complication of the modern world brings out the problem of the interrelationships of people, nations and civilizations to a new level of complexity, requires the increase and strengthening of the cultural layer called tolerance. In the 21 century, tolerance has become one of the moral foundations of the world community.

Conflicts, fraught with destructive wars, that threaten to degenerate into a clash of civilizations, threaten the existence of mankind. Tolerance is the result of the accumulation of the experience of the joint existence on the Earth of a multitude of peoples, countries, cultures, civilizations. Over the New Time the idea of tolerance has slowly but steadily penetrated the consciousness of peoples, becoming an important element of their culture. But only over the past few decades it has become a dominant trend. The culture of tolerance must be carefully cultivated, overcoming the traditions of age-old intolerance, the traditional opposition "we" (good) - "they" (bad). In our time all people on Earth should have the culture of tolerance. In different cultures and regions of the world, our own experience in combating manifestations of intolerance and aggression has been accumulated.

The development of the ideology of tolerance in Europe began in the 16th and 17th centuries in response to the outbreak of war between Christian faiths and accusations of dissidents in witchcraft and heresy. Thus, the French thinker Montaigne questioned the moral of religious persecution and offered substantiated arguments in support of religious tolerance. A significant contribution to the development of the

ideology of tolerance was made by outstanding European philosophers-educators: Locke, Milton, Voltaire and Lessing. It should be noted that in the era of the Enlightenment, tolerance was limited to appeals for religious diversity, that was understood as the tolerance of the dominant religions to religious minorities [1, p. 55-69].

In the second half of the 20th century, Western European countries took an active part in creating a fair, democratic postwar world. The ideology of tolerance has acquired a real legal basis. The principles of tolerance, as the basic human rights and freedoms, are proclaimed and enshrined in international legal instruments, the key of which is the "European Convention for the Protection of Human Rights and Fundamental Freedoms". The Convention establishes inalienable rights and freedoms for everyone, and obliges States to guarantee these rights to everyone who is under their jurisdiction. Finally, one can not ignore the socio-economic aspect of the development of the ideology of tolerance in Western Europe, which is associated with migration processes that began in the post-war period and continue to the present. The rapid economic growth of European countries marked the problem of a shortage of internal labor, caused, among other things, by large human losses during the Second World War. The labor shortage was replenished by Western countries mainly by migrants from Turkey and the former colonial countries of Asia and Africa. Thus, at the present time there is a special socio-political situation, due to the fact that most of the labor migrants in Europe are Muslims. In these conditions, there was a need to develop and implement a policy of preserving and developing cultural diversity, or "multiculturalism", as manifestations of cultural pluralism and cultural differences. In the era of globalization and the erasure of economic boundaries, ethnic and other borders, in the conditions of rapid development of communications, urbanization and integration, humanity needs a new philosophy as a form of universally accepted perception of the world, an open and understanding community.

The development of a culture of tolerance is closely linked to the process of social modernization, which is a fundamental change in social relations. Modernization involves the emergence and development of both advanced technologies and innovative political, cultural, and social mechanisms. The modernization transition rarely runs smoothly and evenly. It affects all social institutions and all members of society. Modernization, taking place in Russia, has its own specifics that determine the nature, limits and content of modernization processes. Among the characteristics of Russian

modernization, there is a special role for the state in its implementation and its wavy character. Over the past decades, the multinational Russian state has gone through a difficult path of transformation from the Soviet society to a modern modernizing society that influences on the interethnic relations and the development of a culture of ethnic tolerance. The turbulent events that followed the collapse of the USSR showed that the path of confrontation, mutual accusations, can not benefit the society. It became clear that the preservation of stability in inter-ethnic relations, tolerance, respect for beliefs, culture, customs, and the language of neighbors are the most important way of promoting people's rapprochement and strengthening of harmony. We can say that the period of the early 1990s. 20th century was a kind of test for the strength of the historically established interethnic tolerance of peoples in Russia.

Since the second half of the 1990s, processes of gradual incorporation of socio-political movements into the stabilizing political life of the country, establishing a constructive dialogue of power, ethnic and confessional movements, and the development of an adequate and reasonably well-conceived national policy have been growing. At this time, in our opinion, a solid foundation was laid for a culture of tolerance, mutual consent and respect for representatives of various ethnic groups, cultures, and faiths. Deep transformations in Russia at the turn of the 20th and 21st centuries, new socio-economic conditions, a change in political regimes, value orientations and rapid changes in science and culture had a tremendous impact on the spiritual life of Russian society and, accordingly, the regional society. The change in the religious policy of the state has created conditions for increasing the number of religious organizations, increasing their role in public life. An analysis of the dynamics of the development of inter-confessional tolerance in the 1990's - 2000's. In the country showed that the vector of its development was aimed at moving away from formal equality of faiths to the development of full-scale and multifaceted links between the leading religions of the country while preserving and securing the legitimate rights of religious minorities.

The culture of tolerance in Azerbaijan has deep historical roots. The features of the historical development of our country, its geographical location, ethnic composition of the population created the conditions for the existence of different religions in this territory. At different times in the country, paganism, Zoroastrianism, Judaism,

Christianity, Islam and many other religious currents spread to one degree or another and mutually influenced each other. In the Republic of Azerbaijan, there are various religious denominations, but the dominant place among them is occupied by the Islamic religion. The history of Christianity in Azerbaijan practically begins with the rise of the Albanian church. In general, this church occupies a special place in the history of the Christian religion. The territory of Caucasian Albania is considered one of the places where the first Christian communities originated. Registration of the Albanian-Udi Christian religious community is a significant event in its nature, content, religious and political significance. Christianity in Azerbaijan is represented by Orthodoxy, Catholicism and Protestantism, as well as by various sectarian communities.

Representatives of various religious faiths have always shown solidarity with the Azerbaijani people, fought for the freedom and well-being of our one homeland. And Shahidlyar Khiyabany (Alley of Martyrs), where Azerbaijan's sons and daughters found eternal rest, including our citizens belonging to different religious confessions that fought for the sake of Azerbaijan's freedom and territorial integrity and sacrificed their own lives on this path, today serves not only as a place vow, but also a symbol of our brotherhood and tolerance.

In order to strengthen the culture of tolerance and tolerance in the country, legislation related to human rights and freedoms, including freedom of conscience and religion, is brought into line with the norms of international law. Today, not only churches and synagogues, but also numerous Christian and Jewish religious schools function freely in Azerbaijan without any obstacles, the Azerbaijani state renders them necessary support within the framework of the law. The Azerbaijani people have always differed, not only in the East, but also in the whole world, and today is characterized by a specific tolerant attitude towards different religions and religious and philosophical currents. According to historically developed progressive traditions, the construction and restoration of houses of worship in various religious denominations in Azerbaijan is carried out with material and moral support from representatives of various religious communities, and donations for these purposes are organized.

Tolerance is a specific quality of the Azerbaijani people. Today, almost all over the world with satisfaction recognize this truth.

The policy of the Republic of Azerbaijan, conducted in the sphere of religion, is built on the principles of freedom of thought, word and conscience, taking into account the different forms of the existence of religion in society. At the same time, the policy of our state in the field of religion is based on the principles and norms of international law, international treaties to which the Republic of Azerbaijan is a party, the Constitution of the country and other normative legal acts. Between religious denominations operating in Azerbaijan, there are historically established tolerant relations based on the principles of mutual respect, cooperation and, if necessary, mutual support.

The Azerbaijani government is carrying out many activities to promote tolerance, multiculturalism, interfaith and intercultural dialogue with the participation of different parties. Over the past ten years, Azerbaijan has become the host country of dozens of international and regional conferences, forums and symposia devoted to these issues. We can say with pride that today in the international arena very often two expressions are used related to the city of Baku: the Baku process on intercultural dialogue and the Baku process to promote tolerance.

A world based on the principles of tolerance is by no means the choice between death and vegetation. It is an attribute of the highly moral life of mankind, kindness, humanity, respect for another person, another country, a different culture. Intolerance to another, the desire to make the world a uniform uniformitarian is the way to regress. Not to think about anything else, to sweep aside another means to give up development, from progress; on the contrary, to correlate oneself with another means to open your own way to the development of new, higher values. In the modern world, tolerance is the highest value, the highest virtue.

**References**

1. Cranston M. John Locke and the Case for Toleration / M. Cranston // John Locke: A Letter Concerning Toleration in Focus. London-N.Y., 1991, p. 55-69.
2. Jeffery J. Mondak Tolerance and Intolerance, 1976 1998 / J. Mondak Jef-fery, S. Sanders Mitchell // American Journal of Political Science. - 2003. - No. 3. -Vol. 47. P. 492-502.
3. Nederman C. Problem of Periodization in the History of Toleration / C. Neder-man, J. Laursen // Storia della Storiografia. 2000. - № 37. - P. 28-75.

4. Triandafyllidou A. Handbook on Tolerance and Cultural Diversity in Europe [Electronic resource]. URL: www.accept-pluralism.eu

Musayeva A.

**Xülasə**

**Qərbi Avropada, Rusiyada və Azərbaycanda tolerantlıq mədəniyyəti**

Ümumdünya inteqrasiyası nəticəsində çoxmillətli və multikultural cəmiyyətlər inkişaf edir. Bu da o cəmiyyətlərin nümayəndələri arasında əlaqələrin tənzimlənməsini tələb edir. Şəxsi və ictimai əlaqələrin tənzimləyicisi tolerantlıq anlayışıdır və bir çox cəhətdən tolerantlıq mədəniyyətini təsdiq edən amildir. Məqalədə Qərbi Avropa ölkələrində, Rusiyada və Azərbaycanda tolerantlıq mədəniyyətinin inkişafı təhlil olunur.

Мусаева А.

**Резюме**

**Культура толерантности в Западной Европе, России и Азербайджане**

В результате всемирной интеграции складывается полиэтническое и мультикультуральное общество, нуждающееся в регуляции отношений между его представителями. Регулятором межличностных и социальных отношений становится понятие толерантности. Оно выступает во многом ещё и показателем уровня культуры толерантности. В докладе рассмотрены развитие культуры толерантности в западноевропейских странах, России и в Азербайджане.

**Orucova Tərlan Əhməd qızı**

*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademyası, Azərbaycan,doktorant*

## MULTİKULTURALİZM ALTERNATİVİ OLMAYAN SİYASƏT KİMİ

**Açar sözlər:** *multikulturalizm, multikultural cəmiyyət, dövlət siyasəti*

**Key words:** *multiculturalism, multicultural society, state policy*

**Ключевые слова:** *мультикультурализм, мультикультурное общество, государственная политика*

Müasir dövrdə plüralizm əksər cəmiyyətlərin əsas xüsusiyyətlərindən biridir. Yaşadığımız bu proses bizləri, mədəni baxımdan homogen millət-dövlət modelindən getdikcə uzaqlaşdıraraq müxtəlifliklərin cəmiyyət həyatında daha çox qəbul olunduğu bir ölçüyə yaxınlaşdırır. Müxtəlifliklərin qəbul olunmasının təbii davamı olaraq fərqli etnik və mədəni ünsürlərin birlikdə yaşadığı bir cəmiyyət quruluşunu formalaşdıran multikulturalizm siyasəti gündəmə gəlir.

Qərb ədəbiyyatında mədəni müxtəlifliyi ifadə etmək üçün başlanğıcda çoxluq ifadə edən latın mənşəli "pluri" anlayışı istifadə edilirdi. Daha sonra kəmiyyətcə çoxluq mənası ilə yanaşı, keyfiyyətcə müxtəliflik və fərqlilik mənalarını da əhatə etdiyinə görə multi sözünün istifadəsi yayılmışdı. Sosial elmlər ədəbiyyatında anlayışın ön plana çıxdığı Amerikada, 1915-ci ildə plurikulturalizm termini istifadə edilərkən, daha sonra multikulturalizm termini istifadə edilməyə başlanmışdır[Anık, 2012a, 78].

Multikulturalizm tarixin hər dövründə mövcud olsa da, bir dünya görüşü və ya ideologiya olaraq yenidir. Termin kimi elmi ədəbiyyata təxminən XX əsrin 60-70-ci illərində daxil olmuşdur.

Multikulturalizm terminini geniş və dar mənalarda işlətmək olar. Sözün geniş mənasında multikulturalizm məhfumu çoxmədəniyyətlilik məfhumunun sinonimi kimi istifadə edilirsə, sözün dar mənasında o, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret siyasəti əks edir[Nəcəfov, 2015, 103]. Ümumiyyətlə, müasir siyasi fəlsəfədə multikulturalizm konsepsiyasına iki müxtəlif yanaşma müəyyən edilmişdir. "Multikulturalizm" termini həm təsviri konsepsiya kimi istifadə olunaraq cəmiyyətdəki mədəni müxtəlifliyi bildirir; həm də mədəni müxtəlifliyi qorumağa yönələn siyasətin bir növü kimi müəyyən edilir[6].

Parexe görə isə multikulturalizm nə sadəcə siyasi bir doktrina, nə də insan və dünya üçün bir fəlsəfi nəzəriyyədir. O yalnız perspektivdir. Multikulturalizmin üç görünüşü vardır: Birincisi, insan, mədəni həyatını və sosial əlaqələrini təşkil edən və ona mədəni olaraq bir kimlik yükləyən bir dünyada böyüyür. Bu, insanın mədəniyyəti tərəfindən müəyyən olunduğu mənasına gəlmir, amma mədəniyyətin dərindən təsir etdiyi mənasını daşıyır. İkincisi, müxtəlif mədəniyyətlər müxtəlif məna sistemlərini təmsil edirlər. Hər

biri insanın gücünü məhdud anladığı üçün insan varlığının yalnız bir hissəsini əhatə edə bilər. Bu da insanın öz mədəniyyəti ilə yaxşı həyat yaşaya bilməyəcəyi anlamına gəlməz. Daha çox heç bir mədəniyyətin dəyərsiz olmadığı mənasına gəlir. Heç bir mədəniyyət mükəmməl deyil və digərləri üzərində özünü təlqin etmə hüququna malik deyil. Üçüncüsü, ibtidai mədəniyyətlərdən başqa, bütün cəmiyyətlər toplu haldadır. Mədəniyyətlər şüurlu ya da şüursuz olaraq digərləri ilə qarşılıqlı təsir şəraitində inkişaf edirlər və mənşələri və strukturları baxımından ən azından qismən çox mədəniyyətlidir [Parekh, 2000, 336-337].

Prof. Etibar Nəcəfov multikultural cəmiyyətin yaranmasına təsir edən 5 faktor müəyyən edir ;

1. Eyni ərazidə uzun illərdən bəri müxtəlif xalqların birgə yaşamaları.

2. Ölkənin coğrafi mövqeyi. Müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu ərazilərdə yerləşən ölkələrin xalqları müxtəlif etnik, irqi, dini, mədəni qrupların nümayəndələri ilə qarşılaşaraq onlarla iqtisadi-ticarət və mədəni əlaqələrini inkişaf etdirmişlər. Bu isə belə ərazilərdə multikultural mühitin formalaşması üçün əlverişli şərait yaratmışdır.

3. Sosial və iqtisadi səbəblərdən iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə xalqların axını. Müasir dövrdə Qərb dövlətlərində müşahidə olunan çoxmədəniyyətliliyin əsas səbəbi iqtisadi miqrasiya hesab olunur.

4. İmperiyalar tərəfindən həyata keçirilən xalqların köçürülməsi siyasəti.

5. Hərbi münaqişələr nəticəsində xalqların yaşadıqları ölkələri tərk edərək başqa ölkələrə köçmələri. Müasir dövrdə bir sıra Yaxın və Orta Şərq ölkələrində (Suriya, İraq, Əfqanıstan) davam edən hərbi münaqişələr burada yaşayan müxtəlif etnik və dini qrupların nümayəndələrinin Avropada sığınacaq axtarmalarına səbəb olmuşdur[Nəcəfov, 2015, 107-108].

Multikultural cəmiyyət mədəni müxtəlifliyə iki şəkildə reaksiya verə bilər. Ya mədəni müxtəlifliyi müsbət qarşılayır, onu anlamaq üçün mərkəzə qoyur və onun öz varlığını davam etdirmək üçün irəli sürdüyü mədəni tələblərə hörmətlə yanaşır, ya da bu icmaları dominant mədəniyyət içində əridərək assimilyasiya edə bilər. Birinci halda multikultural cəmiyyət, ikinci halda isə monokultural cəmiyyət yaradarsız. Hər iki halda da multikultural bir cəmiyyətdə yaşayırsınız, amma bunlardan yalnız biri çox mədəniyyətlidir [Parekh, 2000, 6].

Hər bir cəmiyyətin malik olduğu dəyərin bir başqası ilə müqayisə edilmədən özlüyündə bir dəyər kimi qəbul edilməsi multikulturalizmin ən böyük fəlsəfi dayağıdır.

Etnik-mədəni müxtəlifliyin mövcudluğu əhəmiyyətinə gəldikdə isə, onu qeyd etmək lazımdır ki, cəmiyyətdə etnik-mədəni müxtəlifliyin olması yalnız fərqli perspektivlər vermir, eyni zamanda bizim öz perspektivlərimizi öyrənmək və müzakirə etmək imkanı verir. Etnik-mədəni müxtəliflik fərdə öz xaricində var olan bir dünyanın ən az onun mövcudluğu qədər qanuni olduğunu xatırladır, bu mənada insanın fərqli baxış bucaqları öz dünyagörüşünün natamamlığını öyrənib, öz təcrübələrinin müəyyən dünyagörüşünün məhsulu olduğunu dərk etməsinə kömək edir. Qarşılaşılan problemlər haqqında fərqli perspektivləri olan, fərqli mədəniyyətlərə və dəyərlərə sahib olan başqaları ilə kollektiv bir problemi həll etmə etnik-mədəni müxtəlifliyin başqa bir faydası olaraq qarşımıza çıxır. Müxtəliflik, fərqlilik ilk növbədə fərdin, qrupun özünü fərqləndirə bilməsi üçün vacibdir. Hər kəs sadəcə ağ olsa, o zaman ağın fərqinə varmarsan, ağın bir dəyəri qalmaz. Hər bir mədəniyyət, məhdud olduğundan bir-biri ilə qarşılıqlı əlaqə, dialoq onlar üçün faydalıdır. Dialoq isə yalnız hər mədəniyyətin digərlərini bərabər tərəfdaş kimi qəbul etdiyi halda mümkündür. Etnik–mədəni qrupların bir-birinə, eləcə də titul xalq tərəfindən bu azlıq qruplara münasibətdə tolerantlılıq nümayiş etdirilməsi və onların dəyərlərinə hörmətlə yanaşılması cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin qorunmasında ilk addımlardan biridir.

Cəmiyyətdə mövcud olan müxtəliflik nə qədər böyük və dərindisə, birliyi saxlamaq və müxtəlifliyi davam etdirmək üçün o qədər çox ittifaq və harmoniyaya ehtiyac duyulur: "Zəif bağlara malik bir cəmiyyət, fərqlilikləri bir təhdid olaraq görür; onları xoş qarşılayıb onlarla birlikdə yaşamasını təmin edəcək etimad və istəkdən məhrumdur"[Parekh, 2000: 251].

Multikulturalizm siyasəti meydana gəlməmişdən öncə etnik və mədəni müxtəlifliklərlə üzləşən dövlətlər bu müxtəliflikləri əsasən iki siyasət modeli - assimilyasiya və ya izolyasiya (təcridolma) vasitəsilə tənzimləməyə çalışırdı. Assimilyasiya və izolyasiya modelləri, mədəni "yadlar"a və miqrantlara bərabər münasibət və tolerantlıq yox, əksinə onlara yuxarıdan aşağı baxır və onları ümumi sistemə qoşma məqsədini güdmüşdür. Bu çərçivədə, mədəni "yad" ın özünə məxsus xüsusiyyətlərinin dəyərli olduğu və mərkəzi mədəniyyəti zənginləşdirmə ehtimalları istisna edilir. Hər iki yanaşmada hesab edilir ki, miqrantlar öz istəkləri ilə fərqli

mədəniyyəti və siyasi quruluşu seçiblər və buna görə də özlərinə xas spesifik xüsusiyyətlərini güzəştə getməlidirlər.

Multikulturalizm isə mədəni "yad"lara daha isti yanaşmanı təmsil edir. Bu çərçivədə multikulturalizm siyasətləri, fərqliliklərin sistem içərisində özünəməxsus xüsusiyyətlərinin varlığını qəbul etməklə qalmır, bunun siyasi, hüquqi və sosial bazasını yaratmağa çalışır.

Aydındır ki, ayrı-ayrı təbəqələr və ölkələr multikulturalizm anlayışını bəzən təsviri, bəzən də normativ mənada istifadə edir. Təsviri mənada multikulturalizm bir fakt olaraq mədəni və etnik müxtəlifliyi ifadə edir. Bu mərhələdə müxtəliflik mövzusunda müsbət, ya da mənfi rəy müzakirə obyekti deyil. Daha çox bir ölkədə dəyişən demoqrafik quruluş və bu baxımdan ayrı-ayrı qrupların varlığına diqqət verilir. Multikulturalizm xüsusilə İngilis dilində ümumi və təsviri mənada istifadə edilir. Bu halda multikulturalizm bir dövlət daxilində yaşayan müxtəlif mədəniyyətlərin və ya mədəni qrupların varlığına işarə edir. Başqa ölkələrdə bu termin, etnik və mədəni fərqlilikləri dilə gətirmək üçün istifadə edilir. Bu mənada multikulturalizm keçmişdən fərqli yeni bir vəziyyəti təsvir edir. Halbuki ideologiya və fəlsəfə olaraq multikulturalizm Kanada, Avstraliya və Amerika kimi ölkələrdə mədəni müxtəlifliyin müsbət qarşılanmasını və ucaldılmasını ifadə edir[Vermeulen & Slijper, 2003, 5-8]. Birincidə anlayış, sadəcə "olanı" anlatmaq üçün təsviri, ikincisində isə "olması lazım olan"ı ifadə edən normativ bir məna ehtiva edir. İkinci mənasında multikulturalizm anlayışı ilk dəfə 1971-ci ildə Kanada hökuməti tərəfindən və siyasət formasını ifadə etmək üçün istifadə edilmişdir. Burada multikulturalizm siyasətinin əsasını həmvətənlərin bərabərliyi və mədəni müxtəlifliyin qəbul edilməsi təşkil edir. Anlayış və siyasət kimi multikulturalizmin Kanada, Amerika Birləşmiş Ştatları və Avstraliya kimi ənənəvi olaraq "miqrantları cəlb edən ölkələr" də ortaya çıxmış olması təəcüblənəcək bir vəziyyət deyil. Sözügedən ölkələr köç səbəbiylə çox zəngin etnik, mədəni, dini və s. müxtəliflik nümayiş etdirir. Bu fərqliliyi ortadan qaldıracaq hakim bir mədəniyyət olmadığı kimi, bu istiqamətdəki cəhdlərin ölkəni böyük bir xaosa aparacağı də güman edilir. Bu səbəbdən sözügedən ölkələrdə müxtəliflik bir zənginlik mənbəyi olaraq görülür və "müxtəlifliyin idarə edilməsi" yolu ilə, bu müxtəliflikdən maksimum faydanın təmin edilməsi məqsədi güdülür.

Əslində Kanada hökumətinin multikulturalizmi dövlət siyasəti kimi qəbul etməsi seçim yox, zərurətdən irəli gəlirdi. Çünki mövcud şəraitdə müxtəlifliyi idarə etmək üçün

ən yaxşı siyasət məhz multikulturalizm idi. İlk olaraq multikulturalizmin bir siyasət olaraq mənimsəndiyi Kanadada buna duyulan ehtiyacın Kanadadakı on ştatdan biri olan Kvebeliklilər ilə digər doqquz ştatın rəhbərliyi arasındakı müzakirələrdən doğulduğu deyilə bilər. Doyçevanın bildirdiyi kimi, ölkədə ingilis kanadalıların fransız kanadalılardan daha fəal olmaları üzərinə 1960-cı illərdən etibarən fransız kanadalılar arasında muxtariyyət ritorikaları görülməyə başlamışdır. Bu ifadələr qarşısında Kanada Federal Hökuməti tərəfindən əvvəl, 1969-ci ildə fransızların işə qəbulunu asanlaşdıran bir tətbiq kimi iki dillilik elan edilmişdir. Ancaq ölkə içindəki millətçilik tələbləri bitmədi. Bu tələblərə cavab olaraq federal hökumət 1971-ci ildə multikulturalizm siyasətini həyata keçirmişdir. Bu çoxmədəniyyətlilik siyasətində hədəf, eyni statusda fərdlərdən ibarət yeni bir Kanadalı kimliyini təşviq etmək idi[Doytcheva, 2009: 37-38]. Bu hadisələr də göstərir ki, Kanadadakı multikulturalizm siyasətində əsl məqsəd ölkənin bütövlüyünü qorumaq və ölkə daxilindəki müxtəlif siyasi meyllərin qarşısını almaq idi. Proqramın əsas məqsədi, 1971-ci ildə rəsmi elan edildiyi kimi, təkcə mədəni müxtəlifliyi müdafiə etməyi nəzərdə tutmur, həmçinin azlıqların qarşısına çıxan maneələrin aradan qaldırılmasına kömək edir, mədəniyyətlərarası mübadiləyə təşviq edir və immiqrantların Kanada cəmiyyətinin tam iştirakçısı olmaq üçün Kanadanın rəsmi dillərindən birinin öyrənməsinə dəstək verir.

Multikulturalizm müzakirələrinin mərkəzi nöqtəsini fərqliliklərin bir yerdə var ola biləcəyi ideyası təşkil edir. Bu müzakirələrin Qərbin əsas siyasi dəyərləri ilə uyğunlaşması məsələsi fərqli şəkillərdə qiymətləndirilir. Ortaq keçmişi və mədəni dəyərləri olmayan birliklərin bir yerdə yaşamalarına dair fərqli həll təklifləri ortaya qoyulur. Qərbdəki fərqli etnik, linqvistik, dini və mədəni qruplar, mövcud cəmiyyətlərin bir parçası və siyasi cəmiyyətin bərabər vətəndaşlarıdır. Ancaq bu qruplar, hakim ünsürdən bəzi qrup haqları tələb edirlər. Ölkələr isə yaşamaqda olduqları bu problemi elə həll etməyə çalışırlar ki, öz dəyərləriylə ziddiyyət təşkil etməsin. Bu qrupların siyasi cəmiyyətə necə əlavə olunacağı sualı Qərb cəmiyyətinin qarşısında duran əsas dilemmalardan biridir. Çünki bir tərəfdən bu fərqli qrupların qrup haqlarını qəbul etməmək Qərb siyasi dəyərləri ilə ziddiyyət təşkil edir; digər tərəfdən də bu fərqli qrupların dəyərləri Qərb dəyərləriylə ziddiyyət təşkil edir. Əslində multikultural cəmiyyətə malik bütün dövlətlərə uyğun ola biləcək tək bir ideal həll mümkün deyil. Hər dövlət fərqli həll yolları tapmağa çalışır. Çünki hər bir dövlətdə cəmiyyətin strukturu, xalqların bu müxtəlifliyi qavrama və qəbul etmə səviyyəsi fərqlidir. Amma tarixən

multikultural mühitdə yaşayan xalqlarda prosesin müsbət istiqamətdə getdiyinin şahidi oluruq. Cəmiyyətlərindəki mövcud dini, etnik və mədəni müxtəliflik onların mövqelərinə təsir göstərir. Avropa Sosial Sorğu qurumunun 2002-2003-cü illərdə 20-dən çox Avropa ölkəsində apardığı sorğunun nəticələrinə əsasən məlum olmuşdur ki, müxtəlifliyin çox olduğu cəmiyyətlərdə tolerantlıq səviyyəsi daha yüksəkdir[4].

**Nəticə**

Cəmiyyətdəki etnik müxtəliflikləri idarə etmək üçün indiyə kimi mövcud olan və tətbiq edilən modellərdən - assimilyasiya nəzəriyyələri fərqli mədəni qruplara bərabər hüquqlar tanımır və etnik-mədəni müxtəlifliklərin tənzimlənməsi üçün səmərəsizdir. Eləcə də qloballaşma şəraitində izolyasiya siyasəti doğru seçim deyil. Multikulturalizm etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi assimilyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərlərinin ləğv edilməsinin qarşısını almaqla, bu dəyərləri qorumaqla yanaşı, izolyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə qarşılıqlı təsir etmələri üçün lazımi şərait yaradır və milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiya olmaları üçün əlverişli imkan təklif edir[Nəcəfov, 2015, 109].

Multikulturalizmə görə azlıqların davranışları və ya fərqliliklərinə təzyiq yox, tolerantlıq göstərilməlidir və fərqli mədəniyyətlərin dialoqda ola biləcəyi, konstitusion və hüquqi dəyərlərin müzakirə edilə biləcəyi mədəniyyətlər arası dialoq mühitinin yaradılması çox əhəmiyyətlidir. Əgər fərd özünü aid hiss etdiyi etnik-mədəni qrupun yaşadığı dövlət tərəfindən müsbət bir kimlik kimi tanındığını görsə, özünü o sistemə daha çox aid hiss edəcəkdir. Öz mədəni mövcudluğunun tanındığına inanan qrup üzvləri beləliklə, bütövün bir hissəsi kimi böyük cəmiyyətlə inteqrasiya edə biləcəkdir.

Multikulturalizmin labüd olduğunu göstərmək və fərqli mədəniyyətlərin nə qədər qüvvə istifadə edilirsə edilsin, yox edilə bilməyəcəyinə ən yaxşı nümunə SSRİ-dir. 70 ildən çox tətbiq olunan hər cür mürtəce və hüdudsuz bir homogenləşdirmə siyasətlərinə baxmayaraq, bu təzyiqlər aradan qalxdığı anda fərqli mədəniyyətlərə mənsub qruplar dərhal keçmiş kimliklərinə qayıtdılar və dillərini, dinlərini qısaca öz mədəniyyətlərini yenidən yaşatmağa başladılar.

Multikulturalizmin alternativi yoxdur. Onun alternativi yalnız ksenofobiya, islamofobiya, antisemitizm, irqçilik və ayrı-seçkilik ola bilər. Multikulturalizm yalnız bir

tendensiya deyil, o, eyni zamanda, dünyanı daha təhlükəsiz etməyin yeganə yoludur[Əliyev, 2017].

## Ədəbiyyat


1. Əliyev İlham. IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda çıxışı.
2. 05 may 2017 http://www.president.az/articles/23532
3. Anık Mehmet. Kimlik ve Çokkültürcülük Sosyolojisi, İstanbul: Açılımkitap Yayınevi. 2012
4. Doytcheva, M. *Çokkültürlülük*, (T. Akıncılar Onmuş Çev.), İstanbul: İletişim Yayınları. 2009
5. ESS Round 1: European Social Survey Round 1 Data (2002). Data file edition 6.5. NSD - Norwegian Centre for Research Data, Norway – Data Archive and distributor of ESS data for ESS ERIC.
6. http://www.iep.utm.edu/multicul/
7. Nəcəfov. E. Multikulturalizmin mahiyyətinə dair. // Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N3 (51), 2015, , s.103-112
8. Parekh, B., Rethinking Multiculturalism, Cultural diversity and political theory, Macmillan Press Ltd, Houndmills, Basingstoke, Hampshire RG21 6XS and London 2000.
9. Vermeulen, H. & Slijper, B., Multiculturalisme in Canada, Australie en de Verenigde Staten, Ideologie en beleid 1950-2000, Aksant, Amsterdam 2003.



**Summary**

**Orujova T.**

**MULTICULTURALISM AS A POLICY WITH NO ALTERNATIVE**

The article deals with analysis of the essence of multiculturalism and the importance of the policy of multiculturalism as the most successful model in managing ethnic and cultural diversity.

The conception of multiculturalism is used in wide and narrow meaning of the word. In the wide meaning the conception denotes a society which is characterized by a

variety of many cultures. In the narrow meaning of the word it characterizes a policy of a state toward ethnic, religious, racial and cultural diversity.

The article outlines the factors affecting the formation of multicultural society, as well as the importance of ethnic and cultural diversity.

The author emphasizes the advantage of the policy of multiculturalism compared to the policy of assimilation and isolation for the regulation of ethnic and cultural diversity.

**Оруджева Т.**

**Резюме**

**МУЛЬТИКУЛЬТУРАЛИЗМ КАК ПОЛИТИКА, НЕ ИМЕЮЩАЯ АЛЬТЕРНАТИВЫ**

Доклад посвящен анализу сущности мультикультурализма и важности политики мультикультурализма как наиболее успешной модели управления этническим и культурным многооообразием.

Понятие мультикультурализма используется в широком и узком смысле слова. В широком смысле оно выступает синонимом многокультурности. В узком же смысле указанное понятие характеризует политику государства в отношении существующего в обществе этнического, религиозного, расового и культурного многообразия.

В работе рассматриваются факторы, влияющие на формирование многокультурного общества, а также указывается на необходимрсть регулирования взаимоотношений в сфере этнического и культурного многообразия.

Автор отмечает преимущества политики мультикультурализма по сравнению с политикой  ассимиляции и изоляции в области регулирования этнического и культурного многообразия.

**Həsənova Aybəniz**

*Azərbaycan*

## AZƏRBAYCANDA MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI BAZASINDA CƏMİYYƏT QURUCULUĞU

***Key words:*** *multiculturalism, tolerance, Azerbaijan, moral-cultural values, religious tolerance, intercultural dialog, solidity*

***Ключевые слова:*** *мультикультурализм, толерантность, Азербайджан, нравственно-культурные ценности, религиозная терпимость, межцивилизационный диалог, монолитность*

Geosiyasi əhəmiyyətinə və coğrafi yerləşməsinə görə müasir dünya siyasətinin diqqət mərkəzində olan Cənubi Qafqaz həm tarixən, həm də hazırda xalqların yerdəyişməsinə və miqrasiya proseslərinə daim məruz qalmışdır ki, davamlı xarakter daşıyan bu proseslər regionun demoqrafik mozaikasına ciddi təsir göstərmişdir. Müasir dövrdə politoloqlar Qafqazı "xalqlar muzeyi" adlandırmaqda haqlıdırlar, çünki cəmi 190 min kv.km əraziyə malik olan bu regionda 40-dan çox xalqın, etnos və etnik qrupların nümayəndələri yaşamaqda və fəaliyyət göstərməkdədirlər.

Cənubi Qafqazın demoqrafik mozaikasında türkdilli xalqlar, xüsusilə Azərbaycan türkləri tarixən də, müasir dövrdə də mühüm rol oynamaqdadırlar. Regionun inkişaf tarixinə xronoloji baxımdan diqqət yetirsək burada xəzərlərdən tutmuş albanlara, Eldənizlərdən tutmuş Səfəvilərə və Sovet Azərbaycanına qədər çoxsaylı türk dövlətlərinin adlarına rast gələrik ki, bunların heç birində milli və ya dini zəmində qarşıdurmalar yer almamışdı.

Ümummilli lider Heydər Əliyev xalqımızın keçdiyi tarixi inkişaf yolunu və həllini gözləyən təxirəsalınmaz vəzifələri ümumiləşdirərək deyirdi ki, "hər bir xalqın öz ənənəsi var, öz milli-mənvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərləri anlaya bilmirsə, yaxud onları qəsdən təhrif edirsə, əgər vəziyyət bu dərəcəyə çatırsa ki, hətta Azərbaycanın dini təhqir olunur, onda təbiidir ki, bu bizi narahat etməlidir"[2].

Hazırda dünyada 5000-ə qədər xalq, millət və etnik qrup yaşayır, bu o deməkdir ki, dünyada bir o qədər də etnomədəniyyət, mentalitet, həyat və davranış tərzi, deməli multikultral dəyərlər mövcuddur. Azərbaycan multikulturalizmi yalnız ölkə daxilində deyil, beynəlxalq aləmdə öz səmərəli nəticələri ilə insanlara sülh, əmin-amanlıq, qarşılıqlı hörmət bəxş etməyə yönəldilmişdir ki, bu dəyərlər öz aktuallığını zaman-zaman

saxlamaqdadır. Müasir siyasi leksikonda "multikulturalizm" "çox mədəniyyətlik", bir sıra fərqli mədəniyyətlərin bir araya gəlməsi anlamını əks etdirir [13].

Tolerantlıq isə dini dözümlülük mənasını verir, insan hüquqları və vicdanı dəyərlərlə bağlıdır. Tolerantlıq insan azadlıqları və hüqüqlarının təsdiqi, plüralizm və demokratiya əsasında formalaşır. 1995-ci il noyabrın 16-da YUNESKO-nun Baş Konfransının 28-ci sessiyasında tolerantlıq prinsiplərinə dair qəbul olunmuş bəyannamədə vurğulanırdı ki, "dözümlülük, ilk növbədə insan azadlıqları və universal hüquqların etirafı əsasında formalaşan fəal münasibətdir", bununla yanaşı "dözümlülük, insan hüquqlarına dair beynəlxalq hüquq aktlarında müəyyən olunmuş normaları iddia edən, həqiqətin mütləqləşdirilməsindən və ehkamçılıqdan imtina edən bir anlayışdır" [ Nağıyev A, 2014; Səyyad Aran. Tolerantlıq – dini müxtəliflikdə birgəyaşayışın "qızıl ortası"].

Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Azərbaycançılıq ideologiyasının yaradıcısı, onun elmi-siyasi və nəzəri tərəflərini strateji kurs və dövlət siyasəti səviyyəsinə yüksəldən Ümummilli lider Heydər Əliyev bu siyasətdə milliliyin saxlanması şərti ilə multikultralizm və tolerantlıq ideologiyasına xüsusi dəyər verir və qeyd edirdi ki, "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir... Vicdan və dini etiqad azadlığının bərqərar edildiyi müstəqil Azərbaycan Respublikasında tarixən olduğu kimi bu gün də dünya dinləri qarşılıqlı hörmət və etimad prinsipləri əsasında fəaliyyət göstərir. Dilindən, dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları kimi respublikamızın pravoslav xristianları da müstəqil, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edirlər"[Müstəqilliyimiz əbədidir, XV, 2005, 217]. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində ölkəmizdə 1999-cu ildən etibarən tolerantlıq günü noyabrın 16-da qeyd edilir

Bəşər sivilizasiyasinin ən qədim ocaqlarından biri kimi odlar ölkəsi Azərbaycan özünü dünyaya etnik, dini və irqi müxtəlifliyin tarixi vətəni kimi tanıtmışdır. Tarix boyu miqrasiya proseslərinin getdiyi Azərbaycan torpaqlarında müxtəlif xalqların və dinlərin övladları qaynayıb-qarışmaqla yanaşı öz identikliklərini də qoruyub saxlamış, dilini və

mədəniyyətini inkişaf etdirmişdi ki, bu prosesdə qazanılmış dəyərlər dünya mədəniyyəti xəzinəsinə mühüm töhfə olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Multikulturalizm-Azərbaycanda həyat tərzidir. Doğrudur, bu nisbətən yeni termindir. Bununla belə, yüzilliklər boyu Azərbaycanda multikultural cəmiyyət mövcud olmuşdur. Bunun əyani sübutu xalqlarımız arasında dostluq və həmrəylikdir. Biz bu gün də ona çaılşırıq ki, təşəbbüsümüzlə regionda və dünyada gedən proseslərə pozitiv təsir göstərək" [Azərbaycan Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunun açılışı zamanı çıxışı, 2014].

Sivilizasiyaların qovşağında yerləşən Azərbaycan tarixi boyu tolerantlığın, dini dözümlüyün və mədəniyyətlərarası dialoqun vətəni kimi həmişə dünyaya açıq olmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq hamının hüquq və vəzifələrinə hörmət təmin edilmişdir. Əsas Qanunumuzun dini əqidə azadlığını təmin edən 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı olan digər qanunvericilik aktlarına riayət olunması və bunlara nəzarətin təmin olunması, dini qurumlarla dövlət arasında münasibətləri ciddi şəkildə tənzimləmək üçün müvafiq tədbirlərin görülməsi artıq öz bəhrələrini verməkdədir.

Azərbaycanda dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində müstəqillik bərpa edildikdən sonra keçən illər ərzində dövlət çox mühüm və ciddi addımlar atmış, 1992-ci ildə "Dini etiqad azadlığı haqqında" qanun qəbul edilmiş , 1996 və 1997-ci illərdə müvafiq düzəlişlər edilmişdi. 2001-ci il iyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır [11].

Ümummilli lider Heydər Əliyevin əsaslarını qoyduğu və Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirməkdə olduğu multikultralizm və tolerantlıq siyasəti Azərbaycan cəmiyyətinin monolitliyini qoruyub saxlamışdır. DQDK-nin məlumatına əsasən, respublikamızın ərazisində 783 dini qurum qeydiyyatdan keçmişdi ki, bunlardan 755-i islam, 28-i qeyri-islam (17 - xristian, 8 - yəhudi, 1 - krişna, 2 - bəhai olmaqla) təmayüllü dini qurumlardır. 2017-ci ildə dini təhsil müəssisələrinin (kollec) dövlət qeydiyyatına alınması prosesi başlayandan 10 dini təhsil müəssisəsi dövlət qeydiyyatına alınmışdı. Ölkə ərazisində 2246 məscid mövcuddur, onlardan 136-sı Bakı şəhərində yerləşir. Azərbaycanda 12 kilsə, 7 sinaqoq fəaliyyət göstərir [8].

2007-ci ildə Bakıda Roma Katolik kilsəsinin inşası başa çatdırılmışdır. Hələ 2002-ci ilin mayında Roma katolik kilsəsinin başçısı II İohann Pavel Bakıda səfərə gəlmişdir. Başlanmış dialoqun davamı kimi, 2003-cü ilin aprelində Roma patriarxı II Varfolomey Azərbaycanda rəsmi səfərdə olmuş, dövlət rəsmiləri, din xadimləri, müsəlman, xristian, yəhudi dini icmalarının rəhbərləri ilə danışıqlar aparmışdı [7].

Dünyanın dini liderlərinin 2010-cu il Bakı sammiti, Bakı şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi, "Tolerantlıq ünvanı - Azərbaycan" layihəsi adı altında keçirilən tədbirlər, Azərbaycanın 20 ali məktəbində "Multikulturalizm" fənninin tədrisi, Azərbaycan Prezidentinin "Kitabi-Dədə Qorqud" dastanının alman dilinə tərcüməsinin 200 illiyinin keçirilməsi haqqında, "Renessans" jurnalının nəşri haqqında və 2014-cü il mayın 15-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında sərəncamları, 2011-2013-cü illərdə Bakıda I və II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarının, 2015-ci il noyabrın 16-da Bakıda "Beynəlxalq tolerantliq günü"nün keçirilməsi - bütün bunlar Azərbaycanda sivilizasiyalararası diaqloqun səviyyəsinin göstəricisidir. Zaman etibarı ilə olduqca kiçik bir dövrdə dünyanın 11 ali məktəbində "Azərbaycan multikulturalizmi" fənninin tədrisinə başlanılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2016-cı ilin "Multikulturalizm ili" elan olunması əgər belə demək mümkündürsə tarixi zərurətdən və dünyada yaranmış mövcud reallıqlardan irəli gəlmişdi. Prezident İlham Əliyevin imzaladığı sərəncamda xüsusi olaraq qeyd edilirdi ki, "tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir" [13].

Azərbaycanın dini dözümlük siyasəti sahəsində qazandığı uğurlara baxmayaraq müasir demokratiyanın klassik vətənləri sayılan Avropanın üç böyük ölkəsi – Almaniya, İngiltərə və Fransa miqrasiya proseslərinin təsirinə dözməyərək multikultralizmdən birmənalı şəkildə imtina etmişdir. "Hudson Review" jurnalının müəlliflərindən olan B.Baver multikulturalizmin milli-mənəvi dəyərlərə mənfi təsirindən bəhs edərək yazırdı ki, Avropa ölkələrinin multikulturalizmdən üz döndərməsi xüsusilə, Niderland,

Danimarka, Böyük Britaniya, Norveç, İsveç, Avstriya, Almaniya və Rusiyada özünü aydın şəkildə göstərir [Крах Европейского мультикультурализма, 2013].

Müasir dövrdə Azərbaycanda dini dözümlülüyün, dini müxtəlifliyin, milli və dini tolerantlığın, multikuturalizmin, milli-mənəvi dəyərlərin qorunması, inkişafı və təbliğ edilməsində Heydər Əliyev Fondunun xidmətləri böyükdür. Fondun iqtisadi-siyasi dəstəyi və təşkilatçılığı ilə həyata keçirilən "Azərbaycan Parisin ürəyində" adlı layihə çərçivəsində 2015-ci il sentyabrın 8-də Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda beynəlxalq konfrans keçirilmlş və "Parisin ürəyində Azərbaycan musiqisi" adlı konsert təşkil olunmuşdu [16]. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva dini dözümlülük siyasəti sahəsində respublikamızda qazanılmış uğurlardan bəhs edərək: "tarixən bizdə milli və dini zəmində ayrı-seçkilik və düşmənçilik halları heç vaxt baş qaldırmayıb. İnsanlarımızın əksəriyyətinin müsəlman olmasına baxmayaraq, ölkəmizdə xristian, yəhudi və digər dinlər də təmsil olunub. Azərbaycanda 649 dini icma, o cümlədən 24 qeyri-müsəlman icması fəaliyyət göstərir. Quba rayonunda dünyada dağ yəhudilərinin yığcam yaşadığı yeganə Qırmızı qəsəbə var... Hesab edirəm, ən vacib nailiyyətlərimizdən biri bu gün Azərbaycan cəmiyyətində həmin səviyyədə sosial tolerantlığın mövcud olmasıdır"- demişdi [Əliyeva İ., 2017].

Məlum olduğu kimi, 2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII qlobal forumunun Bakıda keçirilməsi barədə qərarına əsasən 2016-cı il aprelin 25-27-də Bakıda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci qlobal forumu keçirilmişdi. Forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyətləri, çoxsaylı beynəlxalq təşkilatların, dini konfesiya və QHT-lərin nümayəndələri iştirak etmişdilər [VII Qlobal Bakı forumu dünyanın diqqət mərkəzindədir, 2016]. Təkcə bu faktın özü Azərbaycanda multikultural və tolerant mühitin olmasının göstəricisi olub Azərbaycanın dünyaya olan töhfələrindən birini əks etdirir və Ümummilli lider Heydər Əliyevin əsaslarını qoyduğu prosesin uzağagedən nəticələrini əks etdirir.

Ümumiyyətlə, multikulturalizm bu gün Azərbaycanda reallaşmaqda olan demokratik proseslərin, vətəndaş cəmiyyəti quruculuğunun tərkib hissəsi olmaqla bərabər dünya sivilizasiyanın dini dözümlüyün, tolerantlığın və mədəniyyətlərarası dialoqun etalonu kimi təsir göstərmək gücündədir. Müasir Azərbaycan multikulturalizmi dövlətçiliyimizin, milli təhlükəsizliyimizin və monolitliyimizin simvoludur. Bununla

belə, Ümummilli lider islami dəyərlərin əhəmiyyətini, İslam dininin milli inkişafımızda rolunu və yerini yüksək qiymətləndirərək deyirdi ki, "xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına islam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda islam dini vasitəsilə nəsildən-nəsilə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır. Azərbaycanda islam dininə insanların sərbəst etiqad etməsi üçün bütün şərait yaradılmış və bundan sonra da yaradılacaqdır. Güman edirik ki, bizim dinimiz respublikanın bu ağır dövründə vətəndaş həmrəyliyinin, vətəndaş birliyinin yaradılması üçün böyük fəaliyyət göstərəcəkdir" [2].

Müasir dünyanın aparıcı dövlətləri olan bir sıra Qərbi Avropa ölkələrinin multikultralizmdən dövlət siyasəti kimi imtina etdikləri bir şəraitdə Azərbaycan öz nümunəsi ilə bütün dünyaya dini dözümlülüyün və qarışıq mədəniyyətlərin birgəyaşayışının etalonunu təqdim edərək multikultralizmin alternativi olmayan həyat tərzi, proses və dəyərlər olduğunu göstərdi. Azərbaycanda multikultralizmin keçici proses olmadığını və həmişəyaşarlığını dəfələrlə və dönə-dönə qürur hissi ilə qeyd edən Respublika Prezidenti İlham Əliyev bildirmidir: "Multikultralizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir, təəssüf ki, belə fikirlər də var ki, bəzi ölkələrdə multikultralizm iflasa uğrayıb və özünü doğrultmayıb. Əgər bu həqiqətən belədirsə, onda bu ciddi müzakirə mövzusudur. Azərbaycanda isə biz öz siyasətimizlə də, cəmiyyətin durumu ilə də sübut edirik ki, multikultralizm yaşayır. O dərin köklərə malikdir və gələcəkdə bəşəriyyətin inkişafının yeganə yoludur. Dünya ölkələrinin əksəriyyəti multimədəni ölkələrdir. Bu ölkələrdə müxtəlif xalqların və müxtəlif dinlərin nümayəndələri arasında dialoq, dostluq və qardaçlıq münasibətləri gələcək inkişafın əsasıdır"[6].

## Ədəbiyyat


1. Azərbaycan mədəniyyətlərarası dialoq mərkəzinə çevrilib //www. bizimyol.into/ news/32471.html
2. Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı // Azərbaycan qəz., 2001, 14 avqust
3. Azərbaycan Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunun açılışı zamanı çıxışı // Azərbaycan qəz., 2014, 2 oktyabr
4. Azərbaycan Respublikasının Konstitusiyası. B.: Azərbaycan nəşr., 1997, 192 s.

5. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan pravoslav xristianlarına müraciəti / Müstəqilliyimiz əbədidir, XV kitab. B.: 2005
6. Azərbaycanda Pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılması multikultral dəyərlərə verilən diqqət və qayğının nəticəsidir // Respublika qəz., 2017, 29 yanvar
7. Bakıda "Demokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda Beynəlxalq elmi Konfrans öz işinə başlamışdır // Panorama qəz., 2002, 10-11 oktyabr
8. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi// https ://az.wikipedia. org/wiki/Az%C9%99
9. Əliyeva İ. Multikultralizm ili uğurlarla zəngin oldu // Azərbaycan qəz., 2017, 17 yanvar
10. Heydər Əliyev. Mənəviyyat, Mənəvi dəyərlər, Mənəvi tərbiyə. B.: Müəllim nəşr., 2011, 637 s.
11. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" mövzusunda Beynəlxalq Konfrans işə başlamışdır // Azərbaycan qəz., 2007, 3 aprel
12. Multikulturalizm https://az.wikipedia.org/wiki/Multikulturalizm
13. Mədəniyyətlərarası dialoqun təşkilində Azərbaycan nümunəsi//fhn.gov.az/ newspaper/?ture
14. 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // http://www.president.az/articles/17437
15. Nağıyev A. Azərbaycan tolerantlıq və multikultralizm məkanına çevrilib // Azərbaycan qəz., 2014, 6 fevral
16. Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda beynəlxalq konfrans keçirilmişdir // Ekspress qəz., 2015, 8 sentyabr
17. Səyyad Aran. Tolerantlıq – dini müxtəliflikdə birgəyaşayışın "qızıl ortası"http://scwra.gov". az/article/114/;

18. VII Qlobal Bakı forumu dünyanın diqqət mərkəzindədir // Azərbaycan qəz., 2016, 25 aprel
19. Закавказьеhttps://ru.wikipedia.org/wiki/
20. Зейналова С. Баку-город с традициями толерантности и мультикультурализма// "http://www". 1news.az/authors/oped
21. Крах Европейского мультикультурализма // Россия навсегда, 2013, 25 ноября

**Hasanova A.**

**Summary**

**Society building on the basis of multiculturalism and tolerance ideology in Azerbaijan**

Article clarifies the essence and content of state policy on multiculturalism, tolerancy and religious tolerancy in Azerbaijan Republic located in the junction of civilizations, languages and religions in the period of rejection of multicultural values and occurrence of counter-processes in western world, and shows the role of strategic course set up by nationwide leader Heydar Aliyev and proceeded reliably by Ilham Aliyev, the President of Azerbaijan Republic for the protection of our statehood, national security and monolithness in our country.

**Əliyev Mehman Qaraxan oğlu**

*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## NİZAMİNİN "YEDDİ GÖZƏL" POEMASINDA MULTİKULTURAL OVQAT

***Açar sözlər:*** *Nizami, "Yeddi gözəl", multikultural, harmoniya*

*Ключевые слова: Низами, «Семь красавиц», мультикультуральный, гармония*

Multikulturalizm çoxmədəniyyətliliyi, mədəni müxtəliflikləri tənzimləyən ictimai-siyasi və sosial-mədəni bir modeldir. Bu model həm xalqların assimilasiyaya uğramasının qarşısını alır, həm də onları izolasiya olmaqdan qoruyur.

“Multikulturalizm” termini siyasi leksikona 1970-ci ildən daxil olmuşdur. Lakin onun tarixi çox qədimdir. Əgər mövzumuza uyğun olaraq, Azərbaycan multikulturalizminin tarixi haqqında danışsaq, onda xalqımızın mifik təsəvvürlərinə, dini-etnik təlimlərinə, sufi mütəfəkkirlərinin görüşlərinə, İslamdakı tolerantlığa və digər qaynaqlara nəzər yetirməliyik. Bunları isə bir məqalədə vermək qeyri-mümkündür. Ona görə də konkret olaraq dahi Nizaminin yalnız bir əsərində - “Yeddi gözəl” poemasında multikultural ovqata nəzər yetirəcəyik.

Nizami haqqında danışmaq dünyanın özü və dünyadankənar nəsnələr haqqında danışmaq deməkdir. Bəlkə də bu cür demək daha dürüst olardı: Nizami haqqında danışmaq Yer, Göy, Kosmos və bütövlükdə Harmoniya haqqında danışmaq deməkdir. Nizami uca göylərdən göndərilmişlərdən biri idi. Göndərilmişdi ki, Yeri, Göyü, başlıcası, poeziyanı nizama salsın. Modernistlər deyirlər: “Dünya mətndir”, “Mətn-reallığın yeganə mümkün modelidir”. Bu aspektdən yanaşdıqda Nizami dünyanımızı səkkiz əsrdən çoxdur ki, nizama salıb gedib. Lakin biz insanlar bu nizami qoruya bilmədik.

Dahi Nizami hər bir poemasında bəşəriyyətə elə mesajlar göndərir ki, bugünəcən onların sirrinə tam vaqif ola bilməmişik. Heç buna tam vaqif olmaq da imkan xaricindədir. Çünki Nizami özünəqədərki dünya mədəniyyətinin bütün inciləri ilə tanış idi. “Yeddi gözəl”də özü bu barədə yazırdı:

Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim ələ,
Ərəbcə, dəricə, yeri düşərkən,
Buxari, Təbəri əsərlərindən
Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəznədən bir dürr çıxardım. [3, 28]

“Hər bir xəzinədən bir dürr çıxardan” böyük sənətkar özü də dünyaya beş unikal dürr bəxş etdi. Bu dürlərin dördüncüsü “Yeddi gözəl”dir. “Yeddi gözəl” (“Həft peykər” və ya “Yeddi səyyarə”) Nizaminin ən sirli poemasıdır. Burada Yer və Göy müəmmaları fonunda insan həyatının ən mübhəm qatları açılır. Hər bir hekayət bütöv bir insan ömrünü simvollaşdırır. Sonda bir çayın ayrı-ayrı qolları kimi gəlib bir nəhrə tökülürlər.

Əsərdəki oyun və ya teatral elementlərlə məzmun dahiyanə bir şəkildə qovuşub. Şair “Kitabın yazılması səbəbi” fəslində yazır:

Şahlıq dərgahından gizli işarə
Dəyincə gözümə, mən birdən-birə
Döndüm qanadları gərilmiş quşa,
Mülki-Süleymana uçum birbaşa.
İşarə deyirdi: qələmə əl at,
Bayram gecəsindən bir hilal yarat! [4, 26-27]

Dahi Nizami xarakteri baxımından da multikultural və tolerant bir insan idi. Onun üçün insanın hansı irqə, dinə, dilə, təriqətə mənsubluğunun heç bir önəmi yox idi. Başlıcası, o, İnsan aşiqi idi. Elə möhtəşəm bir insan ki, dünyanın hansı bir ucqar nöqtəsindən baxsan, görməli olacaqsan. Ona görə də şairin hər bir poemasını insan haqqında himn də adlandırmaq olar. Akademik Kamal Abdulla Nizaminin öz şəxsi həyatı ilə də nəsillərə nümunə olduğunu önə çəkərək yazır: “Nizami “Yeddi gözəl kimi xalqlar dostluğunu tərənnüm edən bədii şedevr yaratmaqla yanaşı, ona hədiyyə göndərilmiş dili və məzhəbi ayrı olan bir kənizə vurulub evlənməsiylə, şəxsi həyatı ilə də nəsillərə nümunə olurdu” [4, 5]

Məlum həqiqətdir ki, fərdin hansı mühitdə doğulub boya-başa çatması da onun dünyagörüşünün formalaşmasında mühüm amil sayıla bilər. Nizaminin doğulduğu qədim Gəncə tarixin müxtəlif dönəmlərində dövlətçilik ənənələrimizin paytaxtı kimi mühüm status qazanmışdır. Qədim İpək yolu həm də böyük dünyaya inteqrasiya yolu idi. Buradan dünyaya təkcə nadir ticarət malları deyil, həm də Şərq fəlsəfi düşüncəsi ixrac olunurdu. Bütövlükdə Azərbaycan Şərq və Qərb mədəniyyətlərinin qovşağında yerləşdiyindən bu proses zəncirvari şəkildə qarşılıqlı və sistematik davam edirdi. Dahi Nizaminin belə bir mühitdə olması, sözsüz ki, onun ümumbəşəri dəyərlərə sadiq multikultural və tolerant bir insan kimi formalaşmasında başlıca rol oynamışdır. Multikultural ab-hava, tolerant ovqat onun bütün yaradıcılığında parlaq bir şəkildə özünü göstərir. Amma “Yeddi gözəl” bu istiqamətdə müstəsna bir əsərdir.

Nizami dühasının çoxqatlılığı özünü əsərin adında da göstərir. Poemanın əsl adı “Həft peykər”dir. “Peykər” sözünün özü də çoxçalarlıdır. Böyük Şərqşünas alim Rüstəm Əliyevin yozumunda bu söz cisim, bədən, can, surət, səmavi cisim mənalarında işlənir. Əlyazmalarının əksəriyyətində əsərin adı “Bəhramnamə”dir. “Həft peykər” adını isə şair

bircə yerdə - "İsgəndərnamə" poemasında çəkir. Qeyd edir ki, "Leyli və Məcnun"u qurtardıqdan sonra atımı yeddi səyyarəyə tərəf sürdüm. Bütün bunlar göstərir ki, Nizami mətnləri, hətta bu mətnlər verilən adlar da çoxqatlı, çoxlaylı olduğu qədərincə, həm də simvolikdir.

Kompozisiya baxımından çağdaş romançılıq ənənələrinə uyğun gələn "Yeddi gözəl"i poema içərisində poema, roman içərisində roman da adlandırmaq olar. Heyrətamiz dərəcədə maraqlı struktura malik olan poemada Nizami dühasının multikultural epizmi, dünya mədəniyyətinə bələdliyi heyrət doğurur. Yeddi ölkədən gətirilib yeddi müxtəlif rəngli günbəz altında yerləşdirilən gözəllərin hərəsinə eyni dərəcədə rəğbət və məhəbbət bəsləyən dahi şair onların hər birinin gözəlliyini də hyranlıqla vəsf edir:

Rəsm etmişdi gözəl yeddi şux pəri
Hər biri bir elin parlaq ülkəri.
Hind şahının qızı sevimli Furək,
On dördlük ay kimi dilbər bir mələk.
Çin xaqanının qızı Yəğmənaz,
Gözəllər afəti, misli tapılmaz.
Bir kəklik yürüşlü şux, solmaz pəri,
Xarəzm şahzadəsi gözəl Nazpəri.
Slavyan şahının rumi geyimli
Gözəl Nəsrinpuşu,  türk tək sevimli.
Məğrib padşahının Azəryun qızı
Nura qərq eyləyən günü, ulduzu.
Şanlı qeysər qızı, şöhrətli humay,
Hümayın gözəli, surəti Humay.
Keykavusnəslindən dilli, diləkli
Kəsranın Dürsəti, tavus bəzəkli. [3, 70]

Çox möhtəşəm və monumental bir tablodur. Nəzərə alın ki, müasir texnologiyaların olmadığı bir zamanda dahi Nizami bu gözəlləri yaşadıqları ölkələrin iqliminə, coğrafiyası və etnoqrafiyasına uyğun təsvir edir. Lakin bununla da kifayətlənməyib daha dərin laylara enir. Rus şərqşünası, tanınmış Nizamişünas Bertelsin fikrinə görə, hər günbəzin (Və ya günbəd-in) həftənin bir günündən başqa, həm də planet adı ilə adlanması qədim

astronomik bilgilərin Nizami tərəfindən çox mükəmməl mənimsənilməsi ilə bağlıdır. Elə bu faktın özü də Nizaminin başqa xalqların mədəniyyətlərinə, elmi baxışlarına dərindən bələdliyini göstərməklə onun geniş multikultural təfəkkür yiyəsi olmasını sübutlayır.

Dünya xalqlarının mifoloji təfəkküründə rənglərə münasibətdə müəyyən ayrıntılar olsa da, ortaq cəhətlər daha çoxdur. Dahi şair məhz bu ortaqlıqları ümumiləşdirib poemanın baş qəhrəmanı Bəhram-Gurun tədricən təkamülə doğru inkişafını rənglərin simvolikası fonunda verir. Bəhram-Gurun yeddi gözəlin yanına gedib hər birisi ilə xoş gün keçirməsi və hərəsindən bir hekayət dinləməsi aşağıdakı sıralanma ilə gedir:

Şənbə günü – qara günbəz, yekşənbə günü - sarı günbəz, düşənbə günü - yaşıl günbəz, seşənbə günü – qırmızı günbəz, çərşənbə günü firuzə rəngli günbəz, pəncşənbə günü səndəl rəngli günbəz, nəhayət, cümə günü ağ günbəzdə olan Bəhram şahın daxili-mənəvi dialektikası rənglərlə sintezdə verilir. Akademik Məmməd Arif haqlı olaraq göstərir ki, Bəhram şahın qaradan başlanan yolunun ağ rənglə başa çatması onun tədricən saflaşmasını göstərən amillərdəndir. Bu fikri bir qədər də genişləndirib deyə bilərik ki, bu amil həm də Nizaminin ayr-ayrı xalqları birləşdirən dəyərləri dərindən bilməsini şərtləndirir.

Başı eyş-işrətə qarışan Bəhram şah ölkənin daxilində gedən proseslərsən kənarda qalır. Bu situasiyadan məkrli bir niyyətlə yararlanan vəziri Rast-Rövşən ölkəni talayır, namuslu insanlara divan tutur. Sadə bir çobanın ibrətamiz dərsi ilə qəflət yuxusandan ayılan Bəhram şah vəzirinin yeddi günahsız insanı zindana saldırmasından xəbər tutan kimi onları azad elətdirib yanına çağırtdırır, onları dinləyir və haqlarını gec də olsa, bərpa edir. Dahi Nizami bu məzlumların şikayətlərinə də bəşəri prizmadan baxır və göstərmək istəyir ki, zalımın, zülmün, zülmkarın vətəni olmur. Yeddi məzlumun milli mənsubiyyətində müəyyən fərqlər olsa da, dahi sənətkar onları bir-birindən ayırmır, hamısına eyni gözlə - humanizm nöqteyi-nəzərindən baxır. İçərilərində azərbaycanlı da, kürd də, fars da, çinli gözəli əlindən alınmış məzlum da vardır. Onları birləşdirən fərqli itki və yollarla bədbəxt olmalarıdır.  Bu yerdə dahi rus yazıçısı Lev Tolstoyun “Anna Karenina” romanının ilk cümləsi yada düşür: “Bütün xoşbəxt ailələr bir-birinə bənzəyir, hər bədbəxt ailə isə özünə görə bədbəxtdir”. Yeddi məzlumun şikayəti bu fikrin əyaniliyinə sübutdur. Nizami dahi xələfini düz altı yüz il qabaqlamışdı...

Nizami “Yeddi gözəl”ində bir elin, obanın, məmləkətin yox, bir dünya vətəndaşı olmağın, çağdaş leksikonla desək, multikultural təfəkkürə malik olmağın bütün şifrələrini açıb göstərir.

Şair “Oğlum Məhəmmədə nəsihət”ində deyir:

Bu tərsinə fırlanan sarayın (fələyin) oyununa

Qadınlar kimi aldanmayasan, sən ki, kişisən, kişi.

Sən yorğa atın rəqsilə əylənmə,

Yola bax, gör nə qədər çətindir.

Ağ tərlan kimi yolda uçmaq istəyirsənsə,

Gözün günəş kimi yolda olsun (yola bax)

Xüsusən, bu yol ki, şikarlar yoludur.

Fələyin isə həm yayı, həm də oxu var.

Sənin dəmirin nəfis (xalis) dəmir olsa da,

Yol daşlıqdır, daşlar da maqnitlidir. [2, 47]

Poemanın mərkəzində daima kamilliyə, inkişaf və intibaha can atan İnsan dayanır. Oxucu Bəhram şahın həyat tarixçəsini vərəq-vərəq çevirdikcə bu fikrin həqiqət olduğuna qəlbən inanır.

Qətiyyətlə demək olar ki, Nizami özünəqədərki ənənəvi əsərlərdən fərqli olaraq, mistik və simvolik bir əsər ortaya qoymuşdur. Hətta Nizami realizminin özü belə simvolikdir. Demək olar ki, bu, daha çox sürreal və magik realizmdir. Onun Latın Amerika yazıçılarını, xüsusən, magik realizmin ən böyük nümayəndəsi sayılan Nobelçi Kolumbiya yazıçısı Markesi də bir neçə əsr qabaqlaması göz qabağındadır.

Nizami öz əsərinin süjetini Firdovsidən götürsə də, tamamilə orijinal bir əsər ortaya qoymuşdur. Şair özü bu barədə yazır:

Onu hər dənəsi əncir ləzzəti verir,

İçində isə badam ləpəsi vardır.

Surətpərəstlər üçün surəti qəşəngdir,

Məzmun sevənlər üçün də məğzi (ləpəsi) vardır.

Bağlı bir mücrüdür, içi dürrlə dolu,

Bu dürrlərin sapı o başın boynunu bəzəyir ki,

Açarı ilə mücrünün qıfılını aça bilsin.

Onun nəzmində nə yaxşı, pisi varsa,

Hamısı rəmz və hikmətin nişanələridir. [2, 291]

Məşhur postmodernist İtaliya yazıçısı İtalo Kalvino yazır: "Yeddi gözəl"də cəmləşən fərqli ənənələri bir-birindən ayırmaq qeyri-mümkündür, çünki Nizaminin başgicəlləndirici məcazi dili bunların hamısını bir qabda əridir və gözoxşayan bir boyunbağının qiymətli daş-qaşları kimi hər səhifədə iç-içə keçmiş məcazlar kolleksiyası yaradır". [4, 58]

Əsərin qəhrəmanı Bəhram-Gura sosrealizm metodunun naqis prizmasından yanaşsaq, o, sırf real bir obraz kimi görünəcək. Və belə də olub. Bu da obrazın birtətəfli təhlilinə gətirib çıxarıb. Birmənalı olaraq demək olar ki, Bəhram şah metaforik və simvolik bir obrazdır. Onun həyatı ilə bağlı "real" səhnələr də irrealdır. Nizami bu poemada bir qayəni hədəfləyib: Bu göyün, bu dərgahın altında insan adlanan bir məxluqun, konkret olaraq, Bəhram şahın əvvəli də, axırı da bir Heç-dir. İstəyirsən şahlıq tacını iki şirin yox, yüz iki şirin arasından götür, istəyirsən yeddi yox, yüz yeddi gözəllə evlən, adın lap Bəhram-Gur olsun, yenə də xeyri yoxdur, səni gor, qəbir gözləyir. Sənin yaşamın bir oyundur. Dahi şair məhz buna görə də əsəri oyun elementləri ilə zənginləşdirib.

Ey Bəhram-Gurdan xəbər verən Nizami
Bəhramın gorunu axtar və bu işdən vaz keç
Nəinki Bəhram-gur bizimlə deyil,
Heç Bəhramın gorunun yeri də məlum deyil [2, 285]

Bəhram-Gurun mağarada qeyb olmasının da simvolik anlamı vardır. Gəlin bu simvolik anlamın cavabını Nizamidən alaq:

Ey bəhanə axtaran, sən elə güman etmə ki,
Bu dünya və o dünyadan başqa heç bir şey yoxdur.
Vücudun eni və uzunu çoxdur,
Lakin bizim qavradığımız bu mağaradır. [2, 287]

Mağara mifopoetik bir metaforadır. Biz onun izi ilə getsək, nazil olan kitablara gedib çıxarıq. Buna isə vaxtımız yetməz. Mağara simvolikasını açmaq üçün dünya şöhrətli yazıçı Kamal Abdullanın "Mağara" hekayəsini oxumaq, zənnimizcə, yetər.

Söhbətimiz zahirən belə bir effekt yarada bilər ki, biz mətləbdən uzaqlaşırıq. Əsl həqiqətdə biz məqsədə doğru gedirik – multikultural təfəkkürə malik olan insan necə olmalıdır? – sualının cavabını Nizamidən alırıq.

O dahi yazır:

Özünə göylərdə yer salmış adamı

Yerdə axtarıb tapmaq çətindir.[2, 284]

Həqiqətən, Bəhram şahı mağarada axtarmaq absurddur. O, öz həqiqətsevərliyi, ədalətliliyi və humanizmi ilə göylərə çəkilir. Nizami bəyan edir: İnsanın bir yolu vardır - ölməzdən əvvəl ölməzlik qazanmaq. Belə insan isə mələk timsallıdır. Mələklər isə bütün dünyaya mənsubdurlar:

Yaranış üçün şükür edən mələk sənsən,

Yaradanı tanımaq üçün bələdçi sənsən

Yaxşı insanlara bax ki, pis olmayasan,

Yırtıcılara bax ki, yırtıcı olmayasan.

Nəyin varsa, yaxşı və yamanın hesabındadır.

Ya o qapını döy ki, orda çörək rahət olmasın,

Ya da elə ol ki, heç kəs ola bilməsin.

Nurdan pərdəli olan göz

Göylərdən və mələklərdən uzaq düşər. [2, 286]

Dahi Nizaminin XII əsr insanı bütün əqli parametrləri və daxili-mənəvi özəllikləri ilə XXI əsrin modern multikultural insan obrazına uyğun gəlir. Bu ədəbi fakt həm də bizim tarixən multikultural olmağımıza dəlalət edir. Ölkə Prezidenti cənab İlham Əliyev çıxışlarının birində demişdir: “Bizim tariximiz, ənənələrimiz və ölkəmizin multikultural inkişafı müxtəlif dövlətlər, sivilizasiyalar və dinlər arasında münasibətlərin necə düzgün planlaşdırılıb, təşkil edilə biləcəyinin nümunəsidir. Azərbaycan isə multikulturalizmin yaxşı nümunəsidir. Yeri gəlmişkən, bu il ölkəmizdə “Mültikulturalizm ili” elan edilib. Bu, bizim dövlət siyasətimizdir və cəmiyyətimizdə hökm sürən ümumi ab-havanın göstəricisidir”.

Nizami daima bizimlədir, onun sözü, səsi, nəfəsi bizimlədir:

Əgər istəyirsən göy sənin əlaltın olsun, qalx,

Ayağını yuxarı qoy və yerdən qaç.

Qabağa get və heç zaman geri baxma ki,

Göydən yerə yıxılmayasan. [2, 286]

**Ədəbiyyat**

1. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları, I kitab, Bakı, 2016, 288 səh.
2. Nizami Gəncəvi "Yeddi gözəl", Filoloji tərcümə, "Elm" Nəşriyyatı, Bakı-1983, 359 səh.
3. Nizami Gəncəvi "Yeddi gözəl". "Lider Nəşriyyat", Bakı-2004, 335 səh.
4. Multikulturalizm. ədəbi-bədii, elmi-publisistik jurnal, 2 sayı, Bakı- 2016.

**Aliyev M.**

**Summary**

**Multicultural aura in Nizami's poem "The Seven Beauties"**

There is a multicultural atmosphere and a tolerance in Great Nizami's whole creativity, which embodies the universal values. "Seven beauties" is an exceptional work in this direction. The article focuses on this aspect of the problem based on concrete poetic samples, and the obtained conclusions are scientifically justified.

**Алиев М.**

**Резюме**

**Мультикультурная аура в поэме Низами «Семь красавиц»**

В творчестве великого Низами, воплощающем в себе общечеловеческие ценности, имеет мпревалирует мультикультурльная аура, толерантная атмосфера. В этом плане исключительное значение имеет поэма " Семь красавиц". В статье на конкретных поэтических образцах именно с таких позиций предлагается видение проблемы, осуществляется научное обоснование полученных выводов.

**Салимова Замина Хафиз кызы**

*Азербайджанский государственный экономический университет (UNEC), Азербайджан*

## МУЛЬТИКУЛЬТУРАЛИЗМ – ЗАЛОГ УСПЕШНОГО РАЗВИТИЯ СОВРЕМЕННОГО ГОСУДАРСТВА

***Açar sözlər:*** *multikulturalizm, multikulturalizm siyasəti, milli oxşarlıq, tolerantlıq, milli azlıqlar, etnos*

***Ключевые слова:*** *мультикультурализм, политика мультикультурализма, национальная идентичность, толерантность, национальные меньшинства, этнос*

***Keywords:*** *multiculturalism, multiculturalism, national identity, tolerance, national minorities, ethnos*

Феномен мультикультурализма становится все более популярным как для глобального общества, так и для общих отношений между различными цивилизациями. Мультикультурализм – это одна из важных составляющих современного общества. Мультикультурализм и толерантность сегодня стали неотъемлемой частью повседневной жизни каждого гражданина азербайджанского государства, независимо от национальности, языка и религии. Азербайджан прославился как страна, где сформировалась атмосфера национального культурного разнообразия, где представители различных национальностей и конфессий живут в атмосфере мира и благополучия, взаимопонимания и диалога.

Что такое мультикультурализм? Существует несколько значений данного понятия. Термином «мультикультурализм» иногда обозначают культурное, языковое и конфессиональное разнообразие населения страны или региона. Мультикультурализм является политикой, которая предполагает культурный плюрализм и способствует его развитию. Это связано с уважением прав всего населения любой страны независимо от этнических, расовых и религиозных различий людей.

В мультикультуралистическом обществе все граждане страны имеют равные права в развитии своей культуры, языка, традиций, этнических и религиозных ценностей. В таком обществе открываются национальные школы, выпускаются газеты и журналы на национальном языке.

Проявления идеи мультикультурализма имеют древние корни. Известно, что межэтнические противоречия сопровождают международные отношения с глубокой древности. Эти проблемы вынуждали правителей, увлечённых завоеваниями отдалённых территорий, преодолевать деления на «своих» и «чужих» для большей устойчивости имперских владений. Так, Александр Македонский,

помимо введения единой валюты и объединения рынков Европы, Азии и Африки, поощрял межнациональные браки.

Соединённые Штаты предложили миру новую модель человеческого сосуществования – концепцию «плавильного котла», превратившейся позже в стержень культурной политики США. Этот термин воплощает в себе идею формирования мультикультурного общества, в котором происходит отрыв от этнических корней и погружение в огромный унифицирующий мультинациональный «плавильный котел», стирающий культурные и национальные различия. Являясь «нацией наций», американцы не принимают чужое и непривычное для них, что, по мнению М. Лернера, имеет мало общего с ксенофобией и является скорее выражением «иллюзорного убеждения американца в том, что его сущность, действия и методы отвечают естественному порядку вещей». [Лернер, 1992, 459]

Мультикультурализм современности несет в себе конструктивный, гуманистический потенциал. Это дает основания для надежд на изменение ценностей, присущих современному массовому обществу, страдающему приземленностью ценностных ориентиров и чертами антигуманизма.

Теоретической базой мультикультурализма является либерализм, особенно такие его ценности как свобода, равенство и братство. Мультикультуралистическое общество является либеральным обществом, при котором возможно победить не только социальную несправедливость, но также несправедливость, связанную с расизмом. Однако в отличие от либерализма, мультикультурализм занимается правами этнических и культурных групп, а не отдельных индивидуумов.

Мультикультурализм является политикой, очень близкой по своей сущности с политикой толерантности. Толерантность - это гарантия национального и социального обеспечения, а также ценность, глубоко укоренившаяся в генетической памяти наших людей. Важнейшей чертой толерантного общества является параллельное существование различных культур. В толерантном обществе мультикультурализм способствует взаимному обогащению культур, и это связано с процессом проникновения одной культуры в другую в целях дальнейшего культурного объединение людей.

Азербайджанская Республика – полиэтническое  государство, где компактно проживают представители многих этносов, каждый из которых является носителем уникальных особенностей, сохраняя при этом собственную материальную и духовную культуру, язык и самоидентификацию, историческую память и менталитет, этническое самосознание и этнопсихологию. Это государство, народ которого представлен государствообразующим этносом – азербайджанцами  и национальными меньшинствами – удинами, ингилойцами, грызами, хиналугами, будугами, татами, талышами, лезгинами, которые не имеют, помимо исторического Азербайджана, другой Родины. Они вместе с азербайджанцами вправе считаться  представителями единой полиэтнической нацией. В республике также проживают русские, украинцы, белорусы, курды,  евреи, татары, имеющие каждый, соответственно,  собственную историческую Родину.

Только в Баку функционируют свыше  двадцати  различных культурных обществ, среди которых: русский, украинский, курдский, лезгинский, славянский, татский, татарский, грузинский, талышский, аварский, общество европейских евреев, горских евреев, грузинских евреев и другие. Количество таких обществ по всей стране значительно выше, практически они существуют во всех районах, в которых компактно проживают этнические меньшинства.

Именно здесь, в Азербайджане, можно увидеть поселение горских евреев Красная Слобода, крестьян-молокан — Ивановка, удинскую деревню Нидж, село Хыналыг, знаменитое своим языком, своеобразными обычаями и традициями, а также десятки других поселений представителей различных народностей, которые стали частью азербайджанского социума. Этническим меньшинствам предоставлены равные с местным населением культурные права и право пользования культурным наследием страны.  По словам посла России в Азербайджане Владимира Дорохина, «Азербайджан предоставляет всем народам, живущим здесь, правовые рамки для сохранения своего языка и культуры.» [Дорохин, 2017]

В местах компактного проживания этнических меньшинств, в начальных классах общеобразовательных школ преподается родной язык, издаются учебные программы и пособия, сборники фольклора и стихов, художественная литература на соответствующих языках, выходят газеты и журналы, действуют

государственные национальные театры и самодеятельные творческие художественные коллективы.

Существующее в Азербайджане культурное многообразие традиций запечатлено в исторических памятниках духовной и материальной культуры. Так, в рамках деятельности по сохранению памятников материальной культуры в историко-краеведческих музеях Астаринского, Гахского, Губинского, Закатальского и других районов организуются экспозиции, отражающие наследие и традиции проживающих на их территории этнических меньшинств. Рационально действуют в этой области и библиотеки, которые включают в свои фонды книги представителей этнических меньшинств, проводят презентации этих книг.

Высказывания о том, что Азербайджан является единственной страной - примером толерантности в мире не впервые озвучиваются со стороны представителя международной дипломатии. Теперь весь мир признает, что государство, находящееся в эпицентре сложных политических процессов, справляется с такой трудной задачей.

Проводимые в республике за последние годы международные мероприятия в этой сфере являются свидетельством признания модели мультикультурализма и толерантности в Азербайджане на международном уровне. Сегодня мультикультурализм в Азербайджане – «политика государства и в то же время образ жизни.» [Алиев, 2013].

Азербайджан, будучи местом слияния многовековых культур, всегда демонстрировал свою приверженность многокультурным традициям. В Азербайджане сложилась особая модель толерантности и межконфессионального диалога, ставшая примером для многих полиэтничных регионов мира. В рамках современной азербайджанской модели государственно-религиозных отношений все конфессии получили одинаковый статус, будучи равны перед законом. В настоящее время представители разных религий живут в мире в нашей стране. Так было на протяжении столетий и так оно есть на сегодняшний день. Как признак уважения к религиозным убеждениям людей в стране построены мечети, синагоги, церкви. Религиозная, национальная и расовая толерантность в Азербайджане, где встречаются цивилизации, является большим достижением нашего народа. В Азербайджане никто не преследуется из-за своей религии или убеждений.

Наряду с обеспечением прав мусульман, составляющих подавляющее большинство граждан страны, государство проявляет заботу обо всех традиционных религиях, получивших распространение в республике.

Пользуясь равными правами и возможностями, предоставленными Конституцией и законами, представители различных наций плодотворно работают в самых разных сферах общества и вносят достойный вклад в развитие страны. Так, национальные меньшинства представлены в правительстве, в других государственных структурах Азербайджанской Республики. В национальном парламенте республики – Милли Меджлисе – имеются представители ряда этнических меньшинств страны, в том числе русские, лезгины, таты, талыши, курды и др. Во время парламентских выборов наблюдательная миссия Бюро по демократическим институтам и правам человека ОБСЕ показала, что в Азербайджане не имеется никаких проблем в вопросе участия в выборах проживающих на территории государства этнических групп.

Таким образом, в республике созданы и поддерживаются все возможные условия для существования этнического многообразия. Однако тут еще раз следовало бы подчеркнуть, что культурное многообразие воспринимается в нашей стране не как простое сложение различных идентичностей, но как благодатная среда для развития объединяющей их общенациональной солидарности. Иначе говоря, оно рассматривается в качестве богатства и достояния Азербайджана – общего дома всех населяющих его граждан вне зависимости от этнической, религиозной или какой-либо иной принадлежности. «Феноменом в числе мировых моделей мультикультурализма является азербайджанский мультикультурализм, в котором важное место отводится парадигме мультикультуральной безопасности» [Абдуллаев, 2016].

Культура определяет наш взгляд на мир, влияет на наши решения и поступки в любой сфере нашей деятельности. Ценности культуры – отражение человеческих отношений, верований и жизненного опыта народа. Помимо ценностей, общих для людей одной нации, культуры или религии, существуют и ценности универсальные, распространенные столь широко, что они в определенной мере определяют, что значит быть человеком. Для поликультурного общества важны как универсальные ценности, выходящие за пределы групповых признаков, так и все те

разнообразные ценности, которые определяют групповую принадлежность и создают уникальные культуры и взгляды на мир.

Мультикультурализм, в сущности, означает выработку правил и норм сосуществования различных культур и их носителей в одном, едином обществе, в едином правовом, социальном, экономическом поле. Именно тех правил, которые обеспечили бы не только реализацию экономических интересов корпораций, но и интересы человечества как совокупности всех людей, т. е. существ, наделенных разумом и душой, с различными правилами поведения и критериями оценки событий.

Подводя итоги, можно сделать следующие выводы:

во-первых, проблема мультикультурализма уходит своими корнями в глубокую древность, остается актуальной по настоящее время, и причина этого факта кроется в том, что во все времена представители различных этносов вступали в тесные контакты;

во-вторых, проблема создания мультикультурного общества в настоящее время чрезвычайно актуальна, так как в условиях глобализации, открытости границ, свободного перемещения людей по миру, возникает необходимость, с одной стороны, сохранения многообразия культур, а с другой — свести к минимуму возникающие межэтнические конфликты, недопонимания;

в-третьих, среди стран, реализующих политику мультикультурализма, Азербайджан занимает особое место, так как традиционно в нашем государстве мирно и дружественно взаимодействуют сотни этносов.

## Литература

1. Абдуллаев К.М. Из выступления Председателя Совета попечителей Бакинского международного центра мультикультурализма (БМЦМ) на конференции на тему «Мультикультурализм и межрелигиозный диалог в Азербайджане: исторический опыт и общественно-политическая модель будущего». 2015// источник: http://www.echo.az/article.php?aid=84902

2. Алиев И.Г. Из выступления Президента Азербайджана Ильхама Алиева на III Бакинском международном гуманитарном форуме. 2013// источник: http://ru.president.az/articles/9894
3. Бенхабиб С. Притязания культуры. Равенство и разнообразие в глобальную эру. М.: Логос, 2003.
4. Из выступления Посла России в Азербайджане Владимира Дорохина на страновой конференции общественных объединений российских соотечественников в Азербайджане 2017// https://www.trend.az/azerbaijan/society/2777263.html
5. Иманов К.С. Заметки о мультикультурализме. Баку, 2016.
6. Лернер М. Развитие цивилизации в Америке. Образ жизни и мыслей в Соединенных Штатах сегодня: в 2 т. / пер. с англ. М.: Радуга, 1992, Т.2, С. 459.
7. Мультикультурализм и трансформация постсоветских обществ. Под редакцией В. С. Малахова и В. А. Тишкова. М., 2002.
8. Политика Гейдара Алиева: Толерантность (выступления, речи, встречи, поздравления) Баку: Издательско-полиграфический Центр «Нурлан», 2016, С.424 .

**Səlimova Z.**

**Xülasə**

**MULTİKULTURALİZM – MÜASİR DÖVLƏTİN UĞURLU İNKIŞAFININ TƏMİNATI KİMİ**

Məqalə multikulturalizm fenomeninin həm qlobal cəmiyyət, həm də müxtəlif sivilizasiyalar arasında ümumi münasibətlər üçün getdikcə daha da məşhurlaşması haqqında fikrə əsaslanır. Multikulturalizm – müasir cəmiyyətin mühüm tərkib hissələrini təşkil edir. Multikulturalizm və tolerantlıq bu gün millətindən, dilindən və dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyatının ayrılmaz hissəsidir. Azərbaycan milli mədəni dəyərlərin formalaşdığı, müxtəlif millətlərin

nümayəndələrinin sülh və əminamanlıq, qarqılıqlı anlaşma şəraitində yaşadığı bir ölkə kimi tanınmışdır.

**Salimova Z.**

**Summary**

**MULTICULTURALISM IS A PLANT OF SUCCESSFUL DEVELOPMENT OF THE CONTEMPORARY STATE**

The article is based on the argument that the phenomenon of multiculturalism is becoming increasingly popular both for a global society and for general relations between different civilizations. Multiculturalism is one of the important components of modern society. Multiculturalism and tolerance have become an integral part of everyday life of every citizen of the Azerbaijani state, regardless of nationality, language and religion. Azerbaijan became famous as a country where the atmosphere of national cultural diversity was formed, where representatives of different nationalities and confessions live in an atmosphere of peace and prosperity, mutual understanding and dialogue.

**Sadıqov Ayxan**

*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan*

## AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN MEYDANA GƏLMƏSİNİN OBYEKTİV VƏ SUBYEKTİV SƏBƏBLƏRİ VƏ ONUN HEYDƏR ƏLİYEV VƏ ONUN LAYİQLİ DAVAMÇISI İLHAM ƏLİYEV TƏRƏFİNDƏN UĞURLA HƏYATA KEÇİRİLMƏSİ

Cəmiyyətlərin bir birinə inteqrasiyası dövrundə etnik,medəni,dini və s. fərqlərin olduğu toplumların birgə və sülh içərisində yaşamasının təmin edilməsi dövrümüzdə ən aktual məsələlərdən biridir.Bunun təmin edilməsi isə Multikulturalizm siyasətinin uğurlu və ya əksinə-uğursuz təşkilindən aslıdır.Dünyanın əksər ölkələri bu siyasətdən o qədər də uğurla istifadə edə bilmədi.Hətda bu siyasətin yararsız olduğunu da düşünənlər oldu.Azərbaycan Respublikası bu siyasət gec tətbiq etsə də bu siyasəti ən uğurla həyata keçirən dövlətlər sırasındadır.Müstəqillik illərimizdən başlayaraq bu günə qədər bu siyasət uğurla həyata keçirilir.Əslində multikulturalizm anlayışının yaranmasından çox əvvəl vətənimiz müxtəlif mədəniyyətli xalqların yaşadığı bir ərazi olmuşdur.Məhz buna görə, bu siyasətin tətbiq olunduğu dövrdə də xalqımız üçün bu ideologiyanın qəbul edilməsi o qədər də çətin gəlmədi.Buna səbəb məhz yuxarıda qeyd olunduğu kimi xalqımızın tarix boyu müxtəlif etnik mədəni fərqlərin olduğu xalqlarla birgə

yaşamasıdır.Bu məqalədə biz nəyə görə əksər ölkələrdə bu siyasətin uğurla həyata keçirilməməsinin səbəblərini, həmçinin vətənimizdə əksinə olaraq nəyə görə bu siyasətin uğurlu həyata keçirilməsinin səbəblərini görəcəyik.Bundan başqa bu siyasətin iflasa uğramasını söyləyən siyasətçilərin olduğu dövrdə prezidentimiz İlham Əliyevin bu siyasəti dəstəkləməsinin səbəblərindən bəhs edəcəyik.

Multukulturalizm ideyaları formalaşmamışdan əvvəl cəmiyyət etnik,mədəni,irqi,dini ayrıseçkiliklərin aradan qaldırılması məqsədiylə bir sıra tədbirlər həyata keçirirdi, lakin bu tədbirlər istənilən səmərəni vermirdi.Multukulturalizm ideyaları yarandıqdan sonra ilk dəfə qərb cəmiyyətində tətbiq olunmağa başladı.Qərb ölkələri bu yeni modeli heç də uğurlu hesab etmədilər.Hətda bəzi dövlət başçıları tərəfindən bu model səmərəsiz bir model kimi adlandırılaraq pislənildi.Maraqlısı ondan ibarətdir ki,bir sıra qərb ölkələri indidə bu siyasəti səmərəsiz siyasət adlandıraraq pisləyirlər.Təqdirə layiq hal isə bundadır ki,bu mürəkkəb siyasi dövrdə istər Azərbaycan dövləti,istərsə də, Azərbaycan xalqı multikulturalizm ideyasını dəstəkliyir.Bu mənada qeyd edə bilərik ki,Azərbaycan dövləti multukulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir.Bu siyasətində əsası ümumilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur.İndi isə bu siyasət onun davamçısı İlham Əliyev tərəfindən uğurla aparılaraq cəmiyyətdə etnik-mədəni müxtəlifliklərin tənzimlənməsində mühüm rol oynayır.Bunun əsas göstəricisi kimi Azərbaycan cəmiyyətində baş verən etnik,mədəni,dini və s. sahələrdə olan inteqrasiyaları misal göstərə bilərik.Sual oluna bilər ki, bu inteqrasiyanın əhəmiyyəti nədir?Biz bilirik ki, cəmiyyətdə baş verən əksər münaqişələrin səbəbi etnik,dini,irqi,mədəni və s. fərqlərdir.Multikulturalizm siyasəti isə bu fərqləri dövlət tərəfindən tənzimləyir və bu siyasət müxtəlif mədəniyyətlərin,irqlərin,dinlərin bir-birinə inteqrasiya olunmasına şərait yaradır. Bunun nəticəsində isə bu səbəblərdən baş verən münaqişələr gözəçarpacaq dərəcədə azalır və siyasi sabitlik təmin olunur.Siyasi sabitlik olan yerdə isə iqtisadiyyat,mədəniyyət və bir cox sahələrdə irəliləmələr baş verir.Demək olar ki,hər gün informasiya mənbələrindən Yaxın Şərq ölkələrində olan münaqişələr barədə məlumat alırıq. Bu münaqişələrin səbəblərini araşdırsaq görərik ki,siyasi sabitliyin təmin olunmasında multikulturalizm siyasətinin çox böyük əhəmiyyəti var. Bu fikri beynimizdə saxlayaraq düşünsək ki,bu siyasi münaqişələr girdabında Azərbaycan Respublikasında siyasi sabitliyin səbəbi nədir?

məncə asanlıqla tapmaq olar ki, bu sabitliyə səbəb Multikulturalizm siyasətinin ölkəmizdə uğurla həyata keçirilməsidir.

Azərbaycan Respublikasının multikulturalizm siyasəti sahəsində əldə etdiyi nailiyyətlər onun beynəlxalq münasibətlər sistemində uğurlu xarici siyasət fəaliyyatinin əsas səbəblərindən biridir.Bunun məntiqi nəticəsi kimi Azərbaycan dünyanın multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir.Artıq dünyada “Azərbaycan multikulturalizmi” “Multikulturalizmin Azərbaycan modeli”terminləri geniş istifadə olunur.İndi isə Azərbaycanda multikulturalizmin necə meydana gəlməsi,onun formalaşması və inkişafının səbəblərini araşdıraq.

Azərbaycan multikulturalizminin meydana gəlməsinin bir sıra obyektiv və subyektiv səbəbləri olmuşdur. Obyektiv səbəblər dedikdə ilk növbədə tarixi və coğrafi faktorlar nəzərdə tutulur. İlk öncə tarixi faktorlara nəzər salaq.

Tarixən Azərbaycan çoxmədəniyyətli bir dövlət olmuşdur.Vətənimizin əlverişli iqlim şəraitinin olması bu torpaqlarda hələ qədim zamanlardan insan məskunlaşmasına səbəb olmuş və torpaqlarımızda uzun tarixi dövr ərzində neçə-neçə tayfalar məskunlaşmışdır.Bu tayfaların bəziləri tamamilə oz etnik mənsubiyyətini itirmiş, bəziləri isə hələdə Azərbaycan mədəniyyətində az və ya çox dərəcədə yer tutur. Bu xalqlar Azərbaycan türkləri tərəfindən təqib olunmamış və diskriminasiyaya məruz qalmamışdır

Coğrafi faktor:Azərbaycan olduqca əlverişli bir coğrafi məkanda yerləşir.Bura müxtəlif mədəniyyətlərin və svilizasiyaların qovuşduğu ərazidir.Məlum olduğu kimi,ölkəmizin ərazisi müxtəlif svilizasiyaların,mədəniyyyətlərin kəsişməsində yerləşir.Buradan böyük ipək yolu keçmiş, ölkəmizin bu əlverişli coğrafi mövqedə yerləşməsi onun etnik-mədəni müxtəlifliyə malik olan bir cəmiyyət kimi formalaşmasında və inkişafında mühüm rol oynamışdır. Müstəqillik illərimizdə Heydər Əliyev,indi isə İlham Əliyev bu siyasətin həyata keçirilməsi istiqamətində çox böyük işlər həyata keçirib. Azərbaycan multikuluralizminin meydana gəlməsi və formalaşmasında qeyd olunan obyektiv səbəblərlə bərabər subyektiv səbəblər də mühüm rol oynamışdır.Subyektiv səbəblər dedikdə ölkəni idarə edən dövlət xadimləri və Azərbaycan xalqı nəzərdə tutulur.Məlum olduğu kimi  Azərbaycan tarixinin muxtəlif dövrlərində ölkə başçıları cəmiyyətdəki etnik,irqi,mədəni və dini müxtəlifliklər elə tənzimləmişlər ki,burada etnik və dini zəmində ciddi münaqişələr baş verməmişdir. Azərbaycanda multikultural mühit ölkəmiz müstəqillik qazandıqdan sonra daha da

güclənmişdir. Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı dünyanın ən çoxmədəniyyətli şəhərlərindən biri olmaqla bərabər burada etnik,dini və mədəni zəmində əhali arasında qarşıdurma,münaqişə müşahidə olunmamışdır. Parlamentdə ölkədə yaşayan bir neçə xalqın nümayəndəsi çalışırdı.Hətda bəzi milli azlıqların siyasi təşkilatlarıda təmsil olunurdu.Bundan başqa hökümətin tərkibində milli azlıqların nümayəndələri yüksək vəzifələr tuturdular.Onlardan bəziləri hətda nazir vəzifəsinə təyin olunmuşdur.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycandakı multikultural mühit müstəqillik illərində dahada artdı.Ümumilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra multikultural mühitdə müsbət mənada əsaslı dəyişmələr hiss olundu. Multikulturalizmin ilk növbədə assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduqunu bütün dünyaya nümayiş etdirdi.Məhz Heydər Əliyevin dövründə etnik və milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara vahid Azərbaycan dövlətinə mənsub olmalarının əsasında birlik hissi aşılanmağa başlandı.Heydər Əliyevə görə çoxmillətlilik bizim sərvətimizdir,üstünlüyümüzdür.O,bütün siyasi fəaliyyətini bu sərvətin əbədi olmasına yönəltdi.

Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı Ümumilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə,o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır.Belə ki,multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Azərbaycan Respublikasının Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir.

Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi kimi görürdü.O,qeyd edirdi ki,dinindən,dilindən,irqindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdir.Onun irəli sürdüyü əsas ideologiya isə Azərbaycançılıq ideologiyası idi. Doğurdan da bu ideologiyanın sayəsində dilindən,dinindən,milliyətindən asılı olmayaraq hər kəs dərk etdi ki,hamı bu ideologiya əsasında birləşməlidir.Heydər Əliyev multukulturalizm siyasətinin həyata keçirilməsində beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verirdi.O,bu sahədə BMT,ATƏT,AVROPA Şurası,Avropa ittifaqı,İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlarla əməkdaşlıq etmişdi.Ulu öndər daima həmin təşkilatlar tərəfindən

təşkil olunan milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmanın vacibliyindən bəhs edirdi.

Beləliklə,ulu öndər Heydər Əliyev multikulturalizmi Azərbaycançılıq ideologiyasının tərkib hissəsinə çevirdi və onun gələcək inkişafı naminə böyük addımlar atdı.Onun uğurlu siyasətini indi də onun layiqli davamçısı İlham Əliyev davam etdirir.

XX1 əsrin əvvəllərində bir sıra qərb ölkələri müəyyən səbəblər üzündən cəmiyyətdəki etnik-mədəni problemlərin tənzimlənməsində ciddi problemlərlə üzləşdi.Avropanın nüfuzlu dövlət xadimləri qeyd etdilər ki,onlar multikulturalizm siyasətinə olan ümidini itiriblər və bu siyasətin özünü doğrultmadığını bəyan etdilər.Həmçinin bu siyasətin səmərəsizliyini onunla izah etdilər ki,müasir dövrdə etnik və dini azlıqların nümayəndələri cəmiyyətə inteqrasiya olunmaq istəmirlər.Burada onların dediklərində də həqiqət olduğunu söyləyə bilərik.Yəni, bu siyasətin nəticəsində bəzən doğurdan da istənməyən nəticələrlə qarşılaşmaq mümkündür.Məsələn,qərb ölkələrində bu siyasətin nəticəsində bəzi icmaların nümayəndələri,xüsusən də ,müsəlmanlar özlərinə qapanmış,hətta yaşadıqları ölkənin belə dilini öyrənməkdən imtina etmişlər.Beləliklə, müasir dünyada bu siyasətə dair iki baxış formalaşmışdır – bədbin və nikbin.Bədbin qütbü yuxarıda qeyd etdiyimiz kimi bir sıra qərb nümayəndələri,nikbin qütbü isə  Azərbaycan prezidenti İlham Əliyev formalaşdırmışdır.Prezidentimizin bu baxışı qərb nümayəndələrinin bədbin baxışına qarşı optimist fikirlər və düşüncələrlə böyük siyasi iradə nümayiş etdirmişdir.O,çoxəsrlik multikulturalizm ideyasına arxalanaraq qeyd etmişdir ki,multikulturalizm siyasətinin dünyada alternativi yoxdur.Bəs görəsən müasir dövrdə qərb ölkələrində bu siyasətin iflasa uğraması, Azərbaycanda isə yaşaması hansı səbəblərdəndir?

Bunun həm obyektiv,həm də subyektiv səbəbləri var.Obyektiv səbəblər ondan ibarətdir ki, bəzi ölkələr ən qədim zamanlardan digər mədəniyyətlərlə demək olar hər hansı əlaqələri olmamış və tarix səhnəsinə monoetnik quruluşda gəlib çıxmışlar.Yaranan mədəni müxtəliflik isə burada sonradan yaranan mədəni müxtəliflikdir.Bu o deməkdir ki,sonradan gəlmiş dəyərlər burada tarixən formalaşmış dəyərlərə demək olar ki, təsir etmir.Belə ölkələrdə istər-istəməz dəyərlərin qovuşması süni alınır.Multikulturalizm siyasəti isə uğurlu şəkildə onda həyata keçirilir ki, bu müxtəliflik tarixən ilkin şəkildə formalaşsın.Biz bu ilkin müxtəliflik və sonrakı müxtəlifliyi ayırmasaq bugünki dünyada

hansısa ölkədə multikulturalizm siyasətinin iflasının, hansında isə yüksəlişinin səbəblərinin sirrini öyrənə bilmərik.

Azərbaycanda normal multikultural əhvalın olması, müxtəlif birliklərin dostluq və mehribançılıq şəraitində yaşamasının əsas səbəbi də məhz yuxarıda qeyd etdiyimiz ilkin formalaşma amilidir.İlkin müxtəliflik Azərbaycan ərazisin də özünü gostərən nadir xüsusiyyətlərdəndir.Biz bu nadir xüsusiyyəti təyin etdikdən sonra Prezidentimiz İlham Əliyevin qeyd etdiyimiz o nikbin düşüncənin tam bir məntiqi əsasının olmasını görə bilərik.Bu məntiqi əsasın əsas səbəbi də, Prezidentimizin öz tarixinə yüksək səviyyədə bələd olmasıdır.Əslində bu siyasət müstəqillik qazanmağımızdan xeyli əvvəl formalaşmışdır, lakin müstəqillik qazandıqdan sonra xüsusilə də Ümumilli liderimiz Heydər əliyevin və onun layiqli davamçısı İlham Əliyevin hakimiyyəti dövründə bu ideologiyanın mahiyyəti xalqımıza daha dərindən catdırılır.Şübhəsiz onuda qeyd etməliyik ki,qərb ölkələri ilə müqayisədə Azərbaycanın demokratik inkişaf sahəsində real təcrübəsi azdır,amma mənəvi təcrübəsi çoxdur.İstər şifahi,istərsə də yazılı ədəbiyyatımizdan qədim demokratik prinsiplərlə bağlı yetərincə nümünə göstərə bilərik.Bəs multikultural dəyərlər harada iflasa uğradı?O ölkələrdə ki,yuxarıda qeyd etdiymiz kimi artıq mənəvi baxımdan formalaşan ərazilərə yad baxışlar gəlməyə başladı.Təbii ki,əvvəldən formalaşmış insanların düşncələri bu müxtəlifliyi tam qəbul edə bilmədi.Məntiqi cəhətdən də bu belə olmalı idi.Azərbaycanda isə bu müxtəliflik əvvəldən olmuş və insanlar hər hansı mədəni möxtəlifliyi olan xalq gördük də bu müxtəliflik onlara çox normal gəlirdi və asanlıqla da həmin müxtəlifliyə malik olan toplumu qəbul edir,birgə,mehriban şəkildə onlarla yaşayırdılar.

Beləliklə multikulturalizm siyasətinin meydana gəldiyi bir sıra Avropa dövlətlərinin başçıları bu siyasətin ölkələrində iflasa uğradığını bəyan etdikləri bir dövrdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev multikulturalizm siyasətinin cəmiyyətdə etnik,irqi,dini və mədəni müxtəlifliklərin tənzimlənməsində ən mütərəqqi və optimal siyasət olduğunu qeyd edir və onun təbliği və uğurla həyata keçirilməsi yolunda böyuk səylər göstərir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının konstitusiyası, Bakı,1 995.
2. Abdullayev K.M. Azərbaycan müstəqilliyi illərində multikulturalizm və tolerantlıq.Müstəqillik yollarında. Bakı,2016.

3. Mehdiyev R. "Tarixi idrakın elmliyi problemlərinə dair, Bakı 2015.
4. Chandran K. Theoretical Foundations of Multiculturalism.

**Sadigov A.**

**Summary**

Thus, we have determined that the Azerbaijani lands are historically a territory of different cultures. The Azerbaijani people are fully supportive of this policy. President Ilham Aliyev successfully implements this policy. The main reason for this is that he knows his high will and history the fact that, as mentiod above, the existence of ethnic diversity in Azerbaijan and the fact that different peoples in our country have lived in peace and security since ancient times have encouraged İlham Aliyev to be successful in this policy.

**Abdullayeva Xəyalə Rəmiyyədin qızı**

*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

## HEYDƏR ƏLİYEV İRSİNİN AZƏRBAYCANDA MULTİKULTURALİZM SİYASƏTİNİN FORMALAŞMASINDAKI ƏVƏZSİZ ROLU

*Açar sözlər: multikulturalizm, etnik siyası münasibət, inteqrasiya, Heydər Əliyev Fondu, UNESCO, tolerantlıq, din*

*Keywords: multiculturalism, ethnic political attitude ,integration, Heydar Aliyev Foundation, UNESCO, tolerancy, religion*

*Ключевые слова: мультикультурализм, этническое политическое отношение интеграция, Фонд Гейдара Алиева, ЮНЕСКО, толерантность, религия*

*"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir".*

**Heydər Əliyev**

*"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq".*

**Heydər Əliyev**

Azərbaycan milli xarakterinin formalaşmasında iştirak edən çoxlu sayda ən vacib təbii-coğrafi, etnik-siyasi, sosial-mədəni, dini-mənəvi, ictimai-iqtisadi, ruhani və əxlaqi tip faktorlar içərisində əsl multimədəni dəyərlərin, həmçinin sırf tolerantlıq

motivlərinin xüsusi yeri və rolu vardır. Sözügedən ümumbəşəri ideyalar Şanlı Azərbaycan tarixinin bütün dövrlərində təzahür edən ictimai-fəlsəfi dünyagörüşündə, yeni dini baxışlarda, bədii əsərlərdə, dramaturgiyada, kinematoqrafiyada və təhsil sistemində öz əksini tapmışdır. Məhz bu səbəbdən əsrlərin olduqca çətin və sərt sınaqlarından keçib gəlmiş müasir Azərbaycan millətinin ən xarakterik cizgilərini tolerantlıq, humanizm, qonaqpərvərlik, mərhəmət, yardım etmək arzusu, sədaqət, vəfadarlıq və s. kimi ümumbəşəri ruhani dəyərlər təşkil edir. Hətta müasir Azərbaycan etnosunun bu xüsusiyyətləri, bəzən onun düşmənə kifayət qədər nifrət etməsinə belə mane olur.

"Multikulturalizm" termini və onunla əlaqədar anlayışlar müasir humanitar-siyasi leksikonda ən çox işlənilən neologizmlər kimi özünü təsdiq etmişdir. Bununla əlaqədar olaraq, bu terminə, eləcə də onun arxasında duran daha geniş sosial-fəlsəfi və etnik-mədəni məzmuna aydınlıq gətirmək olduqca vacibdir. Hərfi mənada "multikulturalizm" çoxmədəniyyətlilik deməkdir. Latın dilindən tərcümədə "multi" "çox" mənasını ifadə edir. Mürəkkəb sözlərin əvvəlində yazılır və predmetlərin çoxluğunu, eynicinsli hərəkətlərin, funksiyaların çoxhədliliyini bildirir. "Kultura" isə ilkin mənada torpağı becərmək, məskən salmaq, oturaq həyat tərzi, sonrakı mənalarda tərbiyə, təhsil, iqtisadi inkişaf, dil, elm, din, incəsənət, davranış, etiket və s. kimi anlayışlarla assosiasiya olunur. O, ilk dəfə e.ə.160-cı ildə Qədim Roma siyasətçisi və yazıçısı Böyük Mark Porsiy Katon (lat. *Marcus Porcius Cato* - e.ə. 234-149) tərəfindən əkinçilik haqqında traktatda ("*De Aqri Cultura*") işlədilmişdi [1].

"Multikulturalizm" termini müasir dövrün leksikonuna II Dünya müharibəsindən sonra nüfuz etməyə başlamışdır. 1947-ci ildə Hindistan B.Britaniyadan asılılığını ləğv etdikdən sonra, 1950-ci il yanvar ayının 26-da qəbul edilmiş Hindistan konstitusiyasında Hindistan cəmiyyətinin fövqəladə tərzdə polietnik olması və müstəqillik ərəfəsində hinduslarla müsəlmanlar arasında ölkənin parçalanması (Hindistan, Qərbi Pakistan, Şərqi Pakistan (Banqladeş) respublikaları) ilə nəticələnən etnik-siyasi hadisələrlə bağlı "multimədəni cəmiyyət" prinsipləri öz əksini tapmışdı.

XX əsrin 60-cı illərinin sonlarından etibarən Kanadada multikulturalizm siyasətinin dövlət səviyyəsində həyata keçirilməsi ilə əlaqədar, bu termin siyasi sənədlərin, elmi ədəbiyyatların, KİV-lərin predmetinə çevrildi. Keçmiş Sovet ittifaqı məkanına daxil olan respublikalarda, o cümlədən Azərbaycanda "multikulturalizm" termini, əsasən XX əsrin

90-cı illərinin sonlarından etibarən, əvvəlcə professional, daha sonra kütləvi leksikonun elementinə çevrildi.

Bəs azərbaycançılıq və multimədəni birlik ideyalarının sarsılmaz gücü nədədir? İlk növbədə o, Azərbaycan siyasi millətinin ümumi əxlaqi, mədəni, etnik-siyasi doktrinasıdır. O, tolerantlığa, dialoqa, kompromisə, qarşılıqlı yardıma, vətənpərvərliyə, mərhəmətə, birgəyaşayış qaydalarına əsaslanan mənəvi dəyərlər sistemidir. Bu sistem eyni zamanda ictimai inkişafın ənənəvilik və fasiləsizlik prinsiplərini, təbii-hüquqi dəyərlərin toxunulmazlığını dəstəkləyir və cəmiyyətin normal inkişafı üçün zəruri şərait yaradan, insanın bütün fəaliyyət sferalarında mütləq suverenliyini əsas şərt hesab edən liberallığı və davamlı islahatlar yolu ilə cəmiyyətin sosial-iqtisadi və ictimai-mədəni strukturunun dəyişdirilməsini təsdiq edən reformizmi və modernizmi reallaşdırır. Bir sözlə, azərbaycançılıq fenomeni mədəni plüralizmin və vəhdətin spesifik sintezindən yaranmış mütərəqqi ideya olaraq, təbii yaşamaq hüququ olan bütün ideyalara və müxtəlifliklərə hörmət və himayədarlıq ruhunu tərənnüm edən müqəddəs bir məcmuə kimi təzahür edir.

XX əsrin 60-70-ci illərində multikulturalizm Avropada və Şimali Amerikada çağdaş etnik-siyasi münasibətlərin bir tələbi kimi, adi termin çərçivəsindən çıxaraq, əsl fəlsəfi-siyasi konsepsiyaya çevrilməyə başladı. Sözügedən dövrdə multikulturalizm təkcə ayrıca götürülmüş bir ölkənin etnik-mədəni, irqi və dini müxtəlifliklərinin mövcud vəziyyətini ifadə etmək üçün işlədilən adi termin deyildi. O, artıq cəmiyyətin təhlükəsiz gələcəyinə hesablanmış mədəni inqilab kimi təzahür edirdi.

Multikulturalizm ilk dəfə rəsmi şəkildə 1971-ci ildə parlament tipli monarxiya olan Kanadada Kanada hökumətindən siyasi müstəqillik tələb edən Kvebek separatizminə cavab olaraq, fransız mənşəli baş nazir Pyer Elliot Tryudonun (fransız. *Jozeph Philippe Pierre Yves Elliot Trudeau* - 1919-2000) hakimiyyəti dövründə (1968-1979 və 1980-1984) qəbul edilmişdir . Əslində isə Kanadada multikulturalizm haqqında hüquqi aktın qəbul edilməsi, indiyədək dünyanın bir çox ölkələrində, o cümlədən Kanadada həyata keçirilən, eləcə də ölkə əhalisinin mədəni baxımdan homogenləşdirilməsinə (lat. *homogeneus* - eyni mənşəli və ya eyni tipli) yönəlmiş assimilyasiya siyasətinin mənasız və faydasız olmasının dövlət institutları tərəfindən tamamilə tanınması demək idi. Separatizmlə bağlı dövlətin ərazi bütövlüyünün ciddi təhlükə qarşısında qalması şəraitində Kanadada multikulturalizmin dövlət səviyyəsində qəbul edilməsi iki əsas

məqamı ön plana çəkdi:

1. Özündə ən yüksək humanist dəyərləri təcəssüm etdirən mədəni siyasət kimi özünü təsdiq etdi.

2. Polietnik tərkibi olan bir millətin və dövlətin birliyini və davamlı inkişafını nəzərdə tutan ideoloji zəmanət kimi tanındı.

Multikulturalizm elə bir təlimdir ki, o, mədəni plüralizmi bəşəri fəaliyyətin əsas məzmunu elan edir, pozitiv müxtəlifliyin qorunmasını və inkişafını özünün əsas vəzifəsi kimi təsdiq edir. Bu, dar mənada konkret götürülmüş ölkənin, qlobal mənada dünya əhalisinin etnik, irqi və dini müxtəlifliyindən asılı olmayaraq, hüquq və azadlıqlarının müdafiəsini nəzərdə tutur. Multikultural cəmiyyətdə hər bir etnosun mənsubları öz spesifik mədəniyyətlərini hüquqi əsaslarla inkişaf etdirmək imkanları qazanırlar.

Multikulturalizm assimilyasiyanı, həmçinin separatizmi inkar edir, etnik-mədəni müxtəlifliklərin inteqrasiyasına istiqamətlənmiş mədəni siyasət kimi reallaşdırılır. Məhz buna görə bu siyasəti təkcə siyasi elita deyil, eyni zamanda millətin digər stratalarının (lat. *stratum - təbəqə*) nümayəndələri, sosial, etnik, milli və dini-mədəni azlıqlar dəstəkləyirlər. Multikulturalizmin nəzəri əsaslarını liberalizm, xüsusən də liberalizmin azadlıq, bərabərlik və qardaşlıq kimi ən yüksək dəyərlərlə gücləndirilmiş modifikasiyası təşkil edir. Bu səbəbdən də multikultural cəmiyyətdə, nəinki sosial ədalətsizliyi aradan qaldırmağa nail olmaq mümkündür, həm də burada irqçiliklə bağlı ədalətsizliyə qətiyyən yol verilməməsi imkanları formalaşdırılır. Lakin multikulturalizmlə liberalizm arasında bir mühüm fərq var. Beləki multikulturalizm liberalizmdən fərqli olaraq, fərdlərin deyil, qrupların hüquqlarını ön plana çəkir.

Multikulturalizm fəlsəfi-mədəni ideal, faktiki təzahür edən siyasət kimi, əsas məzmun və mahiyyət baxımından tolerantlıqla sıx bağlıdır. O, müxtəlif mədəniyyətlərin paralel olaraq yaşamasını qəbul edən tolerant cəmiyyətin ən başlıca xüsusiyyətlərindən biridir. Tolerant cəmiyyətlərdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı formada zənginləşməsinə, xalqları birləşdirən əsas inteqrativ mədəniyyətin, birləşdirici məfkurənin formalaşmasına səbəb olur.

Beləliklə, postmodern təlim qismində multikulturalizmi xarakterizə edərkən, onun aşağıdakı fundamental əlamətlərini qeyd etmək vacibdir:

1. Multikulturalizm pozitiv sosial təzahürdür. O, cəmiyyətin sabit inkişafı üçün münbit şərait yaradır, etnik münaqişələrin qarşısını alır və müxtəlif xalqlar arasında

etimadı möhkəmləndirir.

2. Multikulturalizm cəmiyyətin mövcud etnik-mədəni müxtəliflik əleyhinə etirazını səngitmək üçün alternativ siyasət rolunu oynayır.

3. Demokratiya multikultural cəmiyyətlərin formalaşmasında ən mühüm amillərdən biri kimi təzahür edir.

4. Bölgələrin tarixi-mədəni inkişafının xüsusiyyətləri və landşaftın özəllikləri multikulturalizmin fərqli modellərinin yaranmasını müəyyən edən amillər kimi təzahür edir.

5. Multikulturalizmin müxtəlif modellərinin arasında bəzi fərqlərin olmasına baxmayaraq, yeni multikultural cəmiyyətin formalaşmasında və multimədəni ətraf mühitin qorunmasında dövlətin fövqəladə aparıcı rolu vardır.

Hərdən multikulturalizmin sinonimi kimi "polikultura" terminindən də istifadə olunur. Qeyd olunduğu kimi multikulturalizm postmodernizm situasiyasının məhsuludur və onun əsas məzmunu mədəni bərabərliyin qorunması ideyasından, bəşəriyyətə məxsus olan bütün mövcud mədəni materialın eyni dəyərlərə malik olması prinsipinin təsdiq olunmasından ibarətdir.

Multikulturalizm köhnə problemlərin müasir qaydalar əsasında həll olunması istiqamətində irimiqyaslı və uzunmüddətli proqramdır. Burada "etnos" kateqoriyasını "mədəniyyət", "kultura" kateqoriyası əvəz edir. Çünki "kultura" kateqoriyası müasir münaqişəli cəmiyyətlərin düsturunu daha geniş və dəqiq ifadə edir. Bununla bağlı bir çox mədəni məkanlarda zəruri olan multikulturallıq və mədəni çoxtərkiblilik kimi məqamları və nəzəriyyə ilə praktikanın vəhdəti olan multikulturalizmi dərindən dərk etmək lazımdır.

Min illər ərzində tolerantlıq və multikulturalizm ənənələrinə sadiq qalan Azərbaycan xalqı, həmin ümumbəşəri dəyərləri öz tarixinin üzvi elementinə və həyat tərzinə çevirmişdir. Tariximizin hansı bir səhifəsini nəzərdən keçirsək, orada, mütləq müxtəlif etnosların, fərqli mədəniyyət mənsublarının sarsılmaz bir ailədə, bütöv bir orqanizm olaraq, birgə və mehriban yaşamasının şahidi oluruq.

Azərbaycan tarixində tolerantlıq və multikulturalizm ideyalarını siyasi müstəviyə və dövlət siyasəti səviyyəsinə ümummilli lider Heydər Əliyev çıxarmışdır. Heydər Əliyevin Azərbaycana I rəhbərliyi (1969-1982) zamanı etnik-milli və mədəni məsələlərə xüsusi diqqət yetirilmiş, dövrün multimədəni dəyərlərinin inkişafında ciddi sıçrayış baş vermişdi. [3] Məhz sözügedən dövrdə Azərbaycan Respublikasının da təmsil olunduğu

sovet ittifaqında sosialist beynəlmiləlçiliyinə əsaslanan yeni münasibətlər sistemi formalaşdırılmışdı. Lakin bu, süni şəkildə yaradılmış və ən zorakı üsullarla tənzimlənən bir sosium idi. Onun məhz belə olmasını SSRİ-nin tənəzzülü və iflası dövründə ittifaqın tərkibində təmsil olunan xalqlar arasında etnik-mədəni və dini münasibətlər zəminində başlanmış silahlı münaqişələr bir daha sübut etdi. Lakin Azərbaycana gəldikdə, SSRİ-nin dağılması ilə əlaqədar respublikanın tərkibində təmsil olunan çoxsaylı xalqlar və etnik qruplar arasında milli və dini zəmində heç bir münaqişə (erməni separatizmini nəzərə almasaq) baş verməmişdir. Bu isə təsadüfi hadisə deyil.

Ümummilli Liderimizin ən böyük uğurlarından biri də o idi ki, xalqımızın ən dəyərli keyfiyyətlərindən olan digər millətlərin hüquq və mədəniyyətlərinə hörmətlə yanaşma xüsusiyyətini milli ideologiya – azərbaycançılıq səviyyəsinə qədər yüksəltdi və rəsmiləşdirdi. Bu böyük şəxsiyyət Azərbaycanı separatizm və parçalanma bəlasından xilas edərkən tarixən bu torpaqlarda yaşayan xalqların təmsilçilərini də vahid məram ətrafında səfərbər etdi, onları Azərbaycan bayrağı altında birləşdirdi. Bu baxımdan tam əminliklə demək olar ki, bu gün dünyanın böyük maraqla öyrəndiyi Azərbaycanın multikulturalizm və tolerantlıq modelinin banisi də məhz ulu öndərimiz Heydər Əliyev olmuşdur.[4]

Ümumiyyətlə, sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik, qarşıdurma baş verməmiş, qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli mədəni və dini münasibətlər hökm sürmüşdür. Ona görə bu gün sürətli inkişaf yolunda olan respublikamız həm də müxtəlif mədəniyyət və dəyərlərə malik olan xalqların, dinlərin nümayəndələrinin mehriban şəraitdə yaşadığı multikultural, tolerant məkandır. Çox ölkə və xalqlardan fərqli olaraq Azərbaycan onları özününkülərə və yadlara ayırmamış, hamıya eyni qayğı, məhəbbətlə yanaşmışdır.

Qeyd etmək lazımdır ki, tarix boyu çoxlu sayda xalqların və etnik qrupların təmsil olunduğu Azərbaycanda 1920-ci ildə sovet hakimiyyəti qurularkən, təbii olaraq, yeni, sosialist tipli ölkənin tərkibində çoxmillətli bir siyasi struktur yaradıldı. Bu Azərbaycan siyasi millətinin sosializm ideyaları və proletar mədəniyyəti əsasında formalaşmasının başlanğıcı idi.

II Dünya müharibəsinə qədər keçmiş burjua əqidəsinə və burjua mədəniyyətinə sadiq qalan əhali ilə sosializm prinsiplərini özünə həyat yolu seçmiş insanlar arasında bəzən aktiv, çox vaxt isə passiv ideoloji qarşıdurma hökm sürürdü. Lakin II Dünya

müharibəsi Azərbaycanda yaşayan xalqları və etnik qrupları yeni inteqrativ ideyalar ətrafında birləşdirdi. Bu "Böyük Vətən" (SSRİ) və "Kiçik Vətən" (Azərbaycan) ideyaları idi. XX əsrin 50-ci və 60-cı illərində Azərbaycanda müəyyən millətçilik elementləri ifadə olunsa da, Heydər Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycan Respublikasına rəhbərlik etməyə başlaması ilə əlaqədar situasiya kardinal şəkildə dəyişdi.

Heydər Əliyev etnik-siyasi münasibətlər sisteminin mahir bilicisi kimi çox yaxşı başa düşürdü ki, "Azərbaycan" adlı məmləkəti öz canı və qanı bahasına, onu təmsil edən çoxmilliyyətli bir xalq - Azərbaycan xalqı yaratmışdır. Elə buna görə də, o milliyyətlərin hər birinin bu müqəddəs yurdda, torpaqda haqqı və hüququ olmasını "azərbaycançılıq" ideyasında tərənnüm etmək kimi bir missiyanı öz üzərinə götürmüşdü.

Heydər Əliyevin həyata keçirdiyi etnik-milli siyasət "üçlü kimlik" prinsipinə əsaslanırdı:

1. Sovet kimliyi (Sovet ittifaqının tərkibində bu vacib və məcburi faktor idi).
2. "Azərbaycan" milli-siyasi kimliyi.
3. Etnik-mədəni kimlik.

Məhz bu siyasətin nəticəsi idi ki, sovet dövründə, XX əsrin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəllərində Azərbaycanda yaşayan heç bir milli azlıq, etnik qrup və sosial birlik assimilyasiyaya məruz qalmamış və öz adekvat kimliyini qoruyub saxlamışdı. Azərbaycan Sovet ittifaqının tərkibində olarkən yeganə respublika idi ki, burada yəhudi millətindən olan heç bir kəsə qarşı diskriminasiya hadisəsi baş verməmişdi. Bu da Heydər Əliyevin möhtəşəm dühasının və siyasi bacarığının məhsulu və nəticəsi idi.

*1993-cü ildə ümummilli lider Heydər Əliyev siyasi hakimiyyətə qayıdanda, həyata keçirdiyi ilk tədbirlərdən birincisi ölkənin etnik-siyasi birliyini təmin etmək üçün davamlı və təsirli tədbirlərin görülməsi oldu. O, "azərbaycançılıq" ideyasını ən ali milli dəyər elan etdi. Fenomenal düha sahibi olan Heydər Əliyev bütün sahələr kimi tarixi və etnik siyasət məsələlərini də gözəl bilirdi. O, tolerantlığı və multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldırmaqla, son dərəcə gərgin olan etnik-siyasi və geosiyasi şəraitdə, nəinki multikultural təhlükəsizliyi təmin etdi, hətta etnik siyasətdə yeni bir etalon - "Azərbaycan multikulturalizmi" etalonu formalaşdırdı* [5]. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında 1993-cü ildən davamlı şəkildə həyata keçirilən iqtisadi-siyasi və dini-mədəni tədbirlər qısa müddət ərzində Azərbaycanı həm Qərb aləmində, həm də Şərqdə fövqəladə nüfuz və söz sahibinə çevirdi. 1994-cü ildə Heydər Əliyevin Səudiyyə

Ərəbistanına rəsmi səfəri çərçivəsində Məkkədə və Mədinədə müqəddəs dini məkanları ziyarət etməsi, kiçik həcc, yaxud ümrə həyata keçirməsi XX əsrdə İslam dünyasında ən möhtəşəm hadisə idi. Ateizmi dövlət səviyyəsində ideoloji siyasət elan etmiş bir dövlətin ən görkəmli rəhbərinin Məkkəyə üz tutması müsəlman aləminin çox möhtəşəm tarixi qələbəsi, islam həmrəyliyinin sərhədlərinin daha da genişlənməsi kimi qiymətləndirilirdi.

Müsəlman dövləti kimi Qərbin iqtisadi-siyasi strukturlarında uğurla təmsil olunan və çox aktiv şəkildə islam ölkələrinin inteqrasiya prosesinə qoşulan Azərbaycan bu gün yüksək səviyyədə balanslaşdırılmış siyasət yürüdür və bununla da möhtəşəm bir tarixi tapşırığı reallaşdırır. Müəllifi Ümummilli lider Heydər Əliyev olan belə unikal münasibətlər sistemi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da təkmilləşdirilərək, bu gün Azərbaycan xalqının rifahına, islam ölkələrinin birliyinə və həmrəyliyinə, nəhayət dünyada sülhün və əmin-amanlığın bərqərar olmasına xidmət edir.

1995-ci ildə şəxsən Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında, ölkə ərazisində yaşayan bütün xalqların, etnik qrupların hüquq və azadlıqları bütöv şəkildə təsbit olundu. "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1 və 2), "Ana dilindən istifadə hüququ" (maddə 45, bəndlər 1 və 2) və s.).

Ümummilli lider Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya bəyan etdi. Bununla bağlı Heydər Əliyev qeyd edirdi: *"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq".*

Heydər Əliyev tolerantlıq və multikulturalizm siyasətini ölkənin demokratik inkişafının əsas tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarını, o cümlədən etnik-mədəni və dini dəyərlərin qorunmasını demokratiyanın mühüm prinsipi olan "əsas insan hüquq və azadlıqları" kontekstində görürdü. Azərbaycanda və xarici ölkələrdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikası ətrafında sıx birliyinin və həmrəyliyinin, "azərbaycançılıq ideyası" ətrafında səmərəli fəaliyyətinin təmin edilməsi, Azərbaycanda yaşayan icmaların, cəmiyyətlərin qrupların və birliklərin səmərəli işinin gücləndirilməsi və əlaqələndirilməsi məqsədi ilə Heydər Əliyev "Dünya Azərbaycanlılarının I Qurultayının

keçirilməsi haqqında" 23 may 2001-ci il tarixli 724 saylı sərəncam verdi. Bu sərəncama əsasən isə 2001-ci il noyabr ayının 9-10-u tarixində Bakı şəhərində, indiki Heydər Əliyev Sarayında ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Bütün Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qəlbində "Azərbaycan" adlı alov yanan hər kəs ulu öndərin möhtəşəm tarixi çağırışına səs verdi. Bu hadisə bir daha sübut etdi ki, bütün dünyada yaşayan azərbaycanlıların "Azərbaycan" adlanan bir Ana Vətəni var və bu yurd, bu ocaq hamı üçün müqəddəsdir, dinindən, dilindən milli mənsubiyyətindən asılı olmayaraq, burada bütün azərbaycanlıların bəşəri və ilahi haqqı vardır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasi istiqamət yeni mərhələdə onun layiqli davamçısı **Prezident İlham Əliyev** tərəfindən uğurla inkişaf etdirilir.

Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın təbii həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. Məhz bu özəl siyasi xəttin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 noyabr 2009-cu il tarixində imzaladığı xüsusi Qanunla ölkəmizin "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqi haqqında" UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar. [6]

Ümummilli lider Heydər Əliyevin Dünya azərbaycanlılarının tam həmrəyliyi və varlığında "azərbaycanlı ruhu" daşıyan fədakar insanların birliyi naminə həyata keçirdiyi ideyaları, əbədi, müqəddəs irs kimi qoyub getdiyi ənənəni, mədəni dəyərlərin reallaşdırılmasını müasir mərhələdə Prezident İlham Əliyev uğurla davam etdirir.

**Onu qeyd edək ki,** Azərbaycan Respublikası Prezidentinin **8 fevral** **2006**-cı il tarixli 1291 nömrəli sərəncamına əsasən, **2006**-cı il **martın 16-da** Bakı şəhərində, Heydər Əliyev Sarayında Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi müstəsna əhəmiyyət kəsb edir. Qurultayın gedişində Azərbaycan Respublikasının Prezidenti **İlham Əliyev** Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin **21 yanvar** **2011**-ci il tarixli 1293 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin iyirminci ildönümü" ilə bağlı "Tədbirlər Planı"na əsasən, **2011**-ci il iyul

ayının 5-6-sı tarixində **Bakı şəhərində**, Heydər Əliyev Sarayında Dünya Azərbaycanlılarının yeni, III Qurultayı keçirildi. Bu qurultayda, çox əvvəllər Azərbaycanda yaşamış, dünyanın müxtəlif ölkələrinin vətəndaşları olan - rus, yəhudi, ukraynalı, bolqar, axsıxa türkü olan insanların iştirakı, onların özlərini azərbaycanlı kimi təqdim və təmsil etmələri xüsusi əhəmiyyət kəsb edir, "Azərbaycan ideyasının" qüdrətini bir daha nümayiş etdirirdi[7 ].

Azərbaycanın əxlaqi-mədəni, sosial-iqtisadi və siyasi yüksəlişində son dərəcə vacib, xüsusi məqamlardan biri də, Prezident İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən etibarən, mütəmadi olaraq, Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Artıq ənənəyə çevrilmiş bu forumların son açılışı zamanı etdiyi çıxışında Prezident İlham Əliyev multikulturalizmi *"alternativi olmayan mədəni siyasət, gələcək inkişaf üçün ən məqbul variant kimi"* dəyərləndirməklə, təkcə Azərbaycanda deyil, bütün dünyada multikulturalizm meyllərinin gücləndirilməsinin vacibliyini xüsusi olaraq qeyd etmişdir.

Belə bir siyasi kontekstdə Prezident İlham Əliyevin 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının "Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri xidməti" təşkil edildi. 2000-2014-cü illərdə Bakı Slavyan Universitetinin rektoru olmuş Akademik Kamal Abdullayev bu quruma rəhbər təyin olundu. Müəyyən struktur dəyişikliklərinə (2017 - iyun) məruz qalsa da, bu gün bu xidmət ölkənin ideoloji həyatının önəmli istiqamətlərini əlaqəli şəkildə öyrənən, obyektiv cəhətdən müəyyən boşluqların doldurulmasını təmin edən vacib bir orqan kimi fəaliyyətini qurur və günü-gündən genişləndirir.

Prezident İlham Əliyevin multikulturalizm siyasətinin daha effektli şəkildə həyata keçirilməsini təmin etmək istiqamətində atdığı növbəti addım, onun 15 may 2015-ci il tarixində imzaladığı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında sənəd oldu. Mərkəzin yaradılmasında əsas məqsəd, ölkədə əsrlərlə formalaşmış tolerantlığın, etnik-mədəni və dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, həmçinin Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək idi.

Bu gün multimədəni dəyərləri tərənnüm edən Azərbaycan xalqının sıx və sarsılmaz birliyinin təmin edilməsi işində möhtəşəm tədbirlərin təşkili və həyata keçirilməsi kimi proses uğurla davam edir. Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən davamlı multimədəni siyasətin ən başlıca

əhəmiyyəti isə ondan ibarətdir ki, geniş və kompleks şəkildə həyata keçirilən mütərəqqi ideyaların külliyyatı Azərbaycan xalqının həyatında çoxəsrlik əxlaqi-mədəni və mənəvi dəyərlərin intibahı kimi təzahür etdi və xalqın əsrlərlə formalaşmış, lakin müəyyən obyektiv tarixi səbəblərdən deformasiyaya məruz qalmış əsl tolerant obrazını və müdrik simasını özünə qaytardı.

## Ədəbiyyat


1. Альбрехт М. История римской литературы. Т.1.- Москва: Греко-латинский кабинет Ю.А. Шичалина, 2003. - С. 440-441
2. Mehdiyev R. "Azərbaycançılıq-milli ideologiyanın kamil nümunəsi"./ "Azərbaycan" qəz., 7 noyabr 2007.
3. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015, 408 s.
4. Əliyev V. Ümummilli lider Heydər Əliyevin milli siyasətində multikulturalizm faktoru-XXI əsrdə Azərbaycanı sivilizasiyalararası dialoq mərkəzinə aparan yol. // ''Heydər Əliyev və multikultural dəyərlər" mövzusunda keçiribn konfransın materialları, Bakı, Azərnəşr, 2016, 616 s.
5. Əmiraslanov Ə. Heydər Ə liyevin ümumbəşəri ideyalarında multikulturalizm siyasəti// "Heydər Əliyev və multikultural dəyərlər" mövzusunda keçiribn konfransın materialları, Bakı, Azəməşr, 2016, 616 s.
6. Prezident İlham Əliyevin UNESCO Baş Konfransmın 38-ci sessiyasının L iderbr Forumunda çıxışı/ www/president.az
7. Prezident İlham Əliyevin BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunda çıxışı/ www/president.az
8. Prezident İlham Əliyevin V Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı/www.president.az



**Abdullayeva Kh.**



**Summary**

**The indispensable role of Heydar Aliyev's heritage in shaping multiculturalism in Azerbaijan**

In modem world, economic, political and military crises have been more intenisfied and it causes distrust environment in interstate relations. The most serious crisis is a moral crisis, a crisis o f values. Today there were serious opponents o f multiculturalism in the world who strives to impose on the international public opinion fictional idea that multiculturalism has failed. Against the background of this dangerous reality of the modem world, the Republic of Azerbaijan pursues a policy of protection and promotion of the values of tolerance and multiculturalism. National leader Heydar Aliyev had a great contribution to defining and developing of this policy. A unique model of multiculturalism, interfaith and intercultural dialogue, tolerance and harmonious ethnic diversity has been developed in the Republic of Azerbaijan. The world is learning this model. Multiculturalism is the main philosophy of this model. In fact, multiculturalism is an alternative to xenophobia, Islamophobia and racism. They are antagonistic to each other. One is calling for reconciliation and the other is enmity. Both have strategic goals.

The paper analyzes the mechanisms of their implementation, the scientific conclusions and proposals are put forward. At the same time there is evidence-based arguments to settle issues related to the successful continuation of President Ilham Aliyev state policy of multiculturalism established the National Leader Heydar Aliyev.

**Абдуллаева Х.**

**Резюме**

**Роль наследия Гейдара Алиева в формировании мультикультурализма в Азербайджане**

В современном мире экономический, политический и военный кризисы продолжают еще более углубляться, в межгосударственных отношениях формируется среда недоверия. Самым серьезным кризисом является нравственный кризис, кризис ценностей.

В Азербайджанской Республике сложилась уникальная модель мультикультурализма, межконфессионального и межкультурного диалога, терпимости и гармоничного этнического разнообразия. В статье говорится о роли государства в развитии мультикультурализма, о политике Общенационального лидера нашего народа Гейдара Алиева в области сохранения и развития исконных традиций мультикультурализма и толерантности.

**Азадалиева Севинч Джабраил кызы**
*Азербайджанский государственный экономический университет (UNEC), Азербайджан*

# ГЕЙДАР АЛИЕВ И РАЗВИТИЕ ТРАДИЦИЙ МУЛЬТИКУЛЬТУРАЛИЗМА И ТОЛЕРАНТНОСТИ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ

*«Многонациональный состав Азербайджана – это наше богатство и преимущество. Чем больше государство будет стараться объединить народ, тем богаче оно будет, так как каждый гражданин вносит свой вклад во всемирную культуру и цивилизацию».*

*(Г.А.Алиев)*

*Key words: great history, historical personality, multiculturalism, tolerance*

*Ключевые слова: великая история, историческая личность, мультикультурализм, толерантность*

«Великую историю создают великие люди» - говорили мудрецы.

Новая история Азербайджана связана с именем великого Гейдара Алиева.

Г.Алиев, можно сказать, 35 лет своей жизни посвятил построению суверенного, цивилизованного, сильного Азербайджанского государства, его процветанию и благосостоянию народа.

В 1993 году, Мудрый лидер Азербайджана, сумел положить конец межнациональным и межрелигиозным трениям, избавил страну от сепаратизма.

Признанный лидер объединил национальные силы вокруг идеологии единения представителей многих народов, века ми живущих в Азербайджане став архитектором мультикультурализма в Азербайджанской модели.

В основе идеологии политики Г.Алиева лежит идея единства, основанная на исторических и культурных традициях народов, исторически проживающих на территории современного Азербайджана. Сегодня Азербайджан является материнским лоном мультикультурализма, представляет собой уникальную среду для людей являющихся представителями различных культур и ценностей, исповедующих разные религии.

Как видно из исторических фактов термин «мультикультурализм» вошёл в политический лексикон в конце 60-х - начале 70-х годов прошлого столетия. Этот термин используется для выражения единого культурного пространства, и мультикультурализм предполагает интеграцию культур без ассимиляции.

Для Азербайджана, конечно же, совершенно естественно придерживаться толерантной позиции в отношении различия во взглядах, обычаях, традициях, потому что, расположенный на историческом Шелковом Пути, Азербайджан, являясь пространством пересечения различных цивилизаций, веками известен также как край, где формировалась среда национально-культурного разнообразия, где в условиях мира, благополучия, взаимопонимания и диалога проживают представители разных национальностей. И либеральность по отношению к особенностям различных народов, национальностей, религий присуща менталитету азербайджанского народа. На всех исторических этапах, на территории Азербайджана между этническими и религиозными сообществами, формировались тесные взаимоотношения, где не были отмечены факты дискриминации на национальной, религиозной и расовой почве.

Как известно, еще в 2001 году, высоко оценив наличие у нас в стране мультикультурализма, патриарх Московский и Всея Руси Алексий II во время награждения в Баку Гейдара Алиева орденом Святого князя Московского Даниэля сказал: «Толерантность и религиозная терпимость в Вашей стране является примером для других стран». А визит Папы Римского Иоганна Павла II в Азербайджан, где число католиков составляет всего 0,5 процента населения, несмотря на настойчивые приглашения исповедующих католическое направление христианства стран, говорит об уважении и непоколебимом хорошем отношении к малочисленным национальностям и их вероисповеданиям. Еще один достойный внимания важный момент: Азербайджан является первым исламским государством, продемонстрировавшим в Ватикане свое культурное наследие. А главный директор İSESCO Абдулазиз бин Осман, не скрывая своего восхищения образцовой религиозной толерантностью в Азербайджане, в связи с объявлением Баку столицей Исламской Культуры сказал: «İSESCO должен довести до всего мира, какой древней и богатой культурой Вы обладаете. Мы со своей стороны исполним любое требование для реализации документов, подписанных в сфере

сотрудничества с Вашей страной. И это сотрудничество станет примером для других государств-участников».

Несмотря на то, что 96 процентов населения Азербайджана – мусульмане, сегодня на территории республики наряду с мечетями действуют церкви и синагоги. И именно благодаря этому бытует мнение, что: «азербайджанская модель в сфере отношений государства и религии может быть применена и в других странах. Религиозная толерантность и терпимость являются частью богатства, которыми обладает Азербайджан».

Руководство Республики во главе с Великим Лидером Гейдаром Алиевым, привлекая внимание к межрелигиозному диалогу, организовало визит в нашу страну Папы Римского Иоганна Павла II 23 мая 2002 года. Визит Папы тогда вызвал большой резонанс.

Еще один пример высокой религиозной терпимости азербайджанцев - Римский Патриарх Варфоломей I во время визита в нашу страну в 2003 сказал: «Я очень доволен уровнем религиозной терпимости в стране. В Азербайджане каждый может исповедовать религию по своему желанию и совершать обряды».

Азербайджанский мультикультурализм играет незаменимую роль в комплексе взаимодействия государственных, политических, общественных, неправительственных институтов, обеспечивая тем самым демократический путь развития страны. В этом ключе трудно переоценить смысл реформ Гейдара Алиева, обеспечивших соблюдение прав и свобод каждого гражданина на формационном изломе времен. Это означает, что молодая страна не только декларирует высокие цели, но и реально следует соблюдению важных намерений, которые выступают гарантами неприкосновенности принципов демократии.

В 1995 году в конституции Азербайджанской Республики были закреплены идеи равенства всех граждан, независимо от расы, религии, языка. В одном из своих выступлений Гейдар Алиев подчеркивал: «Многонациональный состав Азербайджана – это наше богатство и преимущество. Мы это ценим и постараемся сохранить. Чем больше государство будет стараться объединить народ, тем богаче

оно будет, так как каждый гражданин вносит свой вклад во всемирную культуру и цивилизацию».

В 1993-1995 годах, что были отмечены неимоверно трудными процессами, Гейдар Алиев поддерживал живой контакт с представителями различных народов и этнических групп. Совместной работой созидательный потенциал общин и меньшинств был органично вовлечен в процесс формирования единого азербайджанского общества.

Как известно, Азербайджан в начале 90-х годов также столкнулся с гуманитарной катастрофой. 1 000 000 человек были вынуждены покинуть родные очаги в результате армянской оккупации. Азербайджан, можно сказать, самостоятельно преодолел этот кризис. И сегодня предпринимаются значительные действия для трудоустройства и улучшения условий жизни переселенцев. Построены около 90 поселков, приблизительно 250 тысяч переселенцев размещены в новых благоустроенных квартирах и домах.

В 2010 году вышло в свет первое печатное издание Государственной Миграционной Службы – журнал «Миграция», издающийся на трех языках - азербайджанском, английском и русском. Журнал издается периодически. В журнале отводится широкое место таким темам, как миграционная политика, урегулирование миграционных процессов, а также правила миграционных процедур.

К месту придется вспомнить еще один вопрос. В декабре 2008 года в Баку была проведена конференция министров культуры европейских и соседствующих с Европой стран. На этом респектабельном мероприятии приняли участие представители 48 стран, в том числе, 10 исламских государств, 8 международных организаций, ряда международных неправительственных организаций. По инициативе азербайджанской стороны впервые была принята «Бакинская Декларация о поощрении межкультурного диалога», заложено основание для «Бакинского процесса», нацеленного на достижение и развитие диалога между цивилизациями. А 30 января 2015 года в Нью-Йорке состоялась презентация «Бакинского процесса» и 3-го Всемирного Форума Межкультурного Диалога. На том самом мероприятии, названном «Историческим событием», была особо

отмечена важная миссия «Бакинского процесса» и форума – сохранение мира и безопасности во всем мире, служение принципам создания плодотворного взаимного диалога, были высоко оценены глобальная инициатива Азербайджана и опыт создания диалога.

На всенародном торжестве по случаю Праздника Новруз Президент Ильхам Алиев, в очередной раз раскрывая миссию и цели азербайджанской модели мультикультурализма, сказал: «Мы демонстрируем, что все национальности, представители всех религиозных конфессий живут и будут жить как одна семья. Азербайджанское государство охраняет их, их интересы, их национальное чувство и достоинство. Они наши братья. Наша сила в единстве. Азербайджан – многонациональная страна. Это наше богатство».

С уверенностью можно сказать, что проведение в 2015 году первых Европейских Игр в Азербайджане открыло новую веху в истории мирового спорта. Приезжающие в страну гости и спортсмены были очарованы гостеприимством нашего народа, красотой, богатой историей и современным развитием Баку, достигнутыми за короткое время успехами. Баку уже ведет подготовку к проведению Исламских Игр Солидарности в 2017 году. А это наглядно демонстрирует редкую миссию Азербайджана в мире: Азербайджан отныне воспринимается как пространство сотрудничества культур, религий, различных геополитических полюсов.

Благодаря независимой политике политического преемника общенационального лидера Гейдара Алиева – Президента Илхама Алиева, Азербайджан имеет веское слово на международной арене, демонстрируя свой путь развития. В основе достигнутых успехов лежит поистине историческая роль духовного наследия общенационального лидера Гейдара Алиева, в котором роль мультикультуральных ценностей неоспорима и незыблема.

В такой ситуации мысль Президента Ильхама Алиева «Мултикультурализм в нашей стране превратился в безальтернативный образ жизни» в широком спектре освещает, по сути, мультикультурализм в Азербайджане, а также все моменты, исходя из выбора мультикультурализма в будущем единственным путем развития человечества и осознания международной значимости данного понятия. Надо

отметить, что шаги, предпринимаемые Президентом Ильхамом Алиевым для развития мультикультурных отношений в Азербайджане, носят продолжительный характер. Объявление 2016 года «годом мультикультурализма в Азербайджане» в соответствии с Распоряжением господина Президента, еще раз подтвердило то, что управление государством осуществляется на основе принципов толерантности и терпимости.

**Azadaliyeva S.**

**SUMMARY**

The political activity of the Nation-wide Leader of Azerbaijan. G.A.Aliyev on the way of creating a tolerant state, having managed to put an end to interacial and interreligious tensions in the article. In the late 60-ies and in the early 70-ies of the 20th century the term "multiculturalism" entered the political lexicon and gained further developement in the future.

**Mustafayev Nazim**

*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan*

## MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ

***Açar sözlər:*** *multikulturalizm, Heydər Əliyev, azərbaycançılıq, tolerantlıq*

***Key words:*** *multiculturalism, Heydar Aliyev, azerbaijaniism, tolerancy*

Multikulturalizm dedikdə müxtəlif mədəniyyətlərin bir arada mövcud olduğu cəmiyyət, yəni çoxmədəniyyətlilik başa düşülür. Bu bir ölkədə yaşayan müxtəlif mədəniyyət sahiblərinin hüquqlarının bərabərliyi deməkdir. Burada əsas məqsəd insanların azad yaşaması üçün ayrı-seçkiliyi aradan qaldırmaq və bərabərliyə nail olmaqdır. Qeyd etmək lazımdır ki, multikulturalizm ilk dəfə dövlət siyasəti kimi Kanadada tətbiq olunmuşdur. Daha sonralar Abş-da və Avropada da tətbiqinə başlanılmışdır. Lakin multikulturalizmin qərb nümunəsi unikal modelə çevrilə bilmədi. Çünki yalnız qərb dəyərlərini üstün tutan, digər mədəniyyətlərin dəyərlərini qəbul etməyən bu model uğur qazana bilməzdi. Qərb multikultural modelinin uğur qazanmaması multikulturalizmin tamamilə iflasa uğraması demək deyil. Multikulturalizmin Azərbaycan modeli bunu sübut edir. Məhz Azərbaycan modelində

deyilir ki, fərqli sivilizasiyaların birgə yaşamasının və inkişaf etməsinin həyat tərzi kimi qəbul edilməsi əsas qurtuluş yoludur.Yəni ki, fərqli mədəniyyət sahiblərini öz mədəniyyətinə birləşdirməyə çalışmaq yox, bunu həyat tərzi kimi qəbul etmək lazımdır. “Multikulturalizm bizim həyat tərzimizdir. Nisbətən yeni anlayış olmasına baxmayaraq multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar” **[6]**.

Multikulturalizmin nisbətən yeni anlayış olmasına baxmayaraq Azərbaycanda multikultural dəyərlər tarixən mənəvi-ictimai dəyərlər toplusu kimi mövcud olmuşdur. Lakin sovet dövründə sovet ideologiyasının təsiri altında Azərbaycanda multikultural dəyərlər sistemsiz şəkildə mövcud idi. Tarixə nəzər saldıqda “Kitabi-Dədə Qorqud” dastanında, bir sıra şifahi və yazılı xalq ədəbiyyatı nümunələrində multikultural ənənələrin lap qədimdən bu günə qədər mövcud olduğunu görə bilərik. Belə demək mümkündürsə Azərbaycanda multikulturalizmə xas olan bütün xüsusiyyətlər var idi. Yalnız öz həllini gözləyən bir məsələ qalırdı: multikulturalizmin hüquqi və siyasi müstəvidə yerini müəyyənləşdirmək. Məhz bu məsələni Heydər Əliyev öz üzərinə götürdü və uğurla yerinə yetirdi. O, Azərbaycanın gələcək inkişafı üçün müdrik bir ideoloji yol seçdi və buna nail oldu. Heydər Əliyev Azərbaycan xalqına xas olan, digər xalqların mədəniyyətlərinə hörmət etmək prinsipini milli ideologiya səviyyəsinə qaldırdı. Azərbaycanda mövcud olan seperatizm və ayrılma meyllərinin qarşısını aldı və bütün bunları vahid bayraq altında birləşdirdi. Azərbaycanda tarixən mövcud olan çoxmədəniyyətçilik təcrübəsini öz ağıllı siyasəti vasitəsi ilə Heydər əliyev keyfiyyətcə yeni mərhələyə keçirdi. Məhz bunlara uyğun olaraq deyə bilərik ki, heç şübhəsiz, Heydər Əliyev Azərbaycan multikulturalizminin banisidir.

Ümummilli lider öz çıxışlarında bir vacib məqamı hər zaman diqqətə çatdırıb: “Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur” [5, s.51].

Ulu öndər Heydər Əliyevin multikulturalizmlə bağlı apardığı siyasətin əsas tərkib hissələrindən biri də heç şübhəsiz ki, multikulturalizmin hühuqi sənədlərdə və konstitutsiyada öz əksini tapmasıdır. Məhz Azərbaycan Respublikasının

konstitutsiyasında multikulturalizmin əsasını təşkil edən tolerantlıq prinsipinin öz əksini tapmasını görə bilərik: “bərabərlik hüququ” , “milli mənsubiyyət hüququ” , “ana diindən istifadə hüququ” və.b.

Heydər Əliyev haqlı olaraq ölkənin demokratik inkişafının əsas hissəsi kimi multikulturalizm siyasətini görürdü. O, demokratiyanın əsas prinsipi olan insan hüquq və azadıqlarının təmin olunmasını Azərbaycanda yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən onların milli dəyərlərinin, adət-ənənələrinin qorunması zəminində görürdü. 20-ci əsrin sonlarında hakimiyyətə qayıtmış Heydər Əliyevin rəhbərliyi ilə geriyə yolu olmayan inkişaf yoluna çıxmış Azərbaycan Respublikası hər hansı bir fərqdən asılı olmayaraq bütün vətandaşlarının eyni hüquqlara malik olmasını təmin etməli idi. Məhz belə bir vaxtda Heydər Əliyev entik millətçiliyə qarşı mutikulturalizmi tamamilə özündə əks etdirən, bütövlükdə Azərbaycan cəmiyyətinin inkişafı şərtləndirən azərbaycançılıq ideologiyasını irəlli sürdü. O, bununla göstərdi ki, entik millətçilik insanlar arasında düşmənçiliyə çevrilir, azərbaycançılıq ideologiyası isə insanları və xalqları birləşdirir. “Heydər Əliyev azərbaycançılıq ideyasına tamamilə yeni məzmun verərək onu Azərbaycanın milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdı. Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın- bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan soydaşlarımızın və həmvətənlərimizin söykəndiyi milli birlik platformasına çevirdi” [2].

Məhz azərbaycançılıq ideologiyası sayəsində Azərbaycanda bütün dini və etnik qruplar arasında həmrəylik mühiti yaranmış, multikulturalizmin bir sıra əsas prinsipləri həyat tərzinə çevrilmişdir. Beləliklə deyə bilərik ki, Heydər Əliyev Azərbaycanın gələcək inkişafı üçün tarixən mövcud oan multikultural dəyərləri vahid istiqamətdə birləşdirdi və multikulturalizmin siyasi və hüquqi müstəvidə yerini müəyyən etdi. “Azərbaycançılıq anlayışı milli siyasi diskursda, nisbətən, yaxın vaxtlarda işlədilir. O, ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında real surətdə birləşdirmək ideyasının verballaşdırılması kimi, 1992-1993-cü illərdə, xüsusilə, geniş yayılan şovinist və separatçılıq əhval-ruhiyyəsinə qarşı mübarizə ideyası kimi meydana gəlmişdir. Yeni anlayış ictimaiyyət tərəfindən kifayət qədər tez dəstəklənmiş, yeni, məzmunlu elementlərlə dolğunlaşmışdır. Düşünürük ki, indi “azərbaycançılıq” artıq milli ideologiyanın ilk nümunəsi hesab edilə bilər” [3].

Onu da qeyd etmək lazımdır ki, azərbaycançılıq ideologiyası bir tərəfdən Azərbaycan daxilində Azərbaycan türklərinin digər etnik qruplarla sülh şəraitində yaşamasını təmin etdi, digər tərəfdən isə Azərbaycanın bütün türk dünyasının ayrılmaz tərkib hissəsi olmasını sübut etdi. Məhz Azərbaycan daxilində seperatçılığa, milli ayrı seçkiliyə, milli münaqişələrə qarşı sədd rolunu oynayan bu ideologiya sayəsində Azərbaycanda sabit, münaqişəsiz, stabil həyat şəraitinin yaradılmasına nail olundu. Bu barədə Heydər Əliyev öz çıxışlarında bir sıra vacib fikirlər söyləmiş və bildirmişdir ki, Azərbaycanda bu şəraiti pozmaq istəyənlər, milli-mənəvi dəyərlərə qarşı zidd hərəkət edənlər haqlı şəkildə cəzalandırılacaqlar.

Həmçinin Heydər Əliyev ölkəni tərk etmə səbəblərindən asılı olmayarq xaricdə yaşayan azərbaycanlıların dağınıq halda deyil, həmrəy şəkildə yaşamalarına nail olmaq üçün bir sıra əməli tədbirlər həyata keçirdi. Məhz azərbaycançılığın onlar arasında təbliği nəticəsində milli həmrəylik yarandı və onar milli mənafe naminə birlikdə fəaliyyət göstərməyə başladılar. Azərbaycançılıq onlar arasında vahid ideoloji kopnsepsiyaya çevrildi.

Ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra multikuturalizm siyasətinə uyğun olaraq müxtəlif dini qruplar, həmçinin din və dövlət arasında olan münasibətlərin tənzimlənməsi istiqamətində də bir sıra addımlar atdı. Burada əsas məqsəd müxtəlif dini birliklər arasında, həmçinin din və dövlət arasında yüksək anlaşmaya və əməkdaşlığa nail olmaqdan ibarət idi. Çox keçmədən dinlə bağlı siyasətin əsas istiqamətləri xalqa çatdırıldı və bununla bağlı əməli tədbirlər həyata keçirilməyə başlanıldı. Dinə qayğı göstərilməsi, dini abidələrin bərpası, milli-mənəvi dəyərlərin qorunması və.s dövlətin dinlə bağlı siyasətinin əsas prioritet istiqamətinə çevrildi. Məhz bunların həyata keçirilməsi sayəsində ölkədə etiqad azadlığına imkan yarandı, dövlətlə din arasında anlaşma və əməkdaşlıq gücləndi. Heydər Əliyev həmçinin hüquqi müstəvidədə bir sıra addımlar atdı. Belə ki, "dini qurumlarla iş üzrə dövlət komissiyası" yaradıldı, "etiqad azadlığı" haqqında qanun qəbul edildi. Heydər Əliyev çıxışlarının birində demişdir: "Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycan müstəqil demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir" [1]. Beləliklə deyə bilərik ki, Heydər Əliyevin ağıllı siyasəti nəticəsində ölkədə mövcud olan milli, dini, irqi və digər

müxtəlifliklər arasında ziddiyyətlər tənzimlənmiş və onlara xas olan dəyərlərin qorunmasına nail olunmuşdur.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan multikulturalizm siyasəti müasir dövrdə onun layiqli davamçısı İlham Əliyev tərəfindən davam etdirilir və bu istiqamətdə bir sıra əməli fəaliyyətlər həyata keçirilir. İlham Əliyevin rəhbəriyi ilə həyata keçirilən tədbirlər nəticəsində bir sıra irəliləyişlərə nail olunmuş və müvəfəqiyyətlər qazanılmışdır. Multikulturalizmi həyat tərzi, dövlət siyasəti kimi dəyərləndirən İllham Əliyev bu siyasətin həyata keçirilməsində bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlığa önəm verir. Prezident İlham Əliyevin sözləri ilə desək: “Multikulturalizm üstünlüklərdən, böyük varlıqlardan biridir. Əfsuslar ki, dünyanın müxtəlif yerlərində, qonşu bölgələrdə, Orta Şərqdə və Avropada müəyyən narahatlıq yaradan meyllərin şahidi oluruq. Təcridolunma, ayırma və bəzən ədavət meyillərini görürük. Lakin biz bunlara qarşıyıq. Çünki dünyaya töhfə vermək, daha yaxşı dünyanı, hamı üçün müvafiq olan dünyanı qurmaq üçün yaşayırıq. İstəyirik ki, bütün xalqların, dinlərin nümayəndələri yaşayış tərzindən asılı olmayaraq layiqli şəraitdə dinc həyat sürsünlər” [4].

2014-cü ildə Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması İlham Əliyevin multikulturalizmə böyük önəm verdiyinin bariz nümuməsidir. Bu mərkəzin yaradılmasında əsas məqsəd tarix boyu Azərbaycanda mövcud olan tolerantlığın, multikultural dəyərlərin, çox mədəniyyətlilliyin qorunub saxlanılması, həmçinin Azərbaycan multikulturalizm modelinin dünyaya tanıdılması və təbliğ edilməsindən ibarətdir. Prezident İllham Əliyevin multikulturalizmlə bağlı həyata keçirdiyi mühüm hadisələrdən biri də, şübhəsiz ki, 2016-cı ilin Azərbaycanda “multikulturalizm ili” elan olunmasıdır. İlham Əliyev tərəfindən davam etdirilən multikulturalizm siyasətinin dünya miqyasına tanıdılması və təbliğ edilməsində Heydər Əliyev Fondunun böyük rolu vardır.

Onu da qeyd etmək lazımdır ki, multikulturalizmin Azərbaycan üçün əhəmiyyəti təkcə daxili sabitllik və inkişaf üçün deyil, həmçinin xarici əlaqələrdədə mühümdür. Azərbaycan xarici siyasətinin mühüm amillərindən biri də multikulturalizmdir. Beynəlxalq aləmdə ölkəmizin nüfuzunun artmasını buna misal göstərtmək olar. Həmçinin uğurlu şəkildə aparılan multikulturalizm siyasəti olkəmizi kənar müdaxilələrdən qoruyur və milli-etnik zəmində baş verə biəcək münaqişələrin qarşısını alır.

Beləliklə yekun olaraq deyə bilərik ki, Heydər Əliyev tərəfindən əsası qoyulan və İlham Əliyev tərəfindən varislik və novatorluq xətti ilə davam etdirilən multikulturalizmin Azərbaycan modeli bütün dünyaya nümunə ola biləcəck multikulturalizm modelidir. Müasir dünyanın milli-etnik münaqişələr, qlobal problemlər, dini toqquşmalarla üz-üzə qaldığı bir vaxtda Azərbaycanda müxtəlif xalqlar arasında mövcud olan dostluq və milli həmrəylik bunun bariz göstəricisidr.

**Ədəbiyyat**


1. Əliyev.R. "Dini-mənəvi dəyərlərə Heydər Əliyevin münasibəti"./ "525-ci" qəz., 12 mart, 2013.
2. Həsənov.Ə. "Heydər Əliyev və millli dövlətçilik təlimi-azərbaycançılıq"./ "Xalq" qəz., 9 may, 2010.
3. Mehdiyev.R. "Azərbaycançılıq-milli ideologiyanın kamil nümunəsi"./ "Azərbaycan" qəz., 7 noyabr 2007.
4. Nəsirov.E. "Heydər Əliyev və Azərbaycanda multikulturalizm siyasəti: varislik, novatorluq"./ "Xalq" qəz., 14 may, 2016.
5. Niftiyev.N. Azərbaycanda Birgəyaşayış və Multikulturalizm. Bakı, 2015, 408s.
6. Prezident İllham Əliyevin ıv Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı./ president.az



**Hüseynova Mehriban Əlihüseyn qızı**

*Azərbaycan Dillər Universiteti, Azərbaycan*


## AZƏRBAYCAN MULTİKULTURALİZMİ VƏ TOLERANTLIĞI DÜNYAYA NÜMUNƏ KİMİ


*Açar sözlər: etnik azlıqlar, multikultural dəyərlər , demokratiya və tolerantlıq*

*Key words: ethnic minorities, multicultural values , democracy and tolerance*

*Ключевые слова: этнические меньшинства , мультикультуральные ценности, демократия и толерантность*


Azərbaycanda "Multikulturalizm ili"nin elan olunması və bu çərçivədə həyata keçirilən tədbirlər dünyaya bir mesaj, Azərbaycanın bu regionda rolunu müəyyən

edən bir faktordur. Yəni ölkəmiz bir körpü kimi Şərqi də, Qərbi də özümüzdə birləşdirmək iqtidarındadır. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, anlaşılmazlığa, fobiyaya, və qarşıdurmaya, milli və dini münaqişələrə aparan yoldur. Müasir multimədəni cəmiyyətlər düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun əsas örnəklərindən biri Azərbaycan Respublikasının tərəqqisidir ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri də harmonik inkişaf edirlər

Bu gün milli azlıq anlayışının mahiyyətinə dünyada baş verən dərin siyasi-iqtisadi, xüsusən də qloballaşma prosesləri fonunda yenidən nəzər salmaqla, onun zənginləşdirilməsinə ehtiyac yaranmışdır. Bu qloballaşma prosesləri həm də ölkələrin hüdudlarından kənarda yaşayan insan qruplarının sayca və məzmunca artmasını şərtləndirir.

Etnik azlıq, adətən, müəyyən bir ərazidə kompakt halda yaşayır. Etnik azlıq üçün səciyyəvi olan bu xüsusiyyətlər onun başqa xalq və millətlərlə qaynayıb-qarışmasına heç də mane ola bilməz. Eyni zamanda etnik azlıqlar, tarixən, baş verən proseslər nəticəsində öz keçmiş etnik əlamətlərini saxlamaqla bərabər, qonşu xalq və millətlərdən də müəyyən əlamətlər və xüsusiyyətlər əxz edə bilər. Bu mənada respublikamızda yaşayan etnik azlıqlar da istisna təşkil etmirlər.

Akademik Kamal Abdullayevin qənaətinə görə, multikultural təhlükəsizliyini qoruya bilməyən ölkələrin bugünkü mənəvi durumu göz qabağındadır: "Bu ölkələrdə faşizm neofaşizm şəklində yenidən baş qaldırır, antisemitizm tüğyan edir, qatı millətçilik şovinizmə çevrilir. Təkmillətli olmağın fəsadları gizlində alışaraq gələcəkdə gur yanğına dönəcəkləri vaxtı gözləyir. Bütün bunların fonunda isə belə cəmiyyətləri dözümlülük, ədalət, mərhəmət, hörmət, məhəbbət hissləri gözə görünmədən, bəzən də açıq şəkildə tərk edir[2, səh.154]. Həqiqətən də Prezident İlham Əliyevin dediyi kimi, "dünyada multikulturalizmin alternativi yox imiş... [1, səh.95 ]".

Tolerantlıq və mədəni müxtəliflik, yaxud da “multikulturalizm” anlayışları məzmunca çox yaxındır. Multi kulturalizm - ən müxtəlif sosial subyektlərin mədəni müxtəlifliyin, əhalinin müxtəlif təbəqələrinin cəmiyyət həyatının bütün

sahələrində bərabərhüquqlu iştirakının təmin edilməsi, ayrıseçkiliyin aradan qaldırılmasına yönəlmiş ideya və fəaliyyətlər kompleksidir.

Tolerantlıq düşüncə tərzi - cəmiyyətin tarixi inkişafının məhsulu, müxtəlif mədəniyyət və lokal insan birliklərinin birgə yaşayışının nəticəsidir. Tolerantlığın əsasını müxtəlif mədəni-mənəvi prinsiplər təşkil edir. Tədqiqatçıların fikrincə, məsələn, yunan-roma sivilizasiyası üçün belə bir prinsip qismində dini dözümlülük çıxış etmişdir. Yunan filosofları, ilk növbədə də Sokrat tərəfindən və həmçinin sofıstlərin timsalında irəli sürülən dözümlülük - biganəlik, həqiqətin mütləqləşdirilməsinə yol verməmək və s. prinsiplər tolerantlığın fəlsəfi əsaslarını təşkil etmişdi.

Tolerantlığın mənəvi-əxlaqi kateqoriya kimi məzmununu aşkar etmək onun əhəmiyyətini müəyyənləşdirməyə kömək edir. Aşağıdakı aspektləri buna missal çəkmək olar. 1-ci- cəmiyyət, sosial qrup və ya ayrıca insan üçün konkret əhəmiyyəti olan, konkret əməldə təzahür edərək obyektiv amil kimi çıxış edir. 2-ci isə tolerantlıq, hər hansı bir hadisəni müəyyən maraqlar, siyasi, mənəvi, estetik, dini dəyərlər prizmasından qiymətləndirilməsini nəzərdə tutan subyektiv amili də özündə daşıyır. Tolerantlığın mənəvi qiymətləndirilməsi xeyir və ya şər mövqeyindən aparılırsa, onun siyasi qiymətləndirilməsi artıq başqa prizmadan, yəni müəyyən sosial qrupların maraqlarına uyğun olub-olmaması baxımından həyata keçirilir. Bu halda yalnız gündəlik-güzəran səviyyəsində insanlar arasındakı münasibətlərdə dözümlülük və ya dözümsüzlükdən söhbət getmir, həm də ictimai həyatın bütün sahələrində - iqtisadi, sosial, siyasi, mənəvi və s. sosial müstəvilərdə: millətlərarası, mədəniyyətlərarası, sosial qruplar, bütün rütbələrdən olan dövlət məmurları və s. arasında dözümlü münasibətlər də əhatə olunur.

Tolerantlıq ideyası doğrudan da fəlsəfi ideyalar tarixində çox qədimdən özünə yer almışdır. Dünyanın bütün əsas müqəddəs təlimləri və dinləri insanlara şəfqət və həssaslıq, hörmət və s. kimi ümumbəşəri dəyərləri özündə əks etdirir ki, həqiqi dözümlülük bunlar olmadan mümkün deyildir. Orta əsrlərdə yuxarıda qeyd etdiyimiz kimi, tolerantlıq əxlaqi keyfiyyət və prinsip qismində (məsələn, nəfsin hökmünə dözüm və ruhi tələbatların önə çəkilməsi), həmçinin əsas dinlərə zidd olan

bidətlərin, təriqət və ibadətlərin yaranmasına səbirli yanaşma mövqeyi kimi də başa düşülmüşdür

Azərbaycan mühitində demokratiyanın və tolerantlığın əsl qaynağı, əsrlər boyu vətənimizin yaşadığı və yaşatdığı tarixi gerçəklərdir. Dünyanın elə bir ölkəsi yoxdur ki, tək bir xalqın vətəni olsun və orada demokratiya inkişaf etsin, ya da tolerantlıq mühiti yaransın.

Dilindən, dinindən, irqindən asılı olmayaraq Azərbaycana gələn hər kəs burada isti ana qucağı, Vətən tapmışdır. İstər bu torpaqlara nə vaxt gəldiyi və ya buralarda nə vaxtdan yaşamağa başladığı tarixin qaranlıqları altında qalan yəhudilər və dağ yəhudiləri, tatlar və lahıclar, saxurlar və udilər, talışlar və ləzgilər, laklar və avarlar, ingiloylar və kürdlər, rutullar, eləcə də xınalıq, hapıt, qrız dilinin daşıyıcısı olan xalqlar və etnik qruplar kimi qədimi həmvətənlilərimiz, istərsə də nə vaxt və hansı səbəblərdən buralara köçürüldüyü dəqiq bilinən ruslar və malakanlar, mesxeti türkləri, hətta ən son gələnlərdən biri olmasına baxmayaraq, bizə qarşı artıq ikinci dəfə torpaq iddiasına düşən ermənilərə belə, bu diyarda hər zaman tam hüquqlu vətəndaş münasibəti göstərilmişdir[3, səh.23].

## Ədəbiyyat


1. Abdulla Kamal, Nəcəfov E, Bədəlov C, Xuduyev S- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Multikulturalizmin Azərbaycan modeli Haqqında, “RS Poliqraf”, Bakı 2017

2. Abdulla Kamal Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları - Bakı: BBMM,

2016.- Kitab I.- 288 s.-

3. M.Hacıyeva, N.Alışova Multikulturalizm Azərbaycanın həyat tərzidir (metodik tövsiyələr)

Bakı, 2016.- 59 s.


Huseynova M.

## SUMMARY

**AZERBAIJANI MULTICULTURALISM AND TOLERANCE AS EXAMPLE TO COUNTRIES OF THE WORLD**

Article explores multicultural and tolerant values, cultural diversity in internal and external policy of Azerbaijan. It is spoken about the essence of multiculturalism and its impact on tolerant relations in the article.

Гусейнова М.

**Резюме**

**МУЛЬТИКУЛЬТУРАЛЬНОСТЬ И ТОЛЕРАНТНОСТЬ АЗЕРБАЙДЖАНА КАК ПРИМЕР ДЛЯ НАРОДОВ МИРА**

В статье исследуется мультикультуральные и толерантные ценности, культурное разнообразие, толерантность во внутренней и внешней политике Азербайджана. В статье говорится о сути мултикультурализма, о его влиянии на межличостные отношения .

**Hüseynov İlyas Vaqif oğlu**

*Bakı Slavyan Universiteti, Azərbaycan*

## AZƏRBAYCANDA YAŞAYAN YUNANLAR MULTİKULTURALİZM ŞƏRAİTİNDƏ

*Açar sözlər: Yunanıstan, multikulturalizm, tolerantlıq, dostluq, birgəyaşayış*

*Keywords: Greece, multiculturalism, tolerance, friendship, togetherness*

*Ключевые слова: Греция, мультикультурализм, толерантность, дружба, сосуществование*

Hörmətli konfrans iştirakçıları! Azərbaycan Dillər Universitetinin professor-müəllim heyətini və tələbələrini səmimiyyətlə salamlayıram. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "HEYDƏR ƏLİYEV: multikulturalizm və tolerantlıq ideologiyası" I Beynəlxalq elmi konfransının davamlı və uzunmüddətli olmasını arzulayıram. Əlamətdar haldır ki, konfransın bölmə iclasları ölkəmizlə yanaşı, Almaniya, İtaliya, Portuqaliya, Rusiya, Çin, Türkiyə və Gürcüstan universitetlərində də təşkil olunur. Son dövrlər, Azərbaycan Dillər Universitetində

müsbət meyllər hiss olunmaqdadır. Bütün bu uğurlar, hörmətli akademik Kamal Abdullayevin adı ilə bağlıdır. İcazənizlə, məruzəmi təqdim etmək istəyirəm. Mənim məruzəm, "Azərbaycanda yaşayan yunanlar multikulturalizm dəyərlərini paylaşırlar" adlanır. Vikipedia açıq ensiklopediyasında multikultiralizm anlayışına bu cür tərif verilir: Multikultiralizm – çox mədənilik, bir çox fərqli mədəniyyətin, bir arada yaşadığı cəmiyyəti təyin edən sözdür. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətlərin, milli mədəniyyətinə inteqrasiyasına yönəlmişdir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq, multikulturalizm, tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil. [https 1] Azərbaycanda yaşayan azsaylı millətlər arasında yunanlar da var. Azərbaycandakı yunanların sayı, Cənubi Qafqaz ölkələri arasında ən az saylısıdır. Əsasən Pont yunanlarının törəmələri olan ölkəmizdəki yunanlar vaxtı ilə Osmanlı imperiyasını tərk edərək buraya gəlmişlər. Azərbaycanda son siyahıya alınma nəticəsində, cəmi 535 yunan yaşadığı məlum olmuşdur. Hazırda, 176 ailədən ibarət olan yunanlar əsasən Azərbaycanın Bakı şəhərində məskunlaşmışlar. Bununla belə, az sayda da olsa, Sumqayıt, Qax, Gəncə, Quba və Xaçmaz şəhərlərində yaşayırlar. Azərbaycanda ilk yunanlar, Qarabağın Mehmana kəndində məskunlaşıblar. Bu kənd Kəlbəcər rayonunun inzibati ərazi vahidində, Tərtər çayının sahilində yerləşir. Mehmana kəndi, əvvəllər Dağlıq Qarabağ Muxtar Vilayətində Ağdərə rayonu inzibati ərazisinə daxil idi, lakin 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək, onun ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürüldü. Mehmana kəndi də, Kəlbəcər rayonuna birləşdirilən kəndlərdən biridir. 1993-cü ildə Qarabağ müharibəsi zamanı, Mehmana kəndi Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilib. İndi isə, Azərbaycandakı yunanların fəaliyyətinə, tarixi dövrlərlə qısa nəzər salacağıq. Çar Rusiyasının imperiyası dövründə, yunanların məişət şəraiti və əmək fəaliyyətinə diqqət yetirək. XIX əsrin 40-cı və 50-cı illərdə, Azərbaycanda gələn ilk yunanlar, şaxtaçılar idilər. [Anqelidis, 2006, 26] 1830-ci il mayın 23-də Qarabağ komendantı mayor Kalaçevski, yunanların nikaha girmək, ibadət etmək və digər mənəvi təlabatlarını ödəmək üçün, Gürcüstan ekzarxından ərizə ilə xahiş edir ki, Qarabağ əyalətində məskunlaşan "qonaqlara" keşiş göndərsin.

Beləliklə, Pravoslav kilsəsinin keşişi Vasiliy Andrianov, Mehmana kəndinə təyin olunur. XIX əsrin ortalarında Ordubad və Daşkəsəndəki mədənlərdə, bəzi yunanlara rast gəlinirdi. Onlar əsasən bənna, dülgər və digər mövsümü işlərdə çalışırdılar. Xüsusilə, kilsə tikintisi üstünlük təşkil edirdi. 1850-1857-ci illərdə, Bakıda 400 nəfərə xidmət edən Nikolayevsk kilsəsi, Semyon Qiter və Xaralampiy Palistovun başçılığı ilə inşa edilmişdir. 1854-1855-ci illərdə Şamaxı yaşayan yunanlar tərəfindən, Altıağac kəndində Murad Xarlamov, Dmitriy İlyev və Vasili Yeqorov tərəfindən Müqəddəs Nikolayın şərəfinə kilsə inşa edilir. XIX əsrin sonlarına qədər Bakı quberniyasında yunan millətinin nümayəndəsi yaşamayıb. 1897-ci il siyahıya alınması zamanı görürük ki, Bakı quberniyasında 278 yunan qeydə alınmışdır. Yelizavetpol quberniyasında isə bu zaman 658 yunan yaşayırdı. Sonradan, Bakıda sənayə sahəsində yaşanan canlanma nəticəsində, iş və yaxşı qazanc axtarışında Trabzondan, Qarsdan, Şimali Qafqazdan və Gürcüstandan yunanlar gəlir. Elə bu zaman Bakıda yaşayan yunanlar, icma şəklində birləşərək, Yunan Xeyriyyə Cəmiyyətini yaradırlar. 1907-ci ildə Bakıda 800 yunan yaşayırdı. Onların çoxu Kiçik Asiyadan gəlmişdi. Bu zaman yunanlar öz dillərinin qorunması üçün tədbirlər görürdülər. Yunanların sayı Bakı şəhərində 1917-ci ilə qədər dəyişməz olaraq qalır. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra, yunanlar burada yaşamağa maraq göstəriblər. Yunanların ikinci dalğası birinci dünya və vətəndaş müharibələrində sonra Azərbaycana köç ediblər. Təkcə şəhərlərdə 1168, kənddə isə 58 yunan yaşayırdı. Tədqiqatlarımız zamanı, qarşımıza maraqlı statistika çıxmışdır. 1937-ci ilə qədər aparılan sıyahıyalma nəticəsində məlum olmuşdur ki, SSRİ-də yaşayan bütün xarici vətəndaşlar arasında yunanlar, birinci pillədə olmuşlar. Onların sayı, 95% təşkil edirdi [Pilidjev, 2016, 7]. 1937-ci ildə yunanların Bakıdakı xeyriyyə cəmiyyəti bağlanır. Millətlər atasının" dövründə, yunanlara qarşı olan münasibət kökündən dəyişir. Bundan sonra, yunanların represiyası başlanır. Pianoçu Yanis Karayani, ilk həbs olunanlardan olur. Bu zaman ölkədə yaşayan 904 yunandan 35 nəfəri həbs olunur. 1949-cu ilin 13-14 iyun tarixlərində, Qafqazda yaşayan onminlərlə yunanlar, Cənubi Qazaxıstana köçürülür. 1949-cu ildə may ayında MK Təşkilat Bürosunun qətnaməsində deyilir ki: yunanların deportasiyasının səbəbi, Qara dəniz sahillərində və Qafqazda siyasi etibarsız elementlərdən təmizlənməsidir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı, ermənilər tərəfindən aparılan etnik təmizləmə siyasətinin qurbanları sırasında, yunanlar da olmuşdur. 1990-1992-ci illərdə Azərbaycanda müharibə ilə əlaqədar vəziyyət

pisləşir. Bakı və Sumqayıtdan 100 yunan miqrasiya etməli olur. Qarabağ müharibəsi ilə əlaqədar Mehmana kəndi boşaldılır. Youtube sosial şəbəkəsində yayımlanan “Qafqaz düyünü” kanalında, Mehmana kəndinin hazırki vəziyyəti haqqında süjet hazırlanmış, kənddə yaşayan yunanlarla bağlı kadrlar göstərilmişdir [https 4]. Videoda deyilir ki, 300 il əvvəl burada 47 yunan ailəsi yaşayıb, onların ümumi sayı 120 nəfərdən ibarət ibarət. Qarabağ müharibəsi zamanı, yunan icmasının əksəriyyəti kəndi tərk edib. Bugün, orada 26 nəfərdən yunan yaşayır, ümumilikdə 10 ailədən ibarət olsa da, əksəriyyəti qocalardır. Dağlıq Qarabağdakı Mehmana kəndində, su, qaz, işıq və yol infrastruktu problemlərinin illərlə yığılıb qalması, bu süjetdə də, aydın şəkildə özünü göstərir. İşsizlik səbəbindən, cavanlar burada uzun müddət qalmırlar. Tarixən Azərbaycan torpağında yaşayan cavan və enerjili yunanlar Yunanıstana, Avropa Birliyi ölkələrinə və Amerika Birləşmiş Ştatlarına köçürlər. Mehmana kəndində yaşayan yaşlı yunanlar isə Ermənistan hakimiyyətinin siyasətindən əziyyət çəkirlər. Azərbaycanda isə biz başqa mənzərənin şahidi oluruq. Ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində ölkədə vəziyyət stabilləşməsi ilə, multikulturalizm dəyərlərinə sadiqlik nümayiş olunur. 1993-cü ildə Azərbaycanda Yunanıstanın səfirliyi açılır. 1994-cü ilin iyul ayında yunanların mədəniyyət mərkəzi açılır. 1997-ci ildə 100 yunan ailəsindən ibarət “Arqo” icması təşkil edilir. Azərbaycanda yaşayan yunanlar, Azərbaycan elminə, mədəniyyətinə və incəsənətinə böyük töhfələr verib. Panfiliya Nikolayevna Tanailidi 1891-ci ildə İrəvan xanlığı Zəngəzur mahalının Başkənd şəhərində doğulub. Ailəsi buraya Türkiyənin Qars şəhərindən gəlib və bir müddət yaşayandan sonra Tiflisə köçüblər. Türkcə təmiz danışan Panfiliya xanım Tiflisdə rus və gürcü dillərini də öyrənib. Xüsusi təhsil görməyib. O, ən müxtəlif ritmli rəqsləri uşaq yaşlarından məharətlə oynayıb. Buna görə də, 14-15 yaşlarından Tiflisin “Kazyonnı teatr”, Zubalov adına “Xalq evi” kimi böyük salonlarda azərbaycanlıların keçirdiyi müsamirələrdə, müxtəlif həvəskar teatr truppalarının hazırladığı tamaşalarda “Zəngəzurskaya” və “Sürəyya” təxəllüsləri ilə çıxış edib. Mustafa Mərdanov və Mirseyfəddin Kirmanşahlının təşkil etdiyi truppa-dəstələrlə İranda, Türkiyədə qastrollarda Tanailidi dram, opera və operetta tamaşalarında oynayıb. Bu dövrdə, arı-ayrı illərdə Bakıya gələrək müxtəlif teatr dəstələrinin tərkibində tamaşalarda oynayıb. Tiflis Dövlət Azərbaycan Teatrının yaradıcılarından biri də Panfiliya Tanailidi idi. 1925-ci ildə Tiflisdən gəlmiş baş rejissor Aleksandr Tuqanovun dəvətilə Panfiliya Tanailidi yenidən Milli Dram Teatrının truppasına daxil olub. Panfiliya Tanailidi 1919-cu

ildə Mehriban ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Şəmsa ("Trablis müharibəsi", Cəfər Cabbarlı), Azərbay ("Azərbay və Can", İsa bəy Aşurbəyli), 1925-ci ildən sonra isə Kəblə Fatma ("Ölülər", Cəlil Məmmədquluzadə), Emiliya, Karvansaraçı, Cülyettanın dayəsi ("Otello", "Şıltaq qızın yumşalması" və "Romeo və Cülyetta", Vilyam Şekspir), Marqarita, Ledi Ariyella ("80 gün dünya səyahətində" və "Kapitan Qrantın uşaqları", Jül Vern), Şamama cad ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Tükəz ("Hacı Qara", Mirzə Fətəli Axundov), Köylü qadın, Rübabə, Marqo ("Topal Teymur, "Səyavuş" və "Knyaz", Hüseyn Cavid), Qəmər xanım ("Tələbənin kələyi", Brandon Tomas), Tamara, Böyükxanım, Tafta ("Oqtay Eloğlu", "Aydın" və "Sevil", Cəfər Cabbarlı), Marri ("Tom dayının koması", Biçer Stou), Karoleva Anna ("Gülən adam", Viktor Hüqo), Amaliya ("Qorxu", Aleksandr Afinogenov), Qalçixa "Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Nisə xala ("Polad Qartal", Aleksandr Korneyçuk), Nənə ("Göy quş", Moris Meterlink) rollarını və digər səhnə surətlərini ifa edib. 1937-ci ildə tüğyan edən şəxsiyyətə pərəstiş dövrünün repressiyası Panfiliya Tanailidən də yan keçməyib. Dekabr ayının 15-dən 16-na keçən gecə həbs olunub. Dəhşətli və işgəncəli istintaq uzun müddət davam edib və aktrisanın güllələnməsi barədə hökm çıxarılıb. Şən xasiyyətli, şux zarafatları ilə seçilən və kollektivin rəğbətini qazanmış Panfiliya Tanailidi 1938-ci il oktyabr ayının 15-də, axşam saat onun yarısında Bakıda güllələnib. Məzarı yoxdur. Yalnız 1957-ci ildə ona bəraət verilib. Yunanıstan Respublikası Azərbaycanda yaşayan yunanları həmişə diqqət mərkəzində saxlayır və onların buradakı vəziyyət ilə maraqlanır. 2004-cü il 21 iyun tarixində ölkəmizdə rəsmi səfərdə olan Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulos Azərbaycandakı yunan diasporunun nümayəndələri ilə görüşmüşdür. Yunanıstan dövlətinin başçısı soydaşları ilə görüşdən məmnun qaldığını bildirdi. Bakı Yunan Mədəniyyətinin sədri Vanya Pilicev başçılıq etdiyi qurumun fəaliyyəti, ana dilinin, doğma tarix və mədəniyyətin gənc nəslin nümayəndələrinə öyrədilməsi üçün burada keçirilən tədbirlər barədə məlumat verdi. O bildirdi ki, yunan diasporu azsaylı olsa da, Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edir, ata-babalarının adət-ənənələrinə hörmətlə yanaşır, gənclərə tarixi vətənlərinə məhəbbət hiss aşılayır [Az. 1, 4]. Bu görüşdən 7 il sonra, 2011-ci il 5-6 aprel tarixlərində Yunanıstan Respublikasının Prezidenti Karolos Papulias tarixlərində Azərbaycana dövlət səfəri çərçivəsində ölkəmizdəki yunan diasporunun üzvləri ilə görüşmüşdür. Görüş zamanı Karolos Papulyas Azərbaycana səfərindən məmnun qaldığını söyləmiş, dövlət rəsmiləri

ilə görüşlər keçirdiyini, iki ölkə arasındakı əlaqələrin yüksələn xətlə inkişaf etdiyini, belə səfərlərin qarşılıqlı münasibətlərin genişlənməsinə töhfə verəcəyini vurğulamışdır. Dünyanın müxtəlif yerlərində, o cümlədən Azərbaycanda yaşayan yunanların ölkələr arasında qurulan münasibətlərdə rolundan danışan Prezident Papulyas indiki mərhələdə Azərbaycandakı yunan diasporu nümayəndələrinin bu baxımdan fəal rol oynayacağına əminliyini söyləmişdir. Prezident Yunanıstanın sön dövrdə üzləşdiyi maliyyə böhranından da danışmış və bildirmişdir ki, yunan xalqı tarixin müxtəlif dövrlərində bundan da çətin vəziyyətlərlə üzləşmiş, lakin bu cür problemlərin öhdəsindən uğurla gəlmişdir. Ölkəmizdəki yunan diasporunun üzvləri Azərbaycanla Yunanıstan arasında münasibətlərin yüksək səviyyədə olduğunu və gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliklərini bildirmişlər [Az 2, səh. 2]. Azərbaycanda yaşayan yunanlar haqqında tədqiqat apardıqda ədəbiyyatın, materialların kasadlığı nəzərə çarpır. Azərbaycan-Yunanıstan münasibətlərinə dair tədqiqat işini yazarkən, material çatışmazlığı ilə üzləşirik. Lakin, 2017-ci ilin əvvəlində Yunanıstanın Saloniki şəhərində qeydiyyatdan keçən “QALA” Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədov Sokrat Anqelisin Yunanıstanda nəşr etdirdiyi “Azərbaycanın yunanları” kitabını təqdim etməsi, bizim dissertasiyamız üçün böyük töhfə olmuşdur. Tədqiqatçı Sokratis Anqelis tarix elmləri namizədi, dosentdir. O, mütəmadi olaraq, Azərbaycanın Yunanıstanda olan diasporunun tədbirlərində fəal iştirak edir. Dünya sivilizasiyasının və elminin beşiklərindən sayılan, antik mədəniyyətin əsas hərəkətverici qüvvələrindən hesab olunan yunan xalqının nümayəndələrinin Azərbaycanda yaşaması maraqlı faktdır, onların müxtəlif tarixi dövrlərdəki fəaliyyətləri müəllifin gələcək tədqiqatlarında geniş yer alacaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü il oktyabrın 2-də IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimindəki nitqində bildirmişdir ki: “Multikulturalizm Azərbaycanda həyat tərzidir. Düzdür, bu termin nisbətən yenidir. Ancaq əsrlər boyu Azərbaycanda multimədəni cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir. Biz bu gün də çalışırıq ki, öz təşəbbüsümüzlə regionda və dünyada gedən proseslərə müsbət təsirimizi göstərək” [https 2]. Azərbaycan Respublikasının Prezindeti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir ki: “Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi

siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il Azərbaycanda "Multikulturalizm ili" elan olunur" [https 3]. 2015-ci il ərzində ölkəmizdə multikulturalizmlə bağlı olaraq, bir çox beynəlxalq forumlar, iclaslar, beynəlxalq elmi konfranslar keçirilmişdir. Bugün, Azərbaycanın multikulturalizm modeli dünyanın bir çox universitetlərində öyrənilir və tədqiq olunur. Beləliklə, Azərbaycandakı tolerantlıq, dini dözümlülük və multikultural dəyərlər örnək kimi göstərilir. Bunun nəticəsidir ki, Azərbaycanda yaşayan yunanlar da digər millətlər kimi özlərini burada çox rahat hiss edirlər.

**Ədəbiyyat**


1. Anqelidis Sokrat. Azərbaycanın yunanları (yunan dilində) Saloniki, 2006-cı il, 64 səh.
2. Pilidjev. İ. X. Azərbaycanda yunanlar. Məqalələr və xatirələr toplusu. "Qanun", 2015-ci il, 128 səh.
3. https 1 – https://az.wikipedia.org/wiki/Multikulturalizm
4. https2https://azertag.az/xeber/Bakida_IV_Beynelxalq_Humanitar_Forum_ise_baslayibAzerbaycan_Prezidenti_Ilham_Aliyev_Forumun_resmi_achilis_merasiminde_istirak_edib_VIDEO-800118
5. https3https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Multikulturalizm_Azerbaycanda_heyat_terzidir-918878
6. https 4 – https://www.youtube.com/watch?v=FJvheMwC7UA
7. Az. 1 – Azərbaycan qəzeti. №143 (3758) 22 iyun 2004-cü il.
8. Az. 2 – Azərbaycan qəzeti. №72 (5762) 7 aprel 2011-ci il.



**Huseynov İ.**



**Summary**

The title of this thesis: Greeks living in Azerbaijan, in conditions of multiculturalism. The Azerbaijani model of multiculturalism today is one of the most urgent in the modern world. This work is devoted to the historical events and cultural ties of the Greeks in Azerbaijan. The author considers the life of the settlement of the Greeks in Azerbaijan, in the times of the USSR, of the 90s of the 20th century and ends with modernity.

Гусейнов И.

**Резюме**

**ГРЕКИ, ПРОЖИВАЮЩИЕ В АЗЕРБАЙДЖАНЕ, В УСЛОВИЯХ МУЛЬТИКУЛЬТУРАЛИЗМА**

Азербайджанская модель мультикультурализма сегодня является одной из актуальных в современным мире. Данная работа посвящена историческим событиям и культурным связям греков в Азербайджане. Автор рассматривает жизнь поселение греков в Азербайджане во времена СССР, в 90-е годы XX века, и завершает современностью.

**BƏDƏLOVA SEVDA İLQAR QIZI**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan*

## AZƏRBAYCANDA MULTİKULTURALİZM İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU. TOLERANTLIQ-AZƏRBAYCANIN DÖVLƏT SİYASƏTİ

***Aşar sözlər:*** *Azərbaycan Respublikası,multikulturalizm siyasəti, azərbaycançılıq ideologiyası, tolerantlıq siyasəti*

***Key words:*** *The Republic of Azerbaijan, multiculturalism policy,the ideology of azerbaijanism, tolerance policy*

Multikulturalizm-çoxmillətlilik deməkdir, bir çox müxtəlif mədəniyyətə sahib olan xalqların, milli azlıqların bir arada yaşadığı cəmiyyəti təyin edən sözdür. Multikulturalizm dövlətlərin daxilində olur və dünyadakı xalqların birləşmiş mədəniyyətini əks etdirir.Multikulturalizm dünyanın dərk olunmasının əsas prinsipi kimi qəbul edilir.Həmçinin multikulturalizmin əhəmiyyəti ondan ibarətdir ki,daxilindəki kiçik xalqların,milli azlıqların etnik-mədəni dəyərlərinin titular xalqın(əhalinin çoxluğunu təşkil edən xalqın) etnik-mədəni dəyərlərinin bir-birinə təsir göstərmələri üçün lazimi şərait yaradır. Bir sıra hallarda multikulturalizmdə risklər də yarana bilər.Multikulturalizmdə ən böyük risk assimilyasiyadır.İkinci ən böyük risk isə,dövlətin unitar əsaslarına vurula biləcək zərbələrdən ibarətdir[9 səh.5]. Multikulturalizm müasir

dünyamız üçün çox vacib olan bəşəri keyfiyyət olmaqla yanaşı həm də dünyada və ölkədə sosial-siyasi sabitliyin və iqtisadi inkişafın da ən mühüm amillərindəndir.

Professor Etibar Nəcəfov bir çox müxtəlif ölkələrdəki multikulturalizm siyasətini təhlil edərək aşağıdakı qənaətə gəlmişdir:

1.Multikulturalizm-cəmiyyətin inkişafı üçün şərait yaratmaqla yanaşı,etnik-mədəni münaqişələrin qarşısını alır və müxtəlif xalqlar arasında inamı möhkəmləndirir.

2.Multikulturalizmin meydana gəlməsinin əsas səbəblərindən biri də cəmiyyətin mədəni müxtəliflik əleyhinə etirazını azaltmaqdır;

3.Multikultural cəmiyyətin formalaşmasında demokratiya ən vacib ünsürlərdən biridir;

4.Multikulturalizmin müxtəlif modellərinin yaranmasının əsasını bölgələrin tarixi inkişaf xüsusiyyətləri təşkil edir;

5.Multikulturalizmin müxtəlif modelləri,amilləri arasında bəzi fərqlər vardır.Lakin bunlara baxmayaraq,multikultural cəmiyyətin formalaşmasında və inkişaf etməsində aparıcı rol dövlətə məxsusdur;

Bu gün Azərbaycan dünyada multikulturalizmi yaşadan və qoruyan ölkələrdən biridir.Azərbaycanda tarixən bütün etnoslar,xalqlar bir yerdə yaşayıb,milli-dini zəmində heç bir qarşıdurma baş verməyib.Belə ki,hər bir azərbaycanlı ölkəmizdəki bu birgəyaşayış formasını xalqımızın milli-mənəvi dəyərlərinin ayrılmaz hissəsi hesab edir. Və bununla da dövlətçilik ənənəmizdə multikulturalizmi təqdir edir.Təsadüfi deyil ki,Qarabağ uğrunda gedən döyüşlərdə azərbaycanlılarla yanaşı burada yaşayan digər xalqların övladları da erməni işğalçılarına qarşı qəhrəmanlıqla döyüşmüşlər.Xalqımızın digər xalqları özündən ayırmaması, tolerantlığı,dözümlülüyü onlarda Azərbaycana qarşı məhəbbət hissi yaratmışdır[12].

Müstəqil Azərbaycan Respublikasında multikulturalizmin forması azərbaycançılıqdır. Azərbaycançılıq ölkəmizdəki bütün xalqların,etnosların birgəyaşayışını,siyasi,dini,iqtisadi,hüquqi plüralizmi təmin edir. Multikulturalizmin ”Azərbaycan modeli” sübut edir ki,burada yaşayan müxtəlif xalqlar,milli azlıqlar öz identikliklərini qorumaqla və digərlərinə qarşı hörmətlə yanaşmaqla inkişaf edirlər.[3]Azərbaycanın multikulturalizm modeli təkcə Cənubi Qafqazda deyil,həmçinin Qərbdə də diqqəti cəlb edən modellərdən biridir.Cənubi Qafqazda millətlərarası münaqişələr,millətçilik tüğyan etməyə başlayanda Azərbaycan bu

münaqişələri,tüğyanları yatıraraq,özünün siyasi,hüquqi,iqtisadi cəhətdən yüksək inkişafına nail oldu.Qərbdə demokratiyadan, ksenofobiyadan, islamofobiyadan bəhs edildiyi bir zamanda Azərbaycan özünün multikulturalizm modelini dünyaya tanıtdı.

Müasir dövrdə hüquqi və siyasi müstəvidə multikulturalizmin yerini ilk dəfə Heydər Əliyev müəyyən etmişdir.Heydər Əliyev Azərbaycanın uğurlu inkişafı üçün dəqiq hədəf seçdi və bununla da əsrlər boyu formalaşmış olan çoxmədəniyyətlik ənənəsini inkişaf etdirərək onu yüksək mərhələyə qaldırdı.Bu siyasi mərhələ idi.Əslində,ulu öndər Heydər Əliyev Azərbaycan multikulturalizminin banisi oldu.

Azərbaycan multikultural ənənələrinin dövlət tərəfindən qorunması vacibdir. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələ hüquqi sənədlərdə,həmçinin Azərbaycan Respublikasının Konstitusiyasında qeyd edilmişdir.Multikulturalizmin əsasını təşkil edən tolerantlıq Azərbaycan Respublikasının Konstitusiyasının maddələrində öz əksini tapmışdır. Belə ki,"Bərabərlik hüququ","Milli mənsubiyyət hüququ","Ana dilindən istifadə hüququ" və başqa maddələri misal göstərmək olar[2].

Heydər Əliyev multikulturalizm siyasətini ölkənin demokratik inkişafının əsas tərkib hissəsi hesab edirdi.Ulu öndərin başçılığı ilə demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası,1995-ci ildə qəbul edilən Konstitusiyada da təsbit olunduğu kimi "dinindən, dilindən,irqindən asılı olmayaraq Azərbaycanın bütün vətandaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi.Heydər Əliyev qeyd etmişdir ki, etnik millətçilik etnik separatizmə,xalqlar arasında münaqişəyə gətirib çıxarır.

Heydər Əliyev multikulturalizmin əsası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürmüşdür.Azərbaycançılıq ideologiyası bu ərazidə yaşayan vətəndaşları dinindən,dilindən,irqindən asılı olmayaraq birləşdirir. 2001-ci il noyabrın 9-da Bakıda Dünya Azərbaycanlılarının Birinci Qurultayı keçirilmişdir. Qurultay dünya azərbaycanlılarının birləşdirilməsi,bu sahədə mövcud olan problemlərin aradan qaldırılması istiqamətində mühüm hadisəyə çevrildi.Heydər Əliyev bu Qurultay zamanı etdiyi çıxışında "Mən həmişə fəxr etmişəm,bu gün də edirəm ki,azərbaycanlıyam"sözlərini ifadə etmiş və bununla da bütün dünya azərbaycanlılarını öz milli-mənəvi dəyərlərini unutmamağa,bizim hamımızı həmrəy edən azərbaycançılıq ideyası ətrafında birləşdirməyə çağırmışdır.Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını birləşdirməklə yanaşı,həm də Azərbaycan daxilində yaşayan müxtəlif mədəniyyətlərin həmrəy olmasına da şərait yaradır. Azərbaycançılıq ideologiyası

ətrafında birləşən hər bir soydaşımız harada yaşamasından asılı olmayaraq ana Vətənin inkişafına,onun dünya birliyində layiqli yer tutmasına və tanınmasına,mədəniyyətimizin təbliğinə,ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasına töhfə verməyi özünün mənəvi borcu sayır. Hazırda dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar arasında həmrəyliyin möhkəmləndirilməsi,onların təşkilatlandırılması və güclü Azərbaycan diasporunun formalaşdırılması respublikamızda dövlət siyasətinin mühüm istiqamətini təşkil edir.

Ulu öndər Heydər Əliyevin dediyi kimi,"Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir.Ərazimizdə yaşayan azərbaycanlı da,ləzgi də,avar da,kürd də,talış da,udin də,başqası da-bütünlükdə hamısı azərbaycanlıdır".Bu sözlər son dərəcə mühüm əhəmiyyət kəsb edir.Belə ki,Azərbaycan xalqı yalnız bütöv bir şəkildə dünya ölkələri tərəfindən tanınır,maraq edilir.Ayrı-ayrılıqda heç kim üçün maraqlı deyilik.

Azərbaycan Respublikası çoxmillətli ölkədir.Azərbaycan etnosunun tarixinə nəzər salsaq görərik ki,əhalinin əksər hissəsini azərbaycanlılar, qalan hissəsini isə müxtəlif xalqların nümayəndələri təşkil edir.Belə azsaylı xalqlara udinləri, ingiloyları,xınalıqları, buduqları,tatları, talışları,ləzgiləri aid etmək olar.Bu azsaylı xalqların tarixən Azərbaycandan başqa vətənləri olmamışdır.Buna görə də Azərbaycan türkləri ilə birlikdə Azərbaycan millətinin nümayəndələri hesab olunurlar.Bunlardan başqa ölkə daxilində ruslar,ukraynalılar,kürdlər,yunanlar, yəhudilər,almanlar və s. yaşayırlar.[1]Lakin bu millətlərin hər birinin öz Vətəni var.1992-ci ildə imzalanmış "Azərbaycan Respublikasında yaşayan milli azlıq,azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması,dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında"fərmanına əsasən onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşları hesab edilir. Respublikamızda 380-dən artıq dini icmanın mövcud olması və onlara eyni münasibətin göstərilməsi Azərbaycanı dünya miqyasında tolerant ölkə kimi tanıtmışdır.Təkcə Bakıda iyirmidən çox müxtəlif mədəni icma var.Bunlara rusların,kürdlərin,ləzgilərin, tatların,yəhudilərin,Axısqa türklərinin, yunanların və digər cəmiyyətləri aiddir.Milli azlıqların kompakt şəkildə yaşadığı rayonlarda belə icmalar var.Hal-hazırda Azərbaycanda məscidlərlə yanaşı sinaqoqlar,kilsələr fəaliyyət göstərir.Qeyd edək ki,ölkə prezidentinin 2001-ci il Sərəncamı ilə hazırlanan "Milli azlıqların hüquqlarının qorunması üzrə Azərbaycan hökümətinin hesabatı" Avropa Şurası tərəfindən müsbət

qarşılanıb.Avropa Şurasının rəsmiləri Azərbaycanda milli azlıqların hüquqlarının qorunması sahəsində heç bir problemin olmamasını birmənalı şəkildə qeyd ediblər.

Respublikamız üçün ən çətin ağır bir dövr olan 1993-1995-ci illərdə Ulu öndər Heydər Əliyevin ölkə ərazisində yaşayan etnik qruplarla,digər xalqların nümayəndələri ilə mütəmadi olaraq görüşməsinin,onlara xüsusi diqqət və qayğı göstərməsinin nəticəsidir ki,ölkəmizdə yaşayan bütün xalqlar,millətlər Azərbaycan cəmiyyətini formalaşdırmağa,müstəqil dövlətimizin daha da qüdrətlənməsinə,inkişaf etməsinə öz töhfəsini verə bilirlər.Ulu öndər Heydər Əliyevin sitatlarının birində vurğulanır: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq.Dövlət,ölkə nə qədər çox xalqı birləşdirsə,bir o qədər zəngin olur,çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz tövfəsini verir" [10].

Ulu öndər Heydər Əliyevin qurduğu Azərbaycan Respublikası bu gün onun davamçısı olan İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir.Ümummilli Lider Heydər Əliyevin təşəbbüskarlığı ilə ölkəmizdə Azərbaycan xalqının multikultural dəyərlərinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən fəaliyyət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.[17]Prezident İlham Əliyevin multikulturalizmə,tolerantlığa verdiyi dəyəri sosial,mədəni müstəvilərə köçürülmə işində Heydər Əliyev Fondunun böyük xidmətləri danılmazdır.Bu layihələr Azərbaycan multikulturalizmini ölkə daxilində qapalı səviyyədə deyil, bütün dünya səviyyəsində tanınmasına nail olur.Fondun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri,Milli Məclisin deputatı,Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraaitində birgə yaşama", "Azərbaycan-tolerantlıq məkanı" və s. layihələrini xüsusi qeyd etmək olar.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədəki etnik-mədəni müxtəlifliklərin tənzimlənməsində multikulturalizmə yüksək qiymət verməsinin əsas göstəricilərindən ilk növbədə cənab Prezidentin 28 Fevral 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Millətlərarası,multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyinin yaradılmasını qeyd etmək olar. Həmçinin 14 May 2014-cü il tarixli fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Bakı Beynəlxalq Multikulturalizm

Mərkəzinin əsas məqsədi tolerantlığın və mədəni,dini,linqvistik müxtəlifliyin qorunmasını təmin etmək,Azərbaycanı dünyada multikulturalizmin mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq etməkdir.[14]

Getdikcə sürətlənən və xalqları bir-birinə yaxınlaşdıran qloballaşma prosesi sanki cəmiyyətlərdəki qırılma nöqtələrini daha da dərinləşdirir.Hal-hazırda dünya miqyasında dini ayrı-seçkilik güclənməkdədir,hətta bu proses bəzən dini münaqişələrin yaranmasına da səbəb olur. Belə mənfi halların Vətənimizə təsir etməməsi və ölkəmizdə dini müxtəlifliyin birliyi üçün cəmiyyətdə tolerantlığın hakim mövqe tutması vacibdir.

Tolerantlıq latın sözü olan ”tolerancia” sözündən götürülmüşdür. “Tolerant” sözü Azərbaycan dilinə “dözümlü” kim tərcümə olunur. Tolerantlıq vətəndaş cəmiyyətinin əsas əxlaq prinsipidir.Tolerantlıq həm sosioloji,həm psixoloji,həm də kulturoloji məna kəsb edir və mütləq qarşılıqlı ünsiyyət şəraitində özünü büruzə verir.Tolerantlıq müxtəlif cəmiyyətlər və mədəniyyətlər arasında dialoq və sülhün yaranması prosesidir.İftixar hissi ilə qeyd edilməlidir ki,bu gün bütün dünyanın başlıca demokratik dəyərlərindən biri kimi təbliğ etdiyi tolerantlıq xalqımızın əsrlər boyu formalaşan və bütün dünyanın örnək olan xarakterik xüsusiyyətidir[6].

Lakin onu da xüsusi vurğulamalıyıq ki,ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi,dini sahədə sabitliyə nail olunması,dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması məhz Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.Bu dövrə qədər Azərbaycanda tolerantlıq,dözümlülük ənənləri olsada,beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz Heydər Əliyev tərəfindən qurulmuşdur.Azərbaycan Respublikası müstəqillik qazandığdan sonra Heydər Əliyevin fəaliyyəti nəticəsində ölkədə din və etiqad azadlığı tam təmin edilmiş,milli-mənəvi dəyərlərə münasibət kəskin sürətdə dəyişmiş,dini ayin və mərasimləri yerinə yetirmək üçün bütün dinlərə mənsub olan insanlara bərabər şərait yaradılmışdır. Heydər Əliyev həmişə ölkədəki tolerantlığın vəziyyəti ilə maraqlanmış,dinlərarası,millətlərarası münasibətlərin yüksək səviyyədə olmasına diqqət yetirmişdir[17].

Bu gün dini baxımlılıq cəhətdən Azərbaycan çox zəngin ölkədir.Heydər Əliyev müxtəlif mədəniyyətlərin,etnosların təmsil olunduğu Azərbaycanda tolerantlığın möhkəmləndirilməsində ənənəvi və qeyri-ənənəvi dinlər arasında münasibətlərin qanun çərçivəsində sivil yolla tənzimlənməsi dini ekstremizmə qarşı mübarizədə bütövlüklə təhsilin,dini maariflənmənin rolunu nəzərə alırdı. Azərbaycanda mövcud olan tolerantlığı

müzakirə etmək üçün 1999-cu il 16 Noyabr “Beynəlxalq Toleranrlıq Günü” kimi qeyd edilir.Bu əlamətdar gündə ölkəmizdəki dini konfessiyaların başçıları ilə görüş keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu görüş zamanı Heydər Əliyev tolerantlıq anlayışına toxunaraq bu məfhumun qısa və lakonik izahını vermişdir:”Tolerantlıq,dözümlülük çox geniş anlayışdır.O,həm insani münasibətlərin,həm cəmiyyətdə gedən proseslərin,həm də dövlətlərarası,millətlərarası,dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. O,təkcə dinlərin bir-birinə dözümlülüyü deyil,həm də bir-birinin adətlərinə,mənəviyyatına,mədəniyyətlərə dözümlülük deməkdir.”

Heydər Əliyev iştirak etdiyi bütün beynəlxalq səviyyəli tədbirlərdə tolerantlıq və multikultural dəyərlərlə bağlı fikirlərini bildirmiş,xüsusilə də qloballaşma dövründə dinlərarası,millətlərarası məsələlərə həmişə üstünlük vermişdir. Azərbaycan ərazisində müxtəlif dinlərin liderlərinin səfərlərinin təşkil olunması Ümummilli Lider Heydər Əliyevin siyasətinin tərkib hissəsidir. Çünki bu cür səfərlərin təşkil edilməsinin əsasında Azərbaycanın tolerantlıq ideologiyalarını nümayiş etdirmək,eyni zamanda bu reallığı və Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq,təbliğ etdirmək dayanırdı. Ulu Öndərin Azərbaycanda tolerantlıq və multikultural dəyərlərinin inkişafındakı rolunu müxtəlif dini liderlərin çıxışlarında da görmək mümkündür.[5]Azərbaycanda multikulturalizm və tolerantlıq ideologiyalarının formalaşmasında Heydər Əliyevin xidmətlərini dəyərləndirən Ümumgürcüstan Katolikos Patriarxı II İlya demişdir:”Bu gün Azərbaycanda mövcud olan tolerant mühitin formalaşmasında Heydər Əlirza oğlu Əliyevin xidməti böyükdür. Azərbaycanın öz ənənəvi dəyərlərini qoruyub saxlamaqla müasir dünyanın çağırışlarına ləyaqətli cavab verə bilməsi,şəxsən onun və onun davamçılarının müdrik və uzaqgörən siyasətinin nəticəsidir”. Bundan əlavə bir neşə il ərzində Moskva və Ümumrusiya Patriarxı II Aleksinin, Roma Papası II İohann Pavelin, Rum Patriarxı Varfolomeyin Azərbaycana səfərləri təşkil olundu və bu ali qonaqlar ölkəmizdəki tolerantlığın şahidinə çevrildilər.2001-ci ilin may ayında Azərbaycanda səfərdə olan II Aleksi ölkəmizdəki tolerantlıq mühitinə heyran qalaraq səmimi demişdir: “Burada pravoslavlar heç bir sıxışdırmaya məruz qalmadan öz dinlərinə və əqidələrinə etiqad edirlər. Hətta bu cür şərait təəssüf ki,bəzi pravoslav ölkələrində belə yoxdur”.

Azərbaycan dünyada məscid, kilsə və sinaqoqların bir arada olduğu, həmçinin müxtəlif dinlərin nümayəndələrinin heç bir ayrı-seçkilik halı ilə qarşılaşmadıqları nadir

ölkələrdən biri,bəlkə də birincisidir. Bu gün Azərbaycan ərazisində yalnız kilsə və sinaqoqlar deyil,həm də bir çox xristian,yəhudi dini tədris müəssisələri sərbəst şəkildə fəaliyyət göstərir və onlara dövlət tərəfindən qanun çərçivəsində lazımi dəstək göstərilir. Dinlərə və dini-fəlsəfi cərəyanlara münasibətdə öz tolerantlığı ilə seçilən Azərbaycan xalqı bu xüsusiyyətinə görə nəinki Şərqdə, hətta bütün dünyada fərqlənmiş və bu gün də fərqlənməkdədir. Bu yalnız bizim söylədiyimiz fakt deyil, bütün dünyanın etiraf etdiyi,vurğuladığı həqiqətdir.

Beləliklə,ölkənin daxili siyasətinin tərkib hissəsi olan multikulturalzm və tolooerantlıq bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bu çərçivədə keçirilən tədbirlər isə multikulturalizmin intellektual göstəricilərinin artıq Azərbaycanda formalaşdığını göstərir. Bir sözlə,əminliklə qeyd etməliyik ki,müasir dövrdə Azərbaycanda multikulturalizm və tolerantlıq ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının tərkib hissəsidir.

**Azərbaycanda multikulturalizmin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu. Tolerantlıq-Azərbaycanın dövlət siyasəti**

Multikulturalizm yaşam tərzi kimi müasir dünyamızda son dərəcə həyati əhəmiyyət kəsb edir.Multikulturalizm və tolerantlıq ideologiyaları Azərbaycanın siyasətinin əsas hissəsini təşkil edir.Ölkəmizdə siyasi multikulturalizmin banisi olan Heydər Əliyevin həyata keçirdiyi bu siyasət İlham Əliyev tərəfindən uğurla davam etdirilir.Azərbaycanın multikulturalizm və tolerantlıq ideologiyalarına sahib olması,onu inkişaf etdirməsi aparıcı beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən də yüksək qiymətləndirilir.

**Ədəbiyyat**


1. http://www.anl.az/down/Azsayli_xalqlar.pdf
2. http://www.anl.az/down/meqale/azerbaycan/2014/iyul/384752.htm
3. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=34273
4. http://www.clb.az/html/tov9.pdf
5. http://elibrary.bsu.az/books_90/N_14.pdf
6. http://elibrary.bsu.az/books_90/N_85.pdf
7. http://www.xalqqazeti.com/az/news/politics/71215

**8.** http://www.interaztv.com/society/13838
**9.** ..\Downloads\1679-Multikulturalizme_Girish-112s (1).pdf
**10.** http://multikulturalizm.gov.az/milli-qurtulusa-aparan-yolda-heyder-eliyev-azerbaycan-multikulturalizminin-siyasi-banisi-kimi/
**11.** http://multiculturalism.preslib.az/az_a1.html
**12.** http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/item/259-multikulturalizm-azaerbaydzan-n-doevlaet-siyasaeti-dzaemiyyaetin-haeyat-taerzidir
**13.** http://strateq.az/arashdirma/26098/alim-baxisi-multikulturalizm-n%C9%99dir-v%C9%99-onun-olk%C9%99-ucun-n%C9%99-%C9%99h%C9%99miyy%C9%99ti-var.html
**14.** http://www.stj.sam.az/post/az%C9%99rbaycan-respublikas%C4%B1n%C4%B1n-multikulturalizm-siyas%C9%99tinin-onun-xarici-siyas%C9%99tin%C9%99-t%C9%99siri
**15.** http://scwra.gov.az/vnews/1589/
**16.** http://scwra.gov.az/upload/Files/Qezet/Jurnal/08-jurnal-2015.pdf
17. http://www.yap.org.az/az/view/interview/284/ulu-onderimiz-heyder-eliyev-azerbaycanin-multikulturalizm-ve-tolerantliq-modelinin-banisidir-

**Badalova S.**

Summary

Multiculturalism has an extremely vital significance in a modern world as a life aspect.The main part of Azerbaijan policy covers multiculturalism and tolerance ideologies. The present policy that was realized by Heydar Aliyev,the founder of political multiculturalism in our country is successfully continued by Ilham Aliyev. The intend of Azerbaijan to possess and improve multiculturalism and tolerance ideologies is also highly appreciated by international organizations and the World Union

**ISMAİLOVA DİLARA ABDUL QİZİ**

*Azerbaijan University of Languages, Azerbaijan*

## TEACHING ENGLISH IN A MULTICULTURAL CONTEXT AT THE AZERBAIJANI UNIVERSITY OF LANGUAGES

*Key words: multiculturalism, tolerant, integration, competence*

*Açar sözlər: multikulturalizm, tolerantlıq, inteqrasiya, səriştə*

*Azerbaijan is a country of rich cultural and spiritual heritage and traditions of tolerance. Today, this truth is recognized on the international arena.*

*Multicultural and tolerant values have universal character.*

*The atmosphere of tolerance is always at the highest level in Azerbaijan.*

*The multiculturalism which has turned into a state policy appears as an invariable lifestyle in modern Azerbaijani society.*

*Today, Azerbaijan is a full member of such authoritative organizations as the UN, OSCE, the Council of Europe, the Organization of Islamic Cooperation, and GUAM. Azerbaijan successfully continues process of integration into Europe within the Eastern Partnership project implemented by the European Union.*

Azerbaijani multiculturalism has got international recognition and is subject of study in many organizations and universities around the world.

**Education**

The independent Azerbaijani state and its founder Heydar Aliyev always showed attention and care for languages, culture, customs and traditions of the ethnic minorities living in the country.

*"Azerbaijani Multiculturalism" is included in curricula of 13 prestigious higher education institutions of the world countries and 28 higher education institutions of Azerbaijan.*

Integration of the education system of Azerbaijan in the international, including in the European educational space is possible on condition of close cooperation with the international organizations. With respect thereto, one of the main activities of the Ministry of Education consists in strengthening of communications and mutual cooperation with the international organizations. A specific place among such communications is held by development of cooperation with the Council of Europe, participation in the international and regional education programs realized by this organization.

Multicultural education is an approach to education that aims to include all students, promote learning of other cultures, and teach healthy social skills in a multicultural

setting. “It is the present and future of education,” according to Allison, B.N. (2007, p.99)., who runs a business offering online courses to students worldwide. “Multicultural classrooms are a melting pot of learning,” the author says. “Rather than a passive, one-way flow of learning from teacher to student, there is a brainstorming of ideas, stories, and experiences that enrich the educational experience in ways that are impossible in monocultural classes.

The English language classroom provides an obvious multicultural context for learning, and teachers need to help students understand and appreciate the differences and similarities among the various ethnic, religious and cultural groups. This study aims to examine teachers' understanding of and attitudes towards multiculturalism, and in so doing, find out what are the language teaching strategies used in promoting and enhancing successful multicultural interactions. Teachers should be able to seize this opportunity to foster tolerance and understanding in classrooms of diverse cultural backgrounds.

The main aim of foreign language education in Azerbaijan is developing intercultural competence that overlaps foreign language communicative competence as one of its integral parts. We consider foreign language communicative competence as a prerequisite for intercultural competence and that intercultural competence embraces mostly the ontological aspect of personality molding whereas communicative competence covers the language and speech skills of an individual. In a most general way intercultural competence can be defined as the ability to realize oneself in a cultural dialogue. This main idea can be differently interpreted.

The teaching methodology is based on some different approaches for any language learning context. **The first approach** is the communicative approach of language teaching; where explanation of different ways and strategies can be used to give the students a major role in their own learning. This is based on using the target language and implementing interactive activities that engage the students in meaningful ways. Communicative language teaching (CLT), or the communicative approach, is an approach to language teaching that emphasizes interaction as both the means and the ultimate goal of study.

Language learners in environments utilizing CLT techniques, learn and practice the target language through the interaction with one another and the instructor, the study of

"authentic texts" (those written in the target language for purposes other than language learning), and through the use of the language both in class and outside of class.

Learners converse about personal experiences with partners, and instructors teach topics outside of the realm of traditional grammar, in order to promote language skills in all types of situations. This method also claims to encourage learners to incorporate their personal experiences into their language learning environment, and to focus on the learning experience in addition to the learning of the target language. *Nunan, David (1991 p.25).* According to CLT, the goal of language education is the ability to communicate in the target language. J., (Savignon, Sandra,1997,p.45).

**The second approach** is teaching culture, where how and what to teach students in order to raise their cultural awareness of the second language. English as an international language has also started to develop a close affinity with research in the area of intercultural communication. English is widely used for intercultural communication at the global level today. It is becoming increasingly recognized that "intercultural competence" needs to be viewed as a core element of "proficiency" in English when it is used for international communication. It is true that Miller(1997, pp. 88-90) asserts that despite the need for some culture, users of English as an international language do not need to internalize the cultural norms of the original native-English speaking countries in order to effectively utilize the language. Since English as an international language does not necessarily "belong" to any country but what teachers do need to recognize is the need to broaden their students' horizon beyond the purely linguistic aspects by placing greater weight on the cultural background of the target language (TL) countries, and Trying to raise some kind of intercultural awareness which, in time, bring about ***Intercultural Communicative Competence***. According Alptekin, C. (2002, pp.57-62) towards intercultural communicative competence. this comprehensive competence integrates the cognitive (knowledge of languages and cultures, as in traditional , the pragmatic (the competence to perform speech acts) and the attitudinal domains (open-mindedness and tolerance, as in political education) within FL learning. Therefore, teachers need to develop some sort of ***intercultural dimension*** in the classroom.

Importance of Cultural Awareness for Intercultural Communication in the Teaching of English as an International Language**.**

Intercultural awareness in language learning is often talked about as though it were a 'fifth skill' - the ability to be aware of cultural relativity following reading, writing, listening and speaking. Language itself is defined by a culture. We cannot be competent in the language if we do not also understand the culture that has shaped and informed it. We cannot learn a second language if we do not have an awareness of that culture, and how that culture relates to our own first language/first culture. It is not only therefore essential to have cultural awareness, but also intercultural awareness. Then, it is necessary to review these key elements and their relevance to accomplish the purpose of the second approach:**Intercultural communication:** common, necessary part of people"s personal and professional lives;

**Intercultural competence:** ability to become effective and appropriate in interacting, the sensitivity to cultural diversity;

**Cultural awareness:** an important role to overcome difficulties to ensure smooth communication with people from different backgrounds

**Intercultural communication competence:** ability to effectively and appropriately execute communication behaviors to elicit a desired response in a specific environment.

And **the third approach** is the use of technology inside the language classroom in a way to find new venues where students can have multiple language exposures. The application of classroom tools which involve the use of new technologies is gaining more and more supporters and is practiced frequently, not only in private schools (which are usually better equipped and provided with high-quality teaching materials), but also it made its way to the public schools, where foreign language lessons are more and more often supported by digital materials.

The process of teaching is enhanced with interactive technologies, among which are reflexive, student-centered methods, such as discussions, debates, case-study, role-playing, project activities and other ways to develop critical thinking and learning autonomy of the students.

The usage of tools described above depends on availability of technological devices. Starting from the basics, a personal computer with a possibility to display the image for all the students to see, so with a projector, an interactive board or a TV set. Internet connection is not always necessary, although, it makes lessons easier to prepare

and quicker in a matter of interaction. A teacher equipped with such a set can benefit from digital resources and tools efficiently. Students, using modern technological devices individually, can revise and experience authentic materials provided by a teacher either during classes, or at home. Being able not only to watch but to participate actively, makes students more involved and satisfied with the results obtained. That is why, both students and teachers should have an access to the variety of multimedia through different technology devices.

**Teaching English to Azerbaijani students in Multicultural Classrooms**

The English language classroom provides an obvious multicultural context for learning, and teachers need to help students understand and appreciate the differences and similarities among the various ethnic, religious and cultural groups. This study aims to examine teachers‟ understanding of and attitudes towards multiculturalism, and in so doing, find out what are the language teaching strategies used in promoting and enhancing successful multicultural interactions. Teachers should be able to seize this opportunity to foster tolerance and understanding in classrooms of diverse cultural backgrounds.

The classroom is a critical social arena where individual lives are shaped and influenced through attitudes and values, which are embedded in both the content and the process of learning. Positive values, for example, an acceptance and conceptual understanding of difference, are important to success (Byram, M. (1997, p.63). Teaching and assessing intercultural communicative competence multilingual matters.

Modeling awareness of our own culture and its influence on how we approach the lesson allows students to explore their own culture. Students can then begin to question how their own values influence how they interact with and think about individuals who differ from themselves. We should also inform students that they do not have to agree with us or accept our values. Culture affects the way we teach and therefore we really cannot engage in bias-free teaching.We constantly convey our values to students by the way we talk, or do not talk about individuals, about people with different cultural backgrounds. If we want our students to understand culture and its effects on others then multiculturalism need to be injected or infused in the curriculum. Students live in a diverse world and teachers need to provide the relevant opportunities to apply this intercultural understanding in their daily lives. It is important to emphasize, that teachers

must remain mindful of their values and seek to identify and address ways in which their biasness interfere with their ability to engage in culturally competent teaching. Language is a vital means of transmitting culture and a common source of confusion, even among members of the same culture .Every language is part of a culture, and it serves and reflects cultural needs. Even so there are areas in the world where societies share a very similar cultural orientation and yet speak languages that are not only mutually unintelligible but completely unrelated and structurally different. This is especially true when we have a class of students learning, speaking English, all from varied cultural background. The importance of the language to be taught to all students.

Due to the lack of understanding of ethnic, racial, social, and linguistic diversity of students, teachers can engage themselves consciously or unconsciously in practices that may not be suitable in the classroom. Due to the failure on the part of teachers to understand, accept, and appreciate who these students are, students may feel that the learning environment is alien and hostile toward them. This situation causes stress, anxiety, and a feeling of a lack of support among students, which can affect students‟‟ daily academic performance.

While teachers agree that knowledge of multiculturalism is important, there were a few who did not show any concrete behaviour in promoting it in the class. An experienced teacher of seven years felt that it would certainly be helpful in the adult language class based on the experience she had. She admitted the awkwardness when she assumed that the students‟‟ knowledge background were of the same level, being in the same level of English proficiency class. Much to her surprise she was assuming too much when she thought the students did not have problems doing the task assigned. She was not aware that where the students were from had no access or exposure to the popular branded items she wanted identified. The inexperienced teachers said reminders on existence of cultural differences, listening to their opinions, voices, avoid prejudices, give tasks on essays of students‟‟ different cultures, food, and generally choose and design topics and techniques that could bring forth discussions and different points of view.

Teaching effectively in a multicultural classroom requires culturally sensitive strategies and content to provide equal opportunities for academic success and individual growth of all students. The most effective teachers have learned to understand the

cultures of students and their students trust them Byram, M. (1997, p.61). Teaching and assessing intercultural communicative competence multilingual matters.

Teachers need to develop an awareness of their own cultural perspectives, beliefs and behaviors and to be aware that their own cultural perspective is not the universal perspective and the only right one. Pre-service teachers need to acquire multicultural competence, the ability to be functional in cross-cultural settings. The teaching strategies seen by the teachers as could be effective in dealing with the students came about because of some of the difficulties experienced during their teaching practicum.

Although multiculturalism is a common issue in the world, it is not much stressed in teacher training programmes. Teachers can become culturally sensitive and knowledgeable about second language acquisition, provide culturally responsive instruction and content that reflects central aspects of a culture and use highly motivating instructional materials. It is apparent that the participants find it agreeable for teachers to be trained. Suggestions and recommendations from the interviewees wanted some kind of short courses. There is need to know what goes on in their minds give students and what they feel about the differences in culture especially when they interact amongst themselves as learning does not only take place in the classroom but outside, or informally as well. Not well-equipped with the knowledge and the teaching experience most of them they felt that a proper training session on multiculturalism should be given. Specific topics like intercultural communications should be introduced so that teachers as well as students could be more psychologically prepared in dealing with multicultural facets and issues.

**Conclusions**

This paper is based on a small study focusing on the teaching of English at the university of languages in Azerbaijan. Studying teachers  perceptions concerning their preparation to work with culturally diverse students assist the teacher programs to prepare teachers to work more effectively with culturally diverse students. Teachers need to involve themselves in critical reflection and learn to appreciate cultural diversity in the university. It is thus imperative for universities to provide opportunities for teachers to think about and discuss cultural diversity. Teachers today are faced with the many challenges of educating students who are from very varied cultural backgrounds. The purpose of this study is thus to examine what the teachers‟ understanding of

multiculturalism is and what were some of the teaching strategies adopted in promoting multiculturalism. Teaching English in a Multicultural context is significant in three approaches: **the first approach** is the communicative approach of language teaching; **the second approach** is teaching culture, where how and what to teach students in order to raise their cultural awareness of the second language; and **the third approach** is the use of technology inside the language classroom in a way to find new venues where students can have multiple language exposures.

The English language classroom provides an obvious multicultural context for learning, and teachers need to help students understand and appreciate the differences and similarities among the various ethnic, religious and cultural groups.

**Reference**


1. Allison, B.N. & Rehm, M.L. (2007). Teaching strategies for diverse learners in FCS classes. Journal of family and consumer Sciences. 99,
2. Alptekin, C. (2002). Towards intercultural communicative competence. ELT Journal, 56(1):57-64.
3. Byram, M. (1997). Teaching and assessing intercultural communicative competence multilingual matters.
4. Clevedon: Multilingual Matters.

5. Miller, Howard M. "Beyond 'Multicultural Moments' (Middle Gorund)." English Journal 86 (1997): 88-90.
6. *Nunan, David (1991-01-01). "Communicative Tasks and the Language Curriculum". TESOL Quarterly.* ***25*** *(2): 279–295. doi:10.2307/3587464*
7. J., Savignon, Sandra (1997-01-01). *Communicative competence : theory and classroom practice : texts and contexts in second language learning*. McGraw-Hill. ISBN 9780070837362. OCLC 476481905.
8. Clevedon: Multilingual Matters.
9. Chao, T. (2011). The hidden curriculum of cultural content in internationally published ELT textbooks: A.closer book at new American inside out. The Journal of Asia TEFL, 8(2): 189-210


**İSMAYILOVA D.**

Xülasə

AZƏRBAYCAN DİLLƏR ÜNİVERSİTESİNDƏ MULTİCULTURAL KONTEKSTİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ üç yanaşmada əhəmiyyətlidir: ilk yanaşma dil tədrisinin kommunikativ yanaşmasıdır; ikinci yanaşma mədəniyyəti tədris edir; ikinci dilin mədəni şüurunu artırmaq üçün tələbələrə necə və nə öyrətmək; və üçüncü yanaşma, dil sinifinin içərisində texnologiyanı tələbələrin bir çox dili pozuntuya məruz qaldığı yeni yerləri tapmaq üçün istifadə edir.

İngilis dili sinifində təhsil üçün aydın çox mədəniyyətli bir kontekst təmin edilir və müəllimlər müxtəlif etnik, dini və mədəni qruplar arasındakı fərq və oxşarlıqları anlayan və qiymətləndirən tələbələrə kömək etməlidirlər.

**Mustafayeva Səmra Elmir qızı,**

**Əlizadə Gülşən Alı qızı**

*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan*

## MULTİKULTURALİZM BAYRAĞI ALTINDA AZƏRBAYCAN VƏ HEYDƏR ƏLİYEV SİYASƏTİ

***Açar sözlər:*** *Azərbaycan, multikulturalizm, Heydər Əliyev siyasəti, multikulturalizm modelləri*

***Key words****: Azerbaijan, multiculturalism, H.Aliyev's policy, multiculturalism models*

**Multikulturalizm anlayışı.** Məqalənin başlanğıcında ilkin olaraq bu tərifin nə demək olduğunu aydınlaşdırmaq istəyirik. Multikulturalizm ingilis dilindən tərümədə "çox mədəniyyətlilik" mənasını verir. Hər bir ölkə sərhədində müxtəlif etnosların, etnomədəni tərəflərin, azlıqların öz mədəniyyətlərini harmonizasiya etmək, qoruyub saxlamaq və müxtəlif bu növ hüquqlarını müəyyən edən model multikulturalizm modeli adlanır. Tolerantlığın təcəssümü kimi multikulturalizm xalqların sülh, əmin-amanlıq şəraitdə yaşamasını təmin edən humanist bir ideologiya, nəzəriyyədir. Bir xalqın mədəniyyətini, tarixini bilmədən onlara hörmət bəsləmək və tolerant olmaq mümkün deyil. Bu sahədə qarşılıqlı zənginləşmə, mədəniyyət mübadiləsi, həmin xalqların tarixinin öyrənilməsi olduqca vacibdir. Multikulturalizm məhz bu prosesi həyata keçirir.

Multikulturalizmi digər izolyasionizm, assimilyasiya, aparteid kimi anlayışlardan fərqləndirmək lazımdır. İzolyasionizm mədəni müxtəlifliyə azlıqları dövlət daxilində

məskunlaşdırlmaqla mane olur. Assimilyasiya ifadəsi həm fərdi, həm də daha böyük çərçivədə hakimlik edənin üstünlüyünü göstərmək üçün istifadə oluna bilər. Assimilyasiya digər mədəni azlıqların hakim olan mədəniyyətə adaptasiya olması, ölkəyə yeni daxil olmuş və uzun müddət burada yaşayan azlıqların mədəniyyətlərinin əridilməsinə səbəb olur. Digər siyasət isə aparteiddir ki, assimilyasiya prosesinə əngəl olmaq məqsədi ilə bir əhali qrupunun tam təcridinə yönəlir. Multikulturalizm isə digərlərindən fərqli olaraq müxtəlif mədəniyyətlərə, onların rəngarəngliyinə olan reaksiyaların toplusudur.

Multikulturalizm siyasi xəttinin seçilməsi inkişaf etmək üçün olduqca böyük əhəmiyyət kəsb edir, fəqət buna baxmayaraq hal-hazırda bəzi Avropa ölkələri bu kulturoloji siyasətin idarə olunmasını olduqca çətin hesab edərək bundan imtina etmişlər.Onlar vurğulayırdılar ki, bəzi azlıqlar inteqrasiya prosesinə qoşulmaq istəmir və bu, məsələni olduqca çətinləşdirir.İmtina variantının seçilməsinin həmin ölkələr üçün nə qədər düzgün oldub olmadığını deyil, bu variantın onlara yaxşı heç nə vəd etmədiyini vurğulaya bilərik[7]. Ulu öndərimizin də vurğuladığı kimi “ Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir” [8].

**Azərbaycanın multikulturalizm modeli.** Dövlətlərin mədəni müxtəlifliklərə, azlıqlara qarşı siyasətindən və bu prosesdə rolundan danışarkən dövlətdə azlıqların məskunlaşdırılmasının 2 yönümünü göstərə bilərik: məcburilik və könüllülük əsasında. Könüllü şəkildə dövlət öz məqsədlərinə və siyasətinə uyğun şəkildə ərazisində müxtəlif mədəniyyətlərə malik olan azlıqları yerləşdirir. Yəni onların artmasına şərait yarada biləcək siyasət xəttini müəyyən edir. Məcburi dedikdə isə başqa dövlətlər tərəfindən onların siyasi maraqlarına uyğun bir şəkildə müxtəlif azlıqlar həmin ərazidə məskunlaşdırılır.[Azərbaycan Multikulturalizmi,səh 7-8] Bu gün dünyada multikulturalizmlə bağlı müxtəlif dövlət modelləri olsa da, Azərbaycanın hazırladığı model heç də onlardan geri qalmır. Bu gün dünyada mövcud olan modellər İsveç, ABŞ, Kanada, Avstraliya modelidir. Bu modellər haqqında qısa məlumat verdikdən, digər ölkələrdə multikulturalizm siyasi xəttini yazdıqdan sonra Azərbaycan modeli barədə danışa bilərik. Bu müqayisə bizə həm fərqli, həm də oxşar cəhətləri üzə çıxarmaqda yardımçı olacaq.
Multikulturalizmin amerikan modeli qarşısına bu multikultural dünyadan baş çıxarmaq

və dəyərli vətəndaşlar qazanmaq üçün öz siyasətinə uyğun model hazırlayıb. Bu model azad söz, iqtisadi azadlıq,vaideynlərin gələcək nəsil yetişdirdiyi üçün hüquqlarının bu aspektdən müəyyənləşdirilməsi, federalizm, dini azadlıq çərçivəsində müəyyənləşir. Əvvəllər anqlo-saksonlar immiqrantlarla bərabər olan zaman üstün mövqeyə malik idilər, sonradan vəziyyət dəyişdi. Hal-hazırda tətbiq olunan amerikan modelində immiqrantlar amerikanın dəyərlərini qəbul etsələr də, orada dərin irqçilik və etnik ekstremizmin qarşısını alan mexanizmləri görürük.
Multikulturalizmin İsveç modelinin özünəməxsusluğu dövlətin burada geniş rol oynamasıdır. Əsasən dil və təhsil sahəsində modelin özəlliklərini daha dərindən görə bilərik. İmmiqrantlar İsveç dilini öyrənməklə yanaşı, öz doğma dillərində də təhsil ala bilərlər. Kanada modeli barədə danışmazdan öncə vurğulamalıyıq ki, etnik tərkib cəhətdən Kanada olduqca zəngindir. İmmiqrant dalğası zamanı və bundan öncə bu ərazidə yaşayan müxtəlif xalqları nəzərə alsaq Kanadaya çoxmillətli dövlət deyə bilərik. Bu modelin özünəməxsusluğu bununla ölçülür ki, Kanadadakı immiqrantlar özlərini bu cəmiyyətin bir parçası kimi dərk edir, qeyri-xristian və ya avropadan olmayan şəxslər Kanada xristianları tərəfindən olduqca gözəl və isti münasibətlə qarşılanırlar. Avstraliya Kanadadan sonra bu harmonik siyasəti rəsmi olaraq öz xətti kimi müəyyənləşdirmişdir. İmmiqrasiya axını zamanı Avstraliyada da müxtəlif mədəniyyətlərin daşıyıcıları məskunlaşmışdılar. Avstraliya hökuməti multikulturalizmi olduqca yüksək qiymətləndirir, hətta köçürülmə zamanı buraya gələn əhalinin yaratdığı işçi qüvvəsinin Avstraliyanın iqtisadiyyatı üçün nə qədər vacib olduğunu vurğulayır.[2]

Azərbaycana din, adət-ənənə baxımından daha yaxın olan Türkiyə modelinə nəzər salsaq, ilk olaraq görəcəyimiz fərq Qərbin tarixin hər səhifəsində müxtəlif immiqrant axınına məruz qaldığı zamanda Türkiyənin bundan kənar qalmasıdır. Bu da öz növbəsində tək millətli dövlət kontekstindən multikulturalizm modelini əks etdirir. Əsas vəzifə azlıqların öz mədəniyyətini qoruyub saxlanması, onlara da hər bir vətəndaş kimi hüquqlar verilməsi və hüquqlarının tanınmasıdır.[Azərbaycan multikulturalizmi, səh 391-393]

Və nəhayət Azərbaycan modeli barədə danışa bilərik. Aydındır ki, Azərbaycan Respublikasının ümumilli lideri H.Əlieyv tərəfindən əsası qoyulan “Multikulturalizm siyasəti” bu gün də uğurla davam etdirilir. Multikulturalizm “azərbacançılıq məfkurəsi”-nin bir parçasıdır. Dünyanın bəzi ölkələri bu siyasətdən imtina etsə belə, sistemdə

Azərbaycançılıq ideologiyası hələ də bu siyasəti özündə saxlaya bilib. Bu onu göstərir ki, əslində Azərbaycan bütün dünya dövlətləri üçün nümunə ola biləcək model yaradıb. "Azərbaycançılıq" məfkurəsi bir tərəfdən xalqımızın milli kimliyinin qorunması, adət-ənənələrinin yaşaması və digər tərəfdən multikultural ənənələrə əsaslanaraq millətin bütöv şəkildə mövcudluğuna imkan verdi. Bu birlik hər zaman Azərbaycan üçün çox vacibdir. Bir-biri ilə zidiyyət təşkil etmədən həm kimliyin, həm də tolerantlığın qorunub saxlanılması çox böyük uğurdur və həqiqətən, təqdirəlayiqdir. "Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur".[ Ə. Kərimov, 2016, "Multikulturalizm azərbaycançılıq məfkurəsinin təkib hissəsi kimi"]

**Heydər Əliyev və multikulturalizm.** Multikulturalizmdən danışarkən ilk öncə qeyd etmək istərdik ki, tolerantlığın timsalı olaraq meydana gələn bu anlayış çox böyük dəyərə malikdir. "Çoxlu mədəniyyətlər" kimi tərcümə olunan bu söz, müxtəlif xalqların bir ölkədə sabitlik şəraitində yaşamasında böyük rola malikdir. Həm müxtəlif xalqlara, həm müxtəlif fikirlərə, eyni zamanda müxtəlif din, dil- ümumiyyətlə, bütün fərqliliklərə baxmayaraq xalqların birgə yaşayışını təmin etməyin əsl adı məhz- Multikultutalizmdir. Multikulturalizmdə dünyanın dərk olunması əsas prinsip kimi qəbul olunur. Çoxmillətlilik və onun yaratdığı çoxmədəniyyətlilik özlüyündə dünyanın dərk olunmasını ehtiva edir. [Əliyeva Sara, "Azərbaycan multikulturalizm modelinin qlobal prespektivləri", 2017]
Beləliklə, multikultural dəyərlər bir dövlət üçün çox vacib əhəmiyyətə malikdir. Multikultural cəmiyyətə sahib olmaq sabit, inkişaf edən və prespektivli cəmiyyətdə olmaq deməkdir. Azərbaycan xalqının tarixini izlədikdə biz bunun şahidi oluruq. Uzun müddət müxtəlif dinlərin, dillərin, xalqların olmasına baxmayaraq həmin xalqlar firəvan şəkildə yaşamağı bacarmışlar. Müxtəlif dinlərə, dillərə- ümumiyyətlə, mədəniyyətlərə hər zaman tolerant münasibət bəslənilmişdir. Xalqımız müxtəlif ölkələrin tərkibində olmasına baxmayaraq bununla paralel öz milli kimliyini qorumağı daim bacara bilmişdir. Tolerantlıq və mənəvi potensial, dini loyallıq və milli özünəməxsusluq, bəşəri dəyərlərə açıqlıq Azərbaycan insanını multikultural bir rejimin içinə daxil etməyə hazır idi. [Azərbaycan tolerantlıq ənənəsi, səh 47]
Azərbaycanın XX əsrdə ən çox çətinlik çəkdiyi problemlərdən biri, müstəqillik əldə

etdikdən sonra ölkədə separatçıların baş qaldırması, dövlətə qarşı sui-qəsd olmuşdur. Bu separatçılıq Azərbaycanı XIX əsrdə olduğu kimi yenidən bölə bilərdi, ancaq bu zaman xalqın xilaskarı H. Əliyevin yeritdiyi müdrik və rasional siyasət həm dövləti, həm də xalqımızı yox olmaqdan qurtardı.
XX əsrin sonlarında assimilyasiya və izolyasiya kimi modellərdən imtina edərək, multikultarlizm siyasətini önə verən  və "qardaş qırğını"-nın qarşısını almağa çalışan məhz H. Əliyev oldu.

H. Əliyev nəinki ölkədə həmin vaxt yaranmış bu ciddi problemi həll etdi, eyni zamanda qeyd etməliyik ki, sonrakı nəsillərin yararlana biləcəyi siyasi kursun banisi oldu. Tolerantlığı əsas götürərək ölkəmizdə yaşayan bütün xalqlara, habelə fərqli dini mənsubiyyətə malik olan şəxslərə, fərqli fikirlərə hörmətlə yanaşılması və bərabər hüquqlardan yararlanması üçün imkanlar verildi. Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunan zaman multikulturalizm siyasəti və tolerantlıq bir sıra maddələrdə öz əksini tapdı. Bu maddələr isə aşağıdakılardır:

"Bərabərlik hüququ" (maddə 25), bənd 3

"Milli mənsubiyyət hüququ" ( maddə 44), bənd 1 və 2

"Ana dilindən istifadə hüququ" (maddə 45), bənd 1 və 2, həmçinin digər qanunlarda əsaslandırılmışdır.
Multikultural dəyərlərin ulu öndər H. Əliyev tərəfindən qorunması Azərbaycanın demokratik ölkə olmasının bariz sübutudur. Bu dəyərlərin qorunması ilə Azərbaycan həm də dünyaya inteqrasiya edir, dünyada tanınır.
Bu gün Azərbaycanda mövcud olan tolerant ənənələr bütün dünyaya nümunədir. Məhz bu səbəbdən istənilən xalqdan, millətdən, dindən olan hər kəs ölkəmizə rahat şəkildə gələ bilir. Xalqımızın qanında olan və min illərdir qorunub saxlanılan bu dəyərlər H.Əliyevin "multikulturalizm siyasəti" ilə çox uyğundur. Məhz bu səbəbdən, ulu öndər xalqımızın qurtarıcısıdır. Həmin dövr üçün bu siyasətdən başqa hər hansısa addım atmaq olmazdı, əks halda bu gün biz burda həmin dəyərlərdən danışa bilməzdik. Azərbaycan multikulturalizmin simvol ölkələrindən biridir.
Multikultural ənənlərin ən mühüm göstəricilərindən biri və demək olar ən əsası məhz dindir. Azərbaycan tarixindən bəlli olduğu kimi, ölkəmiz həm də müxtəlif dinlərin birləşdiyi məkandır. Çoxtanrıçılıq, bütpərəstlik, zərdüştlük, xristianlıq, islam və müasir dövrdə bir çox dinlər bu ərazidə mövcud olmuşdur. Tolerant dəyərlərə malik olan

xalqımız müxtəlif dini mənsubiyyətlərə hörmətlə yanaşmışdır. “Respublikamızın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar” [Niftiyev N,2015, səh 54]

Luka Volonte Azərbaycanda müxtəlif dinlərə qarşı yüksək səviyyəli münasibətin Avropaya da model ola biləcəyini bu sözlərlə ifadə etmişdir: “Dinlərarası münasibətə görə Azərbaycan bizim öyrənməyimiz üçün çox yaxşı nümunə ola bilər. Azərbaycanda bu mühit instisional təsisat deyil. Bu, siyasi qərar olaraq da verilməyib. Bu, Azərbaycan xalqının daxili təzahürüdür” [“Azərbaycanda tolerantlıq ənənəsi”, 2015, səh 31]

H. Əliyev kursunun görkəmli nümayəndəsi olan İlham Əliyev tərəfindən də Ulu Öndərin banisi olduğu “Multikluturalizm siyasəti” bu gündə uğurla davam etdirilir. XXI əsrdə bir çox dövlətlər multikulturalizm modelinin uğursuz olduğunu bildirir və onun artıq istifadə olunmayacağını qeyd edirdilər. Onlar bunu dünyada baş verən siyasi proseslər və xüsusilə də, müsəlmanlarla əlaqələndirir, faktiki olaraq islamafobiya üçün şərait yaradırdılar, fəqət Ulu Öndərin layiqli davamçısı multikultural dəyərləri ölkədə qoruyub saxlamağı bacardı. Təsadüfi deyil ki, 2016-cı il “Multikulturalizm ili” adlandırılmış, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Bu Azərbaycanda müasir dövrdə də tolerant ənənələrin və multikultural dəyərlərin qorunmasının gösəricisidir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin(BBMM) əsas məqsədi Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, liqivistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada mulikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etməkdən ibarətdir.[“Azərbaycan tolerantlıq ənənəsi”, səh 53]

Dünyanın bir sıra ölklərində multikulturalizm modelinin inkar olunmasına baxmayaraq bu dəyərləri İlham Əliyev də qoruya bildi. Bunu həm də xalqımızın tarixən formalaşan və böyük gücə malik “dözümlülüyü” ilə izah edə bilərik. Bir xalq üçün formalaşmış xarakter yeridilən siyasətdə çox vacibdir. Bu gün Avropa müsəlmanları və digərlərini bu siyasi xətti aparmağa mane olmaqda günahlandırsa da, bizim ölkədə heç bir “fərqlilik” buna imkan vermir. Zənnimizcə, bu, bizim böyük üstünlüyümüzdür. Bu siyasətin sağlam köklərə malik olmasına görə biz Ulu Öndərimizə borcluyuq.

### ƏDƏBİYYAT

**1.** Azərbaycan Multikulturalizmi, Ali məktəblər üçün dərslik, Bakı 2017, 416 səh

2. “Azərbaycanda tolerantlıq ənənəsi”, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015,160 səh

3. Əliyeva Sara, “Azərbaycan multikulturalizm modelinin qlobal prespektivləri”,14.04.2017

4.Ə. Kərimov, 2016, “Multikulturalizm azərbaycançılıq məfkurəsinin təkib hissəsi kimi”, (http://scwra.gov.az/vnews/1339/)

5. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015, 408 səh

6.http://bakuforum.az/az/multikulturalizm-nailiyyetler-ve-problemler/?fid=2258

**7**.http://multiculturalism.preslib.az/az_a1.html

8.http://www.xalqqazeti.com/az/news/news/94192

**Mustafayeva S.**

**Əlizadə G.**

**Summary**

İn this article we are going to discuss multiculturalism and its models. Even though many countries proposed their multiculturalism models, Azerbaijan’s multiculturalism model was appreciated. Our great leader H. Aliyev had the best policy after Azerbaijan declared its independence. This policy stabilized the relations between Azerbaijan and other countries. One part of this great policy was multiculturalism and the ideology of “Azərbaycançılıq”. Today Azerbaijan has a great place among foreign countries and H. Aliyev did a lot for this. His successor  Aliyev properly pursue multiculturalism policy.

**MƏHƏRRƏMOVA NİGAR**
*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

# ƏSRLƏR ÖNCƏ YOLA ÇIXAN MULTİKULTURALİZM BU GÜN AZƏRBAYCANDA

*Açar sözlər: multikulturalizm, tolerantlıq, yanaşı yaşama*

Multikulturalizm nədir? Bu ilk növbədə, bir ölkədə mədəniyyətlərin qarşılıqlı təsirində müəyyən "keyfiyyət"ə nail olunmasına yönəlmiş demokratik dövlət strategiyasıdır. Multikulturalizm hamı tərəfindən tanınan, müxtəlif mədəniyyətlərə tolerant münasibətə əsaslanan dinc, yanaşı yaşama prinsipidir. Multikulturalizmdə fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlülük mövqeyi bəsləmək əlbəttə ki, təbiidir. Müxtəlif xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibət xasdır.

Etnik azlıqların kompakt yaşadığı yerlərdə ümumtəhsil məktəblərinin ibtidai siniflərində doğma dil tədris olunur: müvafiq dillərdə tədris proqramları və dərs vəsaitləri, folklor və şeir məcmuələri, bədii ədəbiyyat nəşr olunur; qəzet və jurnallar çıxır, dövlət milli teatrları və bədii özfəaliyyət kollektivləri fəaliyyət göstərir.

Multikulturalizmə dair çox misallar gətirmək olar. Məsələn, əgər insanın şüurunda və intellektində mücərrəd təfəkkür, yaradıcı fikrində multikulturalizm ideyası olmasaydı, onda Nizami hələ o vaxt, XII əsrdə yeddi mədəniyyəti təsvir etdiyi —Yeddi gözəl əsərini yazmazdı. Höte Şərq divanını yazmazdı. Yalnız ədəbiyyat və poeziya sahəsində deyil, eyni zamanda memarlıq sahəsində də dünyaya öz incilərini – şah əsərlərini bəxş edən ərəb-ispan mədəniyyəti yaranmazdı. Orta əsrlərdə islam və xristianlığın belə sintezi mədəniyyətlərin dialoqu, yəni yenə də multikulturanın çiçəklənməsidir. Bu proses bugün də davam edir. Yəni miltikulturalizm hadisəsi yeni deyil . Bunsuz bəşər inkişafı mümkünsüzdür.

Multikultural cəmiyyətin formalaşması və inkişafı tarixi təkamülün xüsusiyyətləri ilə, daha dəqiq desək, sosial amillərlə müəyyənləşmişdir.

Hələ zaman- zaman müxtəlif ölkələr üçün xarakterik olmuş bu anlayış öz aktuallığını bu gün də saxlayır. Götürək orta əsrlərdən bu günə qədər öz inkişaf dinamikasını yaşayan Britaniya multikulturalizm ənənələrini.

"Medieval (orta əsr) multikulturalism" nə deməkdir? Zəngin etnoqrafik ədəbiyyat orta əsr əhalisinin yaşadığı multikultural dünyaya baxışı bu günə gətirib çıxararaq özündə əks etdirir. Bu ədəbiyyatların siyahısında Charles Homer Haskins (1929),

Monte Cassino və on altı Anqlosentrik topikini görmək olar. Sonrakı onilliklərdə medievalizmlə bağlı geniş imkanlar açıldı. 1982-də C.H.Haskinsin xatirəsinə həsr olunmuş məhşur "Volume" işıq üzü gördü.

Ümumiyyətlə, Avropada multikulturalizminin inkişafında iki əsas mənbənin adı çəkilir:

1. Milli azlıqlar
2. Immiqrantlar.

İmmiqrantlar üçün multikulturalizm dedikdə siyasi güc, iqtisadi fürsətlər, vətəndaşlığa keçmə kimi imkanlar başa düşülür.

Orta əsr İngiltərə həyatı haqqında danışarkən immiqrantların məskunlaşdığı çoxlu malikanələrini görmək olardı. Əsas şəhərlər olan London, York, Bristol, Southampton və s. idi. Buraya daha çox Flanders və Şimali Italiya kimi böyük ticarət şəhərlərindən iş üçün gəlirdilər.

Qeyd etməliyik ki, bir çox tədqiqatçılar orta əsr Britaniya tarixindən bəhs edərkən 1066-cı illəri xüsusilə qeyd edirlər. Bu o zamanlar idi ki, Fransız işğalçıları ingilis krallığını zəbt etmiş, ölkəni öz müstəmləkəsinə çevirmişdir. Bu gün Birləşmiş Krallıqda bunun təzahürləri hər yerdə aydın görünür. 1362-ci ildə qəbul olunan "parlamentary decree" dən danışsaq, burada maraqlı faktlar ortaya çıxır . Məsələnin məğzində ingilis dilinin doğma və xarici dialektlərlə qarışması dayanırdı. Bunu Britaniyanın rəsmi dilində də görmək olardı. Məhz elə bu vaxtlar idi ki, məhşur ingilis yazıçısı Ç. Chaucer öz əsərlərini " vernacular" ingilis dilində yazırdı. Hətta iş o yerə çatmışdır ki, ölkədə onun yazıları sayəsində həmin dil üslubu populyarlaşmışdı.

Məhz bu baxımdan məsələyə yanaşsaq, bu günkü ingilis dilinin kökləri çox qədim dövrlərə gedib çıxır. Bu gün də söz verib-alma prosesi dayanmır. "Linqvo-franca" dünyada bu baxımdan aparıcı rol oynayır.

Beləliklə, Birləşmiış Krallıq multikulturalizm siyasətini çoxdan qəbul etmiş bir dövlətdir. Eyni zamanda müxtəlif mədəniyyətlərə mənsub insanların orada yaşamasını təmin edir. Onları məcburi olaraq "British ways" yaşam tərzini seçməyi deyil, öz mədəniyyətlərini burada təbliğ etməyə dəvət edir.

Onu da qeyd etməliyik ki, immiqrantlar və multikulturalizm dedikdə bütün qərb ölkələri "immiqrasiya axını" taleyini yaşamamışdır. Burada bəzən rəsmi dövlət siyasəti, bəzən də immiqrantların özlərinin arzu və fəaliyyətlərinin rolu danılmaz

olmuşdur. Məsələn: ABŞ-da immiqrantların özləri bəzən amerikalı olmaq istəyi ilə bu ölkəni seçirlər. Bunun əksinə olaraq, Fransa immiqrantları "yeni ev" lərinin qayda – qanunlarını qəbul etməyə meyllidirlər.

Bir məsələni də qeyd etmək yerinə düşərdi. Belə ki, immiqrantların bu ölkədə yaşamaları təkcə vergi büdcəsinə köməklə bitmir, onlar həm də öz dilləri ilə leksik inkişafa öz töhvələrini verirdilər. İngilislərlə müəyyən mənada ünsiyyətə nail olmaq üçün var gücləri ilə cəhd göstərirdilər .

1381-ci ildə İngiltərədə hadisələrin axını fərqli məcraya doğru dəyişdi. Qulların hücumu baş verdi. 1440- cı ildən 1480-cı ilə kimi, parliament vergi almaqda davam edirdi. Tudor rejimi öz qüvvəsini saxlayırdı. Britaniya iqtisadiyyatında büdcə bu qədər xeyir götürməmişdi. Burada bir məsələ gün işığı kimi aydın görünürdü. İmmiqrantlar 1440-cı illərdən sonra davamlı olaraq işlərinə davam edirdi. Lakin qarşıda vergilərin yaratdığı real gərginliyin təzahürləri aydın sezilməkdə idi.

Orta əsr Britaniyasından bəhs edərkən, J. B. Pristley özünün "English Journey" əsərində "community" deyilən anlayışın üç növündən danışır:

1. metropolitan
2. urban
3. rural.

Lakin onu da qeyd edək ki, Britaniya "rural community"nin mərkəzi hesab olunmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, ənənəvi Birləşmiş Krallıqlar ardıcıllıqla " industrial", "imperial", "suburban", "metropolitan", "urban", "rural", "tourist", "multikultural" mərhələlərdən keçmişdir. Bunlar da öz növbəsində bu ölkənin tarixində özünəməxsus izlər buraxmışdır.

Son dövrlər İngiltərədə bəzi siyasətçilərin israrlı şəkildə multikulturalizm terminindən istifadə etmək istəmədiklərini görmək mümkündür. Bu sözün əvəzinə ən çox plüralizm, müxtəliflik, mədəniyyətlərarası dialoq və ya ictimai inteqrasiya kimi ifadələrdən istifadə edirlər.

O da qeyd edilməlidir ki, İngiltərədə multikulturalizm prinsiplərindən bəhs edərkən belə bir fikir söyləyirlər ki, bu ölkənin sözü gedən prinsiplərdən uzaqlaşması yerin daha çox multikulturalizm terminindən uzaq durma tendensiyasının yarandığına işarədir.

Multikultural cəmiyyətin formalaşmasında və inkişafında *demokratiya* mühüm rol oynayır, daha dəqiq desək, demokratiya multikultural cəmiyyətin təkamülü üçün əlverişli şərait yaradır. Multikultural cəmiyyət ilk növbədə Qərbi Avropanın və Şimali Amerikanın demokratik ölkələrində mövcud olmuşdur. Həmin ölkələrdəki tolerantlığın, əxlaqi qaydalara uyğunluğun və demokratiyanın yüksək inkişaf səviyyəsi orada multikulturalizmin ideyalarının yayılması üçün münbit şəraitin yaranmasına vəsilə olmuşdur.

Qeyd etməliyik ki, bölgələrin tarixi inkişafındakı müxtəlifliyə uyğun olaraq, həmçinin multikultkralizmin də müxtəlif modelləri olmuşdur. Bu modellər arasında Amerika, İsveç, Avstraliya və Kanada modelləri qeyd edilir.

Beləliklə, multikulturalizmin müxtəlif modellərini təhlil edərkən aşağıdakı ümumiləşdirməni aparmaq istərdik:

Multikulturalizm – pozitiv sosial təzahürdür. O, cəmiyyətdə inkişafı dəstəkləyən və ona münbit şərait yaradan mühüm faktordur;

Bundan əlavə, bu sosial təzahür etnik münaqişələrin qarşısını almaqda maraqlıdır və xalqlar arasında əməkdaşlığın bərqərar olmasına xidmət edir;

Multikulturalizm – cəmiyyətdə mədəni müxtəliflik əleyhinə çıxan qüvvələrin qarşısını almaq üçün alternativ siyasət kimi meydana gəlmişdir;

Demokratiya multikultural cəmiyyətin formalaşmasında ən mühüm yerlərdən birinə sahibdir;

Bölgələrin tarixi inkişafının xüsusiyyətləri multikulturalizmin fərqli modelininin yaranmasını müəyyənləşdirmişdir;

Multikulturalizmin müxtəlif modelləri arasında bəzi fərqlərin olmasına baxmayaraq, multikultural cəmiyyətinin formalaşmasında və multikultural ətraf mühitin dəstəklənməsində ən öndə gedən rol dövlətə məxsusdur.

Yaşadığımız bu narahat dünyada multikulturalizm xilasedici rola malikdir. Burada konkret etno-mədəni və yanaşı yanaşma konsepsiyaları uyğunluq təşkil etməlidir. Multikulturalizmin əsas məzmun xəttini sosial bərabərsizlikdən uzaqlaşmaq təşkil edir.

Əvvəla, bir məsələni başa düşmək lazımdır ki, biz multikulturalizmi mövcud mühitin demokratikləşdirilməsi, sərbəst qarşılıqlı təsirin və mədəni plüralizmin

yaranması tendensiyası ilə səciyyələnən yeganə mümkün strategiya və ya çoxsaylı strategiyalardan biri kimi qəbul edirik.

Belə ki, mədəni mühit ta qədim dövrlərdən müxtəlif mədəniyyətlərə, müxtəlif dinlərə açıq olan bir muhit kimi meydana gəlmişdirsə, onda bu mühitin digər mədəniyyətlərə də inteqrasiyası asan baş tutur.

Bu, qloballaşan dünyada insanların, öz ailələrilə əlaqəni itirməməyə, bu əlaqəni qorumağa imkan verən ən maraqlı adaptasiya kanallarından və formalarından biridir. Bu, hətta miqrasiya növü anlayışını da dəyişdirməyə qadir olan güclər sırasındadır. Bu zaman əmək mühacirəti doğrudan da müvəqqəti miqrasiyaya çevrilir – yeni ərazidə oturaq mühacirət olmur.

Azərbaycanda da multikulturalizmin ən parlaq təzahürlərinə rast gəlmək mümkündür. Belə ki, multikultiralizm Azərbaycanda nisbətən yeni termin kimi yaransa da, əsrlər boyu bu ideya-siyasi istiqamət diqqət mərkəzində olmuş , müxtəlif xalqlar bu ölkədə şən, firavan, toxunulmaz şəraitdə həyatlarına davam etmiş və bu gün də bu yaşam tərzi davam etməkdədir. Bu baxımdan Azərbaycan Respublikası çoxmillətli dövlətdir.

Respublikamızın Prezidenti İlham Əliyevin AMEA-nın 70 illik yubileyində söylədiyi nitqdə multikulturalizmin ölkəmizdə rolundan bəhs etmişdir və burada Azərbaycan modelinin əsas konturlarının müəyyən olunduğunu qeyd etmişdir. *“Multikulturalizm - Azərbaycanda dövlət siyasətidir və eyni zamanda ictimai sifarişdir. Çünki bu, bizim üçün normal həyat tərzidir”* [1, s. 15].

Müəyyən edilmiş bu model multikulturalizmə həyat tərzi formatından dövlət siyasəti və ictimai sifariş səviyyəsində elmi yanaşmaları, bu faktoru bütün yönləri və ənənələri ilə birlikdə araşdırıb öyrənməyi, həm də müasir cəmiyyət üçün proqnozlar təklif etməyi tələb edir.

Bütün qeyd etdiyimiz bu faktlar Heydər Əliyev siyasətinin davamı olaraq həyata keçirilir. Bu gün də bu irs öz aktuallığını, orijinallığını saxlamaqda davam edir. Məhz ulu öndər Heydər Əliyevin siyasətinin göstəricisidir ki, bu gün ölkəmiz çoxsaylı xalqlara ev sahibliyi edir və isti qucağını bu xalqlara səxavətlə açmışdır. Burada müxtəlif xalqların nümayəndələri: Azərbaycan türkləri ilə yanaşı milli azlıqlar – udinlər, ingiloylar, qrızlar, xınalıqlar, buduqlar, tatlar, talışlar, ləzgilər və digər millətlər

yaşayırlar. Bu millətlər Azərbaycanı öz doğma vətəni hesab edir və bundan da fəxarətlə danışırlar.

Bundan əlavə, respublikada ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar da bu gözəl ölkəni özlərinə vətən hesab edirlər. Bu milli azlıqların hər birinin muvafiq olaraq tarixi vətəni vardır və Azərbaycan ərazisində yaşayan milli azlıqlara aid edilirlər.

Təkcə Bakıda iyirmidən çox müxtəlif mədəni icmalar fəaliyyət göstərir. Bunların arasında rusların, ukrainlərin, kürdlərin, lakların, ləzgilərin, slavyanların, tatların, tatarların, gürcülərin, ingilayların, talışların, avarların, axıska türklərinin, Avropa və dağ yəhudilərinin, gürcü yəhudilərinin, alman və yunanların cəmiyyətlərinin fəaliyyətini misal göstərmək olar. Ümumiyyətlə, etnik azlıqların kompakt şəkildə yaşadıqları bütün rayonlarda belə icmalar mövcuddur.

Azərbaycan Respublikasında müxtəlif milli azlıqların nümayəndələri yaşayır və onların hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini, etnik özünüdərketmə və etnopsixologiyasını qoruyub saxlayan unikal xüsusiyyətlərin daşıyıcılarıdır. Məhz Azərbaycanda dağ yəhudilərinin məskəni – Qırmızı Sloboda, Molokan kəndi, İvanovka, udin kəndi, Nic, öz dili, özünəməxsus adət və ənənələri ilə məşhur olan Xınalıq kəndi və başqa milli azlıqların yaşadığı onlarla belə məskənlərin adını çəkmək olar və onların hamısı Azərbaycan ictimaiyyətinin ayrılmaz hissəsi hesab olunur. Etnik azlıqlar yerli əhali ilə bərabər mədəni hüquqlara və ölkənin mədəni irsindən istifadə hüququna da malikdir.

Onların yaşadığı ərazilərdəki məktəblərdə öz doğma dilləri tədris olunur. Tədris proqramları və dərs vəsaitləri, folklor və şeir məcmuələri, bədii ədəbiyyat nəşr olunur; qəzet və jurnallar çıxır, dövlət milli teatrları və bədii özfəaliyyət kollektivləri fəaliyyət göstərir. Tarixi abidələr bu ölkədə müştərək yaşamanın ən bariz nümunəsini özündə əks etdirir. Buna misal olaraq, abidələrin qorunması məqsədilə Astara, Qax, Quba, Zaqatala və digər rayonların tarix-ölkəşünaslıq muzeylərində, həmin ərazilərdə yaşayan etnik azlıqların irsini və ənənələrini əks etdirən ekspozisiyalar mövcuddur. Bu sahədə kitabxanalar da səmərəli fəaliyyət göstərir. Burada milli azlıq nümayəndələrinin kitablarının təqdimatı keçirilir və bu kitablar kitabxananın fondunda qorunub saxlanılır.

Azərbaycan xalqının tarixi yaddaşı bütün dinlərin qəbul edilməsində vacib rol oynayır. Azərbaycanda dinlərarası dialoq və tolerantlığın dünyanın bir çox polietnik

regionları üçün nümunə olan xüsusi modelinə malikdir. Müasir Azərbaycan modeli çərçivəsində, bütün dinlər qanun qarşısında bərabər statusludurlar. Ölkədə bütün dinlərin nümayəndələri dövlət tərəfindən xüsisi qayğı ilə əhatə olunmuşdur. Öz tarixi ənənələrinə söykənən Azərbaycanda vətəndaşların mədəni, o cümlədən dini tələbatlarının təmin edilməsinə nümunə kimi Bakıda "Müqəddəs qadınlar" kilsəsinin açılmasını göstərmək olar. Bu kilsə XX əsrin əvvəllərində məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin sayəsində tikilmiş, XXI əsrin əvvəllərində isə yenidən öz bərpa dövrünü keçirmişdir;

– pontifik II İohann Pavelin Azərbaycana səfəri zamanı tikintisinə xeyir-dua verdiyi yeni katolik kostyolunun (polyak kilsəsi) açılması da Azərbaycanda dinlərə münasibətin ən yüksək səviyyədə olduğundan xəbər verir.

– Bakıda sinaqoq yenidən özünün bərpa dövrünü yaşamışdır.

Bizim ölkəmiz etnik azıqların təkcə bir yerdə yaşaması üçün deyil, həm də ümummilli həmrəyliyin inkişafı üçün əlverişli bir məkandır. Başqa cür ifadə etsək, etnik, dini və s. mənsubiyyətindən asılı olmayaraq ərazisində həyatını yaşayan hər bir vətəndaş Azərbaycanın sərvəti hesab olunur.

**ƏDƏBİYYAT**

1. Strateji Təhlil jurnalında: Prezident İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda iştirak edib / 09 noyabr 2015/ - http://www.president.az/articles/16703.

2. James, Furnivall, ed. Originals and Analogues of Some of Chaucer's Canterbury Tales London: Oxford UP, 1872. Rept. 1928.

3. Langland, William. Piers Plowman. Ed. Derek Pearsall. Berkeley and Los Angeles: California P, 1979.

4. Metlitzky, Dorothee. The Malter of Araby in Medieval England. New Haven and London: Yale up, 1977.

5. Minnis, A. J. Medieval Theory of Authorship: Scholastic and Literary Attitudes in the Later Middle Ages. London: Scholar p, 1984.

6. Orientalism. New York: Vintage Books, 1979.

7. Schlauch, Margaret. Chaucer's Constance and Accused Queens. New York: New York UP, 1927.

**N. Maharramova**

**SUMMARY**

The article is devoted to the **improvement of multiculturalism in Britain and Azerbaijan**. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goal of the article is to detect and find out the role of multiculturalism. The author emphasizes the role of extralinguistic factors, referring to the works of scientists that have been researched in this filed. She emphasizes that since its emergence, caught the attention of investigators and new researches appeared.

**Сидеиф-заде Севиндж**

*Азербайджанский университет языков, Азербайджан*

## РОССИЯ И АЗЕРБАЙДЖАН - ОПЫТ МЕЖКУЛЬТУРНОГО ДИАЛОГА

**Ключевые слова:** Азербайджан, Россия, диалог, мультикультурализм, россиеведение

История российско-азербайджанских отношений корнями уходит глубоко в века успешно крепнет и развивается и в наши дни. Наблюдается взаимодействие, взаимопроникновение и взаимная трансформация идентичностей. Исторически сложившееся культурное многообразие в контексте современных трансформаций обусловливает потребность новой философии взаимодействия национальностей, культур и вероисповеданий.

Как отмечает Президент Азербайджанской Республики Ильхам Алиев, «испокон веков наш народ, превратив толерантность, терпимость и уважение к другим религиям и культурам в стиль жизни, вносил значительный вклад в этот процесс» [1].

Межкультурный и межрелигиозный диалоги в Азербайджане являются прерогативой творческой интеллигенции, которая имеет несомненный авторитет как в стране, так и в масштабах всего мира. Азербайджанская диаспора России будучи самой многочисленной среди зарубежных диаспор, является частью общественно- политической, экономической и культурной жизни России и

относится к категории диаспоры, оказывающей влияние на развитие межгосударственных отношений. Азербайджанцы, ставшие в России учеными, врачами, нефтяниками, служителями мельпомены, интегрировавшись в российское общество, обогащают и знакомят его с Азербайджаном. Совместно с комитетом Общественных связей Правительства Москвы, Библиотекой имени Некрасова проводятся Дни азербайджанской культуры, вечера, посвященные выдающимся национальным писателям, композиторам, художникам, ученым. Федеральная национально-культурная автономия Азербайджанцев России имеет свои региональные автономии. За годы работы Санкт-Петербургской НКА Азербайджанцев России была проделана большая созидательная работа.

В ноябре 2007 года вице-президент Фонда Гейдара Алиева Лейла Алиева выступила инициатором создания Азербайджанской Молодежной организации России - АМОР. Лейла Алиева рассказала об основных целях и задачах организации: «Мы сегодня с помощью азербайджанской молодежи формируем на российской земле важную общественную структуру под названием «АМОР». [2] Организация стала самой активной азербайджанской молодежной организацией за пределами Азербайджана, проводящей мероприятия в Москве, Баку, Санкт-Петербурге, Твери, Иванове, Смоленске, Мурманске, Екатеринбурге.

В ноябре 2015 года вице-президент Фонда Гейдара Алиева Лейла Алиева была награждена медалью Пушкина «За большой вклад в укрепление дружбы и сотрудничества с Российской Федерацией, развитие экономических связей, сохранение и популяризацию русского языка и культуры за рубежом». Ранее Лейла Алиева была удостоена российских наград - медали «За заслуги перед Астраханской областью», медали «За заслуги перед Волгоградской областью» и Ордена святой равноапостольной княгини Ольги III степени.

Сборник статей «Мультикультурализм: тенденции и реальность», являющийся итогом совместных усилий и сотрудничества ученых Азербайджана и России, отражает в себе опыт наших стран в этом направлении и важные результаты, как бы призывая с уверенностью смотреть на совместное будущее развитие. Книга подготовлена на основе сотрудничества Института Литературы им. Низами Национальной Академии Наук Азербайджана и Ставропольского филиала Московского государственного педагогического университиета. [3] На

основе договора между вышеназванными учреждениями в мае 2014 года была проведена видеоконференция, посвященная творчеству Нобелевского лауреата Михаила Шолохова. В новую историческую эпоху широкие возможности для межкультурного и межнаучного диалога, развития сотрудничества открывают договоры, подписанные Институтом литературы им. Низами с Санкт-Петербургским Смольным университетом (2014), Институтом Мировой Литературы им. Горького РАН (2015). Подготовленные совместно с Институтом Литературы им. Низами и опубликованные в 2015-2016 годах пять посвященных азербайджанской литературе специальных выпусков-приложений к «Литературной Газете», издаваемой регулярно с 1929 года могут служить на новом историческом этапе одним из ярких образцов диалога между литературами и культурами России и Азербайджана.

Примером взаимоуважения и межкультурного диалога является жизнь русской диаспоры в Азербайджане. Члены русской общины участвуют во всех сферах жизни страны. Упрочнение культурных связей, расширение различных форм сотрудничества находит понимание в Азербайджане и России, развивая многолетнюю прочную основу мультикультурализма в действии. Россияне и азербайджанцы знают цену мирной жизни и самой жизни, прошедшие испытания Великой Отечественной Войны бок о бок, они сумели защитить не только себя, но и многие страны.

Строя общее межкультурное пространство президент Российской Федерации отметил: «Мы сотни лет опирались на свои ценности и они нас еще никогда не подводили» [4].

На международном форуме «Диалог культур» состоявшемся в 2016 году в Санкт-Петербурге, было принято решение о создании единого информационного пространства для России и Азербайджана. «Единое информационное пространство – абсолютно логичный шаг для России и Азербайджана. Между нашими странами нет языкового барьера, нет идейных разногласий, а есть только многолетняя история дружбы и добропорядочного соседства» [5] .

Созданная под руководством ректора Азербайджанского университета языков академика Камала Абдуллаева в 2017 году научно - исследовательская лаборатория «Россиеведение» сегодня в Азербайджане является центром, где проводится

изучение России как социально - исторического, культурно - исторического и общественно – политического фактора. Посольство Российской Федерации в Азербайджанской Республике и представительство Россотрудничества в Азербайджанской Республике являются постоянными и активными участниками мероприятий, организуемых на базе Азербайджанского университета языков.

## Литература


1. Президент Ильхам Алиев: Мультикультурализм – образ жизни в Азербайджане https://azertag.az/ru/xeber/Prezident_Ilham_Aliev_Multikulturalizm___obraz_zhizni_v_Azerbaidzhane-918990
2. Азербайджанская Молодежная организация России – АМОР www.amor.az
3. Мультикультурализм: Тенденции и реальность. (коллектив авторов) Баку, «Элм»,2016,192 стр.
4. Прямая линия с Владимиром Путиным 17 апреля 2014 года. /http//vm.ru/news/2014/04/17)
5. Сотникова Н.Н. Культура мира. Коллективная монография «Мир и культура: основы современного социума». Ставрополь.2016, 134стр. (из выступления депутата Госдумы, руководителя межпарламентской группы дружбы Россия-Азербайджан Дмитрия Савельева).



**Sideyif-zadə S.**



**Xülasə**

Məqalə beynəlxalq ictimaiyyətdə tanınan Heydər Əliyev Fondunun fəaliyyəti, beynəlxalq dialoq, humanitar layihələr, təhsil, mədəniyyət və səhiyyə sahəsində xeyirxahlıq tədbirlərinin yaradılmasına mühüm töhfə kimi həsr olunmuşdur. Heydər Əliyev Fondunun fəaliyyətinin multikulturalizm ənənəsinə olan töhfəsi həm Azərbaycanda, həm də xaricdə hiss olunur və nümunədir.



**Sideyif-zade S.**

**Summary**

The article devoted to the activities of the Haydar Aliyev Foundation, known to the world community, as a significant contribution to the process of establishing international dialogue, humanitarian projects, and charity events in the spheres of education, culture and health. The contribution of the Haydar Aliyev Foundation's activity to the traditions of multiculturalism is an example and tangible both in Azerbaijan and abroad.

**Vəliyeva Nigar Çingiz qızı**

*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## MÜASİR AZƏRBAYCAN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

*Açar sözlər: multukulturalizm, xarici dil, beynəlxalq əlaqələr, mədəniyyətlərarası dialoq, daxili və xarici siyasət*

*Key words: multiculturalism, foreign language, international relations, intercultural dialogue, inner and foreign policy*

*Ключевые слова: мультикультурализм, иностранный язык, международные отношения, межкультурный диалог, внутренняя и внешняя политика*

Yaşadığımız həyatda hər bir məsələdə fəlsəfi, mənəvi-etik problemlər, tərəflər, məqamlar mövcuddur. “Atalar üçdən deyib” zərb məsəlini çox eşitmişik. “Üçölçülük” anlayışı təsadüfi hal deyil. Ən azı ona görə ki, bizim həyatımızda üç rəqəmi ilə biz tez-tez rastlaşırıq. Məsələn, həyatın əsas kateqoriyası: doğum – həyat – ölüm; təfəkkürdə: ideya – fikir – hərəkət; zamanda: keçmiş – indiki – gələcək, dində: ALLAH – insan - şeytan, ədəbiyyatda: tarix – müasirlik – mistik, fantastik, tanımadığımız həyat. “Üçölçülük” nəzəriyyəsini qəbul edərək, hesab edirəm ki, müasir insan mükəmməl səviyyədə ən azı üç dil bilməlidir: ana və (ən azı iki) xarici dilləri.

Nəzərə alsaq ki, Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir, yəni Avropa və Asiya arasında, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar. Bu müsbət meyillər müstəqillik illərində də daha da güclənmişdir.

Azərbaycanda mövcud olan tarixi abidələrə nəzər salmaq yetər ki, burada mədəni müxtəliflik aydın görünsün. Misal üçün, dünyanın ən qədim məscidlərindən olan, 743-cü ildə inşa edilmiş məscid Azərbaycanın qədim Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri – Qafqaz albanlarının kilsəsi Azərbaycanın digər qədim Şəki şəhərində yaxınlığındadır. Pravoslav və katolik kilsələr, sinaqoqlar, atəşpərəstlər məbədi bizim mədəni irsimizin tərkib hissəsidir və biz bununla fəxr edirik! Müasir Azərbaycanda siyasi və iqtisadi transformasiyaya böyük sərmayə yatırılıb. Bu səbəbdən siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır. Nəzərə alaraq ki, təbii sərvətlər ölkənin transformasiyası və davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək, bu səbəbdən demokratik proses, siyasi islahatlar və azadlıqlarla bağlı məsələlər diqqət mərkəzindədir. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar mövcuddur, misal üçün, siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir.

Belə şəraitdə Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Multikulturalizm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçirilir. Müsbət meyillərin güclənməsi üçün dünyada belə tədbirlərə, açıq müzakirələrə və fikir mübadiləsinə ehtiyac var.

Təsadüfi deyil ki, məhz Azərbaycanın paytaxtında – Bakı şəhərində üç dəfə Mədəniyyətlərarası Dialoq Qlobal Forumu keçirdilib. Hər il Bakıda Dünya Dini Liderlərinin Zirvə Görüşü təşkil edilir. Bu özü gözəl göstərici və artıq ənənədir. Bu mədəniyyətlərarası dialoq məsələlərinin müzakirə olunmasının artan əhəmiyyətini nümayiş etdirir. Yüzdən artıq dövlətin nümayəndələri forumun işində fəal iştirak edib. Azərbaycan hər zaman mədəniyyətlərarası münasibətlərə müsbət dinamika verilməsi üçün öz səylərini göstərir və xalqları, dövlətləri, sivilizasiyaları bir araya gətirməyə çalışır.

Təəssüflər olsun ki, bu gün dünyanın müxtəlif yerlərində baş verənlər dərin narahatlıq doğurur. Hamımız mənfi istiqamətdə cərəyan edən meyillərin şahidi oluruq. Bu səbəbdən ölkələri, sivilizasiyaları və dinləri daha da yaxınlaşdırmaq üçün hansı işlərin görülməli olduğunu açıq və səmimi müzakirə etməliyik. Gərginliyin və nifrətin azaldılması beynəlxalq gündəmin ən mühüm məsələlərindəndir. Azərbaycanda multikulturalizm ənənələri hər zaman güclü olub və Beynəlxalq Multikulturalizm

Mərkəzinin yaradılması bu dəyərlərin təşviqi istiqamətində hökümətimizin atdığı daha bir addım olub.

Multikulturalizmin alternativi yoxdur. Təcridolunma, ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm, neofaşizm hərəkəti kimi təhlükəli amillərdir ki, onlar artıq bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub. Müasir zamanda tez-tez xoşagəlməyən hallara rast gəlirik ki, müxtəlif qitələrdə dini nifrət süni şəkildə yaradılır, etnik və dini zəmində zorakılığın da şahidi oluruq və o zaman belə vəziyyətə təsir edə bilən insanların məsuliyyəti artır. Məhz siyasətçilərin, ictimai xadimlərin, beynəlxalq təsisatların, qeyri-hökümət təşkilatlarının və medianın bu məsələ ilə əlaqədar mübarizədə məsuliyyəti artmalıdır. Bununla əlaqədar multikulturalizm dəyərlərini birgə səylərlə təşviq etmək lazımdır. Şübhəsiz ki, dünyada pessimist ideyalar da mövcuddur. Lakin multikulturalizmin müsbət nümunəsi Azərbaycandır. Azərbaycan dərin multikulturalizm köklərinə malik ölkədir və Azərbaycan xalqı qlobal arenada müsbət dəyərlərin təşviqində müvafiq rol oynayır. Azərbaycan müsəlman dünyasına mənsub olan ölkədir, ancaq eyni zamanda, onun Avropa ilə güclü bağlılığı var. Müsəlman dünyasının ilk demokratik respublikası 1918-ci ildə Azərbaycanda yaradılıb və dərhal qadınlara seçki hüququ verilib. Bu da bir sıra Avropa ölkələrindən əvvəl baş tutub. Beləliklə, Azərbaycan xalqının etnik və mədəni özünəməxsusluğu, habelə Avropanın təsiri cəmiyyətdə xüsusi ab-hava yaradıb. Əsrlər boyu Azərbaycan xalqı dəyərlərini qoruyub saxlaya bilib, siyasi və ictimai şəraitdə yaşayıb, müxtəlif dövlət və imperiyaların tərkibində olub. Bu gün Azərbaycan müstəqillik qazanıb, müsbət meyil davam edir və milli maddi-mənəvi dəyərlərin təşviqi məsələsinə sadiqdir. Danılmaz faktdır ki, müasir Azərbaycan bir çox ölkələr üçün gözəl nümunədir.

Beynəlxalq arenada Azərbaycan oynadığı rol dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Müstəqilliyinin bərpasından ötən qısa müddət ərzində Azərbaycan 155 dövlətin dəstəyi ilə ən mötəbər beynalxalq qurum olan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Bu isə, o deməkdir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləmişdir. Uzaq və yaxın qonşu ölkələrlə müxtəlif siyasi, iqtisadi, ictimai, mədəni əlaqələrini qurmaq üçün xarici dilləri yaxşı səviyyədə bilmək zəruridir. Mədəni müxtəliflik və mədəniyyətərarası dialoqun təşviqində ən vacib elementlərindən biri, əlbəttə ki, təhsildir. Azərbaycanda təhsilə böyük diqqət yetirilir və savadlılıq 100 faizə bərabərdir. Təhsil gələcəyin, inkişafın yoludur. Elə inkişaf etmiş

ölkələr var ki, onlar tərəqqini təbii sərvətlərlə deyil, təhsil, elm və texnologiyaların inkişafı sayəsində təmin ediblər. Eyni zamanda, təhsil ekstremizmə, radikalizmə, fundamentalizmə, terrorçuluğa qarşı təminatdır. Bu müasir həyatın təhlükəli elementlərinə qarşı sığortadır. Azərbaycanda təhsil sistemi transformasiya edilir, müxtəlif islahatlar həyata keçirdilir və onu beynəlxalq standartlara çatdırmaq üçün çoxlu yeniliklər tətbiq edilir. Multikulturalizm şəraitində etnik, dini, məzhəb zəminində ayrı-seçkiliklə siyasi mübarizə aparmaqdan ötrü səlis və mükəmməl şəkildə xarici dilləri bilmək vacibdir. Bu müasir zamanın tələbidir. Çağdaş dövrümüzdə mədəniyyətlərarası dialoqun səviyyəli və səmərəli şəkildə aparılması üçün  müasir insan ən azı üç dil bilməlidir. Xüsusi nəzərə almaq lazımdır ki, informasiya axını zamanı çoxlu, məsələn, texniki, psixoloji, psixofizioloji əngəllər, sosial əngəllər, milli-mədəni səbəblər, dil, üslubi, semantik, fonetik, status ilə bağlı olan maneələr müşahidə olunur. Həmçinin müxtəlif obyektiv və subyektiv səbəblərə görə də daima informasiyanın təhrifi mövcuddur. Kommunikasiya zamanı onların hamısını nəzərə almaq zəruridir.

Azərbaycan beynəlxalq arenada böyük nüfuza malikdir, çünki düzgün, səmimi, açıq siyasət aparır, həm beynəlxalq təşkilatların işində, həm ikitərəfli formatda. Məsələ bundadır ki, siyasətdə, həyatda olduğu kimi, insanın ***bir üzü*** olmalıdır. Yalnız belə halda insana hörmət edəcəklər. Azərbaycan bü hörməti qazanıb, onu yüksək qiymətləndirir, və gələcəkdə bu amil xüsusi rol oynayacaq. Müasir dövrdə milli strategiyamız göz qabağındadır və Azərbaycan hökuməti tərəfindən beynəlxalq münasibətlər sahəsində bir sıra kompleks tədbirlər həyata keçirilmiş və keçirilməkdədir. Bu istiqamətdə qarşımızda əsas vəzifələrindən biri də dünya birliyi ölkələrin sırasında Azərbaycanın nüfuzlu və özünəməxsus əsaslı yerinin tutulması və qoruyub saxlamasındadır.

## ƏDƏBİYYAT


1. Abbasbəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi, Bakı, Mütərcim, 2007, 208s.

2. Abbasov Z. Multikultural dəyərlər, tolerantlıq – Azərbaycanın dünyaya təqdim edilən bəşəri sərvətidir. Respublika qəzeti. 01.04.2016.

3. Abdullayev K.M. və başqaları.  Azərbaycan Multikulturalizmi, Bakı, Mütərcim, 2017.

4. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında: seçilmiş fikirlər, Bakı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, 2017, 528 s.

5. Heydər Əliyev irsi. Beynəlxalq Elektron Kitabxana, Bakı, Əbilov, Zeynalov və oğulları, 2006, 472 s.

6. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, Azərbaycan nəşriyyatı, 2005, 752 s.

7. Mehdiyev R.Ə. Azərbaycan - Dövlətçilik - Tarix. Qloballaşma - Azərbaycan. Azərbaycan - İqtisadi aspektlər, Bakı: XXI-YNE, 2005, 464 s.

**Valiyeva N.**

**Summary**

In modern time for a successful realization of the intercultural dialogue it is necessary to have a good practice in two foreign languages, as minimum. It is an absolute must to consider a great deal of information, during which the technical, psychological, psychophysiological, social barriers are very observable, seeing the national-cultural factors, and also language, stylistic, semantic, phonetic problems. It is necessary to mention that a constant distortion of the information had happened for the objective and subjective reasons. Taking into a consideration the all above-mentioned factors occupy a serious position in the process of realization as inner, so foreign policy of the country. The present national strategy is a clear and open for everybody and the government of our country in the sphere of the international relations assumed and assumes a complex of the actions with the aim to take and keep the own special honorable place in the world's society.

**Велиева Н.**

**РЕЗЮМЕ**

В современное время для успешного проведения межкультурного диалога необходимо владеть как минимум двумя иностранными языками. Нужно учитывать наличие огромного потока информации, при котором наблюдаются технические, психологические, психофизиологические, социальные барьеры, в виду различных национально-культурных факторов, а также языковые, стилистические, семантические, фонетические проблемы. Необходимо отметить, что происходит постоянное искажение информации по объективным и

субъективным причинам. При реализации как внутренней, так и внешней политики страны нужно учесть данные факторы.

**Бабаева Суад**

*Азербайджанский государственный экономический университет (UNEC), Азербайджан*

## МУЛЬТИКУЛЬТУРАЛИЗМ И ТОЛЕРАНТНОСТЬ – ДОСТОЯНИЕ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

***Ключевые слова:*** *мультикультурализм, толерантность, мирное сосуществование, полиэтническая и поликонфессиональная страна*

***Açar sözlər:*** *multikulturalizm, tolerantlıq, sülhün bərqərar olması, polietik və poliqonfessional ölkə*

***Keywords:*** *multiculturalism, tolerance, peaceful coexistence, polyethnic and polyconfessional country*

***Аннотация:*** Данная статья посвящена истории и традиции мультикультурализма в Азербайджане. За последние годы Азербайджан стал одним из признанных пространств, где мультикультурализм празднует победу, смело открывая миру свои достоинства и созидательный потенциал. Азербайджанский мультикультурализм — лучший образец для подражания для всего мирового сообщества.

Азербайджан, расположенный на перекрестке различных цивилизаций на протяжении многих веков, прославился как страна, где сформировалась атмосфера национального культурного разнообразия, где представители различных национальностей и конфессий живут в атмосфере мира и благополучия, взаимопонимания и диалога. Мультикультурализм и толерантность, исторически присущие жизни азербайджанцев, сегодня стали неотъемлемой чертой повседневной жизни каждого гражданина Азербайджана независимо от национальности, языка и религии. Не только сегодняшний толерантный стиль жизни наших людей, но и литературные и художественные, научные и

философские, политические и правовые источники и документы являются свидетельством богатого многокультурного прошлого азербайджанского народа.

Культурное пространство конца XX - начала XXI века основано на новых глобальных культурных реалиях. По этой причине политические и идеологические модели и механизмы межкультурных отношений породили широкие дебаты. Сегодня одной из проблем глобализации является проблема сохранения, наряду с процессом социокультурного объединения, культурного разнообразия, отношений и сосуществования отдельных культурных и исторических сообществ.

Дословный перевод английского слова «мультикультурализм» означает «много культур». Мультикультурализм направлен на сохранение, развитие и гармонизацию культурного разнообразия представителей различных религий и национальностей в отдельно взятой стране и во всем мире в целом, на интеграцию малых народов в национальную культуру государств.

Под моделью мультикультурализма понимается мирное сосуществование в границах одного государства различных этнокультурных сообществ, имеющих право на официальное выражение, защиту и сохранение культурных особенностей и образа жизни. Мультикультурализм представляет собой необходимый инструмент для диалога культур и цивилизаций.

Сегодня взгляды на перспективы мультикультурализма диаметрально противоположны. Некоторые считают, что мультикультурализм является фундаментальным условием сосуществования культур. Другие утверждают, что идея мультикультурализма в принципе несет в себе риск потери культурной самобытности, а третья группа считает, что мультикультурализм в современных условиях является новым типом модернизированной дискриминации в процессе глобализации.

В Азербайджане термин «мультикультурализм» является относительно новым – ранее понятие в основном понималось только с точки зрения культурного разнообразия.

Азербайджан традиционно является многонациональной, многокультурной страной. Можно сказать, что этническая множественность сохранилась в Азербайджане до наших дней. На протяжении всей нашей истории мы всегда жили в мире с другими народами независимо от политической ситуации или системы.

Так было до того, как Азербайджан вошел в состав Российской империи, во время нее, затем во времена Советского Союза, а традиция мультикультурализма еще больше укрепилась в период независимости. «В нашей стране мультикультурализм это образ жизни. Мультикультурные ценности основаны на вековых традициях толерантности». [Абдуллаев, 2016].

Принцип этнической и религиозной толерантности, созданный в рамках западного либерализма, не может быть универсальным принципом стабильности межэтнических и межконфессиональных отношений без учета условий и особенностей каждой страны. Как уже упоминалось ранее, Азербайджан является страной на перекрестке многочисленных культур, религий и цивилизаций. С древности эта земля была известна как мост между Европой и Азией.

nitqlərində dönə-dönə qaldırırdı. Dili xalqın böyük sərvəti hesab edən Ümummilli lider ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisini mümkünsüz hesab edirdi. Onun qənaətinə görə ana dilimiz bənzəri olmayan milli-mənəvi sərvətdir. Yaradıcılıq aləmində, söz-sənət mühitində olduğu kimi cəmiyyət daxilində, ictimai sferada dilimizin mövqeyi , bir qədər də dəqiq desək, dilimizin statusu məsələsi görkəmli dövlət xadimini rahat buraxmırdı: "Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının təkmilləşməsinə daha çox qayğı göstərmək lazımdır."[Heydər Əliyev və mədəniyyət. 2008,113-114]

Ulu öndər yaxşı bilirdi ki, dil xalqın mövcudluğunun ifadə edən ən mühüm faktorlardan biridir. Dilin sıxışdırılıb gözdən salınması, ona əhəmiyyət verilməməsi milli kimliyin unudulmasına aparıb çıxara biləcək çox təhlükəli bir amildir. Bu məsələdə sənət adamlarına tövsiyələri istər bu günümüz, istərsə də gələcəyimiz üçün böyük əhəmiyyət kəsb edir. Dilimizi yaşadanlar, zənginləşdirənlər, inkişaf etdirənlər şairlərimiz, yazıçılarımız olduğunu dönə-dönə vurğulayırdı: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq, millət ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet imperiyasının tərkibində olduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın, xüsusən, bizim söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyətidir".[Heydər Əliyev və mədəniyyət. 2008,110-111]

Heydər Əliyevin tarixi yaddaşın qorunması məsələsində xüsusi şəkildə vurğuladığı məsələlərdən biri də xalqımızın tarixi ilə əlaqədardır. Heç şübhəsiz ki, dil məsələsi kimi tarix məsələsi də xalqın taleyüklü problemlərindəndir. Bu baxımdan azərbaycançılıq düşüncəsi üzərində ciddi dayanan ülu öndər Azərbaycanın milli tarixi probleminə həssas münasibət bəsləməsi təbii idi. O, tarixə sadəcə keçmişin xronikası kimi baxmır, tarixi xalqın mənəvi özünütəsdiq amillərindən biri hesab edirdi: "Azərbaycan elə bir ölkədir ki, onun çox qədim tarixi var. Bizim tarixçilər XX əsrdə çox işlər görüblər. Ancaq mən cəsarətlə deyə bilərəm ki, Azərbaycanın, xalqın, ümumiyyətlə,

bu torpağın, ölkənin tarixi lazımi səviyyədə öyrənilməyib, tədqiq olunmayıbdır. Bu sahədə çox böyük işlər görülməlidir. Bununla onu demək istəyirəm ki, Azərbaycan nadir bir ölkədir, bəşər tarixində Azərbaycan bir ərazi kimi və Azərbaycan xalqı bir xalq kimi, böyük tarixi proseslərin iştirakçısı olubdur. Biz indi müstəqil Azərbaycanda özümüz ölkəmizin, torpağımızın sahibi olduğumuz halda, gərək bu qədim, çox zəngin tariximizi araşdırıb meydana çıxaraq və bu gün də, gələcəkdə də xalqımızın o dərin köklərini ümumi, bəlkə də bəzən çox gözəl ifadələrlə bəzənmiş sözlərlə yox, elmi sübutlarla, elmi əsaslarla həm öz xalqımıza çatdıraq, həm də dünyaya göstərək ki, Azərbaycan xalqının kökü haradandır, tarixi nədir və Azərbaycan bir ölkə kimi bəşər tarixində hansı yeri tutur. Mən açıq deyə bilərəm ki, görkəmli yer tutur. Ancaq biz bunu indiyə qədər göstərə bilməmişik"[ Heydər Əliyev və mədəniyyət. 2008,502]

Müstəqilliyin ilk illərində  Azərbaycan yazıçılarının qurultayıları həqiqətən milli özünüdərkin, özünüifadənin, milli münasibətin ifadəsi idi. Azərbaycan yazıçılarının X qurultayındakı nitqində  "Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız, öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimzdə daim milli hissiyatları oyatmağa çalışmışlar. Ümummmilli lider hesab edirdi ki, milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir

Milli taleyin qayğı və ağrıları H.Əliyevi daim düşündürmüş, ən çətin, imkansız şəritdə belə səsini ucaltmağa sinəsini qabağa verməyə vadar edirdi.  Milli kimlik məsələlərinin yasaqlandığı sovet ideoloji sistemi daxilində milli tarixi yaddaş, soykök, etnik özünütanıma problemlərinin dilə gətirilməsi o qədər də asan bir iş deyildi. 70-ci illərdə Bakıda "Türkologiya" jurnalının nəşrə başlaması böyük şəxsiyyətin mənəvi qüdrətinin misilsiz bir örnəyidir. Müstəqillik əldə etdikdən sonra bu görkəmli şəxsiyyət hələ keçmiş sovetlər dövründə türkdilli xalqların min illərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların qorunması üçün əlindən gələni əsirgəmədi. Ulu öndər qədim, çoxəsrlik tarixə malik türkdilli xalqların bəşər mədəniyyətinə töhfələr verməsindən, onu zənginləşdirmiş xüsusi bəhs etmişdir: "Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüçlərlər, təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın dərin kökləri bir-birinə mənəvi bağlılığı onları mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmış və bugünkü günlərə gətirib çatdırmışdır. Biz öz

tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərələrimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edirik. Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bügünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır.[Heydər Əliyev və mədəniyyət. 2008,501]

Ədəbi-mədəni abidələrimizə dəqiq elmi-nəzəri meyarlarla qiymət verən Heydər Əliyev təkcə Azərbaycan hüdudlarında dəyərləndirmələr aparmırdı. Onun mülahizə və düşüncələri Azərbaycan mənəvi-mədəni gerçəkliklərini Şərq mədəniyyəti kompleksi, ümumtürk konteksti daxilində təqdim və təhlil edirdi. Mənəvi mədəniyyətlərimizin tarixi köklərinin türk xalqlarının ortaq keçmişində - vahid etnik-mədəni sistem daxilində təşəkkül tapması fikrini Heydər Əliyev özünəməxsus məntiq və faktlar əsasında açıqlayırdı. "Biz, adətən, böyük tariximiz haqqında, xalqlarımızın böyük tarixi mədəniyyəti haqqında danışarkən birinci növbədə onların yaratdıqları bədii əsərlərə, şairlərimizin, yazıçılarımızın əsərlərinə istinad edirik, onları nümunə gətiririk. Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqımızın hamısına mənsub olan şairlərimiz, yazıçılarımız - Nizami, Yunis Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məxdumqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, onu dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, vətənə sədaqət hisslərini daim gücləndirmişdir".[Heydər Əliyev və mədəniyyət. 2008,469-470]

Heydər Əliyev parlaq ədəbi şəxsiyyətlərimizin əksərinin həyatını da, yaradıcılığını da yaxşı bilmiş, onların təxminən hər biri haqqında mötəbər fikrini bildirmişdir. İstənilən ədəbi abidə və istənilən qüdrətli ədəbi simaya verdiyi qiymətin, ifadə etdiyi qənaətin təkrarsızlığı, peşəkar ədəbiyyatşünas sözündən daha sərrast olması onun miqyaslı düşüncəsi ilə bağlıdır. [Hüseynov, 2010, 2-3]

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həm 1970-1982-ci illərdə, həm də 1993-2003-cü illərdə öz xalqını, onun milli-mənəvi dəyərlərini, mədəniyyətini, tarixini sevdiyini, qiymətləndirdiyini, qoruyub inkişaf etdirdiyini əməli fəaliyyəti ilə sübut edən liderdir. Xalqın milli düşüncə sisteminin bədii-poetik modeli olan Azərbaycan folklorunun inkişafı istiqamətində həyata keçirdiyi addımlar da ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərə həssas münasibətindən irəli gəlmiş, ictimai şüurun

oyanışına xidmət etmişdir. Yüzillərin qan yaddaşını daşıyıb folklor qaynaqlarına göstərilən qayğı və diqqət bütün Azərbaycan miqyasında özünüdərk və özünəqayıdış proseslərini hərəkətə gətirdi. Ümummilli liderimizin Novruz bayramı münasibəti ilə Azərbaycan xalqına təbriklərində də onun mənsub olduğu etnosun mənəvi-tarixi dəyərlərinə həssas münasibəti öz əksini tapırdı: "İnsanları baharın gəlməsi, təbiətin oyanması münasibəti ilə müjdələyən Novruz bayramı ən qədim dövrlərdən bəri xalqımızın sevinc, şadlıq bayramı olmuş, tariximizin müxtəlif dövrlərində bəzi təzyiqlərə, süni maneələrə məruz qalmasına baxmayaraq, bu günə qədər gəlib çatmışdır. Bu milli bayramımızın indi dövlət səviyyəsində geniş qeyd olunması Azərbaycanın dövlət müstəqilliyinin bəhrələrindəndir" [Heydər Əliyev və mədəniyyət, 2008, 439-443]

Beləliklə, Ulu öndərin xalqımızın tarixi keçmişinə, klassik ədəbi qaynaqlarına, ana dilinə, milli-mənəvi sərvətlərinə həssas və qayğıkeş münasibəti milli tarixi yaddaşın güclənməsi, azərbaycançılıq ideyalarının qüvvətlənməsi nəzərəçarpacaq bir dalğalanma yaratdı. Heydər Əliyevin siyasi himayədarlığı və öndərliyi ilə həyata keçirilən bu ilkin tərpəniş uzunmüddətli bir mübarizə və mücadilənin əsasını qoyaraq, öncə Azərbaycan ziyalılarını, daha sonra isə bütün xalqı strateji məqsədlər üçün səfərbər etdi.

## Ədəbiyyat


1. Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 3 cilddə, I c. Bakı: Nurlar, 2008
2. Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 3 cilddə, II c. Bakı: Nurlar, 2008
3. Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 3 cilddə, III c. Bakı: Nurlar, 2008
4. Həbibbəyli İ. Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr. Azərbaycan qəzeti, 2010. 27 aprel, №89, səh.4.
5. Hüseynov R. Millət müəllliminə tarixin qiyməti. Xalq qəzeti, 2010, 11 dekabr, №272,səh.2-3
6. Qasımlı M. Heydər Əliyev və Azərbaycan folkoru. Ozan dünyası jurnalı, 2010, №2, səh.3-19.

Zeynalova D.

**Summary**

**Heydar Aliyev and national-historical memory**

The article mentions that the ideas and speeches of the great leader Heydar Aliyev focusing attention in public-cultural meetings in their interviews on various topics are the leading line of national feelings of consciousness, forming a complete picture of the country's historical past, national identity, language, culture, national traditions and the system of thinking.

**Əmrahova Mətanət  Bəkir qızı**

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan*

## AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI HEYDƏR ƏLİYEV MƏFKURƏSİNİ XARAKTERİZƏ EDƏN ÖNƏMLİ FAKTOR KİMİ

***Azərbaycançılıq ulu öndərimiz Heydər Əliyevin kəşfidir.***

***Akad. İ.Ə.Həbibbəyli***

*Açar sözlər: H.Əliyev, Azərbaycan, azərbaycançılıq, milli ideologiya, məfkurə, multikultural dəyərlər*

*Key words: H.Aliyev, Azerbaijan, Azerbaijanism, the national ideology, idea, multicultural values*

*Ключевые слова: Гейдар Алиев, Азербайджан, азербайджанизм, национальная идеология, идея, мультикультуральные ценности*

Hər bir xalqın vahid məram və məqsədlər ətrafında birləşərək inkişaf yolunu düzgün müəyyənləşdirməsi, ilk növbədə, milli ideologiya ilə sıx şəkildə bağlıdır. Mütləq çoxluğun mənafeyini dolğun şəkildə əks etdirən milli ideologiya qlobal səciyyə daşımaqla hər bir xalqın tarixi inkişaf yolundan xəbər verən bələdçidir; o cəmiyyətin inkişafının ümumi məqsəd və strategiyasına xidmət etməklə yanaşı, hərtərəfli tərəqqinin vacib amilidir.

Azərbaycançılıq ideologiyası, bir tərəfdən, Azərbaycan türklərinin ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər yandan, Azərbaycanın türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Odur ki, azərbaycançılığı realist milli inkişaf modeli olaraq qəbul edən Azərbaycan türk dövlətləri arasında da bəlağət və pafosdan uzaq, səmimi və qarşılıqlı faydalı tərəfdaşlıqdan yana olduğunu daima nümayiş etdirir.

Azərbaycançılıq ideologiyası XX əsr boyu mürəkkəb bir inkişaf yolu keçmişdir. Azərbaycan mütəfəkkirləri həmin ideologiyanın təkmilləşməsi, azərbaycanlıların şüurunda möhkəm yer tutması üçün sadəcə çalışmamış, zəngin tarixi olan bir mücadilə vermişlər (Alışova, 2013, 7). Lakin azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin ideyasına çevrilməsi ulu öndərimiz Heydər Əlirza oğlu Əliyevin tarixi xidmətlərinin nəticəsidir.

Hər hansı milli ideologiya o zaman mükəmməl hesab oluna bilər ki, o, xalqın ruhundan, mentalitetindən, tarixi "tərcümeyi-hal"ından irəli gəlsin. Azərbaycançılıq ideologiyası məhz bu baxımdan, həqiqətən, müasir dünyanın ən mükəmməl ideologiyalarından biridir. Bu ideologiyanın min illərlə ölçülən çox dərin etnoqrafik kökləri ilə yanaşı, kifayət qədər əsaslı və mütəşəkkil metafizikası da mövcuddur. Belə ki, azərbaycançılıq ideologiyasının mahiyyətində, fəlsəfəsində üç tamamilə humanist və insan cəmiyyətinin təbii şəkildə, "müdaxiləsiz" yaratdığı dəyərlər komponenti və ya kompleksi ifadə olunur: *etnik mənsubiyyət, dini mənsubiyyət, dünyəvi mənsubiyyət* (Cəfərov, 2005, 32).

Görkəmli ədəbiyyatşünas alim, professor Nizaməddin Şəmsizadə milli ideologiya tipi kimi azərbaycançılığın şərtlərini aşağıdakı kimi bölür: maarifçilik yolu ilə inandırma, tarixi əsaslandırma, təşkilatlandırma, istiqamətləndirmə və yenini yaratma. Onun mülahizələrinə görə, azərbaycançılığın tərkib hissələri bunlardır:

1. Məfkurəçilik (ülgüçülük), yəni sosioloji aspekt
2. İstiqlalçılıq (kökə qayıdış azadlığın tarixən mənimsənilməsi)
3. İttihadçılıq (birlikçilik).

İdeologiyanın üç bağlantısı var:

a) vətəndaşlıq; b) gendaşlıq; c) dindaşlıq (Şəmsizadə, 2014, 25).

Bu ideologiyada öz əksini tapmış fəlsəfə və ya metafizikada, eləcə də onu yaradan xalqın təfəkküründə etnik məhdudluq, dini dözümsüzlük, antihumanizm yoxdur. Yalnız o var ki, Azərbaycan xalqı da digər normal xalqlar kimi, müəyyən bir etnik mənşəyə, dini dünyagörüşünə mənsubdur və müasir dünyanın üzvi, tərkib hissəsidir.

Azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən 168deologiyaya, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi, öncə də qeyd etdiyimiz kimi, məhz xalqımızın dahi şəxsiyyəti Heydər Əliyevin adıyla bağlıdır. Tarixi kökləri olsa da, "azərbaycançılıq ulu öndər H.Əliyevin kəşfidir" (İ.Həbibbəyli). Belə ki, uzun illərdən bəri müxtəlif təzyiqlərə, müdaxilələrə ən çox məruz qalan xalqlardan olan Azərbaycan xalqı ərazi bütövlüyünü, siyasi birliyini itirsə də, tarixi təfəkkürünün bütövlüyünü, monolitliyini heç bir vaxt itirməyib. Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin yaranmasında, inkişafında və ən nəhayət, yeni tarixi şəraitə uyğun interpretasiya edilməsində - modern səviyyədə təsvirində və həmin ideologiyanın tarixdə ilk dəfə əbədi olaraq həyata keçirilməsində mənsub olduğu millətlə birlikdə apardığı mübarizədir. **Azərbaycançılıq birbaşa özü H.Əliyev məfkurəsini xarakterizə edən ən böyük faktordur. Yəni H.Əliyev məfkurəsi azərbaycançılıqla, azərbaycançılıq da ulu öndər məfkurəsi ilə sıx şəkildə bağlıdır**.

Ulu öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" (Əliyev, 2002, 42), - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur.

Bu gün Azərbaycan xalqı məhz Heydər Əliyevin ardıcıl mübarizəsi ilə formulə edilən, elmi-nəzəri və praktik baxımdan komplektləşdirilən mükəmməl bir ideologiyaya

malikdir. Azərbaycançılıq öz metafizik gücünü bütünlüklə qoruyub saxlamaqla yanaşı, inkişaf edib müasirləşdirir:

1. Azərbaycan Respublikası Azərbaycan xalqının əsrlər boyu daşıdığı mənəvi, siyasi- ideoloji ideallarının məhsuludur. Azərbaycan Respublikası ərazisində yaşayan digər xalqlarla birgə azərbaycanlılar öz müstəqil dövlətlərinin təəssübkeşi olaraq siyasi müqəddəratlarını təmin etmişlər. Həm öz tarixi vətənlərində yaşayan, həm də dünyanın müxtəlif yerlərinə səpələnmiş azərbaycanlılar Azərbaycan Respublikasını özlərinin ata yurdu saymalı, məskun olduqları dövlətin qayda-qanunlarına riayət etməklə yanaşı, öz milli kimliklərini unutmamalı, mənsub olduqları xalqın tarixi idealları uğrunda mübarizə aparmaqdan çəkinməməlidirlər.

2. Azərbaycan xalqı türk xalqlarından biridir, Türk dünyasının üzvü tərkib hissəsidir. Bununla belə, Azərbaycan xalqının tarixən müəyyənləşmiş özünəməxsusluqları vardır ki, həmin özünəməxsusluqlar heç bir halda türklüyü istisna etmir, əksinə, zənginləşdirir.

3. Türk xalqlarının əksəriyyəti kimi azərbaycanlılar da İslam dinini qəbul etmiş, müsəlman dünyasının tərkibinə daxil olmuşlar. Azərbaycan xalqı öz dini-mənəvi dəyərlərilə fəxr etməklə bərabər dünyanın bütün humanist dini dəyərlərinə hörmətlə yanaşır.

4. Azərbaycan xalqı bütün tarixi boyu müasir dünya mədəniyyətinə, modern texnologiyalara, beynəlmiləl münasibətlərə maraq göstərmişdir, özünü dünyadan heç zaman təcrid etməmişdir. Bu gün də biz öz uğurlarımızı və problemlərimizi, bir qayda olaraq, dünya miqyasında dəyərləndiririk. Azərbaycanın son illər xüsusilə iqtisadi sahədə qazandığı tarixi nailiyyətlər beynəlxalq səviyyədə etiraf olunur.

*H.Əliyev məfkurəsi və azərbaycançılıq ideologiyası multikulturalizmlə üzvi vəhdət təşkil edən ümummilli konsepsiyadır*. Azərbaycançılıq dövlət siyasətinin strategiyası olaraq Azərbaycan cəmiyyətinin bu gününün və gələcəyinin müasir ideoloji qavranması ilə sıx birləşir.

Beləliklə, azərbaycançılıq ideologiyası etnik yox, siyasi və vətəndaşlıq xarakteri daşıyır, yalnız müstəqil Azərbaycanın vətəndaşlarına münasibətdə deyil, Azərbaycanın müstəqil dövlətçilik ideyasını əziz tutanlara münasibətdə də öz birləşdirici funksiyasını yerinə yetirir.

Nəticədə, Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayında dediyi kimi, millətin və dövlətin vəhdəti və bölünməzliyi ideyası əsas götürülür. Heydər Əliyev demişdir: "Azərbaycançılıq – öz milli mənsubiyyətinin saxlanılması, milli-mənəvi dəyərlərin saxlanılması, eyni zamanda onların ümumbəşəri dəyərlərin sintezi, inteqrasiyası ilə zənginləşməsi, hər bir insanın inkişafının təmin edilməsi deməkdir"**.**

Azərbaycan xalqı dünyaya açıq, müasir dünyanın iqtisadi, sosial-siyasi və mədəni texnologiyalarını inamla mənimsəyən, onun qlobal idarəçiliyində get-gedə güclənən imkanları səviyyəsində iştirak edən xalqdır. Beləliklə, Heydər Əliyev məfkurəsi və azərbaycançılıq ideologiyasının təbliği və gələcək nəslə düzgün aşılanmasında bir sıra istiqamətlərə üstünlük verilməlidir:

- Birincisi, ulu öndər məfkurəsinin və azərbaycançılıq ideologiyasının tarixinin bütün yönlərilə obyektiv öyrənilib mənimsənilməsinə elmi, ictimai-siyasi və mədəni marağın daha geniş şəkildə artırılmasıdır. Bu gün ölkədəki iqtisadi, ictimai-siyasi və intellektual-mədəni şərait imkan verir ki, azərbaycançılıq ideologiyasının keçdiyi tarixi yol hərtərəfli, dərindən və geniş müzakirələr əsasında, necə varsa, o cür də araşdırılıb öyrənilsin və təbliğ edilsin.

- İkincisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə, onun milli dövlət quruculuğu fəlsəfəsinə ölkə, eləcə də dünya miqyasında layiq olduğu bir ehtiramla, intellektual-həssaslıqla yanaşılmasını təmin etməkdir. Bu, ona görə zəruridir ki, Heydər Əliyev azərbaycançılıq ideologiyasının bir-birindən əsaslı şəkildə fərqli olan iki təkamül mərhələsinin müəllifi və lideri olmaqla yanaşı, bu gün davam edən beşinci mərhələsinin perspektivlərini də müəyyənləşdirmişdir. Bu mənada ulu öndərin dövlətçilik konsepsiyasının araşdırılmasına ciddi təşəbbüs edilməlidir. Çünki dövlət qurmaq hələ ailə mühitindən başlayır.

- Üçüncüsü, azərbaycançılıq ideologiyasının tərkib hissələri olan türkçülük, müsəlmançılıq və müasirliyin üzvi vəhdətdə, heç birinə digərindən daha böyük üstünlük vermədən, bir bütöv halında qəbul edilərək xalqın milli mənafeləri naminə təbliğini maarifləndirici şəkildə reallaşdırmaqdır. Bu məsələ ona görə çox əhəmiyyətlidir ki, Azərbaycan xalqı müxtəlif tarixi dövrlərdə gah türkçülüyə, gah müsəlmançılığa, gah da müasirliyə əlahiddə üstünlük verilməsindən irəli gələn ictimai-siyasi problemlərlə üz-üzə dayanmağa məcbur olmuşdur.

- Dördüncüsü, müxtəlif mədəniyyətlərə, dünyagörüşlərinə təmkinli dialoq əsasında hörmətlə yanaşılması, qloballaşan dünyanın çağırışlarına həssas, anlamlı münasibət - multikultural dəyərlər təbliğ olunmalıdır.

- Beşincisi, Azərbaycan xalqının dünya miqyasında milli-mənəvi, mədəni bütövlüyünün möhkəmlənməsi üçün mərkəzlərin fəaliyyət planında bu məsələnin təbliği diqqət mərkəzində dayanmalıdır.

- Altıncısı, Azərbaycan xalqının və insanının dünyanın inkişaf etmiş xalqları ilə müqayisədə ikinci, hətta üçüncü dərəcəli olması kompleksinin sürətlə aradan qaldırılması baxımından işlərin görülməsi ilə bağlı maarifləndirici tədbirlərin keçirilməsidir. Nəzərə almalıyıq ki, azərbaycanlılarda on illər (hətta əsrlər) belə bir kompleks olmuşdur.

- Yeddincisi, azərbaycançılıq ideologiyasının təkamülünün İlham Əliyev mərhələsində həm iqtisadi, həm siyasi, həm də mədəni sahələrdə beynəlxalq əlaqələrin, başqa sözlə, Azərbaycan – Dünya dialoqunun zəngin təcrübəsinin qazanılmasının, ümumən, ictimaiyyətə çatdırılmasıdır. Bu isə ilk növbədə, o deməkdir ki, ulu öndər məfkurəsi və onun azərbaycançılıq ideologiyası, Azərbaycan xalqının milli idealları, bir vaxtlar olduğu kimi, məhdud bir miqyasda qalıb, "özümüz deyib, özümüz eşidək" prinsipi ilə mövcud olmur, universallaşır, hüdudlarını genişləndirir, ümumən insan və dünya təfəkkürü mövqeyindən görünüb etiraf olunur.

- Səkkizincisi, Azərbaycan xalqının intellektual səviyyəsinin yüksəldilməsi, müasir texnologiyalara yiyələnməsinin sürətlənməsi, perspektivli özünüifadə və özünütəsdiq metodlarının, üsullarının və vərdişlərinin xüsusilə gənc nəsil tərəfindən mənimsədilməsi istiqamətində kursların təşkil olunmasıdır.

- Doqquzuncusu, Azərbaycanın regionda, ümumən, beynəlxalq aləmdə söz sahibi olması, onun mövqeyi ilə hesablaşılması, çoxstandartlılığı, xüsusilə cari konyukturluluğu ilə tanınan dünyanın "haqq-hesab"ından kənarda qalıb təcrid olunmaması kimi məsələlərlə bağlı elmi seminarların, görkəmli alimlər, ziyalılarla birlikdə elmi dərgilərin, konfransların təşkil olunması üçün addımların atılmasıdır.

- Onuncusu, nəhayət, azərbaycançılıq ideologiyasının təkamülünün İlham Əliyev mərhələsində həmin məfkurənin inkişafı üçün geniş perspektivlərin təmin edilməsidir. Bu isə milli ideologiyanın (azərbaycançılığın) gələcəyi barədə tamamilə nikbin fikirdə olmağa hər cür imkanlar verir. Azərbaycançılığın qarşısında bu gün polemika üçün hüdudlar qoyacaq heç bir maneə, yaxud həmin ideologiyanın təkamülünü ya ləngidəcək,

ya da süni şəkildə sürətləndirəcək heç bir konyuktur müdaxilə yoxdur və bu, prosesin uğurla aparılması üçün münbit şərait deməkdir.

## ƏDƏBİYYAT


1. Alışova N. Kitabxanalarda H.Əliyev irsinin və azərbaycançılıq ideyasının təbliği. Bakı, 2013
2. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. Bakı: Pedaqogika, 2005
3. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi (müəllif-tərtibçi S.Xəlilov). Bakı: Azərbaycan Universiteti, 2002
4. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Təhsil, 1997
5. Qasımov Ə. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası: XX əsrin 70-80-ci illəri. Bakı: Təhsil, 2009
6. Sərdarov Z. Heydər Əliyev və milli mübarizə tariximiz. Bakı: Çinar-Çap, 2008
7. Şəmsizadə N. Azərbaycançılıq ideologiyası. Bakı, 2014
8. Zamanov N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Bakı: Elm və təhsil, 20



Amrahova M.


**Summary**

**AZERBAIJANISM IDEOLOGY AS AN IMPORTANT FACTOR CHARACTERIZING HEYDAR ALIYEV'S IDEA**


In the article it is said about Heydar Aliyev's idea and Azerbaijanism ideology. Here it is spoken about the national leader's role about the formation of the national ideological sphere and statehood united with it. It is noted that the Azerbaijanism ideology is the conception of forming the historical-political classification of the world Azerbaijanians' common idea, the duties in the branch of protection the rights and freedom of our compatriots living in abroad, the spiritual obligations in the relation to Azerbaijan, even determining the social-philosophical Azerbaijanian conception. The thoughts about formation of the H.Aliyev's idea and Azerbaijanism ideology with the multiculturalism are also explained. The theme is based on the definite scientific literatures.

**Амрахова М.**

**Резюме**

**Идеология азербайджанизма как важный фактор характеризирующий идеи Гейдара Алиева**

В статье исследуются идеи Гейдара Алиева и идеология азербайжанизма. Автор рассказывает о роли великого лидера в формировании национальной идеологической среды и государственности. Отмечается что, идеология азербайджанизма является концепцией, которая квалифицирует историко-политические факторы, обуславливающие объединение азербайджанцев всего мира вокруг единой идеи, и которая определяет задачи, стоящие перед государством в области защиты прав и свободы соотечественников, проживающих за границей, их моральные обязательства по отношению в Азербайджану, и наконец, определяющая социально-философское содержание понятия азербайджанец. В статье также комментируются мысли о том, что идеи Гейдар Алиева и идеология азербайджанства составляют единое целое с мультикультурализмом. Автор в своих рассуждениях основывается на соответствующую научную литературу.

**Tağıyeva Sevda**

*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## AZƏRBAYCAN RESPUBLİKASINDA DEMOKRATİK, HÜQUQİ VƏ DÜNYƏVİ DÖVLƏT QURUCULUĞU

*Açar sözlər: hüquq, demokratiya, siyasət*

*Keywords: legal, democracy, polecy*

*Ключевые слова: права, демократия, политика*

Azərbaycanda dövlət quruculuğu prosesində ən mühüm addım ölkə Könstitusiyasının qəbulu və bundan irəli gələn məsələlər olmuşdur. Xalqımızın, dövlətçiliyimizin həyatında çox böyük əhəmiyyət kəsb edən Konstitusiyanın qəbulu dövlət quruculuğunun atributu, siyasi, hüquqi, demokratik bir hadisə kimi qiymətləndirilməlidir. Konstitusiya demokratik, hüquqi dövlət quruculuğunun əsaslarını müəyyən edən elə bir kodeksdir ki, onun vasitəsilə cəmiyyətdə qanunçuluq, sabitlik, demokratik inkişaf və s. mühüm siyasi-mənəvi dəyərlər təmin olunur.

Heydər Əliyevin çağdaş tariximizə Milli Qurtuluş günü kimi daxil olmuş 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilməsi ilə respublikada demokratiyanın, qanunçuluğun, hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu. Heydər Əliyevin parlamentə sədr seçilməsindən sonra Milli Məclisdə verdiyi bəyanatda müstəqil dövlətçiliyin inkişaf konsepsiyası və yolları sistemli şəkildə verildi. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilməyə başlandı. 1993-cü ilin iyun-oktyabr ayları və sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda Heydər Əliyevin mübarizəsi strateji məqsəd daşıyırdı. O, strateji və demokratik yolun mahiyyətini belə səciyyələndirirdi: “Azərbaycan Respublikası öz dövlət quruculuğunda sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir” [2, s.30]

Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru Ramiz Mehdiyev respublikamızda dövlət quruculuğunu aşağıdakı mərhələlərə bölür:

- 1992-1993-cü illər kütləvi şüurda “aydınlaşma, dərketmə” mərhələsidir;
- 1993-1995-ci illər müstəqillik ideyaları və dövlətçilik uğrunda “gərgin, amansız mübarizələr, müstəqillik və dövlətçilik şüurunun qələbəsi” mərhələsidir;
- 1995-ci ildən bu günə qədər davam edən dövrü isə “tammiqyaslı hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu” mərhələsi adlandırmaq mümkündür. [3, s.254]

1995-ci ildə beynəlxalq standartlara cavab verən, demokratik prinsiplər əsasında müstəqil Azərbaycan Respublikası Konstitusiyasının ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilməsi və onun əsasında demokratik parlament seçkilərinin keçirilməsi ilə dövlət quruculuğu sahəsində yeni mərhələ başlanır. Bu mərhələdə dövlət quruculuğunun əsas prinsipləri Heydər Əliyev tərəfindən belə müəyyən edilmişdir: “Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim qəbul etdiyimiz prinsiplərdir”. [2, s.8]

Aydındır ki, Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirilməsində Konstitusiyanın prinsipləri və müddəaları əsas tutulur. Bu əsasda da

ölkədə bütün sahələrdə islahatlar aparılır.

Dövlət quruculuğu sahəsində Azərbaycan Respublikasının daxili siyasəti demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, Azərbaycan vətəndaşlarının Konstitusiyanın müəyyən etdiyi prinsiplər əsasında azad, sərbəst yaşamasını, bütün insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasını təmin etməkdən ibarətdir. Ölkəmizdə demokratik dövlət quruculuğu və yeni siyasi-iqtisadi sistemin for-malaşdırılması üçün hüquqi-normativ bazanın yaradılması istiqamətində uğurlu islər həyata keçirilir. Konstitusiyanın qəbul edilməsindən sonra ali qanunvericilik orqanı olan Milli Məclis tərəfindən təkcə beş ildə, yəni 2000-ci ilədək 900-dən çox qanun qəbul edilmişdir ki, bu da respublikamızda qanunçuluğun və yeni dövlət quruculuğunun hüquqi bazasının yaraddmasının parlaq təzahürüdür.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbul edilməsini ölkəmizdə dövlət quruculuğunun yeni mərhələsinin başlanması kimi qiymətləndirir. O, Konstitusiyanın qəbul edilməsindən beş il sonra respublikada dövlət quruculuğu sahəsində görülən işləri yekunlaşdıraraq demişdir: “1995-ci il noyabrın 12-dən, yəni müstəqil respublikamızın Konstitusiyası qəbul olunduqdan və parlament seçkiləri keçirildikdən sonra başlanan bu dövr dövlət quruculuğu baxımından, əlbəttə ki, bizim tariximizin ən məhsuldar dövrüdür”.

Azərbaycanın müstəqilliyinin elan edilməsindən sonra qarşıda duran ən mühüm vəzifələrdən biri respublikada hüquqi, demokratik, dünyəvi, sivilizasiyalı dövlət quruculuğu proqramının həyata keçirilməsinə nail olmaq idi. Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi, onun əsasında yeni parlamentin təşkili üçün demokratik seçkilərin keçirilməsi dövlət quruculuğu sahəsində strateji proqramın ilk mərhələsi oldu. Bunlar Azərbaycanın müstəqil dövlət kimi yaşaması və möhkəmlənməsi məqsədinə uyğun idi. Azərbaycan Prezidenti Heydər Əliyev bir tərəfdən Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə qarşı çıxan qəsdlərin, təxribatların qarşısını məharətlə almaqla yanaşı, dövlət quruculuğunu möhkəmlətmək və inkişaf etdirmək işinə rəhbərlik edir, bu sahədə qarşıya çıxan maneələrin aradan qaldırılmasında böyük məharət və bacarıq göstərir.

Azərbaycanın yeni Könstitusiyasının hazırlanması üçün 1991-ci il fevralın 9-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 74 nəfərdən ibarət komissiya yaradılsa da, bu istiqamətdə uzun müddət heç bir əsaslı iş görülməmişdi.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunmuşdu. Heydər Əliyevin qeyd etdiyi kimi "Bu, çox mühüm bir sənəddir və həmin sənəddə Azərbaycanın dövlət müstəqilliyi haqqında çox dəyərli müddəalar var". [1, s.406] Lakin bu sanədin həyata keçirilməsi ləngimişdi. Çünki dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı oktyabrın 18-də qəbul olunmuşdusa da, onun ümumxalq referendumu yolu ilə təsdiqlənməsi işi gecikdirilmişdi. Yalnız 1991-ci il dekabrın 29-da belə bir referendum keçirilmişdi. Həm də Azərbaycan Respublikasının dövlət orqanları və Konstitusiya Komissiyası müstəqil Azərbaycanın Əsas Qanununu – Konstitusiyasını yaratmaqla məşğul olmamışdı. Bu istiqamətdə Dövlət Komissiyası tərəfindən heç bir addım atılmamışdı.

O dövrdən 3 il yarımdan çox vaxt keçməsinə baxmayaraq, hələ müstəqil Azərbaycanın Əsas Qanunu qəbul edilməmişdi. Müstəqil Azərbaycanın Kostitusiyasının yaradılması missiyasını məhz Heydər Əliyev öz üzərinə götürdü. Bununla da, o, Azərbaycan Respublikasının Kostitusiyasının yaradıcısı kimi tarixi missiyanı uğurla həyata keçirdi. Müstəqil dövlətimizin ilk Konstitusiyasının yaradılmasının təşəbbüsçüsü, rəhbəri və yaradıcısı məhz Heydər Əliyev oldu.

1993-cü ilin oktyabrında Azərbaycanda yeni Konstitusiya hazırlanması üçün təşəbbüs edilmişdi. Lakin siyasi vəziyyətin gərginləşməsi, xüsusən də, 1994-cü il oktyabr - 1995-ci il mart hadisələri, eləcə də, qarşıya çıxan başqa təxirəsalınmaz vəzifələrin həyata keçirilməsi bu təşəbbüsü bir qədər ləngitmişdı. Azərbaycanın dövlətçiliyinə qarşı yönəlmiş qəsdlərin qarşısı alındıqdan sonra 1995-ci ilin iyul ayında Milli Məclisin iclasında prezident Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildi. Bu komissiyaya görkəmli alimlər, hüquqşünaslar və mütəxəssislər, rəhbər işçilər daxil edildi. 1995-ci il iyul ayının 5-də Konstitusiya Komissiyasının ilk iclası keçirilir, Aşkarlığı təmin etmək üçün Heydər Əliyev Konstitusiya Komissiyasının birinci iclasına üzvlərdən başqa, respublikanın rəhbər vəzifəli şəxslərini, Azərbaycandakı xarici ölkələrin səfirlərini və mətbuat nümayəndələrini də dəvət etmişdi. Prezident öz fəaliyyətində həm də aşkarlığa xüsusi əhəmiyyət verirdi. O, qeyd edirdi ki, "Bu da təsadüfi deyil. Çünki bizim işimiz tam aşkarlıq şəraitində keçir. Azərbaycan Respublikasında aşkarlıq, demokratik prinsiplər bərqərar olub və bərqərar olmaqdadır" [1, s.408]. Elə həmin iclasda Konstitusiya Komissiyasının qarşısında duran vəzifələr müəyyən edilir.

Bu vəzifələrə aşağıdakılar daxil idi. **Birincisi,** Azərbaycan Respublikası Konstitusiyasının layihəsini; **ikincisi**, Azərbaycan Respublikasının Milli Məclısinə seçkilər üçün qanun layihəsini hazırlamaqdan ibarət idi. Konstitusiya Komissiyası çərçivəsində Azərbaycan Parlamentinə seçkilər üçün qanun layihəsinin hazırlanması onunla əlaqədar idi ki, **birincisi**, parlament seçkilərinə aid müddəalar mahiyyətcə Konstitusiyanın bir hissəsini təşkil etməli idi. **İkincisi**, parlament seçkilərinın vaxtı müəyyən edilmişdi. Ona görə də "Seçkilər haqqında" Qanun vaxtında hazır olmalı idi ki, qanuna əsasən parlament seçkiləri təşkil edilsin və keçirilsin. Seçki qanununun qəbul olunması və parlament seçkilərinin keçirilməsi Konstitusiya əhəmiyyətli bir məsələ idi. Bunlar Konstitusiyada öz əksini tapmalı idi. Ona görə də "Seçkilər haqqında" Qanun layihəsi Konstitusiya layihəsindən əvvəl hazırlandı. Komissiyanın ilk iclasında bu layihələrin hazırlanması üçün işçi qrupu yaradılmışdı. İşçi qrupu tərəfindən parlament seçkilərinin keçirilməsinə dair bir neçə variantda qanun layihəsi hazırlanmışdı. Layihə Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyasında müzakirə edildi. Komissiyanın ümumi fikrini əks etdirən son layihə hazırlandı, Konstitusiya Komissiyası adından Heydər Əliyev tərəfindən Milli Məclisə təqdim edildi.

Qeyd etmək lazımdır ki, Milli Məclisdə başqa alternativ layihələr də irəli sürülmüş, nəzərdən keçirilmişdi. Bütün müzakirələrdən sonra avqustun 12-də Milli Məclis Prezident Heydər Əliyev tərəfindən təqdim edilmiş layihəni bayənmiş, ətraflı müzakirə edib "Seçkilər haqqında" Qanunu qəbul etmişdi.

Milli Məclisin parlamentə seçkilər haqqında qanunu qəbul etməsi Azərbaycanda demokratiyanın bərqərar olması və inkişafında çox mühüm addım idi. Heydər Əliyev onu dəyərli bir qanun, Azərbaycan Respublikasının tarixində ilk dəfə qəbul olunan demokratik bir sənəd kimi qiymətləndirirdi. Ona görə də həmin qanunun hazırlanması və qəbul edilməsində Konstitusiya Komissiyasının işçi qrupunun üzvlərinə, Milli Məclisə öz təşəkkürünü bildirir və onun üzvlərini təbrik edirdi.

1991-ci ilin 18 oktyabrında Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Konstitusiya Aktında ölkəmizin dövlət müstəqilliyi, insan, söz, mətbuat, vicdan azadlıqları və i.a. haqqında dəyərli müddəaları öz əksini tapmışdır. 1991-ci il Konstitusiya Aktında Azərbaycanda hüquqi dövlət qurulması elan edilirdi. Bütün bunlar müstəqil respublikanın əməli faaliyyətində həyata keçirilməyə başlanmışdı. Heydər Əliyev mühüm bir vəzifə olaraq qeyd edirdi ki, yeni Konstitusiyada dövlət quruculuğu

sahəsində həyata keçirilmiş, qazanılmış təcrübə ümumiləşdirilməli və ondan səmərəli istifadə edilməlidir. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbuluna qədər respublikada qanunvericilikdə bir sıra dəyərli müddəalar artıq meydanda idi. Onlar artıq formalaşmış müddəalar idi ki, onlar mübahisəsiz qəbul olunmalı idi. Məsələn, Azərbaycanın dövlət müstəqilliyi tam, əbədi olmalıdır və dövlət müstəqilliyinin daim qorunması mexanizmi, əsasları və i.a. belə müddəalardan idi, bunlar yeni Konstitusiyada mübahisəsiz olaraq qəbul edilməli idi.

Azərbaycanda müxtəlif xalqların millətlərin nümayəndələrinin yaşamasını nəzərə alaraq Heydər Əliyev bərabər hüquqların təmin edilməsi, yəni dinindən, dilindən, milliyyətindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, bütün insanların, vətəndaşların eyni hüquqlara malik olması və bu hüquqlardan səmərəli istifadə etməsi imkanlarının Konstitusiyada əks olunmasını zəruri sayırdı.

Azərbaycan Respublikası Konstitusiyasında ölkəmizdə demokratik inkişaf prinsipləri öz əksini tapmışdır. Xalq dövlət hakimiyyətinin yeganə mənbəyidir. Azərbaycan dövləti demokratik, hüquqi və dünyəvidir. İdarəçilik hakimiyyət bölgüsü əsasında təşkil edilir. Dövlətin ali məqsədi insan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsindən ibarətdir.

Konstitusiyanın 12-ci maddəsində dövlətin ali məqsədinin insan hüquqlarının və azadlıqlarının təmin edilməsinin və onun beynəlxalq müqavilələrə uyğun olaraq təmin edilməsinin nəzərdə tutulması müəyyən edilir. 71-ci maddəsində insan hüquqları və azadlıqlarına riayət etmək və onları qorumaq bütün hakimiyyət orqanlarının borcu hesab edilir. İnsan hüquqları toxunulmaz, pozulmaz təminata malikdir. Dövlət irqindən, milli mənsubiyyətindən, dinindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, onların hüquq və azadlıqlarının bərabərliyinə taminat verir.

Ümumiyyətlə, 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında referendum yolu ilə edilən dəyişikliklərə ehtiyac olduğunu, ölkəmizin tərəqqisi tələbindən irəli gəldiyini dövlət başçısı Heydər Əliyevin irəlicədən gördüyünün və müəyyən etdiyinin nəticəsi idi. Bu düzəlişlər həm də demokratikləşmə, insan hüquqları və azadlıqlarının genişlənməsinə, siyasi sistemin təkmilləşməsinə, konstitusiyamızın dünya standartlarına uyğunlaşdırılmasına yönəldilmişdir.

**Ədəbiyyat**

1. Əliyev H. Müstəqillik yolunda. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər. Bakı, 1997
2. Əliyev H. Müstəqillik yolu. "Seçilmiş fikirlər". Bakı, 1997
3. Mehdiyev R. Azərbaycanın tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001

**Tagiyeva S.**

**Summary**

**Democratic, legal and Civil state-bueldind in the Republic of Azerbaijan**

Adoption of Constitution Possessing great importance in the life of our people, and state building must be highly valued as a democratic event, as an attribute of state building and as a political, legal act.

**Тагиева С.**

**Резюме**

**Строительство демократическое правовое и гражданское государство в Азербайджанской республике**

Принятие конституции расценивается как атрибут государственного строительства, политическое демократическое и правовое событие, имеющее важное значение в жизни народа и государственности.

**Şərifov Rinard**

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Azərbaycan*

## MULTİKULTURALİZM SİYASƏTİ VƏ AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ

*Açar sözlər: Azərbaycançılıq məfkurəsi, multikulturalizm, mədəni inteqrasiya, mədəniyyət kimliyi, mədəni pluralizm, tolerantlıq*

*Key words: Azerbaijanis idea, multiculturalism, cultural integration, cultural identity, cultural pluralism, tolerance*

*Ключевые слова: идея Азербайджанства, мультикультурализм, культурная интеграция, культурная идентичность, культурный плюрализм, толерантность*

*Azərbaycan Respublikasının siyasi ideologiyası olan Azərbaycançılıq məfkurəsinin tərkib hissəsi kimi multikulturalizm siyasətinin nəzərdən keçirilməsi müasir dövrdə dövlətimizin siyasətinin aktual istiqamətlərini və mədəni inteqrasiyasiyanın dinamikası*

*ilə əlaqəli olan məsələləri dərk etməyə imkan verir. Tolerantlıq, mədəniyyətlərin bərabərliyi, etnik müxtəlifliyin tanınması kimi prinsipləri özündə ehtiva edən Azırbaycancılıq məfkurəsi eyni zamanda cəmiyyətdəki müxtəlif etnik azlıqların, millətlərin mədəni inteqrasiyasına şərait yaradaraq multikulturalizmin "Azərbaycan modeli"ni formalaşmasında müstəsna rola malikdir.*

"Multikulturalizm" termini ilk dəfə olaraq isvçrəlilər tərəfindən 1957-ci ildə 4 dildə danışıldığı və müxtəlif dinlərə ibadət olunduğu ölkə olan İsveçrəni xarakterizə etmək üçün istifadə olunmuşdur**[8]**.

Sosial elmlər lüğətində (***Dictionary of the Social Sciences***) "multikulturalizm" termini bir dövlət, cəmiyyət və icma daxilində müxtəlif mədəniyyətlərin nümayəndələrinin birgə yaşayışı kimi müəyyənləşdirilir. Müəlliflər termini konkretləşdirərək, qeyd edirlər ki, "multikulturalizm" müxtəlif irqi və etnik qrupların nümayəndələrinin qarşılıqlı dözümlülük və hörmət şəraitində yaşayışını, həmçinin onların mədəniyyətlərinin unikal xüsusiyyətlərinin qorunmasını nəzərdə tutur**[9, s.323]**.

Multikulturalizm başqa xalqın nümayəndəsinə, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir. Həmçinin, multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. Multikulturalizm siyasəti assimilyasiyanı inkar edir, inteqrasiyaya aparır**[7]**.

Muıtikultural cəmiyyətdə hər hansı mədəniyyətin hökmranlığının mövcudluğu nəzərdə tutulmur. Başqa sözlə, multikulturalizm çoxmillətli dövlətdə mədəni identikliyin qorunması deməkdir. Bu zaman multikulturalizm siyasəti həm passiv, həm də aktiv xarakter daşıyır. Birinci halda o, mədəni mədəni müxtəlifliyə tolerant münasibəti, ikincidə, bu müxətlifliyin aktiv dəstəklənməsi şəraitində inteqrasiyanı nəzərdə tutur.

Multikulturalizm çoxlu sayda müsbət məqamlara malikdir. Bu ilk növbədə mədəni qurumlar sferasında prülarizmin qorunmasıdır. Onun əsas mahiyyətini açıqlayarkən, bu anlayışın müxtəlif cür yozulduğu külli miqdarda əsərləri nəzərə almaq lazımdır. Lakin

buna baxmayaraq, alimlərin böyük hissəsi bu mövzunu ən müxtəlif ölkələrdə və millətlərdə mədəni ənənələrinə diqqət yetirilməsi, onların heç birinə imtiyaz verməyən rəngarənglik kimi açıqlayır. Şəxsiyyət üçün multikulturalizmin əhəmiyyəti hər şeydən əvvəl öz mədəniyyətinə daxil olmaq imkanı əldə etmək şansı ilə şərtləndirilir**[10, s.34]**.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, etnik, milli, dini azlıqlar üçün imtiyazlar siyasəti heç də, nəzərdə tutulan məqsədlərə həmişə nail olunmasına kömək göstərmir. Əksinə, bu cür eksklyuzivlik bəzən müasir polietnik icmaların fraqmentasiyasını və gərginliyini şərtləndirərək, onların mədəni inteqrasiyasına mane olur. Multikulturalizm modelini rəhbər tutan qərb ölkələrində mədəni müxtəlifliyinin dəstəklənməsi mümkün olsa da, lakin cəmiyyətin vətəndaş birliyinə nail olunmadı. Bununla əlaqədar olaraq, vacib məsələ ortaya çıxır ki, ümumilikdə etnik müxtəlifliyi qoruyaraq, prinsipcə cəmiyyətin birliyinə nail olmaq mümkündürmü? Müasir dünya təcrübəsi hələ bu suala aydın cavab verməyə imkan verməsə də, pozitiv xarakterli müşahidələr nəzərə çarpır. Bu müşahidələrin ən parlaq nümunəsini müasir dövrdə Azərbaycan Respublikası təqdim edir. Bu cür birlik nümunəsini ölkəmizin prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasının timsalında xarakterizə edərək, qeyd etmişdir ki, “Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır” **[6]**.

Azərbaycan Respublikasında həyata keçirilən multikulturalizm siyasəti mədəni inteqrasiya proseslərinə əlverişli müstəvi yaradır. Hal-hazırda Azərbaycanda bir çox etnos və konfessiyalar sülh, əminamanlıq və razılıq şəraitində yaşayır. Bu yüksək tolerantlıq şüuruna malik azərbayanlı etnosunun xidmətidir. Azərbaycanlılar tarixən müstəsna xeyirxahlılığı, qonaqpərvərliyi, səmimiliyi ilə fərqlənmişlər. Azərbaycanda yaşayan etnosların mədəni inteqrasiyasının əsasında Azərbaycançılıq məfkurəsi dayanır. Azərbaycançılıq məfkurəsi - Azərbaycan xalqının siyasi, iqtisadi, sosial və mədəni yüksəlməsinə yönələn bir ideyadır.

Azərbaycan müxtəlif xalqların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı, sevinci və kədəri birgə bölüşdüyü məkandır. Bu məkanı qədim Qafqaz albanlarının bugünkü varisləri olan udinlər, avarlar, ləzgilər, habelə yəhudilər, talışlar, ruslar, gürcülər, kürdlər, yaxın keçmişdə almanlar öz ortaq vətənlərinə çevirə biliblər. Bu gün Azərbaycana əsassız torpaq iddiası ilə çıxış edən separatçılarla eyni millətdən olan, ancaq bu separatçıların əsassız iddialarını qəbul etməyən Azərbaycan ermənilәri də buranı öz vətənləri sayırlar. Bir kənd qədər sakini olan, dili və etnik kimliyi bu kənddən başqa heç bir yerdə təmsil

olunmayan xınalıqlılar və ceklilər də Azərbaycana məxsusdur. Bütün bu xalqların dil və mədəni zənginliklərini Azərbaycan dövləti öz zənginliyi, öz gücü sayır. Ulu öndər Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" **[4]**.

Təbii olaraq, ulu öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır". Bu sözlər bu gün də son dərəcə əhəmiyyətlidir və belə bir aydın siyasi həqiqəti aktuallaşdırır: biz, yəni Azərbaycanda yaşayan bütün xalqlar məhz bir yerdə, məhz azərbaycanlı olaraq dünya üçün maraq kəsb edə bilərik. Biz ayrı-ayrılıqda heç kim üçün maraqlı deyilik!**[3]**

Ulu öndər Heydər Əliyev milli ideologiyanın komponentlərini özündə sintez edən azərbaycançılıq məfkurəsini irəli sürmüşdür. Bu xətt bir tərəfdən, Azərbaycanda vahid milli-dövlətçilik hissiyyatının formalaşmasını, milli-mənəvi dəyərləri, etnik-milli yetkinləşmə və bütövləşməni özündə əks etdirirsə, digər tərəfdən, milli kimliyindən, dini mənsubiyyətindən və dilindən asılı olmayaraq ölkəmizin hər bir vətəndaşının hüquq və azadlıqlarının təmin olunmasını, onların öz mənəvi-mədəni dəyərlərini qoruyub saxlaması və inkişaf etdirməsi üçün lazımi şəraitin yaradılmasını nəzərdə tutur**[5]**.

Ümummilli lider Heydər Əliyev ilk dəfə olaraq multikulturalizmi Azərbaycançılıq məfkurəsinin tərkib hissəsi kimi təqdim etdi. Bu cür birlik heç də, eyniləşmə və ya bir mədəniyyətin digərində assimilyasiyası deyil və hətta mövcud mədəni rəngarəngliyin süni qorunması kimi də başa düşülmür. Birlik müxtəlifliyin daxili harmonik bağlılığı, mədəni rəngarənglik, deməli, müxtəlifliyin inkişafı kimi başa düşülür. Əlbəttə inkişaf ancaq yaradıcı qarşılıqlı zənginləşməni, müxtəlif tərəflərin qarşılıqlı təsiri hesabına həyata keçirilə bilər.

Azərbaycanda normal multikultural əhvalın olması - müxtəlif konfessiyaların, etnik birliklərin dostluq və mehribançılıq şəratinində yaşaması yenə də tarixin qədim dövrlərindən qidalarnır**[4]**.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək, onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Birmənalı şəkildə qeyd etmək olar ki, Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix və adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olundu. Bununla yanaşı, Ulu Öndərin hakimiyyətə gəlməsindən sonra qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi**[7]**.

Ulu öndərin hakimiyyətə qayıdışından sonra qəbul edilən bir sıra qanuvericilik aktları Azərbaycan ərazisində yaşayan milli azlıqların mədəni kimliyinə önəm verildiyini bir daha sübut etdi. "Mədəniyyət haqqında" qanunun 6-cı və 8-ci maddələri ilə dövlət "Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəniyyət kimlikləri"nə önəm verdi**[2]**.

Multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Bununla bağlı maddə 25 - "Bərabərlik hüququ", maddə 44 - "Milli mənsubiyyət hüququ", maddə 45 - "Ana dilindən istifadə hüququ" və başqa maddələri göstərmək mümkündür**[1]**.

Qloballaşmanın müasir mərhələsində yuxarıda qeyd etdiklərimizin məntiqi kimi, azərbaycançılıq məfkurəsi ölkəmizdə tarixən bərqərar olmuş multikulturalizmi nəinki inkar etmir, əksinə, onu öz daxili məzmununun, bu məzmunun elementlərinin tərkib hissəsi kimi götürür. Bu baxımdan Azərbaycan multikulturalizmi azərbaycançılıq məfkurəsinin təməl daşları olan dövlətçilik, milli-mənəvi dəyərlər, müasirlik və milli

mentalitetimizə hopmuş tərkib hissəsi kimi dünyada baş verən assimilyasiya, izolyasiya, aparteid, milli və dini ayrı-seçkiliyə alternativ olaraq təqdim oluna bilər**[5]**.

Beləliklə, Azərbaycan Respublikasının həyata keçirdiyi multikulturalizm siyasəti Azərbaycançılıq məfkurəsinin tərkib hissəsi olaraq, bütün millətlərin və xalqların azadlığı və bərabərliyi, hər bir dövlətin etnik mədəniyyətinə hörmət, mədəni mövhumatdan qurtuluş, şovinizm və ksenofobiyadan imtinanı özündə ehtiva edir. Azərbaycan Respublikasının həyata keçirdiyi multikulturalizm siyasəti xalqımıza tarixən mənsub olan müsbət ənənələri özündə əks etdirməklə yanaşı, onu dövlətçiyimizin təməl əsası olan Azərbaycançılıq məfkurəsinin kredosuna çevirməkdədir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. 1995

2. Azərbaycan Respublikasının “Mədəniyyət haqqında” Qanunu, Azərbaycan Respublikasının qanunvericilik toplusu, Bakı, 1998.

3. Abdulla K., Ulu öndər Azərbaycan multikulturalizminin banisidir, Azərbaycan qəzeti, 23 iyul 2014.

4. Abdullayev K., Azərbaycanda multikultural təhlükəsizlik prinsipləri, 24.06.2015. www.azertag.az

5. Kərimov Ə., Multikulturalizm azərbaycançılıq məfkurəsinin tərkib hissəsi kimi, 27.02.2016, www.azerbaijan-news.az

6. Mehdiyev R.,“Bir “qüvvə mərkəzi”nin hegemonluğu özünü doğrultmadı”, 03.12.2014, www.azertag.az

7. Rəcəbli H., Multikulturalizm siyasətinin Azərbaycan nümunəsi, 21.04.2016, www.sesqazeti.az

8. Бабич И.Л., Родионова О.В., Теория и практика мультикультурализма / Исследования по прикладной и неотложной этнологии. М., ИЭА РАН, 2009.Вып. 215. 49 с.

9. Calhoun C. Dictionary of the Social Science, Oxford University Press, 2002, 563 p.

10. Levy J.T. Levy, J.T. ‘Classifying Cultural Rights’, in Shapiro, I. and Kymlicka, W.(eds), Ethnicity and Group Rights, NOMOS, New York: New York University Press, 1997, p.22-66

**Summary**

**MULTICULTURALISM POLICY AND AZERBAIJANIS IDEA**

*Reviewing multiculturalism policy as a part of Azerbaijanis idea which belongs to Azerbaijan political ideology gives opportunity to realize issues related to actual directions of government policy and dynamics of cultural integration in the modern era. Azerbaijanis idea which combines principles of tolerance, equality among cultures, recognition of ethnic diversity creates condition for cultural integration of national minorities and nations in the society, play important role in forming "Azerbaijan model" of multiculturalism.*

Шарифов Р.

**Резюме**

**ПОЛИТИКА МУЛЬТИКУЛЬТУРАЛИЗМА И ИДЕИ АЗЕРБАЙДЖАНСТВА**

*Рассмотрение политики мултикультурализма как составной части идеи Азербайджанства, являющейся политической идеологией Азербайджанской Республики, создает возможность познать проблемы, связянные с актуальными направлениями и культурной интеграции нашего государства в современный период. Включающие в себе идею Азербайджанства, такие принципы как толерантность, равенство культуры и этнического многообразия, одновременно создавая условия для интеграции различных этнических меньшинств, культуры нации обладают исключительной ролью в формировании Азербайджанской модели мультикультурализма.*

**Əhmədov Aqil Pirmurad oğlu**

*Azərbaycan Milli Elmlər Akademyası, Azərbaycan*

## AZƏRBAYCAN RESPUBLİKASINDA İNNOVATİV MİQRASİYA İDARƏÇİLİYİ MODELİ

*Açar sözlər: idarəçilik, siyasət, model, miqrasiya hüququ, innovasiya, beynəlxalq, inkişaf*

*Key words: management, policy, model, migration law, innovation, international, development*

*Ключевые слова: управления, политика, модель, миграционное право, инновация, международный, развития*

*“.....mən hesab edirəm ki, bizim azərbaycanlılar üçün belə miqrasiya prosesinin meydana çıxması və azərbaycanlıların öz ərazisindən, öz torpağından çıxaraq dünyanın başqa ölkələrində yaşaması, məskən salması, özü üçün orada iş yaratması, həyat qurması, oradakı cəmiyyətdə özünə yer tutması – bunların hamısı bizim ümumi milli mənafeyimizə xidmət edən hallardır”*

**Heydər Əliyev**

Azərbaycan xalqının ümummilli lideri

Yalta / 20 iyul, 2002-ci il

Xalqların tarixi köçü ilə genişlənən miqrasiya prosesləri müasir dövrdə aktuallığını artırmışdır. Mövcud sahədə demokrtaik dövlətlərin təcrübəsi və beynəlxalq qurumların fəaliyyəti miqrasiyanın sosial-iqtisadi, siyasi və hüquqi faktor kimi daha çox yayıldığını göstərir. Bu baxımdan miqrasiya proseslərinin uğurla inkişaf etdiyi dövlətlərdən biri Azərbaycan Respublikasıdır.

Hazırda bütün dünyada baş verən qloballaşma prosesləri Azərbaycan əhalisinin həm daxildəki yerdəyişmə hərəkətinə (urbanizasiya prosesinə), həm də ölkə xaricinə miqrasiyasına təkan vermişdir. Müstəqillik dövründə kənd əhalisinin təxminən bir milyona yaxını kortəbii qaydada kəndləri tərk edərək Bakı şəhərinə və ətraf qəsəbələrə köçmüş, bir o qədər də ölkə əhalisi xarici ölkələrə miqrasiya etmişdir. Bunların daha çoxu mövsümi işlər üçün xaricə gedənlər, az bir qismi isə öz yaşayış yerini daimi dəyişənlərdir. Şəhərlərdə və rayon mərkəzlərində yaşayan əhali arasında bazar iqtisadiyyatına keçidlə və SSRİ dövründə tikilmiş iri sənaye müəssisələrinin dağılması ilə bağlı müəyyən işsizlik mövcud olsa da, bu boşluq miqrasiya və yeni istehsal-kommersiya müəssisələrinin yaranması hesabına doldurulur [3, 143]. Azərbaycan Respublikası xüsusilə dövlət müstəqilliyinin ilk illərində emiqrasiya problemi ilə üzləşmişdir. O dövrdə həmçinin bölgələrdən iri şəhərlərə, həmçinin Bakıya işləmək üçün gələnlərin sayında artım müşahidə olunmuşdur.

Geosiyasi mövqeyi baxımından tarixən həmişə qlobal güc mərkəzlərinin diqqət mərkəzində olan Azərbaycan Respublikasında da həm beynəlxalq, həm də daxili və xarici miqrasiya proseslərinın xüsusiyyəti və tənzimlənməsi olduqca aktual məsələ olmuşdur. Ulu Öndərimiz Heydər Əliyev zorakı miqrasiya, ərazilərin işğalı və vətəndaş müharibəsi həddində olan, dünyada adambaşına ən çox qaçqının düşdüyü bir ölkədə "Əsrin müqaviləsi" ilə başlayan sabitliyi və inkişafı təmin etməklə Azərbaycanı xilas etmişdir. Bütün fəaliyyəti boyu beynəlxalq tribunalardan ölkəmizin üzləşdiyi fəlakətlə bağlı reallıqları bəyan etmişdir [2, 3]. Göründüyü kimi SSRİ-nin süqutundan sonra, qısa vaxt ərzində Azərbaycanda sosial-iqtisadi vəziyyət mürəkkəb hal almış və istehsal sahələri geriləmişdir. Lakin böhranlı vəziyyət uzun sürməmiş, görkəmli dövlət xadimi Heydər Əliyev ölkə rəhbərliyinə qayıdandan sonra əsaslı inkişafa nail olunmuşdur.

Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi əlaqələrin yaradılması və arealının genişləndirilməsi sahəsində mühüm addımlar atıldı. Belə ki, ölkəmiz 1991-ci ildə 82, 2013-cü ildə 150 dövlətlə xarici iqtisadi əlaqələr yaratmağa nail olmuşdur. Xüsusilə qeyd etmək lazımdır ki, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında başlanmış köklü iqtisadi islahatlar xarici iqtisadi əlaqələr sistemini də tam əhatə etmişdi. Dövlət tərəfindən işlənərək, bir sıra sənədlərin qəbul edilərək həyata keçirilməsi xarici iqtisadi əlaqələrin formalaşaraq inkişafında mühüm rol oynadı. Həmin sənədlərə müvafiq olaraq Azərbaycan Respublikasında xarici vətəndaşların hüquqları və mənafelərinin qorunmasına, dövlət təminatının verilməsi və həyata keçirilməsi də daxil idi [1, 17-19]. Ölkədə miqrasiya proseslərinin inkişafı sosial-iqtisadi inkişafdan, stabil siyasi idarəçilik və möhkəm qnunvericilikdən keçdiyi üçün Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan Respublikası xarici iqtisadi münasibətlərinin qurulmasına diqqət yetirmişdir. Nəticədə ölkə enerji siyasətini inkişaf etdirməklə paralel, regionda nəhəng infrastruktur layihələrin gerçəkləşməsinə də əhəmiyyət vermişdir.

Məlum olduğu kimi, ölkədə yeni iqtisadi inkişaf mərhələsi başlayıb. Bundan əvvəl ölkəmiz iki inkişaf mərhələsi yaşadı. Siyasi stabilliyin təmin olunması mərhələsi 1996-cı ildə başa çatdı. Sonra start götürən makroiqtisadi stabilliyin təmin olunması 1996-2000-ci illərdə həyata keçirildi. Həmin dövrdə Birinci Özəlləşdirmə Proqramını həyata keçirməklə yanaşı, makroiqtisadi stabillik əldə olundu. Bu müddətdə milli valyutanın kursu, inflyasiya səviyyəsi, xarici valyuta ehtiyatlarının formalaşması müsbət istiqamətdə dəyişdi. Bütün bunlardan sonra, yeni bir inkişaf mərhələsi başlayıb. Gömrük orqanlarının

vəzifələri də bu mərhələlərə uyğun olaraq dəyişdi. Birinci mərhələdə gömrük orqanlarının fəaliyyətində əsas diqqət bilavasitə sərhədlərin tam şəkildə qorunması idi. Yəni, sərhəddən ölkəyə hər hansı yad ünsürün daxil olması, qeyri-qanuni miqrasiyanın, qaçaqmalçılıq və narkotik vasitələrin dövriyyəsinin qarşısının alınması əsas məqsəd idi [7, 142]. Azərbaycanda qısa müddət ərzində həyata keçirilən iqtisadi islahatlar və davamlı inkişaf əməkçi miqrantların nəzərini cəlb etmiş və bu faktor respublikanın tanınmasında müsbət rol oynamışdır.

Bu gün Heydər Əliyevin miqrasiya siyasətini davam etdirən dövlət başçısı İlham Əliyev həmin siyasətin ən böyük məqsədini-qaçqın və məcburi köçkünlərimizin etnik təmizləməyə məruz qaldıqları torpaqlara qayıdışını həyata keçirmək yönündə əzmli və qətiyyətli fəaliyyətini ortaya qoymuşdur. Miqrantlarla bağlı problemlərin həllinə həsr edilən beynəlxalq görüşlərdə nəzərlər dövlət başçısının humanitar fəlakətin idarə olunmasında Azərbaycan təcrübəsi haqda nitqlərinə yönəlmişdir. [2, 5]. İlham Əliyevin Prezidentliyinin əsas konsepsiyası güclü iqtisadi bazanın formalaşdırılmasından ibarət idi. Bu konsepsiya kütləvi şüurun və cmiyyətin sosio-mədəni bazisinin mərhələlərlə postindustrial dəyərlər və demokratik ənənlər məcrasına transformasiyasına imkan yaratmalıdır. Bununla bərabər, geostrateji və geoiqtisadi məsələlər kompleksini həll etmək, milli tərəqqinin sabitliyini və davamlılığını təmin etmək, ölkəni beynəlxalq münasibətlərin obyektinə deyil, bu münasibətlərin subyektinə çevirmək lazım idi, çünki yeni dünya nizamını formalaşdıran ümumdünya transformasiyaları dövründə Azərbaycanın qlobal proseslərdə iştirakının təmin edilməsi son dərəcə zəruridir [4, 13-14]. Azərbaycanda miqrasiya proseslərinin tənzimlənməsində mühüm mərhələ olan 2004-cü ildən bu günə qədər qəbul olunan sənədlər ölkə qanunvericiliyində də öz əksini tapmış və beynəlxalq təcrübə uğurla tətbiq olunmuşdur. 2007-ci ildə Dövlət Miqrasiya Xidmətinin (DMX) yaradılması Prezident İlham Əliyevin respublikada miqrasiya siyasətinin inkişafına verdiyi mühüm töhfə oldu. Ardından DMX mövcud sahədə dövlətin qoşulduğu beynəlxalq konvensiyalardan irəli gələn məsələlərdə yaxından iştirak erməklə innovativ miqrasiya idarəçiliyinin gerçəkləşməsinə təkan vermiş oldu.

Azərbaycan Konstitusiyasının Bərabərlik hüququ adlanan 25-ci maddəsi, Azadlıq hüququ adlanan 28-ci maddəsi, Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları adlanan 69-cu maddəsi və digər maddələri insan hüquqlarının bərabər əsaslarla (bəzi hallar istisna olmaqla) müdafiəsini və təmin olunmasının siyasi-hüquqi əsaslarını özündə

təsbit edir [5, 20]. Ölkədə miqrasiya proseslərinin tənzimlənməsində konstitusiyanın rolu danılmazdır. Hüquqi-demokratik dövlət quruculuğunu davam etdirən Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsinə göstərilən həssas münasibət əcnəbilərə münasibətdə yüksək səviyyədə həyata keçirilir. Bu onu göstəri ki, miqrasiya və hüquqi tənzimlənmə bir-biri ilə vəhdət təşkil edərək dövlətin iqtisadi siyasətinin inkişafı və tərəqqisində səmərə təşkil edir.

2014-cü ilin mart ayının məlumatına əsasən, Azərbaycanda 150 min nəfər əməkçi miqrant yaşayır ki, onun sadəcə olaraq 10 min nəfəri dövlət tərəfindən ayrılan kovtaya müvafiq olaraq qanuni işləyir. Digərləri isə qeyri-qanuni fəaliyyət göstərir. Əməkçi miqrantlar əsasən ölkədə tikinti, sənaye və xidmət sahələrində fəaliyyət göstərirlər. Azərbaycana əməkçi miqrantlar əsasən Türkiyə, Gürcüstan, İran, Hindistan və Çindən gəlirlər. Ölkədə 2014-cü ildə ukraynalı əməkçi miqrantlar say hesabı ilə birinci yerə çıxıblar. Ukraynalılar əsasən xidmət sferalarında çalışırlar. Azərbaycanda ölkə qanunlarını pozan miqrantlar deportasiya olunurlar. Təkcə 2013-cü il ərzində ölkə qanununvericiliyini pozmuş 25 min nəfər xarici vətəndaş ölkədən deportasiya olunub [5, 22-23]. Qlobal prosesin bir parçası olan miqrasiya siyasəti həmçinin dövlətlərin milli təhlüksizliyinin qorunması kimi aktual problemləri də bərabərində gətirir. Bu səbəbdən Azərbaycanın qeyri-leqal miqrasiya, insan alveri, qaçalmalçılq və s. məsələlərdə ölkə qanunvericiliyinə diqqət yetirməsi onu göstəri ki, miqrasiya sahəsində qəbul olunan sənədlər, müasir dövrdə dövlətçiliyin müdafiəsində mühüm rola malikdir. Əks halda ölkə qanuvericiliyində yaranan boşluqlar və ya beynəxalq qanunvericiliyin, beynəlxalq hüququn bəzi hallarda tanınmaması kimi ciddi problemlər qarşısı alınmaz, yəni, kütləvi miqrasiyaların yaranmasına səbəb kimi göstərilə bilər.

Baxmayaraq ki, Azərbaycan Respublikasında miqrasiya siyasəti dövlət qanunları ilə yüksək səviyyədə tənzimlənir, belə müsbət inkişafı bütün region dövlətləri üçün qənaətbəxş hesab etmək çətindir. Hazırda qeyri-qanuni miqrasiya ilə mübarizə aparan Avropa dövlətləri mövcud sahədə qanunlarını sərtləşdirərək problemdən xilas olmaq yolları axtarırlar. Böyük güclərin yeni dünya nizamının gerçəkləşməsinə yönəlmiş addımları isə Yaxın Şərq və Şimali Afrika kimi həssas regionlarda terror və münaqişələrin aradan qaldırılmasına yox, belə mənfi tendensiyaların yaranmasına rəvac vermiş olur.

Müasir dünyada vəziyyət daha mürəkkəbdir. İndi milli və beynəlxalq təhlükəsizliyi nüvə başlıqları, separatçılıq hərəkatları ilə yanaşı terror və dini təməllərə dayanan ideoloji proseslər də əsaslı şəkildə təhdid edir, həm də bu təhdidlərin hər il coğrafiyası genişlənir, şiddəti isə artır. Nüvə silahı, beynəlxalq terrorizm, ideoloji cəbhələşmə və toqquşmalarla birlikdə transmilli mütəşəkkil cinayətkarlıq, narkotik ticarəti, demoqrafik partlayışlar, humanitar fəlakətlər, nəzarətdən çıxan miqrasiya axınları təhlükəsizliyin transregionallaşması prosesini yaradır [6, 6]. Miqrasiya proseslərinin nəzarətdən çıxmasına yönəlik addımlar – böyük dövlətlər arasında yeni ərazilərin bölüşdürülməsi və ya yeni enerji resurslarının əldə edilməsinə olan yüksək maraq, toqquşmalar, Avropanın yaratmış olduğu qeyri-multikultural mühit və dözümsüzlük kütləvi miqrasiya və qaçqın kimi partlayışa ciddi səbəb yaratmışdır. Belə bir məqamda Azərbaycanın miqrasiya sahəsində əldə etdiyi müsbət təcrübə və qısa vaxt ərzində tətbiq etdiyi innovativ miqrasiya idarəçiliyinin öyrənilməsi fayda verə bilər.

Sonda məqalə boyu şərh olunan bütün məqamları aşağıda göstərildiyi şəkildə, maddələr halında sadalamq olar:

➢ Müasir dünyada miqrasiya reallığı və qloballaşma bir-biri ilə sıx bağlıdır. Demokratik və hüquqi inkişaf yolunu tutmuş dövlətlər miqrasiya siyasəti və insan hüquqlarının qorunmasını dəstəkləməklə mövcud sahənin səmərəliliyinin artmasına dəstək vermiş olurlar;

➢ Miqrasiya XXI əsrdə sosial-iqtisadi aktuallığını artırmış və əmək miqrasiyası genişlənmişdir. Bu baxımdan Azərbaycan Respublikasının miqrasiya idarəçiliyi sahəsində əldə etdiyi müsbət təcrübə innovativ inkişafa şərait yaratmışdır;

➢ Həmçinin qeyd etmək lazımdır ki, miqrasiya siyasi və hüquqi faktor olaraq qalır. Azərbaycanın miqrasiya sahəsində qəbul etdiyi qanunlar bu sahədə qanunvericiliyin formalaşmasında müstəsna əhəmiyyət daşıyır;

➢ Azərbaycanda davamlı inkişafın bir hissəsi olan miqrasiya siyasətinin inkişafında xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyəti əvəzsiz rol oynamışdır;

➢ Hazırda Prezident İlham Əliyevin respublikada həyata keçirdiyi quruculuq və inteqrasiya siyasəti müxtəlif sahələrlə yanaşı innovativ miqrasiya idarəçiliyinin byenəxalq aləmdə tanınması və tətbiq olunmaı kimi mütərəqqi məsələlərdə ciddi səmərə verməkdədir.

**Ədəbiyyat**

1. Azərbaycanın xarici iqtisadi əlaqələri / Ələsgərov A.K., Kərimov X.Ş., Gülalıyev M.G., Qənbərov F.Ə., Sarıyev Ə.B., Mənəfova Ə.Q., Eyvazov A.A., Abasova S.H., Məhərrəmov A.M., Səmədova G.X. Bakı: Avropa, 2015, 332 s.
2. Abdullayev F.N. Beynəlxalq münasibətlər və miqrasiya prosesləri: geosiyasi aspektlər // Siyasi elm. üzrə elm. dok. diss. avtoreferatı. Bakı: Elm, 2016, 55 s.
3. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Dərslik. Bakı: Zərdabi LTD MMC, 2015, 1056 s.
4. Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.
5. Nəsibov E.M. Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab. Bakı: Elm və Təhsil, 2014, 240 s.
6. Paşayeva Q.Ə. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Avropa təhlükəsizliyinə başlıca təhdid kimi // Siyasi elm. üzrə elm. dok. diss. avtoreferatı. Bakı: DİA, 2015, 57 s.
7. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı: Victory, 2011, 542 s.

**Ahmadov A.**

**Summary**

**Model of innovative migration management in the Republic of Azerbaijan**

Migration history is a multidisciplinary global process based on roots. Nowadays, migration presenting as the leading actors of international relations remains a socio-economic, political and legal factor. The Republic of Azerbaijan has achieved positive development in the sphere of migration management in a short period. The study of laws and international experience in the country has increased the focus on political dialogue in recent years. Positive development in the field of migration in the republic has become a priority in the foreign policy of the republic.

The article explores some aspects of Azerbaijan's positive experience in migration management. In addition, the article outlines the impact of socio-economic progress, high level of protection of human rights and balanced foreign policy on the emergence of innovative management in the country.

**Ахмедов А.**

**Резюме**

**Инновационная модель управления миграции в Азербайджанской Республике**

Основываясь на исторические корни, миграция является многоотраслевым глобальным процессом. Выступая в ряду ведущих акторов международных отношений, миграция остается социально-экономическим, также политическим фактором в современном периоде. Азербайджан за короткое время добился положительного развития в области управление миграцией. В последние годы принятые законы и изучения международного опыта в этой сфере повысили внимание к политическому диалогу в стране. Наблюдаемое положительное развитие в области миграции в республике стал приоритетным направлением во внешней политике государства.

В статье были исследованы некоторые аспекты достигнутого положительного опыта в области управление миграцией Азербайджанской Республики. Кроме того, в статье были изложены значительное влияние социально-экономического прогресса, защиты прав человека на высоком уровне и сбалансированная внешняя политика в создании инновационного управления в области миграции в стране.

**Əbdürrəhimova Şəfa Rasim qızı**

*Azərbaycan Dillər Universiteti, Азербайджан*

## HEYDƏR ƏLİYEV: AZƏRBAYCAN-FRANSA ƏLAQƏLƏRİ

*Açar sözlər: Azərbaycan, Fransa, Heydər Əliyev, münasibətlər*

*Keywords: Azerbaijan, France, Heydar Aliyev, relations*

*Ключевые слова: Азербайджан, Франция, Гейдар Алиев, отношения*

Azərbaycan-Avropa əməkdaşlığı Fransa ilə əlaqələri daim diqqət mərkəzində saxlamağı tələb edir. “Avropa evi”nin yaradıcılarından olan Fransa müasir beynəlxalq münasibətlər sistemində müstəsna yerlərdən birini tutur. BMT Təhlükəsizlik Şurasının, “Böyük səkkizlərin” və “nüvə klubunun” üzvü, iki yüzədək beynəlxalq və regional təşkilatın iqamətgahı sayılan Fransa dünyanın aparıcı dövlətləri sırasında olub, dünya siyasətinin axarını müəyyənləşdirir.

Geosiyasi mövqeyinə, iqtisadi ehtiyatlarına görə Azərbaycan Fransanın strateji planlarında mühüm yer tutur. Hazırlanmasında fransız mütəxəssislərinin də böyük əməyi olan Avroasiya proqramlarının hamısı bilavasitə Azərbaycanla bağlı olduğu üçün Respublikamız Fransanın təsir dairəsinə daxildir.

Fransa 1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Demokratik Respublikasını faktiki olaraq tanısa da, iki ölkə arasında geniş əlaqələr 1991-ci ildə Azərbaycan müstəqilliyini elan edəndən sonra olmuşdur. Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan Türkiyə, Rumıniya və Pakistan kimi dövlətlər sırasında Fransanın da olması ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişafına mühüm təkan verən psixoloji-siyasi təsir amillərindən biri kimi vurğulanmalıdır.

Fransa 1992-ci il yanvarın 3-də Azərbaycanla diplomatik münasibətlər yaratmaq niyyətində olduğunu bildirdi və 1992-ci il martın 19-da Bakıda öz səfirliyini açdı. Fransanın Azərbaycandakı ilk səfiri Jan Perrən olub. O, Azərbaycan Respublikası Prezidentinə etimadnaməsini təqdim edən 2-ci xarici diplomat olub. Bakı ilə əlaqələri daha da genişləndirmək üçün fransız hökuməti humanitar məsələlər üzrə dövlət katibi Bernard Kuşnerin başçılığı altında öz nümayəndə heyətini Azərbaycana göndərdi [Godjaev, 1999, 4]. Bu səfər 1993-cü ilin axırlarına qədər Azərbaycan və Fransa arasında ən əhəmiyyətli və böyük səfər hesab olunurdu. Belə ki, müstəqillik qazandıqdan sonra ilk illər ikitərəfli əməkdaşlıq əlaqələrini tənzimləyən hüquqi-normativ sənədlərin imzalanması və həyata keçirilməsi sahəsində heç bir addım atılmırdı. 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmiş H.Əliyev elə həmin gün parlament qarşısındakı çıxışında Azərbaycanın xarici siyasət strategiyasında xüsusi diqqət verilməli olan üç Avropa dövləti sırasında İngiltərə və Almaniya ilə yanaşı Fransanın da adını vurğulaması Fransa hökumətinə çağırış idi [Hüseynova, 1998, 197]. Bunun ardınca 1993-cü ilin dekabrında Heydər Əliyevin Fransaya rəsmi səfəri Azərbaycanın ümumiyyətlə Avropa ölkələri ilə əlaqələrində intensiv inkişafın

başlanğıcını qoydu. Buna görə də Fransa-Azərbaycan münasibətlərinin qurulmasında ümummilli liderimiz Heydər Əliyevin rolu danılmazdır. Düzdür, bu iki ölkə arasındakı münasibətlərin tarixi qədim dövrə gedib çıxsa belə[1], məhz müstəqil dövlət kimi Azərbaycanla Fransa arasında münasibətlərin qurulması və inkişafı Heydər Əliyevin adı ilə birbaşa bağlıdır.

Müasir dövrdə Fransa dünyada erməni diasporasının ən güclü olduğu 3 ölkədən biri (digər ikisi Rusiya və ABŞ) hesab olunur. 1992-1993-cü ilin birinci yarısında Azərbaycanda hakimiyyətdə olan qüvvələrin siyasəti nəticəsində erməni lobbisinin güclü olduğu Avropanın supergüc dövlətlərindən biri olan Fransa ilə qarşılıqlı etinasızlıq və soyuqluq hökm sürürdü. Məhz H.Əliyevin təşəbbüsü ilə diplomatik kanallarla Azərbaycan rəhbərliyinin Fransaya münasibətdə yeni kurs götürməsi ilə bağlı məlumatlar Fransa hökumətinin nəzərinə çatdırılmağa başlandı [Hüseynova, 1998, 197].

Heydər Əliyevin 1993-cü ildə Fransaya rəsmi səfərindən sonra Azərbaycanla Fransa arasında iqtisadi əlaqələrin yaranması və genişlənməsi daha da sürətləndi. Bu səfər çərçivəsində Heydər Əliyevlə keçmiş Fransa prezidenti Fransua Mitteranın birgə iştirakı ilə Fransa Respublikası və Azərbaycan Respublikası arasında "Dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə" adlı sənəd imzalandı. H.Əliyevin Fransa səfəri zamanı – 1993-cü il dekabrın 20-də dediyi kimi, "Fransa Azərbaycanın simasında uzun illər ərzində əməkdaşlıq üçün etibarlı tərəfdaş əldə edir" [Hüseynova, 1998, 199].

Təsadüfi deyil ki, dövlətimizin "qara qızıl"ı ta okeanın o tərəfinə belə səs salmışdı. İnkişaf etmiş Avropa ölkələri bu baxımdan Bakını daim diqqət mərkəzində saxlayırdılar. Məhz H.Əliyevin siyasi kursu və səriştəli diplomatik addımları nəticəsində 1994-cü il sentyabrın 20-də Azərbaycan Neft Şirkəti SOCAR və 11 xarici şirkət arasında Azərbaycanın "Azəri-çıraq" və "Günəşli" neft yataqlarında neftin istismarına dair "Əsrin müqaviləsi" imzalandı. Müqavilə imzalandıqdan sonra digər Qərbi Avropa ölkələri kimi Fransa da Azərbaycanda neft yataqlarının istismarında iştirak etmək üçün böyük səy göstərməyə başladı. Fransız hökuməti bu istəyini Azərbaycan hökumətinə çatdırmaq üçün keçmiş baş nazir Balladurun başçılığı ilə öz nümayəndə heyətini 1995-ci ilin martında Bakıya göndərdi. İki aydan sonra H. Əliyev və "Elf" şirkətinin prezidenti Jaffre bu məsələni Parisdə ətraflı müzakirə etdilər. 1995-ci ilin iyulunda Azərbaycan Neft

[1] Hələ 1708-ci ildə Azərbaycan Səfəvi dövləti ilə Fransa arasında ticarət sazişi imzalanmışdır [Godjaev, 1999, 3].

Şirkəti SOCAR-la Fransa neft şirkəti neft birliyi yaratmaq haqqında razılığa gəldilər. 1995-ci ilin dekabr ayında Parisdə təşkil olunan "Azərbaycanda investisiya imkanları" adlı sərgidə H. Əliyevlə Fransanın yeni baş naziri Jüppe arasındakı danışıqlar bu iki şirkət arasında razılığın həyata keçirilməsini sürətləndirdi. 1996-cı ilin martında cənab Jaffre və SOCAR şirkətinin nümayəndələri Xəzər dənizinin cənubunda yerləşən "Lənkəran-dəniz" və "Talış-dəniz" neft yataqlarının istismarında fransız şirkətlərinin iştirakı haqqında razılığa gəldilər. H. Əliyevin 1996-cı ildə keçmiş Fransa prezidenti Jak Şirakın dəvəti ilə Fransaya rəsmi səfəri zamanı Parisdə Yelisey sarayında Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın "Elf-Akiten" və "Total" şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Lənkəran-dəniz" və "Talış-dəniz" neft yataqlarının hasilatının pay bölgüsü əsasında birgə işlənilməsi haqqında müqavilə imzalandı [Godjaev, 1999, 12-13].

1997-ci il yanvarın 29-da ümummilli liderimiz Heydər Əliyevin Fransaya rəsmi səfəri zamanı keçmiş Fransa prezidenti Jak Şirakla Yelisey sarayında görüşündə isə "Azərbaycan Respublikası və Fransa Respublikasının enerji sahəsində sıx əməkdaşlıq etmək niyyəti" haqqında birgə bəyannamə qəbul edilmişdir. Hər iki ölkə prezidenti Azərbaycan və Fransa enerji sahəsində əməkdaşlığın səviyyəsindən və fransız şirkətlərinin Azərbaycanda bu sahənin inkişafındakı iştirakından razı qaldıqlarını vurğulamışdılar. [Bibliothèque électronique, "Héritage de Heydar Aliyev", A la rencontre du jour à venir, Bakou, 2004, 47]

Tarixə nəzər salsaq, Fransanın Azərbaycana olan marağının hələ qədimdən - XVII – XVIII əsrlərdən özünü göstərdiyinin şahidi olarıq. 1992-ci ildə isə Fransa Respublikası hələ o zamandan Cənubi Qafqazın ən perspektivli dövlətlərindən biri sayılan Azərbaycanla bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurmaq niyyətini izhar etmişdir.

**H.Əliyevin prezidentliyi dövründə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Fransanın mövqeyi.** Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətli həlli onun beynəlxalq aləmdəki mövqeyi, ayrı-ayrı ölkələrlə milli dövlət mənafelərinə cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlıdır. Bu mənada Azərbaycanın beynəlxalq əlaqələr sistemində layiqli yer tutması üçün dünya

siyasətinin formalaşdırılmasında aparıcı rol oynayan dövlətlərlə, o cümlədən siyasi çəkisinə və iqtisadi potensialına görə beynəlxalq aləmdə özünəməxsus yer tutan Qərbi Avropa ölkələri, həmçinin Fransa ilə qarşılıqlı münasibətlərinin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Dünya ölkələri ilə əlaqələr yaradılarkən əsas məsələlərdən biri torpaqlarımızın 20%, yəni 17000 $km^2$-nin erməni  qəsbkarları tərəfindən işğal olunması və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı üzləşdiyimiz haqsızlıqları, reallıqları onlara dürüst şəkildə çatdırmaqla problemin ədalətli həllinə nail olmaqdır.

Avropanın aparıcı dövlətlərinin Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ilə əlaqədar tutduqları mövqe bir-birindən fərqlidir. Münaqişənin dinc vasitələrlə nizama salınmasında və həllində bu dövlətlərin iştirakına gəldikdə isə ilk növbədə əsas aparıcı dövlətlərdən biri kimi ATƏT-in Minsk qrupunun həmsədrlərindən olan Fransanın adını çəkmək lazımdır.

Qərb ölkələrində Azərbaycan əleyhinə olan mərkəzlərdən biri də məhz Fransadakı erməni icmasıdır. Azərbaycan əleyhinə mənfi ictimai rəyin formalaşmasında erməni diasporu ilə yanaşı Fransadakı Erç erməni kilsəsinin, eyni zamanda ictimaiyyət arasında xüsusi nüfuza malik çoxsaylı mətbuat orqanlarının rolu da böyük olmuşdur. Fransanın kütləvi informasiya vasitələri, məsələn, “Le Monde”, “Le Figaro”, “Le Parisien” kimi qəzetlər, ölkənin bir sıra televiziya şirkətləri, xüsusilə “TF-1” və “Antenn-2” şirkətləri Azərbaycan əleyhinə canfəşanlıqla mübarizə aparırdılar.

Fransadakı erməni icması öz məqsədlərini həyata keçirmək üçün hakimiyyət dairələrinə də yol tapa bilmiş və bu da anti-azərbaycan, anti-türk əhval-ruhiyyəsinin yaranmasına və ermənilərə olan rəğbətin artmasına gətirib çıxarmışdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması Heydər Əliyevin 1993-cü ildən başlayaraq xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra münaqişənin aradan qaldırılmasına nail olmaq üçün ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə, ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, beynəlxalq forumlarda, həmçinin Ermənistan prezidenti ilə birbaşa danışıqlarda göstərdiyi ardıcıl səylər dövlət başçısının apardığı siyasətin mühüm hissəsini təşkil etmişdir.

Azərbaycanla Fransa arasındakı soyuqluğu aradan qaldırmaq iki dövlət arasındakı münasibətləri lazımi səviyyədə qurmaq üçün Azərbaycan dövləti tərəfindən bir sıra

mühüm adımlar atıldı. 5 noyabr 1993-cü ildə Fransanın keçmiş prezidenti Mitteran Ermənistan və Azərbaycan arasında iki ölkənin sərhədlərini müəyyənləşdirən müqavilənin imzalanmasını təklif etdi. SSRİ-nin süqutundan sonra Ermənistan Azərbaycanın müstəqilliyini və sərhədlərini tanımırdı. 1993-cü ilin dekabrın 19-dan 22-dək Parisdə Mitteran və Heydər Əliyev arasında görüş zamanı Dağlıq Qarabağın statusu və erməni qüvvələri tərəfindən işğal olunmuş digər ərazilər barədə müzakirələr keçirilmişdi. Fransa dövlət başçısının sözlərinə görə onun ölkəsi regionda sülhə və münaqişənin ədalətlə həllinə nail olmağa çalışır. Səfər zamanı Ermənistanın işğalçılıq siyasəti barədə aydın təsəvvürün yaradılması Fransada Azərbaycan əleyhinə formalaşmış mənfi ictimai rəyin aradan qaldırılması yolunda mühüm addım oldu. Eyni zamanda Respublika prezidenti ATƏT-in əsas sənədlərindən biri olan yeni Avropa üçün Paris xartiyasına Azərbaycanın qoşulması barədə sənədi imzaladı.

1994-cü il dekabrn 5-6-da ATƏM-in Budapeştdə keçirilən zirvə toplantısında Minsk konfransına iki həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul edildi, bu dövlətlərdən biri Rusiya, digəri isə Finlandiya oldu. Lakin Fransa da bu münaqişənin həllində maraqlı dövlətlərdən biri olaraq Minsk qrupunun həmsədrliyinə can atırdı. Fransanın ATƏT-in Minsk qrupunun həmsədri olmaq iddiası 11 oktyabr 1996-cı ildə Fransa Xarici İşlər naziri Şarettin Bakıya rəsmi səfəri zamanı məlum oldu. O, Fransanın ATƏT-in Minsk qrupuna həmsədr olmaq istəyini açıq şəkildə elan etməsə də, vurğuladı ki, Fransa Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək etməyə və öz fəaliyyətini gücləndirməyə çalışır. ATƏT-in sədri cənab Kotinin təklifi ilə Fransa 1996-cı ilin dekabrında keçirilən Lissabon sammitində öz namizədliyini irəli sürdü. Azərbaycan Fransanın həmsədr kimi namizədliyini dəstəkləmirdi. Lissabon sammitindən əvvəl ABŞ öz namizədliyini irəli sürmüş və razılığa nail olmuşdu. Buna baxmayaraq, Fransa münaqişə ilə bağlı bütün danışıqlarda iştirak etmiş və Fransanın vasitəçiliyi ilə ATƏT-in sədri bəyannamə qəbul etmişdi. Bəyannamə Ermənistandan başqa ATƏT-in bütün üzv dövlətləri tərəfindən qəbul olunmuşdu. Bəyannamədə Ermənistan və Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan sərhədlərində Dağlıq Qarabağın geniş muxtariyyatı, Regionda təhlükəsizliyin təmin olunması məsələləri öz əksini tapmışdı. Fransanın iştirakı ilə münaqişənin həlli məsələsi J.Şirak və H.Əliyev arasında 1997-ci ilin yanvarında ikinci rəsmi səfər zamanı da müzakirə olunmuşdu. 1997-ci il görüşü zamanı H.Əliyev

Fransanın ermənipərəst mövqeyinə etiraz olaraq bu dövlətin ATƏT-in Minsk qrupuna həmsədrlik etməsinə qarşı çıxmışdı. Lakin Fransanın həmsədr kimi bitərəf mövqe tutacağına söz verdikdən sonra H.Əliyev bu variantı məqbul saymışdır. H.Əliyev qeyd etmişdir ki, biz artıq ATƏT-in Minsk qrupuna həmsədr kimi amerikan Strob Talbotun namizədliyini irəli sürmüşük. Eyni vaxtda başqa bir ölkənin də namizədliyini verə bilmərik [Godjaev, 1999, 21-29].

Ulu öndərimiz Heydər Əliyevin 2001-ci ildə Fransaya gerçəkləşən növbəti rəsmi səfəri isə iki dövlət arasında münasibətlərdəki gərginliyi əsaslı şəkildə aradan qaldırmaq, ortaq əməkdaşlıq nöqtələri tapmaq baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Həmin səfər zamanı ölkələrimiz arasında dinamik əlaqələri stimullaşdıran bir sıra saziş və müqavilələr, mühüm razılaşmalar əldə olunmuşdur.

2003-cü ilin oktyabrında İlham Əliyev prezident seçildikdən sonra da Fransa – Azərbaycan münasibətlərinin möhkəm təməl üzərində intensiv inkişaf etdirilməsi üçün çox böyük səy göstərmişdir. İ.Əliyev eynilə ulu öndərimiz H.Əliyev kimi ilk xarici səfərinə Fransadan başlamaqla, rəsmi Bakının xarici siyasətinin sabitliyi barədə dünya ictimaiyyətinə xüsusi bəyanat vermişdi.

Sonda məqaləmi Heydər Əliyevin Fransa dövləti ilə sıx münasibətlərə böyük əhəmiyyət verdiyini açıq-aşkar bildirən nitqindən bir hissə ilə bitirmək istəyirəm: "Fransa ilə bizim çox sıx dostluq və faydalı əməkdaşlıq əlaqələrimiz var. Bu əlaqələr, demək olar ki, bütün sahələri - siyasi, iqtisadi, həm də elmi-mədəni, humanitar və digər sahələri əhatə edir. Biz dostluğumuzu və əlaqələrimizi yüksək qiymətləndiririk. Bu əlaqələri qorumaq, saxlamaq, inkişaf etdirmək üçün səylər göstəririk". [Visa France, La France en Azerbaïdjan, 14 juillet 2009 à l'ambassade de France, 6]

## Ədəbiyyat


1. Bibliothèque électronique. "Héritage de Heydar Aliyev". A la rencontre du jour à venir. Bakou, 2004.
2. Godjaev (Eïvazly) A. Les relations contemporaines franco-azerbaïdjanaises. Paris, 1999.
3. Həsənov Ə. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münasibəti və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997.
4. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.

5. Hüseynova H. Azərbaycan Avropa İnteqrasiya Prosesləri sistemində. Bakı, 1998.

6. İsmayılov İ.Z. Azərbaycanın XX əsrdə Almaniya və Fransa ilə əlaqələri. Bakı, 2006.

7. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər. Bakı, Gənclik, 1996.

8. Qasımov M. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, Azərnəşr, 1993.

9. Qasımov M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından sonra SSRİ yaranana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, 1998.

10. Visa France, La France en Azerbaïdjan (Fransa Azərbaycanda). 14 juillet 2009 à l'ambassade de France (Fransa Səfirliyində, 14 iyul 2009-cu il)

*Əbdurrahimova Sh.*

**Summary**

**Heydar Aliyev: relations between Azerbaijan and France**

The article deals with the exceptional role of the national leader Heydar Aliyev in formation bilateral relations between France and Azerbaijan. It is also noted that the sustainable and bilateral relationship between two countries began after 1991, when our Republic got its independence from the Soviet Union. The increasing development with France where the Armenian lobby has always been strong would assist us to get success in world political arena.

**Абдулранимова Ш.**

**Резюме**

**Гейдар Алиев: отношения между Азербайджаном и Францией**

В статье рассматривается исключительная роль общенационального лидера Гейдара Алиева в формировании двусторонних отношений между Францией и Азербайджаном. Отмечается также, что устойчивые и двусторонние отношения между двумя странами начались после 1991 года, когда наша республика получила независимость от Советского Союза. Растущее развитие с Францией, где всегда было армянское лобби, поможет нам добиться успеха на мировой политической арене.

**Əsgarova Nigar Nizami qizi**
*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

# U.S. ENERGY SECURITY POLICY IN AZERBAIJAN DURING THE PRESIDENCY OF NATIONAL LEADER HAYDAR ALIYEV

***Key words:*** *Azerbaijan, the USA, energy security, Caspian basin, energy resources*

***Açar sözlər:*** *Azərbaycan, ABŞ, enerji təhlükəsizliyi, Xəzər hövzəsi, enerji ehtiyatları*

***Ключевые слова:*** *Азербайджан, США, энергетическая безопасность, Каспийский бассейн, энергетические ресурсы*

The energy security policy in contemporary period is directly connected with the political processes and its impact throughout the world. One of the defining features affecting world oil market is the policy which is determined by U.S. policy makers. The provision of national interests forms the basis of U.S. foreign policy. The most important side of this policy is the provision of energy security as the guaranty of their national security policy of the USA [http, I].

Zbigniew Brezezinksi who was National Security Advisor during the presidency of Jimmy Carter between 1977-1981 expressed his view about the role of region which was rich of hydrocarbon resources: "Almost all countries from Kazakhstan and Azerbaijan to Saudi Arabia are the oil producing countries and this fact increases the importance of the region. Thus, to obtain energy resources with such convenient prices played a vital role for three huge regions - Northern America, Europe and Eastern Asia where economy is dynamically developing. For this reason, to obtain a strategic dominance which relied on corporation, even based on mockery, is a substantial step towards the world hegemony". [Бжезинский Зб. s.26] It is not difficult to understand the importance of Azerbaijan for the USA as the country rich with hydrocarbon resources. There were some defining features which determined U.S. energy security policy in Azerbaijan.

One of the defining feature of the USA in the region was the save transportation of energy resources from Caspian basin to the West.

Second defining feature was connected with the geo-political situation of Azerbaijan Republic which was quite complicated. Thus, global powers such as Russia,

Iran and Turkey which tried to defend their interests here shared borders with Azerbaijan. In this case the USA always supported Turkey as the member of NATO and was interested in Turkey's increasing power and leadership in the region.

To understand better the defining features of the USA energy policy in Azerbaijan it is important to trace back to the end of XX century when Azerbaijan gained its independence.

The U.S. energy security policy in Caucasus is directly connected with the Republic of Azerbaijan. Because Azerbaijan is the sole country which is situated in Caspian basin and possesses rich hydrocarbon resources among three South Caucasian countries. Azerbaijan gained its independence in 1991 after the collapse of Soviet Union. Azerbaijan is one of the ancient countries which produced oil through centuries. According to some archeological evidence oil was used here in III and IV centuries B.C. But the industrial production of oil was only possible in XIX century. The first oil well was drilled in Bibi-Heybet in 1846. From the beginning of 1920's till the II World War Azerbaijan could get a success for being in the center of interests for its rich oil resources. Azerbaijan displayed an interest in corporation with Euro Atlantic organizations such as NATO and European Council. The USA and other countries recognized the independence of Azerbaijan and open their embassies here.

In the first years of its independence Azerbaijan (1991-1993) witnessed the change of some presidencies and was involved to Nagorny Karabakh war following the aggression of the Republic of Armenia against Azerbaijan. The war caused the deterioration the relations both with Russia and the USA. Thus, with the strong support of Armenian lobby the U.S. Congress had passed amendment the section 907 to "the Freedom Support Act". This amendment banned any kind of direct U.S. aid to Azerbaijan. Nevertheless, Azerbaijan had an intention to normalize relations with the U.S. despite of Russian pressure and objection. Or on contrary, Azerbaijan's rich oil resourced attracted U.S. attention to Azerbaijan and demonstrated the U.S.A will to re-establish relations with a country rich of energy resources.

During this period "the energy map" of Azerbaijan could draw the attention of American political elites to Azerbaijan. The USA acknowledged that it was possible to deliver rich hydrocarbon resources to the West without Iran and Russian presence, and it

would enable U.S. to decrease the influence of these two strong states both in regional and international level.

The Republic of Azerbaijan and Georgia played a great importance for the USA in the context of transporting Caspian oil and gas to the West. Besides the role of Azerbaijan in transporting energy resources of Central Asian countries which didn't have any exit to sea was priceless. The defining feature of the U.S. energy security policy in Azerbaijan was connected directly to this case. Lack of financial means, modern technology and skilled personnel Azerbaijan encountered with obstacles in developing its energy industry. It was inevitable for Azerbaijan to resort to the West to get financial aid and technical assistance for producing energy resources. It was a hard task for Azerbaijan to differentiate energy policy and simultaneously to balance interests of Russia, Iran and other regional actors. The situation had only changed as a result of exact and balanced policy carried out by the national leader Heydar Aliyev who came to power in 1993.

To reduce the increased pressure in the region and also to improve and better relations with neighboring as well as Western countries was the main direction of late president Heyder Aliyev in the foreign policy of Azerbaijan. This policy embraced to provide the interests of other countries here without any damage to national interests and security of Azerbaijan and simultaneously to other countries.

With the head of president Heydar Aliyev "Contract of the Century" was signed between State Oil Company of Azerbaijan Republic (SOCAR), "British Petrolium" and "AMOKO" and 11 leading oil consortiums of Western countries in 20 of September, 1994. [II, http] The main essence of contract consisted of the joint development of "Azeri" and "Chirag" oilfields and deep water part of "Guneshli" oilfield for 30 years. Azerbaijan government invited leading oil companies to be part of this contract. The contract envisaged the production of 511 million ton of oil for 7,4 billion of dollar [Atakan Gül-Ayfer Yazgan Gül, s.56]. The share of U.S. companies in this project was 40 % [İdris Bal, s. 235].

New oil strategy of Azerbaijan Republic established a basis for provision of modern engineering and technologies for the economy of Azerbaijan, especially for industry and oil sector [Cəbi Bəhramov.səh. 120-129]. Besides, "Contract of the Century" introduced Azerbaijan to Western oil companies. Of course, it was impossible not to feel the pressure of Russia. Russia offered Azerbaijan to purchase energy resources for more

expensive prices. This offer would be very profitable in commercial term, but Azerbaijan acknowledged that to fall into the sphere of influence of Russia could cause the danger to its independence and this contradicted to national interests of Azerbaijan. The attraction of Western business elite to Azerbaijan and to direct its export stream for different direction Azerbaijan could ensure its political and energy security. “Oil map” gave both political and economic stability and flourishing to the country, and also created a suitable condition for strengthening its position in an international level.

In second half of the 90’s years of XX century the USA enhanced the scope of relations with Azerbaijan. These years Bill Clinton’s administration admitted the fact about important energy resources and significant geo-political position of Azerbaijan.

U.S. foreign policy toward Azerbaijan was directly connected with strategical importance of energy resources of country. Azerbaijan obtained a principal position in construction of new export pipeline which had a great importance both for the USA and whole Western world [Pashayev H.M.New-York: Global Scholarly Publications, 2006].

The energy resources of Azerbaijan played a significant role in U.S. energy security policy and consequently the Bill Clinton’s administration attitudes towards official Baku relented. Thus, the increasing of oil production in Azerbaijan and the necessity to bring it to world market had led to the establishment of a significant strategic project – Main Export Pipeline Baku-Tbilisi-Ceyhan. The memorandum about BTC pipeline project was signed between Azerbaijan, Turkey and Georgia in 15 of May, 1998. On October 29 of the same year Ankara declaration was signed with the participation of former president of the U.S. Bill Clinton.

Although the USA and its allies were interested in preservation of power balance in Caspian region the main obstacle for them was energy security policy of Russia in this region. The main basis of the USA oil transit policy in the region was the transportation of Caspian oil through save pipeline which couldn’t be controlled by any other country.

Thus, the relations between Azerbaijan and the USA reached the peak after the realization of Baku-Tbilisi-Ceyhan oil pipeline and Baku-Tbilisi-Kars gas pipeline project. Through these pipelines Western countries obtained opportunity to get hydrocarbon resources of Azerbaijan without Russia and Iran’s support. Turkey also became a significant transit country as NATO member.

It should be noted that 3.7 billion of dollar capital was invested to Azerbaijan oil industry during 1994-2003. According to facts scrutinized above were led flourishing and development of modern Azerbaijan. But it was only possible according to balanced and exact policy conducted by national leader of Azerbaijani people Heydar Aliyev. He determined oil strategy of country, established favorable relationship with neighbor countries, carried the realities of Azerbaijan to world community. Complicated geo-political situation of Azerbaijan demanded the pursuance more careful policy. The participation of regional actors and intrigues brought by them became a potential thread for national security of Azerbaijan. But Azerbaijan neglected all these threads under the presidency of Heydar Aliyev. Thus, the modern Azerbaijan was established by national leader- Heyder Aliyev is being successfully developed by current president Ilham Aliyev.

**Literature**


1. Atakan Gül-Ayfer Yazgan Gül, Avrasya Boru Hatları ve Türkiye, İstanbul: Bağlam Yayıncılık, 1995, s.56)
2. Cəbi Bəhramov. "Əsrin Müqaviləsi" müasir Azərbaycan Respublikasının Neft Siyasətinin əsasıdır. Elmi əsərlər. Azərbaycan Milli Elmlər Akademiyası, Tarix İnstitutu. 61-ci cild. Bakı-2016. səh. 120-129
3. Contract of the Century http://azerbaijans.com/content_775_en.html

İdris Bal, "ABD'nin Orta Asya Politikası", Bağımsızlıklarının 10. Yılında Türk Cumhuriyetleri, eds. Emine Gürsoy-Naskali, Erdal Şahin, Haarlem: SOTA, 2002, s. 235

4. Pashayev H.M. Racing Up Hill: Selected Papers of Azerbaijan's First Ambassador to the United States of America. New-York: Global Scholarly Publications, 2006
5. Pierre, Tristam. The U.S. and the Middle East since 1945. A Guide to Mideast Policy from Harry Truman to George W. Bush. http://middleeast.about.com/od/usmideastpolicy/a/me070909b.htm I
6. Бжезинский Зб. Выбор. Мировое господство, или глобальное лидерство. М.: Междуна-родные отношения, 2004. С. 95, 26, 167.


**Əsgərova N.**

**Xülasə**

**Ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində ABŞ-ın Azərbaycanda enerji siyasəti**

Məqalədə ABŞ-ın enerji təhlükəsizliyi siyasəti və müasir dövrdə, yəni 1991-ci ildə Sovet İttifaqı dağıldıqdan və soyuq müharibə başa çatdlqdan sonra onu şərtləndirən amillərdən bəhs edilir. Azərbaycan ABŞ üçün öz milli maraqlarının təmin edilməsi üçün strateji ölkəyə çevrilmişdir. ABŞ-ın enerji təhlükəsizliyini təmin edilməsinin başlıca amilini Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlara malik olması və bu ehtiyatların təhlükəsiz şəkildə Qərbə çatdırılmasıdır.

**Аскерова Н.**

**Резюме**

**Политика США в области энергетической безопасности в Азербайджане во время президентства общенационального лидера Гейдара Алиева**

В статье, говорится о политике энергетической безопасности США в Азербайджане и признаках, обуславливающих на современном этапе, то есть в 1991 году после распада Советского Союза и окончания холодной войны. Азербайджан превратился в стратегическую страну для США, которые считают обеспечение энергетической безопасности для себя приоритетом осуществления национальных интересов. Основными признаками, обуславливающими обеспечение политики энергетической безопасности, являлось овладение карбо гидрогенными запасами Каспийского бассейна и доставка их на Запад безопасным маршрутом.

---

**Səmədova Kəmalə Kamal qızı**

*Sumqayıt Dövlət Universiteti, Azərbaycan*

## AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ ANTİTERROR ƏMƏLİYYATLARDA İŞTİRAKI

*Açar sözlər: Azərbaycan, NATO, İraq, Əfqanıstan, əməliyyat, antiterror*

*Key words: Azerbaijan, NATO, Iraq, Afghanistan, operation, anti-terrorism*

*Ключевые слова: Азербайджан, НАТО, Ирак, Афганистан, операция, антитеррор*

Müasir dövrümüzdə beynəlxalq münasibətlərin normal gedişinə təhlükə yaradan, kütləvi insan tələfatına səbəb olan və bütün dünyanın diqqət mərkəzində olan qorxulu problemlərdən biri də terrorizmdir. Terrorizmin tərifi əksər ədəbiyyatlarda demək olar ki, eyni cür göstərilir. “Bir qurum və ya təşkilat tərəfindən öz məqsədlərinə çatmaq üçün

cəmiyyətdə və yaxud digər dövlətlərdə qorxu yaradılmasına, qeyri-qanuni güc və hədənin tətbiq olunmasına terrorizm deyilir” fikri yəqin ki, hər kəsə məlumdur. Lakin terrorizm bu tərifdə göstərildiyi qədər sadə bir proses deyildir. Terrorizmin baş verməsinin müxtəlif səbəbləri olduğu kimi, onun formaları da, həyata keçirilmə üsulları da müxtəlifdir. Bu müxtəliflik, çoxşaxəlilik terrorizmə qarşı mübarizəni olduqca çətinləşdirir [Nəsirov, 2010, 350].

Tarixində dəfələrlə terrora məruz qalan ölkələrdən biri olan Azərbaycan bu problemin hansı böyük faciələrə yol açdığından, yaratdığı fəlakətin fəsadlarından, günahsız insanların həyatına kütləvi şəkildə son qoyduğundan yaxşı xəbərdardır. Erməni terrorçularının tarixin müxtəlif dönəmlərində, eləcə də ən yeni tariximizdə xalqımıza qarşı törətdikləri terror aktlarının, soyqırımılarının dəhşətli nəticələri barədə beynəlxalq ictimaiyyət də kifayət qədər məlumatlıdır. Azərbaycan Respublikası isə həm özünün, həm də dünyanın bu qəbildən olan problemlə üzləşməməsi üçün həmişəki kimi terrora qarşı mübarizənin ön cərgələrində yer alır.

Ölkəmiz daim onu da bəyan edir ki, terrorçuluğun kökünün kəsilməsi üçün bütün dünya dövlətlərinin birgə səyi və iş birliyi ən zəruri şərtlərdən biri kimi çıxış edir. Prezident İlham Əliyev bununla bağlı bildirmişdir: "Biz terrorizmin bütün formalarını qətiyyətlə pisləyirik və tam əminik ki, terrorçuluğa, terrorizmə qarşı mübarizə ancaq o təqdirdə səmərə verə bilər ki, bütün dövlətlər öz səylərini birləşdirsinlər". Azərbaycanın bu mövqeyində kifayət qədər haqlı olması reallığını dünya 2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən və minlərlə günahsız insanın ölümünə yol açan dəhşətli terror aktlarından sonra bir daha gördü, buna əmin oldu [5].

2001-ci il 11 sentyabr hadisələri terrorizmlə mübarizə sahəsində universal hüquqi və təşkilati mexanizmlərin təkmilləşdirilməsinə təkan vermişdir. BMT Təhlükəsizlik Şurası antiterrorizm üzrə əməli tədbirlərin həyata keçirilməsi ilə bağlı bir sıra qətnamələr qəbul etmiş və BMT-nin Antiterror üzrə Komitəsi yaradılmışdır. Məhz bu kimi faktlara görə 11 sentyabr hadisələri terrorizmlə mübarizədə yeni eranın başlanğıcı kimi qiymətləndirilir [9].

2001-ci ilin 11 sentyabr hadisələrindən sonrakı mərhələdə bir çox dövlətlər gözləmə mövqeyi tutduğu halda, Ümummili Lider Prezident Heydər Əliyev bu olaya dərhal reaksiya verərək, həmin terror aktlarını bütövlükdə bəşəriyyətə, insanlığa qarşı ən dəhşətli cinayət kimi pislədi, Azərbaycanın terrorla mübarizədə hər zaman fəal mövqe

tutacağını bəyan etdi [6]. Buna paralel olaraq ölkəmiz antiterror koalisiyasının ilk üzvlərindən birinə çevrildi, sözügedən koalisiyanın səmərəli fəaliyyətinə böyük töhfələr verdi.

Azərbaycan Respublikası terrorizmə qarşı mübarizədə fəal iştirak etmək niyyəti ilə 2001-ci il oktyabrın 1-də "Maliyyə terrorizmi ilə mübarizə haqqında beynəxalq konvensiyaya qoşulmaq haqqında" qanun qəbul etdi. Oktyabrın 11-də isə müvafiq konvensiyaya qoşuldu [1, 386].

Azərbaycan terrorizmə qarşı əməli mübarizəni dəstəkləmək üçün öz hava məkanını və hava limanlarını açıq elan edib. Ölkəmiz həmçinin qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə məqsədilə qəbul edilən bütün konvensiyalara qoşulub. Vurğulamaq lazımdır ki, bu cür fəaliyyət strategiyasının banisi Heydər Əliyevdir və məhz o, Azərbaycanı beynəlxalq antiterror koalisiyasının fəal iştirakçılarından birinə çevirmişdir. Ölkəmizin İraq, Əfqanıstan və Kosovada sülhməramlı missiyası bunun bariz nümunəsidir. O da qeyd edilməlidir ki, Heydər Əliyev 11 sentyabr hadisələrindən xeyli əvvəl terrorizmin beynəlxalq bəlaya çevriləcəyini uzaqgörənliklə hiss etmiş və məlum olaydan 2 il qabaq-1999-cu ildə "Terrorizmlə mübarizə haqqında" Qanunu imzalamışdı [Babaoğlu, 2009, 115].

Mühüm beynəlxalq və regional konvensiyalara qoşulan ölkəmiz 13 ikitərəfli saziş, 15 protokol və 2 memoranduma imza atıb, BMT-nin antiterrorizmə dair 13 konvensiyasını ratifikasiya edib [6]. Ölkəmiz NATO ilə terror təhlükəsi ilə bağlı kəşfiyyat mübadiləsi aparır, siyasi müzakirələrdə iştirak edir, milli qabiliyyətlərin inkişaf etdirilməsi sahəsində əməkdaşlığı həyata keçirir. NATO ilə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi arasında qarşılıqlı əməkdaşlığın yeni mərhələsi NATO-nun Xüsusi Komitəsinin işçi qrupunun terrorçuluqla mübarizəsinə həsr olunub və ilk dəfə Bakıda 2004-cü ildə keçirilən iclası ilə başlayıb. Birgə antiterror fəaliyyətilə bağlı MTN-nin Heydər Əliyev adına Akademiyasının nəzdində Beynəlxalq Antiterror Təlim Mərkəzinin yaradılması Azərbaycanın bu sahədə NATO ilə əməkdaşlığının davamlılığını sübut edir.

Elə bu gün də Azərbaycan antiterror koalisiyasının ən fəal üzvləri sırasında yer alır və bu fakt dünya miqyasında geniş təqdir olunur. Hazırda İraqda, NATO-da fəaliyyətini davam etdirən koalisiya qüvvələrinin missiyasını uğurla davam etdirməsində ən vacib rollardan biri məhz Azərbaycan Respublikasına məxsusdur.O da kifayət qədər önəmli

məqamdır ki, ölkəmizin terrora qarşı mübarizəsi və antiterror koalisiyasının uğurlu fəaliyyətinə verdiyi töhfələr çoxcəhətli xarakter daşıyır. Sözügedən problemlə mübarizədə ilk növbədə informasiya mübadiləsi, beynəlxalq terrorizm şəbəkəsi ilə əlaqəsi olan şəxslərin və ya qurumların ifşa olunması, terrorizmin maliyyələşmə şəbəkəsinin üzə çıxarılması kimi məsələlərə prioritet məqamlardan biri kimi yanaşılır. Bu kontekstdə isə Azərbaycanın müvafiq dövlət strukturları beynəlxalq terrorda günahlandırılan onlarca şəxsi həbs edib, bu və ya digər formada zərərsizləşdirib. Bir çox terror təşkilatlarının maliyyələşdirilməsinin qarşısının alınmasında da Azərbaycan müstəsna rol oynayıb.

Bununla yanaşı, ölkəmiz beynəlxalq antiterror əməliyyatlarında fəal iştirakı ilə də seçilir. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası bəyan edir ki, "NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək" Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur. [2, 15].

Terrorizmlə mübarizəyə dair əsas beynəlxalq konvensiyalara qoşulan Azərbaycan Əfqanıstanda və İraqda hərbçilərini sülhməramlı missiya yerinə yetirməyə göndərib.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda Təhlükəsizliyin Dəstəklənməsi üzrə Beynəlxalq Qüvvələrin Türk taborunun tərkibində fəaliyyət göstərəcək Azərbaycan taqımına dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə sazişi Azərbaycan Respublikası Prezidenti Ümummilli Lider Heydər Əliyev 2002-ci il noyabrın 11-də imzalamışdır. Azərbaycan Silahlı Qüvvələrinin 22 nəfərlik sülhməramlı taqımı 2002-ci il noyabr ayının 20-dən Əfqanıstanda İSAF tərkibində fəaliyyət göstərməyə başlamışdır. Daha sonra, 2008-ci il yanvarın 15-də onların sayı artırılaraq bölük səviyyəsinə çatdırılmışdır. Həmçinin sülhməramlılarımız Əfqanıstandakı fəaliyyətini 2009-cu il fevral ayının 19-dan etibarən Türkiyə taboru tərkibində davam etdirir. Bölüyün şəxsi heyəti Kabil şəhərində yerləşən televiziya qülləsini, İSAF-ın mərkəzi silah-sursat anbarının təhlükəsizliyini qoruyur və patrul xidmətini həyata keçirir [7].

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sülhməramlı bölüyü 15 avqust 2003-cü il avqustun 15-dən 2008-ci il dekabrın7-dək 151 nəfərlik şəxsi heyətlə (120

nəfər əsgər, 16 nəfər gizir, 15 nəfər zabit) İraqda Beynəlxalq Koalisiya Qüvvələri tərkibində fəaliyyət göstərmiş, İraqın Əl-Hədită şəhəri yaxınlığında ABŞ Dəniz Piyadaları Komandanlığı tərkibində su anbarının və su elektrik stansiyasının mühafizəsini həyata keçirmişdir. Koalisiya Qüvvələrinin İraqdan çıxması ilə əlaqədar 2008-ci il dekabrın 7-də bölük tam heyətlə İraqdan geri qayıtmışdır [3]. Digər tərəfdən, Azərbaycan İraq və Əfqanıstana humanitar yüklərin daşınmasında istifadə olunan əsas hava dəhlizinə malik ölkələrdən biridir. Hazırda Birləşmiş Ştatların və Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (ISAF) Əfqanıstanda əməliyyatlar aparması üçün Azərbaycan öz hava məkanından məhdudiyyətsiz istifadəyə imkan yaradıb, Bakı hava limanında təyyarələrin eniş etməsinə və yanacaq doldurmasına icazə verir, müvafiq informasiyaların mübadiləsini həyata keçirir.Bütün bunlar bir daha Azərbaycanın antiterror fəaliyyətinin nə dərəcədə genişmiqyaslı əhəmiyyətə malik olduğunu aydın surətdə meydana çıxarır.

Terrorizmə qarşı mübarizədə prinsipial mövqedən çıxış edən Azərbaycan birbaşa üzləşdiyi terrora görə, təəssüf ki, hələ də beynəlxalq ictimaiyyətdən lazım olan dəstəyi görmür. Bəzi dövlətlər erməni quldurlarının törətdikləri terror aktlarına göz yumaraq Dağlıq Qarabağın işğalına guya ermənilərin öz müqəddəratlarını təyin etmələri kimi baxırlar. Bu isə Qarabağı Azərbaycandan qoparmağa çalışan erməni separatçılarının maraqları ilə uzlaşır. Ermənilər Dağlıq Qarabağın ətrafındakı rayonları da işğal etmişdir. Bu isə onların məqsədinin Azərbaycan torpaqlarının işğalı və azərbaycanlılara qarşı kütləvi terror həyata keçirmək olduğunu göstərir. Əgər terrorizm bu qədər ziddiyyətli bir problem olmasaydı, bəzi dövlətlər bu məsələyə də ikili standartlardan yanaşmasa idilər, ermənilər kimi bədniyyətli xalqlar ondan istifadə edə bilməzdi.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının diplomatiya tarixi / Qasımlı M.C.Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. - Bakı: Mütərcim, 2015.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsilik Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 2198 saylı Fərmanı ilə 23 may 2007-ci ildə təsdiq edilmişdir.
3. Azərbaycan-İraq əlaqələri: dünəni, bu günü, gələcəyi. http://newtimes.az/az/diplomatik

4. Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı, 2009.

5. Bayramov R. Azərbaycan terrorizmə qarşı mübarizədə ən fəal ölkələr sırasında yer alır. Azərbaycan qəzeti. 11 sentyabr 2011-ci il

6. Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın yeri. http://www.baki-xeber.com/siyaset/221.html

7. Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edən Azərbaycan hərbçilərinin sayı açıqlanıb.http://az.trend.az/azerbaijan/politics/2256130.html

8. Nəsirov E.X. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı: Elm və təhsil, 2010.

9. Terrorizmə qarşı mübarizə. Respublika qəzeti. 18 may 2014-cü il.

**Samedova K.**

**Summary**

Thesis deals with the joining of the Republic of Azerbaijan to international antiterrorist operations and their active support to these operations. The Azerbaijani state has participated in various peacekeeping companies and demonstrated high professionalism in this area. The Republic of Azerbaijan is always against terrorism, and it is also justified that it suffers from Armenian terrorism.

**Самедова К.**

**Резюме**

Настоящая статья посвящена присоединению Азербайджанской Республики к международным антитеррористическим операциям и активной поддержке этих операций со стороны нашей республики. Азербайджанское государство участвовало и участвует в различных миротворческих кампаниях и продемонстрировало высокий профессионализм в этой области. Здесь обосновано также то, что Азербайджанская Республика постоянно выступает против терроризма, и вместе с тем она сама также страдает от армянского терроризма.

**İsmayılzadə Gülbəniz**

*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC), Azərbaycan*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ DİL VƏ ƏDƏBİYYAT MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, parlament, dil, ədəbiyyat, maarif, təhsil, poeziya, nəsr əsərləri*

***Key words:*** *Azerbaijan Democratic Republic, parliament, language, literature, enlightenment, education, poetry, prose*

***Ключевые слова:*** *Азербайджанская народная джумхурият, парламент, язык, литература, просвещение, образование, поэзия, прозаические произведения*

Məlum oldugu kimi 1918-ci ildə may ayının 25-də Zaqafqaziya Seyminin son iclası olmuşdur. Artıq Zaqafqaziya seymi dağılmaqda idi. Nəticədə Gürcüstan həmin seymdən çıxaraq may ayının 26-da öz müstəqilliyini elan etmişdi. Ondan bir gün sonra, yəni may ayının 27-də Azərbaycan da öz müstəqilliyini elan etmək üçün Azərbaycan hökumətini yaratmaq üçün nümayəndələrini Tiflisə cəm etdi. Nümayəndə 44 nəfərdən ibarət idi. Nəhayət ki, Azərbaycan Milli Şurası elan edilərkən M.Ə.Rəsulzadə onun sədri təyin olunur. 1918-ci ildə may ayınıın 28-də Azərbaycan Milli Şurası Həsənbəy Ağayevin sədrliyi altında Azərbaycanın müstəqilliyi haqqında bəyannamə qəbul edilir. Mənbələr də göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti həmin ilin may ayının 28-dən iyunun 16-dək Tiflisdə, iyun ayının 16-dan sentyabrın 17-nə kimi Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir.

1918-ci ildə Türkiyə hökuməti tərəfindən Azərbaycanda milli dövlət qurulması məsələsini Azərbaycannın qabaqcıl fikirli adamları ilə müzakirələrdə iştirak etmək üçün Ə. Hüseynzadə və Ə. Ağamalıoğlu nümayəndə kimi gəlmişdilər. Onlar Azərbaycandan Türkiyəyə qayıdarkən Ə. Hüseynzadə "Azərbaycanda düşündüklərim" adlı məqalə yazmış və həmin ilin 24 iyulunda "Hilali-Əhmər" qəzetində dərc etdirmişdir. Məqalədə o, həmin hadisə ilə əlaqədar öz təəssüratlarını yazmışdır.

Müəllif Azərbaycan Cümhuriyyətini gözü götürməyənlər haqqında yazmışdır: "Tiflissiz Gürcüstan nə isə, Bakusuz da Azərbaycan odur. Bakuyi Azərbaycana çox görən kim olursa-olsun, Azərbaycan xalqının ən mənfur düşmənidir!.. [1, səh. 366.]

Təxminən iki ilə yaxın davam edən Azərbaycan Xalq Cümhuriyyəti təcili surətdə dövlətəhəmiyyətli bir çox məsələləri müzakirə etdi.

Bu dövrdə savadsızlıq və gerilik həddindən ziyadə idi. Odur ki, AXC-nin əsas məddələrindən biri də onları aradan qaldırmaqdan ibarət olmuşdur. Buna görə də yaranmış Parlamentdə işçi məsələsinə baxılarkən maddənin biri də təhsilin səmərəliliyini daha da yüksəltmək və onu milliləşdirməkdən ibarət idi.

Dekabrın 10-da Məclisi-məbusanın (parlament) ikinci iclasında işçi məsələsinə baxılarkən maddələrin birində deyilirdi: "Məarif daha ziyadə yapılmalı və daha ziyadə milliləşməlidir. Köylər (kəndlər – kursiv bizimdir) məktəb şəbəkələri ilə şəhərlər də darülmüəlliminlərlə dolmalıdır. [3, səh. 116.]

Xalq Cümhuriyyəti dövründə həm dil, həm də tədrislə bağlı bir çox sənədlər imzalanmışdır ki, bunlardan da biri ölkədə Azərbaycan dilinin dövlət dili olması idi. Bu cür qərar 1918-ci il 27 iyunda verildi və Azərbaycan dili dövlət dili elan edildi. Həmin qərarda həmçinin deyilirdi:

"1. Bütün ibtidai təhsil müəssisələrində tədris ana dilində aparılsın;

2. Azərbaycan dilinin rəsmi dövlət dili olması Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il 27 iyuldan verilən qərardan başlayır."

Bu qərarın yerinə yetirilməsi, icra edilməsi üçün dövlət külli miqdarda vəsait ayırdı, kurslar açıldı. Burada sənət məktəblərinin də açılması tövsiyə olunurdu.

Parlamentin 5-ci iclasında Fətəli xan Xoyski öz çıxışında demişdir: "Məarif nəzarəti (nazirlik – kursiv bizimdir) hər kəsə imkan verməlidir ki, öz ana dilində oxusun. Böylə imkan verilməmək bəlasındadır ki, bu gün bən sizinlə istədiyim kimi danışa bilmiyorum. Bizdə böylə olmamalıdır. Hazırda məmləkətimizin sənət məktəblərinə böyük ehtiyacı vardır. Məarif nəzarəti milli ümumi məktəblərlə bərabər sənət məktəbləri güşadına da çox əhəmiyyət verməlidir." [3, səh. 183]

Tədrisin pulsuz, həm də məcburi olması, müəllimlərin yaşayışının yaxşılaşdırılması – bunun üçün əməkhaqlarının artırılması, məktəblərin tez bir zamanda milliləşdirilməsi haqqında "Əhrar" fraksiyası bəyannaməsində deyilir: "Tədris ibtidai ümumi, məccani və məcburi olmalıdır. Azərbaycan Cümhuriyyətinin məarifə olan ehtiyacatı başqa ehtiyacatının fövqündədir. Ümumfəlakətlərin birinci səbəbi məarif yoxluğudur. Buna görə də müəllimlərin məişətini təmin etməklə onları dilənçilik halından xilas etməlidir, müəllimlər güruhuna bacarıqlı qüvvələr sokmalıdır. İbtidai məktəblərdən başqa,

darülmüəllimlər, rüşdi, edadi və hərbi məktəblər, sənaye, ticarət və ziraət məktəbləri açılmalıdır. Şimdiki məktəbləri mümkün olduqca tez bir zamanda milliləşdirməlidir... Bunlardan əlavə cümhuriyyət daxilində bu sənədən etibarən darülfünun təsis etməlidir...” [3, səh. 251]

Onu da qeyd edək ki, Şah İsmayıl Xətayinin dövründə ərəb və fars dilləri ilə yanaşı Azərbaycan dilinin də  dövlət dili kimi səsləndiyi halda, cümhuriyyət dövründə yalnız Azərbaycan dili dövlət dili kimi fəaliyyət göstərirdi.

Tədris işlərinə nəzarət edən Yusifbəyli Nəsib bəy öz çıxışında göstərirdi ki, istiqlalımız, istiqbalımız hər məarifə bağlıdır. Əgər milli məarifimiz, milli məktəbimiz tərəqqi etməzsə bizim üçün fəlah və nicat ümidi qalmaz. Bunun üçün ibtidai təhsilin ümumi olmasına əsas hazırlanmaya və işbu eylüldən etibarən mütəəddid ibtidai məktəblər açmaya təşəbbüs edəcəkdir... Mövcud edadilərdən bir qismi tədricən milliləşdiriləcək, digər qismi isə qeyri-müslim çocuqlar üçün rus lisanında ibqa ediləcəkdir. Hər millətin kəndi lisanında oxumasına heç bir maneə olmadığından onların çocuqları üçün hökumət hesabına məktəblər açılacaqdır...

Darülfünunumuzda təbii lisanımızın, tariximizin, ədəbiyyatımızın inkişafına xidmət edə biləcək kürsülər açılacaqdır. [3, səh. 634-635]

İstər Bakıda, istərsə də respublikanın digər bölgələrində ibtidai və orta məktəblərin sayı artırıldı. Müəllimlərin maddi təminatı yaxşılaşdırılmağa başlandı: Tədris müəssisələrində Azərbaycan dili məcburi fənn kimi öyrənilirdi. Ümumiyyətlə, məktəb islahatına çox fikir verildi. Əsas vəzifə nədən ibarət idi? – Məktəbləri yeni şəraitə uyğunlaşdırmaq, onu dövlətçilik mənafelərinə yaxınlaşdırmaq, milli tərbiyəli insanlar hazırlamaq və s. Bunun üçün yaradılmış yeni komissiyaya keçirilən fənlər üzrə proqramların hazırlanması tapşırıldı.

Həmçinin əsas siyasət dövlət və ictimai həyatın milliləşdirilməsi idi. Bunun hökumət tərəfindən Azərbaycan dilinin öyrənilməsi üzrə kursların açılması təşəbbüsü qaldırıldı. Nəticədə Tiflisdə fəaliyyət göstərən Qori Müəllimlər Seminariyasının müəlman şöbəsi Gəncəyə köçürülərək müstəqil fəaliyyət göstərdi. Kişi seminariyası Bakı şəhərində də açıldı. Parlamentin qərarı ilə həmçinin Bkıda, Gəncədə, Şuşada, Qazaxda və digər bölgələrdə kurslar açıldı. Bakı və Gəncədə ayrıca olaraq qadın kursları da fəaliyyət göstərirdi. Bütün bunlar üçün dövlət tərəfindən vəsait də ayrıldı.

Universitet açmaq məsələsi 1919-cu ilin 21 avqust iclasında müzakirə olunmuşdur. Belə ki, universitet açmaq üçün professor Razumovskinin sədrliyi ilə komissiya təşkil edildi və bu işin həll olunması da ona tapşırıldı. Komissiya bu məsələləri hərtərəfli müzakirə edərək layihə tərtib etdi və həmin layihə baxılmaq üçün parlamentə təqdim edildi. layihə çox mübahisələrə səbəb oldu: lehinə də səs verən oldu, əleyhinə də. Lakin universitet məsələsi bir neçə iclasda müzakirə olunduqdan sonra fəaliyyətə başlamışdı.

Əleyhinə olanların iddiaları – tədrisin rus dilində aparılmasından, maliyyə vəsaitinin olmamasından və s.-dən ibarət idi.

Universitetin açılmasının tərəfdarı olan M.Ə.Rəsulzadə göstərilən iddialara qarşı çıxaraq bildirdi ki, universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindəndir, ona görə də mövcud maneələr aradan qaldırılmalıdır.

Bundan sonra universitetin təsisi üçün qanun qəbul edildi və dörd fakültə - tarix-filologiya, fizika- riyaziyyat, hüquq və  tibb fakültələri fəaliyyət göstərməyə başaldı, Universitetin rektoru V.İ.Razumovski təyin edildi.

Azərbaycan dilçiliyi sahəsində də, bir çox işlər görülmüşdür. Cümhuriyyət dövründən əvvəl və cümhuriyyət dövrü əsasən lüğətçilik inkişaf etmişdir. 1920-ci ilə qədər tərtib olunmuş lüğətlərdən S.M.Qənizadənin “Rusca-türkcə lüğət”inin, Ü.Hacıbəyovun “Türki-rus və rus-türki” və Qarabəy Qarabəyovun “Türkcədən ruscaya lüğəti”nin adlarını çəkmək olar. Adları çəkilən lüğətlərin  20-ci illərdə Azərbaycan dilinin lüğət tərkibinin öyrənilməsində böyük rolu vardır. Demək olar ki, Azərbaycan lüğətçiliyinin əsl inkişafı və yaranması məhz 1920-ci ildən başlayır.

1919-1920-ci illərdə leksikoqrafiya işi ilə məşğul olan dilçilər lüğətçilik fəaliyyətlərini artırmış, bu sahədə daha gərgin fəaliyyət göstərmişlər. Həmin lüğətlərin cümhuriyyət dövründə çap olunması mümkün olmasa da, 20-ci ildən sonra işıq üzü görmüşdür. Məsələn, S.M.Qənizadənin yuxarıda adı çəkilən lüğəti təkmilləşdirilərək orada sözlüklərin sayı 17 minə çatdırılaraq 6-cı nəşri 1922-ci ildə olmuşdur.

1928-1929-cu illərdə isə Ruhulla Axundovun redaktorluğu və rəhbərliyi altında 2 cildlik “Rusca-azərbaycanca lüğət” çapdan çıxmışdır ki, böyük əhəmiyyət kəsb edən bu lüğət cümhuriyyət illərindən hazırlanmağa başlanmışdır.

1918-1920-ci illərdə milli mətbuatımız da yüksək pilləyə qalxmışdı. Həmin illərdə “Azərbaycan”, “Hürriyyət”, “Nabat”, “Füqəra sədası”, “Bəsirət”, “Açıq söz”, “Al bayraq”, “Məşəl”, “Dirilik”, “İstiqlal” və s. dövri mətbuat orqanları nəşr olunurdu. İki

dildə (rus və Azərbaycan) nəşr olunan “Azərbaycan” qəzetinin rolu daha böyük idi. Demək olar ki, cümhuriyyətin, parlamentin bütün sənəd və materialları, qərarlar, fərmanlar həmin qəzetdə işıqlandırıldı.

Kiçikyaşlı uşaqlar üçün “Məktəb” jurnalı nəşr olunurdu.

1919-cu ildə qısa zaman kəsiyində Azərbaycan mətbuatı tarixində ədəbiyyat və incəsənət məsələlərinə həsr edilmiş “Ovraqi-nəfisə” adlı jurnal da çap olunmuşdur..

Azərbaycan Xalq Cümhuriyyəti dövrü ədəbiyyatımızın da geniş imkanları oldu. Poeziyada, nəsr əsərlərində cümhuriyyət böyük ruhla tərənnüm edilirdi. M.Hadinin “Əsgərlərimizə, könüllülərimizə”, “Suhədayi-hürriyyətimizin ənvahinə ithaf”, A.Şaiqin “Marş”, “Yeni ay doğarkən”, “Türk ədəmi-mərkəziyyət firqəsi”, “Vətənin yanıq səsi”, Cəfər Cabbarlının “Sevgili ölkəm”, “Azərbaycan bayrağına”, “Salam”, Ə.Cavadın “Türk (Azərbaycan) ordusuna”, “Sevdiyim”, “Salam”, “Yaşamaq”, “Şəhidlərə”, “Can, can Azərbaycan”, Əli Yusifin “Bayraq”, “Qarabağ xainlərinə”, “İdeal” kimi şeirləri və poemaları öz kəskinliyi ilə fərqlənirdi.

Nəsr əsərlərindən S.Hüseynin “Həzin bir xatirə - İsmailiyyə” hekayəsi, A.Şaiqin “Əsrimizin qəhrəmanları” romanı, C.Cabbarlının 1917-ci ildə qələmə aldığı “Ədirnə fəthi”, “Trablis müharibəsi və ya ulduz” pyesləri bu dövrlərdə meydana çıxmış ən gözəl əsərlərdəndir.

C.Cabbarlının qələmə aldığı pyesləri cümhuriyyət dövründən bir il əvvəl yaılsa da, sanki şair həmin əsərlərin mövzusu ilə bağlı cümhuriyyət dövrünün uzaqgörənliyi idi.

M.Ə.Rəsulzadənin, Ü.Hacıbəyovun, C.Cababrlının publisistik əsərləri də öz kəskinliyi ilə seçilirdi.

Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarifi və mədəniyyəti sahəsindəki fəaliyyətinin nəticəsi onu göstərir ki, cümhuryyətin bu istiqamətdə gördüyü bütün işlər respublika maarifçilərinin və ziyalıların arzularının, istəklərinin gerçəkləşməsi olmuşdur.

Ümumilli lider Heydər Əliyev demişdir: “AXC gərgin və mürəkkəb ictimai siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər

xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır".

### Ədəbiyyat


1. Hüseynzadə Ə. Seçilmiş əsərləri. II cild. Bakı, 2008.
2. Hüseynzadə Ə. Seçilmiş əsərləri. Bakı, 2007.
3. "Azərbaycan" qəzetinin parlament hesabatları və şərhlər (noyabr 1918, aprel 1920) I cild. Bakı, 2015.
4. "Azərbaycan" qəzetinin parlament hesabatları və şərhlər (noyabr 1918, aprel 1920) II cild. Bakı, 2016.
5. "Azərbaycan" qəzetinin parlament hesabatları və şərhlər (noyabr 1918, aprel 1920) III cild. Bakı, 2017.
6. Azərbaycan tarixi 5-ci cild. Bakı, 2000.
7. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. I cild. Bakı, 2004.



**İsmayılzadə G.**


**Summary**

**LANGUAGE AND LITERATURE ISSUES IN THE PERİOD OF THE PEOPLE`S REPUBLIC OF AZERBAIJAN**


content of the article is the People's Republic of Azerbaijan, which existed in 1918-1920. During the years of Republic, besides many issues, science, education, language and literature were also discussed. In this regard, the article provides information on educational reform, school reform, adoption of Azerbaijani as state language, allocation of space for primary and secondary schools, opening of Baku State University, press and others many issues are reported. In addition, the Republican period was widely covered in the 216orks of poets and writers.



**Исмаилзаде Г.**


**Резюме**

**Вопросы языка и литература в период правления Азербайджанской народной джумхурият**

Статья посвящена Азербайджанской народной республике, просуществовавшей с 1918-го по 1920-ый годы.

Наряду с другими вопросами, во время правления джумхурият вопросы науки, образования, языка и литературы были обьектами серьёзных дискуссий. В статье говорится о проведенных за период правления реформах в области просвещения, школьной реформе: переводе образования в начальных и средних школах на родной язык, о признании азербайджанского языка государственным языком, об открытии Бакинского государственного университета, проблемах печати и многом другом. Деятельность джумхурият широко отражена в произведениях поэтов и писателей того времени.

**Seyidova Vəfa Mirəhməd qızı**

*AzərbaycanDillər Universiteti, Azərbaycan*

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ FƏLSƏFƏSİ

*Açar sözlər: Azerbaijani philosophy - azərbaycançılıq fəlsəfəsi, national unity - milli birlik, multiculturalism - multikulturalizm, democratic state - demokratik dövlət, tradition – adət - ənənə.*

*Ключевые слова: азербайджанская философия - Azerbaijani philosophy, национальное единство - national unity, мультикультурализм - multiculturalism, демократическое государство - democratic state, традиция - tradition.*

*Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır.*

HEYDƏR ƏLİYEV

Azərbaycançılıq - güclü dövlət və sarsılmaz milli birlik deməkdir. Azərbaycançılıq bir azərbaycanlı kimi bizim hamımızı birləşdirən ideya və milli birliyimizin təməl prinsipidir. Millətin formalaşma prosesi ilə tarixən üst-üstə düşən azərbaycançılıq fərddən cəmiyyətə, cəmiyyətdən dövlət səviyyəsinə qədər böyük bir inkişaf yolu keçmişdir. Bütün millətlərin milli mədəniyyəti onu təmsil edən xalqın milli dəyərləri üzərində inkişaf edir. Ölkəmizdə azərbaycançılıq rəsmi dövlət ideologiyasıdır. Bunu deyərkən ilk növbədə vətənçilik, torpaq sevgisi, siyasi dövlət millətçiliyi, Azərbaycanın maraqlarının hər şeydən üstün olması, güclü

Azərbaycan dövlətinin yaradılması, inkişaf etməsi, dünyanın hər bir yerində yaşayan azərbaycanlıların maraqlarını lazımi qədər qoruya bilən güclü Azərbaycan dövlətinin qorunması və digər amillər nəzərdə tutulur. Azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur.

Hər bir xalqın əlverişli tarixi şəraitdə milli-etnik soykökünə qayıdışı, əsrlər boyu əxz etdiyi milli-mənəvi dəyərlər və düşüncə sisteminə söykənərək özünüməxsusluğunu qorumaq fürsəti əldə etməsi bu xalqdan törəyən tarixi bir şəxsiyyətin ideologiyası ilə şərtlənir. Azərbaycan xalqı üçün də bu dahi şəxsiyyət XX əsrdə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini - əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru - müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşduran Heydər Əlirza oğlu Əliyev oldu. Azərbaycançılıq ümummilli liderimizin fəaliyyətinin mühüm prinsipi idi.

Ulu öndərimiz məhz həmin illərdə milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Əgər dahi şəxsiyyət olan Heydər Əliyevin hələ respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışmaq çətin olardı.

Ulu öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər

Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Bu gün siyasi baxışlarından asılı olmayaraq, hamı etiraf edir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Xalqın nəzərində bütöv, milli şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev dühası Azərbaycana ikinci rəhbərliyi dövründə vətəndaş sülhü və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır (2).

Ulu öndər özünəməxsus uzaqgörənlik və müdrikliklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Elə bu səbəbdən də o öz hakimiyyəti dövründə dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışmışdır, dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq istiqamətində ardıcıl və sistemli iş aparmışdır. Milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur (4). Bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Ulu Öndər Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışında "Azərbaycançılıq" sözünün mahiyyətini belə açıqlayıb: "Biz azərbaycanlılarıq. Hamımızın vətəni Azərbaycandır. Bu torpaq bizi xalq kimi, millət kimi, şəxsiyyət kimi böyüdüb. Ona görə də hər birimizin varlığında Azərbaycançılıq ruhu yaşayır. Azərbaycançılıq ruhu, Azərbaycançılıq ideologiyası bizi bir-birimizlə daha sıx bağlayan, birliyə sövq edən amildir. Müstəqil Azərbaycanın ideologiyası Azərbaycançılıq ideologiyasıdır"(3).

Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlətin bərqərar olması, milli dövlətçiliyimizin, onun suverenliyinin qorunub saxlanılması ulu öndərin adı ilə bağlıdır. Heydər Əliyev maarifçilik ideyalarının inkişafına, milli təhsilin səviyyəsinin yüksəldilməsinə, yeni məktəblərin tikintisinə, təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, yüzlərlə azərbaycanlı gəncin xarici dövlətlərin nüfuzlu ali məktəblərində təhsil almasına xüsusi önəm verib.

Azərbaycançılığı şərtləndirən ən mühüm amillərdən biri də milli ənənədir. Milli düşüncə sisteminin genetik qaynağı olan azərbaycançılığın inkişaf stimulyatoru da məhz ənənədir. Ənənə uzun əsrlərin sınağından keçərək tarixi təcrübəni yığır, xalqın müdrikliyi, onun mənəvi mədəniyyəti və s. amillər bu anlayışda ifadə olunur. O, keçmişlə gələcəyi əlaqələndirir, etnokulturoloji mövcudluğu qoruyur. Bu ənənələr xalqın keçdiyi zəngin tarixi yolun mütərəqqi yaşam təcrübəsini özündə qoruyub saxlayır.

Xalqımızın milli-mənəvi dəyərlərini müdafiə etməyi və qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşın mənafeyini birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi üçün də müvəffəqiyyətli baza rolunu oynayır. Bu gün Azərbaycan bir çoxmillətli dövlət kimi ərazisində yaşayan bütün xalqların mənafeyini qoruyur. Bu mənada, ölkədə reallaşdırılmasına səy göstərilən istənilən ideya təkcə azərbaycanlıların deyil, digər milli azlıqların da marağını özündə tam əks etdirir. Azərbaycanda yaşayan müxtəlif xalqların, etnik qrupların və dini konfessiyaların nümayəndələri yaşadıqları cəmiyyət daxilində birləşirlər, ona inteqrasiya olunurlar. Nəticədə, etnik və dini zəmində cəmiyyətdə baş verəcək mümkün münaqişələrin qarşısı alınır, faktiki olaraq ölkənin multikultural təhlükəsizliyi yaranır. Azərbaycan Respublikasının multikulturalizm siyasətinin əsasını da elə Ümummilli lider Heydər Əliyev qoymuşdur. Müasir dövrdə bu siyasət Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir (1).

Sovet hakimiyyətinin süqutundan sonra yenicə müstəqillik əldə etmiş və çətin şəraitdə olan Azərbaycan dövlətinin idarəçiliyinə başlayan Heydər Əliyev fəxrlə bildirmişdi: “Azərbaycan dünyaya günəş kimi doğacaq”. Bunu yalnız millətinə və öz qüdrətinə inanan bir sərkərdə deyə bilərdi. Dedi və özünün müdrik siyasətinin nəticəsində də Azərbaycanı bütün dünyaya bir günəş kimi doğdurdu.

## Ədəbiyyat

1. K. Abdulla. Azəraycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında: Seçilmiş fikirlər *(Azərbaycan, rus və ingilis dillərində).* Bakı: Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, 2017. - 520 səh.

2. Rafael Cəbrayılov, Azərbaycan, 2011, 17 may.-s. 6.

3. Samir Soltanov. "Heydər Əliyev və Azərbaycançılıq ideologiyası" //AZADİNFORM. - Dəyirmi masa.

4. www.anl.az/down/meqale/azerbaycan/2011//175824.htm.

**Seyidova V.**

**Summary**

**The philosophy of Heydar Aliyev on the ideology of Azerbaijanism**

The presented thesis is dedicated to the philosophical ideas of Azerbaijanism of the Great Leader Heydar Aliyev.

The thesis describes the Azerbaijani leader's philosophical ideology of Azerbaijanism, that he held during the first and second years of his rule in Azerbaijan, and projects implemented for the development of the state in the difficult conditions in which Azerbaijan found itself after gaining independence.

The thesis is based on the materials of sites from the Internet and various speeches of the Great Leader.

Сеидова В.

**Резюме**

**Философия Гейдара Алиева по идеологии азербайджанизма**

Представленный тезис посвящен философским идеям азербайджанизма Великого Лидера Гейдара Алиева.

В тезисе описывается философия идеологии азербайджанизма великого лидера, которую он проводил в течение первого и второго года власти в Азербайджане, и проектам реализованным для развития государства в тяжелых условиях, в которых Азербайджан оказался после приобретения независимости.

Тезис основывается на материалах сайтов из интернета и различных выступлений Великого Лидера.

**Səfərli Aynur Mətləb qızı**

*Bakı Dövlət Unversiteti, Azərbaycan, dissertant*

**AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASİBƏTLƏR ARENASINDA YERİ VƏ ROLU**

*Açar sözlər: beynəlxalq münasibətlər, siyasi arena, suverenlik, bərabərhüquqlu*

Bir elm kimi Beynəlxalq münasibətlər uluslararası sistemdə dövlətlərin, transmilli korporasiyaların bir-biri ilə, eləcə də beynəlxalq hökumətlərarası təşkilatlar, və digər qeyri-dövlət aktorları ilə münasibətlərini öyrənir. Ölkəmiz müstəqilliyini bərpa etdiyi zamanlarda bütün dünyada mürəkkəb, qarışıq, ziddiyyətli hadisələr baş verirdi. Məhz belə bir zaman kəsiyində ölkə daxili sabitliyi, müstəqilliyi, azadlığı qoruyub saxlamaq, cəld yanaşma, ağıllı davranma tələb edirdi.Bunu da xatırladım ki, bəhs olunan zamanda "suverenlik", "müstəqillik" kimi sözlər yeni məna qazanmağa başlamışdı.Adətən ölkənin, dövlətin müstəqilliyi, onun digər dövlətlərlə siyasi münasibətlərinin keyfiyyətinə bağlı olur. Ta qədimlərdən müxtəlif mədəniyyətlərin, dinlərin və dillərin qovuşduğu diyar olan ölkəmiz müxtəlif mədəniyyətlərin qovuşduğu məkanda yerləşir.Hazırki beynalxalq münasibətlərə baxsaq görərik ki, bu gün Respublikamız çox mühüm ölkədir. Ölkəmiz Cənubi Qafqazda həlledici geosiyasi oyunçu olmaqla yanaşı Şərq və Mərkəzi asiya dövlətlərinə açılan vacib qapıdır.Azərbaycanın xarici siyasətdə qarşıda duran həyati əhəmiyyətli məqsədi güclü cəmiyyət və qüvvətli dövlət modelini ələ almaqdır.Xarici siyasətdə beynəlxalq qayda-qanunları, prinsipləri gözləyən dövlətimiz həmişə başqa xalqların suverenliyini, ərazi bütövlüyünü gözləmişdir. Öz işini necə deyərlər digər ölkələrin ailə daxili işlərinə müdaxilə edilməməsi prinsipləri əsasında quran Azərbaycan Respublikası azad bir dövlətkimi bir sıra beynalxalq təşkilatlara-BMT, ATƏT, AŞ, İKT, MDB və s. üzv olub.GUAM regional qrupunun təsisçilərindən olan ölkəmiz eyni zamanda NATO və Avropa Birliyi kimi qurumlarla münasibəti, həmçinin anti-terror koalisiyası tərkibində fəaliyyətini inkişaf etdirir, milli maraq və mənafelərini gerçəkləşdirir.Şimal və Cənub arasında dəhliz rolunu oynayan Azərbaycan Şərq və Qərb mədəniyyətləri ilə də eyni mövqedə dayanması dövlətimizin oynadığı əhəmiyyətli və əvəzolunmaz rolunu bir daha ortaya ortaya qoymuş olur.Ölkə rəhbərimizin başçılığı ilə həyata keçirilən çoxşaxəli siyasət kursu ölkəmizin milli dövlət kimi çağdaş münasibətlər sistemində nüfuzunu və gücünü artırır.Ölkə daxilində aparılan uğurlu daxili siyasətin nəticəsidir ki,bu gün ölkəmiz uluslararası münasibətlər sistemində əvəzolunmaz rol oynamağa

başlayıb.Ölkənin daxili siyasəti onun beynəlxalq arenada bir növü güzgüsü hesab olunur.Çünki hər bir ölkənin [ Nadirov, 2014].

Son illərin siyasət tarixinə baxdıqda dövlətimizin böyük uğurlara imza atdığının, beynəlxalq simasının daha da tanındığının şahidi oluruq.Qətiyyətlə deyə bilərik ki, bu yüksəlişin bünövrəsində ümummilli liderimizinəsasını qoyduğu siyasət dayanır.Məhz bu siyasətin nəticəsində ölkəmizin gələcək taleyi ilə bağlı səsləndirilən ümidsiz fikir və düşüncələrin üstündən xətt çəkilmişdir. 1996-cı ilin 2-3 dekabr tarixlərində ATƏT-in Lissabon sammitində H.Əliyev böyük iradə və ruh yüksəkliyi ilə dövlətimizin siyasi maraqlarını qətiyyətlə müdafiə edərək beynəlxalq siyasət arenasında gözlər önünə sərdi. İştirak edən 54 dövlət tərəfindən "Avropada XXI əsrdə ümumi və hərtərəfli təhlükəsizlik modeli" adlı bəyannamə qəbul edildi.Burada bəyannaməyə qoşulan dövlətlərin təhlükəsizliyinin təminatına aid qeydlər edilmişdir. Azərbaycanın ilk kosmik süni peyki olan "Azərspace"in orbitə buraxılması beynəlxalq uğurlarımızdan biri kimi dəyərləndirilə bilər. Ölkəmiz beynəlxalq müstəvidə mövqelərini gücləndirməklə yanaşı, dünya birliyinə öz tövhələrini verir, iqtisadi inkişaf baxımından yeni model bəxş edir.Dünyada baş verən qarmaqarışıq, mürəkkəb hadisələrin, mədəniyyətlərin baş-başa gəldiyi, ölkədaxili ziddiyyət və parçalanmaların cərəyan etdiyi ir dövrdə ölkəmiz sabitliyini qoruyub saxlaması ilə diqqət çəkir. Bu da Respublikamızın müxtəlif millətlərin nümayəndələri ilə dost münasibətini qoruyub saxlamasından irəli gəlir [Abbasov, 2013].Torpaqlarımızn işğal olunaraq tapdaq altına salınmasına, neçə min qaçın və köçkünümüzün olmasına baxmayaraq dövlətimiz elmi texnoloji bazaya, iqtisadi, hərbi potensiala malikdir. Məhz buna görədir ki, regionda tərəfdar olmadığı, imza atmadığı beynəlxalq iqtisadi layihələr vəsiqə ala bilmir. Bu cür uğurlarımız hər birimizin fəxr edəcəyi müfəvvəqiyyətdir.Ölkəmizin regionda söz sahibinə çevrilməsi bəzi böyük dövlətləri zaman-zaman məcbur edir ki, Respublikamızın milli maraqları ilə hesablaşsınlar. Dünya dövlətləri Cənubi Qafqaz dövlətlərini istənilən istiqamətdə dəyərləndirərkən"sivil dünya" adlandıran dövlətlərin "ikili standart" siyasətinin səbəbini Azərbaycanın olduqca əlverişli geosiyasi və geoiqtisadi məkanda yerləşməsi ilə əlaqələndirmək olar. Ölkəmizin Avropa ilə Asiyanın kəsişdiyi nöqtədə yerləşməsi, iki-Qara və Xəzər dənizləri arasında ən geniş nəqliyyat və kommunikasiya şəbəkəsinə malik olması (hansı ki,Azərbaycan bu mövqedə yerləşən tək dövlətdir), Asiya ilə Avropanı birləşdirən kommunikasiya və nəqliyyat xətləri vasitəsi ilə Rusiya bazarına, Fars körfəzi

və Hind okeanına çıxış əldə etməsi etməsi ölkəmiz qarşısında geniş imkan perspektivləri açır. "Böyük güclər" dünyanın siyasi xəritəsinə baxarkən Quzey Kipr Türk Cumhuriyyətindən başlayan Türkiyə və Azərbaycandan başlayan iki qardaş ölkədən keçərək Özbəkistan, Türkmənistan, Qırğızıstan,Qazaxıstanla tamamlanan türkdilli dövlətlərinÖn Asiya, Qafqaz və Orta Asiyanı özündə birləşdirən böyük bir arealını görür. Və aydın şəkildə görünür ki,Türk dilli dövlətlərin siyasi, hərbi, iqtisadi cəhətdən birləşməsi dünya dövlətlərini qorxudur. Əgər buraya Krım, Qaqauz, Tatarıstan, Başqurdstan, Kərkük, Cənubi Azərbaycan, Uyğur, Altay, Saxa (Yakut) və s. ərazilərdə yaşayan türkləri də əlavə etsək onda TÜRKDİLLİ DÖVLƏTLƏR BİRLİYİNİN yaranması labüd olar və bu da "böyük güclərin" hegemonluğu ilə nəticələnər. Bütün türk dünyasının ən böyük arzusu gerçəkləşsəydi dırnaqarası sivil Qərb aclığa qərq olmazdı. Türk dünyasının görkəmli siması kimiHeydər Əliyev bu birliyin yaranmasını belə əsaslandırırdı:"... "...Türk xalqlarının birliyi yalnız mədəni birlik, yalnız iqtisadi birlik yox, bu həm də siyasi birlik səviyyəsində nəzərdən keçirilməlidir. Türk dünyası artıq müasir dünya üçün siyasi bir hadisədir. Yəni müasir dünyada harmoniya yaradılmasında həm türklərin öz daxilində, həm də türklərin iradəsi ilə dünyada harmoniya yaradılmasında artıq bu siyasi bir rol oynayır." Bu mənada Prezident İlham Əliyev də çevik, coşğun siyasət aparır. Türkdilli Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının 2007-ci ilin noyabr ayında Bakıda keçirilməsi də məhz İlham Əliyevin bu ideyanın davamçısı olduğunun nümunəsidir. Həmin qurultayda ölkə prezidenti öz nitqində vurğulamışdır ki, "Bütün bu görüşlər, qurultaylar, tədbirlər bir məqsəd güdür - türk dünyası daha da mütəşəkkil olsun, bir-birilə əlaqələrini və dünyadakı mövqelərini daha da möhkəmləndirsin. Bu, bizim hamımızın marağındadır. Bizim birliyimiz nə qədər güclü olsa, hər bir ölkə öz milli maraqlarını bir o qədər uğurla müdafiə edə bilər." [Əliyev, 525ci qəzet]. 1993-cü ildən başlayaraq Ulu Öndərin hakimiyyətə ikinci dəfə gəlişi uğurlu daxili və xarici siyasət sayəsində geosiyasi təhlükəsizlik strategiyasının əsasları formalaşdırdı. Akademik R.Mehdiyev bu əsasları avropamərkəzçilik, atlantizm və Azərbaycanın regional siyasi və iqtisadi dominantları olaraq üç qrupa ayırır [ Quliyev, 2001, 302-303]. Avropa ilə Asiyanın qızıl körpüsü olan Azərbaycan qlobal siyasətdə fəal şəkildə ölkənin inkişafı və təhlükəsizliyini təmin etmiş oldu [Qlobal siyasət: təhdidlər, çatırışlar, ümidlər, 2013, 151]. Ermənistanla düşmən vəziyyət, İran və Rusiyanın öz geosiyasi maraqları Azərbaycana müstəqil siyasət

yürütməyə mane olur. Regionda bu mənada yalnız Gürcüstan istisnadır. Professor Əli Həsənovun fikrincə, Cənubi Qafqazda və onun ətraf ərazilərində ciddi konfliktlər yaşansa da, Qərbvə ya Şərq oriyentasiyaları məsələsində müxtəlif fikirlərin olması Azərbaycanın əlverişli coğrafi mövqeyinin əhəmiyyətinə zərər gətirə bilməz. Avrasiyanın giriş qapısı, Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizinin mərkəzi dövləti hesab olunan Azərbaycan Rusiyaya rəqib (alternativ), Şərq-Qərb ölkələrinə isə bağlayıcı (körpü) rolunu icra edir [Həsənov, 2005, 256]. Potensial imkanı geniş olan qeyri-neft sektoru, turizm, kənd təsərrüfatı və emal sənayesi hələ ki, daxili kapital hesabına maliyyələşir. Cənubi Qafqaz və keçmiş postsovet məkanında iqtisadi potensialına görə yalnız Rusiya, Ukrayna, Qazaxıstan və Belarusdan geridə qalan Azərbaycan digər respublikalardan kəmiyyət və keyfiyyət göstəricilərinə görə irəlidədir [Həsənov, 2005, 259]. Hansı ki, Azərbaycan tolerant bir ölkə kimi ideal bir tolerantlıq cəmiyyəti qurmağa nail olmuşdur ki, bunu bütün dünya ölkələrinə, hətta Avropaya nümunə kimi göstərmək lazımdır [Qlobal siyasət: təhdidlər, çatırışlar, ümidlər, 2013, 279] .

AMEA-nın üzvü S.Xəlilov «Dağlıq Qarabağ probleminə və onunla bağlı beynəlxalq sənədlərə üç müstəvidə yanaşır: 1.Əxlaqi müstəvidə və ya «adi şüur» səviyyəsində; 2.Hüquqi müstəvidə-formal məntiq səviyyəsində; 3. Siyasi müstəvidə- praqmatik təfəkkür səviyyəsində» [Xəlilov, 2001, 337]. Ulu Öndərimizin səyi nəticəsində xarici dövlətlərlə qarşılıqlı münasibət quraraq dinc, əmin-amanlıq şəraitində yaşamaq prinsipini seçən dövlətimiz Rusiya Federasiyası, İran İslam Respublikası, qonşu Gürcüstan, Orta Asiya Respublikaları ilə, beynəlxalq təşkilat və qurumlarla münasibətlərini elə qurdu ki, bu gün həmin siyasətin uğurlu nəticəsini görməmək mümkün deyil. Ölkəmizin azadlığını, suverenliyini daimi etmək məqsədi ilə Avropaya inteqrasiya etməyimizin zəruruilini dönə-dönə qeyd edən Ulu Öndərimiz bu sahədə əməli fəaliyyət göstərmişdir. Belə ki,- ABŞ-ın dünya dövlətlərinin və cəmiyyətinin siyasi tənzimlənməsindəki əvəzsiz rolunu nəzərə alaraq bu dövlətlə geniş, hər tərəfli- sosial, iqtisadi, siyasi, ictimai əlaqələrin qurulmasını olduqca mühüm hesab etmişdir. Orta Asiya, Pribaltika ölkələri, keçmiş SSRİ dövlətləri ilə münasibətlərin qurulmasına və daimi qorunub saxlanılmasına xüsusi əhəmiyyət vermişdir. Ərəb dünyası ilə də münasibətlərin normada saxlanılmasını diqqətdən qoymurdu. Ərəb ölkələri ilə dövlətimizi bağlayan bağlar hər zaman bu münasibətləri səhmanda saxlayacaq güclərdir.

Bu mənada islam dini birinci bağlayıcı vasitədir. Bundan əlavə altı yüz il eyni xilafətin tərkibində yaşamaq və H.Əliyevin yaratdığı müasir körpü də bu münasibətlərin, siyasi bağların möhkəmlənməsində mühüm rol oynamışdır [Qaralov, 2013, 108-109]. Ulu Öndər dünya dövlətlərinə ölkəmizi etibarlı, güvənilir bir tərəfdaş kimi qəbul etdirmək, beynəlxalq siyasi münasibətlər sistemində sözünün dinlənilməsinə, milli maraqlarının sayılmasına, nail olmaqla istəmişdir. Bu gün də respublikamız bəhs etdiyimiz siyasi prinsiplərlə xarici siyasi strategiyasını təyin etmişdir. Məhz bunun nəticəsində hazırda da dövlətimiz siyasi fəaliyyətini uğurla aparır [Babaoğlu , 2009, 206]. Beynəlxalq arenada dini, milli və etnik münasibətləri vazkeçilməz hesab edən H.Əliyev regional və dövlətlərarası münasibətlərdə sakitliyin, demokratik və dini dəyərlərin qorunub saxlanılmasına üstünlük verdi. Bununla qalmadı ölkəmizin geostrateji və strateji maraqlarını fövqəl dövlətlərin maraqları ilə uzlaşdırdı. Balanslaşdırılmış siyasətin əsasını qoydu ki, bu da Respublikamızın beynəlxal münasibətlər sistemində yerini möhkəmləndirdiş

Professor Əli Həsənov Azərbaycanın beynəlxalq münasibətlər sistemində rəhbər tutduğu prinsipləri aşağıdakı kimi qruplaşdırmışdır: Birincisi, hər bir dövlətin suveren hüquqlarına, ərazi bütövlüyünə hörmətlə yanaşmaq, beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun olaraq dövlətlərin ərazi bütövlüyünün pozulmasına, sərhədlərinin zorla dəyişdirilməsinə və dövlət müstəqilliyinin təhlükə altına alınmasına yol verməmək, mübahisəli məsələləri dinc yolla həll etmək. İkincisi, müxtəlif spektrli əlaqələrdə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq, ortaq maraq və mənafeləri qorumaq, qarşılıqlı təhlükəsizliyə can atmaq, ikitərəfli əlaqələrdə beynəlxalq hüquq normalarını və sivilizasiyalı birgəyaşayış qaydalarını, başqa dövlətlərin, regional və beynəlxalq birliklərin mənafelərini nəzərə almaqdan ibarətdir. Üçüncüsü, xalqların və millətlərin öz müqəddəratlarını təyin etməsinə hörmətlə yanaşmaqdır. Lakin bu separatizmlə, terrorçuluqla, dövlətlərin və xalqların təhlükəsizliyinə, maddi və mənəvi həyatına ziyan verə biləcək digər neqativ hallarla müşayiət olunduğu halda ona qarşı mübarizə aparmaqdır. Dördüncüsü, müasir dövrün qlobal problemlərinin aradan qaldırılmasında dünya ictimaiyyəti ilə birgə fəaliyyətdə səylərini əsirgəməmək və bu istiqamətdə beynəlxalq əməkdaşlığı inkişaf etdirməkdir və s. [Həsənov, 1998, 168].

Mərhum prezidentimizin siyasi kursu bu gün ölkə Prezidenti tərəfindən layiqincə davam etdirilir. Daxili və xarici siyasətdə, iqtisadi və mədəni əlaqələrin yetşib formalaşdırılmasında çətin və məsuliyyətli işlər görür. - Qarabağ münaqişəsinin həlli və Xəzərin bölgüsü sahəsində uğurlar əldə edib;
- bazar iqtisadiyyatını, hüquqi və vətəndaş cəmiyyət quruculuğunu, əhalinin rifahını təmin edib, işsizliyə son qoyub, korrupsiyaya qarşı amansız mübarizə aparır, qanunun aliliyini təmin edib;
- beynəlxalq təhlükəsizliyin təmin olunmasına yardım edən Azərbaycanın milli təhlükəsizlik, sülhpərvər xarici siyasət konsepsiyalarını, müdafiə doktrinasını hazırlayıb və təsdiq edib. Akademik R.Mehdiyev yazır ki, "İlham Əliyevin getdiyi yol yeniliklə ənənələri ahəngdar şəkildə özündə birləşdirir ki, bu yol ölkənin çiçəklənməsinə və rifahının yaxşılaşmasına gətirib çıxarır" [Mehdiyev, 2005, 515-516].

Müasir beynəlxalq təhlükəsizlik sistemində sanballı yerə malik olan ölkəmiz Milli Təhlükəsizlik konsepsiyası müasir reallıqların bütün elementlərini nəzərə almaqla beynəlxalq təcrübənin ən mütərəqqi xüsusiyyətlərini özündə əks etdirir [Quliyeva, 2015].

Azərbaycanda həyata keçirilən siyasət sırf ölkənin milli maraqlarına söykənir və əsas strateji hədəf uzunmüddətli inkişafın təmin olunmasıdır. Bundan başqa, ölkəmizin beynəlxalq mövqeyi davamlı şəkildə möhkəmlənir. Azərbaycan nüfuz və güc iyerarxiyasında mütəmadi yüksəlişə malikdir. Rasional inkişaf strategiyasının həyata keçirilməsi bütün sahə və sektorların inkişafını təmin etməklə yanaşı, Azərbaycan iqtisadiyyatının beynəlxalq iqtisadi sistemə uğurlu inteqrasiyasına təkan verir. Bunun nəticəsidir ki, ölkə iqtisadiyyatı dünyanın rəqabətqabiliyyətli iqtisadiyyatları pilləsində davamlı surətdə irəliləyir" [2]. Çağdaş beynəlxalq münasibətlər sisteminin fundamental quruluşunun əsası 1648-ci ildə imzalanan Vestfal sülh sazişi ilə başlanmışdır. Məhz Vestfal sülh sazişi "milli dövlətlərin suverenliyi" prinsipini əsas hüquq kimi tanıdı. Həmin dövrdən başlayaraq xarici siyasətin əsas simaları dövlətlər olmağabaşladı[Həbibbəyli, 2013]. Sonda iki bir-birinə zidd olan dövlətlərin siyasi nümayəndələrinin Azərbaycan haqqında söylədiklərindən sitat verərək məruzəmi sonlandırmaq istəyirəm. Türkiyə Cumhuriyyətinin ölkəmizdəki səlahiyyətli səfiri İsmayıl Alpər Coşqun deyir: "Türkiyə və Azərbaycan əlaqələri həqiqətən mükəmməl səviyyədədir. Bunun bir neçə ölçülərini nəzərdən keçirməkdə fayda var. Hər

şeydən öncə təbii ki, sizin də bildiyiniz kimi, qardaşlıq bağlarımızdan qaynaqlanan, ortaq tariximizdən, mədəniyyətimizdən, musiqilərimizdən, eyni dastan və əfsanələrə inanmamızdan, eyni xalq şairlərinin sözləri ilə duyğulanmağımızdan qaynaqlanan çox böyük bir ortaqlığımız, qardaşlıq bağlarımız var. Bu qardaşlıq bağlarından başqa da hər iki ölkədə dövlət başçılarının ortaya qoyduqları çox qüvvətli bir iradə var.” Bunu da unutmamalıyıq ki, Azərbaycan Respublikasının müstəqilliyini tanımış ilk dövlət olan və bu-günədək Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edən Türkiyə Cümhuriyyəti ilə münasibətlər son dərəcə mühümdür. Etnik, mədəniyyət və dil baxımından bir-birilə sıx bağlı olan bu iki ölkə arasında qarşılıqlı münasibətlər strateji əməkdaşlıq səviyyəsində daha da genişlənməkdə və dərinləşməkdədir. İsrail Prezidenti Şimon Peresin də fikirləri maraqlıdır: “Azərbaycan qeyri-adi ölkədir və olduğum digər ölkələrdən fərqlənir. Mən Azərbaycanda səfərdə olmuşam. Bu ölkə məndə xoş təəssüratlar yaradıb. Heydər Əliyev Fondunda oldum və anladım ki, o (Heydər Əliyev) gözəl insan olub, böyük istedada, qeyri-adi zəkaya malik olub. İlham Əliyevlə isə ingilis dilində danışırdıq. O ingilis dilini mükəmməl bilir. Hər iki Əliyevlər belə qərar veriblər ki, Azərbaycan öz yolu ilə inkişaf etməlidir, taleyini, gələcəyini özü həll etməlidir. Bu gələcək üçbucaqlı Daş üzərində dayanır ki, bunlardan birincisi ölkənin qədim mədəniyyətidir, ikincisi zəngin yeraltı sərvətdir, üçüncüsü isə elmin inkişafı, elmin yeni istiqamətlərinin inkişafıdır”.

Yekun fikrimi isə cənab prezidentimiz, zəhmətkeş rəhbərimiz İlham Əliyevin sözlərilə nöqtələmək istəyirəm: “Biz regional əməkdaşlığın gücləndirilməsi üçün böyük işlər görürük. Bildiyiniz kimi, Azərbaycan regionda enerji layihələrinin təşəbbüskarı olub və bu, geniş regional əməkdaşlığa öz töhfəsini verib. Beynəlxalq münasibətlər sisteminin suveren aktoru olan Azərbaycanın dinamik inkişafının əsasında səmərəli iqtisadi-siyasi kurs dayanır. Cənubi Qafqaz geosiyasi məkanının lider aktoru olan Azərbaycanın iştirakı ilə regional miqyaslı, qlobal xarakterli strateji layihələrin reallaşdırılması, eləcə də ölkəmizin beynəlxalq nüfuzunun daha da artması, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsi bu kontekstdə xüsusi olaraq qeyd edilməlidir. Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki öncül və vacib yerdə dayandığına işarədir” [Nəsibova,22Aprel ] .

**Ədəbiyyat**


1. Abbasov Elçin. Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolu. 25 noyabr. 2013."Xalq qəzeti"
2. Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır 25 Oktyabr 2017-http://olaylar.az/news/siyaset/242553
3. Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: Aypara 3, 2009, 328 s.
4. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996), Bakı: Azərbaycan, 1998, 371 s.
5. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI əsr YNE, 2005, 463 s.
6. Quliyeva Ülviyyə. Beynəlxalq münasibətlər sistemində Azərbaycanın yeri və rolu. 11 fevral 2015. Strategiya.az
7. Əliyev Asəf. Beynəlxalq münasibətlər sistemində Azərbaycanın yeri . 10 Oktyabr. 525ci qəzet
8. Həbibbəyli Ərəstü.Beynəlxalq münasibətlər sistemində arxaizm. 21 may 2013, 525-ci qəzet
9. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.
10. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı: AUN, 2001, 358 s.
11. Qaralov Z. İdeologiya və mənəviyyat. Bakı: Hüquq ədəbiyyatı, 2013, 484 s.
12. Qlobal siyasət: təhdidlər, çatırışlar, ümidlər. Bakı: Qanun, 2013, 340 s
13. Quliyev F. Yeni dünya düzəni siyasətində Azərbaycanın yeri və rolu. Bakı: 2001, 151 s.
14. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI əsr YNE, 2005, 463 s.
15. Nadirov İlkin. Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu. - 01 Mart 2014, İnteraz
16. Nəsibova Xanım. Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu. 22Aprel . Kür-Yevlax rayon icra hakimiyyətinin qəzeti

Safarli A.

**Summary**

As a science international relations learns the relationship between states, transnational corporations, international intergovernmental organizations and other non-state actors in the international system. The article deals with Azerbaijan's relations with foreign countries in the arena of international politics. Looking at the modern international relations system, we see that today the Republic of Azerbaijan is a very important country. Our country is a crucial geopolitical player in the South Caucasus as well as an important geopolitical window to the Eastern and Central Asian countries. A strong state and willful society model is an important goal of Azerbaijan's foreign policy. As a result of the successful domestic policy carried out throughout the country, today our Republic has played an indispensable role in the international politics system.

The article includes works by R.Mehdiyev, A. Hasanov, Z.Garalov and others from the state and public-political figures.

**Сафарли А.**

**Резюме**

Международные отношения изучают отношения между государствами, транснациональными корпорациями, международными межправительственными организациями и другими негосударственными субъектами в международной системе. В статье рассматриваются отношения Азербайджана с зарубежными странами на международной арене. Рассматривая современную систему международных отношений, мы видим, что сегодня Азербайджанская Республика является очень важной страной. Наша страна является важнейшим геополитическим игроком на Южном Кавказе, а также важным геополитическим окном для стран Восточной и Центральной Азии. Сильная государственная и умышленная модель общества является важной целью внешней политики Азербайджана. В результате успешной внутренней политики, проводимой по всей стране сегодня, наша Республика сыграла незаменимую роль в международной политической системе.

В статье представлены статьи государственных и общественно-политических деятелей Р.Мехдиева, А.Гасанова, З.Гаралова и др. произведения.

**Rzayeva Çinarə Vaqif qızı**
*Azərbaycan Milli Elmlər Akademiyası, Naxçıvan Bölməsi, Azərbaycan*

# MULTİKULTURALİZM: KEÇMİŞDƏN BU GÜNÜMÜZƏ

***Açar sözlər:*** *Azərbaycan, multikulturalizm, yazılı ədəbiyyat, folklor*

***Key words:*** *Azerbaijan, multiculturalism, written literature, folklore, fairy tales, proverbs*

***Ключевые слова***: *Азербайджан, мультикультурализм, письменная литература, фольклор, сказки, пословицы*

*"Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır"*

*Ulu öndər Heydər Əliyev*

"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib" deyən ümummilli lider Heydər Əliyevin Azərbaycanda yaşayan azsaylı xalqlara olan hümanist münasibəti, nümunəvi diqqəti və qayğısı bu gün də özünü göstərir. Bu da onu deməyə əsas verir ki, ümummilli liderin alicənablığı bir çox sahələrdə olduğu kimi bu sahədə də diqqət çəkir.

Bəli, bu gün də ulu öndərin qoyduğu siyasət uğurla davam edir. Bu siyasət multikulturalizmin Azərbaycan modelində də özünü geniş şəkildə göstərir. Çox xalqlı və çox millətli olan Azərbaycan dövləti hər zaman multikultural dəyərləri qorumuş və bununla bağlı bir çox işlər görmüşdür. Bunun ən bariz nümunəsi kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncama əsasən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan etməsini göstərə bilərik. Cənab Prezident

ötən ili Azərbaycanda “Multikulturalizm ili” elan edərkən “məhz xalqımızın tarixi kökündə formalaşan və bu gün də yaşayan möhtəşəm mənəvi, elmi və siyasi qaynaqlara əsaslanır. Bu qaynaqlar xalqımızın daxili aləmini, ruhunu, mənəvi zənginliyini adekvat göstərən zəngin mənbədir” [5, s. 8] .

Multikulturalizm termini son dövrlərə təsadüf etsə də bu hadisənin tarixi Azərbaycan Respublikasında ta qədim zamanlara gedib çıxır. Bir çox sahələrdə özünü göstərən multikulturalizm Azərbaycan şifahi xalq ədəbiyyatından da yan keçməmişdir. Daha doğrusu şifahi xalq ədəbiyyatında öz əksini geniş formada göstərir. Folklorumuzda özünə yer tutan digər xalqlara məxsus folklor nümunələri bu gün öz folklorumuzla yanaşı işlənməkdədir. Hətta bəzi atalar sözləri vardır ki, Azərbaycan atalar sözləri ilə eynilik təşkil edir. Deyilənlərlə bağlı bir neçə nümunəyə diqqət yetirək:

Udilərdə:

*Ağıllı fikirləşincə dəli vurub aparır* [2, s.163].

Azərbaycan dilində:

*Ağıllı fikirləşincə dəli çayı keçir.*

Alman atalar sözləri də folklorumuzda yer alır. Məsələn:

*Arvad evdar olan yerdə tirləri də piy basar.*

Azərbaycan dilində:

*Evi abad edən arvaddır .*

Başqırd atalar sözləri də özünə məxsusluğu ilə seçilir. Belə atalar sözləri dilimizdə o qədər işlənir ki, hətta sanki özümüzünkiləşib. Bir neçə nümunəyə nəzər salaq:

*Torpaq çörəyi ilə, insan əməyi ilə.*

*Sən özün torpağa əyilməsən, o sənə yaxın gəlməz*

*Zoruna güvənmə, ağlına güvən* [8].

Fin atalar sözlərinə nəzər yetirək:

*Bir həftə səhv etməkdənsə, bir gün fikirləşmək yaxşıdır.*

*Əkin əkənə - torpaq, avar çəkənə - su həmişə tapılar* [9].

Məsələn ləzgi atalar sözləri:

*Aysız gecədə ulduzlar daha gur şölə saçar.*

*Bir qoyundan iki dəri soyulmaz.*

*Hər qamışdan qənd qayırmazlar* [6].

*Cəza asandır, tərbiyə - çətin* [7].

Bunlarla yanaşı multikulturalizmin digər bir nümunəsi də digər xalqlara məxsus dastanların nağılların Azərbaycan dilinə tərcümə olunmasıdır. Tərcümə olunan bu əsərlər millətlərarası əlaqələrin genişlənməsinə, onların mədəniyyətinə, milli-mənəvi dəyərlərinə, folkloruna yaxından bələd olmağa əsas verir. Azərbaycanda nəşr olunan "Asiya xalqlarının nağıl və əfsanələri" adlı kitaba nəzər salsaq dediklərimizi sübut etmiş olarıq. Bu kitabda bir çox xalqlara məxsus nağıllar və əfsanələr tərcümə olunmuş halda verilmişdir. Məsələn bunlardan bir neçəsinə nəzər salmaq lap yerinə düşər. Adıçəkilən kitabda Birma folkloruna məxsus– "Qəşəng xoruz", "Axmaqlar", "Beş mehriban dost" adlı nağıllar, Vyetnam folklorunun –"Dovşan və fil" "Kəpənək", "Dovşana ad verilir" adlı maraqlı nağıllar, həmçinin onlara məxsus bir çox əfsanələr –"Yüz yumurta haqqında əfsanə", "Dünyanın yaradılması", "Düyü və pambıq" və s. adlı əfsanələri, Koreya xalqına məxsus – "Xın Bu və Nor Bu qardaşlarının nağılı", "Xoşbəxtlik" və s. adlı nağıllar, Malaya xalqına məxsus - "At pələngə necə kələk gəldi", "Sabah və bu gün" adlı maraqlı nağıllar, Hind nağıllarını-"Süleyman şah və ağıllı durna", "Beş çörək", "Tacir və tutuquşu" və s. həmçinin "Puruşi qurbanı", "Nahuşa haqqında hekayət", "Ərcunanın göyə meracı" və s. adlı əfsanələri, Çin folklorundan- "Rahib və şagird", "Var-dövlət və zəhmət", "Oxuyan piyalə", "Mahnı oxuya bilən paxla" və s. adlı nağıllar, o cümlədən, "Ölməz ulu Şun", "Dünyanın yaranması", "Yanszı çayının ruhu" adlı əfsanələr, Yapon folkloruna məxsus "Rahib və məbəd xidmətçisi" və s. nağıllar, eləcə də, "İldırımın tutulması", "Etiqo torpağından olan müqəddəs kuvatori haqqında" əfsanələr də kitabda öz əksini tapmışdır. Tərcümə işləri saydıqlarımız nağıllar və əfsanələrlə bitmir, həmçinin digər xalqlara məxsus atalar sözləri, bayatılar, tapmacalar və s. digər folklor nümunələri də tərcümə olunub.

Yuxarıda adlarını çəkdiyimiz nağılların və əfsanələrin bir çoxunu orta məktəb dərsliklərində və sinifdənxaric oxu kitabında uşaqlara tədris olunur. Bu da onu göstərir ki, Azərbaycanda multikultural dəyərlər hər zaman qorunub saxlanılır və bundan sonra da qorunub saxlanılacaq.

"Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət mümkün deyil, qarşılıqlı anlaşma, mədəniyyətlərin və sivilizasiyaların dialoqunu qurmaq mümkün deyil" [11]. Məhz bu düşüncədən yola çıxan yazıçı və şairlərimiz ortaya dəyərli əsərlər

qoymaq üçün digər millətlərin mahiyyətini, mədəniyyətini, tarixini dərindən öyrənmiş, bunu əsərlərində əks etdirmişlər. Məsələn, dəyərli yazıçı və şairlərimiz-Nizami Gəncəvi, Şah İsmayıl Xətai, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Məhəmməd Hadi, Abdulla Şaiq, Hüseyn Cavid və b. yaradıcılıqlarında multikultural dəyərlərə müxtəlif formalarda yanaşmışlar.

Yuxarıda adlarını çəkdiyimiz bir çox yazıçıların əsərlərinə diqqət yetirdikdə baş qəhrəmanlarının başqa millətdən olduğunu görürük. Belə ki, dahi şair Nizami Gəncəvinin "Yeddi gözəl" əsərində hər gözəlin başqa bir millətdən olması multikultural dəyərdən xəbər verir. "Bəhram həftənin hər gününü gözəllərdən birinin yanında keçirir: şənbə günü qara günbəzli sarayda Saturnun hökm etdiyi Hindistan gözəli ilə, bazar günü sarı günbəzli sarayda Günəşin hökm etdiyi Türküstan (Çin) gözəli ilə, Bazar ertəsi yaşıl günbəzli sarayda Ayın hökm etdiyi Xarəzm gözəli ilə, çərşəmbə axşamı qırmızı günbəzli sarayda Marsın hökm etdiyi Slavyan gözəli ilə, çərşəmbə günü firuzəyi günbəzli sarayda Merkurinin hökm etdiyi Məğrib gözəli ilə, cümə axşamı səndəl ağacı rəngli günbəzli sarayda Yupiterin hökm etdiyi Rum (Bizans) gözəli ilə və cümə günü ağ günbəzli sarayda Veneranın hökm etdiyi İran gözəli ilə. Bəhram gözəllərin yanına gələrkən onların saraylarının rənginə uyğun paltar geyinir" [10]. Verdiyimiz parçada yeddi gözəlin hər birinin başqa millətdən olmasını aydın görürük. Burada dahi şair "Yeddi gözəl" poemasında yeddi ölkə gözəllərinin hər birinin müxtəlif dinə, millətə, əqidə və düşüncəyə sahib olmasını əsər boyu hiss elətdirməyib.

Dahi şairin poemaları bu gün bir çox dillərə tərcümə olunmuş və tədqiq edilmişdir. Çünki "dünya şöhrətli mütəfəkkir şair Nizamiyə ümumdünya sevgisini qazandıran ən başlıca cəhət onun əsərlərindəki insanpərvərlik, humanizm, heç bir dini-etnik fərq qoymadan bütün bəşəriyyət üçün ağrıyıb-acıması, narahatlıq keçirməsidir" [5, s. 35].

Nizaminin təkcə "Yeddi gözəl" poemasında yox, bir çox əsərlərində bunu görürük. Həmçinin "Xosrov və Şirin" poemasında təsvir edilən atəşpərəstliyin, xristianlığın, bütpərəstliyin insan səadəti yolunda heç bir maneə yaratmamasının təsviri də dahi şairdə multikultural əhvalın yüksək olmasından xəbər verir" [5, s. 36].

Multikulturalizmin izlərini böyük dramaturq, romantik şair Hüseyn Cavidin 1914-cü ildə məhəbbət mövzusunda yazdığı "Şeyx Sənan" mənzum dramında da açıq şəkildə görmək mümkündür. Belə ki, bu dram Sənanla gürcü qızı Xumarın sevgisindən bəhs edir. Burada Sənan Xumarı o qədər çox sevir ki, hətta Xumarla evlənmək üçün qızın atasının

dediyi şərtləri yerinə yetirməyə razı olur. Hüseyn Cavid "Şeyx Sənan" dramında baş qəhrəmanlarının birini müsəlman, birini xristian gürcü seçməklə, yəni başqa millətə, xalqa məxsus seçməklə, dinə, irqə ayrım etməmiş, multikultural ruhlu olduğunu sübut etmişdir. Onu da qeyd edək ki, multikultural dəyəri mütəfəkkir şairin təkcə "Şeyx Sənan" əsərində deyil bir çox əsərlərində görmək mümkündür. Onlardan biri də "Qız məktəbində" şeiridir. Böyük şair bu şeirdə balaca qızın-Gülbaharın dili ilə dünyadakı bütün insanlara bəslədiyi sonsuz sevgi və məhəbbət duyğularını ifadə edir. "Bu isə artıq zəngin ənənələri şübhə doğurmayan Azərbaycan multikultural mühitinin şairanə vəsfidir" [5, s. 230]. "Qız məktəbində" şeirinin sonuna nəzər salaq:

*– Pək doğru söz... Bu dünyada sənin ən çoq sevdiyin*
*Kimdir, quzum, söylərmisin?*
*– Ən çoq sevdiyim ilkin*
*O Allah ki, yeri-göyü, insanları xəlq eylər.*
*– Sonra kimlər?*
*– Sonra onun göndərdiyi elçilər.*
*– Başqa sevdiklərin nasıl, yoqmu?*
*– Var...*
*– Kimdir onlar?*
*Anam, babam, müəlliməm, bir də bütün insanlar...[*4, s. 49]

Əvvəldə qeyd etdiyimiz kimi multikultural dəyərlərin tarixi qədim olsa da müstəqillik dövründə ümummilli lider Heydər Əliyev tərəfindən daha da genişləndirildi və bununla bağlı xeyli işlər görüldü. Ulu öndərin apardığı siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yaşayan digər xalqlar və millətlərin milli mənəvi dəyərləri dövlət tərəfindən qorunur.

Ulu öndər Heydər Əliyev qeyd edir: "Azərbaycan Respublikası çoxmillətli və çox xalqlı bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir" [12]. Ümummilli liderin dedikləri Azərbaycan Respublikası yaranandan bu günə kimi

özünü göstərir. Azərbaycanda yaşamaqlarına baxmayaraq digər xalq və millətlər bu torpaqda bütün milli mənəvi dəyərlərinə sahibdirlər. Bütün bu deyilənlər onun göstəricisidir ki, multikultural dəyərlər bizim üçün çox önəm daşıyır.

Azərbaycan çox millətlə və çox xalqlı respublikadır. Burada yaşayan digər xalqlar və millətlər adət-ənənələrinə hər zaman dəyər və hörmət görürlər.

Azərbaycanda yəhudilər, tatlar və lahıclar, saxurlar və udilər, talışlar və ləzgilər, laklar və avarlar, ingiloylar və kürdlər, rutullar və başqa xalqlar və etnik qruplar yaşayır və buranı özlərinə doğma vətən hesab edirlər. Onlara burada öz milli bayramlarını keçirmələri üçün hər cür şərait yaradılmışdır. Həmçinin Azərbaycan Respublikasında yaşayan, dilindən dinindən asılı olmayaraq "bütün xalqlar və etnik qruplar öz ana dillərini unutmasınlar, bu dildən aktiv şəkildə istifadə edə bilsinlər deyə, həmin xalqların kompakt şəkildə yaşadığı ərazilərdə yerləşən və bu xalqların övladlarının təhsil aldıqları məktəblərdə, dilin perspektivi nəzərə alınması şərtilə, ya təhsil həmin xalqların öz dillərində aparılır, ya da həftədə ən azı iki dəfə öz ana dillərinin tədrisi və gənc nəslə öyrədilməsi təmin olunur" [2, s. 160]. Çünki hər bir xalqın milli mənəvi dəyərləri və folkloru var və onlar qorunur, onlara hörmət olunur, bu da dövlətimizin multikultural dəyərlərə verdiyi qiymətin nəticəsidir.

Apardığımız araşdırmalardan, göstərdiyimiz nümunələrdən də aydın görünür ki, "müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndəlləri harmonik inkişaf edirlər" [11]. Deyilən fikirlərə əsaslanaraq deyə bilərik ki, multikulturalizm bir siyasətdir və bu siyasət Azərbaycanda qədim zamanlardan özünü göstərə-göstərə gəlib bu günümüzə çatmışdır. Qədim zamanlardan bu günə kimi Azərbaycan millətindən, irqindən, dilindən, dinindən asılı olmayaraq hər bir millətə, xalqa, hər bir kəsə qucaq açmış, ona özünün doğması kimi dəyər vermiş, onun milli dəyərlərinə bütün dövrlərdə hörmət etmiş və onlara öz yaşamında xüsusi yer ayırmışdır.

## Ədəbiyyat

1. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997, 136 s.

2. Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri" adlı beynəlxalq konfransın materiallar toplusu, Bakı: 2016, 487 s.

3. Asiya xalqlarının nağıl və əfsanələri, Bakı: "Öndər", 2005, 280 s.

4. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I cild. Bakı: "Lider" nəşriyyatı, 2005, 256 s.

5. Möhsün Nağısoylu, Fərid Ələkbərli, Əkrəm Bağırov, İbrahim Quliyev, Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları, Bakı: BBMM, 2016, 145 s.

6. https://az.wikiquote.org/wiki/L%C9%99zgi_atalar_s%C3%B6zl%C9%99ri

7. https://az.wikiquote.org/wiki/Alman_atalar_s%C3%B6zl%C9%99ri

8. https://az.wikiquote.org/wiki/Ba%C5%9Fq%C4%B1rd_atalar_s%C3%B6zl%C9%99ri

9. https://az.wikiquote.org/wiki/Fin_atalar_s%C3%B6zl%C9%99ri

10. https://az.wikipedia.org/wiki/Yeddi_g%C3%B6z%C9%99l_(Nizami)

11. https://az.wikipedia.org/wiki/Multikulturalizm

12. http://www.xalqqazeti.com/az/news/politics/78385

**Rzayeva Ch.**

**Summary**

**Multiculturalism: from past to present**

In Azerbaijan, the policy of multiculturalism, whose history comes out of deep antiquity as in other areas, reflects itself in the Azerbaijani literature. Always paid attention to multiculturalism values in the form of a wide range of both oral and written literature. The great poet Nizami Ganjavi in his poem The Seven Beauties, thinker Huseyn Javid in his work Sheikh Sanan, choosing his protagonists from other nations, showed an example of how multiculturalism is valued.

Also in our folklore, multiculturalism values manifested themselves. Thus, the use of proverbs of other nations, peoples and our proverbs is the same, the translation of tales, legends and other examples of folklore related to other nations into the Azerbaijani language, publication of translation in the form of books is a vivid example of this.

**Рзаева Ч.**

**Резюме**

**Мультикультурализм: от прошлого к настоящему**

В Азербайджане политика мультикультурализма, история которого восходит к глубокой древности, как и в других областях, отражается в азербайджанской литературе тоже. Мультикультурализмским ценностям уделялось большое внимание во всех сферах жизни общества, в том числе в устной так и в письменной литературе. Великий поэт Низами Гянджеви в своей поэме "Семь Красавиц", выдающийся поэт и мыслитель Гусейн Джавид в своем произведении "Шейх Санан", выбирая своих главных героев из других наций, показывали пример, подтверждающий ценность мультикультурализма.

В нашем фольклоре тоже проявлялись мультикультуралистические ценности.

**Fərhadov Əli Rizvan oğlu**

*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## HEYDƏR ƏLİYEV YOLU: AZƏRBAYCANÇILIQ VƏ MULTİKULTURALİZMİN HARMONİYASI

***Açar sözlər:*** *Heydər Əliyev, İlham Əliyev, tolerantlıq, multikulturalizm, azərbaycançılıq*

***Key words:*** *H.Aliyev, I.Aliyev, tolerance, multiculturalism, Azerbaijanism*

***Ключевые слова:*** *Г.Алиев, И.Алиев, толерантность, мультикультурализм, азербайджанство*

Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Tarixi ənənələrə nəzər salsaq görərik ki, istər orta əsr

Azərbaycan dövlətləri, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında ulu öndər Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmışdir.

XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq qısa mövcudiyyətini saymazsaq XX əsrdə Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmlənməsi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, H.Əliyevn sistemləşdirdiyi "azərbaycançılıq" anlayışı ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında real surətdə birləşdirmək ideyasının verballaşdırılması kimi, 1992-1993-cü illərdə xüsusilə geniş yayılan şovinist və separatçılıq əhval-ruhiyyəsinə qarşı mübarizə ideyası kimi meydana gəlmişdir" [Mehdiyev, 2007, 4]. Məhz bu ağır dövrdə H.Əliyevin qətiyyətli, eyni zamanda multikultural ideyalara söykənən siyasəti Azərbaycanın etnık seperatçılığa qurban getməsinin qarşısını aldı, ölkəmizdəki bütün ünsürləri vahid dövlətçilik istiqamətində birləşdirə bildi. Ümummilli lider Heydər Əliyev siyasi hakimiyyətə qayıdışından sonra, separatçı qüvvələrə qarşı əməli tədbirlər görmüs, demokratik prinsiplər əsasında azsaylı xalqların hüquqlarını qorumağı dövlətçiliyin əsas vəzifəsi kimi qarşıya qayə qoymuşdu.

Heydər Əliyevin möhtəşəm adı Azərbaycan Respublikasını sadəcə siyasi, hərbi baxımdan gücləndirməklə əlaqəli olmayıb, eyni zamanda bu dövlətin siyasəti olan multikulturalizm ideologiyasının siyasi banisi olması ilə bağlıdır. Onun siyasi qətiyyəti nəticəsində Azərbaycan xalqının tarixən sahib olduğu multikulturalizm ənənəsi dövlətçilik müstəvisində yenidən bərpa edildi, inkişaf etdirilərək daha üstün mərhələyə qaldırıldı.

2001-ci il noyabrın 10-da Dünya azərbaycanlılarının I Qurultayında Heydər Əliyevin nitqi azərbaycançılığın multikultural məramını idarə edən düstur sayıla bilər: "Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir" [Aydınoğlu, 2009, 5].

Ümummilli liderin - "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri... ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" [Həsənov, 2017, 10] sözü bu ideologiyanın sistemləşdirilməsinin əsas dayaqlarından biridir. Ulu öndərin sistemləşdirdiyi azərbaycançılıq məfkurəsi də özündə multikultural dəyərləri ehtiva edir.

Heydər Əliyevin - "Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xalqımızın, dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır. Bu ideologiya bütün xalqın, dövlətin mənafeyinə uyğun olmalı, müxtəlif sosial təbəqələrin, siyasi partiyaların bir ideya ətrafında birləşməsinə yol açmalıdır" [Əliyev, 2008, 3] sözü bütün azərbaycanlıların, etnik mənşəyindən, siyasi düşüncəsindən aslı olmayaraq bütün Azərbaycan vətəndaşlarının vahid bir ideya – milli birlik və milli məfkurə ətrafında birləşməsi üçün hərəkətverici qüvvə olmalıdır.

Təsadüfi deyildir ki, Ümummilli lider Heydər Əliyev multikultural dəyərlərə əvəzsiz sərvət kimi yanaşırdı: "Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir, üstünlüyümüzdür... Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da -bütünlükdə hamısı azərbaycanlıdır. "Azərbaycan" sözü bizi həmişə birləşdirib" [Nəsirov, 2016, 3].

Zəmanəmizin dühası Heydər Əliyev Azərbaycanın çoxmillətli dövlət olaraq multikultural milli siyasətinin əsas məzmununu belə müəyyən etmişdir: "...Respublikamızın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır" [Məmmədov, 2014, 7]. Ulu öndərin peyğəmbərcəsinə söylədiyi bu fikirlə müasir dünyamızda milli-etnik və dini dözümsüzlük mühiti formalaşdırmaqla "idarə olunan xaos" vəziyyəti yaradan qüvvələrin kimliyini anlamaq və nəticələr çıxarmaq üçün olduqca ibrətamizdir [Nəsirov, 2016, 3].

H.Əliyevin "Dinimiz-mütərəqqi dindir və İslam bunu əsrlər boyu sübut etmişdir; bu dinin ümumbəşəri əhəmiyyəti vardır. İnsanların öz kökünə və dininə qayıtmasına heç bir qüvvə mane ola bilməz" [Əl-Fəlah, 2007, 7-8] sözləri Azərbaycanın islam dünyası ilə həmrəyliyinin də bir sübutudur və xalqımızın mənəvi dəyərlərinə Ulu öndər tərəfindən necə hörmət edildiyinin sübutudur.

Heydər Əliyev respublikamızda dini etiqad azadlığının təminatçısı, milli-mənəvi dəyərlərin qoruyucusu olmuşdur. Heydər Əliyev Azərbaycanda yaşayan dini icmalara qarşı həmişə ehtiramla yanaşmış, onların dini bayramlarını təbrik etmiş, adət-ənənələrinə qayğı göstərmişdir. O, həmçinin tolerantlığa, dinlərarası, mədəniyyətlərarası dialoqa həmişə üstünlük vermişdir.

1999-cu ildən etibarən, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda tolerantlıq günü (16 noyabr) xüsusilə qeyd edilir. Onun – "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir" sözləri multikulturalizmin əsas sütunlarından biridir. Ümummilli lider Heydər Əliyev ilk dəfə olaraq multikulturalizmi azərbaycançılıq ideyasının tərkib hissəsi kimi təqdim etdi. O, siyasi və hüquqi sahələrdə multikulturalizmin dil və milli xüsusiyyətlərini sənədlərlə təsdiq etdi. Buna görə də o, Azərbaycan multikulturalizminin siyasi banisi hesab olunur [Abdulla, Nəcəfov, 2017, 46]. Ulu öndər Heydər Əliyev bununla ilk növbəqə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara vahid Azərbaycan dövlətinə mənsub olmalarının əsasında birlik hissi aşılanmağa başladı. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" deyən Ulu Öndər bütün sonrakı siyası fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi. Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü [Abdulla, 2017, 47-48].

Azərbaycanın multikultural ruhunun qorunması Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmuşdur. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Konstitusiyanın bir sıra maddələrində açıq şəkildə

təqdim edilmişdir. Bununla bağlı "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1, 2), "Ana dilindən istifadə hüququ" (maddə 45, bəndlər 1, 2), "Vicdan azadlığı" (maddə 48, bəndlər 1-5), "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı" (Maddə 71, bənd 4), "Din və dövlət" (Maddə 18, bənd 1-2) və başqa maddələri göstərmək mümkündür.

Cənab Heydər Əliyevin 21 iyun 2001-ci il tarixli 512 saylı Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də yaradılmış, ölkədəki dini etiqad azadlığı ilə bağlı olan qanunlara riayət olunmasına nəzarəti təmin etməyə, dini qurumlarla dövlət arasında münasibətləri daha ciddi tənzimləməyə başlamışdır. Təşkilat ictimai-siyasi təhlükəsizliyin və sabitliyin qorunması və mövcud dini duruma lazımi nəzarət, həmçinin bu yolda hər cür neqativ halların qarşısının alınması üçün lazımi tədbirləri həyata keçirir.

Azərbaycan islam ölkəsi olmasına baxmayaraq, burada yəhudi və xristianların hüquqları ən yüksək səviyyədə qorunur. Onların öz dini mədəniyyətlərini inkişaf etdirməsi və rahat yaşaaları üçün hər cür dövlət dəstəyi göstərilir. Bu tolerantlığın əsası da məhz Ulu öndərin uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur. H.Əliyevin 1997-ci ildə Vatikana səfəri və 2002-ci ildə Roma Papası II İoann Pavelin Azərbaycana tarixi səfəri Azərbaycan-Vatikan əlaqələrinin inkişafında xüsusilə böyük rol oynadı. Azərbaycanda yəhudi icmaları, həmçinin xristianlığın müxtəlif qollarını təmsil edən dini icmalar da fəaliyyət göstərir. Qeyd edək ki, 1907-ci ildə məşhur Azərbaycan xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyev tərəfindən inşa etdirilmiş Cen Mironosets kilsəsi svet hakimiyyəti illərində dağıntıya məruz qalıb anbar kimi istifadə olunmasına baxmayaraq, müstəqillikdən sonra azərbaycanlı iş adamı Aydın Qurbanov tərəfindən təmir olunmuş, dindarların istifadəsinə verilmişdir. Bütün Rusiyanın Patriarxı II Aleksi 2001-ci ilin may ayında Azərbaycanda səfərdə olarkən bu məbədi ziyarət etmiş, ona baş kafedral kilsə statusu vermişdir. Kilsənin açılış mərasimində Ümummilli Lideri Heydər Əliyev, hökumət üzvləri, səfirliklərin nümayəndələri də iştirak etmişdir. 2003-cü ilin aprel ayınc Rum Patriarxı LL Varfolomey Azərbaycanda rəsmi səfərdə olmuş, din və dövlət xadimləri, müxtəlif dini icmaların rəhbərləri ilə görüşlər keçirmiş və ölkədəki dini tolerantlığı yüksək qiymətləndirmişdir. Qonağı Ümummilli lider Heydər Əliyev də qəbul etmişdir. Azərbaycanda 2003-cü il mart ayında Bakıda yeni yəhudi sinaqoqu da istifadəyə verilmişdir. 2003-cü ilin sentyabr ayında Bakıda "Od-Avner" Xabad Lyubaviç

Beynəlxalq Fondunun maliyyələşdirdiyi ilk yəhudi orta ümumtəhsil məktəbi fəaliyyətə başlamışdır.

Heydər Əliyev tərəfindən başladılan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən uğurlu tolerantlıq və multikulturalizm siyasəti özünü bütün ictimai, mədəni sahələrdə də göstərir. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi siyasəti cənab Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. Bu siyasi xəttin nəticəsi kimi Azərbaycan Prezidentinin göstərişi ilə ölkəmizin 26 noyabr 2009-cu il tarixli qanunla "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair" UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar. Bu sahədə mühüm məqamlardan biri isə Prezident İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən bəri müntəzəm şəkildə Bakıda Beynəlxalq Humanitar Forumun, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsid... Artıq ənənəyə çevrilmiş Beynəlxalq Humanitar Forumun son açılışı zamanı etdiyi çıxışında Prezident İlham Əliyev multikulturalizmi "alternativi olmayan, gələcək inkişaf üçün ən məqbul variant" [Abdullayev, 2017, 7] kimi dəyərləndirməklə təkcə Azərbaycanda deyil, müasir dünyada multikulturalizm meyillərinin gücləndirilməsinin vacibliyini xüsusi olaraq qeyd etmişdir. Prezident İlham Əliyevin 28 fevral 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşavirinin xidmətinin və 15 may 2014-cü il tarixində imzaladığı fərman ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ölkəmizin tarixi tolerantlıq ənənəsinin, etnik-mədəni, dini müxtəlifliyin mühafizəsini və inkişafını təmin etdi, həmçinin Azərbaycanı dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanıtmaq və bu sahədəki araşdırmaları tədqiq və təşviq etməyi reallaşdırdı.

Azərbaycanın I Avropa Oyunlarına ev sahibliyi etməsi də idman multikulturalizminin nümunələrindən biridir. Hörmətli Mehriban xanım Əliyevanın həm YUNESKO-nun fəxri səfiri kimi, həm də Heydər Əliyev Fondunun və I Avropa Oyunlarının Təşkilat Komitəsinin rəhbəri kimi fəaliyyəti, ölkənin Birinci vitse-prezidenti kimi idarəçiliyi respublikamızın nəinki ictimai-siyasi sahədə, həm də mədəniyyət və

idman sahəsində uğurlu təbliğinin möhtəşəm bir nümunəsidir. Hörmətli Birinci vitse-prezidentin "Hər bir cəmiyytin gücü onun dini və milli müxtəlifliyindədir" [Məmmədov, 2017, 3] sözü də dövlətimizin dini və etnik multikulturalizmə müsbət bir baxışının nümunəsidir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun ayrı-ayrı ölkələrdə həyata keçirdiyi layihələr isə xalqımızın bu gün multikulturalizmə siyasi baxımdan nə qədər böyük önəm verdiyini, Azərbaycanın çoxmədəniyyətli ölkə olaraq dünya xalqlarının mədəniyyətinə və humanitar inkişafına necə həssaslıqla yanaşdığını nümayiş etdirir. Eyni zamanda, bu layihələr Azərbaycan multikulturalizminin ölkə çərçivəsində qapalı inkişafını deyil, həm də dünyada dinlərin və mədəniyyətlərin müxtəlifliyi şəraitində çevik və maneəsiz fəaliyyət göstərməsini, bəşəri gərəkliyini təcəssüm etdirir. Mehriban xanım Əliyevanın dünyaya bəyan etdiyi humanitar mesaj ölkəmizdə multikultural siyasətin məramını da aydın və konkret əks etdirir: "Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə, öz əməllərinə hörmətlə yanaşan xalq, gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın" [Mirzəyeva, 2017, 5]. Azərbaycanın bu beynəlxalq uğurları isə Ulu Öndər Heydər Əliyevin əməllərinin bəhrəsidir.

Multukulturalizmin Azərbaycan təcrübəsinin nümayişi nəticəsində bu gün ölkəmiz multikulturalizmin mərkəzi kimi tanınır. Qətiyyətlə deyə bilərik ki, Azərbaycan multikulturalizmi ölkəmizin siyasi simasının əsas göstəricilərindən birinə çevrilmişdir. Azərbaycan multikulturalizminin siyasi banisinin arzularından biri də elə bu idi [Abdullayev, 2014, 7].

Məhz Ulu öndərin ortaya qoyduğu siyasətin nəticəsi olaraq Avropada Kameron və Sarkozi nümunəsində multikulturalizm siyasətinə bədbin baxış getdikcə yayıldığı hal Azərbaycan Prezidenti İlham Əliyev buna qarşı duran optimist baxışı və siyasi iradəni nümayiş etdirir. O, Azərbaycan xalqının çoxəsrlik multikultural dəyərlərə malik olması ideyasına arxalanaraq bu siyasi bəyanatla Azərbaycanın multikulturalizmin vətəni olduğuu bəyan edir. "Bu gün multikulturalizmin dünyada alternativi yoxdur" deyən cənab Prezidentin 2016-cı ili "Multikulturalizm ili", 2017-ci ili isə "İslam həmrəyliyi ili" elan edən sərəncamlarının tətbiqi nəticəsində bu istiqamətdə ölkə daxilində və xaricdə müxtəlif elmi-kütləvi tədbirlər, konfranslar keçirildi, bu mövzuda dərslik və müxtəlif ədəbiyyatlar nəşr olundu. Azərbaycanın ən ucqar bölgələrində, məscid, kilsə, sinaqoqlarda da xalqımızın bu möhtəşəm dəyəri müzakirə obyektinə çevrildi. Ən

müxtəlif ölkələrdən multikulturalizm xətti ilə ölkəmizə gələn qonaqlar Azərbaycan multikultural siyasətindən ağızdolusu heyranlıqla bəhs etdilər, öz ölkələrində də belə siyasi kursun vacibliyini önə çəkdilər, multikulturalizmin Azərbaycan modelinin öz ölkələrində coşqun təbliğatçılarına çevrildilər. Bu isə Azərbaycanın haqq səsinin bütün dünyada öz ünvanına çatmasına səbəb oldu.

**Ədəbiyyat**

1.Abdulla K. Ümummilli lider Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisi kimi // Azərbaycan multikulturalizmi: Ali məktəblər üçün dərslik. Bakı: BBMM, 2017.

2.Abdulla K., Nəcəfov E. Azərbaycançılıq və multikulturalizm // Azərbaycan multikulturalizmi: Ali məktəblər üçün dərslik. Bakı: BBMM, 2017.

3.Abdulla K., Nəcəfov E. Prezident İlham Əliyev müasir dövrdə Azərbaycan multikulturalizminin siyasi qarantıdır // Azərbaycan multikulturalizmi: Ali məktəblər üçün dərslik. Bakı: BBMM, 2017.

4.Abdullayev K. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir // Azərbaycan qəzeti, 2014, 23 iyul, № 156.

5. Aydınoğlu T. Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir // Xalq qəzeti, 2009, 8 may, № 99.

6.Əl-Fəlah A.A. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı: Qismət, 2007.

7. Əliyev Q. Azərbaycançılıq ideologiyasının banisi // Azərbaycan qəzeti, 2008, 11 aprel, № 75.

8.Həsənov R. Milli qurtuluşa aparan yolda Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisi kimi // Olaylar qəzeti, 2017, 14 iyun, № 347.

9. Qurbanlı M. Azərbaycan - tolerantlığa nümunə ölkə // Azərbaycan qəzeti, 2015, 6 may, № 96.

10.Mehdiyev R. Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi // Azərbaycan qəzeti, 2007, 9 noyabr, № 252.

11.Məmmədov A. Azərbaycan tarixən müxtəlif xalqların və din nümayəndələrinin birgə yaşadığı məkan olub // Azərbaycan qəzeti, 2014, 16 noyabr, № 250.

12. Məmmədov S. Mehriban Əliyeva: Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir // Xalq qəzeti, 2017,  31 dekabr,  № 291.

13. Mirzəyeva Aytən. Ümummilli lider Heydər Əliyevin siyasi kursunda tolerantlıq və multikultural dəyərlər // Xalq qəzeti, 2017, 10 dekabr, № 273.

14.Nəsirov E. Heydər Əliyev və Azərbaycanda multikulturalizm siyasəti: varislik, novatorluq  // Xalq qəzeti, 2016, 14 may, №  103.

**Farkhadov A.**

**Summary**

**THE PATH OF H.ALIYEV: THE HARMONY OF AZERBAIJANISM AND MULTICULTURALISM**

The article explores the role of H.Aliyev in the transformation of tolerance and multiculturalism that has historical traditions in Azerbaijan, into the political ideology of the country. At the same time, the article speaks about the relationship between multiculturalism and Azerbaijanism, and analyzes the thoughts of national leader H.Aliyev about tolerance, multiculturalism and Islamic solidarity. Article presents I. Aliyev's decrees that serve the development of ideas of multiculturalism and Islamic solidarity.

**Фархадов А.**

**Резюме**

**ПУТЬ Г.АЛИЕВА:  ГАРМОНИЯ АЗЕРБАЙДЖАНСТВА И МУЛЬТИКУЛЬТУРАЛИЗМА**

В статье исследуется роль Г.Алиева в превращении толерантности и мультикультурализма, имеющих исторические традиции в Азербайджане, в политическую идеологию страны. В то же время, показана взаимосвязь между мультикультурализмом и азербайджанством. Анализируются мысли общенационального лидера Г.Алиева о толерантности, мультикультурализме и исламской солидарности. Также представлены указы И.Алиева, служащие развитию идей мультикультурализма и исламской солидарности.

**Hüseynova Rimunə Zakir qızı**
*Gəncə Dövlət Universiteti, Azərbaycan*

# AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA DİPLOMATİK- SİYASİ MÜNASİBƏTLƏRİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİ

*Açar sözlər: Azərbaycan, Türkiyə, müqavilə, saziş, beynəlxalq əlaqələr, dövlət, dostluq, əməkdaşlıq*

1993-cü ilin yayında yaranmış ağır vəziyyətdən çıxmaq üçün xalqın tələbi və Azərbaycan rəhbərlərinin dəvəti ilə ikinci dəfə Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev Türkiyə ilə diplomatik-siyasi münasibətlərin yeni təməl üzərində inkişaf etdirilməsi istiqamətində ciddi səylərə başladı. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin hakimiyyətinin ilk aylarında iki ölkə arasında münasibətlərdə tərəflərin heç birinə faydalı olmayan müəyyən qədər soyuqluq mövcud idi. Belə vəziyyətin düzəldilməsi, münasibətlərdə yersiz şüarçılığın və soyuqluğun aradan qaldırılması, ikitərəfli qarşılıqlı faydalı əməkdaşlığın möhkəm təməl üzərində inkişaf etdirilməsi zəruri idi. Lakin bu problemlərin qısa müddət ərzində həlli heç də asan deyildi. Çətinliklə olsa da, Heydər Əliyev həmin problemləri uğurla həll etdi. Az müddət keçdikdən sonra ikitərəfli diplomatik-siyasi münasibətlər normal-laşmağa, daha sağlam təməl üzərində inkişaf etməyə başladı. İlk növbədə müxtəlif səviyyəli qarşılıqlı səfərlərin sayı artdı. Türkiyə ilə münasibətlərin inkişafına xüsusi diqqət yetirən Heydər Əliyev bu ölkədən gələn nümayəndə heyətlərini şəxsən qəbul edir, əməkdaşlığın mövcud vəziyyətini və gələcək perspektivlərini müzakirə edir, istiqamətlərinin inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə dair öz tövsiyələrini söyləyirdi.

1993-cü il sentyabrın 9-da Moskvaya gedərkən yolüstü Bakıda olan Türkiyənin baş naziri Tansu Çilləri Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etdi [2]. Bu görüş münasibətlərin inkişaf etdirilməsində özünəməxsus rol oynadı. Danışıqlarda ikitərəfli əməkdaşlığı dərinləşdirmək niyyətləri bəyan edildi.

İki ölkə arasında diplomatik-siyasi münasibətlərin inkişafına Heydər Əliyevin verdiyi xüsusi diqqət özünü 1994-cü il fevralın 8-11-də Türkiyəyə rəsmi səfəri zamanı göstərdi. Səfər zamanı Azərbaycan rəhbəri Türkiyə Prezidenti S.Dəmirəl, baş nazir T.Çillər, Türkiyə Böyük Millət Məclisinin sədri H.Cindoruk, siyasi partiyaların, din xadimlərinin, iş adamlarının, azərbaycanlıların nümayəndələri, xarici ölkələrin diplomatlatı və b. ilə görüşlər keçirdi. Səfərin nəticəsində iki ölkə arasında münasibətlərə dair 16 mühüm sənəd, o cümlədən əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol imzalandı [3, I c., 62]. İkitərəfli münasibətlərdə yeni mərhələnin başlanğıcını qoyan həmin sənədlərin imzalanması heç şübhəsiz, Heydər Əliyevin Türkiyə ilə əməkdaşlığa verdiyi diqqətin göstəricisi idi.

Türkiyənin baş naziri Tansu Çillər 1995-ci il aprelin 11-12-də Azərbaycana səfər edərkən Heydər Əliyev tərəfindən qəbul edildi. İkitərəfli və çoxtərəfli əməkdaşlığa dair geniş müzakirələr aparıldı, bir sıra digər görüşlər də keçirdi. Səfərin gedişində neft sahəsində əməkdaşlığa dair sənəd imzalandı.

Həmin ilin mayın 3-də Azərbaycana səfər edən Türkiyənin xarici işlər naziri Ərdal İnönünü qəbul edən Heydər Əliyev ikitərəfli münasibətlərin inkişaf etdirilməsi istiqamətində özünün strateji əhəmiyyət daşıyan fikirlərini bildirdi. Danışıqlarda onlar Ermənistanın Azərbaycan torpaqlarının işğalına son qoyulmasının zəruriliyini bildirdilər.

1995-ci il iyulun 10-da Türkiyənin baş naziri Tansu Çillər yenidən Azərbaycana səfər etdi. O, Heydər Əliyev tərəfindən qəbul edildi. Bu səfər ikitərəfli diplomatik-siyasi münasibətlərin inkişafına kömək etdi. Səfərin yekununda imzalanan birgə bəyannamədə iki ölkə arasında ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əməkdaşlığın genişləndirilməsi niyyətləri ifadə olunmuşdu [1, IV kit., 500]. Sənəd beynəlxalq və regional problemlərə yanaşmada tərəflərin fikir birliyini göstərirdi.

Heydər Əliyev 1995-ci ili dekabrın 7-də Türkiyə Prezidenti Süleyman Dəmirəli qəbul edərkən iki qardaş ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsinin zəruriliyini xüsusilə vurğuladı [1, V kit., 136]. Heydər Əliyevin təşəbbüsü nəticəsində Süleyman Dəmirəl Azərbaycan Milli Elmlər Akademiyasının fəxri akademiki adına layiq görüldü. Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bildirdi ki, respublikamızın elmi müəssisələri və Elmlər

Akademiyası ilə Türkiyənin elmi mərkəzləri arasında çox sıx əlaqələr yaradılmışdır [5]. Bu səfərdən sonra Heydər Əliyevin göstərişinə uyğun olaraq ikitərəfli əməkdaşlıq daha da genişləndirildi.

Həmin ilin aprel ayında Türkiyənin baş naziri Məsud Yılmaz Bakıda səfərdə olarkən Heydər Əliyev tərəfindən qəbul edildi [1, VI kit., 115]. Görüşdə Azərbaycan rəhbəri ikitərəfli münasibətləri inkişaf etdirmək üçün mümkün olan bütün potensialdan istifadə edilməsinin zəruriliyini qeyd etdi. Səfər zamanı Türkiyənin baş nazirinə Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu verildi. Münasibətlərin daha da inkişaf etdirilməsini nəzərdə tutan sənədlər imzalandı.

Heydər Əliyev Türkiyə ilə strateji əməkdaşlığın qurulması inkişafına xüsusi əhəmiyyət verirdi. Bu baxımdan iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsində Heydər Əliyevin 1997-ci il mayın 5-8-də Türkiyəyə işgüzar səfəri mühüm yer tutdu [4]. Qarşılanma mərasimində Azərbaycan və Türkiyə prezidentləri mətbuat üçün qısa bəyanatlarla çıxış etdilər. Bəyanatlar tərəflərin ikitərəfli, regional və beynəlxalq məsələlərə dair ümumi mövqelərini özündə əks etdirirdi. Heydər Əliyevin bəyanatında deyilirdi ki, Türkiyə Azərbaycan üçün dost və qardaş ölkədir, bu dostluq və qardaşlıq əlaqələrinin ən dərin kökləri vardır. Bizim keçmiş əlaqələrimiz və son illərdə sürətlə inkişaf edən münasibətlərimiz indi Azərbaycan-Türkiyə münasibətlərini yüksək səviyyəyə qaldırmışdır [4, 9-10].

Səfərin gedişində iki ölkə arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə imzalandı [3, III c., 181]. Eyni zamanda gənclik və idman sahəsində əməkdaşlığa dair əlavə protokol, iki ölkənin əmək və sosial təminat nazirlikləri arasında əməkdaşlıq barədə saziş imzalandı. Sənədlərin imzalanmasından sonra Azərbaycan və Türkiyənin dövlət başçıları bəyanatlarla çıxış etdilər. Heydər Əliyevin bəyanatında deyilirdi ki, Azərbaycanın digər dövlətlərlə qurduğu əlaqələr içərisində Türkiyə xüsusi yer tutur. Çünki Türkiyə daim Azərbaycanı dəstəkləmiş, Azərbaycanın müstəqil olması yolunda ölkəmizə daim öz rəğbətini bildirmiş, Azərbaycan öz dövlət müstəqilliyini elan edən kimi ilk dəfə respublikamızı tanıyan dövlət olmuşdur [4, 19]. Azərbaycan rəhbəri bəyanatında imzalanan sənədlərin böyük tarixi əhəmiyyət daşıdığını qeyd edir, ikitərəfli münasibətlərin normativ-hüquqi bazasını daha da genişləndirdiyini və gücləndirdiyini vurğulayırdı. Səfərin gedişində Heydər Əliyev Türkiyənin ictimai-

siyasi dairələri ilə çoxlu görüşlər keçirərək münasibətləri dərinləşdirməyin yollarını müzakirə etdi.

Azərbaycan rəhbəri Türkiyə Böyük Millət Məclisində geniş bir nitq söylədi. Millət vəkilləri tərəfindən böyük maraqla qarşılanan bu nitqində Heydər Əliyev iki ölkə arasında münasibətlərin bütün istiqamətlərini dərindən təhlil edərək əməkdaşlığın perspektivlərini göstərdi, Azərbaycan və Türkiyə parlamentləri arasında əməkdaşlığı genişləndirməyi tövsiyə etdi.

Qeyd etmək lazımdır ki, Türkiyə ilə əməkdaşlığın inkişafında Heydər Əliyevin səyləri də lazımınca qiymətləndirilirdi. Bu baxımdan səfərin ən mühüm yekunlarından biri Azərbaycan rəhbərinə Türkiyə dövlətinin ən yüksək mükafatı olan "Dövlət nişanı"nın təqdim edilməsi oldu. Bu nişan Heydər Əliyevə ikitərəfli münasibətlərin inkişafında oynadığı rola və etdiyi səylərə görə verilmişdi.

Heydər Əliyevin 1998-ci ilin fevral ayında Türkiyəyə növbəti səfəri iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin inkişafına kömək etdi. Keçirilən görüşlərdə Azərbaycan Prezidenti Türkiyə ilə münasibətlərdə qazanılmış təcrübəni qoruyub saxlamağı, zənginləşdirməyi və inkişaf etdirməyi tövsiyə etdi [3, IV c., 33].

Həmin ilin sentyabr ayında TRASEKA proqramı çərçivəsində keçirilən beynəlxalq konfransda iştirak edən Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşündə Heydər Əliyev ikitərəfli və regional məsələləri əhatəli müzakirə etdi. Söhbətdə türk dövlətləri arasında münasibətlərin daha da inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıldı. Onlar türk dünyası arasında əlaqələrin genişləndirilməsinin vacibliyini vurğuladılar.

1998-ci ilin oktyabr ayında Heydər Əliyev Türkiyə Cümhuriyyətinin yaradılmasının 75 illiyi münasibəti ilə keçirilən tədbirlərdə iştirak etmək üçün bu ölkəyə səfər etdi. Səfərin gedişində Azərbaycan rəhbəri Türkiyə dövlət və hökumət başçıları ilə keçirdiyi görüşlərdə iki ölkə və türk dünyası arasında əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr apardı [3, III c., 370].

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri ilə mütəmadi olaraq görüşür, əməkdaşlığın dərinləşdirilməsinə dair tövsiyələrini verir, onlar üçün əlverişli iş şəraiti yaradırdı. Bir neçə misal göstərilməsi deyilənləri təsdiq edir. 1995-ci il mayın 2-də Türkiyənin Azərbaycan Respublikasına yeni təyin edilmiş səfiri Ömür Orhunun etimadnaməsini qəbul

edərkən əməkdaşlığı genişləndirməyin vacibliyini söyləyən Heydər Əliyev bildirdi ki, münasibətləri daha da inkişaf etdirmək zəruridir. Türkiyənin Azərbaycanda təyin edilmiş yeni fövqəladə və səlahiyyətli səfiri Osman Faruk Lağoğlunun 1996-cı il oktyabrın 24-də etimadnaməsinin təqdim edilməsi mərasimində etdiyi nitqində isə Heydər Əliyev deyirdi: "Keçən beş il ərzində Türkiyə ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf etmişdir. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir, həyatımızın bütün sahələrini - həm iqtisadi, həm də elmi, mədəni, mənəvi sahələri əhatə edir" [1, VII kit., 453].

Türkiyənin Azərbaycana yeni təyin olunmuş səfiri Qədri Ecvet Tezcan 1998-ci il fevral ayında etimadnaməsini Heydər Əliyevə təqdim etdi. O bu vəzifədə Osman Faruk Lağoğlunu əvəz etmişdi. Təqdimat mərasimindən sonra keçirilən söhbətdə Heydər Əliyev iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi sahəsində səfirin üzərinə böyük vəzifə düşdüyünü bildirdi və tövsiyələrini söylədi.

Türkiyə ilə parlamentlərarası əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirən Heydər Əliyev Türkiyəyə səfərləri zamanı millət vəkilləri ilə görüşür, parlamendə nitq söyləyərək nəinki Azərbaycan-Türkiyə münasibətlərinə, o cümlədən türk dünyası problemlərinə də toxunurdu. Məsələn, yuxarıda qeyd edildiyi kimi, 1994-cü ilin noyabr ayında Türkiyəyə səfəri zamanı TBMM-də çıxış edən Heydər Əliyev türk dövlətləri arasında ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafına xüsusi önəm verdiyini vurğulamışdı. Türkiyə mətbuatı Azərbaycan rəhbərinin nitqini və münasibətlərin inkişafındakı fəaliyyətini yüksək qiymətləndirmişdi.

Heydər Əliyev Türkiyədən Azərbaycana səfər edən parlament nümayəndə heyətlərini qəbul edərək əməkdaşlığın dərinləşdirilməsi barədə öz tövsiyələrini verirdi. Məsələn, TBMM sədri Hüsaməddin Cindoruk başda olmaqla Azərbaycana gələn parlament nümayəndə heyəti 1994-cü il dekabrın 27-də Heydər Əliyev tərəfindən qəbul edildi. Görüşdə ikitərəfli parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparıldı. Səfər zamanı iki ölkənin parlamentləri arasında əməkdaşlığa dair sənəd imzalandı [6]. Həmin sənəd qanunverici orqanlar arasında əməkdaşlığın inkişafında yeni bir səhifə açırdı.

1997-ci il fevral ayının ortalarında Azərbaycana səfəri zamanı TBMM nümayəndə heyətini qəbul edən Heydər Əliyev bildirdi ki, iki ölkənin parlamentlərinin sıx əməkdaşlıq etmələri vacibdir. Həmin il martın 18-20-də TBMM

sədri Mustafa Qələmlinin başçılığı altında nümayəndə heyətini Azərbaycana səfəri zamanı qəbul edən Azərbaycan rəhbəri iki ölkənin parlamentləri arasında əlaqələrin inkişaf etdirilməsi üçün çoxlu potensial olduğunu və ondan istifadə edilməsinin vacibliyini bildirdi. Heydər Əliyevin fikrincə, qanunverici orqanlar arasında əməkdaşlığın genişləndirilməsi və qəbul edilən qanunların uzlaşdırılması fayda verərdi. Onun bu mövqeyi 2001-ci ildə Türkiyəyə səfəri zamanı da özünü aydın şəkildə göstərdi. Türkiyə Böyük Millət Məclisində etdiyi nitqində Heydər Əliyev birmənalı olaraq deyirdi: "Bizim parlamentlərarası əlaqələr inkişaf etməlidir" [7, 12].

Beləliklə, aparılan araşdırmalar və təhlil göstərir ki, Heydər Əliyev Türkiyə ilə ikitərəfli diplomatik-siyasi münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verir və bu istiqamətdə ciddi səylər edirdi. Bilavasitə onun fəaliyyəti nəticəsində qarşılıqlı səfərlərin sayı artdı, iki ölkə arasında bir sıra müqavilə, saziş və protokollar imzalandı. Heydər Əliyevin səyləri ilə ikitərəfli diplomatik-siyasi münasibətlər yeni təməl üzərində qurularaq inkişaf etdirildi. Bu təməl real siyasətə əsaslanırdı. Onun hakimiyyəti illərində qarşılıqlı münasibətlərdə yersiz şüarçılıqdan imtina edildi. Heydər Əliyev münasibətlərin müxtəlif istiqamətlərdə maddi təməllərinin qurulmasına və möhkəmləndirilməsinə xüsusi diqqət verirdi.

## ƏDƏBİYYAT


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. IV kitab. Bakı: Azərnəşr, 1997, 528s.; V kitab. Bakı: Azərnəşr, 1998, 500 s.; VI kitab. Bakı: Azərnəşr, 1998, 512 s.; VII kitab. Bakı: Azərnəşr, 1998, 520.;
2. Heydər Əliyevin Tansu Çillər ilə görüşü. "Azərbaycan" qəzeti, 1993, 10 sentyabr, №175 (687).
3. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1994-cü illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I cild. Bakı: Şuşa nəşr., 1996, 268 s., II cild. Bakı: Göytürk, 1997, 762 s.; III cild. Bakı: Göytürk, 1998, 776 s.; IV cild. Bakı: Göytürk, 1999, 520 s.; V cild. Bakı: Göytürk, 2000, 476 s.
4. Azərbaycan-Türkiyə: dostluq, strateji əməkdaşlıq. Bakı: Şərq-Qərb nəşr., 1997, 200 s.

5. Нурани. Турция и Азербайджан используют свой шанс. Некоторые итоги визита в Баку Сулеймана Демиреля. Газ., “Зеркало”, 1996, 16 декабря, № 47 (431).

6. Türkiyə Böyük Millət Məclisinin sədri Bakıya gəlmişdir. “Azərbaycan” qəz., 1994, 28 dekabr, №250 (1014).

7. Türkiyə Böyük Millət Məclisində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi // “Dirçəliş – XXI əsr” jurn., Bakı, 2001, №4, s.3-12.

**Huseynova R.**

**Summary**

**Activities of Haydar Aliyev in the development of diplomatic and political relations between Azerbaijan and Turkey**

The research and analysis show that Heydar Aliyev attaches great importance to the development of bilateral diplomatic relations with Turkey and made serious efforts in this direction. As a result of its activity, the number of reciprocal visits increased and a number of agreements, and protocols were signed between the two countries. Bilateral diplomatic and political relations were established and developed on the basis of Heydar Aliyev's efforts. It was based on real politics. During his rule, he was denied undue slogans in mutual relations. Heydar Aliyev paid special attention to the establishment and strengthening of material bases of the relations in different directions.

**Гусейнова Р.**

**Резюме**

**Роль Гейдара Алиева в развитии политико-дипломатических отношений между Азербайджаном и Турцией**

Анализы показывают, что Гейдар Алиев проявлял большое усердие в развитии двусторонних, политико-дипломатических отношений с Турцией.

В результате его прлитичнской деятельности увеличилось число визитов, были подписаны договора, соглашения и протоколы.

Благодаря усилиям Гейдара Алиева была заложена основа политико-дипломатических отношений, достигнуо их неуклонное развитие

**İsmayılova Afaq Suliddin qızı**
*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

# HEYDƏR ƏLİYEV VƏ İSLAM DÜNYASI

***Açar sözlər:*** *konstitusiya, dövlət quruculuğu, islam, dini azadlıq, etiqad azadlığı*

Heydər Əliyevin parlamentə sədr seçilməsindən 254uğun Milli Məclisdə verdiyi
bəyanatda müstəqil dövlətçiliyin inkişaf konsepsiyası və yolları sistemli şəkildə verildi. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilməyə başlandı. 1993–cü ilin iyun-oktyabr ayları və sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda Heydər Əliyevin mübarizəsi strateji məqsəd daşıyırdı. O, strateji və demokratik yolun mahiyyətini belə səciyyələndirirdi: "Azərbaycan Respublikası öz dövlət quruculuğunda 254uğunu–iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir".

Dövlət quruculuğunun spesifik cəhətlərindən biri dini icmalar ilə iş və bundan irəli gələn məsələlərdir. Hazırki dövrdə dini məsələlər və bununla əlaqədar olan problemlər beynəlxalq ictimaiyyətin daim diqqət mərkəzindədir. Təsadüfi deyildir ki, bir sıra başqa amillər ilə yanaşı dini müxtəliflik və buna tolerant münasibət ayrı–ayrı dövlətlərin imicinin göstəricisi kimi qəbul edilir. Məsələnin

digər tərəfi də ondan ibarətdir ki, dini dözümlülük ümumiyyətlə dövlətin demokratikliliyinin meyarlarından biri kimi çıxış edir.

Azərbaycanda dini mənsubiyyət daşıyıcaları müxtəlif olduğundan bu problem burada həmişə aktual olmuşdur. Dini tərkibin çoxçeşidliyini bu sahədə müvafıq dövlət tənzimlənməsini zəruri edir ki, bunu üçün də konkret addımların atılması təxirəsalınmaz

şəkil alır. Azərbaycan xalqının ənənələrindən irəli gələn yadfikirliyə, başqa həyat tərzinə dözümlülük keyfiyyəti əlahiddə problemlərin yaranmasına imkan verməsə də, hər halda dövlətin bu istiqamətdə siyasətinə tələbat vardır. Azərbaycanda dini qurumlar ilə iş üzrə Dövlət Komitəsinin yaradılması bu yöndə atılan addım olaraq dövlətin dini siyasətinin əsaslarının formalaşdırılması və həyata keçirilməsinə şərait yaradır.

Dünya dinlər olan islam, xristian və iudaizmin, eləcə də digər konfesiyalarm daşıyıcılarının qarşılıqlı etimad şəraitində yaşamalarına Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi işinin tərkib hissəsi kimi baxılmalıdır. Bu baxımdan dini əqidənin, vicdan və etiqad azadlığının maneəsiz həyata keçirilməsinin müstəsna əhəmiyyəti vardır. Azərbaycanda dini tolerantlıq qeyd edilən amillərin reallaşmasına əlverişli mühit yaradır. Belə ki, Azərbaycan bütün dövrlərdə müxtəlif dinlərin birgə mövcud olduğu məkan kimi tanınır. Bu barədə professor R.Mustafayev yazır: “Təsadüfi deyildir ki, ulu peyğəmbərimiz Məhəmməd Əleyhissəlam bütün insanları bərabər tutmağı, bütün dinləri müqəddəs saymağı tövsiyə edirdi. Elə bu baxımdan yanaşsaq, Azərbaycan bəlkə də dünyanın yeganə ölkəsidir ki, bütün millətlər yə dinlər min illərdir burada birlikdə yaşayırlar. Təsadüfi deyildir ki, ən qatı antiazərbaycanlılar belə Azərbaycanı hər hansı bir dini fundamentalizmdə və yaxud qatı millətçilikdə təqsirləndirə bilmirlər” (l, s. 408).

Dövlətin müvafiq tənzimlənməsi də olmaq şərti ilə gələcəkdə də respublikamıza müxtəlif dini konfesiyaların qarşılıqlı hörmət və etimad şəraitində yaşayacaqlarını söyləmək olar. Azərbaycan cəmiyyətində sağlam mühitin olması, nəticədə yeni, demokratik prinsiplərin təşəkkül tapması bundan xeyli dərəcədə asılıdır.

Dinin cəmiyyətdə oynadığı rol artan templə getdiyindən dinin sosial təchizat kimi dəyərləndirilməsinə əsas yaratmışdır. Bunun nəticəsidir ki, hazırki mərhələdə din öz muxtariyyətini saxlamışdır. Dini etiqad və vicdan azadlığı öz əksini Azərbaycan konstitusiyasında tapmışdır. Konstitusiyanın 48–ci maddəsində deyilir: “Hər kəsin vicdan azadlığı var”. Əsas qanunda bu maddənin təsbiti insanların etiqad azadlığına təminat verməsinin göstəricisidir ki, bu da demokratik dövlət quruculuğunun komponentlərindən birini təşkil edir.

Ölkəmizdə dini azadlığın daha bir göstəricisi kimi konstitusiyada alternativ xidmət haqqında maddənin olmasını qeyd etmək olar. Bu maddə hərbi xidmətin başqa xidmətlə, yəni hərbi deyil, mülki xidmətlə əvəzlənməsini ehtiva edir. Məlumdur ki, bir sıra dini etiqadlara görə silahla hər cür təmas yasaq edilmişdir. Bu səbəbdən bəzi təriqət mənsubları hərbi xidmətin onların etiqadına zidd olmasını əsas gətirərək onların haqlarının pozulduğu qənaətinə gəlirlər. 2002-ci il 24 avqust referendumunda alternativ xidmətin qəbul edilməsi, insan hüquqlarının qorunması və beləliklə də demokratik dövlətçiliyin bərqərar olmasının göstəricisi kimi diqqəti cəlb edir.

Qeyd etmək lazımdır ki, demokratik dövlət quruculuğunun mürəkkəb proses olmasının fərqinə varmayan bəzi şəxslər hadisələrin inkişaf dinamikasının görünməyən tərəflərini sezməyərək tələsik müəyyən qənaətlərə gəlirlər. Təbii ki, belə yanaşamalarda elmilikdən daha çox subyektiv rəylər üstünlük təşkil edir. Unutmaq olmaz ki, uzun illər təcrübədə təsadüf edilməyən amillərin (demokratik təsisatların, ənənələrin) və s. formalaşması mürəkkəb prosesdir. Burada kənara çıxmalar, birmənalı qəbul edilməyən addımlar, gözlənilməz situasiyalar xarakterikdir. Odur ki, demokratik dövlət qurulucuğundan danışarkən hər bir xüsusiyyəti ətraflı təhlil etmək daha məqsədə müvafiqdir.

Azərbaycanda dövlətçiliyin demokratik əsaslar üzərində qurulmasının vətəndaşlardan asılı olduğunu nəzərə alsaq, hazırki mərhələdə hər bir fərdin məsuliyyətinin nə qədər böyük olduğu haqda dolğun təsəvvür yaranır. Əgər dövlət idarəçiliyi sahəsində hər hansı bir islahat keçirilərsə bunu üçün müəyyən dairələrin səyləri kifayət edə bilər.

Dövlət quruculuğu, demokratikləşmə prosesi ilk növbədə insanların düşüncə tərzində, təfəkküründə yeniləşmənin olmasını zəruri edir. Bu ondan irəli gəlir ki, demokratiya hər şeydən əvvəl düşüncə tərzidir. İnsanlar fikrən, ruhən bunu qəbul etməyə hazır olmadıqca demokratikləşmədən, dünyəvi, hüquqi dövlət quruculuğundan söhbət gedə bilməz. Təsadüfi deyildir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etməsinin ilkin mərhələsində insanlarda anarxizm, xausa aludəlik meyli güclənmişdir ki, bu da demokratik təsisatlarin formalaşması prosesini ləngidir, hüquqi dövlət qurmaq işində baryerlər yaradır.

Demokratik dövlət quruculuğu proesesində insanların siyasi şüurunun pozitiv rolunu başa düşmək üçün son illərin xronikasına nəzər salmaq kifayətdir.

Azərbaycanda dövlət quruculuğunun ümumi inkişaf xətti barədə fəlsəfə elmlər doktoru, professor Ramiz Mehdiyev yazır: "XXI əsrin 257uğunu257ında müstəqillik əldə etmiş Azərbaycan xalqı böyük tarixə və zəngin ənənələrə malik olan dövlətçiliyi bərpa etmək, məfkurəsini, öz milli ideologiyasını formalaşdırmaq, azad iqtisadi münasibətlərə əsaslanan, demokratik prinsipləri ehtiva və tətbiq edən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu ilə inamla irəliləyir" (2,s. 30).

Fikrimizcə, bu sitatda əks olunan fikirlər Azərbaycanda dövlət quruculuğunun ümumi vəziyyətini obyektiv şəkildə əks etdirir. Azərbaycanda demokratik dövlət quruculuğu, demokratik təsisatların təkamülü prosesi dinamik şəkildə inkişaf edir və tarixi təcrübə göstərir ki, onun xüsusiyyətlərinin daha da formalaşması sahəsində mühüm dəyişikliklər nəzərə çarpır.

Demokratik təsisatların cəmiyyətdə qərarlaşması tələb edir ki, hər bir vətəndaş ölkədə getməkdə olan ictimai–siyasi proseslərə, demokratik dövlət quruculuğu işlərinə ölkəmizin vətəndaşları xüsusilə ziyalılar biganə qalmamalı, laqeydlik göstərməməlidirlər. Çünki dövlətin həyatında mühüm hadisə hesab olunan quruculuq işlərinin düzgün həyata keçirilməsi təkcə dövlətdə yaşayan hər bir vətəndaşın 257uğunu, sabahı üçün mühüm əhəmiyyət daşıyır.

1995-ci ildən sonrakı dövrü ümummilli lider Heydər Əliyev müstəqil dövlətimizin konstitusiya əsasında inkişaf edib mühüm nailiyyətlər qazandığını qürurla göstərmişdir. O, "Azərbaycan XXI əsrin və III minilliyin ayrıcında adlı müraciətində məhz bu məsələlərə toxunaraq demişdir: "Azərbaycanda müstəqil dövlətin təsisatlarının yaranması və dövlət quruculuğu prosesi l99-ci ildə böyük vüsət aldı və bunun əsasını da Azərbaycanın qəbul etdiyi ilk konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçilik möhkəmlənib, demokratik prinsiplər bərqərar olubdur. Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi uğurla, sürətlə həyata keçirilir."

**Ədəbiyyat**

1.Heydər Əliyev “Müstəqillik yolunda çıxışlar, məktublar, müsahibələr, müraciətlər”. Bakı 1997.

2. Heydər Əliyev. “Müstəqillik yolu” Seçilmiş fikirlər. Bakı 1997.

3.Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları. Azərbaycan qəzeti. 2003.

**İsmayilova A.**

**Summary**

It can be said different religious confessions will live in mutual respect and confidence in a republic in the future including appropriate state regulation.

Healthy atmosphere of Azerbaijan society depends on new, democratic principles very much

**Kamandari-Məmmədova Aygün Allahşükür qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan*

## AZƏRBAYCANLI MÜHACİRLƏRİN FƏALİYYƏTİNDƏ AZƏRBAYCANÇILIQ İDEYASI

***Açar sözlər**: Heydər Əliyev, Azərbaycançılıq ideologiyası, milli şüur, xaricdə yaşayan həmvətənlərimiz, mühacirət*

XX əsrin sonlarında Heydər Əliyevin müəllifi olduğu “Azərbaycançılıq” ideologiyası dünyanın bir çox ölkələrinə səpələnmiş azərbaycanlılar arasında milli birliyin yaradılması və təşkilatlanması prosesindəb geniş imkanlar yaratmış oldu. Öz milli-mənəvi dəyərlərini saxlamaqla, Qərbə inteqrasiya etməyə istiqamətləndirilən bu konsepsiya Dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsinin təməlini qoydu. Ulu öndərimiz tərəfindən irəli sürülmüş bu prinsip hər bir azərbaycanlının milli şüuruna, ictimai fəaliyyətinə hakim olan ideyaya çevrildi: “Biz azərbaycançılığı-Azərbaycan dilini, Azərbaycan mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” [5, 33].

Belə ki, müstəqillik yollarında ilk addımlarını atan hər bir dövlətin qarşısında dayanan həlli vacib məsələləri önə çəkərkən görkəmli siyasi xadim Heydər Əliyev milli birliyi, həmrəyliyi də xüsusi vurğulamışdı. Xarici siyasətin əsas tərkib hissələrindən biri

kimi dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birliyi, fəaliyyəti mühüm vəzifə kimi qarşıya qoyulmuşdu. Ulu öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə biri-birindən çətin, o dövrdə həyati əhəmiyyətli məsələlərin həlli üçün vacib olan xalqın birlik və həmrəyliyinin təminatı konsepsiyası hazırlanmışdı.

Bütün bu məsələlərlə yanaşı Heydər Əliyevin dövlət qurumlarının qarşısına qoyduğu vəzifələrdən biri də Azərbaycanın xaricdə təbliği və bu işə xaricdə yaşayan azərbaycanlıların yaxından cəlb edilməsi idi. Lakin təəssüf ki, SSRİ dağılana qədər xaricdə yaşayan həmvətənlərimizi eyni amal yolunda birləşdirə biləcək bir ideoloji zəmin yox idi. O, əsasını qoyduğu "Azərbaycançılıq" ideologiyasının yalnız Azərbaycanda deyil, həmçinin ölkəmizdən kənarda yaşayan həmvətənlərimizin də həyat fəlsəfəsinə çevirmək üçün əlindən gələni edirdi. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosiomədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir [4, 7]. Digər ideoloji meyllərdən fərqli olaraq, azərbaycançılıq hər bir azərbaycanlının milli özünüdərkinə, milli müəyyənliyinə, özünü digər toplumlardan fərqləndirməsinə geniş imkan vermiş olurdu. Uzun müddət vətəndən ayrı düşmüş və fərqli mədəni mühitə adaptasiya olmuş soydaşlarımızın vahid milli zəmində təşkilatlanması üçün Azərbaycançılıq ideologiyası çox mühüm amil idi [2, 24].

Müasir dünya yalnız iqtisadi, sosial-siyasi münasibətlər dünyası deyil, həm də etnik münasibətlər dünyasıdır. Odur ki, bu və ya digər xalqın ön sıralarda getməsi üçün tarixən qazandığı etnik potensialdan tələb olunan səviyyədə istifadə etməsi lazım gəlir. Belə ki, Azərbaycanın dövlətçiliyinin (müstəqilliyinin) XX əsrin əvvəlləri və sonlarında bərpa olunmasında siyasi mühacirlərimizin də böyük əməyi və xidmətləri olmuşdur [8, 280]. Məsələn, dünyanın bir çox ölkələrində eləcə də, ABŞ-dakı Azərbaycan icmaları yaxın keçmişdə - XX əsrin 20-ci illərində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və bolşeviklərin hakimiyyətə gəlməsindən sonra soydaşlarımızın bir hissəsinin Vətəni tərk etməsi nəticəsində yaranmışdı [1, 219].

Azərbaycan Avropa və Asiya qitələrinin qovşağında yerləşən ölkədir. Bizim sivilizasiya iki güclü qüvvənin təsiri altında formalaşmışdır. Şərq təməli və Qərb təsiri [4, 8]. Bu amillər Azərbaycan tarixində hər zaman müəyyən tarixi proseslərin bünövrəsinin əsas təməllərindən biri olmuşdur. XX əsrin 70-ci illərinin sonunda dünya siyasətində sağa doğru dönüş baş verdi. Mühafizəkar qüvvələr fəallaşdılar. Beynəlxalq

aləmdə baş verən sosial-siyasi dəyişikliklər SSRİ-nin və onun ideoloji təsiri altında olan sosializm sisteminin iflasına səbəb oldu. Sovet İttifaqının tərkibinə daxil olan milli respublikalar, o cümlədən Azərbaycan suveren dövlətə çevrildi. Baş vermiş hadisələr bu respublikaların ictimai həyatına təsirsiz qalmadı. Elmin müxtəlif sahələrində yeni-yeni mövzuların tədqiqat obyektlərinə çevrilməsinə səbəb oldu. Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra xarici əlaqələrinin genişlənməsi, sürətlənməsi nəticəsində bu sahənin tədqiqinə də maraq artmağa başladı. Müasir qloballaşma dövründə Azərbaycançılıq ideologiyasının dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafında da mühüm rol oynadığı nəzərə alınaraq onun araşdırılması zərurəti meydana gəldi. Belə ki, xaricdə yaşayan həmvətənlilərimizlə əlaqələrin sıx qurulmasında məhz Azərbaycançılıq məfkurəsinin siyasi-tarixi, eləcə də elmi-mədəni aspektdən araşdırılması dövlətimizin yürütdüyü xarici siyasət konsepsiyasında prioritet məsələlərdən biridir. Ümummilli liderimiz Heydər Əliyevin hələ 1969-1982-ci illərdə hakimiyyətdə olarkən xaricdəki soydaşlarımızla əlaqələrin inkişafına, onların təşkilatlanmasına xüsusi diqqət yetirən ulu öndərimiz müstəqil respublikaya rəhbərlik etdiyi ilk gündən "Azərbaycançılıq" ideyasının əsasını qoydu. Ulu öndər çalışırdı ki, harada yaşamasından asılı olmayaraq, bütün dünya azərbaycanlıları vahid ideologiya ətrafında birləşsinlər. O, soydaşlarımıza tarixi Vətənlə əlaqələrinin sıx qurulmasına dair öz dəyərli tövsiyələrini əsirgəmirdi. Heydər Əliyev deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və Azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" [3, 38]. Ulu öndərin bu müdrik sözləri Azərbaycan tarix elmində bu sahə üzrə tədqiqatları genişləndirmək üçün bir çağırış idi. XX əsrin 90-cı illəri XXI əsrin ilk on illiyində azərbaycanlıların xarici ölkələrə miqrasiyası bu sahənin tədqiqi üçün böyük imkanlar açdı. O, harada yaşamasından asılı olmayaraq, bütün dünya azərbaycanlıları vahid ideologiya ətrafında birləşmələrini xüsusilə vurğulamışdır: "Bütün azərbaycanlıların indi dünyada bir Vətəni var. O da müstəqil Azərbaycan Respublikasıdır. Bir dövləti var. Bu müstəqil Azərbaycan dövlətidir. Gəlin hamımız bu dövlətin, bu vətənin ətrafında sıx birləşək" [7].

Qədim dövrlərdən başlayaraq bu günə kimi Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sisteminin əsasında azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən

çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi bu siyasi baxış ilk öncə, dövlətimizin milli strategiyası ilə vəhdət təşkil edir. Belə ki onun "Mən fəxr edirəm ki, azərbaycanlıyam" sözləri uzun illər vətəndən uzaqda qürbət həyatı yaşayan soydaşlarımızın vətəndaşı olduqları dövlətin maraqlarını, mədəniyyətini, dilini, tarixini, problemlərini dünya ictimaiyyətinə çatdırmaq [6, 228-234] istiqamətində təşkilatlanmasına böyük dəstək olmuşdur.

**Ədəbiyyat**


1. Arzumanlı V. Azərbaycan Diasporu: reallıqlar, qayğılar, problemlər. Bakı, Qartal, 2001, s 800.
2. Arzumanlı V., Ağayev İ. Dünya azərbaycanlıları Konqresi. Dünən, bu gün, sabah. Bakı, 2007, s 188.
3. Azərbaycan Diasporu: böyük yolun başlanğıcı //Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi Bakı, Çaşoğlu, 2006., s 208.
4. Azərbaycan Diasporu Ensiklopedik məlumatlar toplusu. Bakı, "SƏS - 2012" MMC, 2012., s 654.
5. Dünya Azərbaycanlılarının I Qurultayı / red. Ramiz Mehdiyev. Bakı, Azərbaycan Nəşriyyatı, 2002, s 351.
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar /H.Əliyev İyirmi üçüncü kitab: noyabr, 1999-dekabr/bur.məsul R.Ə.Mehdiyev- Bakı: Azərnəşr, 2008-480 s.
7. Əliyev H.Ə. Dünya azərbaycanlıların həmrəylik günü münasibətilə müraciəti // «Rabitə dünyası» qəzeti 07 may, 2008-ci il. Bakı: 26 dekabr, 2000-ci il.
8. İsmayıl Musa. Azərbaycanın xarici siyasəti (dövlətlərarası münasibətlər və Azərbaycan aprel 1920 – oktyabr 1991-ci illər) Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2010, s 516.


**Kamandari Mammedova A.**

**SUMMARY**

**The idea of Azerbaijanism in the activity of Azerbaijani migrants**

In the present article, noticed that Azerbaijanism ideology was a very important factor for the activity and organization of our compatriots who had been separated from their homeland for a long time and adapted to different cultural environments on a single national ground Haydar Aliev tried that it didn't depend on where you lived, let all world fellow-countrymen join in the surroundings unique ideology of Azerbaijanisim.

**Камандари Маммедова А.**

**РЕЗЮМЕ**

**Идея азербайджанства в деятельности азербайджанских мигрантов**

В настоящей статье отмечено, что идеология азербайджанства является очень важным фактором в деятельности и организации наших соотечественников, которые долгое время были отделены от своей родины и адаптировались к различным культурным условиям. Гейдар Алиев стремился объединить всех азербайджанцев, независимо от стран их проживания, вокруг единой идеи азербайджансва.

**Fərəcbəyli Könül Tahir qızı**

*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## HEYDƏR ƏLİYEV MULTİKULTURALİZMİN SİYASİ BANİSİ KİMİ

***Açar sözlər:*** *multikulturalizm, xalqların mənəvi bərabərliyi, tolerantlıq, çoxmədəniyyətliliyin milli dəyərləri, mədəniyyətlər sistemi*

***Key words:*** *multiculturalism, spiritual equality of peoples, tolerance, national values of multiculturalism, system of civilizations*

***Ключевые слова:*** *многокультурность, духовное равенство народов, толерантность, национальные ценности мультикультурализма, система цивилизаций*

Ulu öndər Heydər Əliyevin xalqın təkidli və inadlı çağırışları ilə ikinci dəfə hakimiyyətə gəlməsi müasir Azərbaycan dövlətçiliyinin yaradılması ilə nəticələndi. Müdrik rəhbərin gərgin zəhməti sayəsində həyata keçirilən çoxistiqamətli dövlətçilik

layihələri cəmiyyətdə multikulturalizm və tolerantlıq kimi təməl prinsiplərinin mənəvi bünövrənin yaranmasına səbəb oldu. Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxşaxəli layihələr sırasında cəmiyyətin tolerantlığının və multikulturalizmin özünə layiqli yer tutması bizim fikrimizcə Heydərşünaslıq elminə layiqli töhfə oldu.

Bu dəyərlər hər şeydən əvvəl, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi əsasında hazırlanan Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Əsas Qanunun 25-ci maddəsində qeyd olunur: "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən... asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini... mənsubiyyətinə görə məhdudlaşdırmaq qadağandır" [ARK 1996, səh. 16].

Artıq hamıya məlumdur ki, multikulturalizm (ingilis dilindən çevrilmədə çoxlu mədəniyyətlər, yaxud çoxmədəniyyətlilik deməkdir) sosial-mədəni həyat tərzinin canlı nümunəsidir. Ölkəmizdə multikulturalizm, tolerantlıq, dini dözümlülüyünün dövlət siyasəti səviyyəsinə qaldırılıb inkişaf etdirilməsinin tarixi daha qədim dövrlərə təsadüf edir. Şərəfli və zəngin tariximizin uzaq, toranlı səhifələrinə nəzər yetirsək bir daha inanarıq ki, həm Səfəvilər dövləti, həm də XIX-XX əsrlərdəki mədəniyyət, maarifçilik tərəqqiləri, həm də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazilərində məskunlaşan Azərbaycan xalqı və digər etnik millətlər, tayfa və qrupların təmsilçiliyini öz dəyərlərində yaşadaraq bir siyasi həyat davranışı və həyat tərzi kimi təşəkkül tapmışdır. Lakin uzun bir müddət keçəndən sonra XX əsrin axırlarında Ümummilli Liderimiz Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideologiyasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Ulu Öndərimiz Heydər Əliyevin uzaqgörən və yetkin siyasətinin, səmərəli dövlətçilik fəaliyyətinin bəhrələri kimi keçən əsrin 90-cı illərində ölkəmizdə tolerantlıq və multikulturalizm dalğaları yenidən qabarmağa, canlanmağa başlamışdır. Ümummilli Liderimiz Heydər Əliyev hələ o zaman demişdir: "Tolerantlıq, dözümlülük, çox geniş anlayışdır. O həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox sahələrinə aiddir. O təkcə dinlərin bir-birinə dözümlülüyünü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərinə dözümlülük deməkdir" [H.Ə. siyasəti 2015, səh. 2].

Azərbaycan Respublikasını polietik dövlət səviyyəsinə qaldırıb inkişaf etdirən

Heydər Əliyev ideologiyası ölkəmizdə yaşayan bütün millətlərin, sayca kiçik xalqların da dostluğunu, birgə mehriban yaşayışını, milli-mənəvi beynəlmiləlçilik ruhunda yaşamaq, inkişaf etmək yoluna mayak kimi işıq tutmuşdur. Bu barədə danışmaq daha böyük siyasi əhəmiyyət kəsb edir, - ona görə ki, multikulturalizm təkcə azərbaycanlıların baş kitabında – konstitusiyasında təsbit olunan hüquqlarının qorunması ilə yekunlaşmır, ölkəmizdə yaşayan rusların, ukraynalıların, kürdlərin, lakların, ləzgilərin, slavyanların, tatların, gürcülərin, talışların hüquqi bərabərliyini, milli-mənəvi dəyərlərini, dini-etnik normalarına hörmət və ehtiramla yanaşır. Ulu Öndər Heydər Əliyevi multikulturalizmin siyasi banisi kimi xarakterizə edənlər haqlı olaraq qeyd edirlər ki, azərbaycançılıq ideologiyası çoxmədəniyyətliliyin əsas istiqamətlərini təşkil edərək Azərbaycan cəmiyyətinin mədəni, dini, etik müxtəlifliyini və rəngarəngliyini özündə əks etdirir. Bu yaşarı, bəşəri ideologiya, ən əsası fərqli, müxtəlif sivilizasiyaların da öz doğma adət və ənənələrini qoruyub saxlamağa, inkişaf etdirməyə münbit imkan və fəal şərait yaradır. Ulu Öndərin yaratdığı azərbaycançılıq ideologiyası – multikulturalizmin bir əsas çoxşaxəli, fəal qolu kimi separatçılığın zərərli, məhvedici meyllərinin aradan götürülməsinə, cəmiyyətdə iqtisadi, siyasi, mənəvi, hərbi böhranın dəf edilməsinə fundamental bir əks amil kimi güclü təsir göstərmişdir. 2016-cı ili multikulturalizm ili elan edən yenilməz Prezidentimiz İlham Əliyev "multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir" deməklə həmin ili tarixin səhifələrinə həkk etmişdir. Multikulturalizmin Azərbaycan modelinin strukturları artıq dünyanın bir çox ölkələrinə yaxşı məlumdur və tərəqqipərvər ölkələr tərəfindən rəğbətlə qəbul olunmuşdur. Ona görə ki, multikulturalizmin əsas tərkibi və onun öncül mütərəqqi ünsürləri milli-mənəvi dəyərlərin müxtəlifliyi, rəngarəngliyi, mənəvi billurluq, gələcəyə üz tutan zəngin həyat elementi ilə yaşayır, nəfəs alır. Prezident İlham Əliyevin siyasi baxışları və bu məsələyə uğurlu yanaşmaları konteksində multikulturalizm Azərbaycan cəmiyyətinin dolğun, mənalı təbiətini, rəngarəng milli-mənəvi dəyərlər toplusunu, ən əsası sivil dünya birliyinə inteqrasiyasını özündə əks etdirir. Prezident İlham Əliyev bu siyasi baxışlar konteksində demişdir: "Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir" [ İ.Ə. 2017, səh. 86].

Ölkəmiz üçün ağrılı problem olan Dağlıq Qarabağın və onun ətrafında olan

doğma və əzəli torpaqlarımızın erməni işğalçıları tərəfindən zəbt olunması məsələsidir. 25 ildən çoxdur ki, dəbə-baba torpaqlarımız yad və düşmən çəkmələri altındadır, - işğalçı Ermənistan yaratdığımız monoetik cəmiyyətimizdə çoxmədəniyyətli, tolerantlıq notları üzərində köklənən müasir, demokratik Azərbaycan modelinə mənəvi-maddi ziyanlar vurmaqda davam edir. Təsadüfi deyil ki, torpaqlarımızın azad edilməsi uğrunda gedən qanlı döyüşlərdə azərbaycanlılarla çiyin-çiyinə döyüşən etnik qrupların – kürdlərin, ləzgilərin, talışların nümayəndələri öz canlarından keçməyi belə əsirgəməmişlər. Bu məhz multikulturalizmə və tolerantlığa layiqli, həyati nümunədir.

Qeyd etmək daha vacib və önəmlidir ki, multikulturalizm adlanan həyat davranışı və onun bütün mənaları ilə ümumi anlayışı təkcə Azərbaycan vətəndaşlarının qanuna əsaslanan hüquqlarının tam bərabərliyi ilə həyata keçirilmir, həm də cəmiyyətdə artıq öz mövqeyini tutmuş dəyərlər toplusunu müxtəlif mədəniyyətlərin əlvanlığını əsl siyasi dolğunluğu ilə insanların münasibətlərinin konteksində münbit atmosferin təmin edilməsinə şərait yaradır.

Heydər Əliyevin multikulturalizmlə bağlı irəli sürdüyü mülahizələr və ideyalar müstəqil və müasir Azərbaycan dövlətinin quruculuğu dövründə təməl və bünövrə istiqamətlərindən sayılan azərbaycançılıq ideologiyası ilə üzvi surətdə bağlı olmuşdur. Ona görə ki, azərbaycançılıq ilk növbədə mənəvi, dini, etnik müxtəlifliliyi əsasında vahidlik toplusunun milli, siyasi predmetlərini formalaşdırır. Bu mütərəqqi, ümumbəşəri ideologiya ayrı-ayrı mədəniyyətlərin başqa mədəniyyətlərlə birləşib bir yerdə inkişafını dəyərli hesab edir. Həm də bugünkü cəmiyyətin pozulmaz mənəvi amillərinin uzun ömürlülüyünü bir daha təsdiqləyir. Azərbaycançılıq ölkəmizin yeni quruculuq dövrü üçün dövlət prinsipləri və dövlət maraqları naminə bir-birindən fərqlənən sivilizasiyaların, yəni dinlərin başqa-başqa ictimai birliklərin özünə məxsus olan prinsiplərini qoruyub saxlamağa inamlı imkanlar yaradır. Sınaqlardan çıxmış, qəbul olunmuş bütöv bir ideologiyadan bəhrələnərək daim üzdə olur və bu normalar daxilində inkişaf edir, öz tərəqqisini genişləndirir.

Azərbaycanın artıq bu sahədə topladığı ictimai-siyasi səriştə və təcrübədən çıxış edərək qətiyyətlə demək olar ki, keçirilən beynəlxalq tədbirlərə başçılıq etməsi, tolerantlıq və sivilizasiyalararası aktual mövzularla bağlı elmi-nəzəri forumlar, dialoqlar və bu mövzuda elmi-kütləvi mərasimlərin geniş vüsət almasına rəğmən

Prezident İlham Əliyev demişdir: "Multikulturalizm Azərbaycanda dövlət siyasəti və həyat tərzidir. Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir".

Hələ 2016-cı ildə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri vəzifəsini icra etdiyi dövrdə akademik Kamal Abdullayev bu məsələyə münasibət bildirərkən demişdir: "Bu gün Azərbaycan multikulturalizm siyasəti və bu sahədəki uğurları ilə dünyanın bir çox ölkələrinə, o cümlədən zəngin təcrübəsi ilə tanınan Qərb ölkələrinə nümunədir. Qətiyyətlə demək olar ki, Azərbaycan multikultralizmi ölkəmizi siyasi simasının əsas cizgilərindən birinə çevrilib. Azərbaycan multikultralizminin siyasi banisi Ümummilli Liderimiz Heydər Əliyev elə məhz bunu istəyirdi" [Abdullayev 2015, səh. 12].

Multikulturalizm əslində millətlərarası, dinlərarası qarşılıqlı münasibətləri bir-birinə uyğunlaşdıran, həm də elmi cəhətdən də tənzimləyən bir sahə kimi xarakterizə olunur, desək yanılmarıq. Sevindirici haldır ki, bu vacib sahədə bizdə artıq başqa ölkələrə yaxşı nümunə sayılacaq səriştə və təcrübə yığılıb, çoxalıb, - artıq gündən-günə öz inkişafını daha da genişləndirməkdədir. Multikulturalizm mədəniyyəti diqqətləri və elmi araşdırmaları özünə cəlb edən bir hədəf kimi artıq fəlsəfi obyekt ifadəsinə yiyələnmişdir. Bu baxımdan öz fəaliyyət istiqamətlərində toplum və dolğun mahiyyətlər, ifadələr bütün çalarları ilə bir-birini tamamlayır. Həm də siyasi dolğunluqla ehtiva edir – konseptual məzmun kimi... Həm də ən əsası insanların, millətlərin özünüdərkini öz məzmun və mahiyyətində bir daha inamla şərtləndirir. Bəli, milli kimlik, ana dili, adət və ənənə, milli əxlaq davranışı həmişə əsas kimi qəbul edilir. Mənəvi dəyərlər toplusu olaraq soykökünə ethiram və hörmət amilləri kimi dəyərləndirilir. Çoxmədəniyyətliliyin bir müstəvisi də bir yerdə yaşayan, çoxlu sayda olan xalqların, millətlərin özlərinə məxsus əsas dəyərlərinin daşıyıcılarını, - quruculuq və yaradıcılıq prinsipləri əsasında yaşatmaqdan, inkişaf etdirməkdən ibarətdir. Belə bir inkişaf və tərəqqi sistemində yaşayan milli-mənəvi dəyərlərin elementlərinin həyatı və ömrü səmərəli və zəngin olur. Multikulturalizm fikri, düşüncəsi, dərin fəlsəfi-elmi fəaliyyəti ilə dünyaya uğurlu mədəniyyət potensialı əsasında siyarət edir ki, bunu bugünki müasir, müstəqil Azərbaycanımızın ictimai-siyasi-mədəni simasında aydın görmək olar.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin multikulturalizmin Azərbaycan modeli haqqında, RCP "Oliqrof" MMC, Bakı, 2017
2. Azərbaycan Respublikasının Konstitusiyası, "Azərnəşr", 1996
3. Heydər Əliyev siyasəti: Tolerantlıq, Çıxışlar, Nitqlər, Görüşlər, Təbriklər. Bakı,"Elm və Təhsil" nəşriyyatı, 2015
4. Kamal Abdullayev "Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası", Bakı, "Mütərcim", 2015

Faracbayli K.

**SUMMARY**

**Heydar Aliyev as a political founder of multiculturalism**

Poly-cultural ideas of Haydar Aliyev, the state-builder of independent and modern Azerbaijan, are analyzed in the field of multiculturalism I n the article. The values on generating integral national political association are foregrounded on civic, religious and ethnic many-colored bases.

In the saying of Ilham Aliyev, the President of the Republic of Azerbaijan, the multiculturalism traditions which are relatively new words in our lexicon have been existed for centuries. Although naming variously, it contains the immutable essence. In the article the situations of this essence are explained.

**Фараджбейли К.**

**Резюме**

**Гейдар Алиев как политический основатель мультикультурализма**

В статье анализируется идеи, выдвинутые строителем современного Азербайджанского государства Гейдаром Алиевым в области мультикультурализма. На первый план выдвигаются ценности формирования единого национально- политического сообщества на почве культурного, религиозного, этнического разнообразия азербайджанского народа.

По словам Президента Азербайджанской Республики Ильхама Алиева, многие века в Азербайджане существовали традиции мультикультурализма, являющегося

новым словом в нашем лексиконе. Хоть и называлось по-разному, мултикультурализм все же сохранил свою неизменяемую сущность.

**Mehdixanov Rəsul Qərib oğlu**
*DİN Daxili Qoşunların Akademiyası, Azərbaycan*

## MÜSTƏQİL AZƏRBAYCANDA MİLLİ AZLIQLAR VƏ MULTİKULTURALİZM

***Açar sözlər:*** *zəngin, müxtəliflik, milli, fədakar*
***Key words:*** *rich, diversity, national, selfless*
***Ключевые слова:*** *богатый, многогранный, национальный, самоотверженный*

Hər bir xalqın öz adət-ənənəsi, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr edirik, bizim xalqımız yüz illərlə adət-ənənələrimizi, milli mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir (H.Əliyev).

Azərbaycan xalqını vahid ideologiya ətrafında birləşdirən onun zəngin mədəniyyəti mənəvi dəyərləri, adət ənənələridir. Bu ənənələr mədəni irsimiz qanuni əsaslarla qorur Bu əsaslar 1995-ci il 12 noyabr tarixdə qəbul edilmiş Konstitusiyamızda öz əksini tapdı. Konstitusiyanın qəbulu ilə Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi qanuni əsasları qoyuldu. Qəbul edilmiş konstitusiyamızda qeyd olunur.

Azərbaycan xalqının və dövlətinin ən ali mühüm məqsədləri Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməkdir.

Odur ki, Azərbaycan Respublikası demokratik ruhda qeyd olunan məqsədə çatmaq üçün əməli tədbirlər görməkdədir. Azərbaycan çoxmillətli bir dövlətdir. Burada bir çox xalqların nümayəndələri yaşayır və fəaliyyəti göstərir. Azərbaycanda yaşayan etnik qruplar siyasi-hüquqi terminlərdə «Milli azlıq» kimi şərh edilir. Bu qruplar etnososial, xüsusi etnik etnopsixoloji, dil və dini əlamətlərə malikdir. Müasir dövrdə bu etnik qruplar

xüsusi əlaqələr irqi və fiziki yaxınlıq, ortaq ənənələr, din mədəni dərketmə, ailə-nigah münasibətlərinə daha çox rast gəlinir.

Beynəlxalq hüquqi azlıqda qalma anlayışı 1560-1648-ci illərdə baş verən protestant-katolik qarşıdurması ilə ortaya atılmışdır. Bu qarşıdurmada çoxlu sayda insanlar həyatın itirmişdilər. Həmin hadisələrdən sonra etnik sözü latın dilində təkcə, xarici mənasında işlədilmişdir.

Milli-azlıqlar müxtəlif xalq və millətləri təşkil edən etnik birlikdən ayrılmış, etnik proseslər zamanı xüsusi forma və məzmun kəsb etmiş, ayrıca etnik qurumlardan ibarətdir. Hər bir etnik azlığın öz dili, adət-ənənəsi və mənəvi birliyi mövcuddur. Etnik qruplar müəyyən bir ərazidə kompakt halında yaşayırlar. Azərbaycanda da etnik azlıqlar üçün səciyyəvi bir sıra xüsusiyyətləri vardır və bu da onların başqa xalq və millətlərlə qaynayıb qarışmasına heç də təsir göstərə bilməz. Bununla yanaşı etnik azlıqlar tarixən həyatda baş verən proseslər nəticəsində bütünlüklə özlərinin adət-ənənələrini, etnik əlamətlərini qoruyub saxlayır və regionda yaşayan qonşu xalq və millətlərdən də müəyyən əlamətləri və xüsusiyyətləri özündə birləşdirir.

Milli azlıqlar dedikdə bu və ya digər ölkələrdə, dövlətlərdə, respublikalarda yaşayan, o ölkənin və ya Respublikanın əhalisinin çoxunu təşkil edən millət və xalqdan sonra azlıqda qalanlar nəzərdə tutulur. Azərbaycan Respublikasında yaşayan ruslar, malakanlar, ukraynalılar, gürcülər, tatlar da milli azlıqlar hesab olunurlar. Müasir dövrdə də dünyanın müxtəlif ölkələrində elə xalqlar yaşayır ki, onlar tarixən özlərini həmin ölkənin və ya Respublikanın yerli xalqları hesab edir və əhali tərkibinin sayından asılı olmayaraq, kompakt halında bir ölkədə, bir respublikada konkret ərazidə məskunlaşırlar. Ona görə də belə xalqlar bu və ya başqa ölkədə, Respublikada yaşayan azsaylı xalqlar kimi tanınılır və qəbul edilir.

Bütün ictimai cəmiyyətdəki etnik-mədəni müxtəllifliyin qorunmasını yüksək dəyərləndirən Ümumilli lider Heydər Əliyev qeyd edirdi ki, "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir".

Milli azlıqların qısa xarakteristikası ilə yanaşı, son dövrlər dünyanın ictimai-siyasi sosial-mədəni həyatına nüfuz edən multikulturalizm anlayışı milli azlıqlar problemini Azərbaycanda və digər ölkələrdə öyrənir və yayır. Deməli Multikulturalizm milli-dini, irqi və mədəni fərqliyin qarşlıqlı münasibəti və anlaşma zəminində qəbul edilməsi,

cəmiyyətin bütün üzvlərinin konstitusiya aktına uyğun qorunması, xalqların ümumi rifahına, sabit inkişafına xidmət etməsinə nail olan təbii və düşünülmüş həyat tərzinin nəticəsi kimi başa düşülməlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda multikulturalizm xalqımızın həyat tərzi kimi ifadə edilir.

Ümummilli lider Heydər Əliyev kursunu ləyaqətlə davam etdirən prezident İlham Əliyev milli mənəvi dəyərlərin inkişafı və qorunub saxlanması yolunda böyük fədakarlıq göstərir.

## Ədəbiyyat


1. Niyaz Niftiyev: Azərbaycanda birgə yaşayış və Multikulturalizm. Bakı, 2015.
2. R.Mirzəzadə. Multikulturalizm siyasəti. Din və Gender dialoqunda. Bakı, 2013.
3. Azərbaycan tarixi. !eddicildlik. 7-ci cild, Bakı, Elm, 2003.



**Mehdixanov R.**


**Summary**

**NATIONAL MINORITIES AND MULTICULTURALIZATION IN INDEPENDENT AZERBAIJAN**


Historically, national minorities, ethnic and ethnic identities are regulated by the principles of multiculturalism for captives in Azerbaijan.



**Мехдиханов Р.**


**Резюме**

**НАЦИОНАЛЬНЫЕ МЕНЬШИНСТВА И МУЛЬТИКУЛЬТУРАЗМ В НЕЗАВИСОМ АЗЕРБАЙДЖАНЕ**


Исторически в Азербайджане.национальные меньшинства, этническая идентичность регулируются принципами мультикультурализма.

**Qasımov Novruz Adil oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Unversitetinin Şamaxı filialı, Azərbaycan*

**MÜASİR AZƏRBAYCAN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ**

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Heydər Əliyev, Xarici siyasət, Beynəlxalq münasibətlər*

***Key wods:*** *Azerbaijan Respublic, Heydar Aliev, Foreign policy, İnternational relations*

***Ключевые слова:*** *Азербайджанская Республика, Гейдар Алиев, внешняя политика, международные отношения*

SSRİ-nin süqutundan sonra 1991-ci ildə müstəqillik əldə edən Azərbaycan Respublikası beynəlxalq münasibətlərin müstəqil iştirakçısına çevrilmişdir. Dünyanın supergüclərinin maraqlarının kəsişdiyi bir regionda yerləşən Azərbaycan Respublikasının müstəqilliyinin davamlı olaraq təmini üçün beynəlxalq dəstəyə böyük ehtiyacı olduğundan dayanaqlı xarici siyasət strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi tələb olunurdu.

Müasir Azərbaycanın müstəqilliyinin yarandığı ilk günlərdən üzləşdiyi çətinliklərlə 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin üzləşdiyi çətinliklər arasında çox oxşarlıqlar olmuşdur.Bunu qısaca olaraq nəzərdən keçirmək yerinə düşərdi.Hər şeydən öncə onu qeyd etmək lazımdır ki, 1918-ci ilin may ayında yaranan Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini qoruyub saxlamaq üçün qısa zaman kəsiyində çevik xarici siyasət yürütmüş, dünya dövlətləri ilə diplomatik əlaqələr qura bilmişdir. Həmin dövrdə azərbaycan müsəlman-türk xalqını fiziki baxımdan məhv etməyi qarşılarına məqsəd qoymuş anti-milli daşnak-bolşevik qüvvələri Azərbaycan dövlətinin mövcudluğunu təhdid edən əsas real qüvvələr idi. Erməni silahlı dəstələri türk-müsəlman xalqına amansız divan tuturdular.1918-1920-ci illərdə ermənilər yalnız Zəngəzur qəzasında 115 Azərbaycan kəndini əhalisi ilə birgə məhv etmişdilər.

Azərbaycan türk xalqını soyqırıma məruz qoyub onların əzəli dədə-baba torpaqlarına sahib çıxmaq istəyən erməni daşnak-bolşevik qüvvələrindən qoruyacaq yeganə qüvvə isə qardaş Türkiyə dövləti olmuşdu.Xalqımıza həmin ağır günlərdə

ehtiyacı olduğu hərbi dəstəyi verən və müstəqilliyimizi ilk tanıyan dövlət Türkiyə olmuşdu.1918-ci il iyunun 4-də Türkiyə dövləti ilə Azərbaycan dövləti arasında bağlanmış müqavilənin 4-cü bəndində ölkəmizin təhlükəsizliyini təmin etmək üçün ehtiyac yaranarsa Osmanlı Türkiyəsi Azərbaycan xalqına hərbi yardım göstərməyi öz üzərinə götürürdü.

İqtisadi vəziyyətin ağırlığı və maddi resursların yoxluğu milli hökumətin fəaliyyətini çətinləşdirirdi.Bu baxımdan Bakı-Batum neft kəməri ilə əlaqədar olaraq Azərbaycan-Gürcüstan-Türkiyə arasında imzalanmış müqavilə ölkə üçün mühüm iqtisadi-siyasi əhəmiyyət kəsb edirdi.Bu neft kəmərinin işə düşməsi ölkənin zəngin neft ehtiyatlarını dünya bazarına çıxarmağa imkan verirdi.Lakin təəssüflər olsun ki, dünya müharibəsindən məğlub çıxan Türkiyə dövləti qalib dövlətlərin diktəsi ilə öz hərbi qüvvələrini Azərbaycandan çıxarmaq məcburiyyətində qaldı.Bu isə hər zaman yaranmış əlverişli fürsətdən xalqımıza qarşı istifadə edən düşmən erməni qüvvələrinə azərbaycan torpaqları hesabına Böyük Ermənistan yaratmaq kimi arzularını reallaşdırmaq üçün geniş imkanlar açmış oldu.Belə gərgin tarixi bir şəraitdə milli hökumət ölkənin suverenliyini qorumaq üçün çevik xarici siyasət yürüdərək Paris Sülh Konfransına qatılmaqla burda iştirak edən dünya dövlətlərindən milli təhlükəsizlik üçün beynəlxalq təminat almağa çalışırdı.Nəhayət 1920-ci il Paris Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin gərgin əməyi sayəsində yanvarın 15-də dövlətin müstəqilliyi de-fakto olaraq tanındı.Lakin bu Azərbaycanı gözlənilən təhlükədən qurtarmadı.Türkiyənin müharibədən məğlub çıxması,Qərb dövlətlərinin öz məkrli planları üzündən azərbaycana lazım olan dəstəyi verməmələri, digər tərəfdən ölkə daxilində gərginliyin artması fonunda bolşeviklərin fəallaşması müstəqilliyimizin davamlı olmasına imkan vermədi.

Bu dəfə də XX əsrin sonunda reallaşan müstəqilliyimiz və milli təhlükəsizliyimiz üçün əsas təhlükə dədə-baba torpaqlarımızda özlərinə dövlət quran erməni xalqından gəldi.

Azərbaycan Respublikası sovetlər birliyində müstəqil deyil SSRİ-nin xarici iqtisadi əlaqələri vasitəsilə əsasən də sosialist və inkişaf etməkdə olan ölkələrlə beynəlxalq münasibətlərdə iştirak etmişdir.Sovet imperiyasının süqutundan sonra 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi əldə edən Azərbaycan Respublikası artıq sərbəst surətdə diplomatik əlaqələr qurmağa başladı.Yarandığı zamandan hərbi təcavüzə və işğala məruz qalan bu gənc dövlət qarşısında yeni müstəqil xarici siyasət kursunun

formalaşdırılması və uğurla həyata keçirilməsi kimi mühüm məsələ dururdu.Bu xarici siyasət kursunun əsas prioritet istiqamətləri ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, hərbi təcavüzün aradan qaldırılması, milli təhlükəsizliyin təmin olunması, region və dünya dövlətləri ilə diplomatik əlaqələrin yüksək səviyyədə qurulması və inkişaf etdirilməsi, regionda və dünyada baş verən proseslərdə yaxından iştirak etmək, ölkənin haqq işini beynəlxalq təşkilatlarda müzakirəyə çıxartmaq, beynəlxalq qurumlara inteqrasiya etmək kimi məsələlər təşkil edirdi. Bunları həyata keçirmək üçün daxili siyasi sabitliyin olması əvəzinə, tam əksinə ölkəmiz xarici təzyiqlər və daxili çəkişmələr nəticəsində yaranan vətəndaş qarşıdurması ərəfəsində idi.1993-cü ilin iyununda Azərbaycan parçalanma qarşısında,faciə qarşısında idi.Vətəndaş müharibəsi baş vermişdi.O vaxt xalqın dəvəti ilə yenidən Azərbaycana qayıdan Ulu Öndər Heydər Əliyev vətəndaş müharibəsinin qarşısını almağa nail oldu [Əliyev,1998,439)]. Belə bir ağır gündə siyasi hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev daxili və xarici düşmənlərə qarşı amansız mübarizə apararaq nəinki vətəndaş müharibəsinin qarşısını aldı, eyni zamanda, öz xalqını dövlət müstəqilliyinin qorunması, onun siyasi, iqtisadi,mədəni baxımdan inkişaf etdirmək kimi ümumi amal, məqsəd uğrunda mübarizə yolunda birləşdirə bildi, ölkənin xarici siyasi kursunda köklü və əməli dəyişikliklər etdi.Təbiki, hər bir dövlətin yürütdüyü xarici siyasət onun daxili siyasəti ilə uzlaşmalıdır . Dövlətin qüdrəti onun hərbi, siyasi, iqtisadi, xalqın mənəvi-psixoloji gücü ilə hesablanır.Siyasi sabitliyin, iqtisadi yüksəlişin əldə olunmasında uğurlu xarici siyasət əvəzsiz rola malikdir.Həyata keçirilən yeni xarici siyasət dünyanın aparıcı dövlətlərinin iqtisadi və siyasi maraqlar sisteminə daxil olan müstəqil Azərbaycan dövlətinə öz təhlükəsizliyi üçün etibarlı beynəlxalq təminat qazanmağa imkan verdi [Həsənov,2005,188].

Həyata keçirilən uğurlu diplomatiyanın təntənəsi olaraq ölkəmiz nəinki beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxdı bununla bərabər bədnam qonşumuz Ermənistanın fəal təbliğinə baxmayaraq Azərbaycanın erməni təcavüzünə məruz qalması,20% torpaqlarımızın işğal olunması nəticəsində milyona yaxın soydaşımızın öz dədə-baba yurdlarından qaçqın düşməsi kimi həqiqətlər beynəlxalq aləmə qəbul etdirildi.Ölkəmizin müstəqillik yolunda uğurlu inkişafını təmin etmək üçün ilk növbədə onu müharibə vəziyyətindən çıxarmaq lazım idi. Bu yöndə aparılan danışıqlar nəticəsində 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan Respublikası arasında atəşkəs əldə olundu və

bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı.Atəşkəsin əldə edilməsi nəticəsində yaranmış vaxtdan uğurla yararlanan Ulu Öndər Heydər Əliyev bütün diqqəti ölkədə dövlət quruculuğuna, ictimai-siyasi və iqtisadi sabitliyin yaradılmasını təmin edəcək siyasi işlərin həyata keçirilməsinə yönəltdi.

Xarici iqtisadi siyasət Azərbaycanın beynəlxalq aləmdəki fəaliyyətinin tərkib hissəsi olmalıdır.Bu isə vahid xarici siyasət xətti çərçivəsində milli mənafelərin beynəlxalq aləmdə dövlətin nüfuzunun qorunmasını və qüdrətinin artırılmasını nəzərdə tutur [Qasımov,Abdullayev,1999,26].

Azərbaycanın regionda nə dərəcədə vacib rol oynadığı Amerikalı alim Z.Bjezinskinin fikirlərində də öz əksini tapmışdır.O, etiraf edirdiki, Azərbaycan ərazisinin kiçik və əhalisinin sayca az olmasına baxmayaraq sahib olduğu enerji sərvətləri ilə geosiyasi planda həlledici əhəmiyyət kəsb edir.

Müstəqillik əldə etdikdən sonra ölkə üçün vacib məsələ Azərbaycan neftinin dünya bazarına çıxarılması idi.Bu yolda isə başlıca əngəl Rusiya idi.Belə vəziyyətdə ölkənin mövcudluğu sual altında idi.

Azərbaycan diplomatiyasının xarici siyasətdə reallaşdırdığı, ölkəmiz üçün həyatı əhəmiyyətə malik olan nəhəng layihələrdən biri neft strategiyasıdır. Bakıda 1994-cü ilin sentyabr ayında Azərbaycanla dünyanın müxtəlif neft şirkətləri arasında “ Əsrin müqaviləsi” adlanan neft kontraktı imzalandı. 1994-ci ilin 20 sentyabrı Azərbaycan tarixinin ən parlaq səhifələrdən biridir.O bizim nəzəri olaraq hazırlanmış neft strategiyamızın əməli surətdə həyata keçirilməsinin əsasını, başlanğıcını qoydu.[Əliyev,2011,275].Bu və sonralar bağlanmış neft müqavilələri ölkəmizin dünya dövlətlərinə inteqrasiyasını daha da sürətləndirərək, onun beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi. Azərbaycan dünyanın əsas neft-qaz ixracatçısı olan ölkələrdən birinə çevrildi.Bunun nəticəsində əvvəllər iqtisadi cəhətdən iflic vəziyyətində olan Azərbaycan Respublikasının büdcəsinə böyük pulların axınını təmin etdi. Bu da öz növbəsində ölkədə iqtisadi sabitliyin yaranmasına,tənəzzülün qarşısının alınmasına, inflyasiyanın aşağı düşməsinə,əhalinin sosial rifahının yaxşılaşmasına səbəb oldu. İqtisadi qüdrət hərbi-siyasi gücə səbəb olur. “ Əsrin müqaviləsi” Azərbaycanın XXI əsrə siyasi və iqtisadi sıçrayışı oldu.

Bu uğurun mürəkkəb və çətin sədlərin, xarici və daxili təzyiqlərin dəf edilməsindən sonra əldə olunması böyük qələbədir. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına maneəsiz çıxarılması məqsədilə, qaynar nöqtələrdən biri olan Cənubi Qafqazda böyük sərmayələr hesabına başa gələn Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi - Ərzurum qaz kəmərinin çəkilişi kimi geosiyasi layihələrin reallaşması Azərbaycan diplomatiyasının qələbəsi idi.

Sovetlər birliyi ilə birgə dağılan nəqliyyat əlaqələrinin yenidən qurulması ölkəmiz üçün həyatı əhəmiyyətli idi.Ümummilli liderimiz uğurlu xarici siyasət həyata keçirməklə "Tarixi İpək yolunun" bərpası ideyası xəyallardan reallığa çevrildi [İsakov,2011,9].Məhz bu reallıq ölkəmizin geosiyasi və geostrateji əhəmiyyətini artıraraq, onu Şərqlə Qərb arasında körpü rolunu oynayan tranzit dövlətlərdən birinə çevirmişdir. Müasir dövrün qlobal proqramı olan bu layihə Cənubi Qafaz, Mərkəzi Asiya və Avropa dövlətlərinin daha sıx əməkdaşlığı deməkdir.TRASEKA proqramının həyata keçirilməsi üzrə ən mühüm addım 1998-ci il sentyabrın 7-8-də Bakıda 9 ölkənin dövlət başçısı, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndələrinin iştirakı ilə keçirilən konfransda "Avropa-Qfqaz-Asiya" nəqliyyat dəhlizinin inkişafı üzrə "Bakı bəyannaməsi" nin qəbul olunmasıdır.Belə layihələr bölgəyə sülh, siyasi sabitlik və iqtisadi dirçəliş gətirir.

Ümummilli lider 1994-cü il mayın 4-də Brüsseldə, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalamaqla Azərbaycan Respublikasının xarici siyasətində yeni prioriteti – Avroatlantik məkana inteqrasiya siyasətini müəyyənləşdirdi[Heydər Əliyev İrsini Araşdırma Mərkəzi,2009,11].Bu əməkdaşlıq regionda sabitliyin yaranmasına, ölkəmizin demokratik Qərb dünyasına yaxınlaşmasına, onun zəngin təcrübəsindən bəhrələnmək, elm-texnika sahəsində əldə etdikləri ən son texnologiyaların alınaraq ölkəmizdə tətbiqinə, NATO dövlətlərinin qüvvələri ilə uzlaşan hərbi əməliyyat qüvvələri yaratmaq imkanı verirdi.Hər şeydən əvvəl ölkəmizin ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə bu təşkilat öz töhvəsini verə bilərdi.Artıq növbəti illərdə belə mötəbər təşkilatın rəsmi sənədlərində Azərbaycan Respublikasının ərazi bütövlüyü öz təsdiqini tapır.Əməkdaşlığın əsas sahələrindən biri silahlı qüvvələr üzərində demokratik nəzarətin yaradılması,müdafiə büdcəsinin formalaşdırılması, silahlı qüvvələrin strukturlarının NATO-nun standartları əsasında yenidən qurmaq daxildir.

Azərbaycan cəmiyyətinin Avropa Şurasına inteqrasiyası ciddi hüquqi və siyasi islahatların həyata keçirilməsi nəticəsində reallaşmışdır [Suleymanov,2011,10].

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında imzalanmış ticarət, sərmayə, qanunvericilik, iqtisadiyyat, mədəniyət sahəsində əməkdaşlığı nəzərdə tutan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ölkəmizin beynəlxalq sülhü və təhlükəsizliyi, insan hüquqlarını qorumaq və bu kimi digər sahələrdə səmərəli əməkdaşlığa nail olmaq üçün baza rolunu oynayır.

Yuxarıda qeyd etdiyimiz kimi xarici siyasət daxili siyasətin davamıdır.Xarici siyasətdə Avropa Şurasına inteqrasiya xətti tutmağımız ölkə daxilində hüquqi-demokratik dövlət quruculuğu sahəsində, azad bazar iqtisadiyyatına keçidin təmini üçün iqtisadi sahədə aparılan köklü islahatların, irqindən,dinindən cinsindən asılı olmayaraq bütün ölkə vətəndaşlarının hüquqlarını qoruyacaq və demokratik dəyərlərin bərqərar olması üçün qanunvericilik sisteminin tam yenilənməsi, məhkəmə islahatlarının aparılması daha da sürətləndi.Bütun bunlar ölkəmizi siyasi-iqtisadi sabitliyə qovuşdurduğu kimi, eyni zamanda beynəlxalq aləmdə demokratik bir dövlət imici yaratmaqla mövqeyimizi daha da möhkəmləndirdi.

Görülən bu tədbirlərin nəticəsi idiki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də baş tutan iclasında ölkəmizin Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi haqqında qərar qəbul olundu və bunun ardınca 25 yanvar 2001-ci ildə Strasburqda Avropa Şurasının binası önündə Azərbaycan Respublikasının dövlət bayrağı ucaldıldı. Beləliklə, Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq üçün Avropa Şurasının mötəbər tribunasından istifadə etmək imkanı qazanıldı.Azərbaycan diplomatiyasının qazandığı növbəti uğur bu beynəlxalq qurumun rəsmi sənədlərində ilk dəfə olaraq Dağlıq Qarabağın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması faktı öz əksini tapdı.

Ölkəmizin yürütdüyü xarici siyasətdə dünyanın hegemon dövləti olan Amerika Birləşmiş Ştatları ilə əməkdaşlığın inkişafına mühüm önəm verilirdi.”Əsrin müqaviləsində investisiya payının 47%-nin ABŞ şirkətlərinə məxsus olması təsadüfi deyildi.İqtisadi əməkdaşlığın siyasətlə sıx bağlı olduğunu bildirən Ulu Öndər Heydər Əliyev məhz bu yolla Amerikanın bu bölgədə strateji məqsədlərinin möhkəmlənməsi üçün əsas yarandığını qeyd edirdi.Onun 1997-ci il iyulun 31-də etdiyi Vaşinqton səfəri iki ölkə arasında olan münasibətlərin inkişafına öz töhvəsini verdi.Bu səfər qarşısında

ABŞ-ın siyasi dairələrində, Dövlət Departamentində,Konqresdə və Senatda Azərbaycanın liderə çevrilməkdə olduğu Xəzər hövzəsi qızğın müzakirələr mövzusuna çevrildi[Andriyanov,Mirələmov,2008,421]. C.Buşun hakimiyəti illərində bu münasibətlər daha da gücləndi.ABŞ prezidentinin öz çıxışında ABŞ-ın qlobal enerji təhlükəsizliyini təmin etməyə və Azərbaycan xalqı üçün firavan,dinc gələcək qurmağa yardım etməyə hazırdır deməsi diplomatiyamızın növbəti uğurlarından idi.

Azərbaycan dövləti regionda siyasi sabitliyin bərqərar olması üçün qonşu dövlətlər olan Türkiyə, Rusiya, Gürcüstan, İran ilə münasibətlərin sıx əməkdaşlığa keçməsi üçün böyük işlər görmüşdür.Gürcüstanla qarşılıqlı münasibətlərin yüksək səviyyədə qurulmasına xüsusi önəm verilirdi.Bu yalnız iqtisadi maraqlardan deyil, həmdə Gürcüstanda yaşayan yarım milyondan çox soydaşlarımızın təhlükəsizliyinin təmini məqsədi güdürdü. Bu məqsədlə 1996-cı ildə Qafqazda sülh və sabitlik haqqında Azərbaycan-Gürcüstan Bəyannaməsi imzalandı. [Babaoğlu,2009,183]

İran İslam Respublikası ilə münasibətləri normal məcraya yönəltmək də vacib məsələ idi.Ermənistan özü etiraf edirdiki,İranla iqtisadi əlaqələr iki günlüyə kəsilərsə Ermənistan məhv olar.Bizim İran ilə əlaqələrimiz çox qədim tarixə malikdir.Burda əsas məqsəd sərhədlərimiz boyu mehriban qonşuluq zolağı yaratmaqla milli təhlükəsizliyimizi daha güclü təmin etmək idi.Təəssüfki, Ermənistanın işğalçılıq siyasətindən əl çəkməməsi bu siyasətin tam olaraq baş tutmasına imkan vermir.

Türkiyə və bütövlükdə türk dünyası ilə əlaqələrin təşəkkülü və inkişafı uğrunda sistemli işlər görülmüşdür.Türkiyə 1918-ci ildə olduğu kimi birinci olaraq Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il noyabrın 9-da tanıdı, 1992-ci il yanvarın 14-də diplomatik münasibətlər qurdu [Qasımov, Abdullayev,1999,91]. Ulu Öndər Heydər Əliyevin Qardaş Türkiyə dövlətinə 1994-cü ilin fevralında 4 günlük səfəri zamanı dostluq və əməkdaşlıq, siyasi-iqtisadi münasibətlər sahəsində mühüm sənədlər imzalandı. Türkiyə dövlətinə müntəzəm xarakter alan rəsmi və işgüzar səfərlər iki qardaş ölkə arasında olan münasibətlərin inkişafını yüksək məcraya yönəltdi. Azərbaycan-Türkiyə münasibətlərinin bütün dövürləri öz aktuallığını heç zaman itirməyəcək.”Biz bir millət iki dövlətik”[Andriyanov, Mirələmov, 2008, 415]. Hazırda Türkiyə Azərbaycanın ən etibarlı müttəfiqidir.

Xarici siyasət sahəsində aparılan işlərdən biri də başda Rusiya olmaqla MDB dövlətləri ilə münasibətləri yenidən qurmaq və inkişaf etdirmək olmuşdur.Çünki

Azərbaycan bu dövlətlərlə birgə Sovetlər İttifaqının tərkibində vahid siyasi-iqtisadi və ideoloji sistemdə yaşamışlar.Ulu öndərin hakimiyətə qayıdışından sonra keçmiş postsovet respublikalarında Azərbaycan səfirlikləri və konsulluqlarının açılışı sürətləndirildi və siyasi,iqtisadi,ticarət,mədəni sahədə əməkdaşlıq genişləndi.1993-cü ilin sentyabrın 6-da Ulu Öndər Heydər Əliyev Moskvada Rusiya prezidenti Boris Yeltsin və Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşüb iki ölkə arasında münasibətlərin yaxşılaşması məsələlərini müzakirə etdi, sentyabrın 24-də isə Azərbaycan MDB-yə daxil oldu [Həsənov,2005,186]. Moskva səfəri Rusiya ilə Azərbaycan arasında olan soyuq münasibətlərin normal məcraya yönəlməsi üçün bir dönüş oldu.

Eyni zamanda bizə dil, din, soykök baxımından yaxın olan Qazaxstan, Özbəkstan, Türkmənistan, Qırğızstan kimi Mərkəzi Asiya dövlətləri ilə iqtisadi-siyasi sahədə imzalanan müqavilələr münasibətlərin istiləşməsinə səbəb oldu.

Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli,qaçqın düşən soydaşlarımızın öz doğma torpaqlarına qayıtması Azərbaycan Respublikasının yürütdüyü xarici siyasətin ən ümdə və başlıca vəzifəsi olmuşdur.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın yenidən qurulmasında və inkişafında rolu əvəzsizdir.Azərbaycan dövləti dünya dövlətlərinin maraqları arasında uğurlu manevr edərək balanslaşdırılmış siyasət yürüdür.Bu da ölkəmizə dünya və region dövlətləri ilə əməkdaşlığı daha səmərəli edir. Xalqın və dövlətin strateji maraqlarının önə çəkildiyi xarici siyasət xətti beynəlxalq hüquq normalarına tam olaraq uyğunlaşdırılmışdır.Bu öz əksini əyani olaraq ölkə Konstitusiyasında da tapmışdır.

Əsası Ümummilli lider tərəfindən qoyulan və bu gündə möhtərəm Prezident İlham Əliyev tərəfindən böyük əzmkarlıqla davam etdirilən xarici siyasət xətti ölkəmizin dünya birliyinə sıx inteqrasiya etməsinə, siyasi-iqtisadi yüksəlişinə xidmət edir. Davamlı iqtisadi inkişafa nail olan ölkəmiz indi regionun əsas söz sahibi olaraq müstəqil xarici siyasət yürüdür .Bu gün Azərbaycanın iştirakı olmadan regionda strateji əhəmiyyətli heç bir layihə reallaşa bilməz.Azərbaycanın inkişaf etmiş dünya ölkələri ilə bir sırada olması üçün böyük islahatlar həyata keçirilir.Bu gündə dünyanın iqtisadi və siyasi təşkilatları ilə əməkdaşlıq yüksək səviyədə davam etdirilir,ölkəmizin xarici investisiya üçün əlverişli dövlət imici qorunub saxlanır.

## Ədəbiyyat

1. Elxan Suleymanov. Azərbaycan 10 il Avropa Şurasında. Bakı- 2011.

2.Əli Həsənov.Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti.Bakı-2005.

3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir ( beşinci kitab, noyabr 1995-mart 1996 ) Bakı 1998

4.Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (otuz dördüncü kitab, may 2001-iyun 2001).Bakı 2011.

5.Heydər Əliyev İrsini Araşdırma Mərkəzi.Azərbaycan-NATO: Tərəfdaşlıqdan Başlanan Yol(1994-2009).Bakı 2009.

6.Hakim İsakov. Azərbaycan Respublikasının "Böyük İpək Yolu" nun bərpasında iştirakı (1991-2005-ci illər).Bakı 2011.

7.Hikmət Babaoğlu. Azərbaycan Respublikasının Müasir Dünya Siyasətində Yeri və Rolu.Bakı 2009.

8.Musa Qasımov,Mahir Abdullayev.Beynəlxalq münasibətlər tarixi (XX əsr II hissə 1946-1999-cu illər).Bakı-1999.

9.Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev.Bakı-2008.

**Gasimov N.**

**Summary**

**Contemporary Azerbaijan in international relations system**

The article deals with the successful integration of the independent Azerbaijan Republic into the international arena.İn the article it is dealt with returning our national leader Heydar Aliev's to the power and decply changes in our country and turning our country as exporter of oil and qas in the world.

İn the result of successful foreign policy laid the foundation by our national leader Heydar Aliev our country gained success.Mr İlham Aliev carries out this policy successfully, and as a result of this policy our country gained an opportunity to affect events happening in the region and the world.

**Гасымов Н.**

**Резюме**

**Современный Азербайджан в системе международных отношений**

В статье рассматривается успешная интеграция независимой Азербайджанской Республики на международную арену. В статье повествуется о коренных изменениях во внешней политике Азербайджанской Республики после возвращения к власти великого вождя Гейдара Алиева, о том, как наша страна превратилась в одну из ведущих стран экспортирующих нефть и газ. Внешняя политика, основа который была заложена великим Гейдаром Алиевым, сегодня успешно проводимая в жизнь Президентом Республики Ильхамом Алиевым, вывела нашу страну на уровень стабильных экономически результатов и позволила оказывать определенное воздействие на происходящие в мире процессы.

**Баранов Николай Павлович**

***Минский государственный лингвистический университет***

***Республика Беларусь***

## МУЛЬТИКУЛЬТУРАЛИЗМ КАК ОБРАЗ ЖИЗНИ ЧЕЛОВЕЧЕСТВА XXI ВЕКА

На величественных часах истории – новейшее время, XXIвек, современность, в которой человечество творчески и целеустремлено созидает достойное для своей человеческой жизни настоящее и основы достойного будущего своим потомкам.

Поднимаясь на новую цивилизационную ступень развития, именуемую эпохой глобализации, мировое сообщество народов, представляющее собой современное человечество как новый субъект истории, осуществляет поистине глобальные культурные преобразования: экономические, научно-технические, социальные, духовные.

Межконтинентальные и континентальные политико-экономические союзы, транснациональные корпорации и проекты, международное сотрудничество в освоении космоса, развитии науки, образования, здравоохранения, в предотвращении вооруженных конфликтов, в решении актуальных ресурсных и экологических проблем поднимают связующие народы межкультурные коммуникации на принципиально новый уровень – диалога и полилога культур.

В этом глобализационном процессе, важный, всевозрастающий вклад в дальнейшее развитие и совершенствование человечеством межэтнических отношений вносит заслужившая широкое международное признание и

высочайшую оценку актуальности и глубины выраженной в ней мудрости идеология мультикультурализма, выдвинутая выдающимся представителем современной эпохи, общенациональным лидером азербайджанского народа, создателем независимого азербайджанского государства - Гейдаром Алиевым, 95-летие со дня рождения которого отмечает народ Азербайджана и все прогрессивное человечество.

С точки зрения науки и развития самой действительности, феномен мультикультурализма, или культурного плюрализма, во всей очевидности его новоисторической востребованности и объективной противоречивости формирования и утверждения в межэтнических отношениях, является одной из центральных, даже ключевых, проблем современного, активно глобализирующегося социального мироустройства.

Каким будет облик человечества будущего, которое должно обрести, как пророчествовали Рерихи, свое новое историческое имя - «планетарного человечества»!?. Именно от мудрой идеи мультикультурализма, воплощаемой, по достойному примеру Азербайджана, всоответствующую идеологию, внутреннюю и международную политику всеми суверенными государствами мирового сообщества, принятия и утверждения народами мультикультурализмакак наилучшего образа единения и жизни общечеловеческой общности, всецело зависит культурный облики сама социальная сущность будущего «планетарного человечества».

Дискурс мультикультурализма имеет сегодня широчайшее распространение и всестороннее осмысление. Феномен мультикультурализмаактивно осмысливается философами,исследуется учеными различных направлений, дискутируется политиками и священнослужителями различных конфессий, все глубже постигается новыми поколениями в гуманитарном образовательном процессе.

В простейшем, этимологическом понимании, мультикультурализм - это общество со средоточием многих культур, характерное свойство многоэтнических сообществ.

В более широком, современном научном видении, мультикультурализм как политический проект -это фундаментальная по глубинности и масштабам, по исторической значимости и ответственности, по участникам (в ней примут участие

все народы), многомерная по содержанию и подлежащим разрешению противоречиям, актуальнаяи закономерная по объективному велению времени, реалистичная по возможностям осуществления, общечеловеческая задача сохранения, гармонизации и дальнейшего развития своего культурного этнического разнообразия.

Одним из объективных законов социального развития является то, что его прогрессирующее развитие будет закономерно расширять этно-культурное разнообразие человечества, обусловливая необходимость его гармонизации и преобразования.

Именно в таком, на наш взгляд,сущностном видении представлена проблема мультикультурализма в идеологической концепции Гейдара Алиева как для своей страны, так и всему прогрессивному человечеству. Это убедительно подтверждается и нынешней, широкомасштабно проводимой «от Лиссабона до Владивостока» международной научной конференцией: «Гейдар Алиев: идеология мультикультурализма и толерантности», инициатором и организатором которой выступил Азербайджанский Университет Языков совместно с Бакинским Международным Центром Мультикультурализма. Дополню, признанным всеми странами Международным Центром Мультикультурализма: именно Баку сталпо решению ООН Центром проведения Глобальных форумов Альянса цивилизацийОрганизации Объединенных Наций. В одном из таких форумов 2016 года приняли участие делегации из более 140 стран мира, представители многочисленных международных организаций, религиозных конфессий, неправительственных организаций.

Основы азербайджанского мультикультурализма, являющего собой уникальный для народов пример, а государствам-по-государственному последовательно реализуемый политический проект, нашли свое отражение в соответствующих положениях Конституции и законодательных актах Азербайджанской Республики.

В них отмечается, акцентирую, что под моделью мультикультурализма подразумевается мирное сосуществование в пределах границ одного государства различных этнокультурных сообществ, имеющих право официально выразить, беречь и сохранить свои культурные особенности и образ жизни.

Мультикультурализм направлен на сохранение, развитие и гармонизацию культурного разнообразия представителей различных религий и национальностей в отдельно взятой стране и в мире в целом, на интеграцию малочисленных народов в национальную культуру государств. Мультикультурализм представляет собой необходимый инструмент диалога культур и цивилизаций. Мультикультуральные и толерантные ценности носят общечеловеческий характер.

Такова, предельно ясно выраженная философская концепция мультикультурализмав системе обновляемых, разумно выстраиваемых современных и грядущих международных отношений, которую миллионы ее сторонников и последователей справедливо именуют сегодня «философией азербайджанства Гейдара Алиева».

Мультикультурализм и толерантность исторически присущи образу жизни азербайджанцев – народа многонациональной и много конфессиональной страны, расположенной в пространстве стыковки принципиально различных цивилизаций. На ее территории наряду с азербайджанцами, всегда толерантно проживали многие представители других этнических и религиозных групп. Мудрый многовековой опыт этой многонациональной и многоконфессиональной страны по бережному сохранению своего богатого в культурном разнообразии исторического достояния как жизненно необходимого, стал священной традицией народа и явился благодатной основой утверждения в Азербайджане мультикультурализма и толерантности как формы государственной политики.Азербайджан исторически прославился как край, где сформировалась атмосфера национально-культурного многообразия, где представители различных национальностей и конфессий проживают в атмосфере мира и благополучия, взаимопонимания и диалога.

Успешно осуществляемая сегодня Азербайджанской Республикой государственная политика, направленная на сохранение этнического и органично связанного с нимкультурного и лингвистического разнообразия в стране, а также подвижничество в развитии философии и политики мультикультурализмаи толерантности на международной арене определили всеобщее признание Азербайджана Международным Центром Мультикультурализма, пространством межкультурного диалога мирового масштаба.

Азербайджанский позитивный опыт государственного развития мультикультурализма и толерантности, формирования мультикультурного общества, высокоценен  как для науки, так и для общественной практики. Он выводит человечество на единственно правильный путь решения доныне высоко актуальной и многосложной проблемы межэтнических отношений, которые, как свидетельствует история и современность, при неправильном их решении имеют порой чрезычайно антагонистический характер.

Не будем глубоко ворошить этот тяжелый аспект Всемирной Истории. Ограничимся напоминанием себе актуальности в дискурсе по данной проблеме обилия  исторических понятий и событий, отразивших множество тяжелейших трагедий народов, ломки их судеб, жестокого истребления и даже гибели в межнациональных конфликтах прошлого и современности: покорения и рабства, изгнаний и исходов, колонизации и, геноцида народов, варварства и дискриминации, шовинизма и расизма, нацизма и  войн (в том числе, под религиозными знаменами), холокоста, противостояния, этнофобии, апартеида, геттоизациии другие в  отношениях народов.

Философия и идеология мультикультурализма открывают человечеству иные -  светлые перспективы  существования и развития, выраженные в принципиально новых понятиях: общечеловеческие цености, национальный (государственный) суверенитет,содружество независимых государств, новые исторические общности народов, мультикультурное общество, толерантность, международное сотрудничество, цивилизованные отношения, экуменизм, мир во всем мире, планетарное человечество и другие.

В одном ряду с осмыслением сущности феномена мультикультурализма стоит неразрывная с этим актуальная проблема практических путей его достижения. То есть, выработки и реализации правильной государственной политикиформирования мультикультурализма.

И в этом  принципиально важном вопросе азербайджанская политическая концепция путей формирования и развития мультикультурализма являет собой самый адекватный, самый продуктивный, самый жизнеспособный, самый цивилизованный и перспективный проект для мирового сообщества.

Учитывая достаточную научную осведомленность участников конференции о существующих на современном глобализационном этапе общественного развития «политиках реализации мультикультурализма» в странах Запада и Востока, евроатланической и восточных цивилизациях, ограничусь кратким их обзором. К их широко известному перечню относятся: политика этно-культурного смешения или «Вавилона», политика этно-культурной ассимиляции, политика аккультурации малоразвитых этносов,политика господствующей культуры титульной нации и геттоизации инородцеви их культур, политика позитивной дискриминации этнических меньшинств, политика этнической лояльности,политика «иммигрант–остается иностранцем», который рано или поздно вернется на родину», политика сохранения гомогенности национальных государств и, наконец, предложенная человечеству как осуществимая для эпохального и глобального утверждения в новейшей истории новая политика –этно-культурной интеграции, уникальный и достойный пример активной государственной реализации которой демонстрирует Республика Азербайджан.

Наиболее рельефные примеры (проведем их сравнительный сущностной анализ) выше названных этно-культурных политик, новоисторической, действительной альтернативой которым является политика мультикультурализма.

Переполненные за последние десятилетияиммигрантами европейские державы Германия и Франция(приток иммигрантов в ЕС превысил 18 млн. человек) руководствуются в отношении иммигрантов преимущественно политиками:

политика «иммигрант – остается иммигрантом», он - полезная рабочая сила, но остается иностранцем, который рано или поздно вернется на родину» - это т.н.«мультикультурная» модель нынешней Германии, идеалом развития которой остаетсягомогенное национальное государство с этнической и культурной однородностью;

политика ассимиляции–т.н.«мультикультурная» модель нынешней Франции, где сама постановка вопроса о культурном-плюрализме находит активное политическое противодействие и единственно адекватной формой развития страны признается только «Республика» и «гражданство»;согласно французскому идеалу «республиканизма» мигранты, становящиеся гражданами страны,

полностью уравниваются в правах с «коренными французами». Практика, однако, показывает, что несмотря на формально декларируемое равенство, равными членами сообщества мигранты не становятсяи на протяжении ряда поколений воспроизводится их маргинальный статус;

США, с по-прежнему возрастающим притоком в эту страну иммигрантов со всех стран мира, на основе своего исторического опыта, пришироком публичном распространении мультикультуралистской риторикии декларировании либеральных норм общежития, придерживаются в отношении многоэтничности развития страны концепции «плавильного котла»ит.н.«мультикультурной» политикижесткого прагматичного сдерживания иммиграции и проведенияпозитивной дискриминации этнических меньшинств, формируемых мигрантами, в отношении которых введены этнические и расовые квоты при приеме в вузы и при занятии определенных престижных должностей.

Такие,неадекватные глубинным закономерностям современного цивилизационого процесса и исторического этно-культурного развития человечества, т.н. «мультикультурные» политики,безусловно, претерпевают явный сбой в своей реализации,потому, что они конфликтно насыщены, не могут в должной мере консолидировать на социальное сотворчество исторический культурный потенциал народов. Ониявно исторически устарели, и уже отвергаются народами как неприемлемые для цивилизованного развития.

Об этом заставляют задуматься принципиально новые реалии.

Глобализационный процесс неудержим и необратим. Новое «великое, миграционное, переселение народов» десятилетие за десятилетием будет неминуемо набирать свои обороты. Мир интенсивно этно-культурно преображается и должен существенно преобразиться как в национальном, так и в закрепляющем нации государственном отношениях.Человечеству, «во множестве его сообществ» (Г.Башляр) и «человейников» (А.Зиновьев), закономерно предстоит перестраивать свои нации-государства, даже исторически великие, и совместно строить новую «Вавилонскую башню».

И никаким «неадекватным политикам» уже не справиться с этими новыми остро противоречивыми реалиями:, к примеру, такими как, - принимающие иммигрантов страны («иммиграционные страны») больше не могут

ассимилировать мигрантов, а мигранты более не хотят ассимилироваться.Массы новоприбывших членов общества, образующих миграционные меньшинства, столь внушительны, что их уже невозможно «переварить», как это можно было сделать с относительно малочисленными и разрозненными мигрантами до середины XX века. Само понятие «меньшинства» меняет смысл, поскольку иммигрантское население в мегаполисах Запада по своему количеству сопоставимо с местным населением, еще недавно составлявшим однозначное «большинство». В Вашингтоне, например, количество «небелого» населения составляло уже на середину 90-х годов 73,2%, в Детройте – 83,7%, а в Майами – 90,7%. Аналогичная ситуация сложилась в крупных канадских городах – Торонто, Ванкувере и Монреале, где от половины до двух третей жителей – небританского и нефранцузского происхождения.

Поэтому главный вопрос, связанный с политикой «мультикультурализма» – это вопрос о возможности именно этно-культурнойинтеграции, акцентированной азербайджанским политическим проектом Гейдара Алиева.

Интеграции, которая сопровождалась бы не ассимиляцией, апризнанием исторического права народов на различие, или, иначе выражаясь, на идентичность, в бережно сохраняемом, исторически унаследованном государствами этно-культурном разнообразии, его гармонизацией и поощрением его развития, вплоть до формирования в этой государственности собственных этнических сообществ, в рамках которых удерживаются язык и определенные культурные образцы. Как подчеркнул общенациональный лидер Азербайджана Гейдар Алиев: «Для каждого человека национальная принадлежность является источником гордости».

Такой социальной интеграции, которая сопровождалась бы действительным политическим, экономическим и духовным равенствомграждан мультикультурного общества, в котором нет «господствующих культур». В котором индивидам предоставлена свобода выбирать, какие культурные образцы являются их собственными. В котором разнообразие культур и стилей жизни развивается не автономно и параллельно, а во взаимодействии и взаимопроникновении, интегрируясь в единое этно-культурное и коммуникационное пространство, обретающее свою новую, надэтническую сущность.

Именно такомумультикультурализмунет альтернативы и именно мультикультурализмимеет прекрасное будущее!

В заключение хочу высказать следующее. Во все века мудрость была высоко ценима народами, которые никогда не забывали имена ее творцов.

Имя выдающегося общенационального лидера народа Азебайджана, мудрого политического деятеля рубежа XX –XXI веков Гейдара Алиева – основоположника философии, идеологии и политики мультикультурализма - все народы будут помнить и чтить подобно именам великих духовных мыслителей и учителей мусульманского, христианского, конфуцианского, буддистского мирови представляющих их великих культур.

**Qasımova Lamiyə Həsən qızı**
*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DİPLOMATİK SƏYLƏRİ

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Ümummilli lider Heydər Əliyev, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, ərazi bütövlüyü, diplomatik vasitələr, İlham Əliyev*

***Key words:*** *The Republic of Azerbaijan, National Leader Heydar Aliyev, Nagorno - Karabakh conflict between Azerbaijan and Armenia, territorial integrity, diplomatic means, Ilham Aliyev*

***Ключевые слова:*** *Азербайджанская Республика, Национальный лидер Гейдар Алиев, армяно - азербайджанский Нагорно-Карабахский конфликт, территориальная целостность, дипломатические средства, Ильхам Алиев*

Azərbaycan zaman-zaman işğallara məruz qalan və torpaq itirən bir ölkə olmuşdur. Aparılan tədqiqatlar göstərir ki, Azərbaycanın ərazisi 1828-ci ildə bütövlükdə 410 min kvadrat kilometr olduğu halda, 1918-ci ildə 114 min kvadrat kilometrə, 1991-ci ildə 86,6 min kvadrat kilometrə enmişdir. Hazırda isə torpaqlarımızın 20 faizə qədəri yenidən erməni terrorçuları tərəfindən işğal edilmişdir. Ümumiyyətlə isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmiz bir çox böyük itkilərə məruz qalmışdır. Bir milyona qədər insan qaçqın və məcburi köçkün kimi yaşamağa məcbur olmuş, 18

mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çoxu yaralanmış, 50 min nəfərdən çox insan əlil olmuş, yüzlərlə şəhər, kənd və qəsəbələr qarət edilmiş, yandırılmış və dağıdılmışdır [İmanov, 2005, 241].

Sovet hakimiyyəti illərində, Azərbaycanın tarixi torpağı olan olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nə birləşməsi haqqında bu ölkənin rəhbərliyi tərəfindən vaxtaşırı cəhdlər edilmiş, ancaq bu cəhdlərin qarşısı alınmışdı. Öz himayədarlarının köməyilə ermənilər Azərbaycan ərazilərini Ermənistana birləşdirmək səylərini davam etdirirdilər. Sovet rəhbərliyinin təzyiqi ilə Azərbaycan SSR Ali Soveti 1938-ci il mayın 7-də Laçın, Qubadlı, Kəlbəcər və Qazax bölgələrindən 2 min hektar torpaq sahəsinin Ermənistana verilməsi haqqında protokolu təsdiq etdi. Lakin həmin qərara yerlərdə sadə insanlar, kənd camaatı müqavimət göstərdilər və torpaqlarını əldən vermədilər. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də 1938-ci ildə qəbul etdiyi bu bədnam qərarı yenidən təsdiq etdi. Lakin Heydər Əliyevin Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi (14 iyul 1969-cu il) bu qərarın həyata keçməsinə imkan vermədi. Buna baxmayaraq, 1986-cı ildə Azərbaycan rəhbərliyinin etinasız münasibəti ucbatından həmin qərarda nəzərdə tutulan bəzi ərazilər Ermənistana birləşdirildi [http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf].

Bütün bunlara baxmayaraq "Böyük Ermənistan"a gedən yol Qarabağ torpaqlarının işğalından keçirdi və elə buna görə də ermənilər müxtəlif vasitələrlə bu ərazini Azərbaycandan qoparmağa çalışırdılar. Lakin qarşıda kifayət qədər ciddi bir maneə var idi - Heydər Əliyev. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi yalnız siyasi və hüquqi baxımdan deyil, həm də iqtisadi və psixoloji anlamda Dağlıq Qarabağın Ermənistana ilhaqı arzusunun gerçəkləşdirilməsinin qarşısını almaq üçün çox çətin mübarizəyə başladı. Onun həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində erməni qəsbkarlarının Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi məqsədilə edilən cəhdləri qətiyyətlə dəf edilmişdi [http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf].

Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçyan sonralar bu barədə danışarkən deyirdi: "XX əsrdə türklərin yetişdirdiyi iki qüdrətli adam olmuşdur. Atatürk və Heydər Əliyev. Onlardan biri sağdır. Bilin, nə qədər ki, o sağdır, biz nə Qarabağı ala biləcəyik, nə də başqa əraziləri" [http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf].

Beləliklə, ermənilər bütün mübarizə vasitələrini Heydər Əliyevi siyasi səhnədən uzaqlaşdırmağa yönəltdilər. Moskvadakı havadarlarının himayəsi altında öz mənfur məqsədlərinə nail olmaq üçün ermənilər müxtəlif vasitələrə əl atır, SSRİ-nin ən nüfuzlu rəhbərlərini ələ almağa çalışırdılar. M. Qorbaçovun hakimiyyətə gəlməsi ilə ermənilər ölkənin birinci şəxsinin timsalında siyasi himayədar qazanmışdılar və bu fürsətdən maksimum istifadə etməyə çalışırdılar. Keçmiş Sovet İttifaqında “yenidənqurma dövrü” adını almış bu mərhələdə M.Qorboçovun məkrli siyasəti nəticəsində Heydər Əliyev “səhhətinə görə” ölkə rəhbərliyindən kənarlaşdırıldıqdan sonra ermənilər və onları müdafiə edənlərin əl-qolu açılır, ermənilərin Qarabağ iştahasının qarşısında dayanan əsas maneə aradan götürülmüş olurdu.

Ermənistan SSR Ali Sovetinin “DQMV-nın Ermənistan SSR-ə birləşdirilməsi” haqqında 1989-cu il dekadrın 1-də qəbul etdiyi qərar Ermənistanın “beynəlxalq hüququn əsas norma və prinsiplərinin pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etməsi” demək idi [Qasımlı, 2015, 142]. Ermənilər artıq mübarizə taktikasını hərbi təcavüz müstəvisinə keçirmişdilər və bu baxımdan Azərbaycandakı kütləvi etiraz aksiyaları proseslərin inkişafını dayandırmaq qüdrətində deyildi.

Azərbaycanda ən gərgin vəziyyət və siyasi sabitsizlik 90-cı illərin əvvəllərində başladı. Bakıda 1990-cı il Yanvar faciəsi, 1991-ci ildə Xocavənd yaxınlığında ermənilərin torətdiyi Qarakənd terroru və 1992-ci ildə baş verən Xocalı soyqırımı gostərilən vəziyyətin nəticəsində baş verdi.

Araşdırmalar gostərirdi ki, 20 Yanvar cinayəti erməni separatçılarının torpaq iddialarına qarşı Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda getdikcə geniş miqyas alan ümumxalq hərəkatını boğmaq ücün bilərəkdən təşkil olunmuşdu [İmanov, 2005, 224]. Yenə də məhz Heydər Əliyev bu terror aktına açıq etirazını bildirdi. 1990-cı il yanvarın 21-də onun Azərbaycanın Moskvadakı nümayəndəliyinin binasında qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı bütün dünya eşitdi. Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, xalqın faciəsində məsuliyyət daşıyanları bütün dünyanın gözü qarşısında ittiham etdi [http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf].

Heydər Əliyev 1991-ci ilin fevral ayında Azərbaycan Ali Sovetinin sessiyasında hamını bu gerçəkliyi etiraf etməyə çağırırdı: "Hesab edirəm ki, "Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması" - məsələnin dar çərçivədə qoyulması deməkdir. "Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması" - məsələ belə qoyulmalıdır". Heydər

Əliyev cəmiyyəti mövcud reallıqlardan xəbərdar etməyə çalışırdı. Həmin reallıq isə bundan ibarət idi ki, Azərbaycan hakimiyyətinin siyasi laqeydliyi ucbatından Qarabağ itirilib və bu reallığı anlamaq, bütün perspektiv fəaliyyəti onun dəyişdirilməsinə hesablamaq lazımdır [http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf].

1992-ci ilin mayında Şuşa erməni qəsbkarları tərəfindən işğal edildi. Erməni işğalçılarının keçirdiyi hərbi əməliyyatların miqyası bu şəhərin işğalından sonra daha da genişləndi və cəmi bir neçə gün sonra, may ayının 18-də Ermənistanla Azərbaycanın Dağlıq Qarabağ bölgəsi arasında yerləşən Laçın düşmən əlinə keçdi [http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf].

Bütün bu hadisələrə son qoymaq və ölkədə ictimai-siyasi sabitlik yaratmaq, cəmiyyətin təhlükəsizliyini təmin etmək üçün AXC-Müsavat iqtidarının ayrı-ayrı yüksək vəzifəli şəxslərinin, nüfuzlu ziyalıların, ağsaqqalların təkidli dəvəti ilə Heydər Əliyev Bakıya qayıtdı. Belə ağır bir məqamda - iyunun 15-də Milli Məclis Heydər Əliyevi Ali Sovetin sədri seçdi. Müasir tariximizdə yeni mərhələnin başlanğıcına qədəm qoyuldu. Elə buna görə də 15 iyun müstəqil Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş günü kimi daxil oldu.

1993-cü ilin oktyabrında ermənilər Azərbaycanın Zəngilan rayonunu işğal etdilər və bu, Ermənistan ordusunun cəbhə bölgəsində sonuncu işğalçılıq əməliyyatı oldu. Çünki Heydər Əliyevin hakimiyyətə gəlişi vəziyyəti tamamilə dəyişdi və cəmi bir neçə aydan sonra ölkədə güclü hakimiyyətin mövcudluğu hiss olunmağa başladı. Heydər Əliyevin Zəngilanın işğalından sonra ölkə vətəndaşlarına məşhur müraciəti isə Azərbaycanın ordu quruculuğu tarixinin başlanğıcı oldu. Bu müraciət on minlərlə insanın cəbhəyə könüllü hərbi xidmətə yollanması ilə nəticələndi. [http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf].

Heydər Əliyev qarşısında duran vəzifələri həll etmək üçün yalnız siyasi-diplomatik üsula üstünlük verdi. Ən çətin anlarda belə, Heydər Əliyev danışıqlar, diplomatiya yolunu seçdi. Əvvəla, bununla o, cəmiyyətimizin fərqli cəhətlərini nəzərə alaraq gələcək düşmənçiliyin yaranmasına imkan vermədi, ikincisi, xarici düşmənlərin bundan yararlanmaq şansını əldə etməsinin qarşısını kəsdi, üçüncüsü, Azərbaycanın siyasi səhnəsində diplomatik fəaliyyət mədəniyyətinin yerini möhkəmləndirdi, dördüncüsü, növbəti nəsil siyasətçilərə nümunə oldu [http://www.azerbaijan-news.az/index.php?mod=3&id=22915].

Heydər Əliyev ölkəmizin təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın Azərbaycana qarşı heç bir əsası olmayan ərazi iddiaları və hərbi təcavüzü məsələlərini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün beynəlxalq qurumların təsirini artırmağa çalışmışdır.

Heydər Əliyev çağdaş dünyanın ədalətsiz və ziddiyyətli reallıqlarına bələd olan bir siyasi xadim kimi ilk əvvəl beynəlxalq müstəvidə təbliğatın düzgün qurulmasına və beləliklə də dünya dövlətlərinin diqqət və nəzərini bu işğal faktının əsl səbəblərinə yönəltməyə nail ola bildi.

Yüksək səviyyədə dövlət və hökumət başçıları, nümayəndə heyətləri ilə ikitərəfli, həmçinin çoxtərəfli görüşlərində ATƏT-in zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə olan görüşlərdə, eyni zamanda Ermənistan prezidenti ilə aparılan danışıqlarda göstərdiyi səylər ümumilli liderin apardığı uzaqgörən siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir. Heydər Əliyevin xarici siyasətdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizamlanması ana xətti təşkil etmişdir. Bu istiqamətdə məhz ümummilli liderin gərgin və qətiyyətli fəaliyyəti nəticəsində 1994-cü il mayın 12-də atəşkəs haqqında razılıq əldə edilmiş və bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində daimi danışıqlar aparılmağa başlanmışdı [https://azertag.az/xeber/Heyder_Aliyevin_siyasi_kursu_dinamik_sekilde_inkisaf_etdirilir-961066].

1994-cü il dekabrın 5-6-da ATƏT-in Budapeştdə keçirilən Zirvə toplantısında Heydər Əliyevin çevik və dəqiq diplomatiyasının təsiri ilə "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" barədə qərar qəbul olundu [http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/98217.htm].

1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabon zirvə toplantısında qəbul edilən və münaqişənin nizamlanmasının beynəlxalq-hüquqi bazasını təşkil edən sənəd Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli yolunda böyük siyasi nailiyyət hesab oluna bilər. Prezident Heydər Əliyevin diplomatik səyi və gərgin əməyi sayəsində məhz bu görüşdə münaqişənin həllinin baza formulunu müəyyənləşdirən xüsusi bəyanat qəbul edildi. Münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən bəyanat Ermənistan istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi tərəfindən açıq şəkildə dəstəkləndi və Lissabon sammitinin yekun sənədlərinə əlavə edildi [http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/98217.htm].

Ümumiyyətlə, münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanır.

BMT-nin Təhlükəsizlik Şurası Dağlıq Qarabağla bağlı 30 aprel 1993-cü il tarixdə 822 №-li, 29 iyul 1993-cü ildə 853 №-li, 14 oktyabr 1993-cü ildə 874 №-li və 11 noyabr 1993-cü ildə 884 №-li qətnamələr qəbul etmişdir. Qeyd olunan sənədlərdə BMT Təhlükəsizlik Şurası, Dağlıq Qarabağın və ona bitişik bir sıra rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğalını təsdiqləmişdir [http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/bmt.pdf].

Ötən illər ərzində qeyd olunan beynəlxalq təskilatlarla yanaşı digər nüfuzlu təşkilatlarda da, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa İttifaqı, Avropa Parlamenti, Qoşulmama Hərəkatı və s. tərəfindən çoxsaylı qərar və sənədlər qəbul edilmiş və onlarda da Dağlıq Qarabağ bölgəsi də daxil olmaqla, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü dəstəklənmişdir [Məqalələr toplusu, 2017, 41-42].

Burada belə bir sual yaranır. Əgər bu cür önəmli təşkilatların qətnamə və qərarları bu günə kimi icra edilməyibsə, onda bu qərarlar kimin üçün və nəyə görə qəbul edilir?! Belə nəticəyə gəlmək olar ki, dünyada hələ də beynəlxalq səviyyədə müxtəlif məsələlərin, o cümlədən ərazi münaqişələrinin həllində ikili standartlar mövcuddur.

Ümummilli lider Qarabağ həqiqətlərini bütün dünyaya olduğu kimi çatdırmaq üçün var gücü ilə çalışmışdır. Heydər Əliyev istər dövlət başçıları, istərsə də iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə keçirdiyi görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırmış və demek olar ki buna nail olmuşdur.

Ulu öndərin beynəlxalq səviyyədə etdiyi çıxışlarında Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olması fikri öz əksini onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik nitqlərində də tapır: "Azərbaycan heç vaxt torpağında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Azərbaycan bütün imkanlarını səfərbər edib, diplomatik, siyasi, iqtisadi, hərbi - bütün imkanlardan istifadə edib öz doğma torpaqlarını azad edəcəkdir" [http://www.azerbaijan-news.az/index.php?mod=3&id=30183].

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə riayət edilməsi əsasında diplomatik vasitələrlə həlli Azərbaycan Prezidenti İlham Əliyevin də xarici siyasətinin prioriteti olaraq qalmaqdadır.

Prezident İlham Əliyevin vurğuladığı "Azərbaycan torpaqları danışıq predmeti ola bilməz", "Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyildir və heç vaxt olmayacaqdır... Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcəkdir. Yəni Azərbaycanın ərazi bütövlüyü məsələsində... heç bir güzəşt olmayacaqdır" kimi mötəbər fikirləri tariximizin bugünkü reallığını əks etdirir [http://www.azerbaijan-news.az/index.php?mod=3&id=30183].

Azərbaycan xalqı əmindir ki, Ümummilli lider Heydər Əliyevin uzaqgörən, çevik və müdrik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev məktəbinin layiqli davamçısı hesab edilən İlham Əliyevin düşünülmüş və məqsədyönlü fəaliyyəti nəticəsində Dağlıq Qarabağ problemi beynəlxalq hüquq normalarına uyğun olaraq qısa zamanda öz ədalətli həllini tapacaqdır.

Ədəbiyyat


1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Məqalələr toplusu. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: Poliart, 2017.
2. İmanov R. Azərbaycannın ərazi bütövlüyünə qəsd - qondarma Dağlıq Qarabağ muxtar vilayəti. Bakı: Adiloğlu, 2005.
3. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015.
4. Məmmədova H. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi. Bakı: Elm, 2009.
5. Münaqişənin tarixi // http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf
6. http://xalqqazeti.com/az/news/politics/724
7. http://www.xalqqazeti.com/az/news/politics/17338
8. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=22915
9. https://azertag.az/xeber/Heyder_Aliyevin_siyasi_kursu_dinamik_sekilde_inkisaf_etdirilir-961066

10.
http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/98217.htm
11. http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/bmt.pdf
12. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=30183
13. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heyd%C9%99r-%C9%99liyevin-dagliq-qarabag-probleminin-h%C9%99lli-ucun-atdigi-addimlar/

**QasimovaL.**

**Summary**

**Diplomatic efforts of National Leader Heydar Aliyev for the territorial integrity of Azerbaijan**

One of the global problems the independent Azerbaijan state faced is the restoration of the territorial integrity of the Republic of Azerbaijan by the Armenian military units and the problem of returning th rejugees and İDPs to their hometowns. In the past age, under the leadership of national leader Heydar Aliyev has done much work to raise the awareness of the international community about the conflict and there are quiet significant achievements in this direction. Generally, in the policy of Heydar Aliyev, the issues of the settlement of the Nagorno Karakabakh between Azerbaijan and Armenia, have always been at the forefront of the historical processes, despite the existing hardships.

**Гасымова Л.**

**Резюме**

**Дипломатические усилия национального лидера Гейдара Алиева по восстановлению территориальной целостности Азербайджана**

Одной из глобальных проблем, стоящих перед независимым Азербайджаном, является восстановление территориальной целостности государства, нарушенной армянскими воинскими частями, возвращение беженцев и вынужденных переселенцев в родные места. Под руководством общенационального лидера Гейдара Алиева были проделаны меры в целях объективного осведомления международного сообщества о конфликте, и в этом направлении достигнуты весьма значительные успехи. Несмотря на существующие трудности, в политике

Гейдара Алиева, вопросы урегулирования армяно-азербайджанскойго Нагорно-Карабахского конфликта всегда были на первом месте.

**Məmmədova Səadət Davud qızı**

*Azərbaycan Milli Elmlər Akademyası Tarixi İnstitutu, Azərbaycan*

## AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL DÖVLƏT KİMİ FORMALAŞMASININ KONSTİTUSİON ƏSASLARI

***Açar sözlər:*** *sosial dövlət, AR konstitusiyası, Ümumi Bəyannamə, Büdcə Qanunu, insan və vətəndaş azadlıqları*

***Key words:*** *social state, constitution of AR, General declaration, Law on the budget, rights and freedoms of the person and citizen*

***Ключевые слова:*** *социальное государство, конституция АР, Общая декларация, Закон о бюджете, права и свободы человека и гражданина*

Elə ölkələr vardır ki, orada milli ideologiyanı konstitusiya əvəz edir, konstitusiya milli mənafelərin ideoloji-siyasi əsası olur [Ağayev, 2006, 134]. Bu baxımdan Azərbaycan Respublikasının sosial dövlət kimi formalaşmasının konstitusion əsaslarının öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Prezident İlham Əliyev öz çıxışlarında xüsusi olaraq vurğulayır ki, “Azərbaycan özünü dünyaya sosial dövlət kimi təqdim edir. Bizim siyasətimiz məhz bundan ibarətdir” [Nazirlər Kabinetinin 2011-ci il iclası, 16 yanvar 2012]. Lakin Avropanın inkişaf etmiş bir sıra ölkələrindən fərqli olaraq Azərbaycan Respublikasının Konstitusiyasında “sosial dövlət” anlayışı istifadə edilməyib. Belə ki, Azərbaycanın 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika (1, maddə 7.1), dövlətin ali məqsədi isə İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi (1, maddə 12.1) elan edilir [AR Konstitusiyası, 2005].

Həmçinin Konstitusiyamızda sosial siyasətlə bağlı maddələr sosial dövlətin əsas xüsusiyyətlərini əks etdirən əsas ideyalara söykənir. Konstitusiyanın 15-ci, 16-cı və 38-ci maddələri bilavasitə sosial inkişaf məsələlərinə həsr edilib. Konstitusiyasının 15.1-ci maddəsində Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etdiyi göstərilir. Konstitusiyanın 16-cı maddəsi Sosial inkişafla bağlıdır. Burada dövlətin xalqın və hər

bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qaldığı vurğulanır (1, maddə 16). Sosial məsələlərlə bağlı digər 38-ci maddə Azərbaycan vətəndaşlarının sosial təminat hüquqlarını əks etdirir. Burada qeyd edilir ki, hər kəsin sosial təminat hüququ vardır (maddə 38.1) və hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir (1, maddə 38.3), təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir (1, maddə 38.4). Sosial dəstək məqsədilə dövlət xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır (1, maddə 38.5) [AR Konstitusiyası, 2005].

Sosial dövlətin konstitusion prinsipləri aşağıdakılarla bağlıdır:

-insan hüquq və azadlıqlarının təmin edilməsi;

-insanların özləri və ailələri üçün maddi rifahın təmin etməsi məqsədilə əmək və əqli potensialın azad reallaşdırılması imkanlarının yaradılması;

-dövlət tərəfindən "insana" sərmayə qoyulmasına, vətəndaşların əksəriyyətinin yüksək həyat standartlarına nail olmasına, əhalinin həssas təbəqələrinə və qruplarına ünvanlı yardım edilməsinə yönəlmiş güclü və davamlı sosial siyasətin həyata keçirilməsi;

-hakimiyyətin bütün səviyyələrində idarəetmə qərarlarının hazırlanması və sosial ekspertizasında cəmiyyətin əsas istehsal qüvvələrinin real iştirakı üçün əlverişli şəraitin yaradılmasına zəmanət verilməsi;

- sosial əməkdaşlıq sistemini sosial iqtisadi və əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı ictimai razılıq əldə edilməsinə, işçilərin, işlə təmin edənlərin və dövlətin maraqlarının tarazlaşdırılmasına yönələn əsas mexanizmlər kimi qəbul edən və reallaşdıran hüquq və təminatlar;

-hər bir təsərrüfat subyektinin, hər bir mülkiyyətçinin müəyyən sosial yükə malik olması zəmanəti;

-ailənin möhkəmləndirilməsinə, vətəndaşların və ilk növbədə gənclərin mənəvi, mədəni, ruhi inkişafına, ulularıın irsinə ehtiyatlı yanaşmaya və nəsillərin varisliyinə, milli və tarixi özünəməxsusluğun qorunmasına yönələn hüquq və təminatlar [Каменецкий В. А., Патрикеев В. П., 2001, 314].

1948-ci ildə qəbul edilmiş İnsan hüquqları haqqında Ümumi Bəyannamədə göstərilir ki: milli səylər və beynəlxalq əməkdaşlıq vasitəsilə və hər bir dövlətin strukturuna və resurslarına əsaslanaraq hər bir insan cəmiyyətin üzvü kimi iqtisadi, sosial və mədəni sahələrdə zəruri sosial təminat almaq və onun ləyaqətinin müdafiə edilməsi və şəxsiyyətinin azad inkişaf etdirilməsi hüquqlarna malikdir (maddə 22) [Всеобщая декларация прав человека, 1948].

Bu prinsiplərdən çıxış edərək, qeydə edə bilərik ki, Azərbaycan Respublikası bütün əsas insan hüquqları və ya onların böyük bir hissəsi təsbit olunmuş ümumi beynəlxalq müqavilələrdən olan 19 dekabr 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın, 19 dekabr 1966-cı il tarixli "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın, "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta birinci Fakültativ Protokolun, "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta 15 dekabr 1989-cu il tarixli ikinci Fakültativ Protokolun, 4 noyabr 1950-ci il tarixli "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiya və onun 1, 4, 6, 7 saylı Protokollarının iştirakçısıdır. 1995-ci il 12 noyabr tarixində qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında, "İnsan Hüquqları Haqqında Ümumi Bəyannamədə", "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktda, "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyada və digər insan hüquqlarına dair beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları tam, əhatəli şəkildə təsbit olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının II bölməsinin III fəsli bütünlüklə insan hüquq və azadlıqları ilə bağlı müddəaları əhatə edir. Konstitusiyasının "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan III fəslində mülki, siyasi, iqtisadi, sosial, mədəni, prosessual və digər hüquqlar təsbit olunmuşdur. Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir [Beynəlxalq konvensiyaların AR qanunvericiliyində təsbiti, 2003, 58].

Sosial sahə dövlət idarəçiliyinin prioritet istiqamətlərindən biri olduğu üçün hökumət büdcənin təsdiq edilməsi zamanı bu sahəyə xüsusi diqqət ayırır. Belə ki, Azərbaycan Respublikasının Büdcə sistemi haqqındakı Qanununda qeyd edilir ki, "Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər

strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir” (Fəsil II, maddə 8). Dövlət büdcəsindən sosial sahəyə ayrılan xərclər: “cari xərclər, o cümlədən əmək haqqı, əmək haqqına üstəlik, pensiya və başqa sosial müavinətlər və ödənişlər, ...və başqa xidmətlər üzrə xərclər, ...qrantlar, subsidiyalar ...” kimi təsnif edilir (maddədə 10.1.1) [AR Regionlarının 2014-2018-ci illərdə Sosial-iqtisadi İnkişafi Dövlət Proqramı, 2014].

Sosial inkişafla bağlı büdcədən ayrılan məbləğ elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət və idman xərclərinin əsas istiqamətləri üzrə aşağıdakı kimi bölüşdürülür:

1.Elm sahəsi.

2.Təhsil.

3.Səhiyyə.

4.Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət.

5.Sosial müdafiə və sosial təminat [Dövlət və ictimai büdcə layihələrinin təqdimatı, 2013].

**Cədvəl 1. Azərbaycan Respublikasının Dövlət büdcəsinin xərcləri [**AR dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu 2013, 2014**,** 2015, 2016, 2017**]**

| osial ahəl ər / illər | Ümumi büdcə xərcləri | Elm xərcləri | Təhsil xərcləri | Səhiyyə xərcləri | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriya-lara aid edilməyən sahədə fəaliyyət xərcləri | Sosial müdafiə və sosial təminat xərcləri |
|---|---|---|---|---|---|---|
| 013 | 19.850.000.000,0 | 130.499.837,0 | 1.530.482.591,0 | 669.250.451,0 | 289.729.709,0 | 1.813.581.507,0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 014 | 20.063.000.000,0 | 146.815.903,0 | 1.653.445.192,0 | 725.586.166,0 | 311.410.550,0 | 2.072.233.879,0 |
| 015 | 21.100.000.000,0 | 150.457.284,0 | 1.711.180.403,0 | 777.668.395,0 | 348.317.149,0 | 2.040.534.753,0 |
| 016 | 19.906.500.000,0 | 131.700.000 | 1.713.500.000 | 744.900.000 | 652.700.000 | 1.896.600.000 |
| 017 | 16.600.000.000,0 | 125.318.640.0 | 1.859.499.497.0 | 755.785.130.0 | 513.011.808.0 | 2.117.719.373.0 |

Məlum olduğu kimi sosial dövlətin əsas prioritetlərindən biri büdcənin böyük bir qisminin sosial sahəyə ayrılması ilə bağlıdır . Cədvəldən göründüyü kimi2013-cü ildə büdcədən sosial sahəyə (elm, təhsil, səhiyyə) və sosial müdafiə və sosial təminat sahəsinə ayrılmış xərclər 4.433.544.095,0 manat (23%), 2014-cü ildə - 4.909.491.690,0 manat (24%), 2015-ci ildə - 5.028.157.984,0 manat (25%), 2016-cı ildə - 5.139.400.000,0 manat (25%) olmuşdur, 2017-ci ildə isə - 5.371.334.448,0 manat (32%) olacağı proqnozlaşdırılır.

Ölkədə pensiya və müavinətlərin, ünvanlı sosial yardımın, məcburi köçkünlərin sosial məsələlərinin və digər sosial tədbirlərin maliyyə təminatı üçün 2013-cü ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərclərinə 1813,6 mln. manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2012-ci illə müqayisədə 27,8 mln. manat və ya 1,6%, 2011-ci ilin faktiki icrasına nisbətən isə 318,2 mln. manat və ya 21,3% çoxdur [Dövlət və ictimai büdcə layihələrinin təqdimatı, 2013]. Sosial müdafiə və sosial təminat xərcləri 2014-cü ildə 2.072 mln. manat, 2015-ci ildə 2.040 mln. manat, 2016-cı ildə 1.896 mln. manat, 2017-ci ildə 2.117 mln. manat müəyyən edilmişdir. Sosial sahənin inkişafı ilə bağlı ayrılmış məbləğin böyük bir qismi təhsilin inkişafı ilə bağlı olmuşdur. Təhsil sahəsinə 2013-cü ildə 1.530 mln. manat, 2014-cü ildə 1.653 mln. manat, 2015-ci ildə 1.711 mln. manat, 2016-cı ildə 1.713 mln. manat, 2017-ci ildə 1.859 mln. manat ayrılmışdır ki, bu da sosial dövlətin inkişafının genişləndirilməsi sahəsində atılan zəruri addımdır.

Sosial dövlətin konstitusion əsaslarının formalaşması sosial inkişafla bağlı qəbul və tətbiq edilən qanun layihələri və dövlət proqramlarında öz əksini tapır. Bu

istiqamətdə əsas diqqət qeyri-neft sektorunun və regionların inkişafına yönəldilir. Büdcə xərcləri də əsasən bu istiqamətlərə uyğun müəyyən edilir.

Qeyd etmək lazımdır ki, 1995-ci ildən etibarən hökumət makroiqtisadi sabitliyi təmin etmək, iqtisadiyyatda dəyişikliklər etmək və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində bir sıra proqramlar hazırlamış və həyata keçirmişdir. Hazırda ölkədə regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasət həyata keçirilir. Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanmış tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı", "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008—2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" qəbul edilmişdir. "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda qeyd edilir ki, "Müasir Azərbaycanın qurucusu, inkişafın Azərbaycan modelinin müəllifi Ümummilli lider Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadiyyatın bütün sahələrində köklü islahatlar aparılmış, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılmışdır".

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" regional tarazlığın təmin edilməsi istiqamətində ...əhalinin işgüzar fəallığının artmasına, regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə, infrastruktur layihələrinin həyata keçirilməsinə, beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaradılmasına səbəb olmuş, vətəndaşların rifahını xarakterizə edən keyfiyyət göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır". Bu layihənin əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının

təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur [AR Regionlarının 2014-2018-ci illərdə Sosial-iqtisadi İnkişafi Dövlət Proqramı, 2014].

Azərbaycan Respublikasında məcburi dövlət sosial sığortasını, əmək pensiyaları sahəsində idarəetməni həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi Dövlət Sosial Müdafiə Fondu fəaliyyət göstərir. Bununla yanaşı ölkənin milli məclisində "Sosial siyasət daimi komissiyası" fəaliyyət göstərir. Sosial siyasət daimi komissiyasının fəaliyyəti aşağıdakılardan ibarətdir: sosial inkişaf, əmək, məşğulluq, insanların, xüsusilə qaçqın və məcburi köçkünlərin sosial problemləri, ailə, qadın və uşaq məsələləri, gənclər, bədən tərbiyəsi və idman, turizm, səhiyyə, sanitariya, sosial təminat və sığorta sahələri üzrə, sağlamlığın mühafizəsi sahəsində dövlət siyasətinin formalaşdırılmasına aid qanun layihələrinin hazırlanması və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verilməsi.

Beləliklə, qeyd edə bilərik ki, Azərbaycan hökuməti sosial dövlətin mahiyyəti ilə bağlı olan sahələrin inkişafını Azərbaycanda sosial dövlət quruculuğunun prioritet istiqamətləri kimi müəyyənləşdirərək, qanuni əsaslarda möhkəmləndirir və proqramlı şəkildə həyata keçirir.

**Ədəbiyyat**

1.Ağayev İ.M. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər., Bakı: "MBM", 2006

2.Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Qanun", 2005

3.Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların qanunvericilikdə təsbiti, Bakı: Qanun, 2003

4.Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 30 noyabr 2012-ci il № 473-IVQ

5. Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 22 noyabr 2013-cü il

6. Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 28 noyabr 2014-cü il

7. Azərbaycan Respublikasının 2016-cı ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı, Bakı, 2016

8. Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 2016-cı il

9.Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə Sosial-iqtisadi İnkişafi Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

10. Büdcə sistemi haqqındaAzərbaycan Respublikasının Qanunu. Heydər Əliyev,Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 2 iyul 2002-ci il, № 358-IIQ

11. İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 16 yanvar 2012. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. http://www.president. az/articles/4098/print

12.2013-cü ilin dövlət və ictimai büdcələrinin layihələrinin təqdimatı. http://www.maliyye.gov.az/sites/default/files/2013-1.pdf

13. Всеобщая декларация прав человека. Принята резолюцией 217 A (III) Генеральной Ассамблеи ООН от 10 декабря 1948 года. http://www.un.org/ru/documents/decl_conv/declarations/declhr.shtml

14.Каменецкий В. А., Патрикеев В. П. Лекции по экономике. Проблемы становления социального государства. – Москва: АТиСО, 2001

**Mammadova S.**

**Summary**

**THE CONSTITUTIONAL BASES OF FORMATION OF THE SOCIAL STATE IN AZERBAIJAN**

There are countries where the national ideology is replaced with the constitution, and the constitution becomes an ideological and political basis of national interests. From this point of view studying of the constitutional bases of the Azerbaijan Republic as social state has special relevance. The president Ilham Aliyev has highlighted in the performances: "Azerbaijan represents itself as the social state in the world. It is our policy". However unlike the developed European countries the concept "social state" it wasn't used in the Constitution of the Azerbaijan Republic. Thus, in the Constitution of the Azerbaijan Republic adopted in 1995 it is noted that "The Azerbaijani state is the democratic, legal, secular unitary republic (article 7.1), and the prime target of the state is ensuring the rights and freedoms of the person and citizen (article 12.1)".

We can note that the government of Azerbaijan strengthens legal bases of the social state and defines development of his certain spheres as the priority directions of construction of the social state in Azerbaijan.

**Мамедова С.**

**Резюме**

**КОНСТИТУЦИОННЫЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ СОЦИАЛЬНОГО ГОСУДАРСТВА В АЗЕРБАЙДЖАНЕ**

Есть страны, где национальная идеология заменяется конституцией, а конституция становится идеологически-политической основой национальных интересов. С этой точки зрения изучение конституционных основ Азербайджанской Республики как социального государства имеет особую актуальность. Президент Ильхам Алиев особо подчеркнул в своих выступлениях: «Азербайджан представляет себя как социальное государство в мире. Это наша политика». Однако в отличие от развитых европейских стран понятие «социальное государство» не использовалась в Конституции Азербайджанской Республики. Таким образом, в принятой в 1995 году Конституции Азербайджанской Республики отмечается, что «Азербайджанское государство является демократической, правовой, светской унитарной республикой (статья 7.1), а высшей целью государства является обеспечение прав и свобод человека и гражданина (статья 12.1)».

Можем отметить, что правительство Азербайджана укрепляет правовые основы социального государства и определяет развитие его отдельных сфер в качестве приоритетных направлений строительства социального государства в Азербайджане.

**Abdullayeva Şəfəq Hüseyn qızı**
*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## HEYDƏR ƏLİYEV - MÜKƏMMƏL XARİCİ SİYASƏTİN BANİSİ KİMİ

***Key words:*** *Leadership, effective governance, foreign policy, strategic cooperation, geopolitics, energy security, economic potential*

***Açar sözlər:*** *liderlik, effektiv idarəçilik, xarici siyasət, strateji əməkdaşlıq, geosiyasət, enerji təhlükəsizliyi, iqtisadi potensial.*

***Ключевые слова:*** *лидерство, эффективное управление, внешняя политика, стратегическое сотрудничество, геополитика, энергетическая безопасность, экономический потенциал*

XX əsrin 90-cı illərində Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman dünya miqyasında mürəkkəb və ziddiyyətli geosiyasi proseslər baş verirdi. Belə bir şəraitdə müstəqil dövlət qurmaq son dərəcə müdrik, yaradıcı və çevik yanaşma tələb edirdi. Müstəqillik və suverenlik anlayışları yeni məzmun çalarları kəsb etməyə başlamışdı. Hər bir ölkənin müstəqilliyi onun ətraf aləmlə qarşılıqlı münasibətlərinin xarakteri və məzmunu ilə sıx bağlı olurdu. Qlobal güclərin dünyanı bir-birindən "qarşılıqlı asılı olan" dövlətlər sistemi kimi qəbul etməsi bir tərəfdən əməkdaşlıq imkanlarını artırırdısa, digər tərəfdən bir sıra siyasi-ideoloji və geosiyasi modellərin ixracı üçün əsas hazırlayırdı. Bu səbəbdən müstəqilliyinə qovuşmuş dövlətlər xarici təsirlərlə daxili potensiallarını uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalmışdılar. Azərbaycan 1993-cü ildən başlayaraq bu vəzifənin öhdəsindən gəlməyə başladı.

Liderlik xüsusi istedad və qabiliyyət tələb edir. Milyonlarla insana rəhbərlik etmək üçün qüdrətli tarixi şəxsiyyət olmaq gərəkdir. Burada son dərəcə yüksək məsuliyyət tələb olunur. Heydər Əliyev qüdrəti XX əsr kimi mürəkkəb bir yüz ildə Azərbaycanın ümummilli lideri olmaq imkanı yaratdı. Sözün həqiqi mənasında o, müasir Azərbaycanın tarixi təkamülünə dinamika verdi. Ulu öndər müstəqil Azərbaycan dövlətçiliyinin qurucusu, siması və hərəkətverici qüvvəsi oldu. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

1993-cü ilin ikinci yarısından Azərbaycan sistemli bir xarici siyasət kursu götürmüşdür. Onun tərkibində qlobal geosiyasi mühitin nəbzini tutan, beynəlxalq münasibətlər sistemində dövlətimiz üçün əlverişli şərait yaradan, ölkənin bütün regionlarda yerləşən dövlətlərə əməkdaşlığını təmin edən istiqamətlər var. Bununla yanaşı, həmin kursda bazar iqtisadiyyatına keçid qarşısında yaradılan əngəlləri aradan qaldırılmasını və insan haqlarına əməl olunmasını təmin edəcək prioritetlər yer alıb [1].

Hazırda xarici siyasətin əsas istiqamətləri sırasında ikitərəfli əlaqələr əhəmiyyətli mövqeyini saxlamaqdadır. Bu zaman qarşılıqlı anlaşma prinsipi əsas götürülür. Beynəlxalq təhlükəsizlik baxımından həmin prinsip əhəmiyyətlidir. Azərbaycan xarici siyasətin əsas istiqamətlərini üç səviyyədə sistemləşdirmişdir.

**1.** Birinci səviyyə Azərbaycanla coğrafi qonşu olan böyük dövlətləri əhatə edir. Burada konkret olaraq Rusiya, Türkiyə və İran nəzərdə tutulur.

**2.** İkinci səviyyə Orta Asiya dövlətləri, Gürcüstan və Ermənistanla olan münasibətlərdən ibarətdir.

**3.** Üçüncü səviyyə isə Avropa, ABŞ və Uzaq Şərq də daxil olmaqla Asiya və islam dövlətləri istiqamətində aparılan siyasətdən ibarətdir. Bunların fonunda dünyanın bütün dövlətləri ilə siyasi əlaqələr qurmaq xətti yeridilir.

Müstəqil dövlət quruculuğundan danışarkən ölkənin xarici siyasət kursuna nəzər salmamaq mümkün deyildir. Müasir tarixi dövrdə xarici siyasətin daxili siyasətin davamı olması xüsusi məzmun və məna kəsb edir. Qlobal miqyasda baş verən sürətli geosiyasi dəyişikliklər suverenlik məsələsini daha da aktuallaşdırır. Dövlətin

suverenliyinin təmini strateji aspektdə prinsipial əhəmiyyət daşıyır. Həmin müstəvidə müstəqil dövlət quruculuğu ilə suverenliyin təmini məsələsinin bir-birini tamamlaması son dərəcə vacib vəzifəyə çevrilir. Şübhəsiz, xarici siyasət kursu bu kontekstdə əsas funksiyalardan birini yerinə yetirməlidir.

Xarici siyasət sahəsində əldə olunan uğurlar Azərbaycanın Avropaya və dünya birliyinə inteqrasiyasını daha da sürətləndirmişdir. Bu gün ölkəmiz beynəlxalq təşkilatların fəal üzvüdür. Azərbaycanla daha da sıx münasibətlər qurmaq istəyən ölkələrin sayı ildən-ilə artır. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məntiqli xarici siyasət dövlətimizi beynəlxalq aləmdə söz sahibi etmişdir. Bugünkü qüdrətli Azərbaycan Respublikasının milli və dövlətçilik baxımından maraqlarına yüksək səviyyədə cavab verən xarici siyasət strategiyasının əsas istiqamətlərini Ulu Öndər Heydər Əliyev müəyyənləşdirmişdir. Bu kursun əsas vəzifəsi dövlət müstəqilliyimizi qorumaq və möhkəmləndirmək, ölkənin təhlükəsizliyini, milli dövlətçilik hüquqlarını təmin etmək və beynəlxalq təhlükəsizlik sistemi ilə bağlamaqdan ibarətdir.

Hazırda Azərbaycanın dünyanın 176 dövləti ilə diplomatik münasibətləri vardır. Ölkəmizdə 81 diplomatik nümayəndəlik və konsulluq fəaliyyət göstərir. Öz növbəsində Azərbaycanın 62 ölkədə səfirliyi, 5 baş konsulluğu və 10 daimi nümayəndəlikləri mövcuddur. Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkilatında, BMT-nin Təhlükəsizlik Şurasında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında, YUNESKO-da, digər nüfuzlu təşkilatlarda Azərbaycanın xüsusi yeri vardır.

Beynəlxalq qurumlar Azərbaycandakı islahatları yüksək qiymətləndirirlər. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, beynəlxalq reytinq agentlikləri bizdə aparılan islahatları yüksək qiymətləndirirlər. Davos Dünya İqtisadi Forumu rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 35-ci yerə layiq görüb. Dünya miqyasında 35-ci yeri tutmaq, MDB məkanında isə birinci olmaq çox böyük nəticədir. İnklüziv inkişaf indeksinə görə, Azərbaycan inkişafda olan ölkələr arasında üçüncü yerdədir. Bu siyahıda cəmi 80-ə yaxın ölkə var. Onu da qeyd etməliyəm ki, biz MDB məkanında bu göstəriciyə görə də birinci yerdəyik. Ermənistana gəldikdə isə o, 45-ci yerdədir və buna görə də çox sevinir, toy-bayram edir. Biz isə üçüncü yerdəyik və bizdən qabaq ancaq inkişaf etmiş ölkələrdir, onların da sayı 30-dur. İnkişaf etmiş ölkələrin

reytinqinə 30 ölkə daxil edilib və 80-ə yaxın ölkə inkişafda olan ölkədir. İnkişafda olan ölkələr arasında biz üçüncü yerdəyik. Deməli, dünya miqyasında inklüziv inkişaf indeksinə görə biz 33-cü yerdəyik. Rəqabət qabiliyyətliliyə görə isə 35-ci yerdəyik [2].

Ölkəmiz Avropa İttifaqının TRASEKA, "Yeni Qonşuluq", "Şərq tərəfdaşlığı" kimi proqramlarının aktiv iştirakçısıdır. Bütün bunlara görə Azərbaycan ulu öndər Heydər Əliyevə borcludur.

**Ədəbiyyat**


1. Novruz Məmmədov. Mükəmməl xarici siyasətin banisi // Azərbaycan**.**-2015.-1 may.-№ 92.-S.2.
2. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransında Prezident İlham Əliyevin çıxışından.



**Abdullayeva Sh.**


**Summary**

**Heydar Aliyev - The Founder of the Perfect Foreign Policy**


İn the "Heydar Aliyev - The Founder of the Perfect Foreign Policy" article examines the leadership qualities of Heydar Aliyev as the founder of the Republic of Azerbaijan, gives information about its effective activity in the socio-economic development of the republic and the course of its excellent foreign policy and analyzes the position of Azerbaijan in the world thanks to its political leadership ability and the results are presented.



**Абдуллаева Ш.**


**Резюме**

**Гейдар Алиев - основатель идеальной внешней политики**

В статье «Гейдар Алиев - основатель идеальной внешней политики» рассматриваются лидерские качества Гейдара Алиева как основателя Азербайджанской Республики, дается информация о его эффективной деятельности в социально-экономическом развитии республики и ходе ее превосходной внешней политики и анализируется позиция Азербайджана в мире благодаря его способности к политическому лидерству. результаты представлены.

**Kazımova Sevinc Beydulla qızı**

*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇLIQ

***Açar sözlər:*** *siyasət, inkişaf, müasirlik*

***Key words:*** *policy, development, modernity*

***Ключевыеслова:*** *политика, развитие, современность*

Qocaman Şərqi Azərbaycansız təsəvvür etmək qeyri-mümkündür. Bu diyar özünün qədim, ulu tarixi, zəngin sərvəti, qüdrətli şəxsiyyətləri, dünya mədəniyyətinin qızıl fonduna bəxş etdiyi yaradıcı insanları ilə bəşər tarixində əbədi yerlərdən birini tutur. Heydər Əliyevin ömür yolu millətin, bütünlükdə Azərbaycanın taleyi, səadət və xoşbəxtliyi üçün qüdrətli zəmanət olub, vətənin hər bir guşəsinə işıq saçdı. Biz onun keçdiyi həyat yolunu ötəri də olsa nəzərimizdə canlandırsaq bir neçə komponentlər üzrə tam bütöv, ecazkar portretini canlı və müəzzəm şəkildə gözlərimiz önünə gətirə bilərik. Bu nadir şəxsiyyətin işi, əməli, dünyagörüşü heç vaxt konyukturaya hakim sosial-siyasi axarı, çeşidli ideya streotipləri, lokal, yaxud qlobal vəzifə səlahiyyəti çərçivələri daxilində də bir sabit məsləkə-mahiyyətdə, alt qatla həmişə əbədi milli-mənəvi ideala, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə sadiq qalmağa yollar tapa bilir. “M.F.Axundovun əlifba təlimi, M.Ə.Sabirin vətən, millət məfkurəsi, Ə.Hüseynzadənin, H.Cavidin dildə, düşüncədə inteqrasiya ideyaları hamısı hələ həmin illərdən Heydər Əliyevin fəaliyyətində perspektiv və strateji dövlət siyasətinə, dövlətçilikdə strateji proqramın tərkib hissəsinə, elm və fəlsəfədən əməli siyasət müstəvisinə keçir” [Qarayev, 2002, 629]. 1981-ci ildə “Literaturnaya qazeta” da H.Əliyevin çap etdirdiyi “Qoy ədalət zəfər çalsın...” adlı yazısı klassiklərə, onların yaradıcılığına, ənənə və novatorluğa, nəsillər arasındakı rabitəyə, ədəbi vərəsəliyə

düzgün münasibətin ən bariz ifadəsi kimi səslənir. O özünün böyük əcdadı, əsərlərini sevə-sevə oxuduğu, əsərlərinin geniş, dünya miqyasında təbliğinə diqqəti bir anda zəiflətmədiyi dahi Nizaminin humanist ideyalarına arxalanaraq, tez-tez ona istinad edərək bu günün bir çox problemini çox böyük məharət və ustalıqla aydınlaşdırmağa müvəffəq olur. Demək olar ki, yazıçıların bütün qurultaylarında çox səbirlə, təmkinlə iştirak edən bu sənət dostu hər zaman ədəbiyyatla nəfəs almış, Nizamilər, Xaqanilər, Nəsimilər, Füzulilər, Vaqiflər, Sabirlər, Şəhriyarlar və neçə-neçə başqaları onun sevimli müəllifləri olmuş, onların qədr-qiymətini bilmişdir. O, yazmışdır ki, klassik Azərbaycan ədəbiyyatı öz inkişafında insana böyük məhəbbətlə dolu olan ecazkar, fəlsəfi lirikanın, orta əsrlərin ictimai və ənənəvi buxovları əleyhinə çevrilmiş üsyankar, azad fikirli şeirinin parlaq yollarından keçmişdir” [Əliyev, 1999, 79].

Heydər Əliyev böyük ustad şairimiz Şəhriyar haqqında da yığcam, lakonik söz söyləmişdir: “Şəhriyar poeziyası dövrün ictimai-siyasi, fəlsəfi və ədəbi görüşlərinin əksidir. O böyük sənətkar, klassik-romantik poeziyanın mütərəqqi ənənələri ilə bədii ünsiyyətini qoruyaraq, dövrünün novator sənətkarı kimi çağdaş şeirin inkişafında müstəsna rol oynayan yeni ədəbi məktəbin yaranmasına nail olmuşdur” [Əliyev, 1999, 462].

Doğrudan da, hər hansı elmin müəyyən sahəsinin qədərincə böyük bilicisi, professional mütəxəssisi olmaq mümkündür. Lakin insanın, həm də yaradıcı insanın bütün zehni idraki qabiliyyətinin hər birində bu qədər müvəffəq olmaq müskül məsələdir. Halbuki H.Əliyev bu sahələrin hər birində alternativsizdir, analoqu yoxdur. O, həmin sahələrin hər birini son dərəcə məharətlə, harmonik və sintetik şəkildə birləşdirməyi bacarırdı.Yaxud ümumi problematik, konseptual problemləri cəsarətlə qaldıraraq həll etmişdir: “Biz Nizaminin, Xaqaninin, Füzulinin, adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi və müdrik və istedadlı olduğunu bir daha dərk edirik. Eyni zamanda bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar” [Əliyev, 1999, 413].

H.Əliyev ədəbi tənqid haqqında da, mövzu, xarakter məsələləri barədə də orijinal mülahizələr yürütmüşdür: “Ədəbi prosesin inkişafında tənqidin rolu böyükdür... Ən əvvəl tənqidçilərimizin və ədəbiyyatşünaslarımızın məqalə və kitablarının ideya və bədii səviyyəsi dönmədən yüksəldilməlidir. Axı, bədii əsərin və ya ədəbi hadisənin yalnız

sərіştəli, prinsipial, obyektiv və xeyirxah təhlili müəllifə və oxucuya fayda verə bilər. Axı, tənqidin məqsədi yazıçıya, onun sənətkarlığının artmasına kömək etməkdir. Tənqid ədəbiyyatın mənafeyindən asılı olmayaraq, yazıçıların özlərinin mənafeyinə xidmət etməlidir” [Əliyev, 1999, 88].

Buradan aydın olur ki, Heydər Əliyev, sözün həqiqi mənasında bir ədəbiyyat tənqidçisi kimi də diqqətimizi çəkir və onun təhlilləri, gəldiyi nəticələr doğru, düzgün, elmi cəhətdən əsaslandırılmış olmaqla, həm də indi bizim günlər üçün də çox aktualdır və gələcəkdə də həmin müasirliyini və əhəmiyyətini saxlayacaqdır. H.Əliyev bir çox hallarda bədii təfəkkür məhsulunu siyasi-ictimai şüurla, idealogiya ilə bağlamışdır. Böyük ədiblərin bədii irsini bu sahədə etibarlı təməl kimi qiymətləndirmişdir. Məsələn, o, böyük demokrat C.Məmmədquluzadənin 125 illiyinə həsr olunmuş yubiley gecəsindəki nitqində deyirdi: “C.Məmmədquluzadəyə sadəcə bir ədəbiyyatçı kimi, publisist kimi yox, eyni zamanda böyük ictiami xadim kimi, böyük siyasətçi kimi yanaşmalıyıq” [Əliyev, 1999, 78].

H.Əliyev böyük sənət adamlarına həmişə dayaq olmuş, onların əsərlərindən keçən ağrı və acıları, bioqrafiyalarındakı fəci və iztirablı halları öz dərdi, öz kədəri kimi qəbul etmişdir; hətta yeri gələndə onlar üçün kövrəlmişdir. O, qeyd edirdi ki, “Cəlil Məmmədquluzadənin həyatının son illəri barəsində söylənilənləri dinləyərkən, oxuyarkən dəhşətə gəlirsən, inciyirsən və bəzən də anlamırsan ki, necə ola bilərdi ki, Cəlil Məmmədquluzadə kimi bir şəxsiyyət elə bir ağır şəraitdə yaşasın və elə bir əzab-əziyyət içərisində dünyasını tərk etsin. Ancaq bunlar həqiqətdir. Bunlar Cəlil Məmmədquluzadənin parlaq yaradıcılığı ilə, dahiliyi ilə yan-yana bizim tarixi keçmişimizin əzab-əziyyətidir, ağrı-acısıdır. Biz bunları dadmışıq, görmüşük, keçmişik və güman edirəm ki, bunlar bizim həyatımızda daha heç vaxt təkrar olmamalıdır” [Əliyev, 1999, 83].

Nəticə etibarilə demək istəyirik ki, Heydər Əliyevin əsərlərini “Qutadqu bilik”lə müqayisə etmək olar. “H.Əliyevin kitabları məhz “Xoşbəxtlik haqqında elm”- dünyaya ilk dəfə türk dövlətçiliyi haqqında informasiya yayan bu kitabla müqayisədə qiymətləndirilə bilər. Onun kitablarını “Müstəqillik haqqında elm” kitabı adlandırmaq olar” [Qarayev, 2002, 83]. Biz isə hesab edirik ki, onun ədəbiyyata dair kitablarını Aristotelin “Poetika”sı ilə müqayisə etmək olar. “Heydər Əliyev Azərbaycana qəlbən, ruhən, qan və gen yaddaşı ilə bağlıdır, Azərbaycan millətinə bütün ruhuyla, qanıyla

sədaqətlidir. O, Azərbaycan milli mənəviyyatıyla nəfəs alır. Azərbaycan prezidenti Heydər Əliyev qeyri-adi Azərbaycan sevgisi ilə, doğma xalqına sonsuz məhəbbəti ilə dünyada yaşayan əlli milyonluq bütün azərbaycanlılara əsl nümunədir, canlı örnəkdir. Çünki o, qeyrətli, qətiyyətli, fədakar fəaliyyəti, fenomenal müdriklik zirvəsi ilə Dədə Qorqudların, Şah İsmayıl Xətailərin, Mirzə Fətəli Axundovların, Mirzə Cəlillərin böyük işini, böyük Azərbaycan sevgisini davam və inkişaf etdirir. O, bu qarşısıalınmaz davam və inkişafı ilə əbədi qalibdir, dahi xilaskardır" [Xəlilov, 2002, 16].

Eyni zamanda Ulu öndər Heydər Əliyev Tanrının Azərbaycan xalqına göndərdiyi xeyirxah insan, dərin zəkaya malik, fitri qabiliyyətli, dünyada qəbul edilən bir siyasətçi olmuşdur. Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi 1969-1987-ci illər Azərbaycanın SSRİ tərkibində olduğu dövrü əhatə edir. Bu dövrdə Respublikamızda aparılan tikinti işləri onun bütün mövcudluğu dövründəkindən çox olmuşdur. Ulu öndərin respublikaya rəhbərlik etdiyi bu illər Azərbaycan tarixinə iri və ağır sənaye müəssisələrinin az qala iki dəfə artdığı, kənd təsərrüfatında ölkə tarixində görünməmiş naliyyətlərin əldə edildiyi, təhsil sahəsində maddi-texniki bazanın, həmçinin keyfiyyətin güclü artımı dövrü kimi tanınmışdır.

Onun qayğısı və himayədarlığı sayəsində Azərbaycan elmi, ədəbiyyatı, incəsənəti, mədəniyyəti beynəlxalq miqyasa çıxdı və tanındı. Rəssam və bəstəkarların əsərlərinin səsi-sorağı dünyanın məşhur sərgilərindən və konsert salonlarından eşidildi. Heydər Əliyev həm də imkansız ailələrdən çıxmış on minlərlə gəncin respublikanın, həmçinin keçmiş ittifaqın müxtəlif şəhərlərindəki ali məktəblərində təhsil almalarına şərait yaratdı.1970-1982-ci illərdə Ulu öndərin qayğısı sayəsində SSRİ-nin ali məktəblərində nə az, nə çox - 17 min azərbaycanlı gənc təhsil almışdı. Heydər Əliyevin həyata keçirdiyi ən mühüm tədbirlərdən biri respublikanın ali məktəblərində tələbə qəbulu zamanı qanunsuzluqların və sui-istifadə hallarının aradan qaldırılması oldu. Bu Heydər Əliyev tərəfindən görülən işlərdə müasirliyin bariz nümunəsi idi.

Ulu öndərimiz yalnız Azərbaycan xalqının deyil, keçmiş ittifaqın bütün ərazisində olan xalqların tarixinə, dünyanın siyasət tarixinə öz adını yazmış böyük Azərbaycanlıdır. Təbiət tərəfindən ona verilmiş dərin zəka, möhkəm iradə, yüksək idarəçilik qabiliyyəti, xalqına sonsuz məhəbbət onu Ümummilli lider səviyyəsinə yüksəltmişdir. H.Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə ölkəmiz çox uğurlu inkişaf yolu keçmişdir. Birinci dövrü quruculuq, böyük nailiyyətlər, iqtisadiyyatın, həyatımızın bütün sahələrinin

yeniləşməsi, müasirləşməsi dövrü kimi xarakterizə ediriksə, ikinci dövrdə müstəqilliyimizin qorunması, möhkəmləndirilməsi, bugünki Azərbaycanın uğurları üçün zəmin yaradılmışdır. Bu günki uğurlarımızın ümumiləşdirilmiş ifadəsi olaraq deyə bilərik ki, ulu öndər Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdı, dünyanı isə Azərbaycana gətirdi. Azərbaycanın müstəqil dövlət kimi varlığını qoruyub, dünya birliyinin layiqli üzvünə çevirən Ümummilli lider Heydər Əliyev bildirirdi ki, müstəqillik yollarında yenicə addımlarını atan hər bir ölkənin qarşısında dayanan əsas vəzifələrdən biri ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə qurulmasıdır. Dahi şəxsiyyət xilaskarlıq missiyasını uğurla həyata keçirərək düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın bugünki uğurlarının təməlini qoydu.

Ulu öndər Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycan mədəniyyəti sözün həqiqi mənasında çiçələnmə dövrünü yaşadı. 1969-1982-ci illərdə memarlıq və şəhərsalma, monumental incəsənət, təsviri sənət, musiqi, kino, teatr sahəsində misli görünməmiş tərəqqi-müasirləşmə baş verdi. İmadəddin Nəsimi, Cəfər Cabbarlı, Səməd Vurğun, Nəriman Nərimanov və başqa ədiblərin şərəfinə ucaldılmış heykəllərin təşəbbüskarı məhz Heydər Əliyev oldu.

Heydər Əliyevin mədəniyyət sahəsində xüsusi xidmətləri olmuş şəxsiyyətlərə Prezident təqaüdü təsis etməsini isə incəsənətimizin inkişafı yolunda xüsusi tarixi addımı kimi dəyərləndirmək olar.

Keçmiş sovetlər dönənimdə dörd yazıçı və şair - Süleyman Rəhimov, Mirzə İbrahimov, Rəsul Rza, Süleyman Rüstəm, üç bəstəkar - Qara Qarayev, Fikrət Əmirov, Maestro Niyazi, müğənni Rəşid Behbudov, memar Mikayıl Abdullayev, rəssam Tahir Salahov Sosialist Əməyi Qəhrəmanı adına layıq görüldülər. Danılmaz həqiqətdir ki, bu görkəmli insanların çətin maneələr aşmasında ilkin köməyi, dəstəyi məhz Ümummilli lider Heydər Əliyev göstərib.

Milli kino sənətimizin inkişafında da ulu öndərin xidmətləri xüsusi qeyd olunmalıdır. Bir sıra filmlərimizin - “Uzaq sahillərdə”, “Nəsimi”, “Babək” və s. ərsəyə gəlməsində ulu öndərin şəxsi təşəbbüsü olmuşdur. Heydər Əliyev ikinci dəfə xalqın tələbi ilə hakimiyyətə gələndən sonra dövlət sifarişi ilə filmlərin istehsalına başlandı, kinostudiyanın fəaliyyəti bərpa olundu. Dövlət Film Fondu yaradıldı. Bütün bunlarla

yanaşı ölkədə beynəlxalq kino festivalları keçirilməyə, kino günləri, ssenari müsabiqələri və s. təşkil olunmağa başlandı.

Heydər Əliyev tərəfindən təməli qoyulmuş mədəni əlaqələr bu gün də Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın xüsusi diqqəti əsasında davam etdirilməkdədir.

1998-ci ildə təhsil sahəsində İslahat Proqramının hazırlanması üçün xüsusi dövlət komissiyası yaradıldı. Bununla da Azərbaycan təhsilinin gələcək inkişaf konsepsiyası müəyyənləşdirildi. 1993-2003-cü illərdə tələbələrin xaricdə təhsil almağa göndərilməsi işi də davam etdirildi. 2003-cü ildə dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alırdı.

Heydər Əliyevin hərbi milli kadrların yerləşdirilməsindəki əməyi də danılmazdır. Onun qayğısı ilə minlərlə gənc keçmiş SSRİ-nin ali hərbi məktəblərinə təhsil almağa göndərildi.

1971-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına ilk hərbi məktəb yaradıldı. Bu qərar o dövr üçün böyük cəsarət tələb edirdi. İndi həmin məktəbin məzunları Azərbaycan ordusunun qurucularıdır.

Böyük mədəni irsə malik olan bir xalq kimi Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki yerinə daim böyük ehtiramla yanaşmışdır. Əlamətdar hadisələrlə səciyyələnən qadın hərəkatı dinamik inkişaf yolu tutan ölkəmizdə demokratikləşmə və dövlət quruculuğu prosesində Azərbaycan qadınının fəal iştirakı üçün möhkəm zəmin yaratmışdır. Elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı uğurlar qadınlarımızın nə qədər böyük potensiala malik olduğunu nümayiş etdirir.

Bütün həyatı boyu qadınlara böyük hörmət, dərin ehtiram bəsləyən ümummilli liderimiz Heydər Əliyev cəmiyyətdə onların rolunun artmasına daim diqqət göstərmiş, qayğısını əsirgəməmişdir. Məhz Heydər Əliyevin diqqət və qayğısı sayəsində hələ ötən əsrin 70-90-ci illərində Azərbaycan qadınları fəxri adlara layiq görülmüş, şərəfli əməyinə görə orden və medallar almış, qanunvericilik orqanlarında layiqincə təmsil olunmuşlar.

Bu bir həqiqətdir ki, ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdan ulu öndərimiz ölkə iqtisadiyyatının idarə olunmasında, elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafında yenə də qadınlara üstünlük vermişdir. 1998-ci ilin yanvar ayında ölkəmizdə Qadın problemləri üzrə Dövlət Komitəsinin yaradılması dövlətin

qadınlara münasibətində apardığı müasirlik siyasətinin bariz nümunəsi idi. Elə həmin ilin sentyabrında Azərbaycan qadınlarının ilk qurultayının keçirilməsi Müstəqil Azərbaycanın tarixində, eləcə də qadın hərəkatı tarixində əlamətdar hadisə idi. Heydər Əliyevin 2000-ci ildə imzaladığı "Azərbaycan Respublikasında Dövlət Qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman isə qadınlarla bağlı dövlət siyasətinin ən yüksək səviyyədə qurulmasının real sübutu idi. Həmin fərmandan sonra qadınlarımızın ictimai fəallığı daha da artdı. Çünki bu fərman bərabər hüquqlar və bərabər imkanlar siyasətinə yeni bir yol açdı. Belə ki, bu gün Azərbaycanın qüdrətli bir dövlətə çevrilməsində qadınlarımız əllərindən gələni əsirgəmirlər. Bu gün ölkəmizdə - Qadın siyasətinin uğurla həyata keçirilməsinin nəticəsidir ki, neçə-neçə qadınlarımız ən yüksək vəzifələrdə - dövlət icra strukturlarında, qanunvericilik orqanlarında çalışmaqla üzərlərinə düşən işin öhdəsindən layiqincə gəlirlər.

Ümummilli lider Heydər Əliyev həm də, müasir Azərbaycanın siyasi həyatının ən əlamətdar hadisələrindən olan Yeni Azərbaycan Partiyasının yaradıcısıdır. Partiyanın hansı şəraitdə, hansı zərurətdə yarandığı aydındır. Bu o dövr idi ki, Azərbaycan o vaxtkı rəhbərliyi, AXC - müsavat iqtidarı Azərbaycanı uçurum qarşısında qoymuşdu. Ölkədə xaos baş alıb gedirdi. Bir tərəfdən ölkədə siyasi gərginlik, digər tərəfdən torpaqlarımızın ermənilər tərəfindən işğalı xalqın səbr kasasını doldurmuşdu. Belə bir şəraitdə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi. 91 nəfər Azərbaycan ziyalısının ulu öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir" müraciəti ölkə ictimaiyyəti arasında böyük canlanma yaratdı. Bu, yalnız 91 nəfərin deyil, ölkədə baş alıb gedən özbaşınalıqdan, siyasi gərginlikdən cana doymuş bütöv bir xalqın Heydər Əliyevə böyük ümidinin ifadəsi idi. Yeni Azərbaycan Partiyasının təsis konfransı 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirildi və ulu öndər Heydər Əliyev YAP-ın sədri seçildi. Konfransda Azərbaycanın əksər rayonlarından cəmiyyətin bütün təbəqələrini təmsil edən 550-dən artıq nümayəndə iştirak edirdi. Ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətləri danılmazdır. Bu günkü müstəqil müasir, demokratik, iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycan onun şah əsəridir.

Ümummilli lider Heydər Əliyev 2003-cü il prezident seçkilərindən öncə xalqa müraciətində demişdi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir.

Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu fikirləri sərf-nəzər edərkən bir daha aydın olur ki, "O, ardıcıl, bütöv sistem təşkil edən tarixi yubiley tədbirləri, ümumxalq toplantıları, qlobal miqyaslı maddi və mənəvi səfərbərlik, quruculuq işləri ilə Azərbaycanın yaxın-uzaq imperiya maraqları ilə itirilən tarixi yaddaşını, dövlətçilik və mədəniyyət, qılınc və qələm yaddaşını oyatdı, səfərbər edərək yeni dövrün yeni uğurlu yollarına istiqamətləndirdi; o, demək olar ki, bu fundamental azərbaycançılıq fəaliyyəti ilə Azərbaycanı Azərbaycan qaytardı. Heydər Əliyevin tariximizdəki yeri, mövqeyi məhz belə qlobal elmi-analitik təhlil, yanaşma tərzi tələb edir. Yalnız belə qlobal yanaşma tərzi ilə Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev müdrikliyinin tam miqyasını görmək və göstərmək olar" [Xəlilov, 2002, 11] .

Beynəlxalq təşkilatların hesabatlarında Azərbaycan demokratiyasının nümunə göstərilməsi, dinamik iqtisadi alternativsizliyi dünyanın tanınmış siyasətçiləri, politoloqları, nüfuzlu araşdırmalar mərkəzləri tərəfindən xüsusi qeyd edilərək ən yüksək mükafatlara layiq görülməsi də bu fikrin təsdiqi, Heydər Əliyev ideyalarının təntənəsi və qələbəsidir.

**Ədəbiyyat**

1. Əliyev H. Mədəni irsimizin keşiyində. Bakı, 2001
2. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, 1999
3. Prezident 1993-1997. Bakı: West Print Digital Design Center, 1998
4. Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002
5. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı, 1997
6. Qarayev Y. XIX-XX yüzilliklər Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 2002

**Kazimova S.**

**Summary**

**Heydar Aliyev and modernity**

Heydar Aliyev, as a phenomenal person represented our nation, and thanks to his farsightedness he could convert course of happened events to the right direction. Great leader lived with a sense of endless love to his country, his nation and motherland, with the desire to build and create and was linked to the national ideals in all stages of his political activity. He lived with the desire to see native Azerbaijan as a leading country and our people as the happiest nation. As a result of it, in our republic the important areas as economy, education, medicine, culture have been developed to meet international standards.

Heydar Aliyev who was taken a rescue mission twice preserved historical, cultural and literary heritage and was the founder of the modern society. Nowadays Azerbaijan as an independent, democratic and modern country is able to speak up in the world stage.

**Казимова С.**

**Резюме**

**Гейдар Алиев и современность**

Гейдар Алиев, как феноменальная личность представлял свой народ и благодаря своей дальновидности мог направлять ход событий в нужное русло. Во всех этапах своей политической деятельности, великий лидер жил с бесконечной любовью своей родине, своему народу и земле, с желаниями построить и создать и всегда был верным национальным идеалам. Он хотелвидеть родного Азербайджана передовой и развитой страной, а своего народа самым счастливым. В результате у нас в республике такие важные области, как экономика, медицина, образование, культура стали соответствовать мировым стандартам.

Гейдар Алиев, дважды взяв на себя миссию спасателя, оберегал историко-культурное, литературное наследие, также был создателем современного общества. Теперь Азербайджан как независимое, демократическое и современное государство, в состоянии сказать свое слово на мировой арене.

**Kərimli Turan Arif qızı**

*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## HEYDƏR ƏLİYEVİN MİRASI-TOLERANTLIĞIN ÜNVANI AZƏRBAYCAN

*Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü.*

*Hüseyn Cavid.*

*Açar sözlər: Heydər Əliyev, multikulturalizm, tolerantlıq, Heydər Əliyev Fondu, Beynəlxalq layihələr*

2. Heydər Əliyev azərbaycançılığın tərkib hissəsi olan Azərbaycan dilini məişət, poeziya və proza dilindən diplomatiya, dövlət, eyni zamanda siyasət dili səviyyəsinə qaldırdı.
3. Onun azərbaycançılıq məfkurəsinə gətirdiyi yenillik və kamillik ondan ibarətdir ki, o, ictimai şüurla, milli şüur və dövlətçilik şüuru arasında harmoniya yarada bildi.
4. Heydər Əliyevin azərbaycançılıq məfkurəsi ilə bağlı tövsiyyəsinin böyüklüyü ondadır ki, biz milli mentalitetimizi itirmədən, həm də onunla birgə dünyaviləşməliyik.
5. Heydər Əliyevin daha da təkmilləşdirdiyi azərbaycançılıq məfkurəsinin ən böyük gücü ondadır ki, o yalnız ümumdünya Azərbaycanlılarını deyil, eyni zamanda Azərbaycanda yaşayan bütün etnosları və etnik qrupları vahid məkanda, vahid coğrafi ərazidə və vahid milli ideologiya ətrafında birləşdirdi.

Heydər Əliyevin «Müstəqilliyimiz əbədidir» formulu da təsdiq edir ki, azərbaycançılıq ideologiyası Heydər Əliyevə güclü hakimiyyət yaratmaq üçün deyil, güclü dövlət qurmaq üçün lazım idi. Azərbaycançılıq ideologiyası Heydər Əliyevə millətin vahid coğrafi və mənəvi məkanda monalit birliyinə nail olmaq üçün lazım idi. Ona görə də o, həmişə və hər yerdə hakimiyyətin əbədiliyini deyil, müstəqilliyimizin əbədiliyini önə çəkirdi. Heydər Əliyevin Azərbaycançılıq təliminin müqəddəs vəzifəsi kütləni vahid, ümummilli ideya ətrafında birləşdirərək onu monolit birliyə malik, ayrılmaz və bölünməz millətə çevirmək idi. Heydər Əliyevin azərbaycançılıq ideologiyasının ictimai-siyasi, fəlsəfi qayəsi və yeni modeli budur.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqillik yolu, Bakı, 1997.

2. Heydər Əliyev mədəni irsimizin keşiyində, I kitab. Bakı, 2001.

3. H.Əliyevin dünya Azərbaycanlılarının I qurultayındakı nitqi. «Azərbaycan» qəzeti. 10 noyabr, 2001.

4. Yaşar Qarayev. Min ilin sonu, Bakı, 2002.

5. Nizaməddin Şəmsizadə. Azərbaycançılıq. Bakı, 2006.

6. Dirçəliş XX əsr. Fevral, 1999, № 12.

Gasimov C.

**Summary**

**HEYDAR ALIYEV'S NATIONAL IDEOLOGY MODEL**

The article touches upon such an important and actual issue as the ideology of Azerbaijanhood. The origin, formation, at the same time the history of development road of this ideology is looked through the innovations which were brought by Great leader Heydar Aliyev to our national ideology become the subject of scientific research. The main ideas of the author, such as: "The ideology of Azerbaijanhood and language","The ideology of Azerbaijanhood – our national - moral and İslamic values", "The ideology of Azerbaijanhood – national - consciousness and national-intellectual thinking", "The ideology of Azerbaijanhood and secularism" have found their conceptual solution in his article.

**Гасымов Ч.**

**Резюме**

**МОДЕЛЬ НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ ГЕЙДАРА АЛИЕВА**

В статье затрагивается один из самых важных и актуальных вопросов, как идеология Азербайджанства. Происхождение, формирование, в то же время история развития пути этой идеологии просматривается новшествами, которые Общенациональный лидер Гейдар Алиев принес в нашу национальную идеологию, стали предметом научных исследований. Основные идеи автора, такие как:

«Идеология Азербайджанства и языка», «Идеология Азербайджанства - наши национально-нравственные и исламские ценности», «Идеология Азербайджанства - национальное сознание и национально-интеллектуальное мышление», «Идеология Азербайджанства и светскости» нашли свое концептуальное решение в своей статье.

**İmanov Muxtar Kazım oğlu**
*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## HEYDƏR ƏLİYEV VƏ ÜMUMTÜRK FOLKLORU

***Açar sözlər:*** *Heydər Əliyev, "Kitabi-Dədə Qorqud", epos, dövlətçilik düşüncəsi, dövlət müstəqilliyi, etnik yaddaş*

***Key words****: Heydar Aliyev, "The Book of Dada Gorgud", epic, statehood, thought, independence, ethnic memory*

***Ключевые слова:*** *Гейдар Алиев, «Книга Дада Горгуд», эпопея, государственность, независимость, этническая память*

Heydər Əliyevin elm və mədəniyyətin inkişafı istiqamətində gördüyü işlər ona xas sistemlilik, ardıcıllıq və gələcəyə hesablanması ilə seçilmişdir. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən bir il sonra – 1994-cü ildə Azərbaycan folklorşünaslığı üçün yaddaqalan hadisə baş vermiş, Azərbaycan Milli Elmlər Akademiyasında xüsusi statuslu qurum – "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzi yaradılmışdır. Bu həmin qurumdur ki, 2003-cü ildə Heydər Əliyevin tövsiyəsi ilə Folklor İnstitutuna çevrilmişdir.

Heydər Əliyevin "ana kitabımız" adlandırdığı [Əliyev, 2000, 5-12] "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsi haqqında 1997-ci il 20 aprel tarixli fərmanı, ulu öndərin təşəbbüsü ilə YUNESCO səviyyəsində həmin eposa aid tədbirlərin təşkil edilməsi müstəqil Azərbaycanın ilk nəhəng elmi-mədəni tədbirlərindən biri kimi mühüm əhəmiyyət daşımışdır.

Heydər Əliyevin "Kitabi Dədə Qorqud" eposunun 1300 illik yubileyi ilə bağlı tarixi fərmanı bu epos haqda, bu eposun meydana gəlmə dövrü, ideya-bədii

xüsusiyyətləri və dili haqda yenidən düşünüb-daşınmaq zərurəti yaratdı. "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik tarixini qeyd etmək Azərbaycan ədəbi dilinin 1300 illik tarixini qeyd etmək demək idi. Bu, o demək idi ki, Azərbaycan ədəbiyyatında türkdilli ədəbi əsərlərin tarixinin ən azı VII əsrdən başladığını söyləməyə əsas var. Heydər Əliyev heç də təsadüfən qeyd etmirdi ki, "bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır.

Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" 1300 ildir ki, yaşayır. Əgər 1300 ildən də öncə "Kitabi-Dədə Qorqud" dastanlarının yaranması üçün xalqlarımızın nə qədər səylər qoyduğunu və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır" [Milli-mənəvi dəyərlərimizə, xalqımızın çoxəsrlik tarixinə hörmət, ehtiram bayramı, "Azərbaycan" qəzeti, 2000].

"Kitabi-Dədə Qorqud"un 1300 illiyi ilə bağlı tarixi fərman bir tərəfdən bu eposun ilk rüşeymlərinin VII əsrdə yaranmasını diqqət mərkəzinə çəkirdisə, digər tərəfdən hansı coğrafiyanın eposda daha qabarıq görünməsinə diqqəti yönəldirdi. "Kitabi-Dədə Qorqud"un nə dərəcədə Azərbaycan, nə dərəcədə ümumtürk, nə dərəcədə dünya mədəni hadisəsi olması Heydər Əliyevin eposa dair mülahizələrində xüsusi yer tuturdu: "Dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə həmişəlik daxil olmuş "Kitabi-Dədə Qorqud" dastanının Azərbaycan xalqının, bütün türk xalqlarının qədim və zəngin mədəniyyətinin təbliğinə xidmət edən beynəlxalq əhəmiyyətli hadisə olduğunu nəzərə alaraq onun 1300 illik yubileyinin layiqincə hazırlanması və keçirilməsi məqsədilə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında fərman imzaladım" [Əliyev, 2000, 5-12]. Dünya miqyaslı mənəvi sərvət olan "Kitabi-Dədə Qorqud"un yalnız Azərbaycan xalqının yox, bütövlükdə türk xalqlarının mədəniyyətinin təbliğində mühüm əhəmiyyət daşıdığını, türk xalqlarının mədəni birliyində xüsusi rol oynadığını ciddi şəkildə nəzərə aldığına görədir ki, Heydər Əliyev 1300 illik yubiley tədbirini Türkdilli Dövlətlər Birliyinin VI Bakı Zirvə görüşü ilə eyni vaxtda keçirilməsini daha məqsədəuyğun hesab etdi: "Dünən Türkdilli Dövlətlər Birliyinin VI Bakı Zirvə görüşü öz işini uğurla sona çatdırdı. Biz bu Zirvə görüşündə

Türkdilli Dövlətlər Birliyi yaranan vaxtdan keçmiş 8 il ərzində gördüyümüz işləri təhlil etdik, ona nəzər saldıq və böyük nailiyyətlər əldə etdiyimizi bildirdik. Təbiidir ki, Türkdilli Dövlətlər Birliyinin yaranması, türk dünyasında, bizim xalqlarımızın hər birinin həyatında tarixi hadisə olmuşdur. Amma 8 il ərzində onun yaşaması, inkişaf etməsi, genişlənməsi bu birliyin yaranmasının bir tərəfdən nə qədər zəruri olduğunu nümayiş etdirirdi, ikinci tərəfdən də bu birliyin bizim xalqlarımız üçün gələcəkdə nə qədər gərəkli olduğunu göstərdi…

Bu gün biz hamımız VI Zirvə görüşünü uğurla başa çatdıraraq, xalqlarımızın müştərək abidəsi olan "Kitabi-Dədə Qorqud"un yubileyinə toplaşmışıq. Bu yubileyi daha da çox əhəmiyyətli edən, onun səviyyəsini qaldıran odur ki, biz onu türkdilli dövlətlərin başçıları ilə birlikdə keçiririk" [Milli-mənəvi dəyərlərimizə, xalqımızın çoxəsrlik tarixinə hörmət, ehtiram bayramı, "Azərbaycan" qəzeti, 2000].

1300 il əvvəl yaranması xüsusi olaraq diqqətə çatdırılan, Azərbaycan xalqı ilə yanaşı, digər türk xalqlarının də ədəbi abidəsi kimi təqdim edilən "Kitabi-Dədə Qorqud"a beynəlxalq səviyyədə yubiley keçirmək, Heydər Əliyevin qənaətinə görə, bu eposu layiqincə öyrənməyin və tanıtmağın mühüm bir vasitəsi idi. Yubileyə hazırlıq işlərinin başladığı 1997-ci il, yubileyin keçirildiyi 2000-ci il Azərbaycan üçün ictimai-siyasi və iqtisadi baxımdan heç də asan illər deyildi. Heydər Əliyev ağır bir durumda olan – ərazisizinin 20 faizi işğal edilən, bir milyon vətəndaşı qaçqın və köçkün vəziyyətinə düşən Azərbaycanı böhrandan çıxarmağın mühüm yollarından birini milli şüurun gücləndirilməsində, xalqda özünə inam hissinin dərinləşdirilməsində görürdü. Bu yolda "Kitabi-Dədə Qorqud" eposunun təlqinedici gücü əvəzsizdir. Heydər Əliyevin müdrikcəsinə "milli varlığımızın mötəbər qaynağı" adlandırdığı "Kitabi-Dədə Qorqud"da milli özünüdərk ideyası hər hansı başqa dastanımızla müqayisə edilməyəcək dərəcədə qabarıqdır. "Kitabi-Dədə Qorqud"da dövlətçilik düşüncəsinin nə qədər qabarıq ifadə olunduğunu Oğuz eli ifadəsinin bu eposda daşıdığı məna yükündən də bilmək olur. Aydın olur ki, el (il) sözü qədim türk dilindəki budun (bodun) sözü ilə heç də hər məqamda eyni mənada işlənmir. Budun adlanan toplum siyasi cəhətdən müstəqil ola da bilər, olmaya da bilər. El adlanan toplum isə siyasi cəhətdən müstəqil olan toplumdur və onun göz bəbəyi kimi qorunan ərazisi, sərhədləri vardır. El sözü "Kitabi-Dədə Qorqud"da da məhz bu mənada işlənir. "Kitabi-Dədə Qorqud"da el sözünün siyasi müstəqillik bildirməyinin bir göstəricisidir ki, Oğuz eli ifadəsi Oğuz cəmiyyəti mənası ilə bərabər,

Oğuz vətəni, Oğuz dövləti mənalarını da daşıyır. Yəni Oğuz eli ifadəsi altında dastançı xalq adlı sosial qurumun, vətən adlı coğrafi məkanın və hakimiyyət adlı siyasi qurumun vəhdətini nəzərdə tutur, bu vəhdətin pozulmazlığını məhz siyasi müstəqillikdə, başqa dövlətlərdən asılı olmamaqda görür. Siyasi müstəqillik, Oğuz elinin başqa dövlətlərdən asılı olmaması "Kitabi-Dədə Qorqud"da taleyüklü məsələ kimi təqdim olunur, Oğuz igidləri, hətta bütövlükdə Oğuz cəmiyyəti kişili-qadınlı, qocalı-cavanlı xalq, vətən və dövlət yolunda ölüm-dirim savaşına atılırlar. "Kitabi-Dədə Qorqud"da dövlətçilik düşüncəsinin qabarıq əks olunmasına əsaslanan Heydər Əliyev Azərbaycanın siyasi müstəqilliyinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi işində bu eposun mühüm əhəmiyyət daşımasını xüsusi olaraq vurğulayır: "Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin. Bunun üçün isə o, azərbaycançılığın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir.

Müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunmasında "Kitabi-Dədə Qorqud"un təlqinedici rolunu yüksək qiymətləndirən Heydər Əliyev bu eposun öyrənilməsində folklorşünasların qarşılaşdığı çətinliklərdən bəhs etməyi də vacib sayır. 1930-cu illərin sonlarında Əmin Abid kimi qorqudşünasların repressiya qurbanı olduğunu xatırladan Heydər Əliyev "Kitabi-Dədə Qorqud"a qarşı siyasi hücumların 1940-cu illərin sonlarından etibarən yenidən kəskin şəkil almasını xüsusi olaraq qeyd edir: "Ədəbiyyata və incəsənətə qarşı yönəldilmiş məşhur "Jdanov qərarları"nın ab-havasına uyğun olaraq "Kitabi-Dədə Qorqud"a qarşı hücumlar başladı… "Kitabi-Dədə Qorqud" eposunun ümumən xalq eposu olmadığı bildirildi və bu eposu "yayanları amansızlıqla ifşa etmək və onlara divan tutmaq" şüarları səsləndi. Görkəmli Azərbaycan alimləri Həmid Araslı və Məmmədhüseyn Təhmasib, akademik Vasili Bartoldun ruscaya çevirdiyi "Книга моего Деда Коркуда" kitabının 1950-ci ildə Bakıda Elmlər Akademiyasında çapı rejimin sərt reaksiyasına məruz qaldı [Əliyev, 2000, 5-12]. Heydər Əliyev "Kitabi-Dədə Qorqud"a qarşı siyasi kampaniyanın yalnız Azərbaycanda yox, digər türkdilli respublikalarda aparıldığını vurğulayaraq deyir: "Başqa türkdilli respublikalarda, xüsusən

Türkmənistanda “Dədə Qorqud”un əleyhinə dəhşətli bir təbliğat geniş şəkildə həyata keçirildi. Əslində eposa qadağa damğası vuruldu. Epos bütün tədqiqat planları, tədris proqramları və dərsliklərdən çıxarıldı” [Əliyev, 2000, 5-12]. Yalnız Azərbaycanda yox, başqa türkdilli respublikalarda da “Kitabi-Dədə Qorqud”un siyasi rejim tərəfindən yasaq edilməsinin başlıca səbəbi nə idi? “Kitabi-Dədə Qorqud”a qarşı siyasi kampaniyanın başlıca səbəblərindən biri bu eposun milli kimliyimizi doğru-dürüst nişan verməsi, türk xalqlarının mədəni birliyinə mühüm zəmin yaratması idi. Türk xalqlarının özünüdərk prosesinə mane olmaq xətti tutan siyasi rejim bu xalqların mədəni birliyinə mühüm zəmin ola biləcək “Kitabi-Dədə Qorqud” kimi ədəbi abidələrə “mürtəcə əsər” damğası vurur, “pantürkizm” adı altında həmin abidələrin tədqiq və təbliğinin qarşısını almağa çalışırdı. Heydər Əliyevin aşağıdakı sözləri bu acı həqiqətin əsl mahiyyətini bir daha açıb göstərir: “1950-ci ilin may ayında “Dədə Qorqud”un kobud siyasi səhv olduğu partiya yığıncağında rəsmi elan edildi. Bu rəsmi mövqe bildirildikdən sonra eposun xalqa zidd bir əsər olduğu tezisi irəli sürüldü. Həmin partiya yığıncağının hesabatında deyilirdi: “Pantürkistlər tərəfindən Azərbaycan ədəbiyyatının qədim abidəsi kimi qələmə verilən “Dədə Qorqud” eposunun Azərbaycan xalqı ilə, onun tarixi, folkloru və dili ilə heç bir əlaqəsi yoxdur. “Dədə Qorqud”da Azərbaycan xalqı üçün yabançı olan həyat tərzi, adət və ənənələr təsvir edilmişdir”…

Eposun ünvanına səslənən ittihamlardan sonra ayrı-ayrı alimlərin mövqeləri kəskin tənqid atəşinə tutuldu. Artıq epos sözünün özü belə dırnaq içərisində işlədilirdi. O dövrdə elə bir iclas, elə bir qurultay, elə bir konfrans olmurdu ki, orada “Dədə Qorqud” tənqid olunmasın” [Əliyev, 2000, 5-12]. Heydər Əliyevin “əxlaq kodeksimiz”, “milli estetikamızın mötəbər qaynağı”, “tariximizin, etnik yaddaşımızın, arxaik təfəkkürümüzün güzgüsü”, “nitqimizin, dilimizin, mənəviyyatımızın, ruhumuzun nəğməsi” adlandırdığı “Kitabi-Dədə Qorqud” kimi ədəbi abidələrin hərtərəfli və dərindən öyrənilməsində dövlət qayğısı əvəzsiz rol oynayır.

Sovet dövründə “Kitabi-Dədə Qorqud”un tədqiq və təbliğinə bəzən açıq, bəzən gizli şəkildə qayğı göstərən Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin başçısı olarkən bu eposun nəinki hərtərəfli öyrənilməsi və dünyada tanıdılması istiqamətində tarixi xidmətlər göstərdi, eyni zamanda bu eposla bağlı görüləcək işlərə yeni-yeni yollar açdı: “Kitabi-Dədə Qorqud” özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir. İndiyə qədər “Kitabi-Dədə Qorqud”un öyrənilməsi və bugünkü nəsillərə

çatdırılması yolunda xeyli iş görülübdür… Ona görə də... mən "Kitabi-Dədə Qorqud"un tədqiqi, təbliği ilə məşğul olmuş … alimlərimizə, yazıçılarımıza, bütün vətəndaşlarımıza təşəkkür edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar … öz elmi işlərini bundan sonra da davam etdirəcəklər. "Kitabi-Dədə Qorqud" dastanının hələ açılmayan səhifələri, hələ bu günə qədər məlum olmayan fikirləri bundan sonra aşkar ediləcək, Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinə və bütün türk dünyasına çatdırılacaqdır". Heydər Əliyevin arzu və istəklərinə uyğun olaraq "Kitabi-Dədə Qorqud"un yeni-yeni sirrlərinin açılması istiqamətində araşdırmalar davam etdi, dövlət səviyyəsində atılan addımlar, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2015-ci ildə "Kitabi-Dədə Qorqud"un elm aləminə məlum olmasının, ilk tərcümə və nəşr edilməsinin 200 illiyi ilə bağlı olaraq imzaladığı sərəncam bu eposa yenidən qayıtmaq və onu dünyaya tanıtmaqda müstəsna rol oynadı.

## ƏDƏBİYYAT


1. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə// "Gülüstan" Sarayında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Xalq qəzeti", 12 aprel 2000-ci il.
2. Cəlal Qasımov. Heydər Əliyev və "Kitabi-Dədə Qorqud"//Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı, Nurlan, 2013, səh.57-87.
3. Heydər Əliyev. Milli varlığımızın mötəbər qaynağı// "Kitabi-Dədə Qorqud" ensiklopediyası, I cild. Bakı, Yeni Nəşrlər Evi, 2000, səh.5-12.
4. Heydər Əliyevin dövlətçilik və azərbaycançılıq haqqında kəlamları. Naxçıvan, 2013.
5. Milli-mənəvi dəyərlərimizə, xalqımızın çoxəsrlik tarixinə hörmət, ehtiram bayramı // Respublika Sarayında "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 11 aprel 2000-ci il.


İmanov M.

**Summary**

## HEYDAR ALIYEV AND TURKIC FOLKLORE

In his speeches on “The Book of Dada Gorgud”, Heydar Aliyev drew attention to its creation in the $7^{th}$ century and described the epic as a literary monument not only of the Azerbaijani people, but of other Turkic peoples, too. He considered it especially important to dwell in more detail on the question of the epic and national statehood. Referring to the book`s clear expression of the ideal of the political independence of the Oghuz from other states, Heydar Aliyev especially stressed the unrivalled importance of the epic in reinforcing and maintaining the political independence of Azerbaijan. In his speeches about “The Book of Dada Gorgud”, Heydar Aliyev described it as “our moral codex”, “an authoritative source of our national aesthetics”, “the mirror of our history, ethnic memory and archaic thinking”, and “ a song of the soul, morality, speech and language”, and drew attention to issues yet to be studied, opening the way to new research into the epic.

Иманов М.

**Резюме**

## ГЕЙДАР АЛИЕВ И ТЮРКСКИЙ ФОЛЬКЛОР

В своих речах «Книга Дада Горгуда» Гейдар Алиев обратил внимание на его создание в VII веке и описал эпос как литературный памятник не только азербайджанского народа, но и других тюркских народов. Он считал особенно важным более подробно остановиться на вопросе о эпической и национальной государственности. Говоря о явном выражении идеи идеала политической независимости Огуза от других государств, Гейдар Алиев особо подчеркнул непревзойденную важность эпоса в укреплении и поддержании политической независимости Азербайджана. В своих речах «Книга Дада Горгуда» Гейдар Алиев назвал его «нашим моральным кодексом», «авторитетным источником нашей национальной эстетики», «зеркалом нашей истории, этнической памятью и архаическим мышлением» и « песня души, морали, речи и языка » и обратил внимание на проблемы, которые еще предстоит изучить, открывая путь к новым исследованиям этого эпосе.

**Əliyev Qoşqar Cəlal oğlu**
*Azərbaycan Tibb Universiteti, Azərbaycan*

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ LƏYAQƏTİN QORUNMASININ METODOLOGİYASI

***Açar sözlər:*** *milli ləyaqət, milli şüur, milli suverenlik, vətən, doğma, millətçilik, vətənin məqsədi*

***Keywords:*** *national dignity, national consciousness, national soverignty, motherland, native, nationalism, the aim of motherland*

***Ключевые слова:*** *национальное достоинство, национальное самосознание, национальный суверенитет, родина, родной, национализм, цель родины*

Heydər Əliyev Azərbaycan xalqının milli ləyaqəti probleminə yanaşmasında həyata keçirdiyi metodoloji prinsiplər orijinallığı, siyasi mövqeyi, elmi həqiqətləri qeyri-adi, qeyri-standart əlaqələndirməsi ilə rəğbət doğurur. Həmin metodoloji prinsiplərin yalnız bəzi məqamlarını fraqment halında nəzərdən keçirək.

**Birincisi.** Azərbaycan xalqının milli ləyaqəti probleminə yanaşmalarında Heydər Əliyev konkret və real cəmiyyətin, iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi sahələrinin bütün kompleks problem və qayğıları ilə birlikdə real həyatından çıxış edirdi. Bu metodoloji prinsipdə də, digər prinsiplərdə olduğu kimi, Heydər Əliyev fenomeni, onun şəxsiyyəti və intellekti duyulur. Hegel yazırdı: "Fərd öz xalqının, öz aləminin övladıdır və o, yalnız sonuncunun substansionallığını öz formasında təzahür etdirir" [4,s.330]. Ona görə də, Heydər Əliyevin həyata keçirdiyi metodoloji və dünyagörüşü prinsiplərini dərk etmək – hər şeydən əvvəl onun dövrünün və xalqının "substansional" (yəni başlıca, qlobal, həlledici) mənafelərinin ən yaxşı ifadəçisi olduğunu başa düşmək deməkdir.

Həyatın bütün sahələrində xalqın tarixi nailiyyətlərinin vəhdəti, hissi – predmetli fəaliyyətin, tarixi məqsədin və perspektivin durumu – bu üç istiqamət Azərbaycan xalqının milli ləyaqəti problemini necə öyrənmək və başa düşmək məsələsinin təhlilində Heydər Əliyev tərəfindən məharətlə birləşdirilmişdir.

**İkincisi.** Milli ləyaqət, bir tərəfdən, millətin ləyaqətli həyatı, digər tərəfdən isə, onun hər bir nümayəndəsinin şüurunda və psixologiyasında öz millətinin keçmişi,

bugünü və gələcəyi barədə hərtərəfli və dərindən mənimsədiyi, dərk etdiyi, duyub yaşadığı, həmçinin öz xalqının tarixini və mədəniyyətinin, keçmiş nəsillərin və müasirlərin siyasi və sosial təcrübəsinin şəxsiyyətin mənəvi və əxlaqi dayağı olması haqqında təsəvvürlərin mövcudluğudur. Heydər Əliyev gerçəkliyi idealizə etmir, keçid mərhələsində cəmiyyətin üzləşdiyi real problemlərdən və çətinliklərdən qaçmır. Lakin milli ləyaqət hissi mənəvi hadisə olduğundan, o, daim bu hissin fərdi və milli şüura nə dərəcədə möhkəm daxil olmasına və onun insanın real vəziyyəti, həyat səviyyəsi və keyfiyyəti ilə necə stimullaşdırılmasına diqqət yetirir. Heydər Əliyevin milli ləyaqət hissinin maddi və mənəvi əsasları barədə ideya və fikirlərini ümumiləşdirib sintez edərək aşağıdakı nəticəyə gəlmək olar: bir tərəfdən, maddi vəziyyət, həyatın real səviyyəsi və keyfiyyəti, digər tərəfdən isə, formalaşmış və inkişaf etmiş milli şüur və mənlik şüuru xalqın milli ləyaqətinin tərkibini müəyyən edən amillərdir. İnsan psixologiyasının, şüurun məqamlarının və mənəviyyatın əhəmiyyətinin mahir bilicisi olan Heydər Əliyev maddi və mənəvini "paralellərə" bölən, bilik və idrakı fərqləndirə bilməyən səthi sosiologizmdən daşındırır. O, ləyaqətli həyatla maddi firavanlıq arasında bərabərlik işarəsi qoymur. Onun üçün daha vacibi budur ki, özünə hörmət edən millət, ləyaqətli həyat, yəni hər bir şəxsiyyətin özünü təkmilləşdirə və özünü tam realizasiya edəbiləcək həyat qursun. Buna görə də, o diqqəti insanın, onun şüurunun və dünyagörüşünün kamilləşməsinin əxlaqi tərəfi üzərində cəmləşdirir. Mövcud dəyərlərin başqaları tərəfindən bizim üçün və bizə xidmət etməkdən ötrü yaratdıqları ilə fəxr etmək, tarixin faktına çevrilmiş dəyərlərlə genetik və sosial əlaqəni duymaqla insan özündə milli ləyaqət hissini tərbiyə edir və formalaşdırır.

**Üçüncüsü**. Heydər Əliyev heç bir nitqində "Milli ləyaqət" anlayışının məna yükünü nəzərdən keçirməklə kifayətlənmir. Onun həyat fəlsəfəsində milli ləyaqət mənəvi-əxlaqi hadisə kimi başqa hadisələr və dəyərlərlə tamamlanır və gücləndirilir.

Heydər Əliyev Azərbaycan xalqının milli ləyaqəti problemini öz fəaliyyətinin üstün istiqaməti kimi seçərkən, onu baş verən hadisələrin formal məcrasında nəzərdən keçirmir. O, Azərbaycan xalqının milli ləyaqəti haqqında özünün ideya və prinsiplərini zərgər dəqiqliyi ilə suverenlik və dövlətçilik adlandırdığımız fundamental fəlsəfi anlayışların əsas məzmununa daxil edir. Sosial materiyanın bütün çalarlarını incəliklə hiss edən böyük siyasətçi Heydər Əliyev üçün xalqın milli ləyaqətini təsdiq edən magistral istiqamətlər, həmçinin köməkçi yollar da mövcuddur. Dövlətçilik və dövlət suverenliyi

müəyyənedici amillərdir. Hələ klassik alman fəlsəfəsinin baniləri millətləri tarixi və qeyri-tarixi millətlərə bölür, onların tarixi inkişafını dövlət quruluşu ilə bağlayırdılar. Hegel yazırdı: "Xalqın özünün mövcud varlığında substansial məqsəd dövlət olmaq və özünü dövlət kimi də müdafiə etməkdən ibarətdir. Dövlət quruluşu olmayan millət dövlətin yaranmasına qədər mövcud olmuş və bu gün hələ də mövcud olan vəhşi millətlər kimi heç bir tarixə malik deyil". [Hegel əsərləri, III cild, M., 1956, səh.330, 331 (rus dilində)]

Heydər Əliyev həmişə bir mənalı olaraq təsdiq edir ki, Azərbaycan dövlətindən, onun müstəqilliyindən və suverenliyindən kənarda xalqın milli ləyaqəti problemini təsəvvür etmək olmaz. "Azərbaycan Respublikası milli dövlətçilik quruculuğu yolunda müvəffəqiyyətlər qazanaraq şərəfli gələcək istiqamətində inamla addımlayır", - Heydər Əliyevin bu sözlərində belə bir təməl ideya səslənir milli dövlətçiliyi qurmaqla, möhkəmləndirməklə xalq artıq bu gün özünün ləyaqətli gələcəyinin əsasını qoyur. Qüdrətli, təkmil, demokratik hüquqi dövlət xalqın milli ləyaqətini müdafiə etməyin ən mühüm, ən vacib təminatıdır. [Əliyev, "Müstəqilliyimiz əbədidir", B., 1997, səh.185]

**Dördüncüsü**. Heydər Əliyevə görə, Vətən hissi və milli ləyaqət hissi bir-birlərini şərtləndirir və bir-birlərinə nüfuz edirlər. İnsanlarda yüksək milli ləyaqət hissini tərbiyə etmək həm də yüksək vətənpərvərlik hissi tərbiyə etmək, formalaşdırmaq deməkdir. Vətənin müdafiəsini, Azərbaycanın müqəddəs torpağının hər qarışının müdafiəsini Azərbaycan xalqının, Azərbaycan Respublikasının bütün vətəndaşlarının şərəf və ləyaqətinin müdafiəsinin yüksək nümunəsi kimi nəzərdən keçirmək lazımdır. Öz şərəfini, öz ləyaqətini, öz ərazisini qorumağı bacarmayan xalqın yaşamaq haqqı yoxdur, xalq adlandırmağa haqqı yoxdur. Şərəf və ləyaqətimizi müdafiə etməyə hazır olmalıyıq. Bu fəlsəfəni möhkəm və həmişəlik dərk etməliyik. Göründüyü kimi, Heydər Əliyevin milli ləyaqət fəlsəfəsində vətənpərvərlik və milli ləyaqət – ayrılmaz anlayışlardır. Öz vətəninin vətənpərvəri – milli ləyaqətin müdafiə və təsdiqinin əsas siması, başlıca subyektidir.

Heydər Əliyev milli ləyaqətin müdafiəsi və təsdiqinin magistral istiqaməti və yollarını müəyyənləşdirərkən, xalqın intellektual potensialı, mədəniyyəti, mənəvi və əxlaqi həyatı haqqında məhsuldar ideyalar irəli sürür və əsaslandırır. Buna görə də Heydər Əliyevin milli ləyaqət fəlsəfəsində millətin mədəniyyəti, elmi, incəsənəti və bütövlükdə intellektual potensialı haqqında qayğısı, Azərbaycan xalqının milli

ləyaqətinin təsdiqinin real praktik və nəzəri tərəfi kimi çıxış edir. Bu, Ümummilli lider Heydər Əliyevin milli ləyaqət fəlsəfəsində daim diqqət verdiyi mühüm aspektlərdən biridir.

Hegel yazırdı: "Dövlət quruluşu nəsə yaradılmış bir şey deyildir, o, çox əsrlərin zəhmətidir, ideyadır və mövcud xalqda inkişaf etdiyi səviyyədə məntiqəuyğunluğun başa düşməsidir". Heydər Əliyevin fəlsəfi düşüncələrində bir tərəfdən milli ləyaqətin təsdiqi üçün dövlətin və cəmiyyətin təkmilləşdirilməsini vacib sayır, ictimai, şəxsiyyətlərarası, etnoslararası münasibətlərin humanistləşdirilməsində son dərəcə zəruri olan xalqın mənəvi, əxlaqi, mədəni və intellektual potensialına diqqət vurğulanır, digər tərəfdən isə siyasətdə və siyasi fəaliyyətdə məhz sınama və səhv etmək metodundan istifadəni istisna edən amilə üstünlük verilir. Bu, ümummilli lider Heydər Əliyev tarix - milli ləyaqət – müasir ictimai proseslər sistemində milli ləyaqətimizin təsdiqinin tarixi köklərini, istiqamət və perspektivlərini başa düşməyə imkan verən mənəvi və əxlaqi hərəkətverici qüvvəni peşəkarlıqla aşkar edirdi.

Ümummilli lider Heydər Əliyevin böyük səyləri, qeyri-adi qabiliyyəti və nəhəng siyasi və dövlət rəhbərçiliyi təcrübəsi sayəsində respublikada yaranmış ictimai-siyasi sabitlik Azərbaycan xalqının və Azərbaycan dövlətçiliyinin həyatında, millətin şərəfi və ləyaqətinin qorunmasında taleyüklü əhəmiyyət kəsb edir.

Heydər Əliyevin Azərbaycan xalqının milli ləyaqətini qorumaq yolunda dövlət, praktik, nəzəri və ideya-tərbiyəvi fəaliyyəti nəinki ölkəmizdə, həmçinin bütün dünyada tədqiqatçılar tərəfindən daha geniş şəkildə dərk olunur. Heç şübhə yoxdur ki, gələcək nəsillər hökmən deyəcəklər: "O, bizi öz milli ləyaqətimizi qorumağa hazırlayıb".

## ƏDƏBİYYAT


1.Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir", B., 1997, səh.185

2. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir", Biblioqrafiya, B., 2013, 1 cild

3. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir", Biblioqrafiya, B., 2013, 2 cild

4.Hegel əsərləri, III cild, M., 1956, səh.330, 331 (rus dilində)



**Aliyev G.**


**Summary**

**HEYDAR ALIYEV AND METHODOLOGY OF PROTECTION OF THE NATIONAL DIGNITY**

In the article certain points and opinions of the activity of Haydar Aliyev are being analysed, its methodological directions are being generalized. The irreplaceable role of Haydar Aliyev in the history of Azerbaijani people is being noticed, and he is being characterized az a national leader. The importance of every Azerbajani's learning the strategy and methods of national dignity from Haydar Aliyev's philosophical – ethical opinion, admonitions and recommendations is being justified.

**Алыйев Г.**

**Резюме**

**ГЕЙДАР АЛИЕВ И МЕТОДОЛОГИЯ ЗАЩИТЫ НАЦИОНАЛЬНОГО ДОСТОИНСТВА**

В статье исследуются цели и взгляды деятельности Гейдара Алиева, обобщаются ее методологические направления. Отмечается незаменимая роль Гейдара Алиева в истории азербайджанского народа, и он характеризуется как национальный лидер. Обосновывается важность того, чтобы каждый Азербайджанец изучал стратегию и методы национального достоинства философско-этического взгляда, наставлений и рекомендаций Гейдара Алиева.

**Şeydayev Seymur**

*AR DTX-nin Heydər Əliyev adına Akademiyası, Azərbaycan*

## HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ MİLLİLƏŞMƏ VƏ TÜRKLƏŞMƏ AMİLİ

***Açar sözlər:*** *milli müstəqillik, milli amil, Heydər Əliyev siyasəti, Azərbaycan-Türkiyə əlaqələri, türk dünyası*

***Keywords:*** *national independence, national factor, the policy of Heydar Aliyev, Azerbaijan-Turkey ties, Turkic world*

***Ключевые слова:*** *национальная независимость, национальный фактор, политика Гейдара Алиева, азербайджано-турецкие отношения, тюркский мир*

Milli istiqlalın ən mühüm şərti kimi milli mənlik, milli identifikasiya məsələləri həmişə mühüm yer tutur. Bu mənada azərbaycanlıların türk milli kimliklərini qoruyub-saxlamaq uğrunda mübarizəsi milli istiqlal mübarizəsinin sütunlarındandır. Ulu öndər Heydər Əliyevin bu istiqamətdə uzun illər apardığı mübarizə təbii ki ayrıca böyük bir tədqiqat sahəsidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 34 illik siyasi və dövlətçilik fəaliyyəti dövründə Azərbaycanın hərtərəfli inkişafı, müstəqilliyin möhkəmləndirilməsi, dünya birliyində layiqli yerini tutması üçün yorulmadan və əzmlə çalışmışdır. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Bu dahi şəxsiyyətin siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmayıb bütövlükdə türk dünyasını, ümumən dünyanı əhatə edir.

Ulu öndərin baxışları və fəaliyyətində Türkiyə və türk dünyası ilə əlaqələrin qurulub inkişaf etdirilməsi həmişə xüsusi yer tutmuşdur. Heydər Əliyev öz fəaliyyətində Türkiyəyə, türk və müsəlman dünyasına daha geniş prizmadan yanaşaraq onları vəhdətdə görür, türk və müsəlman dünyasının birliyi və tərəqqisinə yönəlmiş siyasət yürüdürdü, bu məsələdə özünün mükəmməl nəzəri biliyi və nəhəng praktik fəaliyyəti ilə seçilirdi.

Heydər Əliyev hələ sovet dönəmində SSRİ ilə Türkiyə arasında dostluq münasibətlərinin yaranmasına çalışır, bunun nəticəsi kimi, Türkiyənin o dönəmki siyasi və dövlət xadimlərinin SSRİ-yə səfərləri çərçivəsində Azərbaycana səfərləri baş tuturdu. Azərbaycanla Türkiyə arasındakı mədəni əlaqələr genişlənirdi.

1969-cu ilin dekabrında o dönəm Türkiyə Prezidenti olmuş Cevdet Sunay və hələ 1967-ci ildə o dönəm baş nazir olan görkəmli dövlət xadimi Süleyman Dəmirelin Bakıya səfərlərini xüsusi qeyd etmək lazımdır Bu mənada Heydər Əliyev və Süleyman Dəmirəl münasibətlərinin dərin kökləri və xalqlarımızın, bütün türk dünyasının taleyi baxımında xüsusi əhəmiyyət kəsb etdiyini vurqulamaq yerinə düşərdi.

Hələ Dövlət Təhlükəsizlik Komitəsində (KQB-də) çalışdığı illərdə Heydər Əliyevin bu orqanda başlatdığı milliləşmə, türkləşmə siyasəti ulu öndərin məhz türk mili-mənəvi köklərinə nə qədər bağlı olduğunun bariz göstəricisidir. Bununla bağlı ulu öndər qeyd edirdi ki, bəzən səhfən hesab olunur ki, təhlükəsizlik orqanlarında milliləşmə prosesi 60-

cı illərdə başlayıb. Əslində bu proses "1953-54-cü illərdə başlandı... Çox adamlardan, necə deyərlər canımızı qurtardıq, çox adam xaric olundu və bu zaman gənc kadrlar irəliyə çəkildi, azərbaycanlılar rəhbər vəzifələrdə əksəriyyət təşkil etməyə başladılar" [Xalqa, Vətənə, Dövlətə sədaqət. B., 1997].

Heydər Əliyevin apardığı milliləşmə siyasəti nəticəsində bu orqanlarda azərbaycanlıtürklərinin sayı 1953-cü ilə qədərki 20 %-dən 1970-ci ildə isə artıq 75 % qalxmışdı. Heydər Əliyevin uzaqgörənliyi onda idi ki, o, 60-cı illərdə xalqa yenidən oyanan milli özünədərki, milli yaddaşı, DTK-da (KQB-də) işləyən başqa millətlərin nümayəndələri tərəfindən beşiyindəcə boğulmasına imkan vermədi.Təhlükəsizlik orqanlarının milliləşməsində də əsas məqsəd bu idi.

XX əsrin 80-ci illərinin əvvəllərində ulu öndər Heydər Əliyev öz şəxsiyyəti ilə türkçülük düşüncəsini, türkçülük faktını SSRİ kimi nəhəng imperiyanın ən ali hakimiyyət zirvəsinə qədər gətirib çıxarmışdı. Təsadüfi deyil ki, SSRİ rəhbərlərindən biri kimi Moskvada keçirdiyi illərdə dünya Heydər Əliyevi türk və islam dünyasının Kremldə təmsilçisi kimi tanıyırdı. Hətda istefada olduğu zaman belə Heydər Əliyev Azərbaycan xalqının, bütün türk dünyasının səsi idi. 20 yanvar faciəsindən sonra imperiyanın paytaxtında SSRİ hakimiyyətini ittiham edən Heydər Əliyevin səsi bütün xalqımızın, bütün türk dünyasının, bütün islam aləminin fəryadı idi.

Sonrakı mərhələdə Naxçıvanda fəaliyyət göstərdiyi illərdə yenə də məhz Heydər Əliyev amili türk dünyasının güman yerinə çevrilmiş, ümid çırağı olmuşdur. Ulu öndərin təşəbbüsü ilə Ümid körpüsünün inşası və açılışı vaxtilə parçalanmış, bölünmüş türk dünyasının vəhdətə doğru yolunda bir zəmin, bir başlanğıc olmuşdur.

Müstəqilliyini bərpa etmiş Azərbaycanın ən təlatümlü dövründə ümummilli liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Heydər Əliyevin türk dünyasının gələcəyi ilə bağlı baxışlar sistemində müstəqil türk dövlətləri ilə əlaqələr mühüm yer tutur: türk dövlətlərinin müstəqilliyinin müdafiəsi, mövcud imkanlar çərçivəsində türk dünyasının birliyinin təmin olunması, bu birliyin narahat dünyamızda nizam yaradılması məqsədinə xidmət etməsi, Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə edilməsi, türk dünyasının qüvvələrinin birləşdirilməsi və birgə hərəkətinin təmin edilməsi, türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsi və bunun üçün müstəqil türk dövlətlərinin imkanlarından istifadə edilməsi məsələləri prioritet təşkil etmişdir.

Heydər Əliyev bu məqsədlərin həyata keçirilməsində Türkiyə Cümhuriyyətinin rolunu həmişə yüksək qiymətləndirmişdir. Ulu öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlıq münasibətləri əbədi və dönməz xarakter almışdır.

Tarixi-siyasi, dini, milli-mənəvi köklərə bağlı Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə sürətli inkişafı Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, Heydər Əliyev isə “Biz bir millət, iki dövlətik” tezislərinə əsaslanmışdır.

Ümummilli lider Heydər Əliyev dövlətçilik fəaliyyətində türk dünyasının böyük öndəri Atatürkün dövlət quruculuğu təcrübəsinə həmişə böyük əhəmiyyət vermiş, onun irsinin öyrənilməsi və təbliğini vacib hesab etmişdir. Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, Atatürk yalnız tərəqqipərvər ideyalar irəli sürməklə kifayətlənməmiş, bu ideyaları mövcud zaman və məkan kontekstində həyata keçirməkləmüasir Türkiyə Cümhuriyyətini qurmuşdur. Ulu öndər qeyd edirdi ki, Türkiyə Cümhuriyyəti Mustafa Kamal Atatürkün yalnız fəaliyyəti nəticəsində deyil, həm də qəhrəmanlığı nəticəsində yaranmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev Atatürkü XX əsrin ən böyük şəxsiyyətlərindən biri hesab etmiş, yüksək dəyərləndirmiş, onun müdrikliyini, dahiliyini, xalqına əvəzsiz xidmətlər göstərdiyini dəfələrlə qeyd etmişdir: “Mustafa Kamal Atatürk dünyada XX əsrin ən böyük şəxsiyyətlərindən biridir. Dövlət adamı kimi, siyasət adamı kimi və dövlət başçısı kimi. Ölümündən sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün, yol nə qədər doğru-düzgün qurulub ki, o yoldan nə sağa, nə sola dönmək mümkün deyil. Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir” [Əliyev,Atatürk haqqında. B., 2003].

Ümummilli lider Heydər Əliyevə sülh uğrunda apardığı mübarizəyə görə beynəlxalq “Atatürk Sülh Mükafatı” təqdim olunması (1999) münasibətilə onun dediyi sözlər Atatürkün və Türkiyənin təcrübəsinin Azərbaycan üçün nə demək olduğunu çox aydın şəkildə göstərir: “Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu mənim üçün, bütün Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan dövləti üçün böyük şərəfdir. Mən bununla fəxr edirəm. Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir. Mən buna daim sadiq qalacağam” [Əliyev, Müstəqilliyimiz əbədidir. IX kitab, B., 2002].

Atatürkün irsini öyrənmək və təbliğ etmək üçün 2001-ci ildə Bakıda Heydər Əliyevin Sərəncamı ilə "Atatürk Mərkəzi" yaradıldı. Həmin mərkəzin açılışında çıxış edən Heydər Əliyev demişdir: "Atatürkün həyatını, fəaliyyətini daim öyrənmək lazımdır. Bizdəki Atatürk Mərkəzi bu işləri görəcəkdir. Atatürkün indiyə qədər Azərbaycanla əlaqədar dediyi sözləri, gördüyü işləri, naməlum qalan cəhətləri aşkara çıxaracaqdır... Atatürkün ideyalarını yaymaq, təbliğ etmək və xalqımıza çatdırmaq, həm də bu ideyalardan faydalanmaq, istifadə etmək sahəsində çox işlər görmüşəm. Bu, bir siyasi xadim, lider və Prezident kimi mənim fəaliyyətimdə çox böyük yer tutur" [Əliyev,Atatürk haqqında. B., 2003].

Müstəqilliklərini yenidən əldə etmiş türk dövlətlərinin qarşılıqlı əlaqələrində ikitərəfli münasibətlərlə yanaşı, dövlət başçılarının sammitləri də xüsusi yer tutur. Azərbaycan bu mötəbər tədbirlərdə həmişə intensiv iştirak etmiş, ümumtürk dəyərlərinin dirçəlməsi yönümündə xüsusi fəallıq göstərmişdir. Ulu öndərimiz türk dövlət başçılarının zirvə toplantılarının əhəmiyyətindən bəhs edərək demişdir: "Şübhəsiz ki, zirvə toplantısı bizim xalqımızın, müstəqil ölkələrimizin bu günü və gələcəyi üçün əhəmiyyətli hadisədir. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti-bunlar hamısı həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da sıx əlaqələr yaratmaq üçün imkanlar açacaqdır" [Əliyev H. Müstəqilliyimiz əbədidir. IX kitab, B., 2002].

Həqiqətən də, sonrakı illərdə dünyanın siyasi mənzərəsini dəyişən "Əsrin müqaviləsi", "Böyük ipək yolu", TRASEKA, TASİS proqramları kimi qlobal layihələrin həyata keçirilməsində, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, TÜRKSOY-un, Türk Yazarlar Birliyinin yaradılmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Məhəmməd Füzulinin 500, türk dünyasının ana kitablarından olan "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin UNESCO səviyyəsində keçirilməsi, Azərbaycanın müstəqil türk dövləti kimi bütün dünyada tanınması, türk dövlətləri başçılarının zirvə

görüşlərinin təşkili, türk dünyası üçün onlarca taleyüklü məsələnin irəli sürülməsi və müzakirəsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu öndər “Manas” dastanını 1000, böyük qazax şair-filosofu Abayın 150, türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660, qazax şairi A.Kunanbayevin 125, özbək yazıçısı M.Şeyxzadənin 70 illik yubileylərinin birlikdə, yaxud Azərbaycanda qeyd etmələrini böyük tarixi hadisələr kimi çox yüksək qiymətləndirmişdir. Ümummilli lider 1996-cı ildə Türk Dünyası Yazıçılarının Üçüncü Qurultayının ölkəmizdə keçirilməsini əlamətdar hadisə hesab etmiş və bunu Azərbaycan Respublikasına, xalqına olan hörmət və ehtiramın təzahürü kimi çox yüksək qiymətləndirmişdir.

Ulu öndər Heydər Əliyev türk xalqlarının əlaqələrinin möhkəmlənməsi yolunda atılan bütün addımları yüksək qiymətləndirmiş, fəaliyyəti boyu müvafiq istiqamətdə keçirilən tədbirlərin təşəbbüskarı, təşkilatçısı, iştirakçısı olmuşdur. O, TÜRKSOY beynəlxalq təşkilatının Bakıda keçirilən VIII toplantısında təşkilatın yarandığı vaxtdan başlayaraq həyata keçirdiyi məhsuldar fəaliyyətini xüsusilə qeyd etmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevi çox düşündürən problemlərdən biri də türk dövlətlərinin iqtisadi-mədəni yaxınlaşması, birliyi məsələləri, bu mühüm məsələlərin həyata keçirilməsi yollarının nəzəri əsaslarının işlənib hazırlanması olmuşdur. Bu məsələlər isə Heydər Əliyevin yeni dövr türk birliyi strategiyasının yalnız bir qismini təşkil edir.

O, ötən əsrin 90-cı illərinin əvvəllərində, xüsusən SSRİ dağıldıqdan sonra yaranmış beş yeni müstəqil türk dövlətinin arasında ictimai-siyasi əlaqələrin hətta qırılmaq səviyyəsinə gəlib çatdığını görür və bu məsələ onu ciddi narahat edirdi. Ulu öndər görürdü ki, bu dövlətlərdən hər biri öz problemlərini təklikdə həll etməyə çalışırlar.

Belə bir şəraitdə türk dövlətlərindən hansısa biri təşəbbüsü ələ almalı, türk xalqlarını əməkdaşlığa, birliyə, birgə fəaliyyətə yönəltməli idi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars və s. lahiyələrin təşəbbüskarı və aparıcı iştrakçısı kimi məhz Azərbaycan bu missiyanı öz üzərinə götürmüşdür.

Ümummilli lider türk xalqlarının yaxınlaşması zəruriliyindən bəhs edərək demişdir: “Bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə

bağlayır, bir-birimizlə daha sıx əlaqədə saxlayır. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik" [Əliyev, Müstəqilliyimiz əbədidir. Türk dünyası yazıçılarının III quruktayındakı nitqi].

Görkəmli dövlət xadimi Heydər Əliyev türk dövlətlərinin, ümumən türk dünyasının birliyinə heç zaman sadəcə etnik köklərin ümumiliyinə əsaslanan mədəni-etnoqrafik birlik kimi baxmaqla kifayətlənməmiş, bu birliyin siyasi gerçəkliyi və perspektivlərinə xüsusi diqqət yetirmişdir.

Azərbaycanın ümummilli liderinin türk dünyasının qarşılıqlı əlaqələrinin yüksəlişi strategiyası bu gün də uğurla davam etdirilməkdədir. Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev türk xalqları arasında əlaqələrin genişlənməsinə, ticarət-iqtisadi, mədəni-humanitar əməkdaşlığın artırılmasına xüsusi əhəmiyyət verir. Türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən IX Zirvə görüşündəki (2009, 2-3 oktyabr) çıxışında türkdilli ölkələr arasında iqtisadi, humanitar, mədəni əlaqələrin artırılmasının, müştərək layihələrin yaradılmasının vacibliyini önə çəkərək demişdir: "Əgər gələcəkdə bütün siyasi məsələlərdə, beynəlxalq təşkilatlarda, beynəlxalq müstəvidə biz bir-birimizə öz dəstəyimizi verməyə davam etsək, iqtisadi sahədə əməkdaşlığımızı konkret layihələrlə zənginləşdirsək, humanitar və mədəniyyət sahəsində TÜRKSOY vasitəsilə, konkret layihələr vasitəsilə bu birliyi daha da gücləndirsək, bizim xalqlarımız bundan ancaq fayda götürəcəkdir. Biz çox istəyirik ki, türkdilli xalqlar, ölkələr arasında birlik daha da güclənsin. Bu, bizim tariximizdir, bizim mədəniyyətimizdir, bizim köklərimizdir. Eyni zamanda, bu, bügünkü vəziyyətin reallıqlarıdır" [ "Xalq" qəzeti, 2009, 4 oktyabr].

## ƏDƏBİYYAT


1. Əliyev H. Atatürk haqqında. B., 2003.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. IX kitab, B., 2002.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir. Türk dünyası yazıçılarının III quruktayındakı nitqi.
4. Xalqa, Vətənə, Dövlətə sədaqət. B., 1997.

5. “Xalq” qəzeti, 2009, 4 oktyabr.

**Sheydayev S.**

**Summary**

**NATIONALIZATION AND TURKIC FACTOR IN THE POLICY OF HEYDAR ALIYEV**

In the article the importance of nationalization and turkic factor in the policy of nationwide leader Heydar Aliyev, in this context the role of Heydar Aliyev in strengthening the ties of Azerbaijan and Turkey, Azerbaijan and turkic world, Azerbaijan and Islamic world was the object of analysis. The author emphasizes that namely the stragetic line connected with cadre policy pursued by nationwide leader, formed one of the important directions in the fight for national independence.

**Шейдаев С.**

**Резюме**

**НАЦИОНАЛИЗАЦИЯ И ТЮРКСКИЙ ФАКТОР В ПОЛИТИКЕ ГЕЙДАРА АЛИЕВА**

В статье важность национализации и турецкий фактор в политике общенационального лидера Гейдара Алиева, роль Гейдара Алиева в этом контексте в укреплении связей Азербайджана и Турции, Азербайджана и тюркского мира, Азербайджана и исламского мира была предметом исследования. Автор подчеркивает, что именно стратегическая линия, связанная с кадровой политикой, проводимой общенациональным лидером, сформировала одно из важных направлений в борьбе за национальную независимость.

**Qurbanova Sevinc Əşrəf qızı**

*Azərbaycan Dillər Uinversiteti,Azərbaycan*

## AZƏRBAYCAN TARİXİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Açar sözlər:*** *Heydər Əliyev, tarix, Azərbaycan, elm*

***Key words****: Heydar Aliyev, history, Azerbaijan, science*

***Ключевые слова:*** *Гейдар Алиев, история, Азербайджан, наука*

Ümummilli lideri Heydər Əliyevin Azərbaycan elminin inkişafında misilsiz xidmətləri olmuşdur. Cəmiyyətin və xalqın inkişafını elmdə görən Ulu Öndər görkəmli siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də bir elm xadimi idi. Bir dahi və hərtərəfli şəxsiyyət olaraq, Azərbaycan elminə və ziyalılarına həmişə yüksək qiymət vermiş və qayğı göstərmişdir. Bunu həmçinin Heydər Əliyev 1998-ci ildə dünyanın nüfuzlu elm mərkəzlərindən biri olan Rusiya Elmlər Akademiyasının tanınmış elm xadimləri ilə görüşündə vurğulayır: "Şəxsən mən elm xadimlərinə həmişə böyük hörmətlə yanaşmışam...ona görə ki, elm adamları müstəsna adamlardır [8].

Heydər Əliyevin məruzə və çıxışlarından, onun elm adamları ilə söhbətlərindən məlum olur ki, o humanitar sahələri dərindən bilirdi. Tarixə, ədəbiyyata, mədəniyyətə, ümumilikdə humanitar elmlərə yüksək qiymət verən və diqqət ayıran ümummilli liderimiz, onların xalqın mənəvi həyatında oynadığı vacib rolu layiqincə qiymətləndirib. Onun əmək fəaliyyətinə başladığı ilk iş yeri Milli Azərbaycan Tarixi Muzeyi olub. O, 1940-cı ildə, 17 yaşında ikən Tarix Muzeyində təşkil olunmuş " Sovet Azərbaycanının 20 illiyi" sərgisində bələdçi vəzifəsində çalışıb [2].

Heydər Əliyevin tarix elminə marağının artması 1957-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini müvəffəqiyyətlə başa vurması da səbəb olmuşdur. Beləliklə, ixtisasça tarixçi olan Heydər Əliyev tarix elmini və onun problemlərini digər elmlərdən daha yaxşı bilirdi. Onun hakimiyyəti illərində Azərbaycan tarixinə dair elmi-tədqiqatlar aparılmış və monoqrafiyaların nəşri artırılmışdır [4].

Xalqımızın tarixi keçmişinə marağının artması və onun milli-mənəvi həyatında da dirçəliş hələ XX əsrin 60-70-ci illərində Heydər Əliyevin rəhbərliyi dövründə başlandı. Beləki, xalqımızın təşəkkülündə türk etnoslarının həlledici rol oynaması, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı, Cümhuriyyət dövrünün xadimlərinə obyektiv qiymət verilməsi kimi bir çox məsələləri məhz ensiklopediyalar qaldırırdılar. Onlardan biri böyük mütəfəkkirimiz Rəsul Rzanın başçılıq etdiyi Azərbaycan Ensiklopediyası idi və o Azərbaycan tarixi xəritələrinin hazırlanması və çapına nail olmuşdu. "Millətçi" və "sovet hökumətinin və Rusiyanın düşmənləri" kimi damğa vurulan ziyalılarımızı L.S.Şaumyan gözdən salmaq üçün əlindən gələni əsirgəməməsinə baxmayaraq, məqsədinə çata bilmir. Çünki məhz Heydər Əliyevin müdrikliyi və cəsarəti sayəsində o zaman ziyalılarımızın böyük bir qrupu nəinki KQB-nin təqiblərinə düçar olmadı, hətta partiya cəzasından da yaxa qurtara bildilər [7, 90-91].

Heydər Əliyevin doğma vətəni və xalqı üçün çox böyük xidmətləri olub və ən mühümlərindən biri hakimiyyətə gəldiyi vaxtdan zəngin mədəni irsimizi dünyaya tanıtmaq idi. Dahi tarixçi olan Heydər Əliyev Naxçıvanda Muxtar Respublika Ali Məclisinin sədri olduğu dövrdə Azərbaycanın qədim tarixinin öyrənilməsi məsələsini unutmamışdır. Xüsusilə də Kültəpə və Gəmiqaya abidələrinə yeni ekspedisiyaların təşkili və tədqiqat işlərinin aparılması daim onun nəzarəti altında idi [6, 37]. Azərbaycan tarixinə yeni baxış ənənəsini davam etdirən Heydər Əliyev Azərbaycanın bütün bölgələrində tarixi abidələrin qorunması və bərpası işinə xüsusi diqqət verirdi. Həmçinin Heydər Əliyev həmişə ziyalıları yeni-yeni tədqiqatlar aparmağa, əsərlər yazmağa həvəsləndirmiş və bu yolda onlara hər bir köməyi göstərmişdir. Heydər Əliyev dövrünün mənəvi abidələrindən biri də çoxəsrlik tariximizdə ilk milli on cildlik Azərbaycan Ensiklopediyasının meydana gəlməsi olmuşdur [4].

### HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN AZƏRBAYCAN VƏ QAZAXISTAN RESPUBLİKALARI ARASINDA ƏLAQƏLƏRİN QURULMASI


Məqalədə Heydər Əliyev tərəfindən Azərbaycan və Qazaxıstan Respublikaları arasında əlaqələrin qurulmasından bəhs edilir. Heydər Əliyevin postsovet məkanının iki dövləti arasında münasibətlərin qurulmasına, müxtəlif sahələrdə qardaşlıq

münasibətlərinin inkişafına təsiri təsvir edilmişdir. Ölkə başçılarının iki respublikanı yaxınlaşdıran və ikitərəfli əlaqələri yeni səviyyəyə qaldıran ikitərəfli və çoxtərəfli görüşlərinə toxunulmuşdur.

**Babayev G.**

**Summary**

**ESTABLISHMENT OF RELATIONS BETWEEN AZERBAIJAN AND KAZAKHSTAN REPUBLICS BY HEYDAR ALIYEV**

The article considers the establishment of relations between the Republic of Azerbaijan and the Republic of Kazakhstan by Haydar Aliyev. The influence of Haydar Aliyev on the origin of relations between the two post-Soviet states, the development of fraternal relations in various spheres have been described. Bilateral and multilateral meetings of the Presidents of two Republics, which brought together the two Republics and raised up bilateral relations to a new level were also highlighted.

**Gözəlova Solmaz Muxtar qızı**

*Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan*

## HAYDAR ALİYEV MİLLİ PETROL STRATEJİSİNİN KURUCUSU

***Anahtar Kelimeler:*** *petrol, strateji, lider, geostrateji, şirket*

***Keywords**: Oil, strategy, leader, geostrategic, company*

***Ключевые слова:*** *нефть, стратегия, лидер, геостратегия, компания*

1993 yazında - Azerbaycan'ın zor günlerinde halkın ısrarıyla yeniden iktidara dönen milli lider Haydar Aliyev ülkemizin siyasi ve ekonomik hayatında önemli değişikliklerin temelini attı. Bağımsızlık yolunda kırılgan adımlarını atan Azerbaycanı kaçınılmaz felaketlerden kurtaran ulu önder ülkenin ekonomik yükselişine ulaşmak için petrol unsurunu öne çekti. Azerbaycan'ın o zamanki sınırlı mali imkanları ile petrol-gaz yataklarının benimsenmesinin, bu eşsiz doğal servetin dünya pazarlarına çıkarılmasının sıkıntısını dikkate alan Haydar Aliyev sorunun çözümü Batı şirketleri ile ulusal çıkarlara dayalı işbirliğinin kurulmasında gördü ve tüm jeostratejik zorluklara rağmen, kısa bir sürede bu muhteşem konsepti gerçekleştirmeye nail oldu.

Azerbaycan'ın petrol üretimi, özellikle 1948-1991 döneminde, büyüme dinamikleri gösterdi; 1991-1994 yıllarında derin bir resesyona girdi ve 1994 sonrası dönemde yeni

kalkınma aşamasına girdi. Eylül 1994'te "Yüzyılın Sözleşmesi" ni böyle imzaladı ve bu bir dönüm noktasıdır

Anlaşma sonrasında Azerbaycan'ın enerji diplomasisi ve petrol ve gaz sektöründe önemli olaylar yaşandı [1].

Haydar Aliyev'in müqayisəyəgəlməz dehası ve siyasi iradesi en adi takvim günlerinden biri olan 20 Eylül'ü tüm insanlığın tanıdığı ve kabul ettiği olağanüstü bir tarihe çevirdi. O gün, bağımsız Azerbaycan'ın yeni geçmişi her geçen gün değişen bir dönüm noktasıydı. Yenilenebilir Azerbaycan'ın temel taşlarından biri de "Yüzyılın Sözleşmesi" idi. Azerbaycan'ın bağımsızlığı, ekonomik yükselişi, onun demokrasi yoluyla ilerlemesi Haydar Aliyev dehasının ürünü, "Yüzyılın anlaşması" ise bu dühanın ışığından oluşan nur pınarıdır.

20. yıldönümünü belirttiğimiz "Yüzyılın anlaşması" aslında sadece çağdaş Azerbaycan Cumhuriyeti'nin değil, genel olarak cumhuriyetimizin teşekkül tarihinin çok önemli ve olağanüstü makamıdır. Bu nedenle halkımız, o günü Haydar Aliyev'in bilgeliğinin zaferi olarak görüyor. Büyük önderimiz imza töreninde demiştir: "Biz böyle bir adım atmakla Azerbaycan'ın dünya için, dünya ekonomisi için açık ülke bulunduğudur. Biz bu anlaşmayı imzalayarak Azerbaycan Cumhuriyeti'nin egemenlik haklarının tesisi olduğunu, Azerbaycan'ın tam bağımsız olduğunu, halkımızın kendi servetlerine kendisinin sahip olduğunu dünyaya bir kez daha gözler önüne ettiriyoruz. Biz bu anlaşmayı imzalayarak Azerbaycan Cumhuriyeti ile dünyanın gelişmiş devletleri, onların en büyük şirketleri arasında ilişkiler kuruyoruz ... Biz bu anlaşmayı imzalayarak dış ülkelerden Azerbaycan'a yatırım yapılması için büyük yol açıyoruz" [6].

Aslında o zaman yabancı yatırımcıların, özellikle çok uluslu petrol şirketlerinin Azerbaycan'a gelişi, buraya yatırım yapması oldukça riskli bir işti. Çünkü Azerbaycan "Yüzyılın anlaşması"nın imzalandığı sırada - 1994 12 Mayıs ateşkese imza atsa da, savaş durumunda idi, ülkede tam siyasi istikrar yoktu. Azerbaycan'ın bağımsızlığını istemeyen bir takım yerli ve yabancı güçler ülkemizde kaos, kargaşa ve anarşi yaratmak için tüm araçları, hatta dünyanın bir numaralı belasına çevrilmiş terörden bile çekinmirdiler. Tüm bunlara rağmen, Azerbaycan'da siyasi istikrara ve elverişli iş ortamına tam garanti alan dünyanın çokuluslu şirketleri "Yüzyılın anlaşması" ne imza atmak amacıyla ülkemize geldiler. 1994 Eylül ayının 20-de Bakıda Amoco, BP, Statoil, Inpex, YUNOKAL, TPAO, Exxon Mobil, Devon Eerji, Delta Hessvvə İtoçi gibi büyük petrol şirketleri ile Hazar

Denizi'nin Azerbaycan sektöründeki "Azeri", "Çırak" yataklarının ve " Gunashli alanının derin sularının keşfi, geliştirilmesi ve üretimi paylaşımı konusunda bir mutabakat sağlandı. Bu inancın, bu emniyetin güvencesi Haydar Aliyev kimliği, Haydar Aliyev zekası oldu. Azerbaycan Cumhurbaşkanı İlham Aliyev'in tebirince desek, modern dünyada petrol amaç değildir, o sadece hem ekonomik, hem de siyasi seciyyeli küresel sorunların çözümü için bir araçtır. " Milli Lider işte bu araçtan yararlanmaqla Azerbaycanı bağımlı değil, kendi isteğini dikte eden ülkelerden birine dönüştürdü. Azerbaycan ekonomisinin itici gücüne dönüşen bu sözleşmenin mahiyetinde, hiç şüphesiz, Haydar Aliyev dühasının Triumph dururdu. Azerbaycan'ın demokratik bir ülke olarak bağımsızlığının bağımsızlığı çok fazla, medeniyet entegrasyonu meselesidir [3].

Bu da sözleşmelerin yerine getirilmesine bağlı olarak cumhuriyetimizin özgür ve bağımsız geleceğini güvence altına alıyor. Çünkü büyük petrol şirketlerinin ülkemize gelmesi sadece bir yatırım akışı değildi. Ülkemizde de bir inançtı. Haydar Aliyev cumhuriyetimizde bu güven kazandı.

"Yüzyılın anlaşması" nın imzalanması ile Hazar Denizi havzasında ve tüm eski Sovyet mekanında uluslararası işbirliğinin temeli atıldı. Bu anlaşma bölgede diğer küresel projelerin gerçekleştirilmesi için de olanak sağladı, Hazar'da çıkarları temin edilmiş bir çok önde gelen Batılı devletlerin Azerbaycan ile tüm alanlarda geniş kapsamlı işbirliğine ilgisini artırdı, uluslararası finans kuruluşları ile ilişkilerde niteliksel tamamen yeni bir aşamanın temelini attı [7].

Bu arada, petrol insanlara ve devletlere her zaman mutluluk getirmez. Benzin, mutlaka ulusal zenginliğe tercüme edildiğinde mutluluk getirir. Haydar Aliyev tarafından geliştirilen yeni petrol stratejisi, ulusal çıkarlara daha fazla önem verdiği için de değerlidir. Ulu Önder Haydar Aliyev demiştir: "1994 yılından itibaren Azerbaycan devleti kendi yeni petrol stratejisini uyguluyor ve bu stratejinin de temel anlamı, temel ilkeleri Azerbaycan'ın zengin doğal kaynaklarını, özellikle, petrol ve gaz kaynaklarından Azerbaycan halkının refahı için daha da verimli kullanmaktan ibarettir". Haydar Aliyev Azerbaycan'ın yeni petrol stratejisini çalıştı hazırlamakla, "Yüzyılın anlaşması"nın imzalanmasına nail olmak üzere uzun yıllar vahşice sömürülen neftimizi halkımızın milli servetine, onu ülkemizin ekonomik gücünün artmasının, insanların yaşam standartlarını geliştirmek için sağlayıcısına dönüştürdü. Ulu önderin Kendisinin bitkin petrol stratejisi bağımsızlığını yeni elde etmiş Azerbaycan'ın güçlü ve kudretli bir devlete dönüşmesine

yönelik akıllıca siyasi-ekonomik kavram, büyük uzaqgörenlikle hazırlanmış net faaliyet planıdır. Ülkemizin modern yükselişi yeni petrol stratejisinin başarısıyla başladı. Tesadüfi deyil ki, bu önemli hususa değinen Cumhurbaşkanı İlham Aliyev demiştir: "Ben belirtmek isterim ki, bizim bugünkü gelişmemiz, bugünkü nailiyyetlerimiz, Azerbaycan'ın gerçekten bağımsız bir ülke olarak dünya birliğine girmesi olacak derecede" Yüzyılın anlaşması "nın imzalanması ile ilgilidir. Çok cesur ve bilge bir adımdı. Büyük lider Haydar Aliyev'in attığı bu adım, Azerbaycan halkının refahı ve Azerbaycan'ın kapsamlı gelişimi için hizmet ediyor" [1].

12 Kasım 1997'de, Çırağ alanındaki ilk petrol çıkarma miktarı Azerbaycan'da devlet düzeyinde kaydedildi. Aynı gün, Bakü'de ham petrol kabul etmek ve teknolojik süreç sonrasında ihracat boru hattını vurmak amacıyla inşa edilen Sangachal Terminali. 30 Ağustos 2001'de Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev'in katılımıyla Azeri-Çırak-Güneşli bloğunun tam ölçekli gelişimi üzerine bir karar alındı. Böylece ülkemizde büyük ölçekli inşaat ve montaj işleri başlamıştır. 2005 Şubat ayının 14-de "Azeri" yatağının merkezi kısmında yerleşik benzersiz platformdan petrol hasılatına başlanması ile Azerbaycan'da büyük petrol üretiminin esası konuldu. Son yıllarda, Azeri-Gunashli-

Çırak projesi kapsamındaki yeni platformların başlatılmasıyla ülkemizdeki petrol üretimi hızla büyümüştür. Ülkedeki petrol üretiminin 1997'de 9 milyon tondan 2010'da 50.7 milyon tona yaklaşık 5.6 kat arttığını belirtmek yeterlidir. Bu aynı zamanda Azerbaycan'ın petrol endüstrisi tarihindeki rekor bir göstergedir. Azeri-Çırak-Güneşli tarlalarında 81 kuyu başarılı bir şekilde kullanıldı. Geçmiş dönemlerde, bu kuyulardan 340 milyon ton petrol ve 23 milyar metreküp ilgili gaz çıkarıldı. Buna ek olarak, sulama ve diğer teknik amaçlı 36 kuyu kullanılmaktadır [5].

Başarılardan söz ettikten sonra, öncelikle, zengin tarihi geleneklere sahip olan petrol ve gaz endüstrisinin yenilenmiş olduğuna dikkat edilmelidir. 1994 yılından bu yana petrol sektörüne yaklaşık

50 milyar ABD doları tutarında yatırım konulmuş, ülkemizin mevcut yatak ve yapıları üzere büyük ölçekli projeler hayata keçirilmiş, petrol endüstrisinde en modern altyapı oluşturulmuştur. Şu anda, dünya çapında 20 ülkeyi temsil eden 53 şirketten oluşan 33 adet Azerbaycan'daki üretim paylaşımı sözleşmesi yürütülmektedir. Ülkemizde üretilen hidrokarbonların benimsenmesi, korunması ve ihracatı,yeni petrol stratejisinin en önemli bileşenleri arasındadır. Şaxelendirilmiş ihraç petrol ve doğalgaz boruhatları

sisteminin kurulması Azerbaycan'ın enerji bağımsızlığını sağlamış, Avrupa ve diğer uzakbölgelerin yüksek kaliteli hidrokarbon kaynakları ile teminatı için yeni perspektifler açmış, Hazar ülkelerde üretilen enerji kaynaklarının nakledilmesi açısından sabit transit koridoru gibi respublikamıza gerçek fırsatlar yaratmıştır. Halen Azerbaycan 33 ülkeye ham petrol ve petrol ürünleri ihraç ediyor.Bakü-Novorossik hattı 1997'de devreye alındı ve 1999 yılında Bakü-Supsa petrol boru hattı devreye alındı. Bununla birlikte, Azerbaycan'ın petrol taşıma sisteminin ana arteri şüphesiz ana ihracat petrol boru hattı Bakü-Tiflis-Ceyhan (BTC) 'dir. Ülke çapında liderimiz Haydar Aliyev'in başarılı petrol stratejisinin başyapıt olan bu eşsiz proje, 2006 yazında gerçekleştirildi. Avrasya bölgesinde en büyük ve benzersiz bir mühendis cihazlarıyla olan BTC boru hattı dünyada enerji güvenliğinin temel öğelerinden biri olarak Azerbaycan petrolünün güvenli ve kesintisiz ihracında əvəzedilməz rol oynuyor. Bu boru hattı vasıtasıyla yaklaşık 265 milyon ton Azerbaycan petrolünün dünya pazarına pompalandığına işaret etmek yeterlidir [7].

Petrol gelirleri sayesinde bugün ülkemizin her bölgesinde hızlı bir büyüme kaydedildi.Azerbaycan Cumhuriyeti Devlet Petrol Fonu, bu gelirlerin mevcut ve gelecek nesillerin refahınayönlendirilmesinden dolayı büyük lider Haydar Aliyev tarafından kuruldu. Geçtiğimiz süreçte Azerbaycan Cumhurbaşkanı İlham Aliyev'in yönetimi ile ülkemizin hızlı sosyo-ekonomik gelişmesine katkıda bulunan bir takım amaçlı devlet programları tam Devlet Petrol Fonu malzemeleri hesabına gerçekleştirilmiştir. Petrolden elde edilen gelirler hesabına ülke ekonomisinin şaxələndirilməsini ekonomik politikanın önceliği ilan eden Azerbaycan devleti hazırda petrol sektörünün gelişmesi alanında başarılar kazanıyor. Ülkemizde elde edilen sosyo-ekonomik başarıların temeli, ulusal liderimiz Haydar Aliyev'in yazarı olan yeni petrol stratejisidir [6].

**Ədəbiyyat**


1. Heydər Əliyevin neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə. 2 hissədə, 1-ci hissə /
2. Azərbaycan Respublikası Prezidentinin Katibliyi /. Bakı: Nurol, 2001.
3. Алиев И. Каспийская нефть Азербайджана. М., Известия, 2003, с.5-7.

4. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin İqtisadiyyatının təhlili və qloballaşma məsələləri şöbəsinin aparıcı elmi işçisi.

5. “Respublika” qəzeti. Bakı, 2015, 3 may, s.4.

6. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri 1991-2016. Bakı, 2017, s. 759, 762

7. http: //unec.edu.az/application/uploads/2015/05 Celilova Elnure260az.pdf Керимов М. Каспийская нефть Азербайджан служит региональному сотрудничеству.

**Gozalova S.**

**Summary**

**HAYDAR ALİYEV FOUNDER OF NATİONAL OİL STRATEGY**

Hayder Aliyev’s genius and political will has transformed September 20, one of the most common calendar days, into an extraordinary event recognized and accepted by all mankind. That day, the new history of independent Azerbaijan was a turning point that changed day by day. One of the cornerstones of renewable Azerbaijan was the “Convention of Centuries”. The independence of Azerbaijan, the economic ascension, its progress through democracy is the product of the Haydar Aliyev genius, and the “century’s agreement” is the light spring formed by the light of this dream.

The $20^{th}$ anniversary of the “century’s agreement” is in fact not only the contemporary Azerbaijan Republic, but the very important and extraordinary authority of the history of the republic in general. For this reason, our people see that day as the victory of the wisdom of Haydar Aliyev. Our great leader says in the signing ceremony: “We take such a step that Azerbaijan has a country open to the world economy for the world. We signed this agreement and declared that the sovereignty rights of the Republic of Azerbaijan were the foundation of Azerbaijan, that Azerbaijan was fully independent, We sign this agreement and establish relations between the Republic of Azerbaijan and the developed countries of the world and their biggest companies … We sign this agreement and we are leading a big way for foreign countries to invest in Azerbaijan”.

In fact, it is a very risky business for foreign investors, especially multinational oil companies, to invest in Azerbaijan. Because Azerbaijan signed the signing of the "Centennial Agreement" – 1994 May 12, even though it signed the fires, it was in the state of war, there was no political stability in the country. A number of domestic and foreign powers who do not want the independence of Azerbaijan have all the means to create chaos, turmoil and anarchy in our country, even fearing terrorism turned into the world's number one scourge. Despite all this, the multinational companies of the world, which fully guarantee the political stability and favorable business environment in Azerbaijan, came to my country to sign the "Century of Agreement". Major oil companies such as Amoco, BP, Statoil, Inpex, YUNOKAL, TPAO, Exxon Mobil, Devon Eergy, Delta Hessvvə İtosi and the Azerbaijani "Azeri", "Apprentice" deposits and "Gunashli development, and production sharing of the deep waters of the Azerbaijani territory, this confidence is the identity of Haydar Aliyev, the intelligence of Haydar Aliyev, in the opinion of the President of Azerbaijan Ilham Aliyev, that oil in the modern world is not the intention, is a tool for the solution of global political problems. "The National Leader is not dependent on Azerbaijan to benefit from this tool, but has transformed it into one of its own dictating countries. In the nature of this contract, which transformed into the driving force of the Azerbaijani economy, no doubt, the Triumph of Haydar Aliyev's monarchy stood. The independence of Azerbaijan's independence as a democratic country is a matter of civilization integration.

Гюзалова С.

**Резюме**

**ГАЙДАР АЛИЕВ НАЦИОНАЛЬНЫЙ СТРАТЕГИЯ НЕФТЯНОЙ СТРАТЕГИИ**

Гениальная и политическая воля Гайдара Алиева трансформировала 20 сентября, один из самых частых календарных дней, в необычное событие, признанное и принятое всем человечеством. В тот день новая история независимого Азербайджана стала поворотным моментом, который менялся день ото дня. Одним из краеугольных камней возобновляемого Азербайджана стала «Конвенция веков». независимость Азербайджана, экономический рост его

развития через демократию продукт Г.Алиева гениальности, «Контракт века» является светом, состоящим из света весной этого Дух.

20-летие «соглашения века» - это не только современная Азербайджанская Республика, но и очень важный и исключительный авторитет истории республики в целом. По этой причине наш народ видит этот день в качестве победы мудрости Гейдара Алиева. Велик был также лидером нашей церемонии подписания:. «Мы мир для Азербайджана такого шага, страна в том, что ясна для мировой экономики Мы были собственность суверенных прав Азербайджанской Республики, подписав данное соглашение, Азербайджан является полностью независимым, нашими люди себя своим богатства что мы бежим фронт еще раз к миру. мы выдвигали состояние мира с Азербайджанской Республикой, подписав этот договор, мы строим отношения между их крупнейшими компаниями ... мы открываем отличный способ инвестировать в Азербайджане из зарубежных стран, подписав этот договор".

На самом деле, это очень рискованный бизнес для иностранных инвесторов, особенно многонациональных нефтяных компаний, для инвестиций в Азербайджан. Поскольку Азербайджан подписал подписание «Столетнего соглашения» - 1994 12 мая, хотя он подписал пожары, он находился в состоянии войны, политической стабильности в стране не было. ряд отечественных и зарубежных держав, которые не хотят хаоса в нашей стране, независимость Азербайджана, все инструменты для создания хаоса и анархии, или даже рецессивный ErdUlAr даже в переводе на номер один бич терроризма в мире. Несмотря на это, многонациональные компании мира, которые полностью гарантируют политическую стабильность и благоприятную деловую среду в Азербайджане, пришли в мою страну, чтобы подписать «Век соглашения». 1994 20 сентября-хорошо Баку в Amoco, BP, Statoil, Inpex, YUNOKAL, TPAO, Exxon Mobil, Девон Eerj Дельта Hessvvə İtoç, такие как крупные нефтяные компании и Каспийского моря в азербайджанском секторе «Азери», «Чираг» депозитов и «Gunashl из открытие глубинных вод района, был предоставлен меморандум о взаимопонимании по вопросам совместного развития и производства. эта вера является обеспечение идентичности Гейдара Алиева, что безопасность была разведка Гейдар Алиев. Президент Азербайджана Ильхам Алиев на скажем, нефть

не является целью в современном мире, это только экономически и является инструментом для решения глобальных политических проблем». Национальный лидер не зависит от Азербайджана, чтобы извлечь выгоду из этого инструмента, но превратил его в одну из своих диктующих стран. В характере этого контракта, который превратился в движущую силу азербайджанской экономики, несомненно, стояла монархия Триумфа Гайдара Алиева. Независимость независимости Азербайджана как демократической страны - вопрос интеграции цивилизации

**Abdiyeva Ədalət Murad qızı**
*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## HEYDƏR ƏLİYEV VƏ MULTİKULTURAL DƏYƏRLƏR

***Açar sözlər**: Multikulturalizm, milli-mənəvi dəyərlər, müstəqillik,siyasət*

***Key words:** Multiculturalism, national- spiritual values, independence, policy*

***Ключевые слова:** Мультикультурализм, национально-духовные ценности, независимость, политика*

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və inkişafı sahəsində əvəzsiz xidmətləri olmuşdur. Hələ SSRİ dövründə Moskvanın mənfur milli siyasətinə baxmayaraq, o, Azərbaycanın müstəqilliyi üçün iqtisadi və mədəni-mənəvi təməl yaratmışdır, böhranlı situasiyada xalqı fəlakətdən xilas etmiş, ölkəni sürətli inkişaf magistralına çıxarmışdır. Nəticədə, qısa bir zamanda Azərbaycan siyasi və iqtisadi müstəqilliklə yanaşı, həm də mədəni-mənəvi müstəqillik əldə etmişdir.

Qloballaşma şəraitində milli-mənəvi dəyərlərimizin böyük təhlükələrlə üzləşəcəyini və milli ideologiyanın formalaşmasını təmin etmədən bu təhlükədən xilas olmağın çətin olacağını vurğulayan ulu öndər Heydər Əliyev dövlət televiziyası ilə çıxış edərək "Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir" – deyərək milli-mənəvi dəyərlərimizin qorunmasına yönəldilmiş bəyanat vermişdir. Bu gün Azərbaycan Heydər Əliyev siyasi kursu və azərbaycançılıq ideyası ətrafında sıx səfərbər olan xalqımızın birgə əməyinin, zəhmətinin və mübarizliyinin nəticəsi olaraq sürətli inkişafa, davamlı yüksəlişə nail olmuşdur. Ulu öndərin qurduğu, Prezident İlham Əliyevin

möhkəmləndirdiyi müstəqil Azərbaycan hər birimizin mənəvi istinadgahı və qürur mənbəyidir. Bu Vətən var olduqca milli-mədəni irsimiz də qorunacaq və inkişaf edəcək.

Azərbaycan nitq mədəniyyətinin inkişafında mühüm rolu olan Ulu öndər Heydər Əliyevin çıxışlarında səslənən fikirlər bu gün də öz aktuallığını saxlayır. Heydər Əliyev mənəvi tərbiyədə ümumbəşəri dəyərlərlə yanaşı, azərbaycan xalqının etno-mədəni və milli-mənəvi dəyərlərinin mənimsənilməsinə birinci dərəcəli yer verirdi (6). 1993-cü ildə Siyasi hakimiyyətə gayıdan H.Əliyevin ilk çıxışları ölkə ərazisində yaşayan xalqların, millətlərin yekdilliyinə çağırışdan ibarət olmuşdur: “Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan xalqların, millətlərin Vətəni olub, bundan sonrada Vətəni olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olamayaraq, eyni hüquqa malik olmalıdır” (2, c.11).

"Heydər Əliyev azərbaycançılıq ideyasına tamamilə yeni məzmun verərək, onu Azərbaycanın milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdı. Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın-bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan soydaşlarımızın və həmvətənlərimizin söykəndiyi milli birlik platformasına çevirdi " Ümummilli lider Heydər Əliyev Azərbaycanın çoxmillətli dövlət olaraq milli siyasətinin əsas postulatını belə müəyyən etdi: "...Respublikamızın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar".

Ümummilli liderin peyğəmbərcəsinə söylədiyi bu fikirlər, müasir dünyamızda milli-etnik və dini dözümsüzlük mühiti formalaşdırmaqla "idarə olunan xaos" vəziyyəti yaradan qüvvələrin kimliyini anlamaq və nəticələr çıxarmaq üçün olduqca ibrətamizdir. Azərbaycanda belə bir gerçəklik dərk edilir ki, düşünülmüş multikulturalizm siyasəti olmadan ölkə sabit inkişaf yoluna qədəm qoya bilməz. Azərbaycanın birgəyaşayış modelini formalaşdırması və dünyaya təqdim etməsi bunun əyani təzahürlərindəndir. Ölkəmizin milli mədəniyyətinə uğurla inteqrasiya edən müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Əlbəttə, müstəqillik illəri daha çox qloballaşma dövrünə təsadüf edən Azərbaycanın ondan da əvvəl mövcud olan multikulturalizm meyllərindən imtina etmək şansı yox idi. Bütün dünyada milli və dini münaqişələr fonunda artan

anlaşılmazlığa, fobiyaya, qarşıdurmaya yol verməmək üçün birgəyaşayışın Azərbaycan modeli haqqında düşünmək və bu düsturu digər ölkələrdə də tətbiq etmək ancaq bəşəriyyətə uğur gətirə bilər.

Azərbaycan müxtəlif etnik və dini qrupların ənənəvi dözümlülük və ahəngdar birgəyaşayışı üzərində qurulmuş və həyata keçirilən milli siyasətin aparıldığı çoxmillətli və çoxdinli ölkədir. Tarixən, Azərbaycanda insanlar arasında milli, dini və irqi ayrı-seçkiliyə yol verilməmiş, tolerantlıq milli mentalitetimizə xas olmuşdur. Yüzilliklər boyunca Azərbaycanda dünya dinləri və millətləri sülh və əmin-amanlıq şəraitində dinc - yanaşı fəaliyyət göstərmişlər. Prezident İlham Əliyev də leksikonumuzda nisbətən yeni söz olan multikulturalizm ənənələrinin Azərbaycanda həmişə mövcud olduğunu bəyan etmişdir: "Sadəcə, müxtəlif cür adlanıb, lakin mahiyyəti dəyişməyib. Zənnimcə, əsrlər ərzində, o cümlədən, Sovet dövründə yaranan müsbət meyllər müasir Azərbaycanda möhkəmlənir. Bu da ölkəmizdə milli həmrəyliyin əsası, müasir dinamik inkişafın təməlidir.

Ulu öndər Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycan kimi etnik tərkibi baxımından zəngin, çoxmillətli bir dövlətdə millətçilik ziyanlı fəsadlara yol aça bilər. İki böyük dövlətin qonşuluğunda yerləşən, bu dövlətlərin təsir altına salmaq istədiyi toplumu, yalnız, özündə vətənçiliyi, xalqçılığı ehtiva edən azərbaycançılıq ideyası ilə birləşdirmək mümkün idi. Azərbaycan dövlətçiliyinə qəsdlər və onların qarşısının alınması, ölkədə birgəyaşayış naminə həyata keçirilən milli siyasət, beynəlxalq Konvensiyalar və onların milli qanunvericilikdə təsbiti, beynəlxalq qurumların respublikada milli azlıqlarla bağlı siyasətə münasibəti, milli azlıqların hüquqlarının təmin edilməsində Ombudsmanın rolu, təhsil siyasəti, mədəni müxtəliflik, milli azlıqlar və media, dini etiqad azadlığının təmin edilməsi də araşdırmamızın başlıca istiqamətlərindən olmuşdur.

Qədim dövrlərdən başlayaraq bu günümüzə kimi Azərbaycan xalqının gözəl adət-ənənələrini, milli-mənəvi dəyərlərini, etnik-psixoloji xüsusiyyətlərini özündə yaşadan və birləşdirən bir baxışlar sistemi kimi azərbaycançılıq ideologiyası yaranmış və formalaşmışdır. Azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial

doktrinasının sosio-mədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərliyin mühüm əsasını təşkil edir. Akademik Ramiz Mehdiyev 9 noyabr 2007-ci il tarixdə, "Azərbaycan" qəzetində çap olunan "Azərbaycançılıq - milli ideologiyanın kamil nümunəsi" adlı məqaləsində yazır ki, "azərbaycançılıq" anlayışı milli siyasi diskursda nisbətən yaxın vaxtlardan işlədilir: "O, ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında real surətdə birləşdirmək ideyasının verballaşdırılması kimi, 1992- 1993-cü illərdə, xüsusilə, geniş yayılan şovinist və separatçılıq əhval-ruhiyyəsinə qarşı mübarizə ideyası kimi meydana gəlmişdir. Yeni anlayış ictimaiyyət tərəfindən kifayət qədər tez dəstəklənmiş, təzə, məzmunlu elementlərlə dolğunlaşmışdır. Düşünürük ki, indi "azərbaycançılıq" artıq milli ideologiyanın Azərbaycanda birgəyaşayış və multikulturalizmin ilk nümunəsi hesab edilə bilər" ( 5).

Ümummilli lider öz çıxışlarında bir vacib məqamı hər zaman diqqətə çatdırıb ki, Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir və biz bunu qoruyub saxlamalı, dünyada ən yüksək səviyyədə təbliğ etməliyik: "Azərbaycan əhalisinin çox milli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. "Azərbaycanlı" sözü bizi həmişə birləşdirib" (1).

Tarix elmləri doktoru, professor Əli Həsənov "Heydər Əliyev və milli dövlətçilik təlimi - azərbaycançılıq" məqaləsində yazır ki, 1993-cü ildən Ulu öndərin siyasi rəhbərliyə gəlişi ilə bütün Azərbaycan vətəndaşlarının - dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkənin istiqlaliyyətini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı. Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil dövlətin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi və mənəvi dəyərlərin gündəliyinə çıxarıldı: "Heydər Əliyev azərbaycançılıq ideyasına tamamilə yeni bir məzmun verərək, onu Azərbaycanın milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdı. Odur ki, Heydər Əliyevi müasir

azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisi hesab etmək olar.

Azərbaycançılıq ideologiyası, məhz, Heydər Əliyevin dövründə mükəmməl bir ideoloji təlim kimi ölkənin dövlət siyasətinə çevrildi. Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın - bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin söykəndiyi milli birlik platformasına çevirdi. Əgər Heydər Əliyevə qədər bu ideya, əsasən, etnolinqvistik, etnoqrafik, ədəbi, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi mövcud idisə, onun dövründə ciddi sosial-siyasi məzmun kəsb edərək, ümumi ideyalar sisteminə - dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi" (1).

2000-ci il iyunun 22-də Azərbaycanlıların Ümumrusiya Konqresinin təsis yığıncağında çıxış edən Prezident Heydər Əliyev demişdir ki, biz öz mənşəyimizi, öz milli mənşəyimizi və dini mənşəyimizi heç vaxt unutmamalıyıq: "Bəli, əcdadlarımız islamı hələ VII əsrdə qəbul etmişlər. İslam bir çox yüzilliklər ərzində xalqımızın həyatının mənəvi əsası olmuşdur. Biz başqa dinə tapına və ya onu qəbul edə bilmərik. Yeri gəlmişkən, çoxları təəccüblənir ki, Azərbaycanda üç konfessiya (islam, xristianlıq və yəhudilik nəzərdə tutulur) belə dostcasına fəaliyyət göstərir. Biz, məhz, belə xalqıq, təkrar edirəm, biz başqa dinlərə dözümlüyük, lakin bununla bərabər, milli adətlərimizin, milli mərasimlərimizin ən mühüm mənbələrindən biri olan öz dinimizi unutmamalıyıq" (5).

Ümummilli lider Heydər Əliyev Azərbaycanın dövlət başçısı kimi azərbaycançılıq ideologiyasını formalaşdırarkən çoxəsrlik milli-mənəvi dəyərlərin qorunmasına, dövlət siyasətində ehtiva olunmasına ciddi diqqət yetirirdi. 13 avqust 2001-ci ildə verdiyi məlum bəyanatında ölkədəki demokratiyadan sui istifadə edənlərə müraciətlə deyirdi: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Əgər, insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud, onları qəsdən təhrif edirsə, əgər, vəziyyət o dərəcəyə çatırsa ki, hətta, Azərbaycanın dini rəhbəri təhqir olunur, onda, təbiidir ki, bu, bizi narahat etməlidir. ...Biz Azərbaycanda demokratiyanın bütün tələblərini tətbiq etmişik, edəcəyik də. Ancaq Azərbaycanın milli-mənəvi dəyərlərinə qarşı, Azərbaycanın milli mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin hamısının qarşısı alınacaqdır". Bu gün Azərbaycanda mövcud olan etnik-dini tolerantlıq

hazırda bəzi inkişaf etmiş ölkələrə də örnək göstərilir. İnsan hüquqları üzrə ixtisaslaşmış beynəlxalq təşkilatların hesabatlarında Azərbaycanda müxtəlif dini sivilizasiyalar arasındakı münasibətlərin yüksək səviyyədə olduğu, dini azlıqların maraq və mənafelərinin qorunduğu razılıqla bildirilir.

Ümummilli lider Heydər Əliyev ölkənin etnik mənzərəsini belə görürdü: milli adət və ənənələrimizin etnik kökü, genetik fondu beynəlxalq dövriyyəyə nöqsansız buraxılsın. Azərbaycançılığın dəyəri digər dövlətçilik dəyərlərinin zirvəsində dayansın. Çünki azərbaycançılıq əsl milli ideyadır. Milli ideya mənəvi dəyərlərin universallığıdır. Bütün etnik fərdlərin, dinlərin, etnosların, məzhəblərin bir ölkənin sərhədləri daxilində, vahid mənəvi məkanda, beynəlmiləlçilik adlı ortaq milli səma altında birliyidir, Vətən adlı vahid kökə bağlılığıdır, milliliyin beynəlmiləlçiliklə sintezidir. Bu ideyaların davamçısı Prezident İlham Əliyev də Bakıda keçirilən "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda keçirilən beynəlxalq konfransdakı çıxışında Azərbaycanda hökm sürən yüksək tolerantlıq mühiti barədə fərəhlə söz açmışdır.

Azərbaycanı səmavi dinlərin birgəyaşayış məkanı, çoxmillətliliyi ölkəmizin əvəzedilməz sərvəti hesab edən Prezident İlham Əliyev bu gün dini inancları bütün siyasi proseslərdən uca tutan milli ruhlu bir nəsil yetişdirilməsi, zəngin mənəvi aləmə malik azərbaycanlı obrazının dünyaya tam dolğunluğu ilə tanıdılması üçün bütün bilik və bacarığını sərf etməkdə, dini konfessiyalar arasında heç bir qüvvənin sarsıda bilməyəcəyi məhəbbət və sədaqət körpüləri qurmaqdadır. Belə də olmalıdır. Çünki "öz tərkibində, təkcə, etnosları deyil, hətta məzhəbləri, dini konfessiyaları vahid mənəvi məkanda birləşdirəndə yaranır azərbaycançılıq ideyasının təkrarsızlığı, milliliyi, bəşəriliyi" (7).

## Ədəbiyyat


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Azərnəşr, 1997, I-Xl cild
2. Musayeva Ş. Milli ideologiya və etnik problemlər. Etikanın aktual problemləri (IV), Bakı, 2013, səh 48-53.
3. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003, s 2054
4. Mehdiyev R. Azərbaycanda siyasət: dünən, bu gün və sabah. "Azərbaycan" qəzeti, 9-10 yanvar, 2002-ci il, səh-3.

5. Ömərov V. Müasir dövrdə etno-mədəni dəyərlər. Etikanın aktual problemləri (IV), Bakı 2013, s.88-97.
6. http://news.milli.az/society/225944.html
7. http://www.scwra.iov.az/vnews/170
8. http://az.trend.az/news/politics/2259403.html
9. . http://kivdf.gov.az/menu/! 51/Konsepsiya/

Abdiyeva A.

**Summary**

**HAYDAR ALIYEV AND MULTICULTURAL VALUES**

The article deals with the multicultural values that existed in Azerbaijan for centuries and are preserved till today. The author explores the efforts of states to preserve and to strengthen these values by giving information about historically formed multicultural relationships. In the Republic of Azerbaijan an important place is given to the tolerance policy among nations, ethnics and faiths. As a result of national leader Heydar Aliyev's wise and far-sighted policy today Azerbaijan's multicultural model is accepted in many countries of the world. All the citizens of Azerbaijan regardless their nationality and religion live and create as a member of a large family. All ethnic and religious minorities have equal rights and freedoms. These high achievements of Azerbaijan are highly valued, and protected by the state.

Абдиева А.

**Резюме**

**ГЕЙДАР АЛИЕВ И МУЛЬТИКУЛЬТУРАЛЬНЫЕ ЦЕННОСТИ**

В статье рассматриваются многокультурные ценности, существовавшие в Азербайджане на протяжении веков и сохранившиеся до сегодняшнего дня. Автор исследует усилия государств по сохранению и укреплению этих ценностей путем предоставления информации об исторически сложившихся мультикультуральных отношениях. В Азербайджанской Республике важное место отводится политике толерантности между нациями, этническими и религиозными кругами. В результате мудрой и дальновидной политики общенационального лидера Гейдара Алиева сегодня мультикультуральная модель Азербайджана принята во многих странах мира. Все граждане Азербайджана, независимо от их национальности и религии, живут как члены большой семьи. Все этнические и религиозные

меньшинства имеют равные права и свободы. Эти высокие достижения Азербайджана высоко ценятся и защищены государством.

**Abdullayeva Şəfəq Hüseyn qızı**
*Azərbaycan DillərUniversiteti, Azərbaycan*

## AZƏRBAYCANIN TÜRK DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, beynəlxalq münasibətlər, türk dövlətləri, dostluq, əməkdaşlıq*

***Key words:*** *Azerbaijan, Heydar Aliyev, international relations, Turks states, friendship, partnership*

***Ключевые слова:*** *Азербайджан, Гейдар Алиев, международные отношения, турки, дружба, партнерство*

Azərbaycan tarixən türk dünyasını birləşdirən körpü rolunu oynamışdır. Lakin müəyyən dövrlərdə türk dünyası arasında əlaqələr qırılmışdır. Türk dövlətləri olan Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstan SSRİ-ni təşkil edən müttəfiq respublikalar kimi ittifaq dövləti tərkibində mövcud olaraq münasibətlər saxlamışlar. Türkiyə Respublikası isə türk dünyasının yeganə müstəqil dövləti olmuşdur. Azərbaycanın Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstan ilə münasibətləri ittifaq dövləti çərçivəsində, Türkiyə ilə əlaqələri isə SSRİ-nin Mərkəzi hakimiyyətinin vasitəsi və nəzarəti ilə həyata keçirilmişdir. Sovet dövrünün 30-50-ci illərində Azərbaycanın Türkiyə ilə münasibətləri demək olar ki, mövcud deyildi. 50-ci illərin ikinci yarısından etibarən SSRİ-də baş verən nisbi yumşalma nəticəsində Türkiyə ilə mədəniyyət sahəsində əlaqələrə mərkəzi hakimiyyətin nəzarəti altında icazə verildi və 60-80-ci illərdə bu əlaqələrdə sovet sistemi çərçivəsində müəyyən irəliləyişlər oldu.

Avropada sosializm sisteminin dağılması və SSRİ-nin süqutundan sonra dünyada yeni siyasi şərait yarandı. Əgər o vaxta qədər türk dünyasının yeganə müstəqil dövləti Türkiyə idisə, bundan sonra Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan və Qırğızıstan yeni müstəqil dövlətlər oldular. Onlar dünya birliyinin bərabərhüquqlu

üzvlərinə çevrildilər. Yeni şəraitdə türk dövlətləri arasında əlaqələrin qurulması qarşıda duran mühüm vəzifələrdən biri oldu.

Azərbaycan xalqının dövlət müstəqilliyini bərpa etməsi müxtəlif sahələrdə olduğu kimi türk dövlətləri ilə münasibətlərin inkişafında da yeni bir dövr açdı. Lakin bu münasibətlərin qurulması və inkişafında bəzi problemlər mövcud idi. Müəyyən tarixi dövrlərdə türk dünyası bir-birindən ayrı düşmüşdü. Qeyd etmək lazımdır ki, dövlət müstəqilliyi bərpa edildikdən sonrakı ilk illərdə türk dövlətləri ilə münasibətlər daha çox hissiyata əsaslanırdı. Qarşılıqlı münasibətlərdə real əməkdaşlığın həyata keçirilməsi bəzən arxa planda qalırdı. 1992-1993-cü illərdə Azərbaycanın Türkiyəyə doğru meyli yalnız xoşniyyətli şüarlar çərçivəsində idi. Orta Asiyadakı türk dövlətlərində kommunist liderlərin hakimiyyətdə olduğunu əsas gətirən o vaxtkı Azərbaycan hakimiyyəti ikitərəfli münasibətləri gərginləşdirirdi. Tarazlaşdırılmış siyasət yeridilmirdi. Türk dövlətlərinə münasibətdə yürüdülən xarici siyasət fəaliyyəti daha çox hisslərə əsaslanırdı. Bu, Azərbaycan Respublikasının dövlət və milli maraqlarının ziyanına olduğundan xalqda narazılıq yaradırdı. Nəticədə, Azərbaycanın Orta Asiyanın bəzi türk dövlətləri ilə münasibətləri təcridolma səviyyəsinə çatmışdı. Belə bir şəraitdə beynəlxalq aləmdə Azərbaycana olan inam azalırdı. Ölkə daxilində isə hərc-mərclik hökm sürürdü. Azərbaycan dərin sosial-siyasi böhrana düşmüşdü. Ölkəni və xalqı ağır vəziyyətdən qurtarmaq tələb olunurdu. Azərbaycan xalqı ölkəni fəlakətdən qurtara biləcək təcrübəli, nüfuzlu dövlət və siyasi xadimə ehtiyac duyurdu. Belə bir şəxs görkəmli dövlət və siyasi xadim Heydər Əlirza oğlu Əliyev oldu.

1993-cü ilin iyununda xalqın tələbi və hakimiyyətin xahişi ilə hakimiyyətə ikinci dəfə gəlişindən sonra Heydər Əliyevin gərgin siyasi fəaliyyəti, qətiyyəti, bacarığı nəticəsində Azərbaycanda hökm sürən hərc-mərcliyə son qoyuldu, sabitlik yaradıldı, dövlətin daxili və xarici siyasət strategiyası formalaşdırılaraq həyata keçirilməyə başlandı. Ağır zəhmət tələb edən fəaliyyəti nəticəsində Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu oldu.

Bununla yanaşı, Heydər Əliyev 90-cı illərin əvvəllərində, xüsusən SSRİ dağıldıqdan sonra yaranmış beş yeni müstəqil türk dövlətinin arasındakı ictimai-siyasi əlaqələrin hətta qırılmaq səviyyəsinə gəlib çatdığını görür və bu məsələ onu ciddi narahat edirdi. Ulu öndər görürdü ki, bu dövlətlərdən hər biri öz problemlərini təklikdə həll etməyə çalışır, dil bir, din bir, qan bir qardaşlarınınköməyinə müraciət etməyə, qardaş yardımından

bəhrələnməyə nədənsə az meyl göstərirlər.

Belə bir şəraitdə türk dövlətlərindən hansısa biri təşəbbüsü ələ almalı, türk xalqlarını əməkdaşlığa, birliyə, birgə fəaliyyətə yönəltməli idi. Türkiyə böyük dövlət kimi yeni yaranmış türk dövlətləri ilə iqtisadi və mədəni əlaqələri genişləndirmək üçün cəhdlər göstərirdi. Lakin türk dövlətlərini və xalqlarını öz tarixi köklərinə istiqamətləndirmək kimi xeyirxah məqsəd güdən nisbətən məhdud miqyaslı işlərin özü belə, özünü keçmiş SSRİ-nin varisi sayan Rusiyada böyük qısqanclıqla qarşılanırdı. Eyni zamanda, Türkiyənin belə cəhdləri Avropa dövlətlərində və ABŞ-da birmənalı qarşılanmırdı. Digər tərəfdən, yeni müstəqilliyini qazanmış türk respublikalarının başçıları hələ Moskvanın adamı olaraq onlara xidmət edirdilər və bu adamların siyasi birliyə nail olmaq, tarixi soykökə qayıtmaq istiqamətində çalışmalarına ümid etmək doğru olmazdı. Çünki onlar psixoloji cəhətdən buna hələ hazır deyildilər. Odur ki, bu təşəbbüsü məhz yeni müstəqillik qazanmış türk dövlətlərindən biri öz üzərinə götürməli idi. Belə bir lider ömrünün çox hissəsini siyasətə və dövlət işlərinə həsr etmiş Heydər Əliyev ola bilərdi. Çünki onu bütün türk xalqları görkəmli dövlət xadimi, türk dünyasının böyük oğlu kimi tanıyırdı. Heydər Əliyev həm də türk dünyasının problemlərini, onları yaxınlaşdırmaq yollarını dərindən bilirdi. Ona görə də, ulu öndər hesab edirdi ki, türk xalqlarının yaxınlaşması zəruridir və müstəqil türk dövlətləri başçılarının toplantıları bu istiqamətdə əhəmiyyətli rol oynaya bilər və oynamalıdır.

Ümummilli lider türk xalqlarının yaxınlaşması zəruriliyindən bəhs edərək demişdir: “Mən bu gün həqiqətən qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayır, bir-birimizlə daha sıx əlaqədə saxlayır. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik” [1].

Məhz bu səbəbdən Azərbaycan dövlətinin xarici siyasətinin mühüm istiqamətlərindən biri türk dövlətləri ilə münasibətlər oldu və türk dövlətləri ilə münasibətlərin yeni təməl üzərində qurulmasına başlandı. Əvvəlki illərdə Orta Asiyanın türk dövlətləri ilə soyuq, Türkiyə ilə isə gurultulu sözlərlə qurulan münasibətlərdən əl

çəkildi. Qarşılıqlı münasibətlərin normallaşması üçün səylər edildi və real işlərin həyata keçirilməsinə başlandı. Bütün bunlar Heydər Əliyevin gərgin əməyi, böyük dövlətçilik təcrübəsi və beynəlxalq məsələləri mükəmməl biməsinin sayəsində mümkün oldu.

Türk dövlətləri ilə münasibətlər məhz Heydər Əliyevin praqmatik xarici siyasət kursu nəticəsində normal məcraya düşərək formalaşdırılmağa başlandı. Soyuqluq tədricən aradan qaldırıldı. Qarşılıqlı münasibətlərin normallaşdırılması Azərbaycan Respublikasının təkcə beynəlxalq mövqelərinə deyil, həmçinin daxili ictimai-siyasi, iqtisadi və mədəni həyatının sabitləşməsinə və əsaslı şəkildə inkişafına təsir etdi. Heydər Əliyevin apardıgı ardıcıl, uğurlu beynəlxalq siyasi fəaliyyət nəticəsində 1994-cü ilin əvvəllərindən etibarən türk dövlətləri ilə münasibətlərdə əsaslı dönüş yarandı. İlk növbədə Türkiyə Cümhuriyyəti ilə münasibətlərin normallaşması və obyektiv təməllər üzərində qurulması istiqamətində addımlar atıldı. Heydər Əliyevin xarici ölkələrə ilk səfərlərindən biri 1994-cü ilin fevral ayında Türkiyəyə oldu. O, səfər zamanı Azərbaycan və Türkiyə xalqları arasında qədimdən dostluq, qardaşlıq münasibətlərinin olduğundan bəhs edərək deyirdi: “Bizim ölkələrimiz ... dost və qardaş ölkələrdir. Xalqlarımızın birliyi, qardaşlığı və dostluğu əsrlərdən əsrlərə keçərək formalaşmış və bu gün özünün yeni mərhələsinə çatmışdır" [2].

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 10 ildə dəfələrlə Türkiyədə səfərlərdə olmuş, həmçinin Türkiyənin dövlət və hökumət rəhbərləri Azərbaycana çoxsaylı səfərlər etmişlər. Bu təmaslar müxtəlif beynəlxalq və regional tədbirlərdə də davam edirdi. Təkcə bir faktı qeyd etmək yetər ki, Heydər Əliyev on illik prezidentliyi dövründə xarici ölkələrin rəhbər şəxsləri ilə 500-dən çox görüş keçirmiş, bu görüşlərin təxminən 100-ü Türkiyənin payına düşmüşdü.

Bu intensiv təmaslar, daimi məsləhətləşmələr fonunda iki ölkənin xarici siyasəti sıx koordinasiya içində bir-birini tamamlayırdı. Azərbaycan müstəqil dövlət quruculuğunda üzləşdiyi çətinliklərdə hər zaman Türkiyəni yanında gördü, eyni zamanda, atdığı addımlarda, həyata keçirdiyi iqtisadi layihələrdə daima Türkiyəni göz önündə tutdu.

Yeri gəlmişkən, 1994-cü ildə Azərbaycan xarici neft şirkətləri ilə ilk müqaviləni (“Azəri-Çıraq-Günəşli”) imzalayanda Türkiyənin payı (TPAO şirkəti) cüzi - 1,75 faiz idi. Bunun səbəbi türk şirkətinin müqavilə üzrə danışıqlara gec qoşulması olmuşdu. Lakin sonradan Heydər Əliyev Azərbaycanın layihədəki payı hesabına Türkiyəyə əlavə 5 faiz ayrılması barədə qərar verdi. Nəticədə Türkiyə “Əsrin müqaviləsi”nin mühüm

iştirakçılarından birinə çevrildi. 1996-cı ildə Azərbaycanın imzaladığı ikinci böyük müqavilə - "Şahdəniz" layihəsində Türkiyəyə daha yüksək - 9 faiz pay ayrıldı. Ümumilikdə, Azərbaycanın ayrı-ayrı neft-qaz layihələrində Türkiyə 35 faiz pay əldə etdi.

Heydər Əliyevin bu tərəfdaşlığa verdiyi ən böyük töhfə isə ölkəmizin enerji ehtiyatlarının Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Türkiyə üzərindən dünyaya açılması oldu. Əsas ixrac neft kəmərinin Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çəkilməsi Heydər Əliyevin mürəkkəb geosiyasi şəraitdə, dünya gücləri və neft nəhəngləri ilə gərgin danışıqlarda nümayiş etdirdiyi çevik diplomatiya hesabına mümkün olmuşdu. "Şübhəsiz, mənim ürəyimdən keçən arzu bu xətti Ceyhana çəkməkdir. Onun çəkilməsi tək məndən asılı deyil. Konsorsiumda 11 xarici neft şirkəti var. Amma hər şeyi vaxtı gələndə həll edəcəyik", - deyə o, 1996-cı il noyabrın 13-də Türkiyə jurnalistlərinə müsahibəsində bildirmişdi [2].

1999-cu ilin noyabrında İstanbulda Bakı-Tbilisi-Ceyhan neft kəmərinə dair həlledici qərar verildi, ilkin hökumətlərarası saziş imzalandı. "İstanbul bəyannaməsi"nə Azərbaycan, Türkiyə, Gürcüstanın dövlət başçıları və layihəyə dəstək verən ABŞ rəhbəri Bill Klintonla yanaşı, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin də imza atması kəmərə daha böyük regional önəm qazandırdı. Qazaxıstanın bu layihəyə qoşulmasında Heydər Əliyevin mühüm təşəbbüskar rolu olmuşdu. 2002-ci ildə boru xəttinin təməli atıldı və beləliklə üç dənizin (Xəzər, Qara və Aralıq dənizləri) əfsanəsi gerçək oldu. Eyni zamanda, Bakı-Ceyhan türk dünyasını (Orta Asiyadan Türkiyəyədək) bir-birinə bağlayan strateji kəmərə çevrildi. Bu gün Qazaxıstan da neftinin bir hissəsini bu marşrutla ixrac edir.

Bu, uzaqgörən siyasətin nəticəsində Bakı-Ceyhan kəməri yeni regional enerji və nəqliyyat layihələrinə zəmin yaratdı, onun ardınca Bakı-Tbilisi-Ərzurum qaz xətti, Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verildi. Bu addımlar təkcə Azərbaycan-Türkiyə əlaqələrinə deyil, eləcə də Mərkəzi Asiya respublikalarının Xəzər və Azərbaycan üzərindən Türkiyəyə bağlanmasına töhfə oldu.

Heydər Əliyevin tarixi xidmətlərindən biri də Azərbaycanın Orta Asiyanın türk dövlətləri ilə münasibətlərinin yeni əsaslar üzərində qurulmasıdır. Məlumdur ki, 1992-1993-cü illər hakimiyyəti dövründə Azərbaycanda ümumtürk həmrəyliyinin dar çərçivədə, yalnız Türkiyə ilə münasibətlərdə təşviq edilməsi, Mərkəzi Asiyanın türk respublikaları ilə münasibətlərə soyuq yanaşma xarici siyasətdə boşluqlara yol açmışdı.

Rəsmi Bakı bəzən bu respublikalara “demokratiya dərsi” keçmək missiyasını da üzərinə götürməyə təşəbbüs edirdi. Nəticədə, Azərbaycanın Qazaxıstan, Özbəkistan kimi iri türkdilli respublikalarla münasibətləri soyumuşdu. Xarici qüvvələrin dəstəklədiyi Ermənistanla müharibədə ölkəmiz, Türkiyə istisna olmaqla, digər türk dövlətlərinin hətta mənəvi dəstəyindən də məhrum olmuşdu.

Məhz buna görə Heydər Əliyev Azərbaycanın siyasi rəhbərliyinə qayıtdığı gün, 1993-cü ilin 15 iyununda Ali Sovetdə proqram xarakterli çıxışında xarici siyasətin önəmli istiqaməti kimi türkdilli dövlətlərlə işbirliyini qeyd etmişdi: «Xarici siyasət sahəsində görüləsi işlər çoxdur. Birinci növbədə, yaxın qonşularımızla sıx münasibətlər yaradılmalıdır. Bu baxımdan Türkiyə ilə əlaqələr, şübhəsiz ki, önəmli yer tutur. Eyni zamanda, keçmiş Sovetlər İttifaqına daxil olan türkdilli ölkələrlə əlaqələrimiz sürətlə inkişaf etməlidir. Bizim bu dövlətlərlə əlaqələrimiz uzun illər çox yaxın olub. Bu əlaqələri qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır” [3].

Məhz bu əlaqələri inkişaf etdirmək üçün Heydər Əliyev Türkiyə ilə qardaşlıq bağlarını möhkəmlətməklə bərabər, Mərkəzi Asiyadakı türk respublikaları ilə sıx əməkdaşlığı da daima prioritet saymışdır. Çünki Azərbaycan bu coğrafiyadakı strateji yerinə, güclü iqtisadi və infrastruktur imkanlarına görə Türkiyə və Mərkəzi Asiyanın türk ölkələri arasında əvəzolunmaz körpüdür. Heydər Əliyevin prezidentliyi dövründə bu körpü real tərəfdaşlıq müstəvisi kimi təşəkkül tapdı və möhkəmləndi.

Ulu öndərimiz türk xalqları arasında əlaqələrin möhkəmlənməsi yönündə atılan addımları yüksək qiymətləndirmiş və bu istiqamətdə keçirilən tədbirlərin bilavasitə təşəbbüskarı, təşkilatçısı, iştirakçısı olmuşdur. Vaxtilə Azərbaycana birinci rəhbərliyi dövründə SSRİ tərkibindəki ayrı-ayrı türkdilli respublikalarla ədəbi-mədəni əlaqələrin inkişafına: müştərək ədəbiyyat və mədəniyyət günlərinin keçirilməsinə mühüm diqqət yetirmiş və bu sahədə görkəmli ziyalıların fəaliyyətlərini yüksək dəyərləndirməklə bərabər, həm də onlara dəstək olmuşdur. H.Əliyev demişdir: "Bu cür tədbirlərdə çoxdilli və əlvan dünya ədəbiyyatının ustaları, öz adları ilə bu ədəbiyyatın şanlı tarixinə zinət verən sənətkarlar burada yenidən görüşürdülər". Müstəqilllik əldə etdikdən sonra Azərbaycana rəhbərlik edən bu böyük şəxsiyyət türk xalqları ilə ədəbi-mədəni əlaqələrin sağlam bünövrə üzərində qurulmasına ciddi əhəmiyyət vermiş, TÜRKSOY kimi nüfuzlu beynəlxalq təşkilatın Bakıda keçirilən VIII toplantısında təşkilatın fəaliyyətinin xüsusi əhəmiyyət daşıdığını vurğulamışdır.

1996-cı ilin noyabrında Türk Dünyası Yazıçılarının III Qurultayının Bakıda keçirilməsi məhz Heydər Əliyevin yüksək himayəsi və qayğısı sayəsində gerçəkləşmişdi. Həmin möhtəşəm ədəbi tədbirdə ulu öndərin dərin məzmunlu çıxışı siyasi-ideoloji və elmi-konseptual mükəmməlliyi ilə seçilən, əsl fəaliyyət proqramı sayılmağa layiq olan qiymətli sənəddir. Türk dünyasının ortaq tarixini, ədəbiyyatını və mədəniyyətini dərindən bilən müdrik dövlət xadimi qurultaydakı çıxışında türk xalqları arasında həmrəyliyin möhkəmləndirilməsi, əlaqələrin dərinləşdirilməsi sahəsində belə tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, ədəbiyyatı, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran prinsiplərdir, vəzifələrdir. Bu sahədə yenə də ədəbiyyatın, mədəniyyətin rolu böyükdür" [3, 124]. Nəticədə, Azərbaycanda Özbəkistan ədəbiyyat və incəsənəti günlərinin, Özbəkistanda isə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsinin ulu öndərin bu sahədəki uğurlu addımlarının nəticəsi idi. Ulu öndər türk dünyasında milli-mənəvi dəyərlərin, mədəniyyətin qorunmasında, yaşadılmasında

ədəbiyyatın, söz-sənət adamlarının mühüm xidmətlər göstərdiyini ayrıca xatırlatmışdır: "Bizim dilimizi, mədəniyyətimizi, milli dəyərlərimizi yaşadanlar həmişə, bütün mərhələlərdə yazıçılar olublar".

Azərbaycan xalqının möhtəşəm ədəbi abidəsi "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini "bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisə" sayan dahi şəxsiyyət qırğız xalqının məşhur "Manas" eposuna da yüksək qiymət vermişdir. 1995-ci ildə "Manas"ın 1000 illik yubileyi ilə əlaqədar Bişkekdə keçirilən təntənəli yubiley mərasimində çıxış edən Heydər Əliyev bu monumental dastanın mahiyyəti, ideyası, ədəbi-mədəni dəyəri, dünya sivilizasiyasında yeri barədə sanballı fikirlər söyləmişdir: "Manas" qırğız xalqının müdrikliyinin rəmzidir, zəkasının, qəhrəmanlığının, cəsarətinin rəmzidir. "Manas" qırğız xalqının daim vətənpərvər olduğunu, ədalətsevər, azadlıqsevər olduğunu bütün dünyaya nümayiş etdirir. "Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, islam dünyasının böyük mənəvi sərvətidir" [4, 40].

Ulu öndərimiz türk dünyasında ədəbi-mədəni əlaqələrin inkişafında qazax xalqının da rolunu diqqətdə saxlamış, qazax ədəbiyyatı barədə dəyərli fikirləri söyləmişdir. 1995-ci ildə böyük qazax ədibi Abay Kunanbayevin 150 illik yubileyi ilə əlaqədar Almatıda keçirilən yubiley tədbirində çıxış edən Heydər Əliyev görkəmli sənətkarın öz xalqına başucalığı gətirdiyini, dünya şöhrəti qazandığını bildirmiş, onun yaradıcılığına yüksək qiymət vermişdir: "Abay, onun yaradıcılığı bütün bəşəriyyətə, bütün xalqlara məxsusdur. Təbii ki, bu, qazax xalqının fəxri, qazax xalqının xoşbəxtliyidir. Çünki onun belə görkəmli övladı, alimi, maarifçisi var və o, öz xalqını xoşbəxtliyə və firavanlığa aparan düzgün yol göstərmişdir".

Türk xalqları arasında ədəbi-mədəni əlaqələrin inkişafında mühüm xidmətləri olmuş, ümummilli liderimizin böyük ehtiram bəslədiyi yazıçılardan biri məşhur qazax ədibi Oljas Süleymenov idi. 1999-cu ildə Bakıda O.Süleymenovu qəbul edən dahi rəhbər onun şəxsiyyətinə, ictimai mövqeyinə, Azərbaycana sevgisinə, xalqımızın müdafiə etməsinə, soydaşlarımıza qarşı törədilən qəddarlıqları pisləməsinə məxsusi dəyər verdiyini nəzərə çatdırmışdır: "Hesab edirəm ki, siz Azərbaycan xalqının da dostusunuz,

mənim də dostumsunuz. Sizə böyük hörmət hissləri bəslənilir. Həm yazıçı kimi, həm də siyasi xadim kimi Azərbaycanda böyük nüfuza maliksiniz. Azərbaycanın 1990-cı ilin yanvarında sovet qoşunları tərəfindən işğalı zamanı sizin fəaliyyətinizi Azərbaycanda yaxşı xatırlayır və yüksək qiymətləndirirlər, sovet qoşunlarının Bakıya yeridilməsinin ikinci günü sizin buraya gəlişinizi xatırlayırlar. Siz buraya gəldiniz, çıxış edib baş verənləri pislədiniz" [ 2, 258].

1994-cü ildə Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar Türkiyə Böyük Millət Məclisindəki çıxışında ulu öndər Heydər Əliyev türk ədəbiyyatına, mədəniyyətinə hələ yeniyetməlik dövründən böyük maraq göstərdiyini xatırlamışdır: "Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim. Gənclik çağlarımda ... Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanı bizim hamımızı heyran edən bir əsər idi. Son vaxtlarda "Çalıquşu" yenə yada düşdü, onun əsasında böyük bir film yarandı. O film təkcə türk ölkələrində yox, məsələn, mən bilirəm, Rusiyada da çox böyük hörmət, çox böyük şöhrət qazandı. Ancaq mən "Çalıquşu"nu 13-14 yaşımda oxumuşam. O, məni heyran etmişdi. Bəli, o vaxt yalnız "Çalıquşu"nu oxumaqla kifayətlənmirdik. Türkiyənin böyük şairlərini, yazıçılarını da öyrənirdik. Əbdülhəqq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərsliklərimizə daxil idi. Ədəbiyyat dərsliklərində Türkiyənin bu böyük yazıçı və şairlərinin rəsmləri indi də gözümün qabağındadır" [8].

Dünya şöhrəti qazanmış bu böyük şəxsiyyətin türk dünyasının birləşməsi və möhkəmlənməsi yolunda gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mükəmməl elmi-nəzəri mülahizələr reallıqlara əsaslanmaqla, böyük təcrübəvi və tarixi əhəmiyyətə malikdir. Xüsusilə vurğulamaq istərdik ki, türk dünyasının bir-birilə, o cümlədən bütün dünya ilə birləşdirilməsində Heydər Əliyevin tarixi "İpək Yolu" layihəsinin həyata keçirilməsi işində göstərdiyi səy və xidmətlər müstəsna əhəmiyyətə malikdir. Bu tarixi layihənin əsas məqsədi əhalisinin ümumi sayı 67 milyon nəfər olan (1991-ci il) Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarətdir. Bu isə həmin cümhuriyyətlərin 70 illik sovet dövründə yığılıb qalmış sosial-iqtisadi problemlərinin həll edilməsi və nəhayət, bu dövlətlərin siyasi və iqtisadi müstəqilliklərinin gücləndirilməsi üçün daha geniş perspektivlərin açılması deməkdir. Məhz buna görədir ki, dünya iqtisadiyyatı və region dövlətləri ilə geniş inteqrasiya bu

ölkələrin iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Heydər Əliyevin iqtisadi siyasəti məhz bu məqsədlərə yönəlmişdi.

Ümummilli liderimizin türk dünyasının birliyinin təmin olunması yolundakı tarixi xidmətlərindən danışarkən onu da qeyd etmək lazımdır ki, Azərbaycan-Türkiyə əməkdaşlığının möhkəm təməli məhz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun tarixi “bir millət, iki dövlət” ifadəsi hər iki dövlət əhalisinin dilinin əzbəri olmaqla gerçək həyatda bu dövlətlərin real siyasətinin əsasını təşkil edir. Çünki Heydər Əliyevin xarici siyasətində Türkiyə ilə əməkdaşlıq ilk sıralarda yer almışdır. Azərbaycan-Türkiyə əlaqələri türkdilli dövlətlərin əməkdaşlığının onurğa sütununu təşkil edir və regional əməkdaşlığın genişlənməsi üçün mühüm əhəmiyyət kəsb edir. O, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün tarixi xidmətlərinə və onun şəxsiyyətinə daim hörmət və ehtiramını bildirmişdir: “Mustafa Kamal Atatürk bütün türk dünyasının tarixi şəxsiyyətidir. Bütün türk dünyasının əvəzsiz, ölməz lideridir” [8]. 1990-cı ildən başlayaraq H.Əliyevin istər Naxçıvanda işlədiyi vaxtlarda, istərsə də Azərbaycan Prezidenti kimi ən mötəbər məclislərdəki elə bir çıxışına təsadüf etmək olmaz ki, orada Atatürk haqqında, onun Türkiyə, digər türk dövlətləri və xalqları, bütövlükdə türk dünyası haqqındakı xidmətləri qeyd edilməsin. Fikrimizcə, Heydər Əliyevin 2001-ci ildə TBMM-nin deputatları ilə görüşdəki çıxışında söylədiyi sözlər Atatürkün türk dünyası qarşısındakı xidmətlərini daha aydın dərk etmək üçün kifayətdir: “Bütün türk dünyasının böyük şəxsiyyəti, böyük oğlu, bəşər tarixinin meydana çıxardığı ən böyük insanlardan biri Mustafa Kamal Atatürkün iradəsi ilə 1923-cü ildə yaranmış Türkiyə Cümhuriyyəti o qədər güclü təməl əsasında qurulub ki, artıq 78 ildir ki, cümhuriyyət kimi yaşayır, inkişaf edir...

Biz Azərbaycanda çox məmnunuq ki, türk xalqı Türkiyə Cümhuriyyəti yaranandan Mustafa Kamal Atatürkün qoyduğu yolla gedib və bu yol da həmişə onu uğurlara gətiribdir. Məndən soruşanda ki, böyük Atatürkün türk xalqına qoyub getdiyi irs nədən ibarətdir, mən deyirəm, bu irs o qədər böyükdür ki, hamısını əhatə etmək mümkün deyildir. Ancaq ən böyük irs onun yaratdığı, qurduğu, yaşatdığı və bu gün uğurla yaşayan Türkiyə Cümhuriyyətidir. Eyni zamanda böyük Atatürkün türk xalqına qoyduğu böyük irs qəhrəman, yenilməz türk ordusudur, türk əsgəridir. Məhz həm iqtisadi inkişafına görə, həm hərbi qüdrətinə, imkanlarına görə Türkiyə bu 70 ildə ən ağır, çətin dövrlərdə

yaşayıb, inkişaf edib və Türkiyənin əleyhinə olan düşmən qüvvələrin hamısının qarşısını uğurla alıbdır... Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə təkcə Türkiyə Cümhuriyyəti üçün deyil, bütün türk dünyası üçündür, Azərbaycan üçündür" [6, 5]

Ümummilli lider türk xalqlarının yaxınlaşması zəruriliyindən bəhs edərək demişdir: "Mən bu gün həqiqətən qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayır, bir-birimizlə daha sıx əlaqədə saxlayır. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik" [8].

Hansı sosial-iqtisadi, ideoloji sistemin mövcudluğundan asılı olmayaraq, ulu öndər Heydər Əliyevin fəaliyyəti türk xalqları arasında əlaqələrin konkret şəraitdə inkişafına xidmət etdiyindən böyük tarixi əhəmiyyət daşımışdır.

Bu gün eyni məqsəd və məram ulu öndərin siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla yerinə yetirilir. Təsadüfi deyildir ki, günbəgün türkdilli xalqların ədəbiyyat adamları, yazıçıları bir-birinə yaxınlaşır, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradırlar.

## Ə D Ə B İ Y Y A T


1. Cəfərov N. Türk dünyasının birliyi strategiyası: Heydər Əliyevdən İlham Əliyevə // "Dirçəliş-XXI əsr " jurnalı, Bakı, 2004, №74-75, s.235-244.
2. Əhmədov Ə.Azərbaycanın türkdilli dövlətlərlə münasibətlərinin genişləndirilməsində Heydər Əliyevin rolu // " Dirçəliş-XXI əsr " jurnalı, Bakı, 2004, №74-75, s.244-266.

3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I cild. Bakı, Azərbaycan nəşr., 1997, 612 s.

4. Əliyev İ.H. Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı. // “Dirçəliş – XXI” əsr, 2006, № 102/103, s.37-42.

5. Hüseynov E. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-995-ci illər). Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, AMEA, 2000, 27 s.

6. Xudiyev N. Heydər Əliyev... Zəmanəmizin Atatürkü. - “Dirçəliş-XXI əsr“ jurnalı, Bakı, 1999, №14, s.19.

7. Türk Dünyasının birliyi ideyası və H.Əliyev. Bakı, 2011

8. Həşimli H. Türk xalqları arasında ədəbi-mədəni əlaqələrin qurulmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri /http://www.serqqapisi.az

**İsmayilova R.**

**Summary**

**Haydar Aliyev and common cultural values in the turkish world**

The builder of modern Azerbaijan statehood, nationwide leader of the Azerbaijani people Heydar Aliyev’s socio-ideological activity is not limited only by Azerbaijan, as a whole it covers the Turkic world, as well as the entire world. Side by dealing with the Turkic world, the ideas put side with the works forth by this historical personality, the perfection of the considerations expressed by him have great importance and the value and urgency with their deep content in this sphere, his far-sightedness and democratism, rich political heritage in the content of ongoing processes in the Turkic world will exist forever.

Исмаилова Р.

**Резюме**

**Гейдар Алиев и общие культурные ценности в турецком мире**

Социально-идеологическая деятельность строителя современной азербайджанской государственности, общенационального лидера Азербайджанского народа Гейдара Алиева ограничивается не только Азербайджаном, но в целом охватывает тюркский, а также весь мир. Деятельность этой исторической личности, касательная тюркского мира, выдвинутые им идеи, высказанные соображения, помимо своего совершенства, имеют важное значение своим глубоким содержанием, дальновидностью и демократизмом, и его богатое политическое наследие в этой сфере и впредь будет сохранять свою ценность и актуальность в содержании процессов, идущих в тюркском мире.

**Kazımbəyli İbrahim Feyzulla oğlu**

*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## HEYDƏR ƏLİYEVİN SİYASİ-DİPLOMATİK FƏALİYYƏTİNDƏ TÜRK DÜNYASI MƏSƏLƏLƏRİNİN SOVET DÖVRÜ

***Açar sözlər:*** *siyasi, diplomatik, türk dünyası,fəaliyyət,əlaqələr, məsələ*

**Key words:** *Political, diplomatic, Turkish world, activity, relations, issue*

***Ключевые слова:*** *политический, дипломатический, турецкий мир, деятельность, отношения, проблема*

Dünya dövlətlərinin tarixi təcrübəsi göstərir ki, hər bir xalqın durumu və gələcəyi əhəmiyyətli dərəcədə onun malik olduğu imkanları, zamanın tələblərini düzgün qiymətləndirməyi bacaran uzaqgörən, müstəqil dövlətçilik konsepsiyasını formalaşdıran və reallaşdıran liderlərin adı ilə bağlıdır.

Türk dünyasının XX yüzildə yetişmiş görkəmli dövlət adamlarından biri də Heydər Əliyevdir. XX yüzilin əvvəllərində Türk dünyası coğrafiyasında böyük öndər Mustafa Kamal Atatürk siyasi səhnəyə çıxdı və qüdrətli yeni bir Türkiyə siyasi modelinin əsaslarını yaratdı. Bu tarixi şəxsiyyət və seçilən zəka sahibi, qətiyyətli uzaqgörən bir tarixi şəxsiyyət missiyasını çiyinlərində şərəflə daşıya bildi. Böyük güclərin Osmanlı torpaqlarını bölüşdürmək parçalamaq yerində yeni dövlətlər yaratmaq siyasəti Atatürkün gərgin mücadilə hərəkatı nəticəsində baş tutmadı. Məhz belə bir ağır məsuliyyətli işin XX yüzilin sonlarında daşıyıcısı ümummilli lider Heydər Əliyev oldu. Heydər Əliyevi başqa tarixi şəxsiyyətlərdən fərqləndirən əsas xarakterik xüsusiyyətlər onun fenomen bir

zəkaya hadisələri əvvəlcədən görə bilmək və analtik təhlil süzgəcindən keçirmək yüksək təşkilatçılıq bacarığına sahib olmaq kimi böyük üstünlükləri var idi. Ümummilli lider Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti yalnız Azərbaycanla məhdudlaşmayıb, onun hüdudlarından kənarda, bütövlükdə türk dünyasında dərin iz buraxmışdır.Bu fəaliyyət, bu sahədə gördüyü işlər az bir zamanda onu türk dünyasının həmrəyliyinin bütün sahələrdə intensiv əməkdaşlığının tarixi əhəmiyyətini dərindən dərk edir və qürurla deyirdi:"Mən bu gün,həqiqətən qeyd etmək istəyirəm ki, bizim xalqımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar.Biz bir kökdənik, biz bir dilli xalqlarıq.Bizim milli ənənələrimiz ,bir-birinə bənzərdir, oxşardır.Ona görə də bunlar hamısı-xalqlarımız hələ biz müstəqil olmadığımız vaxtda ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da,bir-birimizdən ayrılmayıb, bir-birimizə bağlanıb bir-birimizlə daha sıx əlaqə saxlamışıq.İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra müstəqil dövlət kimi dünyada tanınandan sonra, biz tarixi ənənələr əsasında həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik inkişaf etməliyik.Dünya şöhrəti qazanmış böyük tarixi şəxsiyyətin türk dünyasının birləşməsi və möhkəmlənməsi yolunda gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi olduqca mükəmməl elmi-nəzəri mülahizələr reallıqlara əsaslanmaqla böyük təcrübəvi və tarixi əhəmiyyətə malikdir.Onlar türk dünyasının birləşməsində regionun nüfuzlu bir ictimai-siyasi qüvvəsinə çevrilməsində əhəmiyyətli rol oynadı.

Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində də türk-müsəlman dünyası istiqamətində müxtəlif səviyyələrdə  iş aparırdı. Ulu öndərin fəaliyyəti və siyasi-ideoloji baxışlarında Türkiyə və türk dünyası ilə əlaqələrin qurulub inkişaf etdirilməsi xüsusi yer tuturdu.

Heydər Əliyev SSRİ ilə Türkiyə arasında dostluq münasibətlərinin yaranmasına çalışırdı.Bu fəaliyyət nəticəsində Sovet rəhbərliyinin türk dünyasına SSRİ-nin türk xalqlarına normal münasibəti yaranmışdı.

Heydər Əliyev uzaqgörənliklə sanki hadisələrin sonrakı gedişini, tarixi proseslərin hansı məcrada davam edəcəyini böyük siyasi ustalıqla izləyə bilirdi. XX yüzilin 80-cı illərinin əvvəllərində ulu öndər Heydər Əliyev öz şəxsiyyəti ilə türkçülük düşüncəsini, türkçülük faktını SSRİ kimi nəhəng imperiyanın əhali zirvəsinə qədər gətirib çıxarmışdı. Təsadüfi deyil ki, SSRİ rəhbərlərindən biri Moskvada olan fəaliyyətini demək olar ki, bütün dünya bir təqdimatla tanıyırdı: "Kremlində ucalan türk bayrağı" (1, 247).

“Biz bir millət, iki dövlətik” deyimi də məhz ulu öndər Heydər Əliyevə məxsusdur. Bu məşhur deyim Azərbaycan-Türkiyə münasibətlərinin bütün dövrləri üçün öz aktuallığını həmişə saxlayacaq. İki qardaş ölkə arasında münasibətlərin məğzini bu qədər müfəssəl və bitkin bəyan edən ikinci bir ifadə tapmaq həqiqətən də çətindir. Heydər Əliyev Türkiyə-Azərbaycan əlaqələrinin tarixi köklərini, sosial-iqtisadi, mədəni əlaqələrin dünəni və bugünü haqqında müfəssəl məlumata malik olması, bu ölkənin (Türkiyə - red. İ.Kazımbəyli) Azərbaycan dövlətinin, xalqının yaşamında nə kimi rol oynadığını və bundan sonra da oynayacağını çox dərindən və mükəmməl bildiyindən irəli gəlirdi.

Heydər Əliyevin Türkiyəyə, bu ölkədə gedən ictimai-siyasi proseslərə diqqəti heç də Azərbaycanın müstəqilliyə qovuşduğu, Sovetlər Birliyinin dağıldığı dövrdən başlamır. O, özü bunu Azərbaycan Respublikasının prezidenti kimi Türkiyəyə ilk səfəri zamanı, Türkiyə Böyük Millət Məclisindəki çıxışında belə ifadə etmişdir: “Hələ gənclik illərində mən kitablarda, qəzetlərdə Türkiyə haqqında, türk xalqı haqqında oxuyanda daim Türkiyənin həsrətini çəkmiş, onun ictimai-siyasi həyatına böyük diqqət yetirmiş, Böyük Millət Məclisinin işi, onun qəbul etdiyi qərarlar haqqında xəbərləri diqqətlə izləmişəm” (2, 415). Fikrimizin əvvəlində də göstərdik ki, Heydər Əliyevin Sovet dövrü fəaliyyəti də göstərir ki, o təkcə Azərbaycan üçün yox, eləcə də Türkiyə və bütövlükdə türk-müsəlman dünyası üçün önəmli bir siyasi xadim olmuşdur. Sovet Totalitar idarə sisteminin mövcud olduğu bir dövrdə Heydər Əliyev çox böyük cəsarətlə imperiya tərəfindən daim ədalətsizliklərə məruz qalan, ikili standartlardan əziyyət çəkən, dövlət rəhbərlərinin biganəlikləri ilə üzləşən türkdilli müsəlman respublikaların xalqlarının hüquqlarını müdafiə etmiş və bir çox mühüm məsələlərdə öz mövqeyini ortaya qoymaqdan çəkinməmişdir. Heydər Əliyevin Bolqarıstanda yaşayan etnik türklərə qarşı yeridilən ayrı seçkilik məsələsində Mərkəzin (Kremlin – red. İ.Kazımbəyli) münasibətinə kəskin etirazı bu mövqeyi göstərən faktlardandır (2, 415).

O zaman Bolqarıstandakı vəziyyətdən narahat olan Türkiyə hökuməti Sov.İKP MK siyasi bürosuna məktub yazıb, hadisələrin qarşısını almaq üçün rəsmi Moskvanın öz imkanlarından istifadə etməsini xahiş etmişdi. Baş Katib Mixail Qorbaçov məsələnin müzakirəsindən boyun qaçırmağa çalışaraq bunun Bolqarıstanın daxili işi olduğunu göstərirdi. Məhz bu məsələdə Heydər Əliyev həmişə olduğu kimi böyük cəsarət nümayiş etdirərək Qorbaçovun fikirləri ilə razılaşmayıb, kəskin etirazını bildirir: “Macarıstan və

Çexoslovakiyada baş verən hadisələri biz onların daxili işi hesab etmədik. Bolqarıstan türklərinə qarşı zorakılıqdan söhbət gedəndə isə bunu onların daxili işi hesab edirik. Bugün ikili standartlar bizə yaraşmaz” (3, 93). O vaxt Siyasi Büro Heydər Əliyevin bu qəzəbli etirazını ölü bir sükutla qarşıladı, ama unutmadı.

Heydər Əliyev, nə qədər beynəlmiləlçi olur-olsun, Sovet rəhbərliyinin türk xalqlarınıın taleyinə biganəliyi ilə onların kadr məsələlərinə yanaşma tərziylə razılaşa bilmirdi. Beynəlmiləlçiliyi şüar edib millətçilik nümayiş etdirən dövlət başçısının qəbul etdiyi qərarlarla heç cür barışa bilmir və bunu çəkinmədən bildirirdi.

Türk xalqlarının bütövlükdə taleyinə heç bir zaman biganə qala bilməyən böyük türk oğlu Heydər Əliyev Qazaxıstan Respublikası Partiya komitəsinin MK-na birinci katib təyinatında olan məsələdə də hətta kənarda qalmamış öz cəsarətini çox böyük ustalıqla ortaya qoymuşdur.Heydər Əliyev hadisələrin gələcək inkişafını görürmüş kimi qəti şəkildə M.Qarboçova demişdi: “Kunayev yaşlı olsa da işin öhdəsindən gəlir yox əgər onu dəyişmək lazımdırsa  yerinə Kolbini (milliyət rus - red. İ.Kazımbəyli) yox qazax məsələn Nazirlər Şurasının sədri cavan və enerjili Nursultan Nazarbayevi təyin etmək gərəkdir.Əks halda bu təyinat  Qazaxıstanda milli zəmində böyük narazılıq doğuracaq. Zaman H.Əliyevin haqlı olduğunu təsdiqlədi.

Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gələndə onun Türkiyə və bütvlükdə türk dünyası ilə əlaqələri türk birliyinin təşəkkülü və möhkəmlənməsi uğrunda sistemli fəaliyyəti genişlənməyə başladı. Heydər Əliyevin çox yaxın dostu Türkiyənin 9-cu prezidenti böyük dövlət xadimi Süleyman Dəmrəl məhz bu xidmətləri nəzərə alaraq demişdir: “Mənim tanıdığım Heydər Əliyev nə qədər Azərbaycan vətənpərvərdirsə bir o qədər də türk vətənpərvəridir.Heydər Əliyev təkcə Azərbaycanın deyil bütün türk dünyasının yetişdirilmiş olduğu məşhur dövlət xadimlərindən biridir (2, 417). Süleyman Dəmirəl sözün həqiqi mənasında Heydər Əliyev haqqında yetərincə söz deməyə haqqı çatan böyük dövlət adamlarından biridir. Azərbaycan-Türkiyə münasibətlərinin “bir millət iki dövlət” səviyyəsində qurulmasında Heydər Əliyev qədər xidmətləri var. Heydər Əliyev bu məqsədlərin həyata keçirilməsində Türkiyə Cümhuriyyətinin rolunu həmişə yüksək qiymətləndirmişdir. Heydər Əliyev dövlətçilik fəaliyyətində türk dünyasının böyük öndəri Atatürkün dövlət quruculuğu təcrübəsinə həmişə böyük əhəmiyyət vermiş, onun irsinin öyrənilməsini və təbliğini vacib hesab etmişdir. Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, Atatürk yalnız proqressiv ideyalar

irəli sürməklə kifayətlənmiş, bu ideyaları həyata keçirmiş, qurmuş olduğu dövləti möhkəmləndirmək üçün tarixi stimullar müəyyən etmiş, zəngin ideya qaynaqları aşkara çıxarmışdır. Ulu öndər qeyd etmişdir ki, Türkiyə Cümhuriyyəti Mustafa Kamal Atatürkün yalnız siyasi fəaliyyəti nəticəsində deyil, həm də qəhrəmanlığı nəticəsində yaranmışdır.

Heydər Əliyevin hakimiyyətinin birinci mərhələsində Azərbaycanı SSRİ-də türkologiya sahəsində ən qabaqcıl mərkəzə çevirməyə nail olmuşdu. Bu məqsədlə o, Azərbaycanda türkologiya sahəsində dərin tədqiqatların aparılmasına şərait yaradır, müvafiq elmi strukturlar qurur, həmin sahədə çalışan alimlərə xüsusi qayğı göstərir, onların arasında sıx vəhdət yardırdı. SSRİ EA və Azərbaycan EA-nın birgə nəşri olan "Sovet türkologiyası" jurnalı 1970-ci ildən etibarən Azərbaycanda nəşr olunmağa başladı (5, 497).

H.Əliyevin fəaliyyətində Məshəti (Axıska) türklərinə qayğı başlıca yerlərdən birini tuturdu. İkinci dünya müharibəsində doğma torpaqlarından deportasiya edilən, min bir fəlakətlərə düçar olan Məshəti türklərinin bir qismi Stalinizm dövrü başa çatdıqdan sonra Gürcüstana deyil, Azərbaycana pənah gətirmişdilər. H.Əliyev Azərbaycanda yaşayan Məshəti türklərinin problemlərinin həllini daim diqqətdə saxlayır, onları demək olar ki, bütün qayğı ilə əhatə edirdi. Yenicə hakimiyyətə gələn böyük türk oğlu Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında respublikanın bəzi rayonlarında yaşayan Məhsəti türklərindən və ingiloylardan 86 nəfərin müstəsna hal kimi ali məktəblərə qəbul edilməsi haqqında qərar qəbul etdirmişdir. (6.v.B.) Bu çox cəsarətli bir türkçünün ata biləcəyi addım ola bilərdi. Bu şəxslər Azərbaycanın müxtəlif yerlərindən ölkədə 10 ali məktəbə daxil edilmişdilər (7, 113).

Heydər Əliyev özünün düşünülmüş müdrik siyasəti və yorulmaz fəaliyyəti ilə Türkiyəyə, türk və müsəlman dünyasına daha geniş baxaraq onları vəhdətdə görürdü. Müsəlman Şərqi problemlərinin mahir bilicisi hesab edilən H.Əliyev bu məsələdə özünün mükəmməl nəzəri biliyi və praktik fəaliyyəti ilə digər Sovet türk və müsəlman respublikalarının rəhbərlərini xeyli geridə qoymuşdu.

Xüsusən İran inqilabı və Əfqanıstana Sovet müdaxiləsindən sonra iki sistem ölkələri arasında münasibətlər kəskinləşdikdə H.Əliyev türk və müsəlman respublikalarının dünyanın müsəlman xalqları üçün nümunə rolu oynaması zəruriliyinə dair öz baxışlar sistemini ortaya qoyaraq Sovet rəhbərləyini inandıra bilmədi.

Bu məqsədləri həyata keçirmək üçün H.Əliyev SSRİ-nin türk və müsəlman xalqları arasında mədəni əlaqələrin gücləndirilməsinə təşəbbüs edirdi. Azərbaycan MK bürosunun 1978-ci il 25 mart tarixli iclasında Özbəkistanda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi və Azərbaycanda cavab tədbirlərinin təşkil olunması barədə qərar qəbul edildi (8, 8.).

H.Əliyev Azərbaycanın təkcə Türküstanda yerləşən türk respublikaları deyil, eyni zamanda ölkənin muxtar türk, müsəlman respublika və vilayətləri arasında dostluq, qardaşlıq, əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi istiqamətində də çalışırdı. 1970-80-ci illərdə Azərbaycanın Tatarıstan və Başqırıstanla sıx əlaqələr saxlanılır, rəhbərləri görüşür, çox şaxəli əməkdaşlıq aparılırdı. Həmçinin görkəmli dövlət xadiminin fəaliyyətində İraq türkmənlərinə münasibət əsas yerlərdən birini tuturdu. O, mövcud sistemin şərtləri, dövlətin ümumi siyasəti və ideologiyanın tələbləri altında İraq türkmənləri ilə əlaqələrin qurulması və inkişafına müstəsna diqqət yetirirdi. Heç şübhəsiz, bu dövrdə Sovet dövləti İraq türkmənlərini Qərb dövlərlərinin təsirindən qurtarıb özünə tərəf çəkməyə başladı. Bu işdə də ulu öndərin xidmətləri əvəzsizdir.

H.Əliyevin aydın mövqeyi və Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq istiqamətindəki ardıcıl fəaliyyəti Azərbaycanın bədxahlarını ciddi narahat edirdi. Erməni dairələri onun qatı pantürkçü, turançı, türkçü olması haqqında Moskvaya ardı-arası kəsilmədən şikayət məktubları yazır, hətta azərbaycanlıların adından da teleqramlar vururdular (5, 544).

Onlar(ermənilər-red.İ.Kazımbəyli) H.Əliyevi Kremlidə oturan türk paşası adlandırırdılar.Moskvada işləyərkən onun əleyhinə ən çox yazan erməni ziyalıları idi.Erməni akademik Suran Eyvazyan 1987-ci ilin mart ayında M.S.Qarboçova məktub yazaraq H.Əliyevi 1962-1982-ci illərdə pantürkizm siyasəti yeritməkdə ittiham etmiş, cinayət məsulliyyətinə cəlb olunaraq müttəhimlər kürsüsündə oturulmasını tələb etmişdi (5, 544).

Antitürk və antiazərbaycan fəaliyyətini genişləndirən Daşnaqsütyun partiyası da başlıca zərbəni H.Əliyevə qarşı yönəltmişdi.Bu kampaniyada müxtəlif iyrənc üsullardan istifadə edilirdi.Heç şübhəsiz onun Sov.İKP MK siyasi bürosundan uzaqlaşdırılmasında erməni millətçilərinin, məktublarının, böhtanlarının,təzyiqlərinin,Qarboçovun ermənipərəst və antitürk mövqeyinin rolu böyük olmuşdu.Heydər Əliyev ona qarşı birləşmiş çoxsaylı qüvvələrə qarşı tək mübarizə aparırdı.Təkbaşına bu qədər məkrli

səlahiyyət sahibi olan adamlara qarşı mübarizəyə hər adam tab gətirməzdi.Buna yalnız Heydər Əliyev kimi möhkəm iradəli bir şəxsiyyət öz dərin zəkası ilə tab gətirə bilərdi.

Heydər Əliyevə qarşı minbir hiylədən və tələdən istifadə edən Mixail Qarboçov sonralar məcbur oldu ki,  bu böyük siyasətçinin nəhəngliyini etiraf etsin.”Əliyev heç şübhəsiz,  böyük siyasətçidir ağıllı, iradəli, ehtiyatlıdır.Heydər Əliyev qabiliyyətli ,bacarıqlı insandır. O, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi hökuməti də real surətdə tam gücü ilə işlədə bilirdi.Siyasi Büronun fəal üzvü və son dərəcə ciddi rəhbər idi.

Beləliklə bu fəaliyyətin və xronoloji dövrün çox geniş olmasını nəzərə alaraq bəzi ümumiləşdirmələr aparmaqla kifayətlənmək olar.

-Onun türk dünyası naminə fəaliyyəti “türk” ,“türkçülük” ifadələri işlədilmədən mövcud şəraitə uyğun çoxşaxəli iş aparılması;

-Azərbaycanda  türkologiya sahəsində elmi araşdırmaların aparılmasına və türkoloqların xüsusi qayğı ilə əhatə olunması;

-Xalqa doğru gedir milli mədəniyyətin və tarixi sərvətlərin qorunması və inkişafında müstəsna rol oynayır;

-türk tarixi yazılı abidərinin qorunub saxlanılmasına tərcümə edilməsində və xalq içərisində yayılmasına xüsusi diqqət yetirirdi;

-türk-müsəlman xalqları arasında müstəsna vəhdət yaradılması;

-İraq türkmənləri ilə əlaqələrin qurulması və genişləndirilməsi üçün mərkəzə öz fikirlərini cəsarətlə açıqlaması və s.

## Ədəbiyyat

1. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. Bakı, Pedaqogika, 2005, 256 s.
2. Andriyanov V., Mirələmov H. Heydər Əliyev - Görkəmli adamların həyatı Bakı, 2008, 559 s.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanat, müsahibə və məktublar toplusu. 13-cü cild, Bakı, 1993-2005 (azərbaycanca).
4. Sovet İttifaqı Kommunist Partiyasının Ümumittifaq XIX konfransı. Stenoqrafik hesabat. 2-ci cild 1998.

5. Qasımlı M. HEYDƏR ƏLİYEV – İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006. 608 s.
6. ARSPİHDA, fond.1, siy.56, iş 49, prot.№107,v.13.
7. ARSPİHDA, fond.1, siy.56, iş 49, prot.№107, v.113
8. ARSPİHDA, fond.1, siy. 65, iş 64, prot.№71,v.8.
9. Xalq qəzeti, 14 may 2014-cü il

Kazimbeyli İ.

**Summary**

**THE ISSUES OF TURKISH WORLD IN HAYDAR ALIEV'S POLITICAL AND DIPLOMATIC ACTIVITY AT THE SOVIET PERIOD**

Turkic world has had great conquerors, rulers, political leaders and public figures in different historical periods. In the beginning of the 20th century political leader, grown by Turkic world, Mustafa Kamal Ataturk came out into historical and political arena. And since 1970s of 20th century great political leader, HaydarAliyev started being seen in the political arena. Both of public figures left essential mark in the history of all Turkic world.

Since HaydarAliyev came to the power for the second time in Azerbaijan, new and great stage of relationships were established not only between Azerbaijan and Turkey but also all the countries speaking Turkish language. HaydarAliyev's rational, balanced and far-sighted policy brought stability and cease-fire to the country, newly gained its independence. Just after that, as with many other separate states, Azerbaijan started making comprehensive diplomatic, social-economic, cultural etc. relationships with the countries speaking Turkish language.

**Казымбейли И.**

**Резюме**

**СОВЕТСКИЙ ПЕРИОД ПО ВОПРОСАМ ТУРЕЦКОГО МИРА В ПОЛИТИЧЕСКОЙ И ДИПЛОМАТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ ГЕЙДАРА АЛИЕВА**

В разные исторические периоды тюркский мир имел великих завоевателей, правителей, политических лидеров и общественных деятелей. В начале 20-го века политический лидер, выросший в тюркском мире, Мустафа Кемаль Ататюрк вышел на историко-политическую арену, а с 70-х годов 20-го века на политической

арене стал показываться великий политический лидер Гейдар Алиев. Оба общественных деятеля оставили важный след в истории всего тюркского мира.

Пришедший во второй раз к власти в Азербайджане Гейдар Алиев, начал новый и важный этап отношений как между Азербайджаном и Турцией, так и со всеми тюркоязычными странами. Рациональная, взвешенная, сбалансированная и дальновидная политика Гейдара Алиева принесла молодой и новообретшей независимость стране столь необходимую стабильность и прекращение огня. И именно после этого начались строиться всесторонние дипломатические, социально-экономические, культурные и т.п отношения с тюркоязычными странами, также как и со всеми странами в отдельности.

**Məmmədov Ceyhun Valeh oğlu**
*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## REGİON ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Açar sözlər:** *lider, siyasət, region, əlaqələr, xalqlar*
**Key words:** *leader, politics, region, communications, people*
**Ключевые слова:** *лидер, политика, регион, коммуникации, народ*

XX əsrin dahi, dünya tarixinə adını yazdırmış şəxsiyyətlərindən biri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevdir. O hələ Sovet İttifaqı dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə region ölkələri ilə əlaqələrin inkişafına xüsusi önəm vermiş, məhz o dövrdə Azərbaycanla Türkiyə respublikası arasında rəsmi münasibətlər mövcud olmuş, 1967-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl və 1969-cu ildə Türkiyə Cümhuriyyətinin prezidenti Cövdət Sunay Bakıya rəsmi səfər etmişdir.

Ümummilli Lider Heydər Əliyev müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dövrdə də region ölkələri, xüsusilə türk respublikaları və müsəlman dövlətləri ilə əlaqələrin inkişafı istiqamətində ciddi addımlar atılmış, region ölkələrinə qarşılıqlı səfərlər həyata keçirilmişdir.

Heydər Əliyevin həyata keçirdiyi xarici siyasətdə Türkiyə ilə əlaqələrin möhkəmləndirilməsi prioritet istiqamətlərdən birini təşkil edirdi. Onun Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynamışdır. Səfər dövründə Türkiyə Prezidenti, Baş nazir və parlamentin rəhbəri ilə görüşən Heydər Əliyev Türkiyə Böyük Millət Məclisində çıxış edərək iki ölkənin əlaqələri və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında ətraflı məlumat vermişdir. Səfər çərçivəsində iki ölkə arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq, investisiyaların qarşılıqlı təşviqi və qorunması, siyasi məsləhətləşmələr haqqında sazişlər, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə və digər mühüm sənədlər imzalanmışdır.

5-8 may 1997-ci il tarixində Heydər Əliyevin Türkiyəyə ikinci rəsmi səfəri zamanı həyata keçirilən görüşlər, danışıqlar nəticəsində imzalanmış səkkiz sənəd, xüsusilə strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə ilə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələr yeni bir mərhələyə daxil olmuşdur.

12-17 mart 2001-ci ildə isə Ümummilli Lider Heydər Əliyev Türkiyəyə növbəti dəfə rəsmi səfər etmiş, Türkiyənin dövlət və hökumət rəhbərləri ilə görüşlərdə iki dövlət arasında münasibətlərin hazırki vəziyyəti və inkişaf perspektivləri müzakirə edilmişdir. Səfər zamanı imzalanan vergilər, maliyyə, Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və digər sənədlər qarşılıqlı faydalı əməkdaşlıq siyasətinin davam etdirilməsinə şərait yaradılması baxımından xüsusi əhəmiyyət kəsb etmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1997-ci ildə Türkiyənin "Dövlət nişanı", 1999-cu ildə isə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi, dəfələrlə Türkiyənin müxtəlif media qurumları tərəfindən "İlin adamı" seçilməsi, bu ölkənin bir çox universitetinin Fəxri doktoru seçilməsi Azərbaycan-Türkiyə münasibətlərinin inkişafındakı xidmətlərinin göstəricisidir [7].

Ümummilli Lider Heydər Əliyev çıxışlarında türk dünyasının problemlərinə qlobal düşüncə tərzi ilə yanaşaraq deyirdi "Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb,

bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik" [3, 8].

Eyni zamanda, Ümummilli Lider Heydər Əliyev öz çıxış və müraciətlərində türk xalqlarının dünya mədəniyyətinin formalaşmasında oynadığı rolu xüsusi vurğulayırdı. Bu baxımdan onun Türk dövlət və topluluqlarının Dostluq, qardaşlıq və İşbirliyinin V qurultayına (11-13 aprel 1997-ci il) ünvanlandığı məktub xüsusi əhəmiyyət daşıyır: "... Eyni etnik kökə, ortaq tarixi keçmişə və milli-mədəni ənənələrə malik türk xalqları tarix səhnəsinə çıxdığı gündən yüz illər boyu bəşəri mədəniyyətlərin Şərqdən Qərbə, Qərbdən Şərqə daşıyıcısı kimi dünya tarixində misilsiz rol oynamış, bəşər sivilizasiyasına silinməz, şərəfli səhifələr həkk etmişlər" [6, 151].

Həmçinin, Ümummilli Lider Heydər Əliyev həmin müraciətdə türk dövlətlərinin birliyinin önəminə toxunaraq deyirdi:"...Gələcək uğurlarımız üçün ortaq milli, mədəni, və mənəvi dəyərlərimizin bizə bəxş etdiyi imkanları dövlətlərimizin ümumi mənafe işinə səfərbrə etməli, qarşılıqlı və bərabərhüquqlu münasibətlərin etibarlı təməllər üzərində inkişafına nail olmalıyıq. Müstəqil Azərbaycan Respublikası beynəlxalq aləmlə, o cümlədən qardaş türk cümhuriyyətləri ilə əlaqələrində bu mövqedən çıxış edir və daim həmin prinsiplərə sadiq qalacaqdır.

Əminəm ki, türk dünyasının bugünki nəsilləri, fikir adamları, dövlət və siyasət xadimləri öz şərəfli tarixi keçmişinə layiq olduğunu sübut edərək işdə, əməldə fikirdə birlik kimi möhtəşəm ümumtale işimizin gerçəkləşməsi naminə var qüvvə ilə çalışacaqlar" [6, 151].

Ümummilli Lider Heydər Əliyev həmçinin, dünyanın mürəkkəb bölgələrindən biri olan Qafqazda sülhün və əmin-amanlığın təmin olunmasına çalışırdı. O uzaqgörən bir siyasətçi kimi ölkədə sabitliyin qorunması üçün bölgədə sülhün və sabitliyin təmin olunmasının xüsusi əhəmiyyət daşıdığını gözəl anlayırdı. Qafqaz müsəlmanlarının X qurultayında Heydər Əliyev bu məsələyə toxunaraq deyirdi: "Qafqaz həqiqətən bir-biri ilə sıx bağlı olan dövlətlərin, ölkələrin, xalqların, ümumi evidir. "Ümumqafqaz evi" şüarı çox gözəl şüardır, mən bunu dəstəkləyirəm. Cəsarətlə deyə bilərəm ki, dünyanın heç bir guşəsində, heç bir regionunda Qafqaz kimi çoxmillətli, çoxdinli, və rəngarəng bir region, bir ölkə tapmaq mümkün deyildir. Bizim Qafqaz ərazi cəhətdən kiçik bir yerdir. Bizim o

qədər böyük ərazimiz yoxdur. Ancaq eyni zamanda Qafqaz gözəl təbiətə, çox yüksək məğrur dağlara, gözəl çaylara, bulaqlara, yüksək meşələrə, dünyada təbiətin yaratdığı ən böyük gözəlliklərə malik olan yerdir. Qafqazın xüsusiyyəti bir də ondan ibarətdir ki, burada əsrlər boyu müxtəlif millətlərə, müxtəlif dillərə mənsub olan insanlar bir ailədə yaşamışlar" [1, 16].

Heydər Əliyev öz çıxışlarında Çeçenistan müharibəsindən də narahatlığını ifadə edirdi. O çeçen xalqının gələcəkdə sülh, əmin-amanlıq şəraitində yaşayacağını, bu xalqa qarşı keçmişdə olan təcavüz və vəhşiliklərin təkrarlanmayacağına, Çeçenistanda bütün insanların həmrəy olacaqlarına, birlik əldə edəcəklərinə ölkə prezidenti ətrafında birləşəcəklərinə inandığını bildirirdi [1, 21].

Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının Rusiya Federasiyasının subyektləri, o cümlədən və ilk növbədə Dağıstan ilə dostluq əlaqələrinin inkişafına da xüsusi önəm verirdi [2, 14].

Müstəqilliyin ilk illərində Azərbaycanla Rusiya arasında əlaqələr yüksək səviyyədə deyildi. Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Rusiya ilə dostluq münasibətləri qurulmuş, iki ölkə arasında strateji tərəfdaşlığın əsası qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2-4 iyul 1997-ci il tarixdə Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinin dəvətilə bu ölkəyə ilk rəsmi səfəri ikitərəfli münasibətlərin qurulmasında ciddi rol oynamışdır

2000-ci ildə Vladimir Putinin Rusiya Federasiyasının Prezidenti seçilməsi ilə iki ölkə arasında əlaqələr yeni mərhələyə daxil olmuş, Azərbaycan və Rusiyanın sıx dostluq münasibətləri qurması üçün əhəmiyyətli siyasi baza formalaşdırılmişdır. İki ölkə arasında bu günə kimi 150-dək siyasi, hərbi-texniki, təhlükəsizlik, iqtisadi elmi, mədəni, həmvətənlərin hüquqlarının təmin olunması sahələrini əhatə edən sənədlər imzalanmışdır.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 9-10 yanvar 2001-ci il, 13 avqust 2013 tarixdə, Dmitri Medvedevin 3-4 iyul 2008-ci il tarixdə Azərbaycana, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 24-26 yanvar 2002-ci il tarixdə Rusiyaya dövlət səfəri Prezident İlham Əliyevin 5-7 fevral 2004-cü il, 19-20 aprel 2009-cu il tarixdə Rusiyaya rəsmi səfərləri iki ölkə arasında münasibətlərin inkişafı üçün əlverişli zəmin yaratmışdır.

Onun rus mədəniyyəti və dilinin qorunması, məktəblərdə rus dilinin tədris olunması, Bakı Slavyan Universitetinin yaradılması, Rus Dram Teatrının fəaliyyət

göstərməsi, rus dilində qəzet və jurnalların nəşri, Bakıda A.S.Puşkinin abidəsinin ucaldılması ilə bağlı həyata keçirilən tədbirlər, Rus Pravoslav Kilsəsinin Başçısı, Ümumrusiya Patriarxı, mərhum II Alekseyin Azərbaycana səfər etməsi bu əlaqələrin inkişafına verilən önəmin göstəricisidir [5, 128].

Ümummilli Lider Heydər Əliyev İran İslam Respublikası ilə əlaqələrə də xüsusi önəm verirdi. Onun 1994-cü il iyulun 2-də bu ölkəyə səfəri iki tərəfli əlaqələrin inkişafına mühüm töhfə vermişdir. Səfərin ilk günündə ölkə rəhbərləri ikitərəfli münasibətlər və regional layihələr ətrafında geniş müzakirələr aparmışlar [8].

Səfər zamanı Azərbaycan və İran arasında dostluq münasibətlərinin inkişafı haqqında 13 maddədən ibarət Bəyanat imzalanmışdır. Ümummilli Lider Heydər Əliyevin Tehrana ilk rəsmi səfərinin başlıca nəticəsi qarşılıqlı münasibətlərin inkişafı üçün hüquqi zəmin yaradan sənədlərin hazırlanması, imzalanması, hər iki tərəfin rəsmi dairələri arasında əlaqələrin yaranması idi.

Ümummilli Lider Heydər Əliyevin 2002-ci ildə İrana növbəti rəsmi səfəri zamanı isə iki ölkə arasındakı münasibətlərin müxtəlif sahələrinin əhatə edən 20 sənəd imzalanmışdır. Sonrakı illərdə bu əlaqələr daha da inkişaf etmişdir.

Heydər Əliyev Region ölkələrindən Gürcüstanla Azərbaycan əlaqələrinə də xüsusi önəm verirdi. O, bu əlaqələrin önəminə toxunaraq deyirdi: “Abxaziya münaqişəsi də bizi narahat edir. Gürcüstanla Azərbaycan arasında sıx dostluq, qardaşlıq əlaqələri var. Bu gün mən burada xüsusi qeyd etmək istəyirəm ki, bəzən dini mənsubiyyətlərə görə ölkələr, xalqlar arasında savaşlar, davalar, müharibələr başlayır. Amma eyni zamanda, insanlar sülhsevər olarkən, xalqlar, millətlər sülhsevər olduğu halda dini fərq heç bir müharibəyə, münaqişəyə gətirib çıxarmır. Gürcüstanla Azərbaycan arasında bizimdini mənsubiyyətimizin fərqli olmasına baxmayaraq, heç vaxt münaqişə olmamışdır. Gürcüstan Azərbaycan dostluğu dünya xalqlarına nümunə göstərilə bilər. Gürcüstanda yarım milyon azərbaycanlı müsəlman yaşayır, onlar orada Gürcüstanın bərabərhüquqlu vətəndaşlarıdır, Azərbaycanın bütün imkanlarından istədikləri kimi istifadə edə bilərlər. Ona görə ürəyimiz ağrıyır ki, nə üçün Abxaziya münaqişəsi indiyə kimi davam edir. Şübhəsiz ki, biz Qarabaş münaqişəsi kimi, Abxaziya münaqişəsinə də son qoyulmasını istəyirik” [1, 21].

Gürcüstanla Azərbaycan arasında münasibətlər Ümummilli Lider Heydər Əliyevin 1996-cı ildə Tbilisiyə rəsmi səfərindən sonra daha da inkişaf etmiş, həmin səfər zamanı

tərəflər arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik" və "Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq" haqda qarşılıqlı bəyannamələr imzalanmışdır. 1997-ci ilin fevralında prezident Eduard Şevardnadzenin Bakıya səfəri zamanı isə iki ölkə arasında iqtisadi, ekoloji, təhsil, rabitə və s. sahələr üzrə əməkdaşlığa dair müqavilələr imzalanmışdır.

Ölkə prezidentlərinin əsasını qoyduğu strateji əməkdaşlıq keçən müddətdə bütün sahələr üzrə daha da inkişaf etmişdir. Bu gün Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Qeyd olunan layihələr həmin ölkələri bir-birinə strateji cəhətdən bağlayır. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirmişdir.

1998-ci il sentyabrın 7-8-də keçirilmiş Tarixi Böyük İpək yolunun bərpası üzrə Beynəlxalq Konfransın işində iştirak etmək üçün Gürcüstan prezidenti E.Şevardnadzenin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri, 1998-ci il oktyabrın 7-də Azərbaycanın Gürcüstanla sərhədində yeni körpünün açılışında Azərbaycan və Gürcüstan prezidentlərinin, 1999-cu il aprelin 17-də isə Azərbaycan, Ukrayna və Gürcüstan dövlət başçılarının Bakı-Supsa neft kəmərinin təntənəli açılışı mərasimində iştirak etmələri qarşılıqlı əlaqələrin möhkəmlənməsinə və regional əməkdaşlığın inkişafına təkan vermişdir..

1999-cu il noyabrın 18-də İstanbulda keçirilmiş ATƏT-in sammiti çərçivəsində "Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası ərazilərindən xam neftin nəqli haqqında" Sazişin ABŞ Prezidenti B.Klintonun iştirakı ilə Türkiyə Prezidenti S.Dəmirəl, Azərbaycan Prezidenti H.Əliyev və Gürcüstan Prezidenti E.Şevardnadze tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığına və Avropaya inteqrasiyasına mühüm töhfə vermişdir.

Dövlətlərarası münasibətlərin hüquqi-normativ bazasının təkmilləşməsi və inkişafında dövlət və hökumət başçılarının sonrakı dövrdə intensiv xarakter alan qarşılıqlı səfərləri mühüm əhəmiyyət daşımışdır. Bu səfərlər sırasında 2000-ci ilin martında Azərbaycan Prezidenti H.Əliyevin Gürcüstana, 2001-ci ilin sentyabrında Gürcüstan

Prezidenti E.Şevardnadzenin, 2002-ci ilin yanvarında Gürcüstan parlamentinin sədri N.Burcanadzenin Azərbaycana rəsmi səfərlərini qeyd etmək olar.

Heydər Əliyev region ölkələri ilə yanaşı İslam Konfransı Təşkilatına üzv ölkələrlə əməkdaşlığa da xüsusi önəm verir, bu qurumun həyata keçirdiyi siyasət və tədbirlərdə Azərbaycan aktiv iştirak edirdi. O dövrdə əsası qoyulmuş bu əlaqələr bu gün də sürətlə inkişaf edir.

Azərbaycan İslam Konfransı Təşkilatına 1991-ci ildə üzv qəbul edilmişdir. Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra Azərbaycanla İslam Konfransı Təşkilatı arasında əlaqələr daha da möhkəmlənmişdir. 1994-cü ilin dekabr ayında İslam Konfransı Təşkilatının Mərakeşin Kasablanka şəhərində keçirilən yeddinci zirvə toplantısında Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi ölkəmizi təmsil etmiş, Azərbaycan həqiqətlərini bütün dünyaya bəyan etmişdir [4, 53, 54].

Bu səfərin əhəmiyyətini artıran məsələlərdən biri də ölkəmiz üçün böyük tarixi və siyasi əhəmiyyət kəsb edən iki mühüm qətnamənin qəbul edilməsi olmuşdur. Birinci qətnaməyə əsasən beynəlxalq münasibətlər tarixində ilk dəfə olaraq Ermənistan Respublikası təcavüzkar dövlət kimi rəsmən elan edilmişdir. İkinci qətnamədə də isə erməni işğalı nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin itirilməsi, bir milyondan artıq insanın öz doğma yurd yuvasından didərgin düşməsi, 20 mindən çox insanın vəhşicəsinə qətlə yetirilməsi əksini tapmışdır. Bu qətnaməyə əsasən 50-dən çox müsəlman dövləti ölkəmizə humanitar yardım göstərmək qərarına gəlmişdir. Həmin dövrdə bu yardımlar Azərbaycan üçün həyati önəm daşıyırdı.

Bu gün Azərbaycanın region ölkələrindən yalnız Ermənistanlarla münasibətlərində problem mövcuddur ki, buna görə də məsuliyyəti yalnız Ermənistan daşıyır. Azərbaycanlılar 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü illərdə də indiki Ermənistan ərazisindən məqsədyönlü şəkildə didərgin salınıb və deportasiya edilmişlər. Yalnız 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Bu zaman minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi iztirablara dözməyərək həlak olmuşdur. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi – Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan

rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal edilmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşmüş, 20 min nəfər hərbi əməliyyatlar dövründə həlak, 50 min nəfər isə əlil olmuşdur.

Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşmüş, onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olmuşdur. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülmüşdür.

1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılmışdır [9].

Dövlətlərarası xarakterinə görə beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid mənbəyinə çevrilən münaqişə beynəlxalq təşkilatlar çərçivəsində ciddi müzakirələrə səbəb olmuş, problemlə bağlı bir sıra mühüm sənədlər qəbul olunmuşdur.

BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1993-cü ildə – 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələr münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üzrə siyasi prosesin hüquqi çərçivəsini müəyyən etmişdir. Qətnamələrdə Azərbaycan ərazilərinin işğalı pislənilmiş, güc tətbiqi vasitəsilə ərazi iddialarının reallaşdırılmasının qəbuledilməzliyi vurğulanmış, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı bir daha təsdiq edilmiş, işğal altında olan Dağlıq Qarabağ bölgəsinin Azərbaycana məxsusluğu bəyan edilmiş və işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur.

1993-cü il iyunun 15-də Heydər Əliyev yenidən hakimiyyətə qayıdanda ölkədə mürəkkəb şərait hökm sürür, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində kompleks yanaşma, mühüm daxili və xarici siyasət amillərinin nəzərə alınması tələb olunurdu. Bunlar ictimai-siyasi sabitliyin təmin edilməsi, döyüş qabiliyyətli nizami ordunun yaradılması, dövlət institutlarının yenidən formalaşdırılması və onların səmərəli fəaliyyətinin təmin edilməsi, iqtisadiyyatın bərpası və köklü idarəçilik islahatlarının

həyata keçirilməsi, ölkənin yaxın onilliklər üçün inkişafını təmin edəcək strateji neft müqavilələrinin bağlanması və nəticə olaraq millətin bir amal – azərbaycançılıq ideologiyası ətrafında birləşdirilməsini özündə ehtiva edirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra 994-cü il mayın 12-də atəşkəsə dair razılıq əldə olundu.

Qeyd olunan faktlar Azərbaycanın dahi oğlu Heydər Əliyevin region ölkələri ilə əlaqələrin inkişafında böyük rol oynadığının bir daha təsdiq edir. Müasir dövrdə Azərbaycanını region ölkələri ilə əlaqələrinin hazırki səviyyədə olması bilavasitə o dövrdə həyata keçirilən uğurlu siyasətlə bağlıdır. Əgər o dövrdə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəlməsə idi bu gün Azərbaycanda ictimai və siyasi durum tamamilə fərqli olardı.

Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasəti uğurla və böyük uzaqgörənliklə davam etdirir. Bu gün Azərbaycan işğalçı Ermənistan Respublikasını çıxmaqla bütün region ölkələri ilə dostluq əlaqələri quraraq sıx əməkdaşlıq edir.

## Ədəbiyyat


1. Heydər Əliyev. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir, Bakı, Əbilov, Zeynalov və oğulları, 1999.
2. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər, Bakı, Əbilov, Zeynalov və oğulları, 2007.
3. Hüseynova Fərqanə. Müstəqillik dövründə Azərbaycan – Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı, Nurlan, 2007.
4. Qurbanov, Əsədulla. Beynəlxalq münasibətlərdə din-islam amili, Bakı, Bakı Dövlət Universitetinin nəşriyyatı, 2000.
5. Niftiyev Niyaz, Azərbaycanda birgəyaşayış və multikulturalizm, Bakı: “Mtr polygraphics”, 2015
6. Orucov Hidayət, Heydər Əliyev və azərbaycanda milli siyasət, Bakı, Şərq-Qərb, 2001.
7. http://lib.aliyev-heritage.org/az/4610295.html
8. http://lib.aliyevheritage.org/az/7586806.html

Mammadov C.

**Summary**

**THE ROLE OF HAYDAR ALIYEV IN THE DEVELOPMENT OF RELATIONS WITH THE COUNTRIES OF THE REGION**

In the article is mentioned the role of the national leader Haydar Aliyev in developing relations with the countries of the region and the measures taken in this direction. During his reign in Azerbaijan for the second time, he paid special attention to the development of bilateral relations with the countries of the region and made visits to these countries in order to develop mutual relations and at the same time invited the heads of these states to make official visits to our country. Thanks to his successful policy, Azerbaijan's relations with the countries of the region have been strengthened, and the reputation and position in the world have grown. The measures taken in this period played a significant role in strengthening the reputation of Azerbaijan in the modern world.

**Маммадов Дж.**

**Резюме**

**РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ ОТНОШЕНИЙ СО СТРАНАМИ РЕГИОНА**

В статье упоминается роль общенационального лидера Гейдара Алиева в развитии отношений со странами региона и мерах, принятых в этом направлении. Во время своего правления в Азербайджане во второй раз он уделил особое внимание развитию двусторонних отношений со странами региона и совершил визиты в эти страны для развития взаимоотношений и в то же время пригласил руководителей этих государств совершить официальные визиты в нашу страну. Благодаря его успешной политике отношения Азербайджана со странами региона были укреплены, а репутация и положение в мире выросли. Меры, принятые в этот период, сыграли значительную роль в укреплении репутации Азербайджана в современном мире.

**Xanlarova Lamiyə Saday qızı**

*Azərbaycan Respublikasının DövlətTəhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına akademiyası, Azərbaycan*

# HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLIİK TƏLİMİNDƏ DİL KONSEPSİYASI

***Açar sözlər:*** *Heydər Əliyev, dil konsepsiyası, Azərbaycan dili, dil mənzərəsi, dövlət sənədləri*

***Key words:*** *Haydar Aliyev, language conception, Azerbaijan language, language view, state documents*

***Ключевые слова:*** *Гейдар Алиев, языковая концепция, Азербайджанский язык, язык, государственные документы*

Əsrlər, qərinələrdir ki, xalqımıza, Azərbaycana xidmət edən dilimiz qədim tarixə malik olan, min illərin növbənöv burulğanlarından üzüağ çıxaraq dövrümüzə gəlib çatmış ən böyük mənəvi sərvətimizdir. Azərbaycan dili tarixi-genetik dəyərlərimizi, ruhumuzu, həyatımızın psixoloji-fəlsəfi cizgilərini yaşadan milli varlığımızdır. Ana dilimiz tarixin müxtəlif dövrlərində aparıcı regional mövqeyə malik olmuş, lakin onun dövlət müstəvisində taleyi kölgədə qalmışdır. Azərbaycan dilinin aparıcı regional mövqeyə malik olması onun Qafqazda yaşayan müxtəlif etnosların ünsiyyət və ədəbi-mədəni faktoruna çevrilməsinə qədər yüksəlmişdir.Tarixi faktlara söykənərək, etiraf etmək lazmdır ki, dövlət müstəvisində Azərbayan dilinin siyasi sferasının genişlənidirilməsi sahəsində əldə edilən ən sanballı və tarixi əhəmiyyətli nailiyyətlər 1969-cu ildən - ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə başlanır. Dövlət müstəqilliyinin bərpasından sonra da Heydər Əliyevin yürütdüyü dil siyasəti respublikamızın dil mənzərəsini də normal axara salmış oldu. Daha dəqiq desək, ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlətçiliyimiz tarixində ilk dəfə olaraq dil siyasətinin milli konsepsiyası bütün xırdalıqlarına qədər işlənib hazırlandı. Siyasi arenada qeyri-bərabər etnik rəqabətin qızğın vüsət aldığı bir zamanda Azərbaycanda dilin siyasi mənzərəsinin nizamlanması, ümummilli maraqlar kontekstində inkişafı ulu öndər H.Əliyevin adıyla bağlıdır.

Heydər Əliyevin bir dövlət rəhbəri kimi Azərbaycanda aparmış olduğu dil siyasəti elmi-nəzəri baxımdan yalnız Azərbaycan miqyasında əhəmiyyətli olması ilə məhdudlaşmır, eyni zamanda, dünya miqyasına çıxmaqla, ümumiyyətlə, dil quruculuğunun həmişə aktual olan problemlərinin həlli üçün əsaslı prinsiplər təqdim edir. Bu prinsiplər həm də ona görə əhəmiyyətlidir ki, Azərbaycanın, yəni müstəqillik uğrunda yüz illər boyu mübarizə aparan və qalib gələn bir xalqın nümunəsində və ya təcrübəsində uğurla həyata keçirilib.

Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi dil siyasəti Onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub. Ulu öndər sovetlər hakimiyyəti dövründə də Azərbaycan dilinin inkişafı üçün əvəzolunmaz xidmətlər göstərib. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi.

1969-cu ildən başlayaraq, H.Əliyevin uğurla yürütdüyü dil siyasəti respublikamızda dilin ictimai, mədəni, sosial və siyasi əhəmiyyətini aktuallaşdırmış, Azərbaycan dilinin dövlət dili müstəvisində hüquqi mövqeyini müəyyənləşdirmişdir.

Bu mənada, onun dil siyasətinin əsas tərkib hissəsi olan dil və millət konsepsiyası dilin milli, ictimai-siyasi və mədəni mexanizmini dəqiqləşdirməyə və təkmilləşdirməyə yönəlmişdir. H.Əliyevin dil və millət konsepsiyasında diqqəti çəkən üç əsas məqam var: a) dil və millət; b) dil və milli mənlik; c) dil və milli ərazi.

Birinci məsələdə ölməz liderimizin mövqeyi qətidir: "Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən bəhrələnə bilməyən xalq, millət ola bilməz" [4, 82].

Sözügedən konsepsiyada dil və milli mənlik məsələsi də problematik məsələ kimi diqqət çəkir. Millətin millət olmasında milli mənliyin yolu sözsüz ki, dildən keçir. XX əsrin 80-ci illərdə SSRİ-də milli oyanışın genişləndiyi və tədqiqat obyektinə çevrildiyi bir dövrdə məşhur sovetoloq H.Seton-Uotesk yazırdı: " Milli mənlik şüurunun əsaslandığı son amil, o cümlədən bizim dövrümüzdə ən mühüm amil dildir" [2, 29]. Milli mənliklə etnik mənliyin qarşılaşdırılması uzun müddət təcrübədən keçməsə də, 1995-ci ildə dövlət dilinin adlandırılması proseslərində hər iki anlayışın sərhədi təyinatı müəyyənləşdi. Belə ki, respublikamızın yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında H.Əliyev çox böyük qətiyyətlə dedi: "Bilin ki, biz müstəqil dövlət kimi dünyada artıq

yerimizi tutmuşuq. Ona görə də hansı qərar qəbul edəcəyiksə, gərək bu, milli mənliyimizə, milli məğrurluğumuza toxunmasın" [4, 59].

XX əsrin 70-ci illərdə respublikamızın müxtəlif sahələrində əsaslı dönüş yaradan H.Əliyev heç şübhəsiz ki, dil məsələsinə də laqeyd qala bilməzdi. Azərbaycan dilinə münasibət məsələsində görkəmli dövlət xadiminin mövqeyi Moskvanın mövqeyindən kəskin fərqlənirdi. "Ümummilli lider Heydər Əliyev yaxşı bilirdi ki, Moskva ruslaşdırma siyasəti yürüdür, lakin bu qeyri-humanist, bayağı siyasət müxtəlif yollarla pərdələnir, Azərbaycan dili dövlətçilikdən, inzibati idarə sistemindən, elmdən, mədəniyyətdən, təhsildən sıxışdırılır, yalnız məişət dili səviyyəsinə endirilməyə çalışılırdı. Belə bir siyasət xalqını sevən rəhbərdə daxili etiraz doğurmaya bilməzdi" [6, 10].

Lakin qeyd edək ki, həmin mövqe eyni zamanda analitik məzmuna malik idi; yəni Azərbaycan dilinin dövlət strukturunda hakim mövqeyə malik ola bilməsi və digər dillərin işlədilməsinə qoyulacaq məhdudiyyətlərin açıq-aşkar hiss etdirilməsi etnik ziddiyyətləri qızışdıra bilərdi. H.Əliyev Azərbaycan əhalisinin etnik tərkibini, respublikanın milli-ictimai marağını nəzərə alıb Moskva ilə ən uğurlu kompromis şəraitində özünəməxsus "dil siyasəti" yürüdürdü ki, bu siyasətin də başlıca məqsədi ana dilini inkişaf etdirmək, qanuni şəkildə dövlət dilinə çevirmək idi. O, bütün mürəkkəbliyi ilə dərk edirdi ki, Moskva ruslaşdırma siyasəti yürüdür, lakin bu qeyri-humanist, antibəşəri siyasət müxtəlif vasitələrlə pərdələnir, bir çox xalqların dilləri kimi Azərbaycan dili də dövlətçilikdən və inzibati-idarə sistemindən sıxışdırılır. Və bu mənfur siyasət xalqını sevən rəhbərdə daxili etiraz doğurmaya bilməzdi

1977-ci ildə Azərbaycan SSR-nin yeni konstitusiya layihəsi hazırlanarkən buraya dövlət dili haqqında maddənin daxil edilməsinə qarşı Moskvanın güclü müqaviməti H.Əliyevi bu məsələdə ehtiyatlı, "incə" davranmağa məcbur edirdi. Hadisələrin gedişatı göstərirdi ki, Moskva milli dirçəlişə səbəb ola biləcək hər hansı tədbirin qarşısını almaq üçün hər cür təxribata, xüsusilə də etnik ziddiyyətlər yaratmağa hazırdır. Həmçinin Azərbaycan dilinin dövlət dili kimi təsbit edən maddənin konstitusiya layihəsindən çıxarılması barədə qızğın müzakirələr də səngimək bilmirdi. Məsələn, müzakirələrin gərgin getdiyi bir zamanda Ukrayna KPMK-nın I katibi Şerbitski ilə H.Əliyevin çox ciddi mübahisələri də olmuşdu. Şerbitski iddia edirdi ki, əgər müttəfiq respublikalardan biri öz dövlət dilinin adını konstitusiyada göstərsə, Ukrayna da bunu etməlidir. Ümummilli liderimiz ona konkret cavab vermişdi: "Mən ona dedim ki, sizə heç kim

mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin xüsusi çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz bunu yaza bilərsiniz. Ancaq siz bizə niyə mane olursunuz? Mübahisəmiz çox gərgin oldu" [4, 198]. Beləliklə, ümummilli liderin qətiyyəti və əzmkarlığı nəticəsində 1978-ci il konstitusiyasının 73-cü maddəsində Azərbaycan SSR-nin dövlət dilinin Azərbaycan dili olması öz təsdiqini tapdı.

Dövlət müstəqilliyinin bərpasından sonra ölkənin bütün sahələrində yaranan xaos ana dilimizin də dövlət müstəvisində mövqeyinin düzgün tənzimlənməməsinə gətirib çıxarmışdı. Bu barədə verilən qərarlar, aparılan müzakirələr qışqırıqlarla, emosiyalarla, subyektiv yanaşmalarla məhdudlaşırdı. Bu dövrdə diqqəti çəkən ən aktual və taleyüklü problem konstitusiya aktında əksini tapacaq dövlət dilinin adı məsələsi idi.

XX əsrin 90-cı illərin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatının gedişində ana dilinin ictimai-siyasi nüfuzunun güclənməsi H.Əliyevin vaxtilə yürütdüyü siyasətin bilavasitə nəticəsi idi. Lakin həmin illərdə başqa sahələrdə olduğu kimi, dil quruculuğu, dil siyasəti, geniş anlamda dil mədəniyyəti sahələrində hədsiz hərc-mərcliyə yol verilirdi. Azərbaycan Prezidentinin 22 dekabr 1992- ci il tarixli qanunu mahiyyət etibarilə dilimizin uzun illərdən bəri qazanılmış siyasi nüfuzunu zədələməkdən başqa heç nəyi əks etdirmirdi. Ən acınacaqlı məqam isə dövlət dilinin adının müəyyənləşməsində siyasi-ideoloji aspektin nəzərə alınmaması idi. Sonralar həmin məsələ ilə əlaqədar H.Əliyev deyirdi: "1992-ci ilin dekabrında Azərbaycanın Milli Məclisində dövlət dili haqqında məsələ müzakirə edilmişdi. Bu müzakirə nəticəsində qəbul olunub ki, Azərbaycanın dövlət dili türk dilidir". Və daha sonra ölkə rəhbəri fikrini belə davam etdirir: "Mən bu qərarı şəxsən özüm üçün araşdırdım və məlum oldu ki, burada özbaşınalığa, volyuntarizmə yol verilibdir" [4, 55].

Beləliklə, məsələnin ciddiliyini nəzərə alan görkəmli dövlət xadiminin mütəxəssislərin iştirakı ilə keçirdiyi geniş müzakirələr mövcud problemin həlli üçün kifayət qədər məhsuldar oldu. Həmin müzakirələr göstərdi ki, yalnız milli –ictimai təfəkkür deyil, bilavasitə mütəxəssislər də dilimizin "türk dili" adlandırılmasının əleyhinədir. Hər şeydən öncə ona görə ki;

1. Hər iki müstəqil türk mənşəli dilin eyni bir adla adlandırılması özünü doğrulda bilməz və təcrübədə istər-istəməz onları ayr-ayrı adlarla (Azərbaycan türkcəsi, Türkiyə türkcəsi) adlandırmaq lazım gəlir;

2. Azərbaycan ərazisində yaşayan qeyri-türk mənşəli müxtəlif etnoslar “Azərbaycan dili”nin “türk dili” adlandırılmasından hər bir halda narahat olurlar, bir sıra qüvvələr isə bundan istifadə edərək, “xırda millətçlik” hisslərini qızışdırırlar;

3. ” Azərbaycan dili” artıq neçə illərdir ki, uğurla işlədilir və kifayət qədər böyük işlənmə tezliyinə malikdir.

H.Əliyevin apardığı və memarı olduğu dil siyasətinin bir əsas istiqamətini də Azərbaycanda yaşayan milli azlıqların dillərinin qorunması, bu siyasət zəminində etnik münasibətlərin formalaşması və Azərbaycan dilinin ümumünsiyyət vasitəsi kimi sabitləşməsi məsələləri təşkil edir.

Bilirik ki, ölkəmiz müxtəlif millətlər və xalqların qarşılıqlı anlaşma şəraitində yaşadığı və fəaliyyət göstərdiyi demokratik bir məkandır. Azərbaycan şərqdən qərbə, şimaldan cənuba gedən yolların qovşağında, Böyük ipək yolunun üstündə yerləşir, Azərbaycan xalqı həmişə dünyanın digər xalqları ilə mədəni və iqtisadi əlaqələr saxlamağa, əməkdaşlıq etməyə, mehriban qonşuluq, sülh və əmin-amanlıq şəraitində yaşamağa çalışmışdır. Müasir Azərbaycanın memarı, ümumuilli lider H.Əliyev daima ölkəmizdə yaşayan milli azlıqların – etnik qrupların dillərinə, mədəniyyətlərinə, adət-ənənlərinə, dini etiqadlarına diqqət göstərmiş, və onlardan dövlət qayğısını əsirgəməmişdir.

Avropa Şurasının tamhüquqlu üzvü olan Azərbaycan Respublikası həmin təşkilatın “Regional dillərin və ya azsaylı xalqların dillərinin Avropa Xartiyası” və “Milli azlıqların müdafiəsi haqqında çərçivə Konvensiyası” nın prinsiplərini daim diqqət mərkəzində saxlamış və H.Əliyevin verdiyi qanun və sərəncamlarla mövcud məsələlərin demokratik və obyektiv həlli istiqamətində çoxşaxəli tədbirlər planı həyata keçirilmişdir. Ümummilli liderimiz başa düşürdü ki, etnik qruplardan hər hansı birinin itirilməsi bəşəriyyət üçün əvəzsiz itki sayıla bilər. O, ölkəmizdə yaşayan digər millətlərin nümayəndələri ilə görüşlərinin birində demişdir: “Biz Azərbaycan deyəndə onun sərvətini, gözəl təbiətini nəzərdə tuturuq. Lakin bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar” [6, 83].

Respublikamızda etnik qruplara göstərilən dövlət qayğısının bir təcəssümü kimi, təkcə onların öz ana dillərində təhsil almalarına yaradılan şəraiti qeyd etmək kifayətdir.

Heydər Əliyevin hakimiyyətə qayıdışından (1993) müasir dövrümüzədək respublikamızın 13 rayonunda etnik qrupların öz dillərini və mədəniyyətlərini öyrənməsi üçün lazımi şərait yaradılmışdır. Təhsil Nazirliyi Azərbaycan Respublikasının Konstitusiyasının, Təhsil Qanununun və Avropa Xartiyasının prinsiplərini rəhbər tutaraq, azsaylı xalqların dillərinin öyrənilməsi istiqamətində mümkün imkanlardan maksimum istifadə etməyə çalışır.

Görkəmli dövlət xadiminin bu istiqamətdə gördüyü işlərin mahiyyətində eyni zamanda Azərbaycan dilini ümumünsiyyət vasitəsinə çevirmək ideyası dayanırdı. Çünki Azərbaycan dili respublikamızda yaşayan bütün millətləri bir-birinə bağlayan, qaynayıb-qarışdıran və ümumiyyətlə, etnolinqvisyik durumu tənzimləyən yeganə vasitədir. H.Əliyevin dil siyasətinin əsas xəttini də elə bu təşkil edirdi. Bunu onun çıxışlarından da aydın görmək olar: "Azərbaycan Azərbaycanda yaşayan bütün millətlərin vətənidir. Azərbaycan vətəndaşları, Azərbaycan xalqı deyəndə biz Azərbaycanda yaşayan bütün millətlərin birliyini dərk edirik... Eyni zamanda Azərbaycan dili bizi bir-birimizlə birləşdirib. Burada bizim çox etnik köklü millətlərə mənsub olan adamların hamısı Azərbaycan dilini öz ana dili kimi qəbul edib. Azərbaycan dili bizi bu gün də, gələcəkdə də birləşdirəcəkdir " [4, 89].

Heydər Əliyevin dil haqqında verdiyi qanunlar və fərmanlar də onun dil siyasətində aparıcı olub dilin siyasi arenada xalq arasında möhkəmlənməsinə, inkişafına təminat verirdi. 2001-ci il iyunun 18-də ümummilli liderimiz "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzalamışdır. Bu fərmanda Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyasının yaradılmasında ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha effektli şəkildə nəzarət etmək və prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşıyırdı. "Etiraf etmək lazımdır ki, Azərbaycanm dilinin tarixində dilimizə bu səviyyədə qiymət verən ikinci bir rəsmi sənəd olmamışdır. Eyni zamanda Azərbaycan dilinin tarixi əsasları heç bir elmi mənbədə bu qədər aydın şəkildə verilməmiş, onun müasir vəziyyəti barəsində bu qədər mükəmməl təsəvvür yaradılmamış, inkişaf problemləri haqqında bu qədər sistemli şəkildə bəhs edilməmişdir" [1, 4].

2001-ci il avqustun 9-da Azərbaycan Prezidenti yeni bir fərman – "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" mühüm bir sənəd imzaladı. Fərmanda deyilir: "Hər il avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası

və Azərbaycan dili günü kimi qeyd edilsin". H.ƏIiyevin uzaqgörənliyi, məsələnin vaxtında həllinə qərar verməsi təkcə Azərbaycanda deyil, ümumiyyətlə, bütün Türk dünyasında sevinclə qarşılandı. Möhtərəm prezidentimiz H.Əiiyev Türkiyədə «2001 -ci ilin müdrik dövlət adamı» seçildi. Türk dünyasında türkçülük ideyasının mübariz təbliğatçısı, Azərbaycanda gedən prosesləri yaxından izləyən Qazax yazıçısı Oljas Suleymenov respublikamızda dil sahəsində başlanmış bu inkişafı belə qiymətləndirmişdir: "Latın əlifbasına keçmək böyük cəsarət, qətiyyət, siyasi iradə tələb edirdi. Cənab H.ƏIiyevdə bütün bu keyfiyyətlər, habelə zəngin siyasi təcrübə, kəskin tənqid və tarixi prosesləri istiqamətləndirə bilmək istedadı vardır. Bu, tarixi bir qərardır" [2, 18-19].

2003-cü il yanvar ayının 2-də isə ulu öndərimiz H.Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasının Dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu" qüvvəyə mindi. "Azərbaycan Respublikasının Dövlət dili haqqında" qanun dövlət dilinin inkişaf proqramının hazırlanmasını və dövlət büdcəsindən ayrılmış vəsait hesabına həmin proqramın həyata keçirilməsinin maliyyələşdirilməsini hökumətin başlıca vəzifələrindən biri kimi göstərir. Bu qanun təhsil sahəsində başqa dillər üçün geniş imkanlar da açır. Belə bir prinsipin qanunda öz əksini tapması həm insan hüquqları, həm də beynəlxalq hüquqda təsbit olunmuş digər mühüm aktlar baxımından olduqca böyük əhəmiyyətə malikdir. Qanunda nəzərdə tutulub ki, başqa dillərdə tədris aparan təhsil müəssisələrinin hər birində Azərbaycan dilinin tədrisi məcburi xarakter daşıyır. Qanunda kütləvi informasiya vasitələrinin yazı üslubunda, televiziya və radio aparıcılarının işində, dublyaj və tərcümələrdə ana dilimizin normalarına əməl olunmasına dair ciddi müddəalar vardır.

Əsası ümummilli liderimiz H.Əliyev tərəfindən qoyulmuş bu siyasət hazırda cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. H.Əliyev demişdir: "İlham Əliyev yüksək intellektli, proqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Prezidentimizin "Azərbaycan dilində latın əlifbası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli, habelə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 23 may 2012-ci il tarixli sərəncamları öz ictimai-siyasi dəyərinə görə

tarixi əhəmiyyətli dövlət sənədləridir [8]. Göründüyü kimi, inkişaf edən dünyamızda milli dillərə, eləcə də ana dilimizə qarşı ciddi mütəxəssis ayıq-sayıqlığı göstərmək, məsələyə vətəndaş mövqeyindən yanaşmaq və dövlət dəstəyini nümayiş etdirmək hər zaman üçün vacib və aktual məsələsidir.

## ƏDƏBİYYAT


1. Cəfərov N. Heydər Əliyev və Azərbaycan dili. "Azərbaycan müəllimi" qəzeti, 18 aprel 2008, № 14, səh.4

2. Əliyev V. Heydər Əliyevin dil siyasəti. Bakı: Nurlan, 2003

3. Hacıyev T. Dil ədalətə xidmət edir, ədalət də dilin keşiyini çəkir. Ədəbiyyat qəzeti, iyun 2012, s.1-2

4. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Təhsil,1997

5. Mahmudov M. Ana dilimizə sevginin daha bir göstəricisi. Respublika qəzeti, 14 iyun 2012, № 130 (4419), s.4

6. Sadıqlı A. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Mütərcim, 2011

7. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / http://edu.gov.az/az/page/451/5610

8. Azərbaycanın dövlət dili haqqında qərarlar, fərmanlar və qanunlar // https://az.wikisource.org


Khanlarova L.


**Summary**

**LANGUAGE CONCEPTİON İN HEYDAR ALİYEV'S STATEHOOD EDUCATİON**

As the state leader, Heydar Aliyev's language policy carried out in Azerbaijan is not restricted by its scientifically-theoretical point of view only in the scale of Azerbaijan, at the same time in the global context and it provides fundamental principales for solving actual problems of language construction. These principles are also important because they have been realized successfully in the example and experience of the victorious nation which has been struggling for its independence for hundreds of years.

**Ханларова Л.**

**Резюме**

**КОНЦЕПЦИЯ ЯЗЫКА В ОБРАЗОВАНИИ ГОСУДАРСТВЕННОСТИ ГЕЙДАРА АЛИЕВА**

Языковая политика, проведенная в Азербайджане Гейдаром Алиевым, как лидера государства, с научно-теоретической точки зрения ограничивается не только важностью в масштабе Азербайджана, но одновременно с выходом в мировой масштаб, и в целом, предъявляет обоснованные принципы решения актуальных проблем построения языка. Эти принципы также важны, поскольку они были успешно реализованы в примере и опыте победоносной нации, которая боролась за свою независимость на протяжении сотен лет.

**Yurttaş Hüseyin**

*Atatürk Universiteti, Türkiye*

## TÜRK MEZAR ANITLARI İÇERİSİNDE NAHÇİVAN MEZAR YAPILARI

***Anahtar kelimeler:*** *Nahçivan, türbe, mimar, Mümine Hatun, mezar anıtları*

***Key words:*** *Nakhchivan, tomb, architect, Momine Khatun, grave monuments*

***Ключевые слова:*** *Нахичевань, мавзолей, архитектор, Момине Хатун, могильные памятники*

Konuya ulu önder Haydar Aliyev'in şu sözleriyle başlamak istiyorum: "Nahçıvan eski bir coğrafyadır… Arkeoloji buluntuların incelenmesine göre, Azerbaycan'ın en eski yerleşim yerlerinden biri Nahçıvan'dır… Nahçıvan'ın muhteşem ve zengin bir tarihi vardır. Bu tarihin dünya medeniyetine ve insanlık medeniyetine emsalsiz katkıları olmuştur[1]. Özellikle Türk mimarisi açısından Nahçıvan'ın yeri tartışılmaz bir konudur.

İslam dünyasında Türkler tarafından yaygınlaştırılan bir yapı tipi olan türbe mimarisi, Türklerin ulaştığı her noktada görülmesi açısından önemlidir.

Mezar anıtları türbe, kümbet, meşhet, makbere, medfen, ravza gibi isimlerle de anılmaktadır. Bu isimlerin kubbeli veya külahlı her mezar anıtı için kullanıldığını görmekteyiz.

Hz. Peygamberden sonra bazı mezarlar üzerine kubbe yapıldığı bilinmektedir. İmam Şafi (Ö. 819) "El-Üm" adlı eserinde bazı valilerin bu kubbeleri yıktıklarını belirtir[2].

İslam dünyasında ilk türbe Halife Muntasır (Ö.862) adına yaptırılan ve iç içe iki sekizgenden oluşan Kubbetü's Süleybiye'dir[3].

Türkler ölüleri toprağa vermenin yanı sıra tahnit ederek kurgan denilen mezar odalarına da gömüyorlardı. Pazırık, Noin-Ula gibi kurganlardan çıkanlar, Türklerin mezar geleneğinin ilk örneklerini oluşturması açısından önemlidir. Çin kaynakları Göktürkler'in yazın ölenleri sonbaharda, kışın ölenleri de ilkbaharda toprağa verdiklerini belirtmektedir[4].

Orta Asya'da kurganlarla başlayan ölen kişi için mekân oluşturma isteği zaman içerisinde anıtsal yapıların inşa edilmesiyle günümüze kadar gelmiş ve bu inşai faaliyet hâlâ devam etmektedir.

Günümüze ulaşan en eski Türk mezar anıtı Samanoğullarından kalma İsmail Samani Türbesi'dir (10. yüzyıl). Kare planlı ve kubbeli bu yapının dört yüze açılan kemerli açıklıklarının varlığı, daha sonra Karahanlı döneminde inşa edilecek kare planlı türbelerin de bir bakıma erken örneğini oluşturur. Tim Arap Ata Türbesi (978), Özkent Türbeleri I. II. III.(11. 12 yüzyıl), Şah Fazıl Türbesi (12. yüzyıl) gibi..

Özellikle Büyük Selçuklu Dönemi mezar anıtları plan ve süsmeleriyle, daha sonra inşa edilecek türbe ve kümbetlerde çok tercih edilen bir plan tipi ortaya koymuşlardır. Çokgen gövdeli yapılar (sekizgen, ongen, onikigen) görsellik açısından daha etkili bir görüntü ortaya koymaktadır. Çokgen gövdelilerin yanında silindirik ve az da olsa dilimli gövdeli türbeler de inşa edilmiştir. Bu dönem içerisinde inşa edilen üç mezar anıtı vardır ki, plan kuruluşu ve tuğla süslemeleriyle pek çok mezar yapısını etkilemiştir. Bunlardan ilki Harrekan I. ve II. kümbetleridir. 1067-68 tarihli I. Harrekan Kümbetinde sekizgen plan, köşelere yerleştirilen kuleler ve çift cidarlı kubbesinin yanı sıra yirmiyi aşkın farklı geometrik motifli yüzey süslemeleri ile dikkat çekicidir. Ayrıca her zaman karşımıza çıkmayan hayat ağaçlı kuş figürlü kalem işi süslemesi yapı içerisine farklı bir görüntü katar.

II. Harrekan Kümbeti (1092-93) birinci ile aynı planı göstermekle beraber geometrik motiflerdeki zenginlik bakımından daha bir gelişmişlik sergiler. Elli farklı geometrik motifin kullanılmış olmasıyla neredeyse bu türün bezeme repertuvarı

niteliğindedir. Üçüncü örnek ise Demavend Kümbetidir (11. yüzyıl). Yüzeylerindeki plastik etkiyi çok iyi bir şekilde veren tuğla süslemeleri kendinden sonraki yapılara örnek olmuştur**).**

Nahçıvan'da inşa edilen mezar yapıları ile Anadolu'da inşa edilen mezar yapıları tarihsel olarak birbirine yakınlık göstermektedir. Ancak yapı malzemesi olarak farklılıklar göze çarpmaktadır.

Anadolu'nun en eski mezar anıtlarından biri Erzurum Emir Saltuk Kümbetidir (12. yüzyılın ilk yarısı**).**Plan açısından sekizgen bir yapı olsa da mimari elemanlarıyla farklılık gösterir. Türk mimarisine uygun olmayan bu elemanlar bu yapının dışında bir daha bir arada kullanılmamıştır.

Anadolu'daki mezar anıtlarının çoğunluğu taş malzeme ile inşa edilmiştir. Sayıları birkaç taneyi geçmeyen tuğla malzemeli olanları da Nahçıvan ve Meraga mezar anıtlarıyla benzerlik gösterir. Bu da göstermektedir ki yapıların inşasında sürekli bir usta, malzeme ve bezeme alışverişi olmuştur.

Şimdi örneklerle birlikte bu yakınlığı ortaya koymaya çalışalım.

**1. Nahçıvan Yusuf bin Kuseyr Kümbeti:** Girişin üzerinde yer alan üç satırlık kufi hatlı kitabede "Bu meşhed hoca, en büyük reis, dinin süsü, şeyhlerin başkanı Bezzaz Yusuf bin Kuseyr'indir 557(1162) Şevval ayında vefat etmiştir", usta kitabesinde ise "Ameli Acemi b. Ebubekir El Benna en-Naşevi (Naşevalı)" yazılıdır[5]. Dolayısıyla adı, tarihi ve ustası bilinen bir eserdir**.**

Yusuf bin Kuseyr'in Anadolu'daki en yakın benzeri Erzincan Kemah'taki Melik Gazi Türbesi'dir. Anadolu'nun ilk fatihlerinden olan Mengücek Gazi'nin hayatı hakkında detaylı bilgi maalesef yoktur. Mezarda yatan kişinin kimliği tam olarak bilinmemektedir. Ancak bu yapı öteden beri Mengücek Gazi'ye atfedilmektedir. Yapıda yer alan usta kitabesinde Ömer bin İbrahim et-Taberi adı okunmaktadır. İsimden dolayı İran'dan gelen bir usta olduğu ortaya çıkmaktadır.

Mengücek Gazi'nin vefatından sonra onun adına yapıldığı anlaşılan bu mezar anıtının malzeme, plan, kitabe ve özellikle mezar odasındaki (serdabe) ayaktan dolayı Nahçıvan ve Meraga anıtlarıyla etkileşimi görülmektedir. Bu nedenle bu yapıyı Meraga Kümbeti Surh (1147) ile Nahçıvan Yusuf bin Kuseyr Kümbeti (1162) ve Nahçıvan Mümine Hatun Kümbeti (1186) mezar odalarıyla karşılaştırarak 12. yüzyıl ikinci yarısına veya sonlarına vermek doğru olacaktır.

**2. Nahçıvan'daki bir diğer önemli eser Mümine Hatun Kümbetidir.** Atabey Türbesi veya Han Kulesi olarak da anılmaktadır. Gövdenin üst kısmında kûfi hatla tek satır olarak "Bismillahirrahmanirrahim. Emere bi binai haze'l meşhed el-Melik, el-Alim el-Adil el-Müeyyed el-mansur el-kebir Şemseddin nusretü'l-İslâm ve'l-müslimin…., Celâlü'd-dünya ve'd-din İsmetü'l-İslâm ve'l müslimin Mümine Hatun rahimh'-Allahi teala. M abi gerdim pes be-maned rüzgâr ma be miyrim in be-maned yadigâr ya Rab çeşmi be durgen" yazmaktadır[6]. Taç kapıyı kuşatan kûfi hatlı tarih kitabesinde 582 Muharrem (1186) ayında yapıldığı yazılmaktadır. Usta kitabesinde ise Nahçıvanlı mimar Acemi bin Ebubekir adı görülür. Ongen gövdesi ve mezar odasındaki ayağın varlığıyla Türk mezar anıtları içerisinde nadide bir eserdir. Acemi, Mümine Hatun Türbesi'nin süslemelerinde geometrik motifleri ustaca kullanmış, kûfi hatlı yazılarla bezemeleri birbirine uygun bir tarzda eşleştirmiş ve yazıyı motiflere başarıyla uydurmuştur[7]. Nahçıvan Mümine Hatun Türbesi kitabelerinin uzunluğu 500 m. civarındadır. Mümine Hatun Türbesi'nde yer alan dört madalyondan birindeki kompozisyon Anadolu örneklerindeki benzerliği ile dikkati çeker. Tercan Mama Hatun Türbesi (12. Yüzyıl sonu), Malatya Ulu Camii (1247-1274), Erzurum Çifte Minareli Medrese (14. Yüzyıl başı) ve Konya Beyhekim Mescidi örneklerindeki madalyon motifleri içindeki yerleştiriliş, uzantının nereden nereye geldiğini göstermektedir**(Foto. 10)**. M. V. Alpatov türbe hakkında "12. Asır Azerbaycan ustalarının Nahçıvan'da yarattığı Mümine Hatun Türbesi, şarkın en güzel klasik eserleri olan Firdevsi'nin Şahnamesi, Nizami'nin Leyla ve Mecnun'u gibi ebedidir" demiştir[8].

Benzer örneğini Konya'da Alaaddin Cami avlusunda yer alan II. Kılıç Arslan Kümbetinde görmekteyiz. Kümbethane olarak da bilinen bu yapıda Anadolu Selçuklu Sultanlarından ve çocuklarından sekiz kişi yatmaktadır. Nahçıvan Mümine Hatun Kümbetiyle benzerdirler. Malzemeleri farklı olan bu iki yapının yöneticilere ait mezar anıtları olmaları ongen planın seçilmesinde bir anlamın olması gerektiğini düşündürmektedir. Mezar anıtının eski fotoğraf ve gravürlerinde görülen çifte minareli giriş kapısı da Türk Mimarisi açısından son derece önemlidir. A. Godard'a göre taç kapısında iki minarenin yer aldığı en erken tarihli örnekler Büyük Selçuklu döneminden Tabas'daki Medrese ile Ardistan'daki İmam Hasan Mescidi'dir[9]. Bu konuda farklı düşünceler olmakla birlikte, bu çifte minare geleneği Azerbaycan (Nahçıvan) yoluyla Anadolu'ya gelmiştir. Güney Doğu Anadolu'da Artuklular tarafından inşa edilen bazı

camilerde (Mardin ve Kızıltepe Ulu Camileri) iki minarenin inşa edildiği bilinse bile, bunlar Mümine Hatun Türbesi girişindeki çifte minareli taçkapı gibi ve daha sonra inşa edildiği bilinen Karabağlar manzumesinin girişi gibi taç kapıyla bütünleşmiş anıtsal görünümde değillerdir**.**

II. Kılıç Arslan Türbesi'nin taş malzemeli olmasına karşın gövdesinin üst kısmında yer alan lacivert zemin üzerine beyaz renkli harflerle yazılan kitabe belki de tuğla malzemeli örneklere bir gönderme olmalıdır. Mimarı Hocenli Abdulgaffar'dır. Bu da yine İran ile bir bağlantısını ortaya koymaktadır.İran'da Aras nehri kenarında yer alan XIII. yüzyıl eseri Duzan (Duzal) türbesi mimari ve plan açısından Mümine Hatun Türbesine benzer bir örnektir .

**3. Diğer bir benzer yapımız Gülistan (Cuga) Kümbetidir.** Kesik Kümbet, Cuga Türbesi olarak da anılan yapı 12-14. Yüzyıllara tarihlendirilmektedir. Bu yapının erken örneklerini Anadolu'da 13. Ve 14. Yüzyıl mezar anıtlarında görmekteyiz. Ahlat Kümbetleri, Kayseri ve Niğde mezar anıtları ile Erzurum ve Amasya Türbeleriyle aynı karakterde sayılabilir. Gülistan Türbesi, 13. Yüzyılın başlarında yapılmış olmalıdır. On iki yüzlü türbe, kırmızı kum taşından inşa edilmiştir. Mezar odası diğer Azerbaycan türbelerinden farklı olarak yer üstündedir.

**4. Bir başka örneğimiz Karabağlar Kümbetidir.** Karabağlar kentinin batısında bulunur. Karabağlar Zaviyesi olarak da bilinir[10]. Yapı kompleksinin çifte minareli taç kapısında sülüs hatla "Bu yapının yapılmasına Cihan Koday Hatun emretti" yazılıdır. Koday Hatun, İlhanlı Dönemi hükümdarlarından Abaka İlhan'ın sekizinci eşidir. Yapı Abaka İlhan'ın 1256-82 yılları arasındaki hükümdarlık döneminde inşa edilmiş olmalıdır[11]. Güneyde çifte minareli kapısı ve zaviyesi, kuzeyde ise türbesi yer alır. Türbenin cenazeliği dıştan onikigen, içten dört kolludur. Batıda girişi, diğer yüzlerde pencereleri vardır. Üst kat dıştan oniki dilimli, içten onikigendir. Üst örtüsü kubbedir. Girişin üzerinde bir yazıtı bulunur. Taş, tuğla, sırlı tuğla ve çini kullanılmıştır. Geometrik, bitkisel ve yazı süslemeleri bulunur[12].

Türbe Azimbekov'un okuduğu kitabeye göre 778/1376-77 tarihlidir[13]. Kerimzade de yapının mimarının Nahçıvanlı mimar Eyüp El Hafız bin Ahmed olduğunu söyler. Bu isim 1322 tarihli Berde Kümbetinin de mimarıdır **.** Aralarındaki benzerlik sebebiyle 14. Yüzyılın ikinci çeyreğinde yapılmış olmalıdır[14]. Özellikle Berde Kümbeti üzerindeki bir motif Prof. Dr. Hudu Memmedov'un dikkatini çekmiş, buna benzer kullanılan motiflerin

Kuvars adlı mineralin kristal yapısının tasviriyle aynı olduğunu belirlemiştir. Bu benzerliği nedeniyle tasarımdaki bu motiflere Memmedov tarafından verilen isimle bilimsel literatüre "kristalografik motifler" terimi dâhil edilmiştir. Yine Berde Türbesi üzerinde yer alan "Allah" lafzının silindirik gövde üzerindeki dizilişinin bir organik molekülün kristaldeki dizilişine benzediğine dikkat çekmiştir. Benzer motifler Karabağlar Kümbeti üzerinde, Hasankeyf Zeynel Bey Türbesi'nde de (15. Yüzyıl) yer almaktadır [15]. Karabağlar Kümbeti gövdesi üzerinde yer alan "Lailahe illallah Muhammedü'n-Resulullah sallalahu aleyhi" yazı istifinin düzenlenişi Berde Kümbeti'nden daha ileri bir seviyededir. Bu istifin benzerini 14. Yüzyıl İlhanlı sikkesi üzerinde de görebilmekteyiz[16].

Karabağlar Kümbeti, silindirik gövdelidir. Cenazeliği dört kolludur. İçte sivri kemerli nişler vardır. Anadolu'da Sivas'taki 1348 tarihli Eratnalılardan kalma Güdük Minare (Hasan Bey Kümbeti) ile Kayseri'deki yine Eratnalılara mal edilen 14. Yüzyıl eseri olan Sırçalı Kümbet de silindirik gövdeli olarak inşa edilmiştir. İran Azerbaycan'ında Argun Han'ın kızının kümbeti ile Erdebil'in batısındaki Hiyav'daki kümbetlerin her ikisi de 14. Yüzyıl silindirik gövdeli tuğla yapılardır[17]. Süslemeleri de Berde Kümbetine benzer. Nahçıvan mimari üslubunun devamıdır. Aynı mimarın Berde de Aksadan Baba türbe yapısı da vardır[18].

**5. Son örneğimiz Gilan Türbesi:** Üst kısmı yıkılmış, serdabesi kalmıştır. Kemah Mengücek Gazi Türbesi'nin (12. Yüzyıl) mezar odası ile aynıdır. Kemah'taki türbenin de Meraga Nahçıvan Mimarlık Mektebi üyeleri tarafından inşa edilmesi ihtimali güçlüdür. Sivas İzzeddin Keykavus Türbesi'nin ustası da Merend'lidir

Bunların dışında Nahçıvan'da başka mezar anıtları da vardır. Ancak bunlar sağlam bir şekilde günümüze ulaşamamışlardır.

Nahçıvan ve çevresinde Selçuklu Atabeklerinden İldenizliler ile başlayan mezar yapıları 12.-14. Yüzyıllar arasında kuzey ve güney Azerbaycan'da kuvvetle etkili olmuş, Anadolu'da da devamı görülmüştür. Bu yapı tipindeki yeni plan arayışları ve süsleme programları oldukça dikkat çekicidir[20]. Mezar anıtlarındaki bu zenginlik diğer yapı tiplerinde görülmez.

Acemi bin Ebubekir, Nahçıvan mimarlık mektebinin banisidir\. Büyük Selçuklu mimarlığına incelik ve dinamiklik getirmiştir. Tasvir sanatını ve mühendisliği mimarlıkla birleştirmiştir. Bu yüzden kendisine "Şeyhü'l-Mühendis" (Mühendislerin Başçısı) adı verilmiştir. Nahçıvan Cuma Mescidi ve Devlethane de onun eseridir. Bunlardan başka da

eserlerinin olduğu bilinmektedir. Acemi yaratıcılığı Azerbaycan ve yakın Doğu ülkeleri mimarlığına büyük tesirler göndermiştir. Meraga'daki Gök Kümbet (1196), Nahçıvan yakınındaki Gülistan Kümbeti (13. yüzyıl), Karabağlar Kümbeti (12-14. yüzyıl), Berde ve Selman Türbeleri (14. yüzyıl)[21].

Mimarı Sinan'ın (16. yüzyıl) İstanbul'da yaptığı türbelerde de Acemi'nin gelenekleri yaşatılmıştır. E. Diez, "Sinan'ın 1535-36 yılında Nahçıvan'a geldiğini ve Acemi mimarlık mektebini tanıdığını" belirtmektedir. 1926'da Gence'de Nizami'nin mezarı üzerine abide koyulurken yine Acemi'den istifade edilmiştir. Hatta şunu da söylemek gerekir ki, Aceminin Mümine Hatun mezar odasında kurduğu nervürlü kemer sistemi Avrupa sanatından bir asır öncelere rastlar[22].

Orta Asya'da başlayan Türk mezar yapı geleneği Büyük Selçuklular zamanında ilkeleri konulan bir yapı formuna kavuşmuştur. Anadolu'ya gelen Türkler bu geleneği Azerbaycan ve özelliklede Nahçıvan üzerinden taşımışlar, bu bölgede ortaya konulan mezar anıtları ve anıtsal çifte minareli giriş kapıları olgun örnekler oluşturmuşlardır. Anadolu'da Selçuklular tarafından gerçekleştirilen çifte minareli taç kapılar ve mezar anıtları tuğla malzemeleri ve formlarıyla Büyük Selçuklu ve Azerbaycan yolunun devamını oluşturmaktadırlar. Bu devamlılık sadece malzeme ve form açısından değil; tuğla, sırlı tuğla, çini mozaik ve bezeme unsurlarıyla da etkisini göstermektedir. II. Kılıç Arslan Türbesi, Kemah Melik Gazi Türbesi ve Sivas İzzeddin Keykavus Türbesi'nde karşımıza çıkan Anadolu dışından gelen sanatçıların adları, birlikteliğin ve içli dışlılığın hangi düzeyde olduğunu ortaya koymaktadır. Öyle ki mezar yapılarında kullanılan yazıtların dilleri de aynı duyguları paylaşır. Mümine Hatun Türbesi üzerinde Acemi Nahçıvani'nin yazdığı şiir, Anadolu'da Sivas İzzeddin Keykavus türbesi cephesinde ve günümüzde mevcut olmayan I. İzzeddin Keykavus'un sandukası üzerinde tekrar ses bulur. Mümine Hatun Türbesi'nde yaşayanla için ibret dolu sözler şöyledir:

"Biz gideriyiz. Dünya ebedi kalandır.
Biz gideceğiz. Dünya kalacak
Biz ölürüz. Bu bizden hatıra kalır.
İlahi, bed nazardan uzak eyle"[23].

İzzeddin Keykavus'a mal edilen sözler ise şöyledir:

"Bu cihanı ki terk edip gittik.
Rencini dilde berk edip gittik.

Şimdiden sonra nevbet erdi size,

Nitekim evvel ermiş idi bize"[24].

Ayrıca aynı türbenin cephesinde de şunlar yazılıdır:

"Bu daracık mezarlara girmek üzere geniş saraylardan çıkarıldık. Ne yazık ki, (bu ölüm hadisesinde) zenginliğimin bana faydası olmadı, saltanatım mahvoldu. Çok çabuk, geçici olan dünya malından el çekip de ahirete intikal ve göçüş olayı 617 senesinin şevval ayının dördüncü günü gerçekleşti." Bu sözler göstermektedir ki taşınan, aktarılan sadece maddi veriler değil, manevi duygular da benzer şekilde taşınabilmiştir.

## Kaynakça


1. Alakbarlı, Aziz, Monuments of the Western Azerbaijan, Bakü, 2006. Aslanapa, Oktay, Kırım ve Kuzey Azerbaycan'da Türk Eserleri, İstanbul, 1979.
2. Denknalbant, Ayşe, Osmanlı Öncesi Türk Mimarisinde Çifte Minareli Cephelerin Gelişimi (Anadolu, İran, Azerbaycan, Hindistan), İst. Ünv. Y. L. Tezi (Yayınlanmamış) İstanbul, 2010.
3. Kaçın, Bülent, Selçuklu Hatunları, Bilge Kültür Sanat, İstanbul 2017.
4. Kürkçüoğlu, Erol, Nahçıvan Tarihi (V. XV. Yüzyıllar), Erzurum 2007.
5. Memmedov, Hudu, Emirarslanov, İmameddin, Necefoğlu, Hacali, Aydın Mürseliyev, Nahışların Yaddaşı, Türk Dünyası Araştırmaları Vakfı, İstanbul 1996.
6. Nahçıvan Abideleri Ansiklopedisi, Nahçıvan, 2008.
7. Nahçıvan Ansiklopedisi, Bakü, 2002.
8. Nahçıvan: Türk-İslam Medeniyeti Abideleri, Nahçıvan 2017.
9. Necefoğlu, Hacali, "Nahçivan Abideleri", Tarihi ve Çağdaş Nahçivan, İstanbul, 2016.
10. Önkal, Hakkı, Anadolu Selçuklu Türbeleri, Ankara, 2015.
11. Safarli, Hacıfahreddin, Nahçıvan Türk-İslam Medeniyeti Abideleri, Nahçıvan, 2017.
12. Salamzade, A.B., Mamed-zade, K.M, Azerbaijan Architectural Monuments of the Nakhichevan School, Bakü 1985.
13. Tarihi ve Çağdaş Nahçıvan, Araz Yayıncılık, İstanbul 2016.

14. Top, Mehmet, "Selçuklularda Kümbet Geleneği ve Ahlat Kümbetleri", II. Uluslararası Ahlat-Avrasya Bilim, Kültür ve Sanat Sempozyumu, Bitlis 2013, 202-2017.

15. Tuncer, Orhan Cezmi, Anadolu Kümbetleri I, Ankara 1986.

16. Yazar, Turgay, Nahcivan'da Türk Mimarisi (Başlangıcından 19. Yüzyılın Sonuna Kadar), Ankara, 2007.

Yurttash H.

**Summary**

**Nakhchivan grave buildings among Turkish tomb monuments**

The article is about jewel of architecture built in the Middle Ages in Nakhchivan. Also, tombs and towers built on the territory of other Turkic peoples have been compared with architectural monuments of Nakhchivan. Common features of each architecture have been mentioned. Ancient monuments of tombs on the territory of Nakhichevan are also widely disclosed in the article.

Юртташ Г.

**Резюме**

**Гробницы среди памятников архитектуры Нахичевани**

Статья повествует о средневековых жемчужинах архитектуры, построенных на территории Нахичевани. Также, было проведено сравнение гробниц и башен, сооружённых на территория проживания древнетюрских народов, с памятниками архитектуры Нахичевани. Были отмечены черты каждых из этих образцов архитектуры. В статье также широко раскрыты древние памятники гробниц на территории Нахичевани.

**Mustafayeva Nurlanə Musa qızı**

*Azərbaycan Dillər Universiteti, Azərbaycan*

## AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN SİYASİ BANİSİ HEYDƏR ƏLİYEV

***Açar sözlər :*** *multikulturalizm, tolerantlıq, azərbaycançılıq*

***Key words****: multiculturalism, tolerance, Azerbaijanism*

***Ключевые слова:*** *мультикультурализм, толерантность, азербайджанизм*

Bildiyimiz kimi multikulturalizm cəmiyyətimizin əsrlərdən bəri gələn həyat tərzi və dünyagörüşüdür. Belə ki, multikulturalizm - müxtəlif xalqların vahid cəmiyyətdə birgəyaşayışı və həmrəyliyi modelidir.

Multikulturalizm - müxtəlif mədəniyyətlərin qarşılıqlı etimada əsaslanan dialoqu, dinlərarası münasibətlərdə tolerantlıq nümunəsi, ölkənin siyasi-mənəvi zənginliyinin əsas göstəricilərindən biridir.

Azərbaycanda multikultural həyat tərzinin qədim tarixi və böyük ənənələri vardır. Ən qədim zamanlardan bizim ölkəmizdə müxtəlif xalqların nümayəndələri birgə yaşamış, bunun sayəsində dərin dostluq və qarşılıqlı əməkdaşlıq mühiti formalaşmışdır.

Müasir tariximizdə isə Ulu öndər hakimiyyətə gəldikdən sonra Azərbaycanın xarici və daxili siyasətində köklü dəyişiklər baş verdi. Ulu öndərin siyasəti məhz multikultural, tolerant və humanist dəyərlərə əsaslanırdı. Bu siyasət ölkəni tüğyan edən vətəndaş müharibəsindən qurtardı, hətta tolerant, multikultural dəyərləri bir model kimi formalaşdırdı. Bu siyasət Azərbaycanın dövlət siyasətidir. Heydər Əliyev Azərbaycanın bütün qonşu xalqlarla, xüsusən ermənilərlə mehriban münasibətlərinin saxlanılmasına tərəfdar olan Heydər Əliyev bundan ötrü bütün mümkün vasitələrdən istifadə edirdi [Qasımlı, 2006, 553]. Bununla yanaşı, müəyyən erməni dairələrinin antiazərbaycan siyasətini dərindən bilərək fəaliyyətində sözçülükdən istifadə etmədən, qətiyyətli praktik işlər görərək ona qarşı amansızlıqla mübarizə aparırdı. Bu fəaliyyətində o daha çox beynəlmiləlçilik şüarlarından istifadə edirdi. Heydər Əliyev Ermənistanın Azərbaycana olan əsassız ərazi iddialarının qarşısını qətiyyətlə kəsmiş, hətta torpaq ərazilərinin bir qisminin verilməsinə dair əvvəllər qəbul olunmuş qərarları yerinə yetirməkdən imtina etmişdir.

Ümummilli lider dini etiqad azadlığının təminatçısı, milli-mənəvi dəyərlərin qoruyucusu olmuşdur. İslam dinini, provaslavlığı və iudaizmi özündə birləşdirən "Üç qardaş" təşkilatının məhz Azərbaycan Respublikasında fəaliyyət göstərməsi multikultural mədəniyyətin daşıyıcısı olan dövlətimizin tolerantlıq ənənələrinə hörmətlə yanaşmasının bariz nümunəsidir. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir və tarixən formalaşan bu tolerantlıq Azərbaycan cəmiyyətini formalaşdıran gözəl bir ənənəyə çevirmişdir. Heydər Əliyev Azərbaycanda yaşayan dini icmalara qarşı həmişə

hörmət və ehtiramla yanaşmış, onların dini bayramlarını təbrik etmiş, adət-ənənələrinə qayğı göstərmişdir. İştirak etdiyi bütün beynəlxalq tədbirlərdə tolerantlıqla bağlı fikirlərini bildirmiş, qloballaşma dövründə dinlərarası, mədəniyyətlərarası dialoqa həmişə üstünlük vermişdir.

XX əsrin sonlarında multikulturalizmi dövlətçilik ideologiyası formasına gətirən Heydər Əliyev bu ideologiyanın ən gözəl izahını 2001-ci ildə noyabrın 9-da Dünya Azərbaycanlılarının Birinci Qurultayında çıxışı zamanı "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!". Ulu öndər dünya azərbaycanlılarını öz milli-mənəvi dəyərlərini unutmamağa, bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideologiyası ətrafında birləşməyə çağımışdır. Bu kəlam Azərbaycan coğrafiyası daxilində yaşayan müxtəlif mədəniyyətlərin birliyinə təkan vermişdir. Bu həmrəyliyin əsasını da tolerantlıq, multikulturalizm təşkil edir.

Müstəqillik dövründən bu günə kimi həyata keçirilən bütün islahatlar bu siyasətin daha da möhkəmlənməsinə və inkişaf etməsinə xidmət edir. Bu gün artıq Azərbaycan multikulturalizmi bir model kimi formalaşmışdır. İlk dəfə Ulu öndər multikulturalizmi Azərbaycançılıq siyasətinin tərkib hissəsi kimi təqdim etmişdir. Azərbaycançılıq ideyası- Azərbaycan xalqının siyasi, iqtisadi, sosial və mədəni yüksəlməsinə xidmət edən bir ideyadır.

Azırbaycan xalqının milli azadlıq uğrunda mübarizəsi tarixi Azərbaycançılıq ideyasının formalaşması prosesi ilə bağlıdır. Ulu öndərin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi ən böyük tarixi xidmətlərdən biridir.

Azərbaycançılıq ideologiyası Aərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin, multikulturalizmi iflasa uğratmaq siyasətinin qarşısında güclü sipər oldu. Azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədəki bütün etnosların həmrəylik və anlaşma içində birgəyaşayışının tarixi təcrübəsidir.

